**RƏŞAD TAHİROĞLU**

*"Qərbi Zəngəzur bizim tarixi torpağımızdır, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik. Kiminsə siyasi maraqlarının girovuna çevrilə bilmərik. Gəlsinlər açsınlar tarixi sənədləri, xəritələrə baxsınlar. Sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib, bu yaxın tarixdir. 101 il əvvəl... İrəvan bizim doğma torpağımızdır. Göyçə bizim doğma torpağımızdır. Zəngəzur bizim doğma torpağımızdır"!*

**Azərbaycan Respublikasının prezidenti,**
**Cənab İlham Əliyevin**
**2021-ci ildəki çıxışından**

# HAQDAN AXIDILAN QAN

## *çoxhissəli roman*

**III KİTAB – ƏLVİDA ULUSOY**

**BAKI – 2021**

**Redaktor:** **Nəcibə İlkin**
*şair-publisist,*
*AYB-nin, AJB-nin üzvü*
*Prezident mükafatçısı*

**Rəşad Tahiroğlu. Əlvida Ulusoy.**
**Bakı, "Gənclik" nəşriyyatı, 2021, 348 səh.**

*Gənc alim, yazıçı Rəşad Tahiroğlunun qanlı tariximizin keçmişindən bəhs edən "Haqdan axıdılan qan" romanı son 200 ildə baş verən hay-erməni problemi, bu böyük planın pərdə arxasında olan görünməz "baş oyunçuları", onların türk-islam dünyasına etdikləri səlib yürüşləri və min illərdə gizlədərək silmək istədikləri ön türk-türk tarixindən bəhs edən çoxhissəli kitabdır. Müəllif bu romanla çoxlu faciələr yaşamış tariximizin qan yaddaşını səhifələyir və oxuculara qanlı tariximizi xatırladır.*

**ISBN 978-9952-8393-2-6**

**© Rəşad Tahiroğlu, 2021**

**MÜNDƏRİCAT**


Müqəddimə ....................................................................3
Burada bir Axıska vardı ...................................................6
Pozulmuş qan ...............................................................37
İgidin qanı axarkən belə xalqı üçün ağlar ..........................53
Tələ ..............................................................................64
Sakit nəsili və Cağat cinsi at ...........................................74
Min illər bir qatara sığarmı ...............................................93
14 noyabr 1944-cü ilin xülasəsi ......................................104
Vətənsiz millət, millətsiz vətən .......................................114
Türkün yurdu gürcüyə qaldı .......................................... 128
Unutmayın Kərəmi .........................................................149
Nazan ...........................................................................160
Balış altındakı qətil ...................................................... 164
Qazax torpaqlarının verilməsi hay-küyü .......................... 174
Korlar şəhəri ................................................................ 190
Yenidənqurma .............................................................. 204
Kərəm olmaq istəyirəm .................................................. 211
Vətənimi dadan çinar ağacı ............................................ 218
Gözləyəcəm ...................................................................227
Sovet Ordusu bizi qoruyur ..............................................234
«Beynəlmiləlçilik, hümanizim» ermənicə ......................... 246
Ulusoyda son Novruz ..................................................... 259
Üzləşmə .........................................................................281
Sakit .............................................................................288
Dəli Kamil .....................................................................295
Keçmişlə gələcəyin qırılması ..........................................335
Əlvida Ulusoy ...............................................................342

# MÜQƏDDİMƏ

Bu romanlar silsiləsi son 200 ildə baş verən hay-erməni problemi, bu problemi yaradan böyük planın pərdə arxasında olan görünməz "baş oyunçuları", onların türk-islam dünyasına hələ də etdikləri səlib yürüşləri və gizlədərək silmək istədikləri minlərlə illik öntürk-türk tarixindən bəhs edir. "Haqdan axıdılan qan" çoxhissəli romanının I kitabı "Ulusoy", II kitabı "Yaşarkən öldürülənlər" və III kitabı "Əlvida Ulusoy" adlanır. İlk iki kitab nələrdən bəhs etmişdir və III kitab niyə yazılıb, nədən danışır?

1828-ci ildə Çar Rusyanın (Azərbaycanın o günkü dövləti) Qacarları, 1829-cu ildə Osmanlını məğlub etməsindən sonra bağlanan sülh müqaviləsinin bəndlərinin birinə əsasən həm Qacarlar, həm Osmanlı Suriyada, Fələstində, İraqda yaşayan hayların Trabzon, Van, Qarabağ, İravana, Axıska ərazilərinə köçürülməsini həyata keçirməyə məcbur oldular. İngiltərə, Fransa, Rusiya, Avistirya-Macarıstan, İtaliya kimi 5 böyük xristiyan dövləti Şərqi Anadoluda hay-erməni dövləti quraraq günümüz Türkiyə və Azərbaycan dövlətləri arasında bir tampon dövlət yaratmaq istəyirdi, lakin bu məsələ I Dünya Müharibəsinə qədər uzandı. I Dünya müharibəsi zamanı Osmanlı ilə vuruşan Çar Rusiyası, Fransa, İngiltərə ordusunun tərkibində hay-ermənilərdən istifadə etdi, fransa və ingilis ordusu Fələstin, Suriya haylarından könüllülər topladı və ərazidəki bütün hay-ermənilər silahlandırdılar, işğal etdikləri bütün şəhərlərdə, kəndlərdə hay-ermənilərin türk-müsəlimanları qətl etməsinə göz yumdular. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti terorrist hay-ermənilərə qədim İravan xanlığını güzəştə getməyə məcbur oldu. Bu zaman Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 150 min kv. km.-dən 113,9 min kv. km-ə düşdü, cəmi iki il sonra Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal edilməsini

ilə Zəngəzurun Ermənistan Sovet Respublikasına verilməsi ilə, Azərbaycan Sovet Respublikasının ərazısı 86, 6 min kv. km. düşdü. Biz I və II kitabda 300 il yaşı olan bu böyük planın türk-müsəliman dünyasını necə alt-üst etməsini Ulusoy kəndinin timsalında gördük. Bu iki kitabdan məlum olur ki, minillik türk irsinin davamçıları olan ulusoylular 1948-ci ildə Mil-Muğan ərazilərinə köçürülür, lakin Mərdanın babası Səməd kişi onları vaxtı ilə hay-ermənilər tərəfindən xaraba qoyulan Soylu kəndinə gətirir və onlar 1988-ci ilə qədər orada yaşayır.

III kitabmız "Əlvida Ulusoy" adlanır. Bu hissənin adı niyə belə adlanmışdır?! 1948-ci il köçündən canlarını qurtararaq İrəvanda qalmağı bacaran ulusoylular 1988-ci ildə hara gedirdilər, niyə gedirdilər?! Ümumiyyətlə, onlar Ulusoydan gedə bildimi, ya "əlvida Ulusoy" sözünü deyən kim idi?!

Hə, əziz oxucu, Mərdan kişinin gəlini Solmazı tanıyırsanmı?! Solmazın doğumu olduqca çətin keçəcəkdi, həkim Solmazı qurtara bilmək üçün ana bətnindəki körpəni doğramaq istəyəcəkdi. Bunu eşidən Solmaz bütün gücünü toplayaraq həkimə deyəcəkdi ki, "məni qurtarmaq üçün körpəyə nəsə etsən əlimdən qurtara bilməzsən", Allahdan həkim son anda həm Solmazı, həm onun körpəsini qurtara bildi. Mərdan kişi bu körpəyə Nazanın adını verdi. Nazanını yenidən yaşatmaq istədi. Əziz oxucu, körpə Nazanın son aqibətini bilirsizmi?!

Günümüz Gürcüstan Respublikasının ərazisində Axıska türkləri yaşayırdı. 1944-cü ildə Sovet hökuməti onları iki saat içində toplayıb Qazaxıstan, Özbəkistan çöllərinə sürdü. Onları min illik yurdlarından iki saat içində sürmüşdülər, bəs onların son aqibəti nə oldu?!

Əziz oxucu, sizcə bir türkün adı niyə Tengiz Alidzedir?! Koroğlu dastanını oxumuş olan oxucum, Koroğlu kimdir, Osmanlı dönəmində yaşamış Koroğlu niyə Osmanlı bəylərinə qarşı savaşmışdır?! Alevilər kimdir, qızılbaşlar kimdir?! Yanıq Kərəmi havasını eşitmisənmi, bəs Kərəm niyə yanır?! 1926-ci ildə Bakıda keçirilən türkioloji qurultay haqqında bir məlumatınız varmı?! Deyəsən suallar çox oldu, ən yaxşısı mən onlardan danışım…

# BURADA BİR AXISKA VARDI

*Adı bizim,  dadı başqasının.*
***Azərbaycan  atalar sözü***

*Nə adı qaldı, nə dadı qaldı,*
*Bizə o yurdlardan  tək acı qaldı*
***müəllif***

*Adı Rövşənmiş, Sor o oğlu,*
*Andı zəfərmiş, o Koroğlu,*
*Ayıl, hay düşmənmiş, Göroğlu,*
*Andın gecikmiş, qıl goroğlu…*
*Düratlı, Qıratlı Koroğlu,*
*Vur at, qır at hayı, Koroğlu!*

Orxan Solmazı maşına qoyaraq xəstəxanaya apardı. Mərdan bir xeyli maşının arxasınca baxdı, çönüb asta-asta addımlarla həyətə girdi və Azərə səsləndi:

– Azər gəl evə, darvazanı da ört.

Eyvana qalxıb masanın arxasında oturdu. Azər gəlib Mərdanın yanında oturdu, onun  qolunu qucaqladı, Mərdan onun saçını oxşadı, gözlərisə ilişib səmada qalmışdı, xəyalı illər əvvələ uçunurdu…

… Mərdan məktubu masanın üstünə qoyub Aslana səsləndi:

– Aslan gedək?

– Hə gedək.

Çölə çıxıb maşına mindilər. Aslan maşını sürərək dedi:

– Görürsən it uşağı qırdıqları hər şeyi təmir edir?!

– Hə, görünür hər şeyi ört-basdır edəcəklər. Sankı çaqqal kimi küçələrə tökülüşən, "Qarabağ, Naxçıvan bizimdir" deyib küçələrdə salamat qapı, pəncərə qoymayan bunlar deyildi. Qırılan şüşələri təzələyəcəklər, yazdıqları plakatları yığıb yandıracaqlar,

bəs öldürdükləri nə olacaq, Mənim Nazanım nə olacaq?! Mənim Nazanımı kim geri qaytaracaq?! Ölənləri torpaqla, diriləri hədə ilə, qırılan şüşələri təzələməklə ört-basdır edirlər! Ört-basdır…

– Hə, görünən budur! Amma bitmədi! Bunlar duran deyil! Bu onların uğursuz cəhdi idi, demək ki, növbəti ova hazırlaşacaqlar!

– Ova… – Mərdan Aslanın sözünü təkrarladı və dedi: – Sözə bax a, ov! Türk ovu. Düz deyirsən, bunlar türk ovuna çıxıb. Ov olduqca, ovçu dayanmaz! Görən biz neçənci ovuq?! – üzünü Aslana tutdu; – Bayaq bir gücünün əhvalatını danışacam deyirdin. Danış görək, bir gürcüdən bir türk necə olur?! – kinayə ilə gülümsündü.

– Əslində “bir gürcüdən bir türk necə olur” yox, “bir türkdən bir gürcü necə olur” deyə soruşmalıyıq! – Aslan da kinayə ilə gülümsündü.

– Yaxşı qoy sən deyən kimi olsun, de görək, bir türkdən bir gürcü necə olur?!

– Danışım da…– Aslan yandırdığı siqaretdən bir qullab alıb danışmağa başladı;

– Davada yaralanıb hospitala düşmüşdüm. Hospitalda yatarkən bir yataq qonşum da vardı,– Tengiz Alidze. O, Gürcüstanın Axalsix vilayətindən, Mexsetiyadan idi. Bu məkan adını təkrar-təkrar oxu ki, unutmayasan! Çünki bu məkanda yaşayan türklərdən artıq əsər-əlamət yoxdur.

– Niyə? – Mərdan hövsələsiz halda soruşdu.

– Niyə?– Səbr elə, danışacam. O, fəxrlə deyirdi ki, diviziyamızın adı «Gürçüstan diviziyası» olmasına baxmayaraq əsgərlərin yarısından çoxu türkdür, hətta ən öndə də vuruşan və öndə gedənlər də onlardı. Sözün düzü mən də o anda bu sözləri eşidəndə iftixar hissi keçirərək qürurlanmışdım. Bu günsə… – siqaretindən son qullabı da alıb maşının pəncərəsindən çölə atdı və dedi: – Onunla tanışlığım çox qəribə olmuşdur…

…Aslan çarpıyada uzanmışdı, gözü yol çəkirdi. Şəfqət bacısı onun yanındakı çarpayı qonşusuna rus dilində səsləndi:

– Tengiz Alidze iynə vaxtıdır, gəl.

Həmin oğlan rus dilində cavabladı:

– Yaxşı, gəldim. – Söhbət etdiyi yaralıya rus dilindı dedi, –

yaxşı sonra söhbət edərik. Azərbaycan dilinə yaxın bir ləhcə ilə deyinə-deyinə yatağına gəldi: – Bu qız da mərdimazardır lap, gəlməyə vaxt tapdı da, söhbətin gözəl yerində!

Aslanı təəccüb bürüdü, öz-özünə dedi:

– Sən Allahın işinə bax, gürcü olasan, amma özün-özünlə gürcü dilində yox, azərbaycan dilində danışasan. Çox qəribə məsələdir, burada bir sirr var, amma nə? Qoy şəfqət bacısı iynəni vurub getsin, bu sirri açacam, görüm bir nə məslədir?!

Şəfqət bacısı Tengizə iynə vurub gedəndən sonra Aslan onu səslədi:

– Bico* sən canın yaxına dur, səninlə işim var. – Onun yaraları sağalmadığından yerindən qalxa bilmirdi.

– Gəlməyinə gəlim də, amma bir də mənə bico demə, – deyib onun yatağına yaxınlaşdı.

Təəcübdən Aslanın az qala gözü kəlləsinə çıxdı, özü-özünə dedi:

– Əcəb işdir, bu nə danışır?! Adı Tengizdir, familiyası Alidzedir, yəni gürcüdür, amma azərbaycanca danışır, bico deyirəm, deyir elə demə, – ona baxaraq azərbaycanca dedi:

– Azərbaycanca tam danışırsan?! – Onun üzünə qəribə tərzdə baxdığını görüb, – Məni anlayırsan?!

– Əlbəttə anlayıram, amma sözünün canını anlamadım!

Aslan əlini-əlinə vurub gülümsündü:

– Bərəkallah! – Onun üzünə yenə təəcüblə baxdığını görüb, başını bulayaraq dedi, – Elə məndə heyrət içindəyəm…

– Niyə? Qardaş sən nə danışırsan? Mus-mus deyənəcən Mustafanı de görək!

– Aha mus-musuda bilirsən ki…

– Sən nə danışırsan? Kantuzyan var deyəsən? – Aslanın güldüyünü görüb bu dəfə o da güldü.

Aslan gülə-gülə dedi:

– Sən canın məni məsələdən agah elə görüm, nə vaxtan gürcü özü-özü ilə azərbaycanca danışır?!

Deyəsən o məsələnin nə yerdə olduğunu anlamadı:

---

* *“Bico” gürcü dilində “oğlan” deməkdir*

– Hangi* gürcüdür ki, azərbaycanca danışır? Başa düşmədim? – deyə soruşdu.

Aslan ofuldayaraq dedi:

– Deyəsən mənlə məzələnirsən, necə yəni hansı gürcü?! Sən gürcü deyilsən?! Sən gürcüdən danışıram?!

– Hə, indi anladım, mən gürcü! – ağır-ağır başını yırğalayaraq öz adını təkrarladı, – Hə, Tengiz Alidze, hə, bu məsələmi? – Üzündən hiss olunurdu ki, o niyəsə pərt oldu.

– Necə yəni, Tengiz Alidze məsələsi, bu sənin ismin deyilmi?

O gülümsəməyə çalışdı, amma bu çox sünii alındı, bir an duruxdu, sonra əlini oynadaraq dedi:

– Nə deyim qardaş, Tengiz Alidze, Tengiz Alidze, bu isim mənimdirmi, mənim deyilmi? Yaxşı sualdır. – İki əlinin də baş barmağı ilə "əla" işarəsini göstərdi, gözlərindəsə qəribə bir kədər vardı və çiyinlərini çəkərək dedi:

– Sözün düzü heç bilirəm! Bilmirəm! – Gözləri doldu.

Aslan bu hadisəyə bilmədi necə reaksiya versin, sözün düzü gülməyi gəlirdi, amma onun gözünün dolmasını görüb özünü sıxdı ki, gülməsin və dedi:

– Vallah sən məni əməllicə çaş-baş saldın! Mən dedim məsələni səndən öyrənim, sən məsələni aydınlaşdırmaq əvəzinə daha da dolaşıq vəziyyətə saldın! Necə yəni heç bilmirəm ki, Tengiz Alidze adı mənim adımdır ya yox? – Ağlına gələn fikirdən sevincək dedi, – Hə, kantuzya almısan, adını unutmusan hə?! Onda dur get baş həkimin yanına, de ki, mən azərbaycanca danışıram, gürcü deyiləm. Dur. Yəqin sənə şərti ad yazıblar, deyirəm də.

---

* (*Türkiyədə həldə «hansı» mənasında «hangi» sözü işlənir. Sovet dövləti Azərbaycan türkcəsinə barmaq etməzdən əvvəl Azərbaycan türkçəsində həm "hansı" sözü, həm "hangi" sözü işlədilmişdir. Azərbaycan şairi Səməd Vurğunun məhşur Azərbaycan şerindəki bir bənd indi belə yazılır:*

*Mən bir uşaq, sən bir ana,*
*Odur ki, bağlıyan sana.*
*Hansı səmtə, hansı yana*
*Ucsamda yuvam sənsən,*
*Elim, günüm, obam sənsən.*
*Azərbaycan Azərbaycan.*

Səməd Vurğun bu şerin orjinalında və bu şerin ilk nəşirlərində bu misrasa belə yazmışdır: «Hangi səmtə, hangi yana», yaşlı adamlar bunun şahididir. Bu söz sonra Sovet senzurası tərəfindən dəyişilmişdir.)

– Dayan qardaş! Bir nəfəs al! İmkan ver sözümü deyim. Nə kantuzyası? Nə şərti adı?!

Aslanı yenidən heyrət bürüdü:

– Yox? Bəs nə? Danış da! – Narazı tonla dedi.

– Qardaş atam mənə ad qoyanda Çingiz deyib, daha Tengiz yox. – O, əsəbindən dodaqlarını dişləyərək bir an durdu, dərindən nəfəs aldı, deyəsən əsəbini boğmağa çalışırdı, bəlkə də kövrəldiyini gizlətməyə çalışırdı:

– Mənim adım Çingizdir, soyadım Alıoğludur. Yəni bico deyiləm. – gülümsündü, amma pərt olduğu üzündən bəli idi. Niyəsə təkrarladı, – Yəni mən bico deyiləm! Bico deyiləm!

– Qardaş Çingiz Alıoğlu hara, Tengiz Alidze hara? Bu nə məsələdir?

Cingizin qəzəbindən üzü kül rəngi alsada, özünü o yerə qoymadı, qəzəbini boğaraq astadan dedi:

– Nə bilim, vətənimizi dartıb verdilər Gürcüstana, tengiz adlidzeləri də üstündə hədiyyə verdilər! – gülümsədi, özünü elə aparırdı kı, guya doğurdanda gülməli haldır.

– Hə, sənəddə səhv düşüb?! – Aslan yenə bir şey başa düşmədən soruşdu.

– Hə, ona oxşar bir şeydir! – Çingiz mızıldandı, ürəyisə qan ağladı: – Ay zalım heç bunu xatırlatmağın yeri idi. İt uşağı adımızı səhv salmayıb e, bizi səhv salmaq istəyirlər, zorla gürcü etmək istəyirlər! Bütün milləti səhvən gürcü kimi yazmaq olar?!

… Aslan Mərdana baxdı və dedi:

- Sən demə o gün o məndən çəkindiyindən ürəyini aça bilməyib, amma sonradan bərk dostlaşdıq. Bir gün məni qırağa çəkib ürəyini açdı. – Maşını saxladı, – Keçək evə, çay qoyum, söhbətin arxasını çay içə-içə danışaram.

Maşından düşdülər, Mərdan Aslanın arxasınca evə girdi:

- Çay qoy, amma danış görüm sonra nə oldu?! Hə, danış!

...Aslanla Çingiz hospitalın həyətində bir ağacın kölgəsində oturdular. Çingiz nədən başlayacağını bilmədiyindənmi, ya məhz söhbətə belə başlamaq istədiyindəmi Aslana belə sual verdi:

– Davadan sonra nə yapacan?

– Hələ sağ qalaq, sonrası Allah kərimdir, – son iki sözü pıçıltı ilə dedi.

– Yox mən ciddi deyirəm, davadan sonra nə yapacan?

– Sağ qalsam, yurduma qayıdacam, adı Ermənistan olsa da, izi bizim olan dədə-baba yurduma! Çoxlu övladlarım olacaq, övladlarıma ata-anamın, qardaş-bacılarımın adını qoyacam, qoy onların yerinə xoşbəxt həyat yaşasınlar! – Bir daha təkrar etdi, – Qoy xoşbəxt həyat yaşasınlar!

– Mən də sənə qonaq gələrəm o zaman, – gülümsədi, – ata-ananın ruhunu şad edəcək övladlarını öpüb-oxşaram.

– Hə gələrsən, biri-birimizə qonaq gələrik. Mən sizə lap çox qonaq gələcəm, amma bezmə! – Aslanın ağlından keçənlərə özü də qəhərləndi.

– Lap istəyirsən həp* bizdə qal! – Çingiz onun tutulduğunu hiss etmədən dedi.

– Yox həmişə sənin yanında qala bilmərəm, yurdumuzu tək qoya bilmərəm!

– Niyə əşi, qohum əqrabaya nə gəlib ki, niyə tək qalır, qoymazlar! – əlini Aslanın çiyninə vuraraq güldü.

Aslan uşaq sadəlövlüyü ilə dedi:

– Mənim qohum adına heç kimim qalmayıb! – özünü nə qədər tox tutmağa çalışsa da doluxsundu.

– Heç kim? – Çingizin səsi qırıldı, o düşündüyünün əksini eşidəcək bir möcüzə gözləyirdi, amma bu dünyada möcüzələr varmı ki?!

– Yandılar, kül oldular! Kənd qarışıq hamısı yandı kül oldu!

– Ermənilərmi? – Çingiz söhbəti kəsələşdirərək tam səmimi söhbətə keçdi.

– Hə, ermənilər, haylar! Sən haradan bildin?!

– Yazıq babam danışardı. – Baba sözünü ata mənasında deyirdi. – O, deyərdi, bala mən danışıram qulaq as, bil kimsən, düşmənin kimdir. Dediklərimi qulağında sırğa elə, amma heç yerdə danışma! Artıq heç dost da bəlli deyil, gözümüzü elə qorxudublar

* *“həmişə” sözünün sinonimlərindən biri, Türkiyədə işlək sözdür.*

düşmənə də düşmən deyə bilmirik! Deyərdi ki, çox pis zamanəyə düşmüşük, qardaşın qardaşa həsrət qaldığı, türkün yiyəsiz qaldığı, müsəlmanların kitabsız qaldığı günlərə düşmüşük!

– Yiyəsiz qaldığımız günlər?! Lap elə deyirdi?! İravana hayları gətirdilər, bəə Axıskada nə oldu ki?!

– Eynisi…

– Eynisimi?! – Aslan heyrət içində soruşdu.

– Hə, eynisi! Babam deyir ki, 1829-cu ildə Osmanlı ruslara məğlub oldu, beləcə türk yurdları olan Axıska, Mexseti hərbi qənimət kimi ruslarda qaldı. Bundan sonra ruslar Osmanlıya şərt qoyur ki, Suriya, Fələstin, Livan ətrafında yaşayan hayların Axıskaya da köçürülməsini təmin etsin və kim müsəlman təəbəsi kimi yaşamaq istəyir, üç il ərzində Axıskadakı, Mexsetidəki malını, mülkünü satıb köçsün Osmanlıya. Axıskada yaşayan türklərin, müsəlimanların bir hissəsi köçüb Osmanlı tərəfə getdi, qalanlarda rus əsarətində yaşamağa məcbur olur. Daha sonra, köçən türklərin, müsəlimanların əvəzinə iki qatı hayı gətirib yerləşdirirlər Axıskaya.

– Eynən İravandakı kimi! Dəhşətdir! Yaxşı ki, atan bunları bilir!

– O artıq yoxdur! 1928-ci ildə apardılar, nə öldüsünü bildik, nə qaldısını.

– Niyə?

– Dedilər ki vətən xainidir, xalq düşmənidir! Amma yazığın dilindən vətən, xalq sözü düşmürdü!

– Yoxsa doğrudur?

– Nə? – Çingiz həyacanlı və incik səslə soruşdu, elə düşündü ki, Aslan onun atasının vətən xaini olduğunu düşünür.

Aslansa onun düşündüklərini hiss etmədən, nə demək istədiyini izah etdi:

– Bizim kənddə Piri dədə deyilən bir aşıq vardı. Mən onun yanına saz dərslərinə gedirdim. Piri dədə çox yaşlı idi, saz dərsi üçün tələbə, zadda götürmürdü. Dediyinə görə onun nəticəsi Əliyə çox oxşayırdım, öldürülən nəticəsinə, mənə də ona görə dərs verirdi.

– Nəticəsinə nə olmuşdu ki?

– Daşnaklar hücum edib bütün kəndi qırıblar, qırılanlardan biri də onun ailəsi olub, o həmin ərəfədə Qazaxda toyda olduğundan sağ qalıb! Yüzü haqlamış Piri dədə deyirdi ki, uruslar bura gələndən bura qaynayan qazana dönüb, mən gözümü açandan görürəm ki, uruslar hayları dartıb gətirir bizim torpaqlara, aşıq olduğumdan İravanı, Zəngəzuru, Qarabağı, Naxçıvanı, Qazaxı qarış-qarış gəzmişəm, hamısının toyunda iştirak etmişəm. Hər yerdə eyni mənzərədir, it sürüsü kimi hayları gətirib yığıblar. Və deyirdi ki, bu yüz ildə görüb anladığım budur ki, biz bu torpaqlarda günbəgün azalırıq, haylarsa günbəgün artır, demək ki, bu urus bir gün bu torpaqları bizsiz qoyacaq! O, bu olanlara xristian oyunu deyirdi. – qəribə tərzdə Çingizə baxdı, – mənlə bu barədə tez-tez danışırdı, mən də yaşlı olduğundan sözlərinə fikir vermirdim. Axı onun dediyi bizim beynəlmiləl sovet siyasətinə üyğun gəlmirdi. Amma indi sən də belə deyirsən! İndi onu soruşuram, yəni Piri dədə düzmü deyir, bu bir xristian oyunudurmu?!

Aslan söhbətin təsirindən keyimişdi, qəlbi şiddətlə döyünürdü. Heykəli xatırladan sifətində onun canlı olduğu tək gözləri idi. Əsəbindən bozarmış, qranit heykəli xatırladan üzündən yaş damçıları süzülürdü.

Çingiz dodağını gəmirərək dedi:

– Qardaş rast ki, söhbət belə açıldı, qəlbimi dələn sirrimi sənə açacam!

– Nə sirri? – ürəyindəsə düşündü ki, mən niyə bu vaxtacan Piri dədəni havalanmış hesab etmişəm, o söhbət edəndə, niyə onu yola vermişəm!

– Rəhmətlik babam mənə Çingiz adını qoymasının mühüm bir səbəbi vardı. Çingiz xan monqol-tatar xaqanı hesab olunur, bu dövlətin başında manqol soyundan tayfalar olsa da, babam deyirdi ki, ordunun 90 faizi türklərdən təşkil olunubmuş. İslamı qəbul edən türklər geridə qalan türkləri özlərindən kənar hesab edib, onlara kafir mənasında "tatar" deyiblər, dışlanmış tatarlar da türk Tanrıçılıq inacına inanan manqollarla yoldaşlıq edir. Çingiz xan ordusunu, dövlətini türk törəsinə, adət-ənənəsinə uyğun qurubmuş. Babam deyir ki, Çingiz xan monqol xanı olsa da,

onun soyu türk olub, dışlanan bir çox tatar tayfası kimi onun tayfası da manqollarla qonşuluqda yaşamışdır, qız alıb, qız vermişdi, dillərində manqol boğazı yaranmışdı, lakin onun soyu Pirçi türklərindən olub!

– Pirçi türkümü?

– Hə, babam deyirdi ki, türklərdə "pir" sözü hərfi mənada "qardaş" mənasını versə də, tarix boyu bu söz "rəhbər", "qurtarıcı" mənasında işlənib, qədim türklər böyük dava uğrunda onları birləşdirən rəhbərə zaman-zaman "pir" deyib və bunlardan biri də Pirçi türkləridir. Borçalı da əslində "pirçi eli" deməkdir. Çingiz xanın sülaləsi də "Börüçin" adlanır. Atam deyirdi ki, tarixçilər qərəzli olaraq həm "Borçalı" sözünü, həm "Börüçin" sözünü qurd sözünün sinonimi olan "börü" sözü ilə əlaqələndirirlər, əslində hər iki söz "pirçi" sözü ilə bağlıdır və Borçalı türkləri ilə Çingiz xanın kökü eynidir. Bütün türklər kimi Çingiz xan da Tanrıya inanırdı və türk törəsi ilə hərəkət edirdi.

Aslan təəsüflə dedi:

- İşə bir bax! Piri dədə deyəndə türklər həmişə Tanrıya inanıb, odpərəst olmayıb, bu urusun oyunudu, yalanıdır, ona inanmırdım! O da deyirdi ki, mənim soyum, Borçalı türkləri ilə, Çingiz nəsili ilə bir kök olub! Mən də deyirdim bu havalanıb!

Çingiz başını bulayaraq dedi:

- O yox, biz havalanmışıq! Hamıya inanmışıq, tək özümüzünkülərə inanmamışıq!

Aslan heyfsilənərək dedi:

- Düz sözə nə deyim! Ermənilər demiş, müsəlmanın sonrakı ağılı! Bəs sonra, danış görək?!

– Onun əsl adı Teymuçin olub, xaqan olduqdan sonra qurultayda ona Çingiz adını veriblər. Çingiz sözü türk sözü olub "dəniz" deməkdir, dəniz sözünün qədim türkcəsi "teniz-tengiz" olub.

– Dəniz, Teniz, Tengiz, Çengiz! Hə. Bəs niyə dəniz adı?

– Türklər üçün dəniz sonsuz güc mənasına gəlirdi və bir də dənizlər idarə olunmazdır axı! Buna görə də Teymuçin böyük xan olduqdan sonra ona Çingiz adı verilib!

– Hə məntiqlidir! Bəs Temuçin adının mənası nədir, monqol sözüdür?!

– Əslində onun ilk adı da türk adıdır, Tümuçin, Teymur, temir, yəni dəmir deməkdi, babam deyirdi ki, türk dillərində D, T səsləri biri-birinə keçir, qədim türkçədə T səsi daha işlək olub.

– Hə, olduqca maraqlıdır! Bəs atan niyə sənə Çingiz adını qoyub?!

– O deyirdi ki, türkü param parça ediblər, torpaqlarımızı göz görə-görə haya, gürcüyə veriblər! Bu səbəbdən də atam da dünyaya meydan oxuyan Çingiz xanın adını mənə qoyub, umid edirdi ki, bir gün mən də onu kimi böyük sərkərdə olaram, türk xalqını zülmdən qurtararam və ya gizlədilmək istənilən tariximizi araşdıraram.

– Gizlədilmiş tarixmi? Nə tarixi? Mən bir şey başa düşmədim?! Bu söhbət getdikcə lap qəlizləşir!

– Mən haradanam? – özü də cavabladı, – Axıskadan, Mexsetidən. – Aslandan soruşdu: – Axıska nə demədir? Mexseti nə deməkdir? Hə? Bilirsən?

Aslan çiyinlərini çəkərək dedi:

– Bilmirən!

– Bəs indi orada kimlər yaşayır?

– Haylar, ermənilər, gürcülər və siz, yəni türklər. Dediyindən belə başa düşürəm.

Çingiz başı ilə təsdiqləyərək dedi:

– Hə Axıskada, Mexsetidə indi haylar, ermənilər, gürçülər və biz türklər yaşayırıq, bir də az sayda olsa da digər müsəlmanlar. Bəs görən Axıska nə deməkdir? Bəs Mexseti nə deməkdir?

– Maraqlı sualdır, nə deməkdir?

– Qədim türk boylarından biri "sak" adlanıb, atam deyirdi ki, saklar 5000 ildir tarix səhnəsində olan türk boylarındandır və onun da bir çox qolu olub!

– Sak türk boyudurmu, yunan qaynaqlarında "skif", "iskit" kimi keçən saklardanmı danışırsan?

– Hə, "skif", "iskit" adları saklara verilən yunan tələfFüzündən başqa bir şey deyil. Sakların bir neçə qolu olub, ağsak, masak, sam, samak kimi qolları. Bax Axıska da "ak sak – ağ sak" deməkdir, Mexseti isə "ma sak" deməkdir. Başa düşürsən Aslan, 5000 il yaşı olan sak türkləri var və Axıska və Mexseti onların

yurdlarından sadəcə ikisidir, amma artıq bu yurdlar yox olmaq üzrədir, indi bilirsən nə deyirlər, deyirlər bu torpaqların qədim sakinləri gürçülər olub, ermənilər olub, biz türklərsə gəlməyik! – Əsəbi halda dedi, – Bax belə, indi bizə deyirlər biz gəlməyik! Bax bizim tarixi belə gizlədirlər! 5000 min illik tarix silinməkdədir!

– Hə, indi xatırladım, məktəbdə deyirdilər ki, mexsilər gürcülərin bir qoludur və gürcü dilinin mexsi ləhcəsində danışırlar. – Aslan dedi.

– Hə, elə deyirlər, çünki onlar türk izlərini, sak izlərini silmək istəyirlər! Qazax rayonunda Aşağı Salahlı, Orta Salahlı, Yuxarı Salahlı, Daş Salahlı kimi kəndlər var, tarixçilər deyir bu kəndlər salahlı türk tayfalarının adı ilə bağlıdır, amma demir ki, "salahlı" sözü "ak sak – sak ak" sözündən başqası deyil, bax bunu demirlər. Qazax rayonunda I Şıxlı, II Şıxlı kimi kəndlər var, tarixçilər "şıxlı" sözü ilə "sak eli" sözünün arasındakı rabitəni görmür, bəzi tarixçilər isə bu rabitəni itirmək üçün deyir ki, Şıxlı kəndlərini Şəmkirdən gələn Şıxı adlı biri salıb, lakin onlar demir ki, Şəmkir, Şamaxı kimi şəhər adları da yenə Sak türklərinin bir qolu olan "sam ak" tayfaları ilə bağlıdır. Sən demə, salahlı "sak ak eli" deməkmiş, şıxlı "sak eli" deməkmiş, axıska "ak sak" deməkmiş, mexseti "mə(n) sak" deməkmiş, yəni biz 5000 ildən çox yaşı olan sak soyuyuq. Amma bu izləri itirmək istəyirlər…

– Demək bu üzdən bura hayları yığıb gətirirlər, İravana, Qarabağa, Axıskaya doldururlar, biz türkləri də buradan min yolla köçürürlər, qırırlar!

– Hə, eynən! Bayaq da dediyim kimi, 1829-cU ildə Osmanlının Rusiyaya məğlub olaması ilə Axıskanı, Mexsetini Gürcüstan sərhədinə qatdılar. Beləcə Axıska iki hissəyə bölündü, bir hissəsi Osmanlıda qaldı, bizi isə Çar Rusiyasına bağlı olan gürcülərin əsarətinə verdilər. Soydaşlarımızın bir hissəsi Osmanlı tərəfinə köçdü, bizsə ata-baba yurdlarımızı qoyub getmədik və Axıskaya və Mexsetiyə yüz minə yaxın hay köçürüldü. Cəmi yüz on ildir haylar Axıskaya köçürülüb, amma indi əksər tarixçilər iddia edir ki, Axıskada olan Axalkalaki qala şəhərinin adı ya gürcü, ya erməni dilində formalaşıb və "yeni şəhər" deməkdir, çünki həm gürcü, həm erməni dilində "kalaki" sözü şəhər deməkdir.

– Kalaki sözü türk dilindəki "qala" sözünə yaman bənzəyir.

– Əlbəttə, Aslan bənzəmiyib nə etsin, elə "qala" sözüdür də. Bax görürsənmi yüz ildir gətirdikləri haya 5000 illik sak tarixini qurban vermək istəyirlər.

– Bəs onda Akalkalaki sözünün mənası nədir ki?!

– Xal-xal sözünü eşitmisəni?

– Niyə eşitməmişəm, biz indi də heyvanları bir yerə yığdığımız yerə "xal-xal" deyirik. Amma deyəsən Qazaxda qədim bir hun şəhəri olub, Xalxal adında.

– Düzdür. – Qolunda bir xalı göstərdi, – Bax Aslan buna "xal" deyirik, suyun yığıldığı yerə "göl" deyirik, daşla hördüklərimiz şəhərlərə də ya "qala", ya da "xal-xal" demişik. Amma indi bizim şəhər adına başqa dillərdə izah axtarırlar. Tariximizi silirlər… Erməni haylaşdırdılar, alban türklərini gürcüləşdirdilər. Başa düşürsən Aslan, onlar türk ellərini türksüzləşdirir, günbəgün…

– Türk ellərini türksüzləşdirmək! – Aslan təkrarladı, – Nə qədər amansız səslənir!

– Hə, amansız səslənir, amma biz bu amansız həyatı yaşayırıq! Rusiya Osamanlını məğlub edərək bizim elləri öz ərazisinə qatdıqdan sonra Axıskaya hayları gətirib doldurdu, bizi sıxdıqca sıxdılar ki, bütün türklər köçüb getsin, amma biz qaldıq, ata yurdlarımızı qoyub getmədik! Fəqət hər gün bizi daha çox sıxışdırdılar! Hər gün daha çox türkün canını yandırdılar! Öz yurdumuzda yiyəsiz qaldıq, sahibsiz qaldıq, yetim qaldıq. – Çingiz kövrəlmişdi, – Ətrafımız türk yurdları idi, amma Axıska düşmənin vicdanına qaldı, düşməndəsə vicdan nə gəzir?! Axıskada, Mexsetidə türklərin hər günü zülm içində keçirdi və bu zülm I Dünya Müharibəsində ən son həddinə çatdı.

– Zülmmm? Necə yəni, izah et?! – Aslan hövsələsiz halda dedi!

– I Dünya Müharibəsi başladıqda Rus ordusu Gürcüstana endi. Osmanlı ordusu da həmin ərəfədə Qars-Batumi ərazisini nəzarətə götürdü, lakin 1915-ci illin yanvarında Osmanlı ordusu Sarıqamışda şaxtaya düşüb dondu, demək olar ki, bütün ordu məhv oldu və nəticədə rus ordusu bir güllə belə atmadan Qafqaz cəbhəsində qələbə qazanmış oldu, bundan sonra rus orudusu

Qars, Ərzurum, Trabzon kimi şəhərləri asanlıqla işğal etdi, həmçinin Sarıqamış uğursuzluğundan sonra Osmanlı ordusu Qafqazda üstünlüyünü itirdi, beləliklə rus ordusu Cənubi Azərbaycanı da işğal etdi. Rus ordusunun tərkibində gələn erməni əsgərləri və erməni quldur çətələri bütün bu ərazilərdə türkləri, kürdləri qırıb çatmağa başladı, ruslarsa bunları görməzdən gəlirdi. Hay-ermənilərin törətdiyi bu qətliamlar həm Osmanlı sərhədləri daxilində gedirdi, həm Azərbaycanda gedirdi, həm də Cənubi Azərbaycan sərhədlərinə sıçramışdı, eyni ilə Axıskada, Mexsetidə də türkləri və kürdləri qırırdılar. – Aslanın əlindən tutdu, – Dediyimi düz başa düş, düzdür hər yerdə türkü qırırdılar, amma sağ qalanların barı qaçmağa bir yeri vardı, amma biz Axıskada mühasirədə idik, qaça biləcək bir yerimiz yoxdu. Hər günü qorxu, hər günü təhdid… Bax mən bu hadisələrin tam ortasında dünyaya gəlmişəm. Bax bu səbəbdən atam mənim adımı Çingiz qoyub.

– Demək hər yerdə türkü qırıblar, kürdü qırıblar, Osmanlıda, Azərbaycanda, Cənubi Azərbaycanda, Axıskada, hər yerdə. Demək rus ordusu şəhərləri işğal edir, hay-erməni çətləri daraşır türkün, kürdün canına, quduz it kimi daraşırlar canımıza, niyə?! Bütün bu qətliamların səbəbi yalnız torpaqdırmı? Atan bu haqda nəsə deməyibmi? – Aslan eşitdiklərinin heyfini dişlərindən çıxarmışcasına var gücü ilə dişlərini qıcadı.

– Hə rus ordusu şəhərləri işğal edirdi, gətirdiyi hay-erməni əsgərlərini və silahlandırdığı hay-erməni çətələrini saldı türklərin, kürdlərin üstünə. Amma, tək rus ordusu belə etməyib. Atam deyirdi ki, fransız, ingilis ordusunun da tərkibində hay-erməni alayları varmış və da eyni qaydada onlar da Fələstin, Livya haylarını silahlandıraraq türklərin, kürdlərin qətliamını təşkil edib. Ev ev, kənd kənd qırıblar bizi, məmə deyəndən pəpə deyənəcən, hamını qırıblar.

– Səbəb türk olmaları, kürd olmaları idi... Hə?! –

– Həm hə, həm də yox!

– Necə yəni, "həm hə, həm də yox"? Qırılanlar türklər və kürdlər deyildimi? Başqa kimlər vardı ki, başqa kimlər?! Başa düşmədim.

Çingiz nəsə düşündü və Aslanın gözlərinə baxaraq izah etdi:

– Məsələ bilirsən necədir? – Əl-qolunu oynadaraq danışdı, – Atam deyirdi ki, vaxtı ilə Osmanlı dövləti türklərin bir hissəsini..., necə deyim, bir növ xəyanətdə günahlandırmışdı və həmin türk tayfalarının bəylərini, pirlərini, kişilərini qılıncdan keçirmişdi... Təxminən 400-450 il əvvəl...

– Xəyanət? Nə xəyanəti?! Osmanlı öz türkünü qırıb?! Heç nə başa düşmədim?! Sən hara gedib çıxdın? 450 il əvvəlmi?!

– İzah edim. Osmanlı dövləti qurulub gücləndikdən sonra yeniçəri ordusu qurdu, türklərsə bir növ arxa planda qaldı. Şah İsmayıl dövlət qurduqda isə ətrafdakı bütün türk bəyliklərini öz torpağına çağırdı. Başa düşürsən Aslan, türkləri arxa planda saxlayan Osmanlı və türk bəyliklərini öz dövlətinə səsləyən Şah İsmayıl, hansını seçərdin?! Bilirsən də Şah İsmayılın qurduğu dövlətə "qızılbaş" deyilirdi?!

– Hə, tarix dərsindən bilirəm, şah İsmayılın qurduğu dövlətə "qızılbaş" deyilib, şah İsmayılın tərəfdarları başına qırmızı çalma bağlayırdı, deyəsən bu səbəbdən...

– Hə, əlbəttə qırmızı çalma bağlayırdılar, bəs səbəb nə idi?!

– Qoy yadıma salım. – Aslan bir qədər düşündü və dedi, – Qızılbaşlar on iki imamın şərəfinə çalmalarını on iki zolaqlı qırmızı lent bağlayırdılar, hə belə oxumuşam. – Çingizin istehza ilə gülümsədiyini görüb soruşdu, – Nədir, elə deyil?!

– Eh, Aslan, Aslan! Bayaq nə dedim? Tariximiz gizlədirlər, silirlər, başa düşmürsən?!

– Yəni? Onda niyə onlara qızılbaş dedilər?

– Türk törəsinə görə türk pirləri başına qırmızı rəngli başlıq qoyurdu, bu adət min illər boyu belə olub, min illər dəyişmədən gəlib!

– Qırmızı başlıq! Səbəb? – Aslan əlini yelləyərək soruşdu.

– Qırmızı rəng türk inacında "günəşi" və "görməyi" ifadə edir. Bu səbəbdəndə türk pirləri, dədələri, hökmdarları başına qırmızı başlıq geyirdi, bununla da, "Tanrının hər şeyi gördüyünü və Tanrının törəsinə uyğun olaraq xalqı idarə etdiklərini" ifadə edirdilər. Belə bir söz var, "qor günəşim, gör gözüm, kor olsun, qırmızını görməyən gözüm".

Aslandan Çingizlə bərabər "“qor günəşim, gör gözüm, kor olsun, qırmızını görməyən gözüm" deyimini təkrarladı və pıçıldadı:

– Hə, Piri dədə bu deyimi hey təkrarlayırdı. Gör mən kimə "havalanmış" demişəm? Tək mənmi, bütün kənd... – təəsüflə dedi.

Çingiz başını bulayaraq ona baxdı və sözünə davam etdi:

– Şah İsmayılın atası Heydərin zamanında onun silahdaşları qırmızı çalma geyinməyə başladı, Şah İsmayıl isə Xorasan və Ərdəbil pirlərinə bağlı olan hər kəsin, yəni onu pirlər piri görən hər kəsin qırmızı çalma geyməsinə icazə verdi.

– Səbəb? – Aslan soruşdu.

– Şah İsmayıl bununla demək istəyirdi ki, ona, Ərdəbil pirinə, Xorasan pirinə bağlı olanlar haqq yolundadır, bu yolun yolçusu olmaq pirliyə bərabərdir.

– Tam başa düşmədim? Axı bütün bunların bizim mövzu ilə nə əlaqəsi?!

– Təlaşlanma... – Gülümsündü, – İzah edim. 15-ci əsirə gəlindiyində bir ərəblərin baxışı ilə formalaşan İslam anlayışı vardı, bir farsların öz baxışları ilə formalaşdırdığı İslam anlayışı vardı və bir də türklərin öz törələrinə, pir anlayışına üyğun formalaşdırdıqları İslam anlayışı vardı.

– Türk baxışı olan İslam anlayışı? – Aslan təəcüblə soruşdu.

– Səbrli ol. Dahası var. Lakin getdikcə Osmanlıda fars dili və ərəb din anlayışı ağır basmağa başlayırdı, belə bir vaxtda şah İsmayıl hər kəsə türk törəsində pirlərin geydiyi qırmızı başlığı geyməyə icazə verdi. Əslində ərəblərin, farsların türklərin dini baxışlarına görə apardıqları gizli və ideoloji savaşa qarşı sanki türklər "qızılbaşlıqla" cavab verdi və qızılbaşlıq hər kəsə elan olundu, beləliklə ərəb islamı "sünülük", fars islamı "şiəlik" və türk islamı "qızılbaşlıq" adlanacaqdı. Belə olan zaman Osmanlı təbəsi olan yüzlərlə türk tayfası tayfa pirləri kimi qırmızı başlıq geydi, bəziləri Osmanlıya üsyan etdi, bəzilərisə Osmanlı sərhədlərindən çıxıb Azərbaycana keçmək istədi, bəzi tayfalarsa artıq şah İsmayılın yanına getmişdi.

– Hə, indi aydın oldu. Şah İsmayıl bütün türklərin qızıl başlıq geyməsinə icazə verməklə əslində onları türk törəsini, türk pirlik yolunu qorumağa səsləmiş oldu.

– Hə.

– Amma bu türkləri iki cəbhəyə bölmürmü?

– Baxır məsələyə necə baxırsan! Bu hal ya türkləri iki cəbhəyə böldü və ya ikinci seçim şansı verdi. Amma hər iki halda bütün türklər uduzdu.

– Hə, indi bütün mənzərə tam aydın olur, osmanlı qızılbaşlığı qəbul edən türk bəyliklərini xəyanətkar hesab etdi və qılıncadan keçirdi.

– Təxminən?

– Təxminən deyərkən?!

– Düzdür, türklər şah İsmayılın çağrışı ilə qırmızı başlıq taxdı, amma şah İsmayıl yeni bir din, yeni bir fikir gətirməmişdi, bütün türk ağsaqqalları, pirləri şah İsmayıldan da qabaq qırmızı başlıq geyirdi. Və... – susdu.

– Və nə?

– Osmanlı türk tayfalarının Azərbaycana getməsinin qarşısını almaq üçün hər iki dövlətin sərhədləri boyunca, bu əraziyə gətirdiyi kürd tayfalarını yerləşdirdi və onlara türk qızılbaş tayfalarını qırmaqda tam səlahiyyət verdi, pirlərini, bəylərini, kişilərini qırdığı türk tayfalarınıda kürd bəylərinin tabeliyinə verdi. Beləcə yüzlərlə türk tayfası başsız qadı, atasız qaldı, ərsiz qaldı, qardaşsız qaldı, oğulsuz qaldı və kürdləşdi. – Hönkürərək təkrarladı, – Kürdləşdi. Birdə bu sözün altında yatan ağrını, acını, müsübəti görə bilsən... – susdu.

– Nə müsübətlər, de.

– Yox, Aslan, sahibsiz, kişisiz qalan türklərin başına nə gəldiyini deməyəcəm, bunu nə mənim, nə sənim mədəm qaldırar! Bir də ki, bu müsübəti anlamaq üçün ürək lazımdır, qulaq yox...

Hər ikisi susdu, bir müddət sonra Aslan soruşdu:

– Bəs sən bunları hardan bilirsən?! Yəni elə təfsilatı ilə bilirsən ki, ona görə deyirəm... – Çingizin doluxsunduğunu gördü, – İlahi sən də o tayfalardansan! Sən də qızılbaşsan... Hə?

– Hə mənim soyum da o tayfalardandır, oğuzların təkəli tayfasından. Atam o haqda hər gün danışırdı...

...Aləm biri-birnə qarışmışdı, bəzi  türk tayfaları Osmanlıya qarşı  baş qaldırmışdı, daha doğrusu onlar Osmanlı torpaqlarından Azərbaycana köçmək istəyirdilər, ordunun onlara mane olmaq istəməsi toqquşmalarla nəticələnmişdi, toquşmalarsa  ziddiyyəti daha da artırmışdı. Atalar sanki bu yerdə deyib, "at izi, iti izinə qarışıb", ordu onlardan, onlar ordudan nifrət edər hala gəlmişdi.

Görən ilk qılınc vurulmasa tarix fərqli ola bilərdimi? Olduqca asan sualdır, lakin cavab verilməsi isə olduqca çətindir, bəlkə də mümkünsüzdür. Şah İsmayılın bütün türkləri  pirlərə nisbət edərək qırmızı başlıq geyməyə səsləməsindən sonra Osmanlı sultanı da bəzi paşaları müvafiq ərazilərə göndərdi ki, vəziyyəti nəzarətə götürsünlər.  Bir çox  osmanlı paşası kimi, Lala bəy də bu səbəblə səfərə çıxmışdı,  səfərin üçünçü günü üzü şərqə doğru köç edən bir  oba ilə rastlaşdı, paşanın əmri ilə ordu karvanı mühasirəyə aldı. Paşa karvana səsləndi:

– Mən Osmanlı paşasıyam! Obanın başçısı kimdir?

– Mənəm paşa. – Yaşlı bir dədə arabadan enib paşaya tərəf yaxınlaşdı, – adım Qorludur.

– Hara gedirsiz belə?

– Paşa biz təkəli boyundanıq, yaylağa gedirik.

– Aha, demək təkəlisiz? Yaylağa gedirsiz, ya şahın yanına?!

– Şah kimdir, şeyx İsmayılımı nəzərdə tutursuz?!

– Demək, hələ bir də sizin şeyxinizdir?! – paşa rişxəndlə gülümsündü.

– Bax paşa, mənim soyum səlcuqlu ilə birlikdə gəlib bura, çiyin-çiyinə, savaşa-savaşa gəlmişik.

– İndi Osmanlı dövlətidir, Səlcuqlu yox.

– Paşa, sülalənin adı dəyişib, amma xalq həmin xalqdır, mən də həmin təkəlilərdənəm! Paşa, sən məni xəyanətdəmi günahlandırırsan?!  Aç xəzinə dəftərinə baxdır, mən hər il bu vaxtı bu yol ilə yaylağa gedirəm və   vergini də yaylaqda ödəyirəm.

– Sən İsmayıla şeyx dedin? – paşa bağırdı.

Qorlu dədə təmkinini pozmadan dedi:

– Sən də ona şah dedin. Min dənə İsmayıl var, amma  söhbət şahdan gedirsə şah deyilir, şeyxdən gedirsə şeyx deyilir! İndi nə edək paşa? Bizi niyə mühasirəyə almısan?!

– Sən şahın yanına gedirsən?

– Paşa dedim ki, yaylağa gedirəm! Yaylaq mövsümü başlamayıbmı?!

– Yalan danışma! – bağırdı. – Bəs başındakı qırmızı börk nədir? Demək qızılbaşsan?

– Paşa mənim soyum min illərdi qızılbaşdır, məgər bu təzə xəbərdir?! Mən bu obanın piriyəm, pirlərsə başına qırmızı börk taxır!

– Osmanlı ülamaları artıq başlarına ağ çalma taxır, bilmirsən?!

– Bilirəm! Amma mən ülama deyiləm, ərəb mollası da deyiləm, fars mollası da deyiləm, mən türk piriyəm, pirlərsə qırmızı başlıq geyir!

– Yalan danışma, sən şahın əmrinə görə qırmızı başlıq geymisən!

– Bax gör burada məndən başqa qırmızı başlıq geyən varmı?!

Lala bəy  tayfadakıları süzdü, kimsədə qırmızı başlıq görə bilmədi, amma yenə də qəzəbli baxışlarla  Qorlu dədəni süzdü:

– Bu dəqiqə bu börgü çıxarıb atacaqsan yerə, elə bu dəqiqə! – Qorlunun ona qəribə tərzdə baxdığını görüb, daha uca səslə bağırdı, – Çıxar dedim!

– Paşa bütün bunlar nəyə lazımdır? Osmanlı paşası öz təbəsinin ləyaqətini niyə alçaltmaq istəyir?!

– Çıxar dedim, – bağırdı.

Qorlu dədə bir orduya baxdı, bir obasının dəliqanlılarının əllərini qılıncın tiyəsinə aparmasına baxdı, bir qorxaraq ağlaşan körpələrə baxdı, bir qara və ağ  daylaqda oturan ekiz nəvələrinə baxdı, ehmalca börgünü çıxardı və dedi:

– Buyur paşa!

– Yox, o börgü yerə atacan və mən o börgü atımın nalları altında əzəcəm; – əsəgərlərinə bağırdı. – Mənə bir ağ çalma verin! Sən ağ çalma geyəcən, elə indi. – Deyəsən bununla da ürəyi soyumadı, əlavə etdi, – Qız, gəlindən qırx cariyə verəcən, hərbi qənimət kimi! – Gözü Qorlunun nəvələrinin mindiyi ağ və qara daylaqlara sataşdı, – Bu iki atı və bunu kimi qırx at verəcən!

– Osmanlı paşası öz təbəsinin qız, gəlinini cariyəmi edəcək?! Paşa  neçə at istəyirsən götür və icazə  ver gedək!

– Cariyələrin sayı yüz oldu! – Lala paşa dişlərini ağardaraq güldü, – A bədbəxt sizi mənim əlimdən kim alacaq! Şahın qulu olmağın axırı bax belə olur! Yezidi yox, Əlini seçəndə bax belə olur!

– Paşa, bizə bilirsənmi niyə təkəli deyirlər?!

– Niyə?

– Çünki biz türklər Tanrının təkliyinə inanmışıq, min illər boyu Onun təkliyinə inanmışıq. – Əli ilə səmanı göstərdi. Başını buladı və dedi; – Paşa mən Tanrını nə sultana görə, nə şaha görə tanımamışam. Mənim Xorasan pirinə də, Ərdəbil pirinə də böyük hörmətim var, amma mən o pirlərə görə də qızılbaş olmamışam. Bayaq bir söz dedin, dedin ki, daha Səlcuqlu yoxdur, Osmanlı var, bax sülalələr belə gəldi gedərdir, amma Tanrı və törəsi bakidir. Mən vergimi Osmanlıya verirəm, məni xəyanətdə günahlandırmayın. Neçə də at istəyirsən, götürüb gedin, Sultanın halal xoşu.

– Sən alevisən, səhv deyirəm?! Sən Əli tərəfdarısan?! Sən şahın qulusan! Kafir!

– Paşa, alevi "al evi" deməkdir, yəni "ocaq" deməkdir, "kökü bəlli olan" deməkdir, "Əli evi" demək deyil! Bəli mən aleviyəm, yəni mən ocağına sahib çıxanam, ocağı bəlli olanam.

– Sən Əli evini sevmirsən?! Həəəə?! Düzünü de. – Paşa bağırdı.

– Bəli mən Əli evini sevirəm, eyni ilə Abu Bəkiri sevirəm, Öməri sevirəm. Bunlar ayrı-ayrı şeylərdir paşa! Alevi "Əli evi" demək deyil!

– Bəs obanda Yezid adı varmı?!

– Yox bizim obada Yezid adı yoxdur! Yezid ordusu Hüseyni də qətl edib, mənim türk soyumu da! Mən Allaha və peyğəmbəri Məhəmmədə şəhadət gətirmişəm, Yezidə şəhadət gətirməmişəm.

– Vacib namazları neçə rükət qılırsan?!

– Gündə beş dəfə, iki rükət?!

– Niyə, zöhr (ikinci), əsr (üçüncü) və işa (beşinçi) namazı dörd rükət deyilmi?!

– Paşa mən namazı sultan üçün və ya şah üçün qılmıram,

Allah üçün qılıram. Və Allahın rəsulu ümmətinə beş vacib namazi qılmağı əmr edib və iki rükət olaraq əmr edib, əlavə iki rükət rəsulun qıldığı nafilə namazı olub və ona baxıb kimsə bu namazı qılmaq istədikdə deyib ki, məsciddə bu namazı qılmayın, istəyən gedib evində qılsın! Amma rəsulun vəfatından sonra bəziləri rəsuldan artıq rəsulluq etmək istəyib, bu sünnətləri də vacib hesab edib!

– Ərəblərdən artıq bilirsən namazı?!

– Mən namazı nə ərəb üçün qılıram, nə ərəbə bənzəmək istəyirəm! Mənim üçün din Quran və rəsuludur! Mən dini Qurandan və rəsulundan öyrənirəm, ərəbi nə edib, etməməsi mənə maraqlı deyil!

– Qoca sənin dilin yaman uzundur ha!

– Mən doğrunu söyləyirəm! Mən gördüyümü söyləyirəm.

– Başa düşmədim, mən yalan danışıram?! – Qılıncını sıyırıb Qorlu dədənin börk tutan barmaqlarını kəsdi və bağırdı, – Demək gördüyünü söyləyirsən?! Hamısını qırın, hamısını, bu qocanınsa gözünə mil çəkin, amma öldürməyin, qoy hamıya görk olsun. Sonra mindirin atının tərkinə, buraxın çıxıb getsin. – Əsgərlərin key-key dayandığını görüb bağırdı, – Alevilər kafirdir! Cənnət istəyən alevi öldürsün, alevilərin malı halaldır, amma onlardan əsir götürmək olmaz, nə istəyirsiz edin, amma sonra hamısını qırın! – Üzünü Qorlu dədəyə tutdu, – Mənim adım Lala bəydir, bir nəfər də olsun sağ qızılbaş buraxmayacam, bunu qulağında sırqa et!

– Sultan buna izim verməz! Sultan öz soyunu qırmaz...

– İzni elə sultan verib də... Türk bəyləri sizləri qırmaqdan uzaq durmaq istəyir, amma biz sultanın əmrini canla-başla yerinə yetirəciyik! Qızılbaşlıq sizə baha başa oturacaq. Sizin canınız da, malınız da halaldır... – Lala bəy qəh-qəhə çəkərək güldü. Gözü yenidən Qorlunun nəvələrinin mindiyi iki daylağa sataşdı, əsgərlərinə dedi, – Bu iki atı mənim üçün gətirin!

Biri-birinin üzünə baxan əsgərlərin bir qismi qılınclarını sıyırıb hücuma gecdi, təkəlilər də qılınclarını sıyırıb obalarını müdafiə etməyə başladı, savaş başladıqdan sonra tərəddüd edən əsgərlər də qılınclarını sıyırıb meydana atıldı.

Karvanda olan bütün kişilər qılıncdan keçirildi, qadınlarınsa ilk əvvəl namusu tapdanacaqdı, daha sonra öldürüləcəkdi. Qorlu

dədənin gözünə mil vurulduqdan sonra atının tərkinə mindirilərək çölə buraxdılar. Yolu tanıyan at Qorlu dədəni yaylağa apardı.

Qorlu dədənin böyük oğlu Rövşən öz dəstəsi ilə birlikdə bir həftə əvvəl yaylağa getmişdi ki, orada şərait qursunlar. Yaylaqda olanlar gördü ki, uzaqdan bir qaraltı gəlir, biri Rövşənə səsləndi:

– Bəy deyəsən bizimkilər gəlir! – Təəcüblə əlavə etdi, – Amma karvan görsənmir, cəmi bir atlı var!

Hamı qaraltı gələn tərəfə boylandı, hamı təəcüblə biri-birinə sual verirdi:

– Gələn kimdir?

– Bizimkilər deyil?

– Bizimkilərdisə bəs karvan hanı?!

Rövşən kimsəyə məhəl qoymadan atını minib qaraltı gələn tərəfə çapdı, atasına çatıb atdan düşdü, atasının gözünün milləndiyini görüb bağırdı:

– Ata! Ata. Kim edib bunu?!

– Oğul! Rövşən!

– Ata nə olub?! Anamgil hanı?! Oba hanı?! Xaçlılarmı edib?! Axı buralarda xaçlı nə gəzir?! – Atasına tuluğu uzatdı, – Ata su iç!

Qorlu bir az su içərək dedi:

– Hamını qılıncadan keçirdilər! Qız gəlinimizi isə... – hönkürərək ağladı, uşaq kimi ağladı, – Ləyaqətimizi, namusumuzu yerin dibinə soxdular!

– Xaçılarmı?!

– Yox oğul! Öz paşamız... Lala bəy...

– Paşamızmı?! Lala bəymi?! Bir paşa Osmanlı təbbəsinə hücum edir, sultandan qorxmurmu?! – Rövşən təəcübündən keyidi.

– Osmanlı qızılbaşları şah tərəfdarı hesab edir, ölümümüzə fərman verib, paşanın sözündən elə çıxır... – Qorlu dədə zarıdı.

– Sultan öz soyunun qətlinə fərman verib?! Namusumuzun tapdalanmasına da izn verib?! – hamı heyrət və təəsüflə dedi.

* * *

İki gün sonra heç nədən xəbəri olmayan vergiyığanlar Rövşəngilin yaylağına gəldi. Çadırda olan Rövşən atasının gözünə məlhəm çəkirdi. Rövşənin sağəli olan Barış çadıra girdi:

– Bəy vergi yığanlar gəlib!

– Vergi yığanlar?! – Rövşən kinayə ilə gülümsündü, – Atamın yaralarını bağla, – deyib ayağa qalxdı ki, çadırdan çıxsın.

Atası ona səsləndi:

– Bala qanı qanla yumaq olmaz! Mən öz qanımdan keçirəm.

Rövşənin gözü doldu, heç nə demədən gəlib atasının alnından öpdü, çadırdan çıxıb vergiyığanlara yaxınlaşdı. Qəribə tərzdə onlara baxdı. Hadisədən xəbəri olmayan vergiyığanlar:

– Salam Aleykum, biz sultanın vergi yığanlarıyıq! – dedi.

– Lap yaxşı! Demək sultanın vergisini yığmağa gəlmisiz?!

– Hə.

– Hər iyirmi qoyuna bir qoyun verəciyik, qaydalar dəyişməyib ki?!

– Yox, eynidir!

– Qızlardan vergi almırsız ki, ərə gedənə kimi cehizlərini hazırlasınlar, bəs bu qayda dəyişməyib ki?!

– Yox, bütün qaydalar eynidir! – Vergiyığanların başçısı Mehmet heç nə anlamadan dedi.

– Bəs kişilərdən aldığınız vergi artmayıb ki?! – Rövşən halını pozmadan yenə soruşdu.

– Yox, heç bir vergi artmayıb?! Əsas odur at vergisini az verməyəsiz!

– Aaa at vergisi... Niyə?

– Təkəli atları adla çağrılır, paşamız onları ən dəyərli atlar hesab edir!

– Demək təkəli atları ən dəyərli atlardır, bəs o atları yetişdirən təkəlilər...?!

– Başa düşmədim? – Məhmət təəcüblə soruşdu.

– Bəs iki gün bundan əvvəl öldürülən təkəliləri deyirəm, atlarımız qədər dəyərləri olmadımı?!

– Başa düşmədim kim kimi öldürüb?!

– İki gün əvvəl şərəfsiz Osmanlı paşası, obanın arxadan gələn bütün karvanını qırıb çatıb! Adı Laladır, daladır, nədir, bilmirəm, şərəfsiz Osmanlı paşası, qız-gəlin demədən hamını qırıb-çatıb, deyiblər bizim canımız da, malımız da halaldır, hərbi qənimətdir. O ölənlərin vergisini də vermək lazımdır?! – Rövşən istehza ilə gülümsündü.

– Sən Osmanlıya şərəfsiz deyirsən, ya paşasına?!

– İkisinə də... Sonra?! – Mehmet də, Rövşən də qılıncını sıyırıb qınından çıxardı, döyüş vəziyyəti aldılar.

Səsə ora gələn Qorlu dədə oğluna səsləndi:

– Rövşən biz yalnız düşmənə dəmir qılınc çəkirik, türkün türk üstünə dəmir qılınc çəkməsi günahdır! Unutmusan törəmiz nə deyir, düşmənə dəmir qılınc, soyuna taxta qılınc?! – Bir əlində tutduğu sazı, digər əlində tutduğu taxta qılıncı havaya qaldırdı.

Rövşən əlində olan dəmir qılıncı yerə atdı, atasına yaxınlaşıb, onun əlindən taxta qılıncı və sazı aldı və geri dönüb vergiyığanlara yaxınlaşdı. Hər kəs heyrətlə olanları izləyirdi. Rövşən yaralı şir kimi bağırdı:

– Demək bir Osmanlı paşası mənim obamı qırıb-çatır, qız-gəlinimin namusuna toxunur, digəri də vergi yığmağa gəlir?!

– Biz yaylaqda kim var onların vergisini alacıyıq!

– Aha, maraqlıdır? Bəs öldürülənlərin aqibəti nə olacaq?! Məni qorumayan dövlətə mən vergi verəcəm?! Ya biz vergi veririk ki, sultan öz soyunu qırsın?!

– Sən Osmanlı torpaqlarında yaşayırsam! Bunu unutma!

– Bu torpaqlarda osmanlı qədər mənim soyumun da haqqı var! Mən öz torpağımda yaşayıram. Amma Osmanlının paşası mənim ailəmi qırıb. O üzdən nə qədər ki, əlimdə saz və taxta qılınc tutmuşam çıxıb gedin! O paşa mənim düşmənimdir, sultan türklərə etdiyi səhvi düzəltməsə o da düşmənimdir. Məndən alacaqları var, əmin ol, türk maldan mal vergisini, candan can vergisini, qisasdan qisas vergisini ödəməyə hazırdır! Bu günü qisas vergisi ödəyəcəm.

– Sən sultana meydan oxuyursan?!

– Bax bu taxta qılınc deyir ki, soyuna qılınc çəkmə, amma bu saz isə deyir ki, zülmə baş əymə! O üzdən çıx get! – Rövşən dişlərini qıcadı.

– Sən özünü nə sanırsan, çoban! Qılınclarınıza davranın! – Mehmet əsgərlərinə əmr etdi.

– Heç kim qarışmasın. – Rövşən bağırdı, sazı Savaşa doğru atdı, – Savaş sazı havada tut. – Rövşən taxta qılıncla bir-bir

əsgərləri budamağa başladı, kimin qılıncını əlindən alırdısa yerə sancırdı, – Ata deyirsən soyumuza dəmir qılınc çəkmək olmaz, hə?! – Vergiyığanların onunu da tərki sılah etmişdi, əsgərlər torpağa sancılan qılınclarını, xəncərlərini dartıb çıxarmağa çalışırdılar, amma gücləri çatmırdı, – Ata deyirsən türkə taxta qılınc?! – Dəli kimi bağırdı, taxta qılıncı əlində oynadarq Mehmeti vurdu. – Hərbi paltarlarınızı soyunun! Cəld. – Tərkisilah etdiyi əsgərlərə bağırdı.

Taxta qılınca döyülərək gömgöy olmuş vergi yığanlar hərbi paltarlarını soyundular. Rövşən onları süzdü:

– Demək Osmanlı paşası türk pirlərini, türk ocaqlarını, türk alevilərini, türkün qırmızı başlığını bəyənmir, Əli evini Yezid evinə dəyişir, hə?! Rəsul sünnətini ərəb adətinə dəyişir hə?! Gedin, paşalarınıza da deyin, sultanınıza da deyin ki, mən... – Bir an susdu, nəsə düşündü və bağırdı, – Mən Rövşən Əli onlara haqq savaşı açıram, demək türküm öz ocağını bəyənmir, oz alevini bəyənmir, öz QORUNU bəyənmir, o zaman mənlə, QOR oğluyla işləri var! Rədd olun!

Vergiyığanlar döyülmüş, pərişan halda geri qayıtdılar, bir nəfər tərəfindən, taxta bir qılıncla döyüldüklərini deyə bilməzdilər və belə dedilər:

– Rövşən Əli Koroğlu adlı biri adamları ilə birlikdə bizə hücum etdi...

– Bəs silahlarınız hanı?!

– Koroğlunun əlində bir qılınc vardı, misri qılınc, hansımızın qılıncına toxunurdusa pendir kimi kəsirdi.

Rövşən onun obasını qətl edən paşanın izinə düşmək istədikdə, atası dedi:

– Oğul, mən qanımdan keçdim! Bu qısas dövlətimizi zəiflədəcək!

– Ata bu dövlət öz soyunu çoxdan satıb! Hər yandan eyni xəbərlər gəlir, sultan türk tayfalarını xəyanətlə günahlandırır. Sultan, kürdlərə paşalıq verib öz türklərini qılıncdan keçirdir, qız-gəlinini onlara cariyyə edir. Rəsulmuzun sünnəsində qız-gəlini cariyyə etmək olubmu?! Rəsulmuzun sünnəsinə qadını özünə

kəbnli arvad etmək vardı, cariyə etmək yoxdur. Bunlar ərəb adətinə peyğəməbər sünnəsi deyir. Yezidin Əli evinə etdiyini, Yezidin Mədinədə sahabələrə etdiyini, sultan dediyimiz bizə etdi! Türk əxi təşkilatını dağıdır! Ox artıq yaydan çıxıb!

– Bala mən qanımdan keçirəm...

– Pirim incimə, sən öz qanını keçmiş ola bilərsən, bəlkə mən də anamın, bacılarımın qanını keçərdim, amma təcavüzü bağışlaya bilmərəm. Mən bunu bağışlasam gərək bir də əlimə nə qılınc alam, nə saz alam, nə də ki, başıma papaq qoyum! Ölümü bağışlamaq olar, namusu bağışlamaq olmaz! – üzünü adamlarına tutaraq bağırdı: – Namusu bağışlamaq olarmı?

Təkəli elinin kişiləri qəm qarışıq bir qəzəblə Rövşənə baxırdı, onların arvadları, bacıları təcavüz edilərək öldürülmüşdü, onlar cəmi bir gün əvvəl öz əlləri ilə analarını, arvadlarını, bacılarını, uşaqlarını torpağa basırmışdı. Onlar içindən Cahandar Rövşənə yaxınlaşdı, qılıncını qınından sıyırıb çıxardı və gözünün suyu ağzının suyuna qarışmış vəziyyətdə dedi:

– Sən yeni Qoroglusan, adına layiq ol Qoroğluuuu! Eşidirsən məni! Onlar bizim əl parçası boyda qızlarımın başına min oyun açıb, əl parçası boyda qızlarımızın! – Qılıncını Rövşənə uzatdı, – Qoroğlu, ya bu qılıncı alıb burada olan hər kəsi özün doğrayacan, ya qoroğlu olub, qormuza, ocağımıza, alevimizə sahib çıxacan, namusumuzu təmizləməyə, qisasımızı almağa rəhbərlik edəcən!

Hamı qılıncını qınından sıyırıb havaya qaldıraraq bağırdı:

– Ocağımıza sahib çıx! Qormuza sahib çıx! Alevimizə sahib çıx! Qoroğlu dəlilərinə sahib çıx!

Rövşən bir əlində sazını, bir əlində taxta qılıncını havaya qaldıraraq bağırdı:

– Öcccc...

Rövşən öldürülənlərin yeddisi günü Lala paşanın ordusunu mühasirəyə salıb hamısını son nəfərəcən qılıncdan keçirdi, Lala döyüş başlamamışdan əvvəl meydandan qaçdığından canını qurtara bildi, amma oğulları bu savaşda öldürüldü.

Döyüş meydanında sağ qalanlar içində Qorlu dədənin iki daylağı da vardı, zil qara rəngdə və dümmağ olan iki daylaq.

Qorlu dədə bu atları Rövşənin yeddi yaşlı ekiz oğulları üçün yetişdirirdi, indi ekizlərdən geriyə bu iki daylaq qalmışdı, daylaqlar Rövşəni gördükdə qaçaraq yanına gəldilər, boyunları ilə onu sarmaladılar, Rövşən kövrək səslə dedi:

– Oğullarım! Qorlum və Dursunum! Qırat və Durat... – onlar bir daha ölənəcən ayrılmayacaqdı...

– Bundan sonra Osmanlı iki cəbhəyə bölündü, sultan qızılbaşlıqda günahlandırdığı türklərin kişilərini qılıncdan keçirərək əraziyə gətirdiyi kürd bəylərinə tabe etdi, Röşən Əli Qoroğlu isə son nəfəsinəcən bu bəylərlə, paşalarla savaşdı...

... Çingiz başını qaldırıb üzünü Aslana baxdı:

– Hər şey belə başladı. Osmanlı öz soyuna o qədər nifət etdi ki, gözü o qədər döndü ki, Səlcuqlu zamanından var olan türk əxilik təşkilatını da gözdən çıxardı.

– Türk əxilik təşkilatımı?

– Bəli, türk əxilik təşkilatı. Əxilik təşkilatı hər bir türkün mütləq bir sənəti öyrənməsini, işinin ustası olanların tələbələr yetişdirməsini və hər kəsin dini, ərkamını, oxumanı, yazmanı bilməsini tələb edirdi. Əxilik təşkilatı hər yana yayılmışdı və hər bir təşkilat üzvü elmlə, sənətlə, dinlə eyni anda məşğul olmalı idi, bilməli idi və digərlərinə öyrətməli idi. Lakin osmanlı qızılbaş ovuna çıxarkən, əxilik təşkilatının üzvlərini, pirlərini də yox etdi, XVII əsrdə türk əxilik təşkilatına başqa millətlərdən üzv qəbul edildi, daha doğrusu osmanlı bunu tələb etdi, əxilik təşkilatı çökdükcə başqa millətlərdən olan tacirlər, sənətkarlar Osmanlıda daha da üstün mövqeye çıxdı. Osmanlı öz əli ilə qızılbaş türklərini kürdləşdirdi, əxilik təşkilatını yox etməklər, istehsalı, ticarəti, elmi, dini başqalarının əlinə verdi...

– Demək indi həm türk var, həm kürd var, həm də türk-kürd qarışığı tayfalar var?

– Hə. Kürdlərin tabeliyinə verilən başsız türklər kürdləşdı... Və indi həm türkləri qırırlar, həm kürdləri qırırlar, həm kürləşən qızılbaşları qırırlar. Elə qızılbaş, elə alevi var tam kürdləşib, eləsi var ki, necə deyim, türklə kürdün ortasıdır, eləsi də var türkdür və hamısını qırırlar. Bunu qəsdən edirlər.

– Niyə?!

– Çox sadə. İnsanları qırdıqda, onlarda özünü qoruma instinqi yaranır. Heç bir hadisə olmadıqda, kürdlə, alevi kürdü, alevi türkü, türk kürd qarışığı alevilər biri-birindən seçilir, fərqlənir, amma onları qırsan, onda hamısını "kürdlük kimliyi" altında toplaya bilərsən! Necə ki, eyni siyasətlə hayları və erməniləri birləşdirdilər.

– Dediyindən belə çıxır ki, gələcəkdə də türklərlə kürdləri qarşı-qarşıya qoyacaqlar?! Ermənilərlə bizi qarşı-qarşıya qoyduqları kimi?!

– Şübhən olmasın! İndi görürsənmi, haylarla erməniləri bir siyasi çatı altında toplayıblar, alevilərlə kürdləri də bir çatı altında toplayıblar və növbədə türklərin qırılmasıdır və yenidən qırılması. Bu səbəbdən də bizi qırırlar. 1914-cü ildən başladılar Axıska türklərini qırmağa, bu elə bir ləyaqətsizlik olub ki, dillə deyiləsi deyil!

– Məğlubiyyətimi nəzərdə tutursan?! – Aslan soruşdu.

Çingiz göz yaşlarına məhəl qoymadan ürəyini boşalmağa çalışırdı:

– Yox qardaşım məğlubiyyət ləyaqətsizlik deyil, meydandan biri qalib gəlir, biri uduzur! Düşmən bizi məğlub etməyib, məğlub olan Osmanlı ordusu idi, amma rusların qələbəsinin müqabilində hər yan hay-erməni çətələri ilə doldu, bax bundan sonra bu quldur çətələri sahibsiz türkləri-müsəlmanları, asdı, kəsdi, alçaltdı, alçadaraq öldürdü, el-el, oba-oba.

– «Alçaldaraq öldürmək» dedikdə nəyi nəzərdə tutursan?! – Aslan bu sözün altında gizlənən həqiqəti düşündükdə göz yaşlarını saxlaya bilmədi, dili gəlib açıq soruşa da bilmədi; – Yəni çoxmu təhqiramiz hərəkətlər edirdilər?! – Aslan boğazına düyünlənən havanı udmağa çalışdı, osa zindan olub boğazına ilişib qalmışdı.

– Aslan, insan ölümü görüb və "ölüm" sözünü də icad edib, amma insan birinin diri-diri qulağını, burnunu, dilini kəsib, sonra qarnını yarıb bağırsaqlarını yerə tökərək öldürmədən can çəkişməsinə ad qoymayıb, bu zülmü sözlə ifadə etməyib, çünki tarix boyu insanlar bu vəhşiliyi nə edib, nə başqasında görüb, olmayan

bir şeyə isə niyə ad qoyasan, amma haylar bax bu vəhşilikləri edirdi! – Aslanın nəsə demək istədiyini görüb əlini ona tərəf uzadaraq dedi: – Dayan, daha bitmədi. Həmin can çəkişən adamın gözünün qabağında körpəsini tikə-tikə doğrayırlar, bütün qız-gəlinə təcavüz edirlər, sonra birini çarmıxa çəkirlər, birinin belinə samovar bağlayıb qaynadırlar, bəzilərini diri-diri paza oturdurlar, – bağırdı, – amma insanlar bütün bu vəhşiliklərə bir ad qoymayıb, sadəcə "təcavüz" sözünü kəşf edib, indi sən de, bu təcavüzdür, ölümdür, təhqirdir, ya nədir?! Atam hey düşünürdü, bu vəhşilikləri ifadə etməyə bir söz tapmaq istəyirdi, sanki bu mənə atamdan qalan vərəsəlikdir, ondan sonra gecə-gündüz mən də bu olanları ifadə edən bir söz tapmaq istədim, amma "hay" sözündən başqa bir söz tapmadım. Onların etdiklərini "vəhşiliyi", amansızlığı", "qəddarlığı" sözlər ifadə etmir, gərək deyəsən ki, "onlar bizi haycasına öldürdü". Əgər hay sözü bizdə nəsə ifadə etmirsə, demək ki, biz şərəfimizi itirmişik. Hayları, erməniləri bura gətirənlər bizim qırılmağımıza tamaşa etdi və Axıskada, Anadoluda, Azərbaycanda, Cənubi Azərbaycanda, İravanda bizi ölümə tərk etdilər. Atam deyərdi ki, bu adi ölüm olsa insanı bir o qədər incitməzdi, amma tək canımızı almırdılar, tək canımızı itirmirdik, bəlkə biz alçaldılırdıq, qadınlarımızın namusuna, kişilərimizin qüruruna toxunurdular, amma bütün insanlıq öz ləyaqətini, bütün insanlıq öz şərəfini itirirdi. Rus, fransız, ingilis ordusu şəhərləri işğal edib silahlandırdığı hay-erməni çətələrini salırdı silahsız müsəlmanların üstünə və imkan yaratdıqları qətliamlara tamaşa edirdilər və bütün dünya özünü korluğa qoyurdu, indi de, orada olan müdafiəsiz qadınmı namusunu itirirdi, yoxsa bütün dünya şərəfini itirirdi? De, bax mən belə bir dövrdə anadan oldum və atam o günü mənə Çingiz adını verdi.

– Sənin dediklərini indi dərk edirəm, düzdür bizi də İravanda, Zəngəzurda qırıblar, amma bizim barı qaçmağa yerimiz olub, Naxçıvana, Qazaxa qaçıb canını qurtaranlarımız olub, siz isə Axıskada, Mexsetidə mühasirədə olmusuz! Dəhşətdir! Bəs kömək edən olmadımı?!

– Kömək! – pıçıldayaraq təkrarladı və dedi: – Hamımız eyni dərdli idik! Amma bizi tək qoymadılar. Bu qətliamlardan sonra

Axıskada minlərlə türk çoçuğu yetim qalmışdı, təsəvvür et, "yetim çoçuqlar" deyəndə, atası, anası öldürülən uşaqları nəzərdə tutmuram, artıq kimsəsi qalmayan uşaqları nəzərdə tuturam, Ömər Faiqin «Yeni İqbal» qəzetində (3 iyun 1915) bu barədə yazdığı çıxışdan sonra Azərbaycandan bir çoxları bu yetimlərə sahib çıxdı, halbuki özləri də eyni vəziyyətdə idi.

– Ömər Faiq kimdir?!

– Axıska ziyalısı, Axıskanın öndəri. 1917-ci ildə sovet inqilabından sonra rus ordusu geri çəkildi, Moskva Qarsı, Axıskanı, Batumini Osmanlıya geri qaytardı, lakin Osmanlı I Dünya Müharibəsində məğlub olduqda Batumi və Axıskadan ordusunu geri çəkmək məcburiyyətində qaldı. Belə olan halda Ömər Faiq və tərafdarları 1919-ci ilin yanvarında Qars cümhuriyyətini qurdu, Azərbaycan cümhuriyyəti orada ordu yaradılması üçün zabit heyyəti və pul yardımı edir, lakin tezliklə ingilis ordusu müdaxilə edərək Qars cümhuriyyətini süquta uğratdı, Qars şəhərini hay-ermənilər, Batumi və Axıskanı isə gürcülər işğal edir…

– Deməк Azərbaycan sizə əlindən gələn köməyi edib, amma ingilislər Qars dövlətini dağıdıb?

– Hə.

– Bəs Moskva, Lenin nə əcəb Batumini və Axıskanı Osmanlıya geri qaytarıb?

– Eh Aslan, eh! Bunlar hamısı oyundur.

– Necə yəni oyun, məgər sənədli-sünədli olmayıb bu işlər?

– Təbii ki, Osmanlı ilə Moskva arasında 1918-ci ildə müqavilə bağlanmışdı, amma bunu bil ki, ən böyük fırıldaqları sənəd arxasında, müqavilə arxasında gizlədirlər.

– Vallah bir şey başa düşmədim.

– Başa salım. 1917-ci ildə Moskvada inqilab oldu və Lenin Sovet hökümətini qurdu və daxili çəkişmələr zamanı o ordunun böyük hissəini geri çəkdi və Osmanlı ilə bağladığı müqaviləyə görə Qarsı, Batumini, Axıskanı Osmanlıya geri verdi, düz?!

– Düzdür! – Aslan hövsələsiz halda cavabladı.

– Rus ordusu geri çəkildi, amma rus ordusunin tərkibində olan 50 minə yaxın hay Qars, Van ərazisində qaldı və rus ordusu bütün silahını ermənilərə və gürcülərə verərək getdi. Niyə?!

– Aman Allah, şeytanın belə ağlına gəlməz. – Aslan qəzəblə dedi, – çünki silahlanmış hay-ermənilər və gürcülər ərazidəki türkləri qıracaqdı, amma Moskva bu qətliamdan təmiz çıxacaqdı və Türkiyə Moskvanı günahlandıra bilməyəcəkdi.

– Hə, eyni ilə. Daha sonra Gürcüstanda Sovet hökuməti qurularkən Axıska, Batumi və Borçalı Gürcüstanın tərkibinə verildi. Etiraz edənlər məhv edildi və dedilər ki, nə fərqi, Axıska, Borçalı hansı ölkənin tərkibindədir, hamı Sovet Birliyində tam hüquqlu vətandaşlar olacaq, artıq sənin, mənim vətənim yoxdur, bütöv Sovet vətəni var, qulağa xoş gəlirdi. Ömər Faiq də hamı kimi bu rejimə baş əyməyə məcbur oldu, bütün türklər kimi, Nəriman Nərimanov kimi. Amma Ömər Faiq öldürülənə qədər Axıska və Azərbaycan arasında fərq qoymadan çalışdı, yazdı, o deyirdi ki, Turana gedən yol bütöv türk dilindən keçir. – Bir müddət susdu, sonra yenidən danışmağa başladı, – Azərbaycan türkcəsi ilə Axıska türkcəsi arasında yalnız ləhçə fərqi vardı, buna görə də bizim türklər Azərbaycanda təhsil alırdı, Bakıdan Axıskaya müəllimlər gəlirdi, artıq hamı keçmişdə olanları unutmaq istəyirdi. Axıskaya, Borçalıya muxtariyat verilməsə də, Axıska və Bakı biri-birinə qucaq açmışdı, Axıska arxasını Azərbaycana söykəyərək nəfəs almağa, canlanmağa başlayırdı. Lakin 1928-ci ildə ortaya belə bir fikir atıldı ki, Azərbaycan dili ilə Axıska türkcəsi fərqli dillərdir və Axıska türkləri dillərini müstəqil formada inkişaf etdirməlidir. “Axıska türklərinin öz müstəqil dili olacaq” fikiri elə bəzədilərək deyilirdi ki, bəzilərinin bu fikirdən xoşu gəlməyə başladı. Amma atam bu fikirə qarşı çıxırdı, o deyirdi ki, dilimizi fərqləndirmək bizi Azərbaycan türklərindən uzaqlaşdıracaq. Sərhədlər bizi Osmanlıdan ayırdığı kimi, ləhçə fərqinin tətbiqi də bizi Azərbaycandan ayıracaq. Belə bir qanunun tətbiqinə ehtiyac yoxdur, ləhcə fərqini rəsimləşdirməyimiz bizi böyütmür, çılızlaşdırır. Ləhcə fərqi Azərbaycanın hər yanında var, Naxçıvandakı türklər, Ermənistandakı türklər, şəkililər, gəncəlilər, qazaxlılar, bakılıların hər birinin öz ləhçəsi var, amma eyni çür yazır-oxuyurlar, elə bu da onları biri-birinə bağlayır, biz də bu cür etməliyik. Yoxsa Axıskada yaşayan türklər gələcəkdə bunun açısını çox çəkəcək. Biz axı ayrı bir millət deyilik, hamımız bir millətik, türkük, sadəcə

əraziyə uyğun olaraq ləhçəmiz fərqlənir, vahid dilimizi ləhçəyə uyğun olaraq parçalayaraq rəsmiləşdirməyimiz keçmişimizə, kökümüzə və türk millətinə xəyanətdir.

– Necə yəni Axıska türklərinə ayrı bir dil vermək istəyirdilər?! Başa düşmədik axı?! Bu barədə mən heç nə bilmirəm!

– Çünki fil qulağında yatmışıq!– və pıçıldadı, – Axıska türklərinin dilini necə ayırdılar, hə?…

# POZULMUŞ QAN

*Ölkəni idarə edən adamlar nəinki qayğısız, veçsiz, qafil,*
*hətta satqın ola bilirlər. Bundan daha pisi, onlar şəxsi*
*mənafelərini işğalçıların siyasi mənafeləri ilə*
*birləşdirə bilərlər. Nəticədə millət üzülər,*
*zəiflər və sarsılar.*
***Atatürk.***

*Ağac kökündən quruyar*
***Azərbaycan atalr sözü.***

… 1928-ci il. Mexsetiyadakı ziyalılar bir məktəbə toplaşmışdı, müzakirə olunacaq məsələlər bu ərazidə yaşayan türklərin Sovet dövlətindəki mövqeyi, gələcəyə baxışı, bu yolda təhsil sistemində gərəkli olan yeniliklər ilə bağlı idi. Bu barədə uzun-uzadı danışıqlar oldu, əslində bütün danışıqlar Sovet höküməti qurulandan sonra deyilən şablon manoloqlardan heç nə ilə fərqlənmirdi. İclasın əsas məqsədi bir yanda qalmış, böyük rus xalqına tariflər deyildi, yoldaş Stalinin dahiliyindən danışılırdı, Sovet Dövlətinin axıskalılara necə böyük bir töhvə olması haqqında uzun-uzadı danışıldı. Sən demə, böyük rus xalqı axıskalıları məhv olmaqdan qurtarıb, böyük rus xalqı ilə bərabər hüquqlar verib, mədəniyyət gətirib, lakin şablon monoloqlardan fərqli olaraq bu dəfə böyük rus xalqının dilinin üstünlüyündən, türk dilini geri qalmasından danışıldı, iclasda iştirak edənlərin bəziləri bunu elə ürəkdən çəpik çalaraq alqışlayırdı ki, sanki elə iclasdaca ana dilllərini yerli köklü dəyişib, rus dilini qəbul edəcəklər. Çingizin atası Xasay və Ömər Faiq yan-yana oturmuşdu, Xasay əsəbindən dodaqlarını gəmirirdi, ayağa qalxıb söz demək istədikdə Ömər Faiq onun biləyindən tutdu və pıçıldadı:

– Otur, görək bu söhbətin axırı hara gedir!

Anası gürcü olan, bolşevik partiyasının* məhsul şəxsi və ÇK-nın əməkdaşı yoldaş Elmarov atəşli nitqi danışmaqda davam edirdi:

* *(1952-ci ilin Oktyabr ayında partiyanın XIX qurultayı oldu, bu zaman bolşevik partiyası "Komminist Paritaysı" adlandırıldı)*

– Bizi bu xoş günlərə gətirən dövlətimiz bizim daha da inkişaf etməyimizi istəyir. Böyük ürəyə malik olan, böyük qardaşımız olan rus xalqının layiqli oğulları nəinki özlərini, hətta bizi də qurduqları bu dövlətə qataraq bəxtiyar etmişlər! – Zalda oturanların əksəriyyəti onu alqışladı, Elmarov əlini havaya qaldıraraq guya ki atəşli alqışı susdurmağa çalışdı, alğışlamanın bitməsini gözlədi və sonra nitqinə davam etdi. – Rus xalqının dahi oğlu Lenin və silahdaşları inqilab edərək çiçəklənən bir dövlət qurdu, nəticəsində biz axıskalıların da gələcəyi təminat altına alındı. Biz axıskalılar kiçik bir xalqıq, amma böyük rus xalqının keçmiş irsi qədər qəlblərdə böyükmüş ki, bizi də böyük Sovet ailəsinə qatdılar, bizi yoxsulluğun, əsarətin, istismarın qoynundan aldılar, bizə sülh gətirdilər. – Əlini havaya qaldıraraq ucadan dedi; – Bunun ən bariz nümunəsi isə Gürcüstan Resbuplikasında yaşayan biz axıskalılara və Borcalıdakı azərbaycanlılara bərabər hüquqların verilməsidir. Böyük rus xalqı nəinki bizə qardaş olmuş, hətta bizlə digər xalqlar arasında qardaşlıq körpüsü qurmuş, bu yolda bizə müəllimlik etmişdir və nəticədə qardaş gürcü xalqı ilə sülh içində yaşayırıq.

Bu söhbətə qulaq asan Xasay kişi dodaqlarını gəmirərək düşünürdü:

– Dünyanın qəribə işləri var, gör xalqın gözünün odunu necə alıblar. Bizə "türk xalqı" sözü işlətmək yasaqdır, biz axıskalı olmuşuq, biz sovet xalqı olmuşuq, amma ruslara gələndə "böyük rus xalqı" sözü xüsusi vurğu ilə işlədilir, gürcü xalqı bizə sülh gətrimiş olur! Arsıza bax, bizi kiçik xalqlar adlandırır, məgər biz də türk deyilmiyik? Biz yetim-yesirik ki, bizi kökümüzdən qoparırlar və kimsə etiraz etmir. Və biz susmaqla onun dediklərini qəbul edirik, onun dediklərinin doğruluğunu təsdiqləmiş oluruq. Bunların niyyəti bizi çılızlaşdırmaqdır, bunun üçün satqınlardan istifadə edirlər. – Əl qolunu ataraq danışan Elmaraova baxdı, – Şərəfsiz, buna əzbərlədilənə bax! Əgər indi, bizim Azərbaycan türklərindən heç bir fərqimiz olmadığını söyləməsək, tezliklə bizi tarixdə "kiçik saylı xalq" kimi yazacaqlar, "türkləşmiş gürcülər" kimi yazacaqlar. Hə, «parçala və hökm sür», hə, bax belə, əsl üzünü göstər Moskva. – Ömər Faiqə baxdı, o da fikirə dalmışdı.

Elmarov danışırdı:

– Böyük rus xalqı hamıya bərabərlik gətirdi, özünə, ermənilərə, gürcülərə və axıskalılara eyni hüquqlar tanıdı. Bizə ögey münasibət göstərmədi…

Xasay başını bulayaraq düşünməyə davam etdi:

– Böyük rus xalqıymış… – rişxəndlə pıçıldadı. – Bizə bərabərlik gətirənə bax, gürcüylə bizə eyni huquq veribmişşş! Mənim torpağımı Gürcüstan torpağına qatıblar, budur bərabər hüquq? Bu tulanı niyə hürdürürlər, indi nə istəyirlər?! Növbədə nədir?! – susa bilmədi, Ömər Faiqin biləyini dartdı:

– Qardaş bunlar bizdən nə istəyir?! Bunu boş yerə hürdürmürlər? – pıçıldadı.

– Eyni şeyi düşünürük! – Ömər Faiq də qayğılı halda pıçıldadı.

– Bizim türk olduğumuzu bilmirlər? Bilirlər. Dəqiqədə bir “kiçik xalq” demələrinin bir zibili çıxacaq. Moskvanın məqsədi nədir?

– Parçalamaq, başqa nə olsun?! – Faiq Ömər kədərli halda dedi.

– Harada səhv etdik, niyə bütün bunlar başımıza gəlir? Sonumuz necə olacaq?! – Xasay kövrəlmişdi.

– Məqsədləri nə olsa da, göz qabağında olan bir şey var, bunlar “kiçik xalq” adlandırmaqla bizi sahibsiz etmək istəyir. Yəni demək istəyir biz yetimik, böyük qardaşımız da rusdur! Təklənəndə, başsız qalanda bax belə olur?! Demək bizim dili Azərbaycan dilindən ayırmaq istəyirlər, bizi yetim qoyacaqlar! – Ömər Faiq titrək səslə pıçıldadı.

Elmarov hələ də danışırdı:

– Zəngin dilə sahib olan rus xalqı öz böyüklüyünü göstərərək son konfransda hər bir xalqın öz dilini müstəqil formada inkişaf etdirməli olduğunu söylədi. Budur böyüklük, budur sovet demokratiyası, budur partiyamızın xalqımıza azadlığı. – Əlini yuxarı qaldıraraq dedi. Hamı əl çalırdı. Bəziləri ayağa qalxaraq onu ayaq üstündə alqışlayırdı, bundan sonra digərləri də ayağa qalxaraq onu alqışlamağa başladı. Elmarov danışmağa başladı: – Artıq hər bir xalqın öz müstəqil dili formalaşdırılmalıdır. Tarix

boyu imperiyalar digər xalqların dilinə qısqanclıqla yanaşıb, Sovet dövlətisə bizim hər birimizin öz dilini müstəqil formada inkişaf etdirməsinə şərait yaradır! Bundan artıq böyüklük ola bilərmi?! – Bu dəfə hamı yarışırmışcasına cəld ayağa qalxaraq, onu ayaq üstündə alqışlamağa başladı. Ömər Faiq və Xasay tərpənmədən zalda oturanlara baxırdı.

Bu ziyalılar arasında olan naməlum şəxslərdən biri alqışlama mərasimində Xasayın ayağa qalxmadan Elmarova laqeyid baxmasını görüb pıçıldadı:

– Bu bir! – Və digərlərini saymağa başladı, – Bu iki! Bu üç.

Elmarovun nitqini alqışlayan ziyalılardan biri özü-özünə dedi:

– Doğurdan da artıq biz də bir xoş gün görəcəyik! Çar Rusiyası hara, Sovet Rusiyası hara? Fərqə bax, Sovet Rusiyasısa bizim azlıq olmağımıza baxmayaraq, öz müstəqil dilimizi yaratmaq üçün şərait yaradır! Elmarov düz deyir, bax budur böyüklük! Mənsə Elmarovu düzgün qiymətləndirməmişəm!

Digər biri düşünürdü:

– Artıq bizim də müstəqil dilimiz olacaq, budur azadlıq, budur bərabərlik! Bir yeniyetməyə pasport verildiyi kimi, bizə də müstəqil xalqlara məxsus atrubutlar veriləcək! Artıq bizim övladlarımız bizdən fərqli olaraq, başqa türkcə ilə yox, öz ana dilində danışacaq, öz ləhcəsində kitab oxuyacaq!

Bir başqası belə düşünürdü:

– Artıq hər şey geridə qaldı, bizim üçün yeni gün doğur! Müstəqil xalq, öz dilimiz, bizim üçün yeni gün başlayır! Artıq bizim dilimizdə də özünə məxsus özəlliklər olacaq, digər türkcələrdən fərqlənəcək! Bu fərq bizim millətin varlığı deməkdir. Var olsun böyük rus xalqı. – Üzündə ümiddolu təbəssüm vardı.

Xasay əsəbindən yumruqlarını düyünləmişdi, düşünürdü:

– Vecsiz, səndən elə bu gözlənərdi. Südü pozuq köpək! Moskva xalqlara öz müstəqil dillərini yaratmağa şərait yaradırmış… Bu ehtiyac haradan yarandı? Daha denən ki, türkləri parçalamaq üçün onların hər birinin ləhçəsini ayrı bir dil edəciyik! Bu türk xalqının dilini inkişaf etdirmir, əksinə bu bütöv türk xalqını par-

çalamaqdır, biri-birindən uzaqlaşdırmaqdır! Çar Rusiyası, ya Sovet Rusiyası, heç bir fərqi yoxdur. Adama paltar geyindirməklər xasiyyətini dəyişmək olmaz. İndi rusun adı çarmış, sovetmiş, nə fərqi, ikisi də bir millətdir, hər ikisinin bir niyyəti var, türkləri məhv etmək, küt beyinli kölə yaratmaq! Çar Rusiyası «türk» sözünü deməyə qoymurdu, Sovet Rusiyası türkü məhv etmənin daha mükəmməl yolunu tapıb, dilini parçalamaq istəyir, əgər indi sussaq, gələcək nəsillər üçün bu içindən çıxa bilməyəcəkləri bir vəziyyət olacaq!

Elmarovsa danışırdı:

– Mən təklif edirəm ki, biz öz ləhcəmizin bütün fərqliliklərini irəli çəkək, dilimizdə olan bütün fərqlilikləri yaşadaq. Yetər onun, bunun dilində yazdıq, əsas da Azərbaycan dilindən uzaq durmalıyıq, çünki o dil bizim dilin özəlliklərini məhv edir. – O, ağzını elə büzdü ki, sanki nəsə iyrənc bir şeydən danışır; – Bizim öz lüğətimiz, öz qrammatikamız hazırlanmalıdır, rəhbərlik bunun üçün bizə xususi hazırlıq keçmiş dilçilər göndərərək köməklik edəcək. Həmin dilçilər elmə əsaslanaraq dilimizi köhnəlmiş sözlərdən arındıracaq, ləhçəmizin xüsüsi çalarlarını üzə çıxaracaqlar, sözlərimiz də fonetik kobudluqların aradan qaldırılmasında, xüsusi qaydalar hazırlanmasında bizə köməklik edəcəklər! Bir sözlə, Sovet dövləti bizim dilimizi asimiliyasiyadan qurtarmaq istəyir, bizim dili digər dillərinin əsarətindən qurtarmaq lazımdır. – O, özünü fəxrlə gülürmüş kimi göstərərək dedi, – Başa düşürsünüzmü, bizim də öz yazı dilim olacaq, artıq qonum-qonşuya möhtac olmayacayıq! Budur azadlıq! – Onun üzündə qələbə təbəssümü vardı; – Budur Sovet dövlətinin, Bolşevik partiyasının, böyük rus xalqının böyüklüyü ki, – o bağırdı, – bizim dilin tam inkişafı üçün dövlətimiz əlindən gələni edir, hətta bunun üçün bizə və digər respublikalara xüsusi hazırlıq keçmiş yüzlərlə dilçi mütəxəssiz göndərəcəklər. Bu partiyanın bizim xalqa olan sevginin bir ifadəsi deyilmi?!

– Düzdür, düzdür. – zalda alqış səsləri eşidildi.

Naməlüm şəxslər zaldakıların nitq zamanı üzlərindəki ifadəni oxuyurdu, çünki onlar dövlət tərəfində xüsüsi hazırlanmış ÇK-nın, NKVD-nin, KQB-nin əməkdaşları idi. Onlar bu nitq za-

manı bir balaca üzünü turşudanı, alqışlamağa geçikəni, ya da etiraz edənləri yadda saxlayacaqdı. Bir müddət sonra, bəlkə də elə buradaca onları vətən xaini adlandıracaqdılar.

Xasay düşünürdü:

– Demək, xüsusi hazırlanmış dilçilər ayrı-ayrılıqda bütün türk dövlətlərinə göndəriləcək, niyə? Hər türk respublikasına hazırlanmış dilçilərin göndərilməsi o deməkdir ki, biz türklərin dilini tanınmaz hala salmaq istəyirlər və bu planlaşdırılmış şəkildə bir mərkəzdən idarə olunacaq, türk dilinin parçalanmasına tam nəzarət olunacaq! Demək onlar türkün min illərdi yaşayan, var olan qan yaddaşını yox etmək istəyir, türkü yaşadığı ərazilərə üyğun olaraq kiçik xalqçıqlara bölmək istəyir. Demək bəzi sözlərimizi "köhnəlmiş sözlər" adı altında aradan çıxarılacaq, "sözlərdəki fonetik kobudluqları aradan qaldırmaq" adı altında eyni sözləri fərqli fonetika ilə türk respublikalarının yazı dilində rəsmiləşdirəcəklər. Ləhçələrə üyğun olaraq fərqli qrammatik qaydalar hazırlayacaq. Bu parçalama, manqurdlaşma siyasətinin bir hisəsidir! Əsil İblis oyunudur!

Hamı ayaq üstündə Elmarovu alqışlayırdı və bağırıdı:

– Düz deyirsən! Yaşasın Sovet xalqı! Yaşasın böyük rus xalqı! Yaşasın yoldaş Stalin! Yaşasın bizə qoynunu açan gürcü xalqı! Yaşasın partiya!

Ömər Faiq qəmli baxışlarla zalı seyr edirdi, oxun yaydan atıldığını yaxşı anlayırdı. Sovet siyasi oyunlarının mahiyyətini gizlədən bu nitqin nə demək olduğunu yaxşı bilirdi, Moskvanın atdığı bu mərkli oxun vuracağı hədəfi də yaxşı bilirdi. O, 1919-cu ildə Qars cümhuriyyətini quranda da eyni qüvvə bu dövləti dağıtmışdı və indi onlar Axıska, Mexseti türklərini yox etmək istəyirdi. Onun İnqilab Komitəsinə üzv olması belə fayda verə bilməzdi, hər dərdlərində Azərbaycan yanlarında idi, ziyalısı ilə, müəllimi ilə, indi Axıskanı Azərbaycandan dartıb alırdılar. Mustafa Kamal Paşanın bir sözünü xatırladı: – «bərabərliyində, ədalətində dayaq nöqtəsi milli hegemonluqdur» – qəlbi sancdı, yerində qurcalandı, öz iradəsi xaricində pıçıldıdı, – bərabərliyində, ədalətində dayaq nöqtəsi milli hegemonluqdur! Bizsə rus məngənəsindəyik, bizi göz görə-görə uçuruma doğru sürükləyirlər.

Xasay xalqının məhvinə verilmiş fərmana əl calan ziyalılara baxdı, artıq dayana bilmədi, ayağa qalxaraq bağırdı:

– Yetər! – səsinin eşidilmədiyinu görüb ucadan bağırdı, – Yetər!

Hamı çaşqınlıqla çönüb ona baxdı. Çəpik çalan əllər dondu, rus qardaşlığından qürrələnən təbəssüm dolu üzlər buz bağladı, xoşbəxtçilikdən göylərdə uçanlar səksəndi.

– Qardaşlar niyə əl çalırsınız? – Xasay soruşdu.

Faiq Ömər pıçıldadı:

– Xasay lazım deyil!

– Yox qardaş, daha yetər. – Xasay əlini dartaraq dedi.

Hamının üzündə bir keylik yarandı, kimsə ani baş verən bu dəyişiklikdən özünə gələ bilmirdi. "Axı bu zalda etiraz etmək adət deyildi, elə isə Xasay niyə bağırırdı" – deyə düşünənlər keyimişdi. Elmarov da bu gözləmədiyi reaksiyadan duruxsa da, özünü ələ alamağa çalışaraq qəzəblə onun sözünü kəsmək istədi:

– Qardaşlar yox, yoldaşlar!

Xasay bilirdi ki, bu onun son danışığı olacaq, amma xalqının ruhu belə duymadan, xalqının əl çala-çala məhv edilməsinə, çılızlaşdırılmasına göz yuma bilməzdi, o üzdən də düşündü ki, artıq susmağın mənası yoxdur, nə lazımdırsa sonunacan desin:

– Niyə olmur Elmarov, rus qardaş ola bilir, öz millətim mənim qardaşım ola bilmir?! Gürcü qardaş ola bilir, erməni qardaş ola bilir, hətta hay qardaş ola bilir, amma öz soyum qardaş ola bilmir?!

Elmarov ani cavabdan yenidən keyidi, ona belə sərt cavab veriləbiləcəyi heç ağlının ucundan da keçmirdi, əlini-qolunu ataraq zarıdı:

– Axı…

Naməlum şəxslərin hamısı gözünü Xasaya zilləmişdi.

Ömər Faiq diqqətlə Xasaya baxdı, deyilən sözlər onun beynində ildırım kımi çaxdı:

– Doğurdan da gör nə günlərə qalmışıq?! Biz başqa millətlərə qardaş deyirik, amma özümüzə qardaş demək olmaz. Bizə başqa millətlərlə birləşmək olar, gürcülərlə qucaqlaşmaq lazımdır, amma Azərbaycanla birlik olmaq olmaz, Sovet xalqı olmağı

fəxr bilirik, amma türk dillərini parçalamağı müstəqillik bilirik, bilməliyik. Gavurla birləşməliyik, amma öz kökümüzdən ayrılmağa sevinməliyik. Axı niyə?! Millətçi, turançı Ömər Faiq niyə susub? Millətimin ayıq-sayıq oğulları hanı? Yoxsa bu da rusların bir oyunudur? Belə tezmi yuxuya verdilər bizi? – Tez də əlavə etdi, – Sağ kimi qoydular ki?! Yaxşı mən də onların hiyləsinə gəlsəm, danışsam, öldürüləcəm, bəs bu tarixi gələcək nəsillərə kim çatdırsın?!

Kimsə kinayə ilə Xasaya baxaraq düşündü:

– Sən bir tarix müəlliminin hünərinə bax?! – istеza ilə gülümsədi, – Bir tarix müəllimi indi hökümətə, bu böyüklükdə Elmarova ağıl verəcək! Bolşevik partiyasının üzvü olan mən böyüklükdə adam susur, bir tarix müəllimi bizə dərs vermək istəyir! Qəzan mübarək ola!

Bir başqası düşündü:

– Mən indi anlamadım, Elmarovun dedikləri yaxşı şey deyilmi? Bəs bayaqdan niyə əl çalırıq?!

Xasay əsəbindən partlayırdı, alnının damarları üzə çıxmışdı:

– Demək rus qardaş olub, eyni dildə danışdığımız Azərbaycan qonum-qonşu olub, hə Elmarov?! – Hər kəsi süzərək dedi, – Yəni bunu məndən başqası anlamır? Niyə susursuz? Böyük türk xalqını ərazilərə, ləhçələrə bölmək olmaz! Biz türkük, boynumuza “kiçik xalq” adının qoyulmasının təhlükəsini anlamırsız?! “Müstəqil dilimiz olacaq” sözü doğurdanmı sizin gözünüzü kor edib, biz, fərqli dilimizin olmasını qəbul etməklə, türk olmadığımızı qəbul etmiş oluruq, bu müstəqillik deyil, parçalanmaqdır!

Elamrov özünü toplamağa çalışaraq dedi:

– Bizim Azərbaycandan nə əksiyimiz var ki, onun öz müstəqil dili var, bizim yoxdur?! Niyə bizim də olmasın?!

– Elmarov sənin adın nə idi? David? Niyə Davud yox, gürcü boğazı ilə David?! Anan gürcüdür. Olsun, adına qarışa bilmərəm, amma sən kimsən ki, mənim xalqımın müqədərratını həll edəsən?!

– Gürcü və Azərbaycan qardaş xalqlardır! – Elmarov söz olsun deyə dedi.

– Əgər gürcü qardaşdırsa, Azərbaycanla biz ekiz qardaşlarıq, bildin?! – üzünü zaldakılara tutdu:

– Qardaşlar bizim dilimizi Azərbaycan türkçəsindən ayırmamız bizi böyütməz, çılızlaşdırar! Bu gün biz Azərbaycan mətbuatını sərbəst oxuyuruq, onlarla sərbəst danışırıq! Onlar da bizi başa düşür! Yəni ünsiyyətimiz üçün heç bir çətinlik yoxdur! Tarix boyu bir millətik deyib, bir şey olanda onlardan kömək istəmişik, indisə «kiçik xalq» kimi rusvayçı damğanı boynumuza götürmək istəyirik! Dilimizi ayırmaq, başqalaşdırmaq, biri-birimizdən fərqli göstərmək bizə, bizim gələcəyimizə nə verir? Biri-birimizi başa düşməməkdən başqa heç nə! Bu o deməkdir ki, gələcəkdə azərbaycanlılırla bizim danışmağımız üçün tərcüməçi lazım olacaq! Bizim gənclər gedib Azərbaycanda oxuyur, oradan bura müəllimlər gəlib dərs verir, bu körpünü uçurmaq olmaz.

– Bizim öz institutumuz olacaq! – Elmarov bağırdı.

– Elmarov mən başqa şeydən danışıram. Niyə biz regionla milləti qarışıq salırıq? Axı bizim azərbaycanlılardan fərqimiz nədir? Gürcüstan Resbuplikasının tərkibinə salınmağımızdan başqa nə fərqimiz var?! Biz indi əslində Axıskanın və Borcalının muxtariyətindən danışmalıyıq, Azərbaycana tabe olan muxtariyyət məsələsini danışmalıyıq, Naxçıvan kimi! Biz bu halda bir sistem altında yaşayıb daha qüdrətli millət olarıq, kiminsə rəhminə, mərhəmətinə də ehtiyacımız olmaz. Rus xalqı və bolşevik partiyası doğurdan da böyükdürsə, qoy bizi Azərbaycanla birləşdirsin, nəinki bizi paçalayaraq çılızlaşdırsın!

– Axı qardaş gürcü xalqı…

Xasay Elmarovun sözünü ağzında qoydu:

– Gürcü xalqı qardaşdırsa, qoy onun olmayan türk diyarı Axıska, Mexseti, Borçalı torpaqlarına göz tikməsin, biz Azərbaycana birləşməliyik, nəinki parçalanmalıyıq.

Dar çərçivəli "qəbilə eqoiziminin" üzlərdə yaratdığı sevinc bir andaca çilik-çilik oldu, hamı keyimişdi və düşündülər:

– Doğru nədir, doğrunu kim deyir? İndi bu yekəlikdə dövlətəmi inanaq, partiyayamı inanaq, yoxsa bir tarix müəlliminəmi inanaq?

Ömər Faiq düşündü:

– Doğru deyirsən qardaş! Əhsən! – sevindi, üzü güldü, birdən gözü Xasaya şikar kimi baxan yad adamları gördu, üzündəki tə-

bəssüm dondu, – Aman Allah, yetər artıq danışma, yazıq olacaq sənə! Xasay savaşmaq üçün yaşamaq lazımdır, sus! – pıçıldadı.

Elmarov Xasayın sözunu kəsdi, qəh-qəhə çəkib dedi:

– Sən parçalanmaqdan qorxma! Bəs böyuk rus xalqının rus dili nə günə qalıb? Bütün sovet xalqları rus dilini biləcək və ortaq dilımiz rus dili olacaq! Tərcüməçiyə də gərək qalmayacaq! Bizi gələcəkdə bütöv Sovet xalqı olmaq gözləyir və hamını ortaq dili rus dili olacaq! Yəni gələcəkdə sovet xaqının biri-birini başa düşməmək kimi bir problem olmayacaq, heç kim narahat olmasın! – Yeni nəsə ixtira etmiş alimlər kimi sözündən zövq alaraq güldü.

Xasay Elmarovun gözlərinin içinə baxdı, istehza ilə güldü:

– Yermolov, tfu o 1816-ci ildə Qafqaz qoşunun komandanı idi, hə? – rişxəndlə dedi, – Çaşdım!

Hər kəs heyrət içində Xasaya baxırdı, Ömər Faiq Xasayın nəyə eyham vurduğunu yaxşı anlayırdı, elə Elmarov özü də yaxşı bilirdi ki, Aleksey Yermalov Qafqazı, Azərbaycanı Çar Rusiyasına qatan generaldır, bəziləri onun kökünün türk olduğunu, nəsilinin sonradan ruslaşdığını hesab edirdi.

– Elmarov biz biri-birimizlə ana dilində danışa biliriksə, niyə dilimizi çılızlaşdıraraq eybəcər hala salmalıyıq və sonra tək türk milləti biri-biri ilə rus dilində danışmalıdır ki? Mən burada turk xalqına olunacaq heç bir mərhəmət görmürəm! Mənim gördüyüm budur ki, bizi bir kökdən uzaqlaşdıraraq kiçiçik, yetim xalqçıqlara çevirmək siyasəti həyata keçirilir. Axı xalqı nə qədər çılızlaşdırsan bir o qədər əsarətə meyl edər! Ermənilər bizi qırdığı zamanı bizə Azərbaycan sahib çıxdı, ən azından bir yerdə ağladıq, eyni dildə ağı dedik! Amma mən görürəm ki, kimlərsə bu doğmalığı da yox etməyə çalışır, necə ki, bir zamanlar Çar Rusiyası bizi Osmanlı türklərinindən qopararaq sahibsiz qoydu, indi də yetim qoymaq istəyirsiz. Biz sahibsiz olandan bu yana başımıza gələnləri xatırlayalın və görün daha da kiçilsək başımıza nələr gələ bilər! Düşünün! Bəsdirin hər havaya əl çalaraq oynadıq!

Kimisi düşündü:

– Bunun başı korlanıb! Bu lap şizofreniya xəstəliyinə tutulub! Qoymur oturduğumuz yerdə oturaq!

Bir başqası düşündü:

– Bu cəfəng fikirləri bu haradan uydurur, bu özünü kahinmi sanır?! – rişxəndlə güldü. – Bədbəxtin əcəli çatıb.

Daha başqaları düşündü:

– İndi dədənə od vuracaqlar!

Qalanları düşündü:

– Sus, bizi yazıq etmə!

Faiq Ömər düşündü:

– Sus, özünü yazıq etmə! Sən bu millətə lazımsan!

Xasay ölümü gözünün qabağına alaraq danışırdı:

– Əgər biz kiçik xalq olduğumuzu qəbul etsək və övladlarımızı belə tərbiyə etsək, onda Azərbaycanıda məcbur edəcəklər, desinlər ki, biz ayrı-ayrı millətlərik. Bizim göz görə-görə biri-birimizi qucaqlayan qollarımızı qırmaq istəyirlər, bizi şikəst etmək istəyirlər, şikəstlərsə başqalarına möhtac olur, başqasının kölgəsinə sığınır və Moskva qəsdən bizi şikəst edir ki, özü sağlam görsənsin! Unutmaq lazım deyil ki, tarixdə heç bir dövlətə əbədi var olmaq müyəssər olmayıb, millətsə öz kökündən və dilindən vaz keçməsə məhv olmaz! Bizə indi deyilir ki, gəlin milli keçmişinizi, milli irsinizi, qan yaddaşınızı bir dövlətin siyasətinə uyğun qurun, bəs bu dövlət məhv olanda bizim halımız, biz türklərin halı necə olacaq?!

– Sovet dövləti əbədi yaşıyacaq! – Elmarov bağırdı.

– Tarix boyu çox dövlət əbədi var olacağını düşünüb! – deyib Xasay üzün zala tutdu, – Əgər biz bu gün Azərbaycandan fərqli oluduğumuzu qəbul etsək, bunun ziyanını yenə biz türklər və bizim övladlarımız çəkəcək və faydası yalnız istismarçılara olacaq! Milli mənafeyimizi boş xulyalara və şəxsi qəbilə eqoizimimizə satmayaq, yoxsa bunun acısı çox böyük olacaq, balalarımız gələcəkdə, tarix boyu bununla üzləşməli olacaq!

Zaldan biri ayağa qalxı, üzünü Xasaya tutaraq soruşdu:

– Mən indi başa düşmədim, öz müstəqil dilimizin olmasının nəyi pisdir?!

Xasay acı-acı gülümsündü:

– Axıska ilə Axalkalak arasında ləhçə fərqi yoxdur?! Adıgül ilə Mexseti arasında ləhçə fərqi yoxdur?!

– Müəyyən fərqlər var, amma eyni dildir!

– Yox, gəl hər rayonun öz ləhçəsini rəsmi dil edək, hə?! – Xasay kinayə ilə dedi.

– Yox, elə şey olar, bu axmaqlıqdır!

– Hə, bax bu axmaqlıqdır! – Xasay başını bulayaraq dedi. – Azərbaycan ilə bizim aramızda da ləhçə fərqi var, amma eyni dili danışırıq! Necə ki, Naxçıvanın öz ləhçəsi var, Şəkinin öz ləhçəsi var, amma tək rəsmi yazı dili var! – Üzünü zaldakılara tutdu, – Biz dilimizi ayırsaq, bu bizim yetimlik statusunu boynunmuza almağımız deməkdir, başımızı itirdik, döyünən ürəyimizi də itirməyək! Biz Naxçıvan kimi bizə də müxtariyyət verilməsini tələb etməliyik, nəinki, dilimizi bölməyə razı olmalıyıq.

Elmarov kəkələdəyərək dedi:

– Sən nə danışırsan? Nə müxtariyyət?! Hər xalıqın müstəqil dili olmalıdır! Və biz xalq olaraq bunu tələb edirik!

– Hə, düz deyirsən hər millətin müstəqil dili olmalıdır! Bizimsə artıq dilimiz var, bu türk dilidir! Dili dövlət yaratmır, millət yaradır və türk xalqı var olanda nə rus vardı, nə soveti vardı! Bizim dilimiz o qədər cılız deyil ki, sovet mərhəmətinə ehtiyac duysun! – Xasay kişi səsini daha da qaldıraraq dedi, – İki il öncə Bakıda keçirilən qurultayda* qeyd olunduğu kimi türk dili bir mərkəzə bağlanmalıdır, bütün türk respublikaları eyni latın qrafikasına keçməlidir, eyni terminoloji lüğətdən istifadə etməlidir. Və sözlərdəki fonetik kobudluqlar aradan qaldırılması həyata keçiriləcəksə, vahid mərkəzdən həyata keçirilməlidir və bütün türk respublikalarına eyni cür şamil olunmalıdır. Amma mən görürəm ki, qurultayda biz nə demişiksə, indi əksini etməyi tələb edirlər. Bizi bölmək istəyirlər, dilimizi bölmək istəyirlər. Dilimizin hər kəlməsi bizə əzizdir. İndi tələb edirlər ki, "köhnəlmiş sözlər" daha heç nəyə yaramır, bu nə deməkdir? Bir sözün ölməsi keçmişindən bir parçanı itirmək deməkdir! – Xasay qəsdən qarğış edirmişcəsinə dedi, – Mütləq kimsə öləcəksə xalqımın dilini bəyənməyənlər ölsün!

---

* *26 Fevral – 05 mart 1926-ci il tarixində I Beynəlxalq Türkoloji Qurultay keçirilmişdir*

Elmarov kəkələyərək soruşdu:

– Bu nə danışıqdır?! Sən böyük rus xalqına, partiyamıza şübhə edirsən?!

Xasay kişi ona məhəl qoymadan danışmağa davam etdi:

– Gör nə qədər arsızlıqdır ki, bizim dilimizi məhv etmək istəyirlər və buna görə hələ bizə sağ ol da dedirtmək istəyirlər! Xilaskar rolu oynayaraq bizi məhv etmək istəyirsiniz? Bizə heç bir bərabər hüquq verilməyib! Bu torpaqlar tarixən bizim olub, bəs niyə Gürcüstan Respublikasının tərkibindəyik? Budur bərabər hüquq? Hələ utanmadan bunu bizə rus-gürcü qardaşlığının böyüklüyü kimi təqdim edirsiniz! Belə böyüklüyə ehtiyacımız yoxdur! Tüpürüm belə böyüklüyə! Bir xalıqı neçə yerə bölmək olar! Yarımız İranda, yarımız Azərbaycanda, qalanımız İravanda*, biz Gürcüstanda, bir hissəmiz Dağıstanda, bəsdirin bizi kökə kimi dilimlədiz! – O, üzünü Elmarova tutdu: – Bizim hamımızın tək bir dili var.

– Burda məqsəd elə deyil, – Elmarov zaldıkılara siyasi təsir göstərmək istədi, – səbəb var. Çünki… çünki… – söz tapmadı.

– Aydındır, – Xasay gülümsədi, – böyük rus xalqı böyüklüyünü sübut emək istəyir. Bizim dilimizi biri-birimizə yadlaşdıraraq rus dilindən istifadə etdirəcək və bizim gələcək nəsillər deyəcək ki, doğurdan da rus dili böyük dildir, bu dil olmasa nə edərdik?! Biz necə də cılız millətik, kənddən kənara çıxdıqmı kimsə bizim dili başa düşmür, Rus dilinisə hamı bilir! Əla oyundur!

– Partiya istəyir ki, hər bir xalq müstəqil inkişaf etsin, digərlərinin içində asmiliyasiya olmasın! – Elmarov əzbərlədiyi cümlələrdən birini dedi.

– Bir milləti məhv etmək istəyirsənsə onun dilini məhv et! Bu söz imperialistlərin əsas devizidir, partiya bizə kömək etmək istəyirsə, bizə muxtariyyət verib Azərbaycana birləşdirsin! Sovet dövləti bizim yaxşılığımızı istəyirsə qurultayda deyildiyi kimi türk respublikaları üçün vahid diçilik proqramı hazırlamağa imkan versin. Onda rus dilinə də ehtiyac qalmaz! Amma əslində oynanılan oyunun məqsədi bunun əksinədir, hə? Elə edilir ki, biz

* *(1937-39-cu iləcən İravan adlanan şəhər, məhz bu tarixdən sonra Yeravan adlandırılmışdır)*

çılızlaşaraq hər çəhətdən ruslardan asılı olaq! Dil baxımından, güc baxımından, hərbi baxımdan! Mən dəfələrlə səlahiyyətli yerlərə məktublarla müraciət etdim ki, türk resbuplikaları üçün ortaq hərbi, tibbi, texniki terminologiya lüğəti hazırlansın və nümunələr verdim. Cavab yazıldı ki, yaxınlarda türkoloji qurultay keçiriləcək, ondan sonra bu məsələlər həll olunacaq, bu məsələ üçün sizi də ora dəvət edirik! Amma mən görürəm ki, bizim orada danışdıqlarımız başqadır, indi edilənlərsə başqa. İndi mənə deyirlər ki, Sovet İttifaqında tək ordu olduğundan və əsas dil rus dili olduğundan və rus dilində hərbi terminilogiya olduğundan başqa dildə olacaq hərbi terminologiyaya ehtiyac yoxdur! Gərək olsa sizin təklifiniz nəzərə alınacaq! Bəs tibbi, texniki terminologiya nə olsun, deyə yazdım. Deyilir ki, həmin sahədə də rus dili işlək olduğundan hələlik buna ehtiyac yoxdur. Bu gün anlayıram ki, türk dilini şikəst hala salmaq istəyirlər ki, türk dili gələcəkdə zamanla ayaqlaşacaq dillər sırasından çıxsın və biz onda həqiqətən daim inkişaf etdirilmiş rus dilinə ehtiyac duymaq məcburiyətində qalacıyıq! Vaxtı ilə «köpək»* sözünü bilməyən, baba sözümüzü "papa" edən, dədə sözümüzü "deduşka" edən, ata sözümüzü "ateç" edən, pir sözümüzü "brat" edən, get sözümüzü "xod" edən, addım sözümüzü "itdi" edən, bu sözləri lüğətinə bizdən alan rus, bu gün bizə lüğət düzəldir! Nə günlərə qaldıq?!

Zaldakı hər kəs keyimişdi, bəzilərinin qorxudan rəngi dümmağ olmuşdu. Zaldakılardan biri qışqırdı:

– Baba və papa, ata və ateç, dədə və deduşka, get və xod, bütün bunları niyə indiyə qədər görə bilməmişik?!

Xasaysa susmaq bilmirdi:

– Gör nə günlərə qalmışıq ki, tarix boyu hərb dühası olan türk milləti indi hərbi terminologiyasının yaradılması üçün rusdan icazə istəyir. – Xasay var quvvəsi ilə bağırdı, – O rus ki, hərb terminologiyasının başında duran «urra» sözünü, "armi" sözünü türk millətindən oğurlayıb, çünki lüğətində bu sözləri əvəz edəcək

* *Türklər itləri ilk dəfə əhlləşdirərək ovda istifadə etmişdir. İtlərin ov izinə düşməsinə görə onlara IZ+BAX deyirdilər, yəni İZBAK, bu bizdə "köpək" formasına düşdü, İZBAK sözü ruslarda "sabak"formasında, fars dilində də "sbak" formasına düşmüşdür.*

bir sözü olmayıb! İndi o rus bizə hərbi terminologiya öyrədir və türk millətinə deyilir ki, rus dilindən istifadə etməlisən və üstəlik də sən rusa yalnız əsgər ola bilərsən! Nə gözəl bərabərlikdir?!

Elmarov yalnız bunu deyə bildi:

– Sən vətən xainisən? Sən xalq düşmənisən!

– Vətən və millət xaini sənsən, südü pozuq! Yermalovdan heç əksik yanın yoxdur! İkiniz də qanına pozuq çıxdız, keçmişininə, kökünə xor baxan yaltaqlarsınız! Siz satqınsınız.

– Sən partiyamıza qarşı çıxırsan?! – Elmarov bağırdı.

– Mən vətənimi, millətimi məhv edəcək hər şeyə qarşıyam! – Üzünü zaldakılara tutdu, – Qardaşlar yəqin ki, bu məni son görüşünüzdür, bir şeyi yadda saxlayın. Milli keçmişimizi, qan yaddaşımızı əlimizdən almaq istəyənlər bunu "beynəlmiləlçilik", "azadlıq" sözləri altında etmək istəyəcək və hər zaman xalqını istismarçılara satan satqınlardan istifadə edəcəklər! Unutmayın, demokratiya, azadlıq yalınız milli irsə xidmət etdikdə xalqa fayda verə bilər, əks halda elə demokratiyadan imtina etmək lazımdır. Və bunun əksini danışanlar şübhəsiz əsl xalq düşmənləridir. Bizi öldürmək istəyirlər, ölümü qəbul etməyin! Mustafa Kamal Paşanın dediyi kimi, «ölmək istəyən bir milləti heç bir qüvvə xilas edə bilməz». Ölməyin!

– Satqın… -Elmarov bağırdı.

Xasay Elmarovu göstərək dedi:

– Xalqının gələcəyini şəxsi mənafeyinə satan sənsən! Tula! Bir vaxtlar turk-qıpçaq soyundan gələn, amma xristianlaşmış Yermolov Çar Rusiyası zamanında Qafqaz qoşunlarına baş komandan oldu. Onun keçmişi türk olsa da, qanı pozulduğundan Çar Rusuyasına sədaqətli bir tula oldu və Qarabağı, İravanı, Axıskanı viran qoydu, hayların bu ərazilərə köçürülməsini təmin etdi, erməniləri haylaşdırdı. Onun davamçısı olan sən Elmarov da türk düşmənisən, türk xalqını satmısan, çünki qanın pozulub. – bağırdı.

Naməlum şəxslər daha axşamı gözləyə bilmədən, özlərini bəlli etdilər. Onlar Xasaya hücum çəkərək əl-qolunu burdular, qandallayıb apardılar.

Elmarov bağırıdı:

– Vətən xaini! Xalq düşməni!

Bu səhnədən sonra bu hadisənin şahidlərinin əksəriyyətinin düşüncəsini qorxu donu vurdu:

– Doğurdan da bu vətən xainidir! Bu böyüklükdə Sovet dövlətini, Bolşevik partiyasını, partiyamızın şərəfi Elmarovu pisləyir! Benəlmiləlçiliyi pisləyir! Bu ki, ləyaqətsizlikdir!

Bir başqası:

– Ə bir tarix müəllimi olasan, bu böyüklükdə dövləti bəyənmiyəsən! İnsan necə küt-beyin ola bilər!

Bir qismisə ürəklərində, lap pıçıltıdan da asta səslə deyirdilər:

– O düz deyirdi. O Sovet xaini ola bilər, amma vətənini sevir, Məcnun kimi sevir! Amma bir həqiqət də var, vətən buna görə onu mükafatlandırmayacaq! Sovet dövlətisə onu cəzalandıracaq, belə atasına od vuracaq! – səssiz səs onlardan soruşdu, – Od vurulan onunmu atasıdır, yoxsa millətin? – Bundan sonra onlar nə bu suala cavab verdi, nə də düşündü, çünki onlar yaşamaq istəyirdi! Yaşamaq istəyirsənsə razılaş, nə deyilir deyilsin… Amma bir də qorxu əcələ fayda etsəydi…

Ömər Faiq Xasayı seyr edərək:

– Heyf səndən qardaş! Yazıq oldu bu millətə! Doğru dedin, gözəl dedin, amma gərək susaydın, sən bu xalqa lazımdın! – gözü yaşardı, – İgidin cəsarəti xalqa çökəndə, xalq qələbə qazanır, xalqın acizliyi igidə çökəndə o igid də, xalq da ölür!

*...XXI əsrin ilk illəri. Xasay kişinin başına gələn hadisələrdən onlarla il keçib! Rusun tək türk dilini parçalama hiyləsini anlayan neçə-neçə xasaylar öldürülərək susduruldu. Rus siyasəti öz niyyətinə çatdı. Türk dilləri bu gün işlək sözlər, köhnəlmiş-unudulmuş sözlər, dialekt sözlərə bölünüb. Düşünürəm, bizi haçalanan yollara salan və başımızın üstündə duran Sovet Rus sistemi artıq yoxdur, bəs özünü ziyalı adlandıranlar niyə hələ də susur? Parçalanmış, yaralanmış sözlərimizin qanı axı bizim üstümüzə tökülür, bizsə o yaralı, can verən sözlərin ölməyini gözləyirik...*

# İGİDİN QANI AXARKƏN BELƏ, XALQI ÜÇÜN AĞLAR

*Kütlə heç vaxt həqiqətə can atmayıb.*
***Lebon Qustav***

*Bar verən ağacı kəsməzlər*
***Azərbaycan atalar sözü.***
*..amma:*
*Barlı ağaca daş atarlar –* ***buda bir atalar sözüdür.***

*Ağıllı adamı ya kəsərlər, ya dəli edərlər.*
***– təzə atalar sözü.***

Xasayı SSRİ Daxili İşlər Komisarlığının Xüsusi İstintaq şöbəsinə gətirmişdilər. Dörd nəfər adam heç nə soruşmadan onu döyməyə başladı. Xasay huşunu itirənəcən döyüldü.

Bir müddət belə keçdikdən sonra otağa daha bir nəfər gəldi. Yerdə uzanan Xasaya tərs-tərs baxaraq bağırdı:

– Hara baxırsınız? Dövlət əleyhinə nitq söyləmək cəsarətində olan bir adamı siz indiyəcən necə sezməmisinizmi? O gərək bu gün dediklərini deməmişdən əvvəl mənim yanımda olaydı! – O, var qüvvəsi ilə Xasayın böyrünə təpik vurdu, – Demək hələ də səni kimiləri var?! Az qalıb, nə olar ki?! – özü-özünə pıçıldadı, sonra çönüb adamlarına əmr etdi, – Ayıldın bu iti!

Bir nəfər otağın bir küncündə olan vedrəni götürüb suyu Xasayın üzünə tökdü. Xasay soyuq suyun təsirindən özünə gəldi. Qan sağılaraq torbalanmış gözlərini zorla açaraq ətrafına baxdı. Həmin adam əmr etdi:

– Qaldırın bu iti, otuzdurun, görək bu qəhraman nə demək istəyir?! – O, qarşıdakı stulda oturdu.

Cəld iki nəfər Xasayı qaldıraraq stulda otuzdurdu və arxa tərəfində dayandılar.

– Hə, demək Sovet dövlətindən narazısan? – gürcücə soruşdu.

Xasayın dodaqları qaçdı, kinayə ilə başını yellədi, heç nə demədi.

– Səninləyəm  it! – yenə gürcücə bağırdı.

– Mən türkəm, mənim dilim türk dilidir, babalarına əsrlər boyu rəhm edən türkəm mən! – o dişlərini qıcayaraq dedi.

– Səni kimilərin ömürünə az qalıb, səninsə sonun elə bu gündür! – o ayağa qalxaraq Xasaya bir sillə çəkdi.

Xasay gülərək onun üzünə tüpürdü:

– Tüpürüm sənə də, tüpürüm rusa da, gürcüyə də, tüpürüm haya da, qanı pozulmuş erməniyə də! Bir gün intiqamımızı alan tapılar! Onda yenə qadın-qızlarınızı qabağa salarsınız, tarix boyu hər gələni qızlarınız qarşılayıb, indi kişilənirsiz. O gün yenə gələcək…

– Kəs səsini tula.  – o əsə-əsə bağırdı. Elə əsəbləşmişdi ki, bütün bədəni əsirdi.

– Türkdən qurd olur, tulalıq sizin işdir. – Onun əsəbləşdiyini görüb, – Niyə əsəbləşirsən, həqiqət acı olar! Bəlkə elə sən də  təmiz gürcü deyilsən, başa düşdün də nə deyirəm? –  o  istеza ilə güldü.

– Kəs səsini, – o qeyzlə bağırdı, – mən təmiz gürcüyəm.

– Hə görürəm, qurluşun bunu tam subut edir. – Xasay başa düşürdü ki,  bunlardan ala biləcəyi intiqam yalnız bu cür ola bilər, – Burun forman lap tipik gürcü formasıdır, it gürcüsən durmusan… – onun burnu gürcülərə xas yekəlikdə və formada deyildi.

– Mən gürcüyəm! – bağırdı.

– Xristian dinini qoruyum deyərkən, minlərlə alban, qıpçaq gürcüləşib, xəbərin var?! Güzgüdə üzünə baxmısan? Gürcüyə bənzəyirsən, ya qıpçağa?!

Xasayı sorğu-sual edən adam özünü itirmiş halda ayağa qalıxdı:

– İt balası kimi döyün bunu, səsini bütün şəhər eşitsin,  bunun danışdıqlarını eşidənlər bunun mələməsini eşidib öz dərsini alsın!

–  Axı səsini çıxarmır, Yolaş Kabulov. – Kabulovun onlara tərs-tərs baxdığını görüb dörd nəfərdən biri izah etdi, – Bu yaman dözümlüdür, səsini belə çıxarmır! İsaya and olsun bu pisixdir.

– Neçə yəni səsini çıxarmır, elə də adam olar döyülsün, işgəncə verilsin, amma səsini çıxarmasın?! Bu kabinetdən mini keçib, hansı səsini çıxarmayıb?!

– Bunun səsi çıxmır da, pisixdir. – həmin adam özünü itirmiş halda dedi.

– Neçə yəni səsi çıxmır?! – o Xasayın üstünə cumdu. Var qüvvəsi ilə Xasayı vurmağa-döyməyə başladı, ikinci yumruq Xasayın burnundan tutdu. Xasayın burnu xırçıldayaraq sındı, burnu əyilərək formasını itirdi. Xırçıltı səsindən otaqdakılar diksindi, hətta irpəndilər. Xasaysa gözlərini qırpmadan, bütün gücünü toplayaraq torbalanmış gözlərini açıq saxlayaraq Kabulovun üzünə baxırdı. Xasayı vurmaqdan yorulan Kabulov sonunda töşüməyə başladı, Xasaysa tərs-tərs ona baxır, səsini çıxarmır, barı zarımırdı ki, onun ürəyi sakitləşə. Kabulov Xasayın yaxasından tutaraq sirkələdi, tövşüyə-tövşüyə: – Səsini çıxarsana, canın ağrımırmı, ha?! Bağır! – var qüvvəsi ilə daha bir yumruq vurdu. Əlini tam sıxmamış, barmaqları qatlanaraq qanrıldı, ağrısından küçə iti kimi ulayaraq əlini yellədi: – Siz davam edin, biriniz mənə bir qabda soyuq su gətirin. – O əlini yelləyərək zarıldayırdı. Əlinin ağrısından sifəti gömgöy olmuşdu.

Döyülən Xasay bir neçə dəqiqə sonra yenidən huşunu itirdi. Kabulov ona baxaraq:

– Qoy qalsın, diqqət edin özünü öldürməsin, Elmarovla sabah birlikdə sorğu-sual edəcəyik. – dilxor halda çıxıb getdi.

Xasay özünə gələndə otaqda kimsə yoxdu. Ağrıdan bütün bədəni gizildəyirdi. Burnundan nəfəs ala bilmirdi, ağrıdan gözündən yaş gəlirdi. Bir xeyli key-key oturdu. Sonra son olanları xatırladı və bütün ağrısını unudaraq düşünməyə başladı:

– Zaman dəyişir, amma insanlar dəyişmir! Zaman dəyişdi, Çar Rusiyası Sovet Rusiyası oldu, amma imperiyalıq iddiaları dəyişmədi. Zaman yalnız onun adını və təzahürünü dəyişib. Məqsədləri eynidir, müsəlmanları-türkləri məhv etmək, bizi qul-kölə kimi işlətmək və istismar etmək. I dünya muharibəsi ərəfəsində ruslar bizim millətin yarısandan çoxunu qırdı, indisə belə görürəm ki, kiçik xalq adını boynumuza qoyacaq, ondan sonra yenidən məhv edəcəklər!

Zaman dəyişir, amma xalqını satanlar dəyişmir, keçmişini unudanlar azalmır, amma zaman dəyişir, tək zaman dəyişir! Çar Rusiyasında yermolovlar Azərbaycana divan tuturdu, indi elmarovlar Sovet Rusiyasına tulalıq edir! Bu hala düşməyimizin əsas səbəbi isə türk rəhmidir! Rəhm etdiklərimizin indi hansı bizə rəhm edir ki?! – yandığından ufuldadı.

…Monqol-tatar hücümları zaman onlar ərazidə hegamon qüvvə olan qıpçaqları özlərinə əsas rəqib kimi gördüklərindən qarşılarına çıxan qıpçaq ellərini qılınçdan keçirdilər və rus knyazlıqlarına xəraca bağladılar, lakin bu müsibətdən sağ qalan qıpcaq türkləri bu ərazilərdə öz mövqeylərini itirsə də yaşamağa və sayılan qüvvə olmağa davam etdi, beləliklə tarix zəngin qıpçaqlar UZDEN-lər kimi, sadə-azad qıpçaqlarsa KAZAK-lar kimi xatırlayacaqdı. Moskvada yaşayan qıpçaqlar rus-dvoryan sinfinin əsasını təşkil edəcəkdi, Yermilovlar, Kurakinlər, Qolitsinlər, Daşkovlar, Saburovlar, Mansurovlar, Karamzinlər, Qodunovlar, Urusovlar, Uşakovlar, Tarbeyevlər kimi qıpçaq əsilli zadəgan nəsilləri tarixdə rus drovyanları kimi xatırlanacaqdı. 1812-ci ildə Fransa ordusuna qələbə qazanan rus ordusuna komandanlıq edən Aleksey Yermolov çar tərəfindən 1816-ci ildə Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilmişdir, Qafqazın, Azərbaycanın müsəlman xalqlarına xüsusi qəddarlığı ilə seçiləm Yermalov Şəki (1819)xanlığına, Şəmşəddil və Qazax sultanlığına (1819), Şirvan xanlığına (1820), Qarabağ xanlığına (1822) və Talış (1826) xanlığına son qoymuşdur, 1826-1828-ci illərdə rus-qızılbaş müharibəsinin səbəbkarı və qalibi olmuşdur. Qafqaza hayların gətirilməsini və müsəlmanların qovulmasını amansızlıqla həyata keçirmişdir. 1861-ci ildə 84 yaşında ölmüşdür. Qafqaz qoşununun baş komandanı təyin edilən Yermolov da türk əsilli idi, onun babası Arslan-Mirzə-Yermola xristianlığı qəbul edərək xaçlanmış və İvan olmuşdu. Yermolov Qafqaz müharibəsinin qəhramanı hesab olunurdu. O Azərbaycanda başdan-başa qırğınlar törətmiş və bu zaman haylardan, ermənilərdən istifadə etmişdi. Məhz bu üzdən 1823-cü ildən Yelmarovun köməkliyi ilə, onun sağ əli hesab edilən erməni qulduru Madatov Qarabağda

minlərlə türkü qanına qəltan etmişdi və beləliklə Qarabağ erməni məliklərinin əlinə keçmişdi. Zaman dəyişmişdi, amma əqidəsiz, keçmişinə dönük, qanı pozuq insanlar öz kökünə xəyanət etməkdə davam edirdi.

– Yermolovların, Elmarovların kökünü qazımadıqca millətim azadlıq görməyəcək, – deyə Xasay düşündü. Sonra məktəbin zalında xalq ziyalılarının biganəliyini xatırlayaraq qəlbinin ağrısından zarıdı: – Bəs xalqımın ziyalıları niyə susur? Ölümdənmi qorxur? Xalqımı kiçik xalq deyə çılızlaşdıranlar sonra xalqımı gürcüləşdirməyə, ruslaşdırmağa başlayacaq, o zaman mənim türk övladlarımdan yeni-yeni Yelmorovlar, Elmarovlar yaranacaq! O zaman necə olacaq, qorxu fayda verəcəkmi? Bu gün zalda canının qorxusundan biganə oturan ziyalılar, qorxunun əcələ faydası yoxdur, bilmirsizmi?

Açılan qapının çırıltısına Xasay düşüncədən ayıldı. Gələn Kabulov və Elmarovdu. Elmarov gözü açılmayan Xasaya baxaraq soruşdu:

– Xasay sən ki, bir tarix müəllimisən, bu qədər cəsarəti haradan tapdın ki, belə hərəkətlər etdin?! – türkcə soruşdu.

– Axmaq, cəsarət vəzifə ilə bağlı deyil! Cəsarət vətənə, millətinə, keçmişinə olan sevgi ilə bağlıdır! Bunların da acarı elə tarixdir! Elə bu üzdəndir də sənin Sovet dövlətin xalqımın keçmişini, tarixini saxtalaşdıraraq özünə böyük rus xalqı deyir!

– Sən bilirsənmi ki, belə etməklə ölümünü tezləşdirirsən? Sən bizdən üzr istəyə bilərsən, xalqı qəsdən çaş-baş salmaq istədiyini, xarici qüvvələrə işlədiyini boynuna ala bilərsən, əvəzində mən sənin Sibirdə yaşamağa davam etməni təmin edə bilərəm. – Xasaya işgəncələrin mənası olmadığını bildiyindən Elmarov onu yağlı dillə ələ almaq istəyirdi.

– Yaşamaq! Səni kimi satqınların içindəmi?! Səni kimi xalq düşmənlərinin məni ittiham etdiyi bir dövlətdə yaşamaram mən! Satqın! Türkün üz qarası!

Elmarov ucadan gülərək dedi:

– Nə olsun ki, mən millətpərəst deyiləm, amma əvəzində sənin də dediyin kimi, mən səni xalq düşmənliyində ittiham edirəm və mən yaşayacam, sənsə mənim əlimdə öləcən!

– Günah səndə deyil, sənin atandadır ki, türkün sümüyünü gürcü sümüyünə calayıb və dünyaya səni kimi vejsiz, qıryatsız bir köpək gəlib. Amma unutma ki, sənin də ömrün uzun olmayacaq, dövlət səni kimiləri lazım olduğu müddətcə yaşadır, işlədir, tərifədiyin partiya vaxtı gələndə siz kimilərin də ölümünə fərman verəcək!

Elmarov isbat edirmişcəsinə:

– Yox, biz Sovet dövlətinə daim lazımıq!

– Doğurdan? – Xasay güldü, – Vaxt gələcək, bütün bu günahları kiminsə boynuna yıxmaq lazım gələcək! Bu qədər qanı axı gizlətmək olmaz! Bu qədər insan öldürmüsünüz, Sovet qurulandan üzü bu yana, gündə bir adla insanları toplu-toplu məhv edirsiniz, bir gün bunları kimlərinsə üstünə yıxıb Sovet dövlətini təmizə çıxarmaq lazım gələcək, – səsini daha da ucaldaraq, – Sovet dövləti yeni səhfəyə keçmək istəyəcək! Kimin boynuna yazacaqlar bu günahları, dövlətin, sistemin öz boynunamı yazacaq? Heç sanmıram! – acıq verirmişcəsinə gülümsündü.

Kabulov rəngi avazıdı, əli əsərək bağırdı:

– Kəs səsini küçük.

– Yox türk millətində it olmur, türkdən aslan olur, qurd olur! Sənsə itsən, lap üstünə basdın! – Səsinin tonunu dəyişdi, – Baxın, bir gün gələcək, bu sözlərimi xatırlayacaqsınız, bu dövlət size də xərcləyəcək, Sovet dövləti sizə də vətən xaini adı verərək yeni səhfə açacaq!

Kabulov udqundu, boğazı qurumuşdur deyə özü də hiss etmədən cır bir səslə dilləndi:

– Biz bu dövlətə həmişə lazımıq!

– Hə mən də əslində elə onu deyirəm də, – xüsusi vurğu ilə dediyi cümlədən sonra güldü, – Ən sonda Sovet dövlətinə ölünüz fayda verəcək, onlara ölünüz belə lazım olacaq! Nə böyük şərəfdir! Doğrusu gözlərim yaşardı. – Ucadan güldü.

Söz Elmarova və Kabulova təsir etdiyindən, hər ikisinin üzü qar ağı olmuşdu. Kabulov əlləri ilə qulaqlarını tutaraq bağırdı:

– Yetər, sus! – yalnız indi xatırladı ki, burada meydan oxumalı olan o olmalı idi. Qəzəbindən ağarmış sifəti pörtdü, əlini atıb

tapancasını çıxardı, amma hələ də tam özünə gəlməmişdi, əlləri əsirdi. Bir neçə əl atəş açdı, amma hədəfi tam tutdura bilmirdi.

Elmarov atəş səsindən sonra özünə gəldi, indi anladı ki, Xasayın təsirindn qurtarmağın tək yolu var, onu elə indicə öldurmək lazımdır. O da tapancasını çıxarıb Xasaya tuşladı və son gülləsinəcən atdı. Üzündə kinayə dolu təbəssümü donan Xasay onlara baxırdı.

Hər ikisi hövlank otaqdan çıxdı, Elmarov deyinirdi:

– İnsanın əsəbləri ilə oynayır əclaf, qorxu nədir bilmir! – üzünü Kabulova çevirərək, – Sənə xahiş edirəm, belələri olanda məni gətirmə, adamın bütün kefini pozur! – Astadan pıçıldadı…

– Hə.

– Bizi də axırda güllələməzlər, hə?!

Hər ikisi bir-birinin üzünə baxdı, niyəsə fikirə getdilər.

Güllələrdən biri Xasayın sinəsini yararaq ürəyini parçalamışdı. Bu dəfə digərlərindən fərqli olraq Xasayın ruhunu aparmağa Türk babanın özü gəldi. Aşağıya doğru süzdükçə onun uzun ağ bığ-saqqalı titrəyirdi. Xasay Türk babanı gördükdə:

– Sən kimsən? – deyə soruşdu.

– Türk baba!

– Türk babamı?

– Hə. – başını yarğaladı.

– Bu nə işlərdir türk millətinin başına gəlir? Niyə qoyursan?

– Çünki hər kəs öz qədərini yazır, millətim də özünə yalnış qədər yazır və yalnışlarını görmür. Başına gələn fəlakətlərdən sonra da ayılmaq istəmir! Törəmizi pozulub! Birliyimiz pozulub! Andlarımız pozulub!

– Bizim sonumuz nə olacaq?!

– Ya türk xalqım yalnış yolda olduğunu anlayaraq bir ətrafda birləşəcək! Dilinini, dinini yalnışlardan arındıracaq, bir ocağa dönəcək, ya da… – o susdu.

– Sən bilmirsənmi sonumuzu?

– Qeybi tək Tanrı bilir! Mənsə Türk xalqının ilk babalarındanam, o qədər! Gedək!

– Hara?

– Göylərə…

* * *

Bolşeviklərin azərbaycanlılara qarşı apardığı represiyaların ən şiddətli dönəmi 1937-ci ilə təsadüf edir, Azərbaycanda baş verən represiyaların eynisi Axıskada da baş verdi, Ömər Faiq daxil olmaqla, Axıska türklərinin bütün ziyalılarını ya güllələdilər, ya sürgün etdilər. Yəni onların bir vaxt susması onları Sovetin ölüm çaynaqlarından qurtarmadı. Bu rejim millətin düşünən beyinlərinin hamısını məhv etməklə, savadsızlar ordusu yaratmaq istəyirdi, beləcə milləti hara istəsə sürəcəkdi. Bu «yox etmə» tək burada deyil, bütün türk diyarlarında həyata keçirildi. Yəni eyni Rus dövlətinin eyni cinayəti bütün türk diyarlarında həyata keçirilirdi, represiya olunmaq üçün yazı yazmağı bilmək kifayətdi…

Ömər Faiqi 3 aydı həbs etmişdilər, ondan tələb edilirdi ki, ad və soyadının gürcüləşməsini qəbul etsin və soydaşlarının adlarının gürcüləşməsində təbliğat aparsın, lakin o razı olmurdu, ona iki gündü nə yemək verirdilər, nə yatmasına imkan verirdilər. Döyülməkdən üst-başı qan içində idi. Qapı açıldı, içəri girən şəxs ona yaxınlaşdı:

– Sənə son dəfə şans verilir! Üçlüyün qərarı var, yoxsa güllələnəcəksən!

– … – Ömər Faiq susdu.

– Adının, soyadının gürcüləşməsini qəbul et. Axı burada nə var? Niyə inad edirsən?! Adımızın gürcüləşməsi ilə dünya dağılmayacaq ki?!

– Bizim dünya qalıb ki?! Türk dünyası çoxdan dağılıb! Biz daha niyə yaşayırıq ki!

– İnad etmə! – pıçıldadı, – Sən ölməməlisən! Onsuz da əksəriyyətin adını, soyadını gürcüləşdiriblər… Bu çarxa qarşı durmaq mənasızdır.

– Ha, ha… – gülməyə çalışdı, ağzına gələn qanı tüpürdü, – Sənə bir hekayə danışımmı?!

O qəmli səslə dedi:

– Danış.

– Deyir bir xoruş varmış, bir gün sahibi ona deyir ki, daha səhərlər banlayıb kimsəni namaza qaldırma, yoxsa səni kəsəcəm.

Xoruz məcburi razılaşır. Daha sonra sahibi deyir ki, xoruz kimi ququldama, toyuq kimi qaqılda, yoxsa səni kəsəcəm. Xoruz yenə məcbur qalıb razılaşır. Daha sonra sahibi deyir ki, ya toyuq kimi yumurtalıyacan, ya səni kəsəcəm… – susdu.

O, Ömər Faiqin susduğunu görüb həyacanla soruşdu:

– Bəs xoruz nə etdi?

– Xoruz anladı ki, o yumurtalıya bilməz, sahibi də onu kəsəcək, dedi ki, kaş yumurta üstündə kəsilməzdim, kaş ilk günü mənə "banlayıb insanları namaza qaldırma" deyilən günü razılaşmazdım, şərəflə ölərdim. Bəsdir şərəfsizcə yaşadıq!

– Üçlükdəki hakimlərin biri gürcüdür, ikisi erməni, sənə güllə kəsiblər… Başa düşürsən! Mən heç nə edə bilmirəm!

– Olsun. İmkanın varsa mənə bir stəkan su ver.

Ömər Faiqi güllələyərkən gözünü bağlamaq istədilər, lakin o bunu istəmədi, ilk güllədən sonra bədəninin zoqultusunu hiss etmədi, bir də gördü ki, Xasayın ruhu ona sarı gəlir:

– Xasay – dedi.

– Gedək qardaş? – onun əlindən tutub göyə doğru qalxdı.

Göy üzündə minlərlə ruh uçuşurdu, Ömər Faiq sızlayaraq soruşdu:

– Xasay bunlar kimdir?

– 1937-ci ili represiyasının qurbanlarının ruhudur…

– Axı göy üzü ruhla doludur, hər yandan ruhlar qalxır.

– Çünki hər yerdə qırırlar… Gedək!

Qəribə burası idi ki, bütün türk dünyası və onun bütün ziyalıları demək olar ki, ayrılığı qəbul etmişdi, türklərə ayrı-ayrı isimlər taxılmışdı. Tək türk milləti türk, türkmən, azərbaycanlı, özbək, tatar, kazak, qaqauz adlanırdı, onlar özü-özünə artıq türk demirdi, amma düşmən üçün onlar tək bir millətdi, TÜRK. Və bu TÜRK milləti məhv edilirdi.

Stalinin ölümündən sonra Sovet dövləti əvvəlki siyasətində davam etsə də, Stalin dövrünü bağlamaq üçün keçmişdəki bütün cinayətləri Stalin və onun kabineti ilə əlaqələndirdilər, zamanında sovetləşdirmə cinayətlərini yerinə yetirən sədaqətli tulalar da artıq partiyaya lazım deyildi, onları Stalinin etdiyi cinayətlərin iştirakçıları kimi güllələdilər. Bunların içində Kabulov və Elma-

rovda vardı. Qəribə olsa da Elmarov ölüm anında nə partiyanı köməyə çağırırdı, nə gürcücə danışırdı, türk dilində ağlayıb-sızlayırdı, amma hər şey üçün gecdi…

…Çingiz Aslana baxdı:

– Bax hər şey belə oldu. Bizim ad və soyadımızı zorla gürcüləşdirdilər. Etiraz edənlər güllələndi. Bax beləcə Çingiz Alioğlu çönüb oldu Çengiz Alidze.

– Bəs dedin ki, atanın adı Xasaydır.

– Hə, amma baş verən hadisələrdən sonra məcbur etdilər ki, atandan imtina et və mən də ana babamın adını soyad kimi qəbul etdim.

– Türkoloji qurultay nə məsələdir?

– 1926-cı ildə, Bakıda Beynəlxalq Türkoloji qurultay keçirilmişdi. Babam da orada olmuşdu.

– Nə məsələ idi, axı mən heç nə başa düşmədim. Həm deyirsən ki, ruslar türkə qarşıdır, həm də deyirsən türkoloji qurultay keçirib! Bəs onda Sovet dövləti buna niyə razılıq verirdi? Gizli qurltaydı?!

– Yox, nə gizli qurultayı? – Çingiz etiraz etdi, – Burada başa düşülməyəcək nə var ki? Sovet dövləti, çekistləri özünü əziyyətə salmayıb da. – o əlini yellədi.

– Ə nə deyirsən e sən? Adam dilində de.

– Bax qardaş, özlərini əziyyətə salmayıblar, yəni ki, ruslar türk millətini məhv etmək istəyirdi…

– Eee? – Aslan hövsələsiz soruşdu.

– Bu səbəbdən türk millətinin ziyalılarına imkan verdilər ki, qurultay keçirsinlər, türk millətinin necə birləşdirmək olar, bu haqda danışsınlar, müzakirələr aparsınlar. Beləcə bir güllə ilə iki ov etmiş olcaqdılar…

– Necə yəni? Düz əməlli danış. – Aslan hövsələsiz soruşdu.

– Moskva özü belə bir qurultayın keçirilməsinə icazə verdi. Beləliklə, bütün vətənpərvər ziyalılar, türkoloqlar aldanıb özlərini aşkar etdi. Beləcə türk ziyalılarını türkioloqlarını tanımaq, aramaq, tapmaq, nə düşündüklərini bilmək üçün əziyyət çəkməyə ehtiyac qalmadı.

– Bəs ikincisi?

– Ən əsası elə budur. Sovet Rusiyası gərək böyük bir təşkilat qura idi və baş sındıra idi ki, türk millətini necə məhv edim? Amma bu qurultaya icazə verməklə, türk millətinin baş bilənlərini bir araya topladı, onları tanıdı, türk birliyini qurmaq üçün nələr edilməli olduğunu türkioloqların müzakirələrindən bildi və bu deyilənlərin tam əksini həyata keçirməyə başladı. Qısacası, dağa aparın yolun tərsi adamı dağdan salır. Çox asan, amma tam sərras bir hiylə! İbliscəsinə.

– O qurultayda nə danışılmışdı ki?

– Babam deyənlərdən ağlımda qalanları deyim?

– De.

– Yazıq atam o qurultaya elə inamlı, sevincli getmişdi ki. Gedəndə demişdi ki, deyəsən Sovet Rusiyasının günahını alıram, bunlar bu xalqa bir gün ağlayacaq. Bunlar deyəsən türk millətinə düşmən deyil… Bu qurultay türk millətinin yenidən özünə qayıdışı olacaq deyə sevinmişdi.

# TƏLƏ

*Balığı tutmaq üçün qarmağa yem qoyurlar.*

*Ətəyimi qoz ilə doldurur, başıma qapaz vurur*
***– Azərbaycan atlar sözü.***

1926-ci ildə Sovet rəhbərliyi tərəfindən Bakıda Türkolojı Qurultay keçirilməsinə icazə verilmişdi. Bu qurultay bütün türk alimlərini bir araya toplayacaqdı, bu arada digər millətlərdən olan türkoloqlarda gələcəkdi. Hər kəs bu qurultaydan ümidli idi. Hə, düz sözümdür, bu qurltayın nəticələrindən türk milləti də, anti türklər də çox ümidli idi, tək fərqlə, türklər tamam başqa şeylər ümid edirdi, onlar isə tamam başqa şeylər…

Türk milətinin ziyalıları Çar Rusiyasının qadağalarından sonra ilk dəfə idi bir araya gələcəkdi, türk millətinin gələcək taleyini müzakirə ediləcək, milli bir türk birliyinin qurulması üçün çıxış yolları axtarılacaqdı. Sovet Rusiyası bu yolda türk ziyalılarına nəin ki, dəstək olacağına vəd vermişdi, hətta onları buna təşviq etmişdi. Beləcə türk ziyalıları və alimləri Sovet dövlətinə minətdarlıq edərək Bakıda keçirilən qurultaya toplaşmışdı. Türk millətinin birlik günü gəlmişdi deyəsən…

Xasay kişi arxa sırada oturaraq qurultayda danışanlara qulaq asır və xalqının bu qurultaydan sonrakı inkişafını düşünərək iftixar hissi keçirirdi. Üzündə təbəssüm oynayırdı. Yabancı türkolokların da olmasını görüb düşündü:

– Bax budur beynəlmiləlçilik, dinləri, millətləri başqa olsada, türk millətinin milli yolunda zehinlərini səfərbər edirlər, bizimlə bir yerdədirlər, bizimlə birlikdə türk üçün doğru olan yolun arayışına çıxacaqlar. Var olsun insanlıq, var olsun beynəlmiləlçilik! – O özünü günahlandıraraq düşündü, – Axı deyəsən doğurdanda Sovet Rusiyası beynəlmiləlçiliyi maska kimi istifadə etmir, bu dəfə mən yanıldım. – Əlini açıb dedi, – Şükür sənə Allahım.

Qafqaz dövlətləri adından M. Hüseynov danışırdı:

– Türk xalqları sayca Sovet İttifaqında ilk sıralardadır. Türk

xalqı Altaydan Volqa çayına, Türküstanın qumlu çöllərindən Qafqaza kimi, Krımdan Avropa yaxasına kimi yayılmışdır. Bu böyük bir ərazi olduğu kimi, türk xalqları üçün böyük bir potensialdır…

Xasay bunları eşidərək düşünürdü:

– Hə xalqımız böyük bir ərazidə yaşayır və artıq türk xalqı bir sistem altında toplanacaq, bu böyük bir qüdrətdir. Bu bütün siyasi birliklərdən fərqlidir, digər millətləri birləşdirən sünii bir sistem olmayacaq! Bu milli bir birlik olacaq, keçmişi bir, qanı bir, dili bir milləti birləşdirəcək bir sistem yaranacaq nəhayət ki…

Hüseynov danışırdı:

– Çar dövləti zamanında «türk» sözünü dilə gətirmək qadağan edilmişdi, amma indi Sovet İttifaqı tərkibində türk xalqları müstəqillik əldə edib. Bu günsə biz nəinki «türk» sözünü tələffüz edə bilirik, həm də gördüyünüz kimi Bakıda keçirilən Türkoloji Qurultayda bir yerə toplaşmışıq. – Hamı əl caldı, – Bu dəstəyinə görə Sovet hökümətinə, rəhbərliyinə və partiyamıza öz dərin minnətdarlığımızı bildiririk! – Hamı ayağa qalxaraq alqışladı.

Sonra burada türk xalqlarının tarixinin öyrənilməsi haqqında danışıldı. Türk xalqlarının etnoqrafiyasının öyrənilməsindən danışıldı. Və Xasayın gözlədiyi an gəldi, B. Çobanzadə «Türk ləhcələrinin yaxın qohumluğu» adlı məruzəsini oxudu.

Qurultayda qərara gəlindi ki, latın qarfikası əsasında türk əlifbası yaradılmalıdır, bütün türk respublikaları, vilayətləri bu əlifbaya keçməsi təklifi qəbul olundu və məsləhət görüldü ki, Azərbaycanın metodundan istifadə edilsin, çünki Azərbaycan artıq latın əlifbasını qəbul etmişdi.

Daha sonra türk dillərini, dialeket və şivələrinin hər tərəfli öyrənilməsi, lüğətlərinin tərtib edilməsi haqda qətnamə qəbul edildi.

Xasay bunu eşitdikdə üzü güldü:

– Türk dilinin ləhcələrinin bir arada toplanması, şivə və dialektlərin təhlili, bizim dilin əslində necə bütöv bir dil olduğunu aydın göstərəcək. Məsələn bizim tərəfdə «gap etmək» sözü dialekt sayılır, bəzi regionlarda bu söz az işləkdir, oysakı Özbəkistanda bu çox işlək sözdür. Türkiyədə bir yerə çatmağa «var-

maq» deyilir, bizdə, Borcalı mahalında, Qazaxda da harasa getməyə «vardım», «varıf gedirəm» deyirlər. Azərbaycanda «ata» sözü, Türkiyədə «baba» adlanır, amma Osmanlı türkləri də ulu babasına «ata» deyir, bizi kimi. Bizdə ulu babalarımızın dediyi sözlərə qəribə olsada «babalar sözü» yox, «atalar sözü» deyirik. Digər tərəfdənsə Borcalı mahalında yaşayan türklər əslində tarix boyu Azərbaycan dövlətinə bağlı olsalarda, onlarda ataya baba deyir. Demək ki, bu fərq müxtəlif sistemlərdə və ya fərqli coğrafiyada yaşayan bir millətin işlətdiyi sözün, bəzən, zamanla müxtəlif inkişaf yolu keçməsi ilə bağlıdır. Bu türk dillərinin fərqliliyinə deyil, müxtəlif sistemlərdə, fərqli coğrafiyada yaşaması ilə əlaqədardır. Biz görürük ki, türk dilinin fərqli ləhçələri, dialektləri, şivələri var, bunun isə əsas səbəbi budur ki, biri-birindən min illər, yüz illər əvvəl ayrılmış türk xalqları eynimənalı bəzi sözləri digərindən daha üstün tutmuşdur, bəzi sözlər daha çox işlədilmişdir, beləcə digərləri daha az işlək sözə çevrilmişdir və biri-birindən uzaq çoğrafiya, fərqli xalqlarla qonşuluq etdiklərindən, eyni sözlərdə fərqli fonetika, fərqli intonasiya yaranmışdır. İndi isə bütün türk xalqları bir mərkəzdə toplanır, artıq dilimizı kənar təsirlərdən qoruya biləciyik, eyni əlifba, eyni qrammatika, eyni yazı dili, eyni fonetik qaydalar qəbul edəciyik, bu tək bir yazı dilinin yaranması üçün ilk addımlardır.

Daha sonra qurultayda qədim türk yazılı abidələrinin ucota alınması, qorunması təklif edildi. Və qazıntıların məlum plan üzrə aparılmasının vacibliyinə toxunuldu. Arxieloji qazıntıların ilk 5 illikdə aparılması təklif edildi. Qərara gəlindi ki, bütün regionlarda, respublikalarda, vilayətlərdə komitələr yaradılsın və bir mərkəzlə əlaqələndirilsin. Türkologiyaya aid bütün materiyaları bu komitələr toplasın və müntəzəm olaraq, üç aydan bir tək toplu halında nəşr edilsin. Həmçinin komitələr biri-biri ilə maddi mübadilə və iş əlaqəsində olsun, işlərini əlaqələndirsin.

– Hə, sonunda mərkəzləşmə, bütün bilgiləri bir araya gətirmə, məlumatları qarşılıqlı mübadilə etmə, haçalanan yollarımızın birləşməsinə az qalıb, lazp az! Şükür… – Xasay sevinc içində düşündü.

Sonra mədəni dilin yaradılması təhlil olundu, qərara gəlindi ki, ədəbi dildə vahid orfoqrafiya qaydası qorunsun. Və düzgün yazmaq qaydasının yaradılması üçün, türk-tatar dillərinin orfoqrafiya lüğəti yaradılsın. Və vahid fonetik transkilipsiya təşkil edilsin.

– Hə bu qayıdışdır… – Xasay inamla pıçıldadı.

Daha sonra təklif edildi ki, türk xalqlarının tərkibi dəqiq hesablansın və buna əsasən xəritə hazırlansın. Bu Moskva rəhbərliyindən xahiş olundu.

– Hə bu mütləq lazımdır, türk xalqlarının sayının dəqiq uçotu aparılmayıb. Kim harda, nə qədər yaşayır bilinmir… – Xasay bu fikirlədə şərik idi.

Daha sonra qeyd edildi ki, türk xalqlarını öyrənmək üçün mərkəzi Bakıda olacaq mərkəzi mədəniyyət müzeyi və Türkoloji Təqdiqat İnstitutu yaradılsın.

Daha sonra kürsüyə Elçin Tərxanzadə çıxdı. Ağ saç-saqqalı ona nurani bir görkəm verirdi:

– Qardaşlarım mən bütün çıxışlara diqqətlə qulaq asdım. Çox cəsarətli danışıqlar oldu. Amma mən bilən daha böyük cəsarətə ehtiyac var. Belə ki, mən vahid əlifbanın yaranması, vahib terminologiyanın yaranması təklifini alqışlayıram. Bir mərkəzə tabe olacaq komitələrin yaranması da gözəl fikirdir. Yoldaş Çobanzadənin «Türk dillərinin qohumluğu» ilə bağlı məruzəsi də çox maraqlı idi. Amma mən sizdən daha cəsarətli olmağınızı istəyəcəm. Belə ki, mən türk dilini tam mərkəzləşdirməyi, mərkəzi yazı dilinin mütləq halda yaradılmasını tələb editrəm. Vahid yazı dili, yəni Turan dilinin yardılması lazımdır… – Zalı süzdü və yenidən danışdı, – Tarix boyu vahid türk milləti eyni vaxta başqa-başqa dövlətlərin tərkibində yaşamağa məcbur olub. Busa xalqımın düşüncəsində, dilində bəzi fərqliliklər yaradıb, türk dilində biri-birindən ayrı inkişaf edən ləhçələr yaradıb. Bəs biz bu yalnış yolu daha nə qədər getməliyik? Necə ki, Azərbaycanın fərqli regionlarında fərqli ləhçələr, dialektlər var, eləcədə Türkiyədə, Özbəkistanda, Qazaxıstanda, Qırğızıstanda, Tatarıstanda və adını çəkmədiyin bütün türk diyarlarında regionlara görə fərqli ləhçə və dialekt var, yəni demək istəyirəm ki, biz ortaq bir yazı dilini formalşdırmaq haqqında düşünməməliyik.

Erməni professoru Açaryan yerindən dik atıldı:

– Yoldaş siz nə danışırsınız? Bu zamanın çarxına çubuk salmağa bənzəyir. Artıq bəzi türkoloqların da qeyd etdiyi kimi, hər bir türk millətinin öz qədəri, formalaşmış bir dili var. Artıq söhbət yalnız yaradılacaq yeni əlifbanın eyniliyindən gedə bilər!

– Bildiyimə görə siz erməni millətinə məxsussunuz, düz bilirəm? – Elçin Tərxanzadə qəzəbini boğaraq soruşdu.

– Bəli. Bunun məsələyə nə dəxli? – erməni alimi kinayə ilə soruşdu.

Elçin Tərxanzadə soyuqqanlılığını qorumağa çalışaraq:

– Heç, niyəsə zamanın çarxına həmişə çubuq salan erməniləri görmüşəm, bu səbəbdən soruşdum. Qaldı ki, türk millətinin gələcəyini həll etmək, bu türk millətini maraqlandırır. Öz soyunu haylarla birləşdirənlər türkün gələcək müqədarratı haqda düşünməsədə olar. Türk qurultayında başqaları öz təklif və məsləhətlərini verə bilər, amma türkün gələcəyi haqqında qərarları yalnız türk xalqı verməlidir. – o sakit görsənməyə çalışırdı.

– Yox mən demək istəyirdim ki, hər türk xalqının öz müstəqil dili formalaşa bilər… – Açaryan da Elçin Tərxanzadənin soyuqqanlılıq taktikasını istifadə etmək istədi.

– Baxın, mən bayaqdan qəribə bir atmosfer hiss edirəm. Əslində hamı türk xalqlarının dil qohumluğundan danışsada, yabancılar verən tezislərdə niyəsə türk dillərinin yaxınlığı yox, uzaqlığı təhlil olunur. Bunu yalnız mənmi görürəm, hiss edirəm…

Zaldan bəziləri dedi:

– Doğru deyirsiz… Düzdür…

– Bu bir təsadüfdürmü? Səbəb? – Elçin Tərxanzadə sadəlövlüklə soruşdu.

Acaryan yenə söhbəti qarışdırmağa çalışaraq dedi:

– Biz haqsız deyilik ki, bu faktdır.

– Fakt?! – Elçin Tərxanzadə qəsdən uca səslə soruşdu, – Elə isə birdə mənim baxış açımla baxaq məsələyə, görək o uzaqlıq haradadır ki, mən görməmişəm. Bir diqqət edək, görək türk dillərinin uzaqlığı nədədir?! Ən əsas uzaqlıq fonetiq fərqdir, yəni sözlərin tələffüzündə səslərin fərqliliyidir. Belə sadə dildə deyirəm

ki, anlaşılmayan yer qalmasın. Bütün türk dillərində cümlə qurluşu eynidir, fərq sözlərdə, şəkilçilərdə olan tələffüzlə bağlıdır, həmçinin digər bir fərqlilik snonim sözlərdən birinin bir regionda daha işlək olması, digərində daha az işlək olmasıdır. Başqa bir fərq varmı? Yanılırammı? – o üzünü zaldakılara tutdu.

Erməni professoru özünü anlamazlığa qoyaraq söhbəti dolaşdırmaq istədi:

– Məgər bu az fərqdir?! Yəni...

Elçin Tərxanzadə onun sözü uzatmasına imkan vermədən dedi:

– Yəni ki, yabancı alimlər nə qədər türkoloq olsa belə, türkü türk kimi tanıya bilməz. Yəni yabancı alimlər ən yaxşı halda türk xalqlarının dilini ədəbi dil qədər bilir. Bəs dialektlər necə olsun? Qəribəsi də budur ki, bizim dialekt dediyimiz sözlər bir regionda yaşayan türklərdə az işlək sözdürsə, o digər regionda yaşayan türklərin gündəlik həyatında və ədəbi dilində işlək sözlərdir. Yəni biz türklərin bütün sözləri ortaq sözlərdir, bir daha deyirəm, sadəcə eyni mənalı sözlərin bir hissəsi bir yerdə üstünlüyə malik olub, bir hissə digər yerdə üstünlüyə malik olub, beləliklə regionlara görə daha işlək sözlər, dialekt sözlər, köhnə sözlər və ölən sözlər anlayışı formalaşıb, sözlərimizi bax belə bölmüşük və ya bölmək istəyirik, amma bütün bu sözlər bizimdir. Başa düşmürsünüz ki, «ölmüş söz, ölmüş tarix, ölmüş millət» deməkdir, barı bunu qavramaq biz türklərə çox çətindir? – Bir an susaraq əsəbini çilovlamağa çalışdı, təmkinlə dedi, – İndisə fikrimi tamamlamaq istəyirəm. Sonra nə qədər sual istəsəniz verə bilərsiniz. – Üzünü Açaryana tutdu, qəribə tərzdə gülümsünərək danışdı, – Mən deyirəm ki, gəlin vahid ədəbi Turan dili yaradaq. Əgər biz türk dillərininin işlək və dialekt sözlərini nəzərə almadan bütün sözlərini bir lüğətdə toplasaq görərik ki, bu türk dillərinin lüğət tərkibi həmən-həmən eynidir. Turan dilinin bərpası dialektlərdəki bütün sözlərin snonim kimi yenidən lüğətimizə salınmasından keçir. Bu qədər sadə.

Yerdən bir çoxu onu alıqşladı:

– Bəli düz deyirsən…

– Bu üzdən təklif edirəm ki, – Elçin Tərxanzadə sözünə da-

vam etdi, – hər respublikada, vilayətdə yaranacaq komitələr yerli türk ziyalıları ilə, aşıqları ilə, ozanlarl ilə, yaşlı-başlılarla təmasda olsun və bütün şivədəki sözlər, frazalar, işləkdən düşmüş sözlər toplansın, sonra bu topluları müqaisə edək, o zaman heç kəsin şübhəsi qalmayacaq ki, bizim lüğət tərkibimiz tam eynidir.

– Bəs fonetik fərqi nə edəcəksiz?! – bir ingilis türkioloqu soruşdu.

– Hə maraqlı sualdır, amma cavabı isə olduqca asandır. Səhv etmirimsə siz İngiltərədənsiz?!

– Bəli, amma mən türk dillərini mükəmməl bilirəm. – İngilis türkioloqu dedi.

– Şübhəm yoxdur. Amma qeyd edim ki, mən də ingilis dilini yaxşı bilirəm və mənə maraqlıdır ingilis dialekti ilə şotlant dialekti fərqli olduğu halda, niyə bir yazı diliniz var?! – ingilis türkioloqunun cavab verə bilmədiyini görüb dedi, – Bax məsələ bu qədər sadədir. Ədəbi dilin bir olması üçün, bəhanə axtarmaq lazım deyil, sadəcə etmək lazımdır. Türk dilli məsələsinə qayıdası olsaq, əlavə olaraq qeyd edim ki, bir respublika daxilində belə onlarla fonetik fərq və şivə fərqi var, amma respublika daxilində yazı dili birdir. Misal üçün Azərbaycanda Qazax, Şəki, Bakı, Naxçıvan, Cənub şivəsi eyni olmadığı kimi, Türkiyədə də İstanbul, Anadolu, Qardəniz şivəsi eyni deyil, həmçinin Özbəkistanda Fərqanə ilə Səmərqənd şivəsi fərqlənir, amma Türkiyədə bir yazı dili formalaşmaqdadır, Azərbaycanda bir yazı dili formalaşmaqdadır, Türkmənistanda başqa bir yazı dili formalaşmaqdadır və digərlərindədə eyni ilə, belə olan halda Azərbaycanın, Türkiyənin, Türkmənistanın və digərlərinin şivə fərqi təbiidir və bu qorxuducu bir hal olmamalıdır. Təklif edirəm ki, bu türk dövlətlərində vahid yazı dilinın yaradılmasına, yəni Turan dilinin yaradılmasına başlamaq lazımdır, bu türk dilinin daha da zənginləşməsinə səbəb olar. Bu yolda əsas yük, artıq qeyd olunduğu kimi, ədəbiyatmızın üstünə düşür, daha doğrusu yazıcılarımızın və mətbuatın.

Turan dilinin bütün türk xalqları tərəfindən mənimsənməlidir, bu fonetik fərqlərin aradan qaldırılamasının və türk ləhçələrini birləşdirmənin yeganə yoludur. Beynəlmiləlçilikdən da-

nışıldığı bir zamanda tək Türan dilinin formalaşdırılması olduqca vacibdir! – çoxları onu alqışladı. Alıqşlamıyanlar yalnız yabancı türkoloqlari idi.

Bir rus professoru ayağa qalıxdı:

– Sən hansı regionu təmsil edirsən?

Elçin Tərxanzadə tam səmimi halda dedi:

– Turanı. – konkret cavab verdi.

– Mən elə bir region duymamışam.

– Mənsə artıq dedim, yəni eşitdin, ehtiyac varsa bir daha deyim. – o gülümsündü.

– Sən niyə türk xalqları üçün bir yazı dili düşünürsən?

– Bəs sən niyə əksini düşünürsən?

– Sən niyə türk xalqlarının azad hüquqlarını əlindən almağa çalışırsan. Hər millətin müstəqil dili olmalıdır, elə deyilmi?

– Mənim millətimin bir adı var türk, bir vətəni var Turan. Bizim azadlığımız türk olmaqdan keçir, bunun əksini iddia etmək qısqanclıqdan başqa bir şey deyil!

– Bəs Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan kimi respublikaları nə edək?!

– Bunlar hamısı bir atanın oğullarıdır, bir atanın on oğlu olsada , hər oğlun öz adı olur, lakin bu adlar onların bir atadan gəlməsini inkar etmir. Biz hamımız türk soyuyuq.

– Axı bu uğurda çox çətinliyə qatlaşmaq lazım gələcək. – rus professor gülümsəməyə çalışdı.

– Bəs biz niyə bura toplaşmışıq? Bu məsələlər asan olsa idi, daha niyə türkioloji qurultay keçirilirdi?! Bu yolda hər türk, hər əziyyətə qatlaşmalıdır, bu dava bizim davadır, digərlərinin bu əziyyətə qatlanmasına ehtiyac yoxdur. – O da gülümsəyərək rus professoruna baxdı.

– Bu yalnız bir ideyadır, reallaşması qeyri mümkündür.

– Hər əməl əvvəlcə ideya halında olur, sonra zəhmət çəkib o ideyanı həyata keçirirlər. Proffesir İvanoviç sizin tezisiniz də “türk dillərinin qohumluğu” adlanır, amma qəribə olsada bütün tezis boyu türk dillərinin uzaqlığından danışırsız. Bir millətin keçmişi, kökü birdisə, o milləti nə qədər istəyirsən parçala, o millət kesmişinə, kökünə qayıdış edərsə, gələcəyi yenidən birlə-

şir. Bu qədər sadə. – Türk türkoloqları Elçin Tərxanzadəni alqışladı, rus professoru bundan sonra heç nə demədən oturdu, onun üzündən məyusluq oxunurdu.

Bundan sonra kürsüyə çıxanlar Elçin Tərxanzadəni dəstəkləyən fikirlər söylədilər, amma digər millətlərdən olan türkoloqlar niyəsə onların fikirlərinə etiraz etməyə çalışırdı, bunu görən Xasayın dalağı sancdı:

– Yoxsa bu da bir oyundur? Niyə bizim birləşmək istəməyimiz yabançı türkoloqları belə narahat edir. Bəs beynəlmiləlçiliyə nə oldu? Buradakı alimlər beynəlmiləlçilik maskası altında bizi caş-baş salmaq istəyir, niyə? – o tezliklə bu suallara cavab tapacaqdı.

Sonrakı adamların danışmasına şərait yaradılmadı. Elçin Tərxanzadə və ondan sonra danışanların ismi qurultay stenoqramasına salınmadı. Sanki onlar nə bu qurultayda olmuşdu, nə də ki, gəlib «Turan dili» təklifini irəli sürmüşlər. Bu şəxslər qurultaydan sonra həbs olundular, min işgəncələrdən sonra güllələndilər və ən kədərlisi isə bu idi ki, onları "vətən xaini" adlandırdılar.

* * *

1926-ci ildə hər kəs elə düşünmüdü ki, artıq "türk qadağası" aradan qalxıb və Çar Rusiyasından fərqli olaraq Sovet Rusiyası dövründə türk xalqlarının üstünə günəş doğacaq… Elə düşünürdülər ki, türk millətinin birlik günü gəlib… Amma sən demə, 26 fevral 1926-cı il türk həmrəyliyi günü deyilmiş, türk millətinin yox edildiyi günmüş. Onlar türk millətini məhv etmək üçün daha bir oyun oynayırmış, amma bunu o gün heç fələkdə anlamamışdı.

Türklər tamam başqa şey sayır, fələk özünə görə nəsə sayırdı, amma anti-türklər tamam başqa şeylər sayırmış… Onlar türk milli mənafeyini düşünən beyinləri «Türkoloji Qurultay» adlı yemlə tələyə salmışdı.

Bu qurultayda ən cəsarətli danışanların adı heç bu qurultayın stenoqramasına da salınmadı və onlar elə həmin gün həbs edilərək yox edildilər. Sağ qalan türk türkoloqlar, təqdiqatçılar tezliklə bu

qurultayın bir tələ olduğunu anladılar, hər gün ölüb dirildilər, ən son öldürülənləri 1937-ci ildə gün işığı görmüş oldu, onların aqibəti də “vətən xaini” adlandırılaraq öldürülmək oldu. Türk türkioloqlar öldürülürdü, bu qurultayda iştirak edən yabançı türkoloqlarsa heç nə edilmədi, sizcə niyə? Bu suala cavab verməyəcəm, yalnız bunu deyəcəm ki, türk türkoloqlarının ölümündən sonra Sovet dövləti və Avropa türkü məhvə aparacaq saxta türk tarixi yazdı, yazdırmasına onlar yazdırdı, bəs yazan kimlərdi? Axı türk türkoloqları yoxdu. Bəs yazan kimlərdi?

1921-ci ildə Xalq Komisarları Soveti Əlifba komitəsi yaratdı və Əlifba komitəsi 1922-cı ildə latin qrafikası əsasında yeni Azərbaycan əlifbasını elan etdi. Amma rus dövlətinin TƏLƏsi olan qurultaydan sonra, Mərkəzin istəyi və əmrinə uyğun olaraq 1939-cu ildə əlifba kiril əlifbası ilə əvəz edildi, qeyd edək ki, Azərbaycandan sonra Türkiyədə Atatürkün təşəbbüsü ilə latın əlifbasına keçmişdi. «Milləti türkdür» deyə yazılan pasportlar «milləti azərbaycanlıdır» deyə yazılan pasportlarla əvəzləndi. Bu rus dövlətinin cinayətlərinin və türkü biri-birindən uzaqlaşdırma, yadlaşdırma siyasətinin düşünülmüş, planlı davamı idi.

Budur rus qardaşlığı. Budur başqa millətin türkə beynəlmiləlçi hisləri…

… Aslan heyrət içində soruşdu:

– Bəs axırı nə olacaq?

– Səni sağ ol, daha nə olasıdır, başı papaqlılarımızı qırıblar, istədiklərini ediblər. Məslən Mexsetiya Gürcüstanın tərkibindədir. Adımız gürcüləşdirilib, ruslaşdırılıb, bundan daha artıq nə olasıdır?– Çingiz başını bulayaraq dedi.

– Vəssalam?!

– Yəqin ki, vəssalam! – Çingiz ümidsiz halda dedi. Amma demə vəssalam deyilmiş, zamanı gələndə biləcəksən niyə belə deyirəm, əziz oxucu.

# SAKİT NƏSİLİ VƏ CAĞAT CİNSİ AT

*Keçmişinə dönük insan gələcəyini itrir.*

*At, övrət igidin iqbalıdır –*
***Azərbaycan atalar sözü.***

Aslan Çingizə baxdı, təəssüf hissi ilə dedi:

– Demək sizın adınızı, soyadınızı zorla gürcüləşdiriblər? İşa bax a, "Alioğlu" çönüb olur "Alidje", beləcə türklər çönüb olur gürcü.

– Hə, elədir! Bizə deyirlər ki, siz vaxtı ilə türkləşmiş gürcülərsiz, indisə öz gürcü adlarınızı geri almalısız! Etiraz edənlər, buraların türk elləri olmasının dəlilini gətirən hər kəs öldürüldü, son şahidlər bizik, adları gürcüləşmiş şahidlər.

– Çingiz bir şey də soruşum.

– Soruş.

– Atan niyə Elmarova Yelmarov deyib, başa düşmədim axı?!

– Aleksey Yelmarov çar generalı olub, 1812-ci ildə fransızlara qələbə qazanıb, 1816-ci ildə çar onu Qafqaz komandanı təyin edir, o Azərbaycanda bütün xanlıqları işğal edib və olduqca qəddar biri olub, onun sağ əli isə erməni məşəli general Mədətov olub.

– Bəs atan geniral Yermalovu niyə Elmarova tay tutub?

– Elmarovun atası türk, anası gürcü idi, amma türk qanını unutmuşdu. Atam deyirdi ki, general Yermaolvun soyu da ruslaşmış türklərdəndir. Monqollar o ərazilərdə qıpçaq dövlətini məhv edib, qıpçaqları qırdıqdan sonra bəzi qıpçaq zadəgan ailələri ruslarla birlikdə yaşamış və zamanla ruslaşmışdır, Borçalı ətrafında yaşayan xristian qıpçaqlar isə gürcüləşmişdir...

– Demək Yermalov da öz keçmişini unudan və öz soyuna qənim kəsilənlərdəndir?! Görən öz soyuna xəyanət edən neçə elmarovlar, yermalovlar olub?!

– Yəqin ki, az olmayıb! – Çingiz acıqlı halda dedi və əlavə etdi, – Sənə qəribə bir şey danışımmı?!

– Necə yəni qəribə?!

– Atam general Yermalovdan danışdıqdan sonra bu barədə çox düşündüm, hey özümə sual verirdim ki, görən Yermalov ömründə bir dəfə fə olsa türk olduğunu anlayıbmı, etdiklərindən peşman olubmu?!

Aslan Çingizin susduğunu görüb dedi:

– Maraqlı sualdır, amma yəqin ki, bunun cavabını heç vaxtı bilməyəcəyik!

– Yox, mən əslində bunun cavabını bildim!

– Bildin, necə bildin?!

– Yuxusunu gördüm?!

– Yuxumu?! Səndə söz danışdın da!

– Ona görə dedim ki, sənə qəribə bir şey demək istəyirəm! Nəysə, unut getsin!

– Yox, hələ bir danış görək. – Çingizin məzəmmətlə ona baxdığını görüb, – Yaxşı da, sən mənim canım, danış...

...Bir zamanlar Çar Rusiyasının qəhramanı adlanan, Qafqaz qoşunlarının komandanı olmuş Aleksey Yermolov ölüm ayağında can çəkişirdi. Rəngi ağarmış, gözləri çüxura düşmüşdü, olduqca çətin nəfəs alırdı, aldığı hər nəfəs boğazını dələrək keçirdi, sanki Azərbaycan türklərininin fəryadları birər-birər onun boğazına ilişərək, hər nəfəs alışında onu boğurdu. Sanki yataqda can çəkişən, bir zamanlar Qafqazda at oynadan Yermolov deyildi, indi o nəfəs almağa belə çətinlik çəkirdi, daha doğrusu o ölümlə deyil, yaşamla mübarizə aparırdı, amma sən demə bəzilərini ölüm aslanlıqla öz ağuşuna almırmış. Oysa kı öldürmək bahasına şöhrətlənən Yermalov üçün ölüm, öldürmək olduqca ucuz bir şeydi, bir vaxtlar o bu ölümdən Azərbaycan türklərinə bolluca paylamışdı, indisə özü bir ölümün əlində qalmışdı, ölüb qurtara bilmirdi, ucuz bildiyi ölümün əlində qalmışdı, ucuz sandığı ölüm özünü baha satırdı, canını alıb onu bu əzabdan qurtarmırdı.

Deyəsən onu qara basırdı, tez-tez kabus görürdü. Amma bu çox qəribə qarabasma olmalıydı, çünki bu qarabasmanı onun atası, atasının atası, onların da yeddi arxa dönəni görmüşdü.

Yermolov ağır-ağır nəfəs alırdı. Gözləri qapalı idi, deyəsən yenidən yuxuya getmişdi, birdən gözünün önündə qəribə bir mən-

zərə canlandı, o bir qum səhrasının ortasında idi. Birdən ayağının altındakı yer boşaldı, qum onu içinə doğru çəkməyə başladı. Qum onu qurşağacan udmuşdu, bağırmaq istədi, ağzını açıb rus dilində Allahdan yardım diləmək istədi, lakin onun qəlbinin dərinliyindən gələn bir səs boğazından çıxaraq türkçə nidalandı:

– Tanrı özün kömək ol! Tanrı özün məni saxla! Boq günahımızdan keç! – beyni qarışdı. İlahi o bu səsi nə zamandır eşitmirdi, deyəsən son dəfə qoca nənəsindən eşitmişdi bu sözləri. Hə, hə nənəsindən eşitmişdi bu sözləri. O tez-tez Tanrı sözü işlədib, bu cümlələri deyirdi. Hə bir də pıçıltı ilə deyərdi ki, Tanrı Sakit soyunu bağışla.

Yermolovun bu sözü yalnız ömürünün sonunda xatırlamışdı, bütün ömrünü arxada qoyub, indisə ölümlə pəncələşməkdən, gördüyü kabuslardan yorğun düşmüş beyni yalnız indi bunları xatırladı və yalnız indi düşündü ki, niyə nənəsi «sakit soyunu bağışla» deyirdi? Niyə? Niyəsini yadına sala bilmədi, deyəsən nənəsindən soruşmuşdu səbəbini, amma qocalıqdanmı, ya biganəlikdənmi yadına sala bilmədi ki, nənəsi nə demişdi. Təəssüf içində pıçıldadı:

– Nənə niyə elə deyirdin?! Nənə…

Yatağının yanında oturan qohum-əqrabəsi onun pıçıldadığını görüb dedilər:

– Deyəsən gözünün qabağına nənəsi gəlib…

Yermalov artıq sinəsinəcən quma batmışdı və qum onu içinə doğru dartmaqda idi. Səhrada tufan qopdu, ətrafı qum dumanı örtdü. Bir tünd göy rəngdə xallı at qum dumanının arasından çıxıb ona doğru çapırdı. Atın sol tərəfdəki ayaqları yerə dəydikcə sol tərəfə, sağ tərəfindəki ayaqları yerə dəydikcə sağ tərəfə böyük qum dalğası qalxırdı. At onun üç addımlığında dayandı, Yermolavun gözlərinə baxdı, fınxırdı, atın mahsum baxışlı gözlərindən bir damla yaş süzüldü. Sonra atın baxışları qatılaşdı, qəzəblə kişnəyərək şaxə qalxdı və qabaq ayaqlarını oynadaraq zərblə yerə vurdu. İki böyük qum dalğası boynunu yuxarı qaldırıb sancmaq istəyən ilan kimi göyə doğru şaxə qalxdı. Yermolov yalnız indi hiss etdi ki, atın mərhəmət dolu gözlərində böyük bir küskünlük

var, daha doğrusu böyük bir nifrət, böyük bir qəzəb var. Bunu duyan Yermolov var quvvəsi ilə bağırdı:

– Cağat! Cağat biz ki ömür-gün, yol yoldaşıyıq! – o bağıraraq yuxudan ayıldı. Onu soyuq tər basmışdı.

Yanında duranlardan biri onun tərini sildi, gülümsünərək:

– Yuxudur, qorxma! Yuxudur! – pıçıldadı. Digərlərindən soruşdu, – Cağat kimdir?!

Yermolov otaqdakılara göz gəzdirdi. Gözləri böyüdü, qoca nənəsi otağın gün işığı düşməyən küncündə dizi üstə oturaraq həzin-həzin ağlayaraq deyirdi:

– Tanrı, Tanrım Sakit soyuna qıyma! Bağışla bizi! Tanrı bizi zülmündən saxla! Bilən Boq, biz unutduq, sən bizi unutma!

– Demək ölməyimə az qalıb! Bəlkə ölmüşəm! Yox ölsəm otaqdakılar ağlaşardı. Yəqin nənəm gözümə görünür! – xatırlayaraq düşündü, – Atamın da ölümü ağır olmuşdu. O da yuxuda tez-tez sayıqlayırdı. – Yadına düşən hadisədən sifəti gömgöy kəsildi, – Axı atam da bu sözləri sayıqlayaraq yuxudan ayılırdı, «Cağat! Cağat biz ki ömür-gün, yol yoldaşıyıq». Bu nədir, yoxsa… – qəlbi bərk sancdı, – Yoxsa mənim nəslim lənətlənib! – Dərindən nəfəs aldı, sinəsinə dolan nəfəs ilan kimi fışıldadı, – Nənəm deyərdi ki, atamın atası da elə sayıqlayırmış! Ondan öncəki babamda elə sayıqlayıb, nənəm o vaxt uşaq olsa da yadında qalıbmış! Bu nədir? – Rus dilində Allahdan kömək istədi, ağzını açıb yumdu, – Tanrı! Tarımm… – türkcə zarıdı.

Tanrı sözünü eşidənlər key-key ona baxdı. Kişi gedər ayaq dəlimi olub deyə dşündülər. Axı o bir vaxtlar huş-başını tez-tez itirən qoca nənəsinə türk sözləri işlətdiyinə görə əsəbləşmişdi, indisə özü ölüm ayağında türkcə danışırdı…

Oğlu gülümsünməyə çalışdı:

– Yəqin yuxuda da türkləri, tatarları qırır, onlarla türk dilində danışır…

Otaqdakılar başları ilə onun dediklərini təsdiqlədilər.

Yermolovun qulağına Cağatın kişnəməsi gəldi. Gözünü açıb ata baxdı, ağzına dolan qumu tüpürdü, Qum ağzına qədər çatmışdı. Tünd göy rəngli at ona baxaraq dayanmışdı. Yermalov yalvardı:

– Cağat! Cağat mənəm, tanımadın?

Cağat kişnədi:

– Sən kimsən?

– Mən Sakit tayfasındanam.

– Yox sən daha o qanın daşıyıcısı deyilsən!

– Yolumuz ki, bir olub. Sən ki, mənə, sakit nəslinə ömür-gün yoldaşı olmusan! Ta Tanrı dağından buralaracan yol gəlmişik. Elə deyilmi?

Atın gözləri yaşardı, amma birdən qəzəblə kişnədi:

– Hansı səmtdədir sənin Tanrı dağın?

– Səmtini unutmuşam, amma babalarım oradan gəlib, Cağat! Mənim atalarım və sənin ataların… – deyə ata baxdı.

– Gəldiyiniz yolu belə unutdunuz!

– Qanımkı o qandır!

Cağat onu imsilədi, fınxırdı:

– Yox, sənin qanın pozulub! – at başını döndərib geri çöndü.

Atın getdiyini görən Yermolov bağırdı:

– Getmə! Cağat! Cağat biz ki ömür-gün, yol yoldaşıyıq! Məni tək qoyma! Məni ölümə tərk etmə! O zamandakı kimi, yenə bu bəladan al-apar məni…

Cağat fınxırdı, qum dumanının içində yox oldu. Yerdə qalan izlərini qum yavaş-yavaş ötürdü. Yermolov ağzını balıq kimi açıb-yumub atın getdiyi səmtə baxırdı.

…Uzun yüz illər əvvəldi. Sakit yurduna xəbər gəldi ki, Tanrı dağı tərəfdə bir at peyda olub, tünd göy rəngdə, kim görürsə gözü düşür, di gəl ki, kimsə o atı kəməndə sala bilmir, at qaçıb yoxa çıxır, birdə bir müddət sonra yenidən peyda olur. Bu xəbərdən sonra Sakit igidləridə atlanıb o atı tutmaq üçün Tanrı dağlarına getdilər. Suyer bəy doqquz yaşlı oğlunu da özü ilə aparmışdı. Tanrı dağlarının ətəklərində çadırlar quruldu, Tanrıya təkə, buğa, qoyun qurbanları kəsildi. Sonra ov-ovlandı, quş-quşlandı, tonqallar qalandı, köz salındı, kabab çəkildi, yeyildi-içildi. Bu minvalla yeddi gün–yeddi gecə o atı gözlədilər, amma atı görə bilmədilər. Yeddi günlük axtarışdan sonra qismət deyilmiş deyib, yığışıb geri dönmək istəyirdilər ki, birdən baxdılar ki, dağının

ətəklərindən bir toz dumanı qalxıb, gəl görəsən. Sakit igidləri əvvəlcə elə düşündü ki, düşməndir yəqin onlara tərəf gəlir. Suyer bəy qəzəblə bağırdı:

– Döyüşə hazırlaşın. Düşmən məhv edilməlidir. Onlar bizim Tanrı dağına ayaq basıb, cəzaları ölüm olmalıdır. – Tanrı dağı müqəddəs dağ hesab olunurdu, onun ətəklərində qurban kəsən türklər, özləri daxil olmaqla kimsəyə bu dağın zirvəsinə ayaq basmağa izin vermirdi, türk olmayanlar isə buralara gələ bilməzdi.

Onlar döyüşə vəziyyəti almışdılar ki, bir də gördülər, budur gələn tünd göy rəngli atdır. Hamı atlanıb ata tərəf çapdı ki, kəməndə salsınlar, amma kimsə ata yetişə bilmirdi. At hamını bir yana pələsəng edib Suyerin doqquz yaşlı oğlu Sakitayın atına tərəf çapdı. Sakitay ona tərəf qaçan, ayaqlarını atdıqca əzələləri bəli olan göy xallı atı görüb bağırdı:

– Cağ at, cağ at! – yəni bu görülməmiş bir atdır, "təzə at, təzə at" deyə bağırdı.

At bu səsi eşidib bir anlıq duruxdu, çönüb Sakitaya baxdı. Atın gözündə bir mehribanlıq parlayırdı. Sakitay bu mehribançılıq hissini anlamış olacaq ki, öz atının belindən göy atın belinə atıldı. Doqquz yaşlı Sakitay kəməndlə tutula bilməyən atın yalın belinə atılaraq ram etmək istəyirdi. At qabaq ayaqlarını yuxarıya doğru ataraq şaxə qalxdı, amma atın yalınından bərk-bərk yapışmış Sakitay onun belindən düşmədi. Bundan sonra at dörd ayaq atılıb düşməyə başladı. Sakitay atı sehirləyən sözü yenidən təkrarladı, amma bu dəfə ad olaraq dedi:

– Cağat oğlum, cağat oğlum, sakit ol.

At bu səsi eşitdikdən sonra sakitləşdi, fınxıraraq başını döndərib ona baxdı.

O gündən o yurdda bu atdan neçə-neçə göy atlar törədi və bu cinsə Cağat cinsi dedilər.

Sakitay tayfasına şad* olduqda bu münasibətlə öz yoldaşları ilə ov ovlamağa getmişdi, bundan xəbər tutan çinlilər onları pusquya saldı. Sakitay yaxınlaşmaqda olan çinli dəstəsini görüb, əmr etdi:

---

* *bəy, başçı*

– Bayrağımızı qaldırın.

Qardaşı Arslan tez atın tərkindəki bayrağı havaya qaldırdı. Uğur rəmizi olan, «Tanrını» ifadə edən dörd tərəfli xaç şəkilli bayraq havada dalğalandı.

Sakitay başını göy səmaya tutaraq dilləndi:

– Tək Tanrım xalqımı başsız, bizi əlacsız qoyma. Qızlarımızı düşmənə kəniz, sakitlərimi düşmənə qul, xalqımı yurdsuz qoyma. Tək Tanrım, türk tək sənə baş əyər, tək sənin var etdiyin yerə diz çökər! Bizi düşmənə baş əydirmə, diz çökdürmə.

– Tək Tanrı bizi qoru! – Sakit igidləri bağırdı.

Sakitay yaxınlaşan çinli dəstəsinə baxaraq dilləndi:

– Bəlkə də məqsədləri qan tökmək deyil! İlk oxu biz atmayaq! Arslan sən irəli çap, gör məqsədləri nədir! Sülh üçün get!

Arslan dördtərəfli xaç damğası olan «Tanrı» rəmzli bayrağı yanındakı igidə verib düşmənə tərəf capdı və ox mənzilinə az qalmış dayandı. Çinli dəstəsindən də bir nəfər ayrılıb ona tərəf capdı, üz-üzə dayandılar. Arslan baş barmağı ilə şəhadət barmağını birləşdirib əvvəl alnına sonra sinəsinə çəkərək, böyük çöllərdə ümumi danışıq dili olan türk dilində dilləndi:

– Sülh üçün gəlmişəm! – bütün türk tayfalarında baş barmaqla şəhadət barmağı bipləşdirib başa və sinəyə çəkmək «yerlə göy arasındakının olan Tanrının adıyla» mənasına gəlib “sülhə” işarə idi.

Qılıncının tiyəsindən bərk-bərk yapışan çinli elçi:

– Qan axıtmaq üçün gəlmişik. Bu gün sizə ölüm var! – deyib qılıncını qınından çəkdi ki, Arslanı vursun.

Arslan atının yüyənini geri dartıb, arxaya doğru əyildi, at buna bəndmiş kimi geri sıçradı, çinlinin qılıncı boşa çıxdı. Arslan xəncərini belindən dartığıyla çinliyə atması bir oldu, xəncər zireh geymiş çinlinin yeganə zirehsiz yeri olan boğazına saplandı. Çinlinin boğazından qan fışqırdı, əlləri boşaldı, əvvəlcə qılıncı əlindən düşdü, sonra özü atın belindən yıxıldı. Arslan çinliyə sarı çapdı, əyilib yıxılmaqda olan çınlinin boğazından xəncərini dartıb aldı və atını ona tərəf çapan çinlilərə sarı sürdü, yayına eyni anda iki ox qoyub atdı, iki çinli at qarışıq yerə yıxıldı, bir neçə

çinlinin atı da yıxılan atlara ilişərək yıxıldı. Sakitay olan mənzərəni görüb əlini irəli tuşladı:

– Urra! Tək Tanrı özün yar ol! Urra-urra!*

Sakit igidləri nərə çəkərək düşmənə sarı çapdı:

– Urra! urra! – Arslana yetişərək ox mənzilindən düşməni oxa tutdular.

Mütiş bir döyüş oldu, Sakitaygil iyirmi nəfər idi, onları pusquya salan çinlilərsə iki yüz nəfərdi. Sakitayın əmri ilə yoldaşları qılınc davasına girmədən atla geri çəkilə-çəkilə düşməni oxlamağa başladı. Onlar geri çəkilir, anidən geriyə dönərək çinlilləri daha yaxından oxlayır və yenidən çinlilərdən uzaqlaşırdılar. Bu türklərə bəlli olan Turan taktikası idi. Onlarla çinli sərras atılan oxlarla öldürülmüşdü, amma Sakit igidlərinin ox qabında ox qalmamışdı və çinlilərin qarşı tərəfdən ikinci dəstəsi köməyə gəlmişdi. Artıq Sakit igidlərinin mühasirəyə düşməsi an məsələsi idi, elə bu an Cağat atları ayaqlarını bərkdən yerə vuraraq qaçmağa başladılar, onların ardınca boz çöllükdə qum dumanı qalxmağa başladı. Nə sirdir, nə qüdrətdir bilinmir, bu təsadüfdü, ya həqiqətən də o qum fırtınasını o atlarmı qaldırdı bilinmir, bilinən odur ki, boz çöllükdə böyük qum fırtınası qalxdı. Göy atlar qum fartınasını özləri qaldırdığındanmı, ya daha bərk qaçdıqlarındanmı sakitləri qum fartınasına düşmədi, çinlilərin bütün ordusu qum fırtınasında tələf oldu.

Sakitay yurduna ayaq basan kimi, atından yerə düşüb atını qucaqladı, ilk dəfə onda bu sözləri dedi:

– Cağatım! Cağat, biz ömür-gün, yol yoldaşıyıq! Cağatlar bizi düşmən əlinə vermədi, bacılarımızı ağlatmadı, analarımızı gözü yaşlı qoymadı! Cağat atları, bu göy atlar bizə Tanrının hədiyəsidir. Bu gündən bizim Sakit nəslinin cigitləri ilə Cağatlar ömürlük ömür-gün yoldaşıdır!

O gündən həqiqətən də Cağatlar və Sakit türkləri ömür-gün yoldaşı oldular, Sakit nəsli böyüyüb dörd yerə ayrıldı. Cagitayın kiçik oğlu ta qədim zamanlardan bu günəcən sürən törəyə görə ata yurdunda, Orta Asiyada qalıb yaşadı…

---

* *«ur» qədim türkcədə «vur» mənasında işlənmişdir, «ur» sözünün önünə bıçaq, balta sözlərinin önüdəki «Bİ» səs gələrək B-UR~V+UR kimi səslənmişdir.*

Sakitayın qardaşı Arslandan törəyən tayfa köçüb Dnepr çayı ətrafına gəlib burada özlərinə el tutdular, qıpçaqlarla, roslarla birlikdə yaşadılar, buralar «qıpçaq bozqırı» adlanırdı, ərəblər qaynaqlarında bura "dəşti qıpçaq" adı ilə məhşur idi. Hətta 1335-ci ildə Qızıl Ordaya səyahət etmiş ərəb səyyahı İbn Batuta bu haqda yazaraq deyirdi, – «Dəşti-Qıpçaq uzunluğu 8, eni 6 ay gedilən bir bölgədir. Bu ölkədə Dünay, Yenisey, Lena çayları axır». Amma bir gün xəbər eşidildi ki, Çingiz xanın manqol-tatar ordusu Dəşti-Qıpçağa hücuma kecib.* Alan və qıpçaq türk tayfaları ordularını birləşdirərək Çingiz xanın ordusunu məğlub etdilər, manqol-tatar ordusu yalnız 13 illik hazırlıqdan sonra yenidən bu ərazilərə hücum edəcəkdi, amma bu dəfə özlərinə rəqib bildikləri qıpçaqları qılıncdan keçirdəcəkdilər, geridə qalan qıpçaqlar kimliklərini gizlətdi, roslarla, slavyanlarla birlikdə yaşadı, qaynayıb-qarışıb, "yeni rus" xalqını formalaşdırdılar, bundan belə türk dilində danışan qıpçaqlardan və Sakit soyunundan keçmişini xəbər alanda rusca cavab verəcəkdi.

* * *

O günəcən kimsə uzaq məsafələri belə tez qət etməmişdi. Manqol-tatar ordusu bəzən xəbərlərindən öncə gəlirdi, nadir hallardasa, xəbərləri ilə dabanbasdı Qərbə doğru irəliləyirdilər! Çingiz xanın, Batı xanın ordusunda dünyanı heyrətə salan igidlər içində Sakit soyu da vardı.

Sakit, səssiz bir gecə idi, ay işığında köbələk kimi yan-yana düzülmüş çadırlar aydın görsənirdi. Bir pıçıltı səssizliyi pozdu:

---

* *(1222-ci ildə monqollar Dərbəndən Şimalı Qafqaza və Dəşti Qıpçağa hücum etdi. Alan və qıpçaqların ordu birləşməsi ilə qarşılaşan monqollar ilk məğlubiyyətlərini daddılar və geri çəkildilər. Monqol ordusu ardınca Volqa Bulqar dövləti üzərinə yeridi və ikinci ən böyük məğlubiyyətlərini daddı, bu yürüşlərə başçılıq edən sərkərdələr Cəbə və Subudaydı. Çingiz xan 1227-ci ildə öldü. 1235-ci ildə Çingiz xanın nəvəsi Batı xan Subuday bahadırla birlikdə 140 minlik ordusuyla Şərqi Avropaya hücum əməliyyatına başladı. Orta Volqa ilə irəliyyən ordu 1237-1238-ci illərdə Ryazan və Moskvanı tutdu, Vladimir süqüt etdi. 1239-cu ildə Qıpçaq ərazisi tamamilə tutuldu)*

– Minbaşı Günçi, obanın gözçüləri öldürülüb, oba tam mühasirəyə almışıq. – onbaşı manqol minbaşısına dedi.

– Hücum, hamını qılıncdan keçirin! – Minbaşı əmr verdi.

Minbaşı Günçiyə tabe olan Sakit soyundan Boqər bəy etiraz etdi:

– Günçi, neçə yəni hamını qılıncdan keçirin?! – Əlini uzadıb çadırları göstərdi, – Bu ordu çadırları deyil, bu bir yurddur, körpəsi var, qızı-gəlini var.

– Boqər, xanın əmri var! Bütün qıpçaqları, alanları, bolqarları qılıncdan keçirmək lazımdır! Ordumuzu bu günə kimi onlardan başqa kimsə məğlub etməyib, aman verilsə yenə edə bilərlər! – O da əlini uzadıb çadırları göstərdi, – O çadırlarda yatanlar bir əjdahadır, oyansa hamımızı udar! Bizə yalnız rosları, slavyanları sağ buraxmaq əmr olunub, – gülümsündü, – bac almağa kimisə sağ buraxmaq lazımdır axı.

– Törəyə görə araba boyunu keçməyən heç bir uşaq öldürülə bilməz, hətta ən amansız düşmənin oğlu olsa belə! Sən indi deyirsən, öz soyumuzdan olanların bütün soyunu qurudacan?!

– Törənin bu qaydaları burada işləmiyəcək! – Çiyinlərini çəkdi, – Əmr xanındır, mənlik heç nə yoxdur! Bilirsən də əmrə qarşı gəlməyin sonu nə olur?! – Üzünü əsgərlər tutdu, – Hücum.

Gecənin sakitliyini yanan oxların səsləri pozdu, ay işığından köbələklər bənzəyən çadırlar bir andaca alovlanıb tutuşdu, ardından manqol-tatar ordusu hücuma keçdi.

Obanın bəyi Albaş oxqabısını çiyninə keçirib, qılınc və yayını əlinə alıb çadırdan çıxdı və bağırdı:

– Silahlanın! Uşaqlar, qocalar obanın mərkəzinə yığışsın!

Obada əli silah tutan hər kəs, kişili qadınlı döyüş mövqeyi tutdu, uşaqlar və qocalar obanın mərkəzinə toplaşdı. Albaş bağırdı:

– Gələn atlıları oxlayın! Özünüzü qoruyun, meydan döyüşünə tələsməyin! Oxlayın itləri!

Xanın əmrini hər kəs təkrarladı, obadan qalxan oxlar manqol-tatar süvarilərini qırıb-biçdi. Albaş bağırdı:

– Kimsiz! Niyə çaqqal hinə girən kimi yurd basırsız?!

Günçü qalxanına saplanan oxları qılıncı ilə kəsdi, üzünü çöndərib Boqərə baxdı:

– Gördün! Sənə dedim, bu əjdaha oyanmasın, oyansa qabağında durmaq olmur! – bağırdı, – Onbaşı ağ bayraq qaldırın! Danışaq!

Boqər sevincək dedi:

– Savaş bitdi?!

– Savaş hara bitir?! Hiylə işlədək, silahlarını yerə qoysunlar, sonra hamısını qırarıq!

Albaş qarşı tərəfin ağ bayraq qaldırdığını görüb, böyük oğluna səsləndi:

– Baladəmir ağ bayraq qaldırın, ata min irəli çıx, gör nə istəyirlər.

Baladəmir göy xallı Cağatına minib, ağ bayraq tutaraq irəli çapdı. Bunu görən minbaşı üzünü Boqərə tutdu:

– Danışıqlar üçün sən get!

Boqər minbaşıya baxdı, ayağı ilə atının qarnına vurdu, atını çaparaq ağaclıqdan çıxdı, ay işığında atının göy xallı dərisi aydınca görünürdü.

Baladəmir ona yaxınlaşan atlıya səsləndi:

– Soy soyla, boy boyla, görək kimsən! – Gələn atlının atının da göy xallı dərisini görüb soruşdu, – Bu Cağat sənə haradandır?!

Baladəmirə yaxınlaşan Boqər qarşısındakı atlının sualına sanki diksindi:

– Cağatmı?! Cağat bizim ömür-gün yoldaşımızdır! – qeyri ixtiyari cavabladı və pıçıldadı, – Yoxsa siz Sakit boyundansız?

– Sakit boyundan Arslanlarıq! Yoxsa sizdə Sakit boyusuz?!

– Hə... – pərt halda dedi.

– Vay halımıza! Özümüz özümüzün qanını axıdırıq, vay halımıza! – Baladəmir başını bulayaraq dedi, – Törəmizdə boy boylamaq, soy soylamaq yoxdurmu?! Soruşmadan, bilmədən nəyin qanını axıdırsız? – heyfsilənərək dedi. – Babalarımız, nənələrimiz, ozanlarımız Tanrı dağından, orada qalan soyumuzdan danışırdı, indi siz gələ-gələ Tanrı dağlarından ölümmü gətirdiz, qan-qadamı gətirdiz?!

– Ölüm, qan-qada... – Boqər utanaraq pıçıldadı və nəsə düşünüb tez dedi, – İndi küsmək vaxtı deyil! Orada qalanların hamısı manqol xanlarına tabedir, xanın əmri var, bütün qıpçaqların qırılmasının əmrini verib xan!

– Qıpçaq ha... – kinayə ilə gülümsündü, – Denən ki, türkə türkün qırılmasının əmrini verib də!

– Elə çıxır! Qulaq as, atam soyu, mən indi gedib deyirəm ki, siz silahları yerə qoymağa razısız! Sonra öz tayfama xəbər salım, bu günü ya sakitlər öləcək, ya manqollar. Sonrasını sonra düşünək.

Obanın təslim olması xəbərini eşitdikdən sonra bütün manqol-tatar ordusu ortaya çıxdı, obadakıların tərki silah olunmasına tamaşa edim deyərkən, Albaşın adamları paltarlarının altında gizlətdikləri qılınclarını çıxarıb manqolların üstünə hücum çəkdilər və eyni anda Boqərin adamları da arxadan manqollara hücum çəkdi...

Dan ağaranda hər yan qan içində idi, sağ qalan sakitlər biri-birinə baxıb ağlaşırdı.

Boqər Albaşa dedi:

– Mən belə başa düşürəm ki, manqollar sizi rəqib kimi görür və ya qorxur ki, qıpçaqlarla tatarlar birləşər, axı ikisi də türkdür, bu üzdən də qıpçaqları qırmadan bunlar rahat duran deyil! Onlar yalnız bac almaq üçün, rosları, slavyanları sağ buraxacaq! Mən də indi öyrəndim bunu. Gedin buralardan!

– Bəs sən, bəs siz?! – Albaş soruşdu.

– Bu yolun dönüşü yoxdur! Günahımızı yumaq lazımdır! Biz bacardığımız qədər soydaşlarımızı xilas etməliyik!

O gündən Dəşti Qıpçaq öz sahiblərinin qanına bulandı və ilk o günü roslar, slavyanlar monqollar tərəfindən Moskvanın əsl sahiblərinə, baş knyazlarına çevrildilər. Əsrlər sonra ruslar yaşanılmış bu qanlı tarixi yazaraq manqol-tatar zülmündən danışacaqdılar, amma yazmayacaqdı ki, əsl qatliyamı qıpçaq türkləri yaşayıb, sağ qalanlar ya dəşti-qıpçaqdan köçüb, ya da kimliyimi gizlədərək roslar və slavyanlarla yaşamağa başlayıb, keçmişlərini unudublar, bu rus alimlərinə imkan verəcək ki, onlar Kiyev şəhərini rus tarixinin başlanğıcı kimi göstərsinlər. XII əsrəcən danışılan türk dili sonrakı yüz illikdə yavaş-yavaş əriyəcəkdi, yox olacaqdı...

Sakit türklərinin bayraqlarındakı xaç damğalı «Tanrı» rəmzi ilə xristianlıqdakı xaçın, bütün qədim türklərin sülh-əmin-amanlıq

diləmək üçün baş barmaqlarını şəhadət barmağına birləşdirərək başlarına sinələrinə çəkmələri ilə, xristianlırın əlləri ilə xaç çəkməsi oxşarlığının əlbəttə ki, tarixi-məntiqi bir açıqlaması vardır. Eranın başlarında Qərbə köç edən TÜRKlər Avropaya öz Tanrıçılıq dinlərini gətirmişdilər və İsanı da qəbul edərək Avropaya öz İsalı Tanrıçılıqlarını yaymışdılar. Lakin Atillanın ölümündən sonra hun-TÜRKlər Avropadakı qüdrətlərini itirdilər. Tezliklə, Avropa Roması TÜRK idealogiyasından canını qurtarmaq üçün xristianlığa yeniliklər gətirdi. Dəşti-Qıpçaq TÜRKlərisə manqol qətllərindən sonra ərazidəki güclərini itirdilər, kimliklərini gizlədərk slavyanlaşdılar, lakin onlar 1666-cı iləcən İsalı Tanrıçılığa sitayiş edirdi, yalnız bu tarixdən sonra hakimiyyətini möhkəmlətməkdə olan Moskva slavyan-rus knyazlığı Bizans xristiyanlığına keçdi. Slavyan-rus hakimiyyəti TÜRK irsindən özünə saxta keçmiş düzəltməyə başladı, türk dastanları ruslaşdırılaraq yeniləndi. Onlar dəşti-qıpcaq türklərinin ros-türk qarışığı dilini ukraniya dili adlandırdılar, tarix boyu ukraniya dili adı altında ölməkdə olan türkcəni, rus şivəsi ilə boğulan türkcəni danışmağa qadağan etdilər. II Yekatirinanın bir fərmanında deyilirdi – «Bütün üsullarla çalışmaq lazımdarı ki, onlar ruslaşsın».* Onlar kimdi? Əgər onlar rus olsa və ya slavyan məşəlli olsalardı, onda II Yekatirina nəyə onların ruslaşdırma barəsində fərman verirdi? Bəli o zaman onlar hələ də türklüklərini tam itirməmişdilər!

Buna görə olacaq ki, 1876-ci ildə II Aleksandır göstəriş verdi ki, Ukranya dilinin danışılması, bu dildə kitab çap edilməsi qadağan olsun. Çünki onlar XIX əsrdə böyük rus xalqı və tarixindən danışan uydurma hekayələri və nağılları tarix deyə yazacaqdılar. Bunu yazdıqda Moskvadakı rus-dvoryanlarının kökünün-nüvəsinin qıpçaq türklərindən olması faktını görməzdən gələcəkdilər. Hətta son əsrəcən mənasını bilməsə belə rus qadınlarının dualarda belə deyəcəkdi: – «Tankrı Bizi sakkla!». Görən bu hansı dildi, bu hansı Tanrıydı, bu axı böyük rus xalqının dilinə heç oxşamırdı!

Özünü tanısan Tanrını da tanıyarsan! Amma onlar Tanrılarını unutduqlarından özlərini, keçmişlərini, türklüklərini, türk mənliklərini unutdular!

---

* *Murad Aci*

Baladəmirin evində türk örf-adətləri artıq demək olar ki, unudulmuşdu, axı onlar zamana uyğunlaşırdılar! Amma anlamırdılar ki, zamanla uyğunlaşmaq milli adət-ənənəni, min illik örfünü satmaq demək deyil. Amma onlar bunu onda anlamadılar, heç sonralar da anlamayacaqdılar, çünki sonralar onlara rus deyəcəkdilər. Yəni qısaca olaraq, hər sözü satmaq, hər geyimində bir naxışı dəyişmək Baladəmirdən Vladimirə, türkdən rusa dönməyə gedirdi…

Yermolovun yeddinci babası (III) Baladəmir artıq türk dilini unutmuşdu, onu artıq Baladəmir kimi yox, Vladimir deyə çağırıdılar, o buna nəinki etiraz edirdi, hətta bundan xoşhallanırdı. Axı onlar qonşu olduqları ruslarla iç-içə yaşayırdılar və onun adının belə deyilməsi iki millətin biri-birinə sevgi ilə qucaqlaşması idi. Amma çox sonralar zaman göstərəcəkdi ki, bu biri-birini sevgi ilə qucaqlamaq deyilmiş, birinin digərini boğması imiş.

Üçünçü Baladəmirin keçmişindən qopmayan, var gücü ilə türk keçmişindən xəbər verən bir nişanə qalmışdı, Cağat çinsindən olan göy xallı atı. Bir gün o atının yanına gəlib, hər gün adət etdiyi kimi atını oxşamağa, qaşoylamağa başladı və hər zamanki kimi əzizlədi. Amma bu dəfə türkçə yox rusca əzizlədi atını. Göy at başını çevirərək onu itələdi, bir həftə onu yanına buraxmadı. Baladəmir bu hadisədən çox üzülsə də, atının niyə belə etdiyini anlamamışdı. Atsa hər gün gəlib Baladəmirin nənəsinin türkcə zümzümə etdiyi şerlərə qulaq asaraq göz yaşı tökürdü. Tanrı sözünü eşidəndə şaxə qalxır, sanki oynamaq istəyirdi. Sonra bir gün Baladəmir Bizans xristianlığını qəbul etdi. Həmin günü Cağat çinsi at yeri eşib, atılıb-durdu. Nənənin türkcə şerləri də ata bir fayda etmirdi. Nənə atın rahat durmadığını görüb səsləndi:

– A bala çölə çıxın, deyəsən zəlzələ, fəlakət olacaq! At yaman narahatdır! – atın hərəkətlərinə baxıb həyacanla bağırdı, – Tanrı özün saxla! Özün bizi qoru, bu at niyə belə edir? – amma kimsə bilmədi ki, at həqiqətən də bir fəlakət hiss etmişdi, amma o fəlakət o günü baş versə də, o gün onu kimsə hiss etməyəcəkdi. O fəlakəti heç bu gündə doğru dürüst kimsə anlaya bilmir. Amma mən Cağat cinsindən tünd göy rəngli xallı bir at görürəm, hələ də yaman narahatdır! Tanrı özü saxlasın!

O gün Baladəmir Bizans xristianlığını qəbul etdi. Nənə heç nə demədi nəvəsinə, yalınız özü-özünə pıçıldadı:

– Tanrı özün saxla! Tanrı özün keç bizim günahımızdan! Tanrı sən Sakit soyunu bağışla!

Birdən həyətdə bərk şaqqıltı qopdu, at ipini qırıb Baladəmirin yanına gəlmişdi. Qəribə bir səhnə idi. Baladəmir atın gözündəki inciklíyi, küskünlüyü görüb duruxmuşdu. Amma o atın gözünda daha bir hissin olduğunu anlasa da, bu hissi oxuya bilmirdi. At fınxıraraq onun gözlərinə baxırdı. Kimsə nə bir şey edir, nə bir söz deyir, nə bu işdə olan sırrin nə olduğunu anlayırdı, nə də ki bu səhnənin təsirindən çıxa bilirdi. At ağzını açıb Baladəmirin boynundakı İsalı xaçı dartıb qırdı, yerə ataraq ayaqladı. Sonra yenidən fınxıraraq sahibinin üzünə baxdı. Sahibi yerdən xaçı götürüb yenidən boğazına bağlayaraq olan hadisəyə gülmək istədi. Axı onun ağlından ani olaraq elə bir fikir keçmişdi ki, belə bir fikirə yalnız uşaqlar inana bilərdi: – Atın mənə acığı tutub ki, mən dinimi dəyişmişəm! – gülümsədi, – Hı, atın acığı tutub mənə! Guya at bizdən vəfalıymış! – Hətta güldü, gülə-gülə atın yüyənindən dartdı, aparıb bağlamaq istədi.

Göy at dartınaraq sahibinə baxdı, başını yaxınlaşdıraraq onu imsilədi, başını yellədi, sanki nəyəsə etiraz edirdi. Sonra boynu ilə sahibini itələyib arxasını çevirdi, başını çöndərib nənəyə baxdı. Nənə də diqqətlə atın gözlərinə baxdı, at ağlayırdı. At qabaq ayaqlarını üç dəfə bərkdən yerə vuraraq şaxə qalıxdı, kişnədi. Haradasa uzaqdan bir qurd sürüsü ulayaraq ona qoşuldu. Yenidən nənənin gözünə baxdı, sanki nənəyə nəsə demək istəyirdi. Nənə də deyəsən onun nə demək istədiyini anladı:

– Tanrı səni saxlasın! Yoluna uğur! Tanrı dağlarında, Kaylisada mənim üçün də ağla! Buralar artıq sənə dar gələr, burda sənin baş əydiyin, ram olduğun türk oğlu türk qalmayıb! Get! Tanrı yar olsun! Burada sakit türk qalmadı, yoluna uğur! Tanrı sənlə olsun! – o ağlayaraq dedi.

At başını tərpədərək astadan fınxırdı:

– Hhhəəə… – son kəs sahibinə baxdı, başını yelləyərək çöndü, yerindən ox kimi sıçrayıb qaçdı!

Baladəmir hələ də gülürdü:

– Bu ata nə olub?! Ay nənə sən nə danışırsan?! – sanki birdən qəlbinin ortasında təndir qaladılar, özü də istəmədən dilləndi – Cağat! Cağat biz ki ömür-gün, yol yoldaşıyıq! Məni tək qoyma! Cağatlar ki, həmişə bizə yoldaşlıq edib, bizi zəfərlərə aparıb! Biz bir yerdə ta gündoğandan buralara gəlmişik! Burada kimimiz var ki?! Cağattttt!

At Baladəmirin səsinə dayandı, çönüb onun boynundakı İsalı xaça baxdı, başını yelləyərək sanki nəyəsə etiraz etdi, sonra başını dikəldib göyə baxdı, ardınca şaxə qalxaraq kişnədi və ayağını yerə vuraraq dörd nallı çapmağa başladı. Baladəmirin oğulları atın dalınca çapdı, amma yetişə bilmədilər. Haradan göy xallı at soruşdularsa dedilər ki, şərqə, gündoğana tərəf gedirdi. O buralarda qalan son göy rəngli cağat nəslindən olan atdı.

Deyirlər kimsə onu tuta bilmədi. O üzünü günə tərəf tutub çapırdı. Tanrı dağlarından ona tərəf yel əsirdi. Onu Tanrıdağı gözləyirdi...

Baladəmr ölüm yatağına düşəndə kabuslar görməyə başladı, hər sayıqlayaraq ayılanda deyirmiş:

– Cağat biz ki, ömür-gün, yol yoldaşıyıq! Məni tək qoyma! Getmə!

At fınxırdı:

– Niyə keçmişini, dinini satdın? Niyə boynundan İsalı xaç asdın?

– Mən ki, babalarımın inandığı «Tanrı» rəmzli xaçı asmışam boynumdan. Onlar o xaçı bayrağında gəzdirirdi, mən də boynumdan asmışam.

– Hə, onlar uğur gətirəcək, «Tanrı» damğalı xaça inanırdı, bu xaçsa sizin uğurnuzu alacaq! O xaç Tanrını ifadə edən damğa idi, o İsanın çarmıxa çəkildiyini ifadə etmirdi, İsalı xaçsa bir bütdür! Tanrı damğasınıda unutdun, Tək Tanrını unutdun! – at qəzəblə kişnədi, – Niyə xaç çəkirsən?

– Axı o da bizim dədə babalarımızın inançından biri idi, Tanrını adını ifadə edir, sülh-əmin-əmanlıq rəmzidir…

– Hə, türklər o işarəni sülh-əminəmanlıq üçün edirdi, xaç çəkənlərsə türkü-müsəlmanları məhv etmək üçün Allah dinini alət edir. Bunlar səncə oxşardır?

– Bağışla Cağat, bir səhvdi etdim! Amma biz daha türk ola bilmərik!

– Bu səhv tək səni yoldan çıxarsa idi, kaşş… – at kişnədi, – amma sənin bu yalnışının ardınca bütün bir nəsil məhv olacaq. Daha kim olduğunu belə bilmirsən.

– Cağat biz ki, ömür-gün, yol yoldaşıyıq! Məni tək qoyma! Getmə! – diz çökərək yalvardı.

At arxasını çönüb boz çöllükdə qum fırtınasının içində itdi. Baladəmir qumun içində batırdı, gözlərini at gedən səmtə tuşlamışdı.

Onun meyidini yuyanda hər əlinin içində bir ovuc qum görəcəkdilər. Kimsə anlamamışdı ki, yatağın içində ola-ola onun əlindəki bu qum haradandır?!

* * *

Yermolov qum dumanının içində onun başına dövrə vuraraq, qum fartınasını daha da gücləndirən ata baxırdı. Artıq qum onu burnunacan örtmüşdü. O qumun içindən çıxmaq istəyirdi, əlini var qüvvəsi ilə düyünlədi, əlləri qumda olduğundan, ovucları qumla doldu. At fınxıraraq yerə daha bir zərbə endirdi. O diksinib ayıldı:

– Cağat biz ki, ömür-gün, yol yoldaşıyıq! Məni tək qoyma! Gəl! – özü-özünə təskinlik verdi, – A kişi yuxudur! – birdən əlinin içində nəsə olduğunu hiss etdi, əlini açdı, ovcundan yorğana qum dağıldı.

Qoca nənəsi yarı qaranlıq küncdə oturmuşdu, pıçıldayırdı:

– Tanrı, Tanrım Sakit soyuna qıyma! Bağışla bizi! Tanrı ocağımızı söndürmə!

– Nənə?!

– Nədir bala?!

– Niyə elə deyirsən?

– Bala biz keçmişimişə, ata kökümüzə xilaf çıxmışıq, Tanrımızı unutmuşuq! Gəldiyimz yerləri, Tanrı dağını unutmuşuq! Kaylisa dağını kilsələrə satmışıq, o kilsələrə ki, türkü məhv etmək üçün orada min fərman verilir. Biz xalqımıza, soyumuza el

tutmaq üçün gəlmişdik, amma… Göy rəgli atlar bizə Tək Tanrının hədiyəsi idi. Biz Tanrını, türklüyümüzü, özümüzü unutduq, Cağatlar getdi! Çünki o atlar türkə hədiyyə edilmişdi, bizsə artıq rəngi solmuş, özu gedib kölgəsi qalmış insanlarıq, buralara türk kimi gəlmişdik, amma artıq mayasını itirmişlərik! Tanrı bunu bağışlamaz bizə! Deyirəm bəlkə rəhmi gələ! Tanrı özün saxla bizi, vaxtı ilə igıd-sakit adlanan, adı kimi igid olan, sonunda buz-duz olan Sakit soyunu bağışla!

Yermolov ağzına dolan qumu tüpürərək son kəs yalvara bildi:

– Cağat biz ki, ömür-gün, yol yoldaşıyıq! Məni tək qoyma! Gəl! Bağışla məni! Tanrı…

At qəzəblə başını yellədi və qabaq ayaqlarını bir daha yerə vurdu, yerdən şaxə qalxan qum topası onu tamamilə örtdü…

Kimsə bağırdı:

– Yermalov öldü!

Yermolov yataqda uzanmış kül rəngindəki cəsədinə baxırdı. Başındakılar ağlayırdı. Kimsə rus dilində onu səsləyirdi. O ruhunun ən dərin güşəsindən gələn istəyi pıçıldadı:

– Kaş kimsə mənə türkcə ağıt deyəydi, kaş!

Onun meyidini yuyanda kimsə deyəcəkdi:

– Bunun ovcundakı qum haradandır?! Bir qabda su gətir!

Yermolovun ruhu öz ölüsünə baxdı. Onun cəsədini yuyurdular. Amma qabda olan su yox, qandı. Bağırdı:

– Nə edirsiniz? Cəsədimi niyə qanla yuyursunuz?! Su tökün! – birdən ruhunun rəngini gördü. Ruhunun rəngi tünd sarı rəngdə idi.

Göylərdən ona doğru qara bir ləkə enirdi. O qara kölgə ona yaxınlaşdıqca Yermolov boğulmağa başladı! Təlaşla soruşdu:

– Sən kimsən?

– Mən Hoxanyəh xaqanam. Çiçi xaqanın qardaşıyam, onu çinlilərə satan qardaşı!

– Allah bəlanı versin, adam da qardaşını satarmı?! Mənim səni kimi satqınla nə işim var?!

O kinayə ilə güldü:

– Biz hər ikimiz qanı pozuquq! Hər ikimiz qanına dönük çıxdı! Hər ikimiz öz soyunun qanını axıtdı! Bu səbəbdən səni aparacaq olan mənəm!

– Niyə qara rəngdəsən?

– Bu mənim yox, əməllərimin rəngidir!

– Bəs mən niyə sarı rəngdəyəm?!

– Çünki sən keçmişinə dönük çıxmısan! Bu dönüklərin rəngidir! Sənin nəslində sənin yolunu gedərək məhv olduqca sənin rəngin də qaralacaq!

Cəsədinin qanla yuyulmasını görüb şikayətlənirmişcəsinə dedi:

– Bəs cəsədimi niyə su ilə yumurlar? Niyə qanla yuyurlar?!

– O sənin soydaşlarının tökdüyü qandır! Tökdüyün qanı su ilə yumaq olarmı, faydası olarmı?

– Məni hara aparırsan?

– Hesab verəcəyin yerə!

# MİN İLLƏR BİR QATARA SIĞARMI

*Satqın hökümətin qanunları da satqın olur.*
***Tasit***

*Düşmənin dostluğu fürsət tapanacandır.*
***Azərbaycan. atalar sözü***

*Qədir-qiymət bilməyən adama xidmət etmək şoranlıqda toxum əkmək, ölü ilə məşvərət etmək, karın qulağına hikmət dərsi vermək, suyun üzərinə sirr yazmaq kimidir. (sirr yerinə tarix yazsaq bizim millətin halını tam ifaldə etmiş olar)*
**– *Kəlilə və Dimnə kitabından***

Davanın o barıt qoxusunu, əllərimdə can verən yoldaşlarımı, davanın ağrısını-acısını arxada qoymaq, unutmaq istəyirdim. Axı dava artıq arxada qalmışdı, yaşamaq üçünsə irəli baxmaq lazımdı. Özümü inandırmağa çalışırdım ki, davada olanların hamısı düzgün və lazımlı idi. Mənim bunun əksini düşünməyimə səbəb olan bütün hadisələrisə lazımsız, mənasız hesab etməyə çalışırdım, ağlımı qarışdıran bütün keçmişi kəsib atmağa çalışırdım.

Yəqin ki, mən «olmuşa güzəşt» deyən atalarıma oxşamışam, amma deyəsən mən tək deyildim, bəlkə də bunun əksini düşünən tək bir nəfər də yoxdu. Yəqin ona görə ki, insanlar gücü çatmayan vəziyyətə düşəndə, məğlubiyyətlərini, səhvlərini görməzdən gələrək özlərinə bəhanə gətirir. Səncə də elə deyilmi?

Davadan sonra hamı xoş gələcək ümidi ilə yaşayırdı, bu yolda var qüvvələrini sərf edirdilər. Dinc həyata qayıtmış insanlar, yaxşılığa doğru dəyişiliklər gözləyirdi. Aslan da özünü bu hislərlə ovundurmağa çalışırdı:

– Hamı inanır ki, davadan sonra artıq hər şey yaxşı olacaq! Atalarımız nə deyib «palaza bürün, ellə sürün». Mən də keçmişin o baş qarışdıran hadisələrini unutmalıyam. Evlənməliyəm, yaşamalıyam, vəssalam. Qalan şeylə mənim nə işim, ən azından xalqım bu torpaqlarda boy atacaq, yaşayacaq, daha nə lazımdır? Cəhənnəmə ki, dövlətin adı nədir, cəhənnəmə ki, qonşuluğa hay

dığalarını, qancıqlarını gətiriblər! – Aslan bunu dedikdən sonra, daha da ürəklənərək hətta ucadan dedi – Hə, hə, hər şey yaxşı olacaq. Qanda, qadada geridə qaldı, irəli baxmaq lazımdır, yalnız irəli.

* * *

Aslangilin kəndinə gələn yoldakı bir qaraltı hər kəsin diqqətini cəlb eləmişdi. Gələn əsgər paltarında, üz-gözünü tük basmış, arıqlığı paltarından bəlli olan biri idi. Əsgəri görənlər diqqətlə ona baxır, bilmək istəyirdilər ki, görsünlər hansı bəxtəvərin oğludur qayıdan. Amma kimsə onu tanıya bilmirdi ki, muştuluğa qaçsın.

Yolun başına xeyli adam toplaşmışdı. Hamı diqqətlə gözünü yola dikmişdu, bilmək istəyirdilər ki, görsünlər gələn kimdir. Bir ana sonunda bu həyacana dözə bilməyərək qabağa çıxaraq əsgərə tərəf qaçdı. Toplaşanlar da bu ananın arxasınca əsgərə tərəf yeridi. Əsgər camaatın ona tərəf gəlməsini görəndə ürəyi qısıldı, onsuz da yavaş olan addımlarını daha da yavaşıtdı. Analardan biri daha dözə bilməyib ona tərəf bağırdı:

– A bala kimlərdənsən? – hamı artıq ona tərəfə yerimirdi, qaçırdı.

– Mən… – o danışa bilmədi, gözləri yaşardı.

Bir başqa ana:

– Qurvan olum, xoş gəlmisən, gəldiyin yollara qurvan! Qalanlarda gəlsin! Ayağın səyalı olsun! Bala Oruc öyündənsənmi?

– Yox… – o sıxıldı, hiss elədi ki, bu hal başına gələnlərdən də ağırdı, pərt halda dedi, – Bağışlayın analar, mən bu kəndən döyüləm. Bağışlayın…

Hamı duruxdu, anaların üzündəki həyacan keyidi, gəlinlərin üzündəki ümid şüşə kimi qırılıb çılik-çilik oldu. İlk öncə qabağa çıxan ana bu dəfə də yenidən ona tərəf yeriyərək qolundan tutdu:

– Nə olsun oğul, sən də bizim balamızsan. Sizi, hamınızı bu davaya biz analar yola salmışıq. Bala, gəl bəri, sıxılma. – Aişə ana həlim səslə dedi.

– Sağ ol, ana. – «ana» sözündən sonra gözləri yaşardı, özünü saxlaya bilmədi, bəlkə hönkürərək ağlamadı, amma göz yaşlarını

da saxlaya bilmədi. Göz yaşları səssizcə, izinsizcə süzülərək yanaqlarına töküldü.

Həmin ana əlini onun yanaqlarına apararaq yaşlarını sildi:

– Oğul yaşlarına qurvan, niyə ağlayırsan? Sükür sağ-salamat qayıtmısan, daha nə istəyirsən, daha nə olsun? – bixəbər qadın ürəklə dedi.

Onun gözünün önünə körpə ikən ağlayanda anasının da onun gözü yaşını belə silməyi gəldi, amma anası onun gözü yaşını siləndən sonra qucaqlayıb, yanağından öpürdü. Bunu xatırlayanda o qeyri ixtiyarı boynunu bükdü, sanki qabağındaki öz anası idi və indi boynundan qucaqlayıb üzündən öpəcəkdi. Boya başa çatdırdığı oğullarını öz əlli ilə davaya göndərən və hələ də həsrətlə oğullarının yolunu gözləyən ana ürəyi mümkünmü bunu hiss etməsin? O əsgərin boynundan qucaqlayıb üzündən öpdü. Əsgərin səssiz göz yaşlarına hönkürtüsü də qarışdı. Aişə ana həyacanla dedi:

– Oğul bəsdir, ağlama, nə olub sənə? Mən altı oğul yola salmışam, biri belə geri qayıtmadı…

Əsgər onun sözünü ağzında qoydu:

– Can ana, – onun üzünə baxdı və pıçıldadı, – ana, anam artıq yoxdur! Anam məni davaya yola saldı, amma qayıdanda kimsə qarşılamadı məni, nə anam, nə başqası, məzarını da tapa bilmədim ki, məzarını qucaqlayıb ağlayım. Gücüm dizlərimə çatdı, qucaqlayıb ağladım.

Ana bir anlıq duruxdu, sonra cəld dilləndi:

– Di yaxşı oğul… – çönüb ötkəm səslə camaata dedi, – Ay camaat siz niyə durmusunuz, nə vaxtdan qonağı belə qarşılayırıq?! Bala, gəl gedək bizə!

– Yox , adam var, mən onun yanına gəlmişəm. Bilmək istəyirəm ki, sağdırmı?

– Kimdir bala, adını de?

– Aslan Məmmədov, deyəsən Dəmirçi öyündən idi, iki qardaşdılar, yetim…

– Hə, qardaşının adı da Heydər… – həmin ana onun kimi axtardığını anladı və dedi, – Aslan qayıdıb.

O Aslanın qayıtma xəbərini eşidəndə bir az rahatlandı, demək

dostu, sirdaşı sağdı, onunla dərdləşə biləcəkdi, bu qocaman dünyada ona dogma olan tək bir insan qalmışdı və o sağdı.

Ana onun qolundan dartaraq dedi:

– Gəl bala, bizə gedək, indi uşaqlar Aslanı da cağırar. – balaca uşaqlara səsləndi: – A bala gedin Aslan əminizi öydən çağırın gəlsin, deyin, Aişə anagildə qonağın var.

Kənd camaatı Aişə ananın evində toplanmışdı. Samovara od salınmışdı. Bu qıtlıq vaxtında hər kəs olanından gətirib süfrəyə qoymuşdu. Əsl bayram süfrəsi açılmışdı.

Aişə ananın plovu adla çığrılırdı, o bir plov dəmləyirdi ki, gəl görəsən. Aişə ana oğulları üçün saxladığı düyünü tez təmizləyib dəmə qoydu, elə həvəslə işləyirdi ki, görən sanardı ki, həqiqətən də öz oğullarından biridir qayıdan.

Aslan tələsik Aişə ananın həyətinə girdi, həyətə toplaşan adamlara göz gəzdirdi, süfrənin başında oturan əsgərə göz yetirib diqqətlə süzdü:

– Çingiz? – bir anlıq duruxdu, çünki o elə hala düşmüşdü ki, Aslan əvvəlcə onu tanıya bilmədi, yalnız Çingiz gözlərini qaldırıb ona baxanda əminliklə dedi, – Çingiz, əzizim.

Çingiz onu görəndə ayağa qalıxdı, onu görən kimi kövrəldi və kövrəldiyi bəlli olan səslə dilləndi:

– Qardaş, şükür ki, sağsan! Şükürlər! – Aslan ona yaxınlaşıb qucaqladı, keçib yanında oturdu. Diqqətlə Çingizi süzüb soruşdu:

– Nə yaman arıqlamısan?!

– Nə bilim, – mızıldandı, Aslanın gözlərinə baxdı, əlini uzadıb onun əlindən tutaraq pıçıldadı, – Qardaş gəldim son kərə səni görüm, dərdləşim. Qismət, kim bilir sabah nə olacaq?

– Nə danışırsan qardaş, biz o cür davadan çıxmışıq, bizə daha nə olasıdır? Əzrayil bacarmadı e, əzrayil, Hitler bacarmadı bizlə. – güldü. Çingizin üzündəki kədərin qatılığını görsə də, yenə zarafata salaraq söhbəti yumşaltmaq istədi, – daha nə olasıdır, özün demişdin, nə oldusa oldu, geridə qaldı, irəli baxmaq lazımdır, elə döy?!

-Yox qardaş mən onda səhv eləmişəm. Elə et ki, tez duraq buradan, səninlə söhbətim var. Ürəyim partlayır… – o kimsənin eşitməyəcəyi səslə pıçıldadı.

Onlar bir tikə çörək yedikdən sonra, Aişə anadan və kənd ağsaqqallarından icazə istəyib Aslangilə gəldilər. Yolda hər ikisi bir kəlmə də olsun danışmadı. Evə çatıb, yenicə oturmuşdular ki, Aslan soruşdu:

– Qardaş nə məsələdir, sənin halın məni heç açmadı?

– Qardaş bizi məhv ediblər. Ellərimizi yox ediblər, xalqımı məhv ediblər!

– Sən nə danışırsan Çingiz?! Nə eli, nə xalqı?! – Aslan heç nə anlamadan soruşdu.

– Axıskada, Mexsetidə artıq bir nəfər də olsun türk yoxdur! Hamısını köçürüblər, hamısını… – dodaqları əsərək dedi.

– Necə yəni hamını köçürüblər, nə vaxt köçürüblər?!

– 1944-cü ilin qışında hamını sürüblər Özbəkistana, Qazaxıstana. Daha mənim vətənimdə bir nəfər də olsun türk yoxdur. Axır ki, oyunlarını oynayıb bitirdilər, Axıskanı, Mexsetini verdilər gürcülərə.

Aslan keyimiş halda soruşdu:

– Sən nə danışırsan? Bütün bir elli sürgün eləmək olar? – Onun başı ağırlaşdı, gözləri qaraldı, hiss etdi ki, boynu başını güclə saxlayır, yalnız bunu pıçıldaya bildi: – Niyə, nəyə görə?

– Demək bütün eli də sürmək olurmuş, bu hökümətdə olurmuş! Rəhmətlik babam deyəndə ki, bu hökümət bizi havayı yerə kiçik xalq etmək istəmir, nəsə məqsədi var, kimsə inanmadı. Budur Çar Rusiyası bizi Osmanlıdan ayırdı, Sovet Rusiyası da bizi vətənimizdən ayırdı. Millət yiyəsiz olanda bax sonu belə olur… Of, of…

– Çingiz bir az sakitləş. Əcəl gəldim delmir ki. – ağlına gələn ilk misalı çəkərək onu sakitləşdirmək istədi.

– Yox, əcəl bizə gəldim dedi, özü də bir dəfə yox, dəfələrlə dedi ki, mən gəlirəm, lakin biz kor olduq, görmədik.

– Əcəl gəldim dedimi?! Nə vaxt? – Aslan təəcüblə soruşdu.

– Bizi Osmanlıdan ayırdılar, Axıskaya yüz min hay köçürdülər. Biz anlamadıq! 1915-də bizi qırdılar, qanmadıq. Sovet gəldi, Axıskanı, Borçalını Gürcüstana qatdı, dinmədik, «kulak» deyib xalqı qırdılar, ayaqlanmadıq, sonra xalqımın adını-soyadını gürcüləşdirdi, etiraz etmədik, səs salanı ailəli-sülaləli kulak deyə

sürgün etdi, sahib çıxmadıq, 1937-də kitab oxuya biləcək hamını güllələdilər, biz heç nə olmamış kimi susduq. Bax indi də son nəfərinə kimi hamını qoyun kimi sürdülər, sürgün elədilər. Əcəl illərdi gəlirəm deyib, biz görməmişik.

– Hə, həqiqətən də, əcəl illərdi gəlirəm deyib… – Aslan onun dediklərini təsdiqlədi.

– Biz davada vuruşmuşuq, amma şərəfsizlər mənim elimi sürgün edib, təsəvvür edirsən Aslan?! – Aslanın əlindən tutdu, onun əlini elə sıxırdı ki, Aslan əlinin ağrısından ofuldadı, amma utandığından əlini çəkmədi. – Xalqımı yük qatarlarında köçürüblər, soyuq, şaxta onların yarısını yoldaca qırıb, aclıqdan, soyuqdan donaraq ölüblər. Gözünün yaşları durmadan yanaqları aşağı süzülürdü, – xalqımı bircə gecənin içində yük qatarlarına doldurub aparıblar…

– Bir düz əmməlli danış görüm nə olub?! – Aslan əsəbi halda soruşdu, amma özü də bilmədi kimə əsəbləşir.

– Dava qurtarandan sonra, Gürcüstana qayıtdım. Təsəvvür edirsən də neçə qayıtmışdım bütün yolu! Anamı neçə öpəcəyimi, bacılarımın alınından öpəcəyimi, deyiklimlə evlənəcəyimi bütün yol boyu, gündə ən azı yüz dəfə düşünürdüm. Yerimdə dura bilmirdim, dava bitmişdi, hər şey geridə qalmışdı, pis günlər artıq olmayacaqdı, ölüm-itim olmayacaqdı, deyə düşünürdüm.

Aslan səbr edə bilmədən:

– Əlbəttə elə olacaq, hə-hə pis günlər geridə qalıb!

Çingiz onun sözlərinə məhəl qoymadan davam etdi:

– Kəndimizə yola düşdüm. Qatar gecə çatdığından, maşın-zad tapa bilmədim. Sanki oraların insanları yoxa çıxmışdı. Niyəsə, ağlıma heç nə gəlmədi, səbrimi basa bilmədən ayaqla kəndə doğru yola çıxdım…

* * *

…Çingiz vağzaldan yol ayrıcınacan gəldi, buradan rast gələcəyi hər hansı bir maşınla kəndə getmək istəyirdi, lakin sevincindən ruhu qanadlanmaq istədiyi bir vaxtda o kəndə gedəcək bir maşın tapmırdı. Daha doğrusu burada ins-cins gözə dəymirdi, heç olmasa bir araba olsaydı, amma kimsə gözə dəymirdi. Ağlına heç

nə gəlmədi, düşündü ki, yəqin gec olduğundan kimsə yoxdur. Vağzala qayıdıb səhəri gözləməyə səbri çatmadığından, kəndə ayaqla getməyi qərarlaşdırdı və yoluna davam etdi.

Dan sökülməyə başlayırdı, dağın arxasından günəş üzünü göstərməyə başlayırdı. Çingiz iri addımlarla, sürətlə yeriyirdi. Sonunda növbəti təpəni də aşdı, kəndləri aydınca görünürdü, ağlına ildırım sürəti ilə gələn fikirdən ürəyi ağzına gəldi və dayandı:

– Camaat bu vaxt oyanmış olurdu, bəs niyə kimsə yoxdur, kənddə kimsə gözə dəymir? Mal-qara da gözə dəymir! Allah nə məsələdir? – heç nə anlamasa da ürəyi şiddətlə döyünməyə başladı, ürəyinə nəsə dammışdı, amma nə olduğunu özü də bilmirdi, elə bu narahatçılıqla da var qüvvəsini toplayıb kəndlərinə doğru qaçmağa başladı. Onu soyuq tər basmışdı, artıq tövşüyürdü, güclə nəfəs alırdı, amma dayanmadan qaçırdı.

Kəndin girəcəyində bir sürü it hürüşərək Çingizə doğru gəldi. Arıqlamış itlərə göz gəzdirən Çingiz onlara məhəl qoymadan kəndin girəcəyindəki ilk evə girdi və həyacanla bağırdı:

– Öy yəsi! Qədir dayı! Kimsə yoxmu?! – gözlədi ki, kimsə çıxsın. Ürəyinin döyüntüsü beynində eşidilirdi, saniyələr sanki keçmirdi, amma kimsə cavab vermədi. Çingiz yaxınlaşıb evin qapısını döymək istədi, əlinin qapıya dəyməsi ilə qapının çırıldayaraq açılması bir oldu. Aylardı hava dəymədiyindən yaranan kif iyi onu vurdu, amma buna məhəl qoymadan evə girdi. Evdə kimsə yoxdu, hər yan dağıdılmışdı, köhnə küşkül stol-stul döşəməyə səpələnmişdi. – Bəs haradadırlar? – deyə düşündü, cəld çönüb evdən çıxdı, amma daha başqa evlərə girmədən, bağıra-bağıra evlərinə tərəf qaçdı:

– Ay camaat, kim var? Hay verin, kim var? – amma kimsə cavab vermirdi, sanki kənd onunla gizlənqaç oynayırdı. Bunu o özü düşündü, deyəsən əslində inanmaq istədiyi də, görmək istədiyi də bu idi. İndi camaat çıxıb deyəçəkdi ki, yaxşı daha bəsdir narahat olma, biz burdayıq, səninlə gizlənqaç oynayırdıq. Hə, axmaq olsa da, özü də bu düşündüyünün axmaqlıq olduğunu bilsə də, bu düşündüyünün baş verməsini istəyirdi. Amma kimsə ortaya çıxmırdı. Bəs kim kiminlə gizlənqaç oynayırdı?!

Çingiz həyətlərindən içəri girdi, evlərinə çatana qədər səbiri çatmadı, bağırdı:

– Ana, ay ana, niyə cavab vermirsiniz?! – o ağlayırdı, qəlbi uçunurdu, dizləri təmiz boşalmışdı, ayaqlarını necə atdığını hiss etmirdi, üzünün əzaları əsirdi, gözləri səyriyirdi. – Anaaaa… Bacııı… Hardasız axııı?!

Əlini uzadıb evlərinin qapısını açdı, Qədir dayıgilin evindəki kif iyi burada da hiss olunurdu, gözünü otağa gəzdirdi, kimsə yoxdu, burada da hər yan dağıdılmışdı, döşəmədə qırıq-quruq əşyalar vardı. Uşaq kimi ağlamağa başladı:

– Haradadırlar? – çönüb zorla çölə çıxdı və özünə təsəlli verməyə çalışdı, yəqin haradasa yaxındadırlar. Bunu düşünmüşdü ki, gözü itlərinin daxmasına sataşdı. İt daxmasının qabağında bir it skleti vardı. Fikirdən qəlbi sancdı:

– Yoxsa bu Qızılın sümüyüdür? Yox ola bilməz, hara getsələr itimizi də aparardılar, yox ola bilməz, yəqin başqa heyvandır. – Bunu düşünə-düşünə daxmaya yaxınlaşdı, əyilib it sümüyünə baxdı. Zəncir it skletinin boğazında idi. İt skletinin üstündə bir parça dəri vardı, qızılı tüklü dəri. Çingiz əlini uzadıb dəri parçasını əlinə aldı və pıçıldadı:

– Qızıl, oğlum, səni buradamı yaddan çıxarıblar?! Aç-susuzmu qalıb ölmüsən? – Birdən bağırdı, – Haradasınız siz? Ey kənd camaatı, eheyyyy. – o qaçıb küçəyə çıxdı, küçə yuxarı qacaraq bağırdı: – Kim var, ay camaat hay verin? Allah eşqinə bir nəfər hay versin! Eheyyy! – səsi əks-səda verdi.

Çingiz dəli kimi, kəndin küçələrində ora-bura qaçırdı, bağırırdı, kəndi haylayırdı. Yolun başında bir maşın görsəndi, Çingiz əlini yelləyərək maşina doğru qaçdı, deyəsən onlar da Çingizi görmüşdü, çünki bir müddət sonra maşını ona tərəf sürdülər. Maşına çatar catmaz Çingiz təlaşlı səslə bağırdı:

– Kənd camaatı hanı?

Maşından milis formasında üç nəfər düşdü, Çingizin əlini buraraq qandalladılar. Çingiz heç nə anlamadan soruşdu:

– Siz nə edirsiiniz, dəlimi olmusunuz? Mən sovet əsgəriyəm, davadan indicə qayıtmışam! Eşidirsiz? – ona vurulan ilk zərbədən səndələdi, ikinci zərbədən yerə yıxılaraq huşunu itirdi. Ağzından axan qan yerə töküldü…

…Çingiz niyəsə pərt halda dedi:

– İki gün məni milis şöbəsində saxladılar, o ki var döydülər. Döyərək boynuma qoymaq istəyirdilər ki, mən casusam. Mən sənədlərimə baxın deyirdim, orada hər şey yazılıb, mən davadan gəlmişəm, medallarımı göstərirdim, kim idi fikir verən. Gürcü milisləri məni nəyi var döydülər. İki gündən sonra dedilər cavabın gəlib, həqiqətən də davada olmusan, çıx get. Sizinkiləri Özbəkistana, Qırğızıstana, ya da Qazaxıstana aparıblar. Get axtar. Bir də buralara gəlmə. Yoxsa, gələn dəfə başqa çür olacaq. Sözün qısası düz əmməli bir məlumatda vermədilər, bir bildiyim o oldu ki, bizim yurdları buradan sürgün ediblər. Dəqiq bir yer deyən də olmadı. Mənə dediklərindən dəqiq olaraq başa düşdüyüm bu oldu ki, bir də buralara gəlməməliydik.

Aslan utanaraq soruşdu:

– Başa düşmədim, milis işçiləri səni niyə döyürdü? Bəs sizinkiləri niyə köçürüblər?!

– Qardaş, gürcülərin üzünü mən onda gördüm, gürcülər necə dəyişmişdi. İçlərində bir insanı yoxdu ki, mənə barı bir qab su verəydi. Döyülməyim cəhənnəm, susuzluqdan dodaqlarım çat-çat olmuşdu. Bizim bu halımıza əmməllicə sevinirdilər. Berlin uğrunda gedən döyüşdə bir yerdə vurşduğum gürcü silahdaşımın adını verdim onlara ki, çağırın gəlsin, o bilir mən kiməm. – İsteza ilə gülümsündü, – Son davada onu ölümdən qurtarmışdım və bu davaya görə ona Sovet İttifaqı Qəhramanı adı vermişdilər, dedim bəlkə gəlib mənə kömək edər.

– Gəldimi? – Aslan sevincək soruşdu.

– Yox gəlmədi.

– Bəlkə onu tapmayıblar?

– Yox, dediklərinə görə, deyib ki, işim çoxdur vaxt etsəm gələrəm! – Hər ikisi bir müddət susdu. Çingiz yenidən söhbətinə davam etdi: – Nəysə, buraxılandan sonra gedib düşdüm Özbəkistanda. Orada da biləndə ki, Axıska türküyəm, bir ay basdılar dama. Aç-susuz saxladılar, başıma min oyun açdılar, döydülər, söydülər, xalqımı xain adlandırdılar. Adamın üstündə Allah var, özbək milisləri mənə pis davaranmırdı, gizlincə su, çörək verirdilər, quru olsa da. Dedilər boynuna al ki, davada düşmənə işlə-

misən. Dedim elə şey olmayıb, bu mənim medallarım, bu hərbi hissəm, soruşun. Sonunda boynuma bir şey qoya bilməyib buraxdılar, dedilər ki, iki aylıq icazə veririk, gedib ailəni axtarıb tapasan, əgər onları tapmasan iki ayın tamamında axıska düşərgələrindən bir komendantda qeydiyyata düş və bu düşərgədə yaşa. Əlavə də etdilər ki, yəqin kimsəni tapa bilməyəcən, çoxu yolda qırılıb. Beləcə axıskalıları köçürdükləri düşərgələri bir-bir gəzdim, kimsə kimin hansı düşərgədə olduğunu bilmirdi, qohum əqraba hərəsi bir yana düşmüşdü. Sonunda Allahın mənə yazığı gəldi deyəsən, bacımı tapdım. Sən demə Allah elə onu da mənim üçün saxlayıbmış, ağır xəstə idi, başlarına gələnləri danışdı, onu tapandan üç gün sonra onu da bir dəfəlik itirdim, bir dəfəlik itirdim.

– Bəs həkimlər nə dedi, müalicə etmək olmazdımı?

– Nə həkimi?! – Çingiz qəhərindən boğularaq soruşdu, – Bizimkiləri adam yerinə qoyan vardımı ki, bir həkim də olaydı, bacıma baxaydı!

– Nə danışırsan? Elə şey olar?

– Eh qardaş, bizim millətə orada bir zülm edirdilər ki, gəl görəsən! Bizimkiləri xüsusi yerlərə köçürmüşdülər, ətrafda heç bir kənd yoxdu, boz çöllük. Ayda iki-üç dəfə xüsusi komendantlıqda qeydiyyatdan keçirdirlər. Bir kənddən o birinə getmək olmazdı, lap qohumun ölsə də. Xüsusi icazə lazımdı harasa getməyə. Hətta evlənmək üçündə komendatdan icazə almaq lazımdır, əgər komendat da ona icazə versə. Millətimi bax belə alcaldırlar. Bəlkə də qədim zamanlardakı qulların biz axıskallardan daha çox hüququ olub?!

– Komendat… Xüsusi icazə… Çingiz sən nə danışırsan? Bu ki, dustaqlara göstərilən rəftardır?!

– Hə, dustaqlara göstərilən rəftar, amma bir fərqlə.

– Nə fərqi?

– Dustaqlara yemək, içmək, yataq verilir. Bizimkilər isə Allah ümidinə qalmışdı orda. Yazıq millətim torpaqdan daxmalarda yaşayırdı, nələri var Axıskada qoyub köçüblər, cəmi iki saat ərzində toplayıb basıblar maşınlara. Hər şey, mal-qara, var-döv-

lət gürcüyə qalıb… Hamısı cəhənnəm, vətənimiz gürcüyə qalıb! Millətim vətənsiz qalıb! – o hıçqıraraq ağladı.

Aslan eşitdiklərinin ağırlığından keyimişdi:

– Vətən… – deyə pıçıldadı, özüdə bilmədi nə deyir, nə demək istəyir.

Çingiz hıçqıraraq danışmağa davam edirdi:

– Artıq millətim vətənsiz, vətənim millətsiz qalıb. Artıq deyəcəklər belə bir el vardı, artıq yoxdur. Bu da davanın sonu, bu da qələbə. Bu da rus qardaşlığı, bu da Sovet İttifaqında bərabər yaşayacaq millətlər!

– Bəs nə oldu?Bir düz əmməlli danış da. Vallah çatmır mənə, necə yəni hamını sürdülər oraya?

# 14 NOYABR 1944-CÜ İLİN XÜLASƏSİ

*Bağda ərik vardı, salam-mələk vardı,*
*Bağda ərik qurtardı, salam-mələk qurtardı*
***– Azərbaycan atalar sözü.***

31 iyul 1944-cü ildə SSRİ Dövlət Müdafiə Komitəsinin “№ 6279” qərarı ilə Axıska türkləri məcburi şəkildə Gürcüstandan Qazaxıstan, Özbəkistan və Qırğızıstan çöllərinə köçürülmüşdür. Qəribə olsa da, qərar yay ayında verilsə də köçürülmə 14 noyabr 1944-cü ildə icra edilmişdir və bu köçürülmə bir neçə saat ərzində həyata keçirilmişdir.

…Min illərlə Axıskada, Mehsetidə yaşayan türkləri Stalinin və Beryanın bir əmri ilə, 1944-cü ilin şaxtalı bir qış günündə yük qatarlara doldurdularaq Orta Asiyaya göndərildilər. Guya ki, Türkiyə sərhədlərindən təhlükə gözlənilir və səbəbdən də axıskalıları buradan köçürmək lazım gəlirdi, amma əslində isə Sovet ordusu qələbə qazanaraq irəliləməkdə idi, alman ordusu isə basılaraq geri çəkilirdi, artıq hamı bilirdi ki, Almaniya məğlub olacaq, bu sadəcə vaxt məsələsidir. Türkiyə tərəfdənsə hər hansı hücum təhlükəsi gözlənilmirdi, amma niyəsə Moskva axıskalıları 1944-cü ilin 14 noyabrında, gecə vaxtı, cəmi iki saat ərzində yük qatarlarına mindirərək köçürdü… Niyə?! Niyə qışın oğlan çağında köçürüldülər, barı bu köçürlmələr mülayim havalı aylarda həyata keçirilə bilməzdimi?!

* * *

O eynəyini silib gözünə taxdı, Mikoyana baxdı, sonra qapını açaraq gülümsündü:

– Olar, yoldaş Stalin?

Stalin başını qaldırıb onlara baxdı, qabağındakı qovluğu bir kənara itəliyərək dedi:

– Beriya və Mikoyan, nə əcəb bir yerdəsiz? Gəlin, oturun!

Onlar ehmal addımlarla gəlib oturdu, Beriya əlindəki qovluqları masaya qoyaraq dedi:

– Necəsiz yoldaş Stalin?!

– Yaxşıyam, sağ ol! Sizin ikiniz bir yerdəsizsə, demək ki…– gülümsündü və əlavə etdi: – Nə məsələdir?

– Hə, yoldaş Stalin, bütün cəbhə boyu ordumuz irəliləməkdədir! İcazənizlə məruzə edim…

– Ehtiyac yoxdur, hamısından xəbərim var! – bığaltı gülümsündü, – Yoldaş Stalin hər şey bilir!

– Hə, şübhəsiz! – Bir az irəli əyilərək dirsəklərini masaya qoydu və dedi, – Yoldaş Stalin o zaman icazənizlə bir məqama toxunum! Məni, daha doğrusu bizi narahat edən bir məsələ var! – deyə Mikoyanı da göstərdi.

– Hə, büyur! Sizi nə narahat edir?!

– Yoldaş Stalin, tezliklə qələbə qazanacıyıq…

– Sizi bu narahat edir? – Stalin sataşaraq güldü.

– Yox, əlbəttə yox, amma Gürcüstanla bağlı bir xahişim var!

– Yoldaş Stalin eşidir!

– Deyirəm, bəlkə Axıska və Mexseti bölgəsindəki türkləri müharibəni bəhanə edərək köçürək. – gülümsündü – Bir güllə ilə iki quş!

– Bir güllə ilə iki quş?! – Stalin onun son dediyini təkrarlayaraq soruşdu.

Beriya tutuldu, Mikoyana baxaraq ona göz ağardı ki, danış. Mikoyan gözünü qıyaraq gülümsündü və izah etməyə çalışdı:

– Yəni yoldaş Stalin, həm türklərdən xilas olarıq, həm də Gürcüstanın gələcək təhlükəsizliyini təmin etmiş olarıq, həm də bu köçürülmə Hitlerin boynunda qalmış olar. Yəni müharibə zəruriyyəti kimi, – Stalinin onun üzünə baxdığını görüb əlavə izah verdi, – axı tezliklə müharibə qurtaracaq! Bir güllə, iki quş…

– Hə, Beriya, Mikoyan, doğurdan da şeytana vəkillik edəsi adamlarsız. – Stalin güldü.

Stalinin güldüyünü görüb onlar da güldü və Beriya dedi:

– Qərarı hazırlayımmı, yoldaş Stalin?!

– Hazırlat, amma indi yay fəsilidir!

– Başa düşmədim yoldaş Stalin!

– Qərarı qış ayında icra edərsən! Bir gülləyə üç quş!

– Aaa, bir gülləyə üç quş, aydındır yoldaş Stalin…

– Get, qərarı hazırla. Gedin. – əli ilə onların çıxmasını işarə etdi…

* * *

1944-cü ilin noyabır ayının 14-də, gecə yarısı Mexseti-Axıska-Axalkalaki vilayətində yaşayan türklər iki saat ərzində maşınlara yığılıb dəmir yoluna gətirilməli və oradan da əvvəlcədən planlaşdırılmış yerlərə köçürülməli idi. Min illərdi burada yaşayan türkləri ellərindən, yurdlarından cəmi iki saatda ayırıb-qoparacaqdılar, həm də birdəfəlik, ömürlük. Mexseti-Axıska-Axalkalaki vilayətində yaşayan türklərin taleyini sonsuzacan məhv edəcək, buradan oraya, oradan buraya atacaq, gələcəkdə uzun illər aqibətləri bəlli olmayan yola aparan iki saatın astanası idi o gün. Axıskalılar isə onları gözləyən aqibətdən hələ xəbərsiz idi…

Heç almanlar da yəhudiləri bu tezliklə bir yerdən başqa yerə sürgün etməmişdi. Ən acısı, əzablısı da bu idi ki, Hitler Almanyası elə ilk günlərdən yəhudilərin onlara düşmən olduğunu bilmişdi. Sovet Rusiyası isə namərdcəsinə, qeyrətsizcəsinə, heysiyətsizliklə, heç bir xarakter və siyasətə sıxmazcasına öz vətandaşlarını sürgün edirdi. Ən gülüncü isə bu idi ki, bu əmr veriləndə Mehseti türklərinin bütün əli silah tutan kişiləri Sovet dövləti üçün davaya getmişdi, onların sayı rəsmi məlumatlara görə 50 min nəfərə yaxındı. Bu məlumat daha sonralar verildiyindən çox güman ki, Sovet dövləti öz mənafeyini güdərək onların sayını azaltmışdır, çünki o bu xalqı az saylılar sırasında göstərirdi və onlar etdiyi cinayətdə ölən Axıska türklərinin sayını az göstərmək üçün bu yeganə və şərəfsiz yoldan istifadə etməli idi. Bu siyahıya “gürcüləşdirilmək” məqsədi ilə zorla gürcü soyadları verilən minlərlə türkü də qatsaq, yəqin ki, davaya gedən Axıska türklərinin sayı, bəlkə də yüz mindən çox olmuşdur.

Belə bir şərəfsizliyi yəqin ki, dünyada heç bir dövlət öz vətandaşlarına etməmişdir, bir millətin kişiləri Sovet dövləti üçün vuruşa, elə həmin andaca dövlət həmin qəhramanların ana-bacılarını, övladlarını heç bir səbəb olmadan vətənindən sürgün edə. Bundan böyük namərdlik ola bilməz yəqin və bu dərd türklərin başına gətirilmişdir, çünki onlar türkdü, səbəb yalnız bu idi. Yenə

Sovet dövlətinin rəsmi məlumatına görə sürgün olanların sayı 125 min nəfər olmuşdur. Guman ki, bu rəqəm də suni olaraq azaldılmışdır, çünki 50.000 kişisi döyüşə yararlı bir xalqın yaşlısını, körpəsini və qadınlarını nəzərə alsaq bu nisbət 125 mindən çox olmalıdır, bu səbəbdən bu iki rəqəmin biri-birini tutmaması şübhə doğurmaldır, digər yandan yalnız bu yolla daha az insanı sürgün edildiyi göstərilə bilər və bununlada heç bir şəraiti olmayan yük vaqonlarında ölən türklərin sayı az göstərilə bilər. Rəsmi məlumata görə bu insanlardan, yəni 125 mindən Orta Asiyaya çatana qədər 17 mini məhv olmuşdur. Bu isə heç inandırıcı deyil, çünki əvvəla bu xalqı aparacaq vaqonların heç bir şəraiti yoxdu, hətta bir işıq lampası belə olmamışdı və bu türklər hara və hansı şəraitdə aparılacaqlarını bilmədən, cəmi iki saat ərzində gətirilərək vaqonlara doldurulmuşdur, qışın soyuğunda qızdırıcısız qatarlarda bir ay, iki ay çəkən yolu düşünün…

O zamankı siyasi mənzərəyə gözucu baxmaq belə kifayət edir ki, türk millətinə qarşı hazırlanmış genosidin necə dəqiqliklə hazırlandığını anlayasan. Yəni türk millətinin məhv edilməsi üçün verilmiş bu əmrin heç bir mərhələsində təsadüfə yer verlmədən hesablanmışdı. Belə ki türk millətinin Mexseti-Axıska-Axalkalaki diyarından köçürülməsi adı altında gizlədilən genosid əmrini Stalin vermişdir, amma burada Beriyanın, Mikoyanın da az əməyi olmamışdır. Və türk genosidini düşünülmüş şəkildə icra edən, bir sistemdə biri-birinə bağlı əmrvermə zəncirinin yuxarıdan aşağıya demək olar ki, bütün həlqələrində erməni-gürcü millətinin nümayəndələrindən olan vəzifəli şəxslərin olması insanı qana-qana düşünməyə məcbur edir. Həmin vaxt SSRİ dövlət təhlükəsizliyi naziri V.Abakumovdur. Apresyan Özbəkistanda daxili işlər nazirinin müavini idi, Azərbaycanda daxili işlər nazirinin müavinləri Markaryan və Qriqoryan idi. Burada əmrvermə zincirinin içraedici həlqələrini biri-biri ilə əlaqələndirən gördüyümüz kimi ermənilərdi… Təsadüfdür…

Əmrvermə strukturunun başında erməni olmayan Stalin və Beriya dururdu. Doğrudur onlar erməni yox, gürcü idi, amma türklərin köçürülməsi də məhz Gürcüstanda aparılırdı. Axıska-Mehseti-Axalkalaki ellərindən sahiblərinin köçürülməsi əm-

rini vermiş Stalin onları Özbəkistana, Qazaxıstana, Qırğızıstana köçürürdü. Türklərin fiziki və mənəvi olaraq məhv olmasına nəzarəti Özbəkistandakı böyük siyasi fiqurlardan olan erməni Apresyan nəzarət edirdi, Özbəkstandakı hakimiyyət zincirinin bütün içraedici orqanlarında, həmçinin Özbəkistanda ən kiçik əlqələrinəcən əvvəlcədən ermənilərin nüfüz etməsini də göz önünə almaq lazımdır, bu vəziyyət Qazaxıstanda və Qırğızıstanda da eyni idi. "Saman altından su yeritmək" misalı, məqsədləri Axıska türklərini son nəfərinəcən qırılmaqdı, axı cinayətin ört-bastır edilməsinin ən yaxşı yolu dəlillərin yox edilməsi idi və bu türk soyqırımın yeganə şahidi o türklərin özü idi və ölmələri ilə «Axıska türk soyqırımı» ört-basdır edilmiş olacaqdı, axı ölülər danışmır, şahidlik edə bilmir. Amma Stalinin qəflətən ölümü o «Axıska türk şahidlərindən» bir qismini ölümün caynağından aldı, onlar «ölümə məhkum olduqları düşərgələrdən» qurtuldu.

Burada nəyin bazarlığı olmuşdu? Niyə gürcü Stalin erməni fiqurlarının tarixi istəyinə qol qoymuşdu? Bunun görünən tək tərəfi budur ki, erməni fiqurları Stalinin bütün cinayətlərinə can-la-başla əməl edir, əvəzindəsə Stalin ermənilərin türk cinayətlərinə göz yumurdu. Beləliklə, türksüz Axıska-Mexseti-Axalkalaki elləri gürcüyə qalacaqdı! Əvəzindəsə 1948-ci ildə Stalin əmri ilə türksüzləşdirilən İrəvan ermənilərə qalacaqdı, bu köçlər altındasa türk genosidi aparılacaqdı, o genosid ki, fikir atası I Pyotr idi, o plan ki, nəinki, rus dövlətçiliynin, bütün xristian dünyasının gələcək strategiysınının əsasını təşkil edirdi. Beləliklə, Stalin «bir gülləyə üç quş vurmaq» istəmişdi, o rus dövlətinin siyasi istəyini həyata keçirirdi. Qafqazda türklərin məhv edilməsi həyata keçirilirdi. Ərazidə azlıqda olan xristianaların, gürcülərin, hay-ermənilərin faiz nisbətində çoxalmasını təmin edirdi. Və Stalin dövrünü bağlayan Sovet Rus imperiyası türk genosidinin «Rus» adını ləkələməməsi üçün, Stalinin vəfatından bir il sonra, adını çəkdiymiz türk genosidinin qatillərini 1954-1955-ci illərdə SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının hökmü ilə güllələndi… Beləliklə sistem öz cinayətlərini fərdlərin üstünə ataraq bir dövrü bağlamış oldu, amma sistem əvvəlki sistemdi, yeni dövrdə,

yenə yeni aktyorlar, amma eyni obrazlar yaradacaqdı və bu yenidən, yenidən təkrarlanacaqdı…

Yuxarıdaki halı nəzə aldıqda, yəni türk genosidini icra edən zəncirin yuxarıdan aşağıya bütün halqalarının belə nəzarətdə olduğunu gördükdən sonra, onların məhv olmuş türklərin sayını saxtalaşdırmadan (azaltmadan) statistikada rəsmiləşdirildiyinə inanmaq olmur?! Bu mümkünmü?! Bu genosidin baş əmrdən tutmuş, bu cinayətin başlanğıc və son mənzilinəcən hər bir detal vəzifəli erməni qatilləri tərəfindən nəzarət olduğunu acıq-aydın görürük, elə isə mümkündürmü ki, məhv edilmiş türklərin sayı azaldılmasın?! Axı bu yerlərin bizə məxsus olmadığını göstərmək üçün Çar Rusiyası türklərin sayını tarix boyu dəfələrlə az göstərmişdir, əksinə bu yerlərdə yaşayan ermənilərin sayını şişirdərək dəfələrlə çox göstərmişdir. Buna ən gözəl nümunə məncə Qarbaçovun 1989-cu ildə Stepanakertdə yaşayan əhalinin 300 mindən çox olduğunu söyləməsidir. Əslindəsə həmin vaxt orada 110 min erməni yaşayırdı, 2 əsrdən çoxdu qırılaraq azaldıqdan sonra 60 minə yaxın azərbaycanlı yaşayırdı. Bəs məqsəd nə idi?! Şişirdilmiş rəqəmlə burada yaşayan ermənilərin sayını çox göstərməklə "o və onlar" nə demək istəyirdilər?… Buna başqa bir bariz nümunəsə 1911-ci ildə məhşur rus tarixçisi N.N.Şavrovun «Zaşafqaziyada Rusiyanın işləri üçün yeni təhlukə: Muğanı yadlara satmağa hazırlaşırlar» adlı kitabında öz yerini tapmışdır:

– "… 1826-1828-ci illər müharibəsi qurtardıqdan sonra iki ilə ərzində, 1830-cu iləcən Zaqafqazıyaya 40 min İrandan, 84 min Türkiyədən erməni köçürdük. Və onlar Yelizavetpol (Gəncə) quberniyasının və erməni əhalisi az olan İravan quberniyasının ən yaxşı dövlət torpaqlarında, Tiflis, Borçalı, Axaltsix və Axalkalaki qəzalarında yerləşdirildi".

… Göycə gölünün sahillərində bu ermənilər məskunlaşdırıldı. Nəzərə almaq lazımdır ki, rəsmən köçürülmüş 124 min ermənidən başqa, buraya qeyri-rəsmi çoxlu ermənilər köçürülmüşdür… – bu o ermənilərdir ki, sonralar İravandan-Gəncəyəcən bizimdir deyəcəkdir. O zamandan yerli ermənilərin sayını çox göstərmək məqsədi ilə edilən bu oyunsa yenə bir rus tərəfindən beləcə açılır.

Bu arada qeyd etmək yerinə düşər ki, Qarabağa haylar kö-

çürülməmişdən əvvəl burada 350 mindən çox azərbaycanlı yaşayırdı, Xankəndi daxil olmaqla ermənilərin sayısa 70 mindən çox olmamışdır. Bəs necə oldu ki, 1828-ci ildən 1988-ci iləcən olan müddət Qarabağda olan azərbaycanlıların sayını 60 minə düşdü, ermənilərisə 110 minə qalıxdı? Bəs demoqrafiq artım tempinə nə oldu? Bəli ortada bir soyqırım var, amma bu türk-müsəlman soyqırımıdır…

Bəs Stalin dövrünün cinayətlərini Stalin şəxsiyyəti ilə bağlayan Rus imperiyasının türk millətinə qarşı etdiyi maddi-mənəvi, milli-tarixi, siyasi-iqtisadi, coğrafi-demoqrafi genosidi dayandımı?! Düşünün…

Bu hadisənin ən dəhşətli yanlarından birisə budur ki, oğulları Sovet Rusiyası üçün vuruşan Mehseti-Axıska türklərini aparan qatarlarda qeyd etdiyimiz kimi heç bir qızdırıcı sistem olmamışdı, əksinə Sovet Rusiyasını məhv etmək istəyən almanlar məğlub olduqdan sonra, alman əsirlərini aparan qatarda belə odun sobaları vardı və alman əsrləri odunla təmin olunurdu. Türkə olan qəddarlıq bax bu həddə idi.

Onlar qışın oğlan çağında, gündə cəmi bir dəfə işıq üzü görərək, heç bir isti yemək verilmədən, bəzən günlərlə yemək verilmədən, bir ay-iki ay yol getmişdi. Bu hadisənin bir başa iştirakçılarının dediklərinə görə mənzil başına əsasən altı-yeddi nəfərlik ailədən bir-iki nəfərin çatması möcüzə hesab olunmalı idi. Bəzi ailələrsə tamamilə tələf olmuşdur. Hətta bundan sonra da Orta Asiyanın iqliminə uyğunlaşa bilməyən minlərlə Mexseti türkü tələf olacaqdı. Göründüyü kimi Sovet Rusiyası belə böyük cinayəti yalnız rəqəmləri süni yolla azaldaraq günahını yüngülləşdirməyə calışır. Belə olan halda insan düşünür ki, görən Çar Rusiyası zamanından bəri rus, hay-erməni, gürcü qaniçənləri əlində neçə yüz min Mehseti-Axıska türkü məhv edilmişdir və nə zamanacan cinayətkarlar müqəssir kürsüsünə otuzdurulmayacaq?! Və həmin türklər öldürülməsəydi bu gün onların sayı nə qədər olardı?!

Gürcülər bu cinayətdən sıyrılıb çıxmağa çalışır və günahı Sovet Rusiyasının və Stalinin boynuna atır. Deyirlər ki, Stalin gürcü

olduğuna görə onun günahının-cinayətinin gürcülərin boynuna yazılması heç də ədalətli deyil. Amma niyəsə kimsə ədalətdən danışan bu gürcülərə demək istəmir ki, Stalin zamanında hakim mövqedən istifadə edərək türkləri gürcüləşdirmək istəyən gürcülər siz deyilmisiniz? Bundan əlavə Stalinin cinayəti onun boynundadır, bəs bu cinayətin səfasını kimlər çəkir? Mexseti-Axıska-Axalkalaki vilayəti türklərin olmasına baxmayaraq sonrakı heç bir on illiklərdə türkləri öz vətəninə qayıtmağa qoymayan siz gürcülər deyilmisiniz?! Sonralar türklərin öz vətənlərinə qayıtmasının qarşısını alacaq qərarlar çıxaran gürcülər siz deyilmisiniz? Onun günahıdamı Stalinin boynunadır? Siz də ən az Stalin qədər günahkarsınız! Xatırladım ki, Stalin 1953-cü ildə ölüb, bir il sonra Beriyaya, Mikoyan kimilərə güllələnmə verildi, lakin axıskalıları geri, öz yurdlarına köçürmədi. 1991-ci ildə Gürcüstan Sovet İttifaqından ayrılaraq müstəqil dövlətə çevrilib, lakin yenə də axıskalılar öz vətəninə qayıtmayıb, buna şərait yaradılmayıb… Guya Avropa Birliyinin Gürcüstana qoyduğu şərtlərdən biri də Axıska türklərinin geri qaytarılmasının təmin edilməsi idi. Lakin qoyulan müddət bitsə də, Gürcüstan bu şərti yerinə yetirmədi. Yalnız bunu deməklə kifayətləndi ki, hansı Axıska türkü geri qayıtmaq istəyir, qayıtsın, lakin bizim onlara yardım edəcək imkanımız yoxdur. Yəni anlayacağınız kimi, olan Axıska türklərinə olub, Avropa və Rusiya sadəcə "pis və yaxşı" oyununu oynamağa davam edir…

Bu arada Rus siyasətinin alətinə çevrilən Stalin, tarixdə nə qədər ağıllı, nə qədər qəddar, nə qədər ehtiyatlı biri kimi görünsə də, nə qədər böyük fateh-sərkərdə kimi görünsə də, Rus sistemi onu da, elə onun gürcü xalqını da aldadıb. Belə ki Mehseti-Axıska-Axalkalaki ərazisində bu gün gürcüdən çox erməni yaşayır və həmin ermənilər, bizdən torpaq tələb etdiyi kimi gürcülərdən də bu əraziləri tələb edir! Və tarix boyu yaşamını zəli kimi ondan-bundan nəsə sümürərək yaşayan hay-ermənilər bu gün Gürcüstanın özü üçün də böyük bir problemə çevrilib…

Bu dəfə bizlə bərabər gürcüləri də düşünməyə dəvət edirəm, çünki bizim siyasi xəritədən silinməsi mümkünlüyündə, erməni havadarları və ermənilərin gürcülərin özü üçün hansı təhlükələri

yaradacağını tarixin gərdişindən anlamaları gərəklidir! Dənizdən dənizə Ermənistan istəyən ermənilər və bu siyasətə havadarlıq edərək türk-müsəlman toplumunu məhv etmək istəyən qüvvələr, hələ ki türk-müsəlman əngəlini aradan qaldırmayıb. Bizimlə bərabər sizdən tələb etdikləri nədir?! Siz gürcülər bir daha düşünün ki, o «dənizdən dənizə olan Ermənistanın içində» siz yoxmusunuz?

14 noyabr 1944-cü ildə, demokratiyadan danışan, azadlıqdan, insan haqlarından, Sovet vətandaşlarının hamısının bərabərliyindən, beynəlmiləlçilikdən, Sovet İttifaqı daxilindəki böyüklüyündən-kiçiklyindən asılı olmayaraq bütün xalqlara verilmiş bərabər hüquqlardan danışan, zəhmətkeşlərin (fəhlə və kəndlilərin) artıq əzilməyəcəyi, istismar olunmayacağı bir sistem qurduğunu bəyan edən Sovet imperiyası, bəlkə də məhz bu tarixdə Çar Rusiyasının davamçısı olduğunu, heç bir imperiyadan fərqinin olmadığını və ən əsası qurulduğu ilk gündən türkləri məhv etmə siyasəti ilə işlədiyinin hüquqi (gizlin, şifahi olmayan) əmrini vermişdi. Tək bu tarixdə verilən əmrə əsasən demək olar ki, Sovet Rusiyası da Çar Rusiyasının davamçısı idi və onun da siyasətinin ana xətti I Pyoturun fikirlərinə əsaslanır. Qəribə burasıdır ki, bu vəsiyyəti I Pyotr ruslara etsə də, tarix subut edəcək ki, bu vəsiyyətdən bütün xristian dövlətləri bəhrələnir. Bəzən Rus Qafqazda öz mövqeyini itirdiyi günlər olacaq, bu zaman digər super xristian dövlətləri burada öz siyasətlərini yeridəcək və bu siyasətdə də Pyotrun ideyasının varlığı seziləcək. Buna ən bariz nümunəsə super xristian dövlətlərinin Azərbaycan ərazilərini işğal edən ermənilərlə bizi eyniləşdirmə siyasəti oynaması olacaqdı. Bu siyasətə görə işğalçı ermənilərlə torpaqları erməni təcafüzünə məruz qalmış Azərbaycana eyni gözlə baxacaqlar, bizə nəyisə ermənilərə güzəştə getməyi təklif edəcəklər. Bu isə türklərə və müsəlmanlara qarşı olan səlib yürüşlərinin hələ də bitmədiyini haykırır, bağırır, görənə, eşidənə!

Sovet Rusiyası axıskalıları köçürürdü, lakin elə həmin anda Böyük Vətən müharibəsindəki qəhramanlıqlarına görə Sovet İttifaqı Qəhramanı adına layiq gördüyü Bəkir Mustafayev, Murtaz Karaliyev, Mafiz Culfayev, İbrahim Tucuqil, Übri Bədəlov,

Bədir Muradov, İsmayıl Kərimov kimi axıskalılar sovet ordusunda vuruşurdu.

Keçmiş dövru bağlamaq istəyən Sovet Rusiyası bütün cinayətləri Stalinin boynuna yazaraq dedi ki, bu Rus Sovet dövlətinin siyasəti olmamış, Stalin şəxsiyyətinin səhvləri idi. Bəs elə idisə Stalinin xain millət adı verdiyi Axıska türklərinə bəraət verən Sovet dövləti niyə onları öz vətəninə qaytarmadı? Əslində, bu Stalin şəxsiyyəti altında gizlədiləməyə çalışılan çinayətlər bütöv bir Rus siyasətinin bir hissəsi idi, I Pyoturdan başlayan siyasətin davamı idi. Bu gələcəkdə də belə olacaq. Yəni gələcəkdə də azadlıq, demokratiya və beynəlmiləlçilik adı altında yeni sözbazlıqlarla onlar öz siyasətini davam etdirəcək, hətta bəlkə yeni sözlər də tapacaqdılar…

Ən ağlamalı və ən gülünc məsələ isə bundadır ki, bizə, yəni türklərə min adla parçalıyan bu hiyləgərlər özü bizə bir ad deyir, TÜRK. Məsələn, sonralar mexseti türkləri kimi adlandıracaqları türkü Sovet Rusiyası Türkiyədən gözlənən təhlükə adı altında sürgün etdi. Yəni onlar bizi vahid TÜRK kimi görürlər, hər zamanki kimi, bizsə o hiyləgərlərin siyasətinə uyaraq özümüzü tək bir isimlə səsləyə bilmirik – TÜRK! Bizə müstəqil dillər verən Sovet Rusiyası, biz nə qədər yatsaq da, onların siyasətinin nəticəsi olaraq kor olsaq da, biri-birimizə yad baxsaq da, onlar bizə tək bir söz deyir – TÜRK! Bəs biz türklər görən nə vaxtsa yuxudan ayılıb, özümüzə TÜRK deyəcəyikmi?

# VƏTƏNSİZ MİLLƏT, MİLLƏTSİZ VƏTƏN

*Müdrik hökmdar hümanist olub xalqın təbii həyatını pozmur.*
***Lao Tszı***

*At yüyəniylə satılar –* ***Azərbaycan atalar sözü.***

Çingizın son ümidi idi bu düşərgə, əgər ana-bacılarını bu düşərgədə də tapa bilməsə idi, daha heç… Çünki iki aylıq icazə kağızının vaxtının dolmasına bir gün qalmışdı. Bu düşərgə də digər düşərgələrdən fərqlənmirdi, torpaqdan qazma kiçik daxmalar boz çölün ortasında olduqca yetim görsənirdi, dağlı-dərəli, çaylı-bağlı yurdlarından boz çöllərə sürgün edilmişdi axıskalılar.

Çingiz düşərgənin qarşısında dayandı, daxmalara baxdı, sonra sinəsindəki medallara baxdı, niyəsə utandı, içindəki pərtlik hissi onu boğurdu, köks ötürərək ilk daxmaya tərəf addımladı, daxmanın ağzında dayanıb düşündü:

– Nə deyib səsləyim, «ev sahibini» deyim? Yox adama sataşmaq kimi olar. – Keçən dəfə bir daxmanın qabağında «ev yiyəsi» deyib səslənəndə oradan çıxan yaşlı adam demişdi ki, a bala nə evi, belə ev olar, mənim cücə damım bundan yaxşı idi. Biz hara, nəyinsə yiyəsi, sahibi olmaq hara? Getdi o dövran, biz daha quluq! – Bəs nə deyim, necə səslənim? – deyə düşündü və kəkələdəyərək dedi, – Kimsə var?

Daxmanın pərdəsini qaldırıb bir qadın çölə çıxdı. Çingiz arıqsısqa, günün qaraldıb kömürə döndərdiyi qadına baxdı:

– Ana mən Adıgül kəndindənəm, mən davada olanda hamını köçürüblər. – O kövrəldi, – Şimdi ana-bacımı arayıram, burda o kənddən kimsə varmı?

Qadın bir anlıq susdu, diqqətlə Çingizi süzdü, dodaqları səyridi, birdən hökürərək onu qucaqladı:

– Canım qardaş, xala kızını tanımadınmı?

Çingiz əvvəlcə onu qucaqlayan qadının hərəkətinə çaşdı,

«xala qızını tanımadınmı?» deyəndəsə ürəyi sanki ayaqları altına düşdü. İllahi o xalası qızını tanıya bilməmişdi, gör zaman onu nə günə salmışdı, amma yox, bu müsibətdə yazıq zamanın nə günahı var, son iki ildə baş verənlər onu necə dəyişmişdi, qocaltmışdıi, o xalası qızını tanımamağı bir yana, ona ana deyə müraciət etmişdi. Ey fələk, qəddar olan kimdi, sənmi, yoxsa qardaşlıqdan danışan bu Rus hökümətimi, ya bu qardaşlığa inanan türkmü, ya kim? Bu fikirlər içində o xalası qızının çiyinlərindən tutub üzünə baxdı, bu qadının xalasıqızına bir balaca bənzəyən yeri cuxura düşmüş gözləri idi, amma bu gözlərində həyat eşqi tükənmişdi, sönmüş, hiss tutmuş çırağa bənzəyirdi. Çingiz hiss etdi ki, içində bir tufan baş qaldırır və bu tufanın təsirindən gözlərində şimşək çaxır, nə qədər istədi toxtasın, amma alınmadı, hönkürərək ağladı və qəhərdən boğula-boğula dedi:

– Xala qızı insan bu qədərmi dəyişər? Xalaqızı… – əslində bəlkə də ən az dəyişən elə xalasıqızı idi. Çuxura düşsə də, o gözlərində həyat eşqi sönsədə, barı sinəsində ürəyi döyünürdü. Bəs əbədiyən sönən gözlər? Axıska, Mexseti, Axalkalaki ellərinin min illik gərdişi dəyişmişdi, min illik keçmişin gələcəyi dəyişmişdi, əzəmət rəmzi türkün adı dəyişmişdi. Quldarlıq dövründə qul olmayan, kimsəni qul etməyən türkü sosializm cəmiyyətində qul etmişdilər… Çingizsə o anda elə bilirdi ki, ən dəhşətli dəyişən onun xalası qızıdır…

– Can gözlərinə qurban, – qolundan dartaraq; – Gəl, qurvan olum Tanrıya, vaxtında yetişdin. Hər gün dua edirdim ki, bircə çatasan…

– Nəyə çatam? – Çingiz tövşüyərək, həyacanlı halda soruşdu.

– Qurban olum, bizim başımıza gələn nə müsübətdir? – O, Çingizin boynunu qucaqladı, – o böyüklükdə ailədən bircə kiçik bacın qaldı, o da yorğan-döşəkdədir. Allaha ümid yaşayır, bəlkə də Allahmış saxlayan ki, son nəfəsdə səni görsün. Vallah elə Allahmış onu da saxlayan, səni də vaxtında yetişdirən!

Çingiz boğula-boğula dedi:

– Necə yəni bircə bacım qalıb, bəs qalanları, bacım uşaqları, anam?! Qardaşım, yeznələrimdən heç biri davadan qayıtmadımı? Sən nə danışırsan? – onun gözündən yaş sel kimi axırdı.

– Tək gələn sənsən, səni gətirənə şükür! Vaqonda o soyuğa, aclığa kimsə dözmədi. Gəl, sonra danışarıq, gəl bacının yanına, o yazığın bu dünyada sevindirə biləcək tək bir şey vardı, o da sənin gəlməyindi. Qolundan dartıb bir az kənarda olan daxmaya gətirdi.

Çingizin bacısı gözləri yumulu halda yataqda uzanmışdı. Əslində yataq deyilən yer, ot-ələf qurusunun üstünə salınmış sırıxlıdan ibarətdi, qızın üstündəsə bir şal vardı. Çingiz bilmədi, bacısının xəstə halına yansın, ya belə şəraitsiz yerdə bir yolcu kimi ot-ələf üstündə yatmasınamı ağlasın. Xalasıqızı sevincək qızı səslədi:

– Çiçək gör kim gəlib!

Çiçək gözlərini ağır-ağır açdı, qardaşını görəndə kül rəngli yanaqları sanki bir balaca allandı:

– Abi, sən gələn yollara kurban! Gəldinmi? Tanrıya şükür, səsimi duydu. Son nəfəsdə də olsa səni gördüm. – Onun dodaqları əsdi, gözləri doldu, qollarını acaraq dedi: – Sənə kurban abim!

Çingiz heç nə demədən onu qucaqlayaraq ağlayırdı. Tez-tez əllərindən opürdü. Xala qızı Çiçəyə çəmkirdi:

– Nə konuşduğunu qulağın duyurmu?! Nə son nəfəsi?! Min dəfə deyirəm ağzını xeyirliyə aç! Anamın, xalamın ətrini mən sənlə duyuram. Qardaşımız da gəldi, daha hər yaxşı olacaq. – O gülümsəmək istədi, dodaqları dartıldı, amma gülümsəyə bilmədi, gülümsəmək üçün açılan dodaqları əyildi, hıçğıraraq ağladı və tez çölə çıxdı.

Çiçək qardaşını dartaraq boynunu qucaqladı:

– Abi həpisi öldü, bir sən qalmısan, bir xalaqızı ilə qocası*. Başqa kimsə qalmadı. Anam səni deyib nəfəsini tapşırdı.

Çingiz deyiklisini soruşmaq istədi, amma daha anasının ölüm sözündən sonra onu soruşa bilmədi. Amma sual işarəsi gözlərində dondu və sanki Çiçək bu sualı onun gözəlrindən oxuyaraq:

– Abi Ulduz da bizlə bir yerdə idi, amma o da yolda soyuğa tab gətirmədi. – Ulduz Çingizin deyiklisi idi.

– Yaxşı bacı sən ağlama, yenə şükür, ağlama. – Çingiz boğula-boğula dilləndi.

---

* *əri*

– Abi Ulduzun göz yaşları yanaqlarında donmuşdu… – sözlər boğazından qırıla-qırıla çıxırdı, qəhərdən boğulurdu, göz yaşları durmadan yanaqlarından aşağı süzülürdü.

Çingiz bacısının belə ağlamasını görüb:

– Baçı ağlama, sonra danışarıq…

Çiçək onun sözünü kəsdi:

– Abi sözümü kəsmə. Danışmam lazım. – o ağlasa da, danışmağa davam etdi: – Yanağında donan göz yaşları ulduz kimi bərq vururdu…

… Göz işlədikcə hər yanı qar örtmüşdü. Düzənlik, meşəlik bəmbəyaz örtüyə bürünmüşdü. Bu bəmbəyaz örtüyün üstündə bir qara zolaq vardı, dəmirdən qara bir zolaq. Göz işlədikcə uzanıb gedən bu bəmbəyaz mənzərənin masumluğunu pozan qara-dəmir zolaq çox cinayətləri sırtında daşımışdı.

Qarla örtülü düzənliyin sükutunu qatar fiti pozdu. Qara-dəmir zolağın bitdiyi yerdə mavi səmaya burum-burum, qara-boz tüstü qalxırdı və getdikcə o tüstü daha da yaxınlaşırdı. Qara-dəmir zolaqdan cinkiltili səs eşidilməyə başladı «tak-tarak-tak» və sonunda bu qara-dəmir zolağın sırtına aldığı cinayət qatarı göründü. Əslində soyqırıma köç etdirilən, axıskalıları aparan bu Qatar da bəmbəyazdı. Qatarın vaqonları da üstünü örtən qardan dümağ bir rəngə qərq olmuşdu, soyuqdan vaqonların taxtaları buz qaysağı bağlamışdı, vaqonların hər yanından buz salxımları sallanırdı. Bəmbəyaz düzənlik kimi bu qarla örtülü qatarda əslində nə qədər masum görünürdü. Bu bəmbəyaz tablonu pozan bir bu qatarın önündəki qırmızı sovet ulduzu idi, sanki o qətl olunan türklərin qanından qidalandığından al qırmızı rəngdə idi. Bir də ətrafı ağa bulayan rəngin əksinə bu qatarı sırtına alan dəmir zolaq və bu qara-dəmir zolaq üstündə qatarı aparan təkər qara rəngdə idi. Və bu təkərlər hansısa zamanın saniyələrini sayırdı «tak-tarak-tak», amma kimsə anlaya bilməz ki, bu qatar türklərin əlindən alınan keçmişindən ötən zamanımı sayır, ya düşmənin başladığı hücümdan bu yana olan zamanımı, ya da hələ də yaşayan bizlərin son nəfəsimizə qalan zamanımı sayır?... Tək bəlli olan bu qatarın hansısa zamanı tam əminliklə sayması idi «tak-tarak-tak». Və bəmbəyaz qarla örtülü olan bu qatar nə qədər masum görünür-

düsə, bir o qədər qatildi, bir o qədər türk millətinə düşmənçilik edənlərlə əl birdi. Bu bəmbəyaz örtüklü, masum görünümlü qatar qoyun dərisi geyinmiş çaqqaldı, çünki bu qatarın başında qırmızı rəngli sovet ulduzu parlayırdı, türklərin qanı hopmuş qırmızı rəngli ulduz...

Ulduz soyuqdan tir-tir titrəyirdi. Soyuq iliyinəcən işləmişdi. Artıq taqəti belə qalmamışdı. Hamının üzünə ölüm solğunluğu çökmüşdü. Ulduzun ürəyi sıxılırdı, o dərindən nəfəs almaq istədi, soyuq hava boğazını göynədərək sinəsinə doldu, sinəsi xışıldadı, ağzından çıxan buğ havadaca dondu. Ulduzun gözü qaralırdı, beyni getdikcə daha çox kütləşirdi, başını sanki təzyiqlə çiyninə doğru sıxırdılar, başı bədəninə ağırlıq edəcək qədər ağır gəlirdi ona. Soyuq ayaqlırından gizildiyərək bədəninə doğru qalxırdı. Harasısa ağrıyırdı, düşündü ki, bəlkə ağrısı soyuqdandır, bu səbəblə də ağrıyan yerini tapmaq istədi, çünki ovuşdursa bəlkə üşüyən yeri qızaydı, bəlkə o zaman ağrısı bir balaca da olsa kəsərdi. Amma ağrıyan yerini tapa bilmədi, deysən bütün bədəni ağrıyırdı. Oturduğu vəziyyətdənmi, ya soyuqdanmı bədəni qıc olmuşdu, çox çətinliklə də olsa Çiçəyin qucağından bədənini qaldırdı, belini vaqonun divarına söykədi, Çiçəyi dartaraq sinəsinə doğru qısdı. Çiçək gözlərini açaraq Ulduzun üzünə baxdı, yuxulu olduğundan bir şey anlamadı. Ulduz bütün gücünü toplayaraq gülümsədi:

– Can bacı, uyu!

Çiçəkdə yarı yuxulu halda gülümsədi və gözlərini yumdu. Ulduz bütün gücünü toplayaraq bir daha vaqondakıları seyr etdi, axı ona Axıska-Mexseti-Axalkalakı ellərindən tək bu soydaşları qalmışdı, artıq keçmişləri də, gələcəkləri də bax bu vaqondakılardı, qatardakılardı, bu qədər, vəssalam. Sonra gözləri özlüyündən yumuldu… O öz məktəblərində idi. Bütün kənd camaatı məktəbə toplaşmışdı, rayondan mühüm vəzifəli adamlar gəlmişdi, camaatla, məktəblilərlə görüş keçirirdilər. Qara kostyumlu, qara qalustuklu, ağ köynəkli biri qalustukunu düzəldərək danışırdı:

– Sovet İttifaqı bizi imperiyaların istismarçı sinflərinin əsarətindən qurtarmışdır. Bolşevik partiyası bizi, onlarla xalqı Sovet Birliyi ətrafında toplayıb və bütün xalqlara bərabər hüquq-

lar vermişdir. Onlarla böyük xalq və sizi kimi kiçik xalqlar Sovet İtiffaqının tərkibində bərabər hüquqlu vətəndaşlardır, bu bizə böyük rus xalqının böyük töhvəsidir! – hamı sevinclə onu alqışlayırdı. – Hər millət öz dilində danışma və məktəbdə oxuma hüququna malikdir! Hər kəs öz vətəni ilə Sovet vətəninin bir parçasıdır! Böyük rus xalqı və qardaş gürcü xalqı milli sərhədlərin nə olduğunu bilmiyən, bütün əmək adamlarına eyni dərəcədə xidmət edən, yeni beynəlmiləl mədəniyyətlə bizə qucaq açmışdır, çünki biz vahid sovet ailəsiyik. Sovet vətənpərvərliyi ictimai mahiyyətinə görə beynəlmiləldir. Artıq biz böyük sovet ailəsi olduğumuzdan heç bir şər qüvvə, istismarçı burjia Sovet İtitifaqı daxilindəki heç bir xalqa, onun dilinə və vətəninə ziyan verə bilməz! – hər kəs sevinclə onu alıqşlayırdı.

Ulduz da onu alqışlayanlardandı, onun üzündə gələcəyə olan böyük ümid parlayırdı. Ulduzun gözü divarda vurulan şuara sataşdı «Sovet İttifaqı daxilindəki bütün xalqlar qardaşdır!». Ulduz bu şuarı yenidən oxudu və ümid dolu gülümsədi…

…Ulduz qatarın yırğalanmasına xəyaldan ayıldı, «Sovet qardaşlığını» düşünərək acı-acı gülümsədi. Bədənində qəribə küt gizilti vardı, amma giziltidən başqa deyəsən bir şey hiss etmirdi. Düşündü ki, görən bu dəfə neçə yüz min türkü sürgün edirlər? Qatar tam əminlik saymağa başladı «tak-tarak-tak…». Ulduz bir müddət qatara qulaq asıb məsələdən agah olmaq istədi, amma qatar durmadan sayırdı «tak-tarak-tak…». Sonunda Ulduz əsəbləşdi, amma səs beynində guruldayırdı «tak-tarak-tak…!». Belində qıvranan sancıdan üz-gözünü turşutdu, gözünü açaraq Çiçəyə baxdı. Çiçək yatırdı. Çiçəyi oyatmaq istədi, nəsə deyəcəkdi deyəsən, amma dili söz tutmadı, yalnız zorla eşidiləcək şəkildə mızıldadı. Beynindənsə ildırım surəti ilə bu sözlər keçdi və bu sözlər göy gurultusu kimi yeri-göyu lərzə saldı, amma vaqonda kimsə onu eşitmədi:

– Çingiz səni sevirəm! Tanrı bizim ahımızı yerdə-göydə qoyma! Türk! İntiqam! Öc! – nə qədər rabitəsiz cümlələr olsa da onun ağlından keçənlər məhz bunlar idi.

Çingiz min kilometlərlə uzaqda bu səsə səksənərək oyandı, qəlbində bir narahatçılıq onu sıxmağa başladı, amma anlamadı bu nə sıxıntı idi, taki…

Ulduzun gözlərində iki iri damla qoparaq yanaqlarına doğru süzməyə başladı, amma çoxdan hənirtisini itirən yanaqlarda bu iki damla yaş almazlaşaraq dondu. Ulduz bütün gücünü toplayaraq pıçıldadı, amma dodaqlarından çıxan iniltidən başqa şey deyildi, qəlbində bu cümlə min dəfələrlə əks-səda verdi:

– Lə İlahə İlləllah, Məhəmmədəm Rəsulallah! – kəlmeyi şəhadətini dediyinə əmin olduqdan sonra üzündə bir sevinc sezildi, buz parıltılı, soyuq kəsərli, müsəlman inamlı, türk əzəmətli... Gözləri yenidən yumuldu. Hər şey beynində qarışmışdı, artıq deyəsən burada olma səbəbini də unutmuşdu. Gözünü açıb vaqonun içində gəzindirdi, vaqondakılara baxdı, düşündü ki, onlar niyə buradadır? Qarşısında bir qız göründü, onun kim olduğunu ayırd edə bilmədi. O qız ağzını-açıb yumurdu, deyəsən kiməsə nəsə deyirdi. Düşündü ki, görən bu qız kimdir? Və gözünə görünən bu mənasız bulanlıq görüntü ona əsəb verdi, gözlərini yummağı qərarlaşdırdı…

Çiçək səksənərək gözlərini açdı, gözünə ilk sataşan Ulduz oldu. Onun onsuz da solan rəngi-izi tamamilə kül rəngi olmuşdu, yanağında iki damla buz parçası vardı. Çiçək qorxu içində bağıraraq Ulduzu silkələdi, ayıltmaq istədi, o gözlərini açaraq key-key ətrafına baxdı. Gözlərində heç bir ifadə yoxdu, gözləri bomboşdu. Ulduz bir müddət beləcə baxdıqdan sonra gözlərini yumdu. Çiçək onu silkələyərək ayıltmaq istədi, elə bu vaxt hiss etdi ki, sanki Ulduzun bədəni harasa bağlıdır, tərpənmir. Çiçəyin gözü vaqonun buz qaysağı bağlayan içdivarına sataşdı, Ulduzun beli divara sökənəkli olduğundan bədəni donaraq qatarın taxtasına yapışmışdı. Çiçək dartaraq onu buz bağlamış divardan qoparamaq istədi:

– Ulduz oyan! Tanrı özün kömək ol! – özü də bilinmirdi ki, o fəryad edir, ya öfkə ilə bağırır, ya sızlayır. Rabitəsiz cümlələri ard-ardına düzmüşdü.

Vaqondakıların bəziləri zorla gözünü açıb Çiçəyə baxdı və onlar da zarıyaraq rabitəsiz cümlələr deməyə başladı, anlaşılan əsas söz «Tanrı» idi…

Məsum görümlü qatil, düşmənlə əlbir olan qatar növbəti stan-

siyada yenidən dayandı. Vaqonların qapıları açıldı. Rus əsgərləri vaqonlara dolaraq bir-bir hamını tüfənglə, təpiklə vuraraq oyatmağa başladı. Artıq hamı vərdiş etmişdi, vaqonlardan düşərək sıraya düzülmək lazımdı, yoxsa…

Çiçəkgil olan vaqonda ayıla bilənlər oyandı, digərlərini də oyadaraq yerə düşdülər və titrəyə-titrəyə sıraya düzüldülər. Bəziləri isə artıq ölümə təslim olmaq istəyən əqrabalarını ağlayaraq oyatmaq istəyirdi, axı sırıya düzülə bilməyənlər, yarıcan olanlar belə vaqonlardan düşürülərək yaxınlıqdakı yarğanlara-dərələrə atılacaqdı, yəni ölümə tərk ediləcəkdilər. Əslində burada olanlar hamısı ölümə tərk edilmişdir, amma yenə də…

Əsgərlərdən biri Çiçəyi zorla Ulduzdan ayıraraq kənara itələdi və onun bir qolundan tutaraq dartıb vaqondan yerə atdı. Çiçək ağlayaraq əsgərin üstünə atıldı:

– Ona dəyməyin, o sağalacaq, o hələ ölməyib! – ona dəyən təpikdən yerə sərildi, ağzının-burnunun qanı biri-birinə qarışdı.

Sovet əsgərlərindən özbək olan araya girərək rus əsgərinin Çiçəyi vurmasına mane oldu. Rus əsgərləri bu dəfə özbəyi döyərək oradan sürüyüb apardılar. Çiçək əlini havaya qaldıraq bağırdı:

– Tanrı bu nə zülmdür?! Niyə? Hanı sənin qiyamətin?

Özbək olan sovet əsgəri başındakı qırmızı ulduzlu əsgər papağını yerə ataraq Çiçəyə və yerdə can verən Ulduz və onu kimi onlarla türkə baxaraq ağlayırdı:

– Analar, bacılar məni bağışlayın! Tanrım! – o «Tanrım» sözünü elə tərzdə dedi ki, bunun yalvarış, ya şikayət olması heç bəlli olmadı. Özbəkə dəyən zərbədən o huşunu itirdi…

– Özbək əsgərinə nə oldu? – Çingiz öfkə dolu nifrətlə soruşdu.

– Bilmirəm, daha doğrusu yəqin ki, onu güllələdilər…

– Necə?! – söz Çingizin ağzında buz kimi sınaraq çilik-çilik oldu.

– Onu apardıqları tərəfdən güllə səsləri gəldi, yəqin güllələdilər! Allah onun yerini cənnətlik etsin! – Çiçək daha ucadan hönkürdü.

Çöldən gələn səs onların söhbətlərini kəsdi. Kimsə rus dilində bağırırdı. Çingizin xalası qızısa azərbaycanca yalvarır, arada

da rus dilində «Yalvarıram» deyirdi. Çingiz pərdəni qaldırıb daxmadan çölə çıxdı. Hərbi formada olan bir rus nəsə qışqırıb-bağırırdı, camaat ortaya yığışmışdı. Hərə bir tərəfdən komendanta yalvarırdı. O birdən Çingizi görüb rus dilində bağırdı:

– Bu kimdir?

Camaat yalınz indi çönüb Çingizə baxdı. Çingiz qabağa yeriyərək döş cibindən çıxardığı kağızı ona uzatdı:

– Buyurun bu mənim icazə kağızım. Davadan gəlmişəm, ailəmi axtarmaq üçün gəlmişəm bura.

Kağıza baxan komendant ona tərs nəzər salıb:

– Bəs gəlmisən niyə xəbər verməmisən?

– Elə indicə gəlmişəm! – tutuldu. – Bacımın halı pisdir, onunla görüşürdüm!

– Bacısı xəstəymiş. – Çingizin ağzını əydi, hamı heykəl kimi dayanıb baxırdı, yazıqlar nə edəydi ki? Komendat əsəbi tonla dedi. – Onun nə faydası var, sağalmır da, kolxoza işə də getmir! – O üzünü camaata tutub dedi, – Daha üç gün vaxt verirəm, sağalmasa baxın ha!!! – hədələyərək səsini ucaltdı. – Köpəklər!

Çingiz əsəbindən əsərək:

– Necə yəni üç gün vaxt verirəm? Sağalmasa nə edəcən ki? Onu elə indi xəstəxanaya aparmaq lazımdır!

– Nə xəstəxana?! – Komendant qeyzlə soruşdu. – Sizin hamınız qatardaca qırılmalı idiniz, amma türkün canı bərk olur da, mən demişəm, ölmür köpəklər!

– Sən nə danışırsan? Niyə bizi təhqir edirsən? Biz davanın ən qızmar yerlərində döyüşmüşük! Sən niyə qadınları, ağsaqqalları təhqir edirsən?! Sən Sovet dövlətinin məmurusan, belə yaraşmır!

– Kəs səsini küçük, mənə dərs öyrədirsən?! – var qüvvəsi ilə Çingizə sillə vurdu, Çingiz səndələyərək yıxıldı. – Sən bura ilə yaxşı tanış olmamısan. Eybi yox, tanıyarsan! Buranın hökmdarı mənəm, bildiniz, sizsə heç qul da deyilsiniz, köpəksiniz. Türk köpəkləri. – istеza ilə güldü!

Xalası qızı əyilərək Çingizi tutdu:

– Qurbanın olum heç nə etmə, silərlər səni! Bacına yazığın gəlsin! Qoy son günlərində səni görsun!

Komendantın arvadı maşından düşərək komendantın üstünə bağırdı:

– Gəl də gecikirik! Sənə min dəfə demişəm məni gözlətmə!

Komendant arvadına tərəf çönüb:

– Əzizim gəldim. – İri addımlarla maşına getdi.

Komendantın arvadı acıqlı halda dedi:

– Tələs də. Bunlara görə məni gözlədərək, məni təhqir edirsən, başa düş.

Komendant maşının qapısını açaraq:

– Gəldim əzizim, gedək! – üzünü Çingizə tərəf çöndərib dedi, – Səninlə işim sabaha qalsın, sən hələ kişi görməmisən! – maşına minib getdi.

Çingizin kəndliləri onunla görüşdü, tanımayanlar da tanış oldu. Çingiz soruşdu:

– Nə deyirdi o, niyə bağırıdı?

– Arvadı onu söyür, o da gəlib acığını bizdən çıxır, kimi istəyir döyüb, söyür. Bu boyda camaat bir arvaddan qorxanın əlində qalıb, yıxılsın belə dövlət. Nə günlərə qaldıq! – kimsə dedi.

Başqası izah verdi:

– Qızın atası generaldı…

Çingiz başını bulayaraq dedi:

– Sahibsizdir millət? Şikayət edin!

– Nə şikayəti, səni sağ ol? Eh kimdir burada bizi adam yerinə qoyan?! Yaxşı ki, özbəklər, qazaxlar varmış, yoxsa büsbütün acından ölərdik. Əllərindən gələn köməyi edirlər. Kimsəyə şikayət edə bilmərik, onu qoy qırağa, başqa kəndə gedə bilmirik, heç toyu komendantdan icazəsiz edə bilmərik.

– Necə yəni, anlamadım?!

– Belə ki, bizim heç nəyə ixtiyarımız yoxdur! Kimi istəyir sürgün edirlər, kimi istəyir öldürürlər! Üstümüzə vətən xaini damğası vurublar, üstünə vətənsiz qoyublar! – yaşlı kişi başını yelləyərək kinayə ilə dedi.

Çingiz keyimişdi:

– Necə yəni, biz quluq? Axı biz sosializim cəmiyyətində yaşayırıq, elə deyil?! – Çingiz özü də bilmirdi bu sualı kimə verir. Gözünü hərləyib qazma daxmalara, çır-çındır içində olan camaata baxdı.

– Bala, yəqin heç quldarlıq dövründə də xəstəni diri-diri basdırmayıblar!

– Necə yəni, başa düşmədim, dediklərin gərcək ola bilməz? – Çingiz hiss elədi ki, ayaqları sözünə baxmır, heç nəyə fikir vermədən çöməlib yerdə oturdu.

– Xəstələr komendantın ümidinə qalıb, komendant kimi istəyir… – kişi hönkürərək ağladı.

Çingizin xalası qızı əlavə etdi:

– Buranın havası da başqadır, çoxu gələndən qızdırma tutub ölür!

Çingiz başını qaldırıb altdan yuxarı xalası qızını süzərək:

– Bayaq nə deyirdi, sən də yalvarırdın? – o pərt olmuş halda xalası qızından soruşdu.

– Deyir xəstəxana deyil bura, Çiçək sağalmır, kolxozda işləyə bilmir, bu dövlətimizə ziyandır. Deyir rədd eləyəcəm onu burdan! – ağlaya-ağlaya dedi.

– Hara? – Çingiz təəccüblə soruşdu. – Yəni…?

– Mən nə bilim, canına yaraya? – əlini havaya qaldırıb bağırdı, – Tanrı haradasan? Bu nə müsübətdir gəldi başımıza! Niyə göydən daş yağdırmırsan? Qiyamətin harada qalıb?! Daha nəyi gözləyirsən?!

Çingiz gözlərini qaldıraraq göyə baxırdı. Sanki kimsə indicə cavab verəcəkdi, amma qiyamətə hələ vardı.

* * *

Çingiz yuxulayan bacısının yanı başında oturmuş, əllərini sinəsinə sıxaraq bacısının üzünə baxırdı. Cismi bu daxmada olsa da, ruhu tamam başqa yerlərdə idi, xalası qızının səsinə ayıldı:

– Qurban olayım, çay dəmləyirəm, istəyirsən gəl eşiyə, bir az kaplıyaq, çayı dəmlənənə Çiçək də ayılar. – O, çölə çıxdı.

Çingiz də xalası qızının ardanca daxmadan çölə çıxdı. Xalasıqızı daxmanın önündə üç daşın arasında ocaq qalayıb, köz salmışdı. Balaca bir qazançaya su töküb közün üstünə qoydu. Çingiz qazançaya baxıb:

– Çay dəmləmirsənmi?

– Hə çay dəmləyirəm!

– Bəs qazanı nə edirsən? – sualı verməsi ilə, məsələnin nə yerdə olmasının anlaması eyni oldu. Duruxdu, verdiyi suala peşman oldu. Niyəsə sinəsində olan medallara baxdı.

Xalası qızı cavab vermədi, köksünü ötürüb göy üzünə baxdı, yanağında iki damcı yaş parladı. O özünü bir qədər əla alaraq, söhbətin havasını dəyişmək istədi:

– Davada bizimkilərdən çoxmu qırılıb?

Çingiz başını ağır-ağır tərpədərək dilləndi:

– Hə, tələf olanlarımız çoxdu. Biz deyirdik ki, ölək, təki ana-bacımız  yurdundan pərən düşməsin. – O, dərindən köksünü ötürdü.  Söhbətin havasını dəyişmək istəsələr də, mümkün olmurdu,  nədən danışsalar da kef duruldası bir söhbətə keçə bilmirdilər.

Çingizin xalası qızı saxsı qabdan kəkotu çıxarıb qaynayan suya tökərək dilləndi:

– Yaxşı ki, bu özbəklər varmış, vallah yoxsa indi düşərgədə bir nəfər də sağ adam qalmazdı. Əllərindən gələni edirlər, ayın-oyun, qab-qaçaq, hamısını onlar verib, hələ onu da etmək üçün bu komendant köpəyinə də hədiyyə verməli olurlar!

– Hökümət heç nə etmirmi bəs?

– Eh kefdən danışırsan? Kolxoz təzə qurulur, onu da ona görə edirlər ki, qul kimi işləyib verək onlara! Onlardan olsa hamımızı bircə gündə güllələyərlər.

– Yorğan-döşək verməyiblər sizə? – O, bacısının yatağını xatırlayaraq soruşdu.

– Hamı ot-ələfdən yataq düzəldib, özünə.  Özbəklər mümkün qədər şaldan, sırıxlıdan tapıb verib bizə.  Amma hamıya çatmır, kişilərin çoxu elə quruca ot-ələfin içində yatır. – O, qazançanı götürərək: –  Hadi gəl  içəri girək. Çayımız qaynadı, – daxmaya girdi.

Çiçək oyanmışdı. Çingiz yenə gəlib onun yanında oturdu. Xalası qızı Səhər saxsı qablara kəkotu çayı süzdü, nə vaxtsa özbəklərin gətirdiyi tut qurusunu ortalığa qoydu.  Çiçək çaydan bir qurtum içib dilləndi:

– Qardaş bizim başımıza bu rus höküməti elə bir müsübət gətirdi ki,  belə müsübət hələ olmayıb. Kimsənin başına belə

bir müsübət gəlməyib. Bizi bura gətirdikləri vaxt, yol boyu olub-keçənləri düşünmüşəm. – O öksürdü, – düşündüm ki, görən bizim günahımız nədir ki, bizə bunu ediblər? Cavab tapmadım. Sonra düşündüm bəs bizim onlardan fərqimiz nədir ki, belə ediblər? Biz də onlar kimi insanıq, əlimiz-ayağımız var, bəs fərq nədir? Fərqimiz türk olmağımızdır, müsəlman olmağımızdır, başqa fərqimiz yoxdur. Bəs qardaş adamı türk olduğuna görə, müsəlman olduğuna görə məhv edərlərmi?!

Çingiz pərt halda Səhərə, sonra Çiçəyə baxdı:

– Mən söz tapmıram. Sanki kabus görürəm.

– Gör bir bizi nə hala saldılar. Göz açandan eşidirəm ruslar, haylar-ermənilər bizi qırır. O Nikalay hökuməti qırdı bizi, sonra təzə Rus hökuməti gəldi, dedik yəqin yaxşı olar! Bu kökümüzü qazıdı. Yazıq atalarımız elə bil bizim üçün deyibmiş, «lələ köçüb, yurdu qalıb». Amma bu atalar sözünün də bir yeri səhvdir, gərək deyəydilər ki «lələ sürgün edilib, yurdu qalıb» – ağlayırdı, – Yəqin elə bunu bildiklərindən buna oxşar başqa birini də deyiblər, öncələri mən bunlar arasında heç bir fərq görmürdüm, amma indi yaxşı başa düşürəm atalarmız niyə belə deyib «lələ var, yurdu yox». Yazıq xalqım, indi yurdsuz qalıb.

Səhər Çiçəyin üstünə bağırdı:

– Yekə qızsan, bəsdir özünü üzdün. Səni elə bu üzməkdir yatağa salan. Olanları boş ver, bir az az düşün!

– Sözümü kəsmə ay qız. Qoy ömrümün sonunda barı ürəyimi boşaldım. Susmaqla sağalmaq olsaydı, indiyəcən susmağına görə gərək bizim tayfadan uzun ömürlüsü olmayaydı. – Üzünü Çingizə tutdu; – Bəs qardaş bu müsibətin hesabını bu rusdan kim alacaq?! Bu tökülən qanın, tökülən yaşın, tapdanan namusumuzun, bizsiz qalan yurdumuzun intiqamını kim alcaq?! Vallah qardaş bilsəm xalqım bir gün əl-ələ verib bizim qanımızı yerdə qoymayacaq, bizə çəkdirilən bütün müsübətlərin layiqli qisasını alacaq, yanmaram! Amma bizim millət unutqandı, düşmənə aman verməyi hünər, böyüklük hesab edəndi. Osmanlı türkləri bizi, biz onları unutduq! Deyək ki, bizi bir ovuc olduğumuza görə aldatdılar, bəs Osmanlı hökuməti də bizi unutdu. Azərbaycanla qucaqlaşdıq,

sonra bizi yenə rus hökümət aldatdı, öz satqınlarımız bizi aldatdı, satdı, vətənini bölməyi, türk dilini bölməyi hünər hesab elədilər, biz də susduq və Azərbaycanla bir olduğumuzu, onlar bizlə bir olduğunu unutdu. Bu gündən sabaha etibar yoxdur, bəs sabah bizim tərs getdiyimiz yolu kimsə geri qayıdacaqmı, bizi bir yerə yığan olcaqmı? Bizi bir yerə yığmaq istəyəndə ona qulaq asan olacaqmı? Çünkü bu gün Türkiyəni, Azərbaycanı inkar etdirərək bizi ayrıca xalq etdilər, bu qədər həngamədən sonra bizi bir yerə yığmaq olcaqmı? Atam rəhmətlik deyərdi «dildən elə, eldən elə» budur bizi dilmizdən də elədilər, elimizdən də elədilər.

– Dildən elə, eldən elə… – Çingiz pərt halda təkrarladı.

– İndi biz kimik? Rusa quluq. Sonra necə olacaq? Biz balaca xalq etdilər, yiyəsiz, yetim-yesir etdilər. Ağlayası kimsəmiz qalmadı. Axıskanın ocağını söndürdülər. Çingiz tək sənin Ulduzunu yox, hamının ulduzunu söndürdülər... Millətsiz vətən, vətənsiz millət olduq...

…Aslan Çingizin susduğunu görüb dedi:

– Nə ağır sözdür. Hamının ulduzunu söndürdülər. Millətsiz vətən, vətənsiz millət olduq.

– Hə, elədir! Bizim nəsibimiz bu oldu.

–Dayan görüm, Çingiz sən mənə məsələni başdan danışmadın, sizinkiləri necə köçürüblər, bəlkə danışasan.

– Danışım…

# TÜRKÜN YURDU GÜRCÜYƏ QALDI

*Oba yıyəsiz qalanda donuz təpəyə çıxar*

*Lələ köçdü, yurdu qaldı*
***– Azərbaycan atalar sözü***

*TÜRK köçürüldü, yurdu kimə qaldı? –*
***Ataların övladlarına sualı***

Hava çoxdan qaralmışdı. Hamı evinə çəkilmişdi, körpələr çoxdan yuxuya getmişdi, böyüklər də ya yatır, ya yatmağa hazırlaşırdı. Gecənin sakitliyi Axıska ellərinə çökmüşdü, ara-sıra küləyin səsi gəlirdi.

Çiçək yenicə yerinə girmişdi. Soyuq yatağını hənirtisi ilə qızdırmağa çalışırdı. Anasına tərəf çönüb pıçıldadı:

– Bu gün yaman soyuqdur, hə ana?

Çiçəyin anası Aişə onun sözünü təsdiqlədi:

– Hə qızım. Yaman soyuqdur. – Oğullarını düşündü, – Görən Çingizin, Cəfərin, Əlinin yeri necədir? Oralar indi burden da soyuqdur, yazıq oğullarımız! Allah yardımçıları olsun! Nə olsa da biz bir dam altındayıq, yandırdığımız bir sobamız var. Onlarsa bomba altında, soyuq səngərlərdədir. – köksünü ötürdü.

– Ana! – Çiçəyin bacısı Güllü pıçıltı ilə dedi.

– Hə bala…

– Nə deyirsən? Deyirlər davada qalib gələcəyik, daha almanların işi bitib, ağlın nə kəsir?

– Hə qızım, hamı elə deyir, ordumuz almanları hər gün bir az daha geri otuzdurur. Deyirlər almanların əvvəlki gücü yoxdur, məğlub olacaqları dəqiqdir.

– Desənizə dəmir yolunu vaxtında çəkib qurtarmışıq, qardaşlarımız davadan qayıdanda görəcək ki, kəndimizin burnunun dibinəcən dəmir yolu çəkmişik. – Çiçək qabar bağlamış əllərini sığallayaraq gülümsündü.

Güllü bacısının əlinə sığal çəkməsinə görüb pıqqıltıyla güldü:
– Əlini gözümüzə soxaraq nə demək istəyirsən, ay canı yanmış! Bildik də, keçən ay dəmir yolunun çəkilişində sən və biriqadanın adı şərəf löhvəsinə vurulub!
– Yoo, mən nəsə demək istəmirəm… – Çiçək  səsini dartaraq dedi, –  Sadəcə dəmir yolunu plandan əvvəl çəkib qurtarmışıq və bu işdə bu qızın və bu əllərin əməyi az olmayıb… – qabar  olmuş əllərinə sığal çəkərək gülümsündü.
– Canın yanmasın, bunun nazına, işvəsinə bax! – Güllü güldü.
– A bala, adam bir az təvözökar olar, o dəmir yolunda  Axıskanın bütün qız-gəlini, yeniyetməsindən qocasınacan işləyib… – Aişə ana qızını məzəmətlədi.
– Bilirim də ana, sən də, qoy bir az özümü şimardım! Eh…
– Ana zarafat, zarafat, dava bitəndə, geri qayıdanlar görəcək ki, rayonumuza dəmir yolu çəkilib və bunu Axıskanın qızları edib. Kişilərimiz davada, biz burada savaşmışıq. – Güllü gülümsündü.
– İnşallah bala.
Güllü nəsə düşünüb  soruşdu:
– Ana, səncə davadan sonra hər şey fərqli olacaq?! – Anasının susduğunu görüb əlavə etdi, – Yeni hökuməti nəzərdə tuturam.
– Nə bilim a bala, bu hökumət  babanıza vətən xaini dedi, qohum əqrabanın çoxunu xalq düşməni deyib qırdı. Olana güzəşt deyiblər. Bircə balalarım davadan sağ qayıtsın, sizin toyunuzu görüm, siz məsud olun, mən də barışaram bu hökumətlə. Hökumətlə hökumətlik  eləyəsi ha  deyilik.
– Bircə dava tez qurtarsaydı. – Çiçək olanlarla deyəsən çoxdan barışmışdı, təki gələcəkləri xoş olsun.
– İnşallah dava da qurtarar. Di yatın. – Aişə ana üzünü divara tərəf çevirdi. – Gecəniz xeyrə, yataq.
– İyi gecələr. –hər ikisi cavabladı.
Çiçəyin üzündəki təbəssüm hələ solmamışdı ki,  kənd itlərinin hürüşməsi gecənin səssizliyini pozdu. Üçü də bir-birinin üzünə baxdı, Aişə ana yerindən qalxaraq pəncəriyə tərəf gedərək dedi:
– Görən nə olub?
Çiçək və Güllü də  yerindən sıçrayaraq analarının arxasınca pəncərəyə tərəf getdi.  Küçə yük maşınlarının işığına qərq olmuş-

du. Bu kənd kənd olalı bu qədər maşın görməmişdi. Aişə ana qoruxmuş halda dedi:

– Aman Allah, nə oldu belə? Yoxsa 37-dəki kimi kimlərisə aparacaqlar? Bu qədər maşın bütün kəndə bəs edər. Allah özün axırını xeyir elə.

– Ana nə olub?! – Çiçək qorxmuş halda anasına baxdı. Anası da onlara baxdı, çiyinlərini çəkdi.

Müsəlmançılıqda kimsənin qapısı döyülmədən, ev sahibi qabağa çıxmadan  içəri girilməzdi, evin kişisi olmadan  yad kişi o evə girməzdi, amma bu ellərdə bu adət  çoxdandı hökümətin məmurları tərəfindən pozulurdu. Bu dəfə də elə oldu. Hərbiçilər, gürcü milisləri qapını döymədən, ya çəpərdən, ya da qapını sındıraraq həyətə keçirdi. Mehseti ellərinin hər evində, haradasa eyni anda gürcücə, rusca bu sözlər təkrarlanırdı:

– Evdə kim varsa, hamınız on dəqiqəyə maşınlara.  Türkiyə tərəfdən hücum var! Cəld olun, maşınlara.

Aişə ananın həyət qapısını gürcü milisləri təpikləyərək sındırdı. Həyətə bir-neçə milis işçisi girdi. Aişə ana şalını başına ataraq həyətə çıxdı:

– Nə olub?

-Tez pal-paltarlarınızı götürün maşınlara dolun. Arxa cəbhəyə köçürülrsünüz, vaxt yoxdur.

– Nə olub?

– Sual vermə, vaxt yoxdur.

Digər milis işçisi daha mülayim tonla dedi:

– Türkiyədən hücum var! Bir həftəlik arxa cəbhəyə köçürüləcəksiz, yoxsa ortada qalarsız.

İlk milis işçisi kinayə ilə dedi:

– Bax türk qardaşlarınız bizə hücum edir, amma Sovet dövləti yenə də sizin qeydinizə qalır! Belə dövləti  bir də haradan tapacaqsız, ay bədbəxtlər! – istehza ilə gülümsündü.

Çiçək içəri girən anasına baxaraq soruşdu:

– Ana nə olub, bizi hara aparırlar?

Özünü itirmiş Aişə ana tövşüyərək dedi:

– Nə bilim a bala, tez pal-paltardan nəyimiz var götür, ayın-oyundan da götürək, bizi arxa cəbhəyə köçürəcəklər.

– Bəs bacılarım, uşaqları? – yerində donub qalan Güllü təlaşla soruşdu.

– Mən onlara gedirəm, gətirim, barı bir yerdə olaq. Siz də yır-yığış edin. – Həyətə çıxdı.

* * *

İki saat keçməmişdi, Adıgün kəndini, keçmişi ilə, xatirələri ilə, insanları ilə birlikdə hərbi maşınlara toplamışdılar. Kimsə hara getdiklərini bilmirdi. Maşınlar üzünü dəmir yoluna tərəf tutaraq gecənin qaranlığında şütüyürdü. Sonuncu maşınların kənddən çıxması ilə min illərlə var olan Axıska elləri öz sahiblərini itirdi. Min illərdi türkə yurd olmuş Axıska ellərində bir nəfər də olsun türk qalmamışdı. Onların mal-qarası, azuqəsi-ərzağı, ev-eşikləri, dədə-baba yurdları, qəbirləri, min illik keçmişləri, hamısı geridə qalmışdı, quruca canlarını götürüb hərbi yük maşınlarına minmişdilər. Maşında gedən quruca canları idi, hə, quruca canları idi, ruhları belə özlərində deyildi, xəyalları belə uçuşurdu, hər birinin ağlından min fikir keçirdi, bəziləri yurdlarına tərəf boylanırdı, bəziləri ürəklərinə nəsə dammış kimi ağlayırdı, bəzi analar bərk-bərk körpələrini qucaqlamışdı, sanki kimsə, nəsə uşaqlarını əllərindən alacaqdı…

Çiçəkgilin maşındakılar ya qorxudanmı, ya çaşqınlıqdanmı susmuşdu, sanki kimsə nəfəs belə almırdı. Hamının gözündə təlaşlı bir boşluq vardı, görən bu yolun sonu hara varacaq? Görən başlarına nələr gələcək? Görən onları hara köçürəcəkdilər? Kimsə başına gələcəklərdən agah deyildi.

Çiçəyin zəhmətkeş olması, ağıllı olması bir yana, qəribə bir xasiyyəti vardı, içində olan savaşçı ruhu daim onu izləyirdi, ən ağır vəziyyətdə belə ona çıxış yolu tapmasına, bütün çətinliklərin öhdəsindən gəlməsinə, qorxsa belə mübariz olmağa vadar edirdi, amma bu dəfə yaman qorxmuşdu, anasının əlindən balaca qız uşağı kimi bərk-bərk tutmuşdu, anası da bunu hiss etdi, ehmalca qızının başını qucaqlayıb çiyninə qoydu.

Çiçəkgilin maşını Koblian çayının üstündəki körpüdən keçdi. Arxada daha bir maşın onu izləyirdi, o maşın körpünü keçərkən

arxa təkəri sürüşdü, maşın aşaraq çaya düşdü. Gecə qaranlığında, buz kimi çay suyu maşındakıların iliyinə işlədi, çoxu deyəsən heç nə olduğunu anlamadı da. Anlamadılar ki, onlar niyə gecə yarısı köçürülür, anlamadılar ki, niyə ölürlər... İnistinki olaraq sağ qalanlar bağırmağa başladı, iki-üç dəqiqə sonra çay yenə öz lal axarına davam elədi, kimsə qurtarıla bilmədi, hamısı boğularaq öldü. Bu hadisə Çiçəkgilin gözü önündə baş verdi, onlarınsa əlindən heç nə gəlmirdi, onlar bu hadisəyə yalnız seyirçi qaldılar. Bir də çayda boğulanların halına yanaraq, fəryad edirdilər, ağlayırdılar.

* * *

Çayda boğulanlar son bir dəfə çabalayaraq dibə batdılar, nəfəs almaq istədilər, ciyərlərinə buz kimi cay suyu doldu, gözləri böyüdü, son bir dəfə ilan kimi qıvrandılar, hiss etdikləri ağrı bütün bədənlərini bir anlıq yandırdı, daha sonra niyəsə bir yüngüllük hiss etdilər, bütün ağrı-acı yox oldu, süzülərək çayın üstünə qalxdılar, cayda boğulanlar biri-birinə baxdı, hamısı qəribə süd ağı rəngində idi, öz cəsədlərini gördülər, cəsədləri çay aşağı axırdı. Birisi heyrətlə dedi:

– Bizə nə oldu?

Başqa biri cavabladı:

– Deyəsən ölmüşük, bax cəsədlərimiz çayda axmaqdadır. Biz ruhuq.

Onlar gah çayda axan cəsədlərinə baxırdı, gah da hərbi yük maşınlarında aparılan soydaşlarına baxırdı, soydaşları onlar üçün ağlayıb, fəryad edirdi. Onlardan biri soruşdu:

– Bəs indi biz nə edək?

– Baxın, göy üzündən bizə doğru ocaq kimi yanan bir ruh gəlir.

– Sən kimsən? – deyə soruşdular.

– Mən Türk babayam! Sizlər mənim soyumsuz!

– Bəs niyə ocaq kimi yanırsan?

– Çünki, Axıskada ocağımızı söndürdülər! Gəlin gedək!

– Hara?

– Haqqa.

– Qiyamətə çoxmu var?

– Bilən bilir!

– Soyumuz bir də bu yerlərə dönəcəkmi?! – Biri sızlayaraq soruşdu.

– Uzun on illiklər bura türk ayağı dəyməyəcək!

– Elə isə izin ver mən burda qalım, soyum geriyə dönənəcən burada qalım! – ruhlardan biri dedi, daha sonra digərləri də onun dediyini təkrarladı. – İzn verin, soydaşlarımız gələnəcən burada qalaq!!!

– Burada qalsaz, od tutub yanacaqsız, əcdadlarınızın sızlamasını hiss edəcəksiz, hər soydaşınız öldükdə öləcəksiz, hər doğuşda ananın ağrısını yaşayacaqsız, soydaşlarınızın geri dönmədiyi hər gün bir az daha çox ağrı hiss edəcəksiz!

– Olsun! Olsun, mən razıyam, biz elə bu ağrıları görmədiyimizdən bu günə düşdük, əcdadlarımızı anlamadıq, gələcyimizi bir tutmadıq! Olsun!

– Biz də qalırıq! – Digərləri cavabladı.

Türk baba hər birinin alnından öpdükdən sonra səmaya doğru qalxdı…

* * *

Çiçəkgili gətirən maşın dayandı, əsgərlər maşının arxasını açıb əmr etdilər:

– Tez düşün! Cəld.

Hamı maşından düşüb, əsgərlərin, milislərin müşahətində dəmiryol vağzalına gəldi. Dəmiryolunda iynə atsan yerə düşməzdi, bütün Axıska türkləri bura yığılmışdı. Çiçəkgil dəmiryol xəttinin yanına gəlib göstərilən yük vaqonunun qabağında dayandılar. Çiçək başını qaldırıb bir insanlara baxdı, bir yeni saldıqları dəmiryol xəttinə baxdı, bir çönüb kəndlərinə tərəf baxdı, hiss etdi ki, qəhər onu boğur, indi yerə çöküb ağlayacaq.

– Mən gürcüyəm, ərim türkdür, o da davadadır, məni niyə köçürürsüz?! İcazə verin uşaqları götürüb atam evinə gedib! – Bir qadın milis işçilərinə bağırırdı.

– Yaxşı, sən uşaqları götür keç bu tərəfə, – bir milis kapıtanı qadına dedi, – rəis gəlsin ona deyərik.

Hamı qadına və milis işçisinə baxırdı, qadın sevincək uşaqlarını götürərək göstərilən yerə keçdi.

Hamı yenidən öz gələcək aqibətlərini düşünməyə başladı, hamının üzündə bir təlaş vardı, hamı gözünü qeyri-məhçul nöqtəyə zilləmişdi. Aişə ana kiçik nəvəsini qucağına qısaraq soyuqdan qorumağa çalışırdı. Hamı qalın nəyi varsa körpəsini, uşağını bürümüşdü, lakin körpələr qış gecəsinin soyuğundan gömgöy kəsilmişdi, titrəyirdi, birdə nə olduğunu anlaya bilmirdilər, bu gecə vaxtı onları niyə yuxudan qaldırıblar? Onlar niyə bu soyuğun at oynatdığı vaxtda evlərinindən çıxıblar? Onların axı bu yerdə nə işi var? Körpələr ana-bacılarının fəryadına çaşqınlıqla baxırdı. Görən nə olub? Bəs babaları niyə belə sakit durur? Aişə ana qucağındakı körpənin qorxmuş sifətinə baxaraq:

– Yazıq körpənin halına bax, Allah bunların evini yıxsın, evimizi yıxdılar! – Körpəni öpdü, özü-özünə deyindi, – Yazıqlar çayda batdı. Nə basırdıq, nə kəfənlədik, Allah özün onları dərgahına qəbul elə! – birdən ağlına nəsə gəldi tez pıçıldayaraq qız, gəlinə dedi; – A bala, tez-tez kəlmeyi şəhadətinizi deyin, nə olar, nə olmaz, bunların əməlləri qan qoxur! – Əlini açıb çayda batanlar üçün fatihə oxumağa başladı.

Dəmir yoluna daha bir neçə maşın gəldi. Əsgərlər maşınlara tərəf qaçdı, maşının arxasını açaraq adamları dartaraq yerə tullamağa başladı:

– Tez olun, vaxt yoxdur. – Rusca və gürcücə bağırdılar, onlar insanların qorxduğunu, susduğunu görüb daha da kobudlaşırdılar.

Adamlar biri-birinin üstünə düşürdü, buna məhəl qoymayan əsgərlər adamları maşından dartaraq yerdə üst-üstə qalanmış adamların üstünə atırdılar. Qadın, kişi, körpə biri-birinin altında qalırdı. Yaşlı bir dədə əsgərlərə əmr verən zabitə yaxınlaşaraq:

– Oğul günahdır! Qadınlar var orda. Qoysanıza özləri adam kimi düşə! – deyə yalvardı.

Zabit qocaya tərs-tərs baxaraq bir sillə vurdu, kişi səndələyərək yerə yıxıldı:

– Allah özün gör bu müsübəti! – deyə zarıdı.

Allah sözünü eşidən zabitin deyəsən bundan xoşu gəlmədi, tapançasını qaburundan çıxarıb qocanın alnına tuşladı və atmaq istədi. Amma neçə dəfə çaxmağı çəksə də güllə açılmadı, yanın-

dakı əsgərin  tüfəngini alaraq bütün gülləsini qocaya sıxdı. Bunu görənlər daha ucadan fəryad eləməyə başladı.

Camaatı dəmiryolunda gözləyən  qatarlara doldurmağa başladılar. Hər vaqona 30-40, bəzən 50 adam doldururdular. Və camaatın  qatara girməsini gözləmədən, heyvanın necə ayağından tutub vaqona atırlarsa bax, o cür vaqona atırdılar. Etiraz edən yerindəcə güllələnirdi.

Bir ana onu dartan əsgərə yalvardı:

– Bala bircə qızım qalıb, onu o qatara atıblar, körpədir, barı sən icazə ver, mən də o qatara gedim. Yalvarıram bala.

Əsgər tüfəngin qundağı ilə onun başına vurdu:

– Bu vaqona  gir, cəld ol!

Ana başından axan qana məhəl qoymadan:

– Bala, qızım… – sözünü atılan güllə yarımçıq kəsdi. O biri vaqonda fəryadlar içindən bir səs aydınca eşidilirdi:

– Ana…

Bütün Axıska ellərini vaqonlarına alan qatar sonunda hərəkətə gələrək getməyə başladı. Vağzalda onlarla güllələnmiş türk  cəsədləri vardı. Bir sovet zabiti əmr elədi:

– Bunların leşini toplayın. – nəsə düşünüb güldü, – Bakı nefti töküb yandırın, hamısını. – bağırdı, – Bakı nefti ilə yandırın!

Qatar arxasını Axıska ellərinə çevirərək durmadan uzaqlaşırdı. Bir vaxtlar I Pyoturun arzuladığı ideya, bu gün Sovet Rusyasında reallaşmaqda idi, daha bir türk yurdunu, Axıska ellərini tarix səhnəsindən silərək bir əfsanəyə çevirirdilər. Axıska əfsanəsi, bu əfsanəni danışa biləcəklərlə birlikdə sürgün edilirdi.  Uzun illər, bəlli olmayacaq müddətəcən, bu ellər yalnız əfsanə kimi danışılacaqdı və o əfsanələrdə deyiləcəkdir ki,  bir vaxtlar bir Axıska vardı, o Axıska ellərində türklər yaşayırdı. Bu əfsanənin sonunda belə deyiləcəkdi, «sonra axıskalılar gedər-gəlməzə köçürdülər. Göydən üç daş düşdü, biri Axıskanın, biri İravanın, biri də sizin…». Sonra bu əfsanəni danışan insanlar günbəgün məhv ediləcəkdi, bu ellərə qayıdan yollar bağlanılacaqdı və çox sonralar bu əfsanə bir tapmacaya çeviriləcəkdir. Tapmaca belə başlayacaqdı «O yanı türk yurdu, bu yanı türk yurdu, içində bir Axıska. Uşaqlar, tapın görək  axıskalılar kimdi?»… Sonra bu tapmaca da

qədimdən deyilən bir atalar sözünün yeni formasına çeviriləcəkdi, «lələ köçüzdürülüb, yurdu da dağıdılıb», «oba türksüz qalıb, gürcü, erməni təpəyə çıxıb»…

* * *

Qatar qalın tüstü topasını arxada qoyaraq irəliləyirdi. Qatarın təkər səslərinə anaların ah-nalələri yoldaşlıq edirdi. Qatarın ilk tərpənişində kimsə bu sürgün yolunda başlarına yurdsuzluqdan daha artıq nə fəlakət gələ biləcəyini təxmin etmirdi, bəlkə də düşünürdülər ki, yəqin ən betəri elə budur, başımıza gəlib. Hamı hələ də çayda boğulanların halına yanırdı, onlara dualar oxuyurdu. Deyirdilər ki, yazıqlar öldü. Kimsə bu yolçuluğun neçə gün olacağını bilmirdi, amma sən demə daha böyük müsibətlər qabağda imiş, indən sonrasa həm fiziki, həm mənəvi əzablar başlayacaqdı. Bəli mənəvi əzablar başlayacaqdı. Sovet Rusiyası türk millətinin indi də min illik ruhunu, qeyrətini, namusunu, abır-həyasını, imanını tapdalayacaqdı.

Hər vaqonda ən azı 30-40 adam vardı, qadınlı-kişili, uşaqlı. Vaqonlarda heç bir istilik sistemi yoxdu, qışın bu vaxtında yük vaqonlarının iç divarları da buzdan qaysaq bağlayırdı, uzun müddət belini divara soykəyən insanın yuxuya getməsi ilə soyuq insanın içinə işləyirdi, donaraq ölməsi bir olurdu və bu cəsədləri əsgərlər vaqonun divarından zorla qoparır, dəmir yolu boyu olan dərələrə atırdılar.

Artıq neçə gün idi ki, qadınlar mümkün olduğunca su içmirdi. Çünki qatarlarda qadın kişi bir arada idi və bədənin çölə çıxma ehtiyaclarını təmin eləmək üçün ayrıca bir yer yoxdu, bunun üçün adamlar vaqonun bir küncünə pərdə asmışdılar. Tarix boyu müsəlman-türk qadın-kişisi arasında olan abır-həya pərdəsini indi bir parca pərdəmi qoruyacaqdı? Abır-həyasını hər şeydən üstün bilən türk ana-bacılarımız qıvrana-qıvrana dözür, gündə bir dəfə dayanan qatarın dayanmasını gözləyirdi ki, təbii ehtiyaclarını görsünlər…Soyuqdan insanın sümükləri belə gizildədiyi halda, hər şeyini itirmiş, hətta arzularını-ümidlərini itirmiş, sabaha olan inamlarını itirmiş bu analar, bacılar abır-həyalarını itirməmə mü-

barizəsində idi. Bu dünyada ilki görünməmiş, müthiş bir mübarizəsi idi.

Tarix boyu Tanrı insanları fəlakətlərlə imtahana çəkmişdir, misal üçün dalğaların gəmiləri batırdığı zaman insanlar kiçik sallara sığınmışdır və insanların əsil üzü bax o zaman görünmüşdür, insan bu halda əsasən vəhşi heyvani inistinklərinə qapılaraq yaşamağa çalışıb, biri-birini əzmişdir. Amma bu gün, bu soyuq vaqonlarda günlərcə yol getmələrinə baxmayaraq, hər şeyini itirmiş müsəlman-türk anaları iradələrini itirməyərək, öz abır-həyalarını qoruyurdular. Bu mübarizə ilahi bir mübarizə idi, bu cihaddan da böyük cihaddı. Bu namus cihadı idi, bu müsəlman qadınlarının abır-həya cihadı idi. Və onlar bu cihadı elə bir vaxtda, elə bir şəraitdə aparıdılar ki, onlar bunun əksini etsələr belə, kimsə onları qınaya bilməzdi, hətta Tanrı da. Amma onlar bunu qınaqdan qorxduqları üçün etmirdilər. Bəs onda səbəb nə idi ki, onlar hər şeyin inadına özlərinə zülm edərək, belə bir mübarizə aparırdılar? Çünki əsl müsəlman qadını, əsl türk qadını, heç bir vaxt abır-həyasını qınağa görə qorumamışdır, o bunu belə etmişdir. Müsəlman-türk qadını ən əvvəl bunu elə özü üçün etməli idi! Bu doğurdan da ən böyük cihad idi. Qan axıdılmadan ölən, amma abır-həyasını itirməyən türk-müsəlman qadınlarının cihadı idi bu. Müsəlman dünyası ən azından xalqımı bu hala salanları və bu cihadı aparan anaları, qız-gəlini bilməli, tanımalı, xatırlamalıdır.

Çiçəkgilin qatarında bir türk gəlininin daha böyük dərdi vardı, o digər qadınlardan fərqli olaraq ikicanlı idi. Əri Qərib heç altı ay yoxdu ki, davaya getmişdi və getməsinin üç ayı tamam deyildi ki, qara kağızı gəldi. Bu xəbəri eşidəndə bu gəlinin, Arzunun dünyası başına yıxılmışdı, amma tək bir təsəlli, tək bir arzu Arzunu yaşadırdı, onun içində. Qəribdən bir can vardı, onun uşağını dünyaya gətirəcəkdi və onunla nəfəs alacaqdı. Amma Rus fələyi başqa şey saymışdı. İndi onun sancıları daha da artmışdı… Bu doğum sancıları idi. Arzu bəlli etməmək üçün dodaqlarını gəmirir, susurdu. Dünyadan xəbərsiz körpəsə anasının qarnını təpikləyərək dünyaya gəlmək istədiyini bildirirdi. Aişə ana Arzunun halının dəyişdiyini görüb əlindən tutaraq:

– Qızım nə olub? – deyə soruşdu.

– Ana deyəsən doğum sancısıdır, – pıçıldadı, – dözə bilmirəm.

Aişə ana onun alnındakı soyuq təri silərək:

– Aman Allah, bu nə rüsvayçılıqdır bizim başımıza gəldi? Can balam, – deyib artıq hər kəsini itirən Arzunun üzünə bir az su vurdu.

Belə vaxtlarda kişilər doğum olacaq evdən uzaqlaşardı, indi yazıqları hara göndərəydilər? Aişə ana bir az düşünüb kişilərə tərəf döndü:

– Ay oğul, ay qardaş hamınız vaqonun o biri tərəfinə keçin, qızlar siz bu yana keçin. – O, belə edərək kişiləri vaqonun bir yanına, qadınları bir yanına yığdı. Sonra bir neçə qadın Arzuyu ehmalca vaqonun kişilər olan tərəfinin əks küncünə dartdılar. Sonra Aişə cavan qızlara baxaraq dilləndi:

– Şimdi siz vaqonun ortasında ayağa qalxın. – O, belə edərək ayağa qalxmış qızların bədəni ilə divar çəkərək vaqonu ikiyə böldü. Beləcə qadınların və kişilərin arası qismən də olsa pərdələnmiş oldu, bəlkə bundan sonra Arzu nisbətən rahatlaşardı.

Kişilər məsələnin nə yerdə olduğunu anlamışdı, amma əllərindən nə gəlirdi? Kişilər arxalarını qadınlara çevirərək başlarını dizlərinin arasına soxmuşdular, onlardan neçəsi istəyirdi ki, elə indicə göydən daş yağaydı da, bircə bu utancı yaşamayaydılar.

Arzu sancılara dözə bilməyərək inildəməyə başladı və onun səsi getdikcə daha ucadan gəlirdi. Kişilər başlarını daha da aşağı əydilər, birdən kişilərdən biri bağırmağa başladı, ardınca başqa bir kişi və sonra hamısı bağırmağa başladı. Kişilərin bağırtısı içində Arzunun səsi eşidilməz oldu. Bu səhnə neçə dəqiqə davam etdiyini kimsə bilmədi, amma orada olanların dediyinə görə bu uzun müddət davam etmişdi, sanki heç bitməyəcəkmiş kimi… Bu səhnə olduqca qəribə görünürdü, kimisi üçün gülməli, insanlıq üçünsə olduqca faciəvi bir səhnə idi. Kişilər dizlərini döyərək bağırırdı, vaqonun ortasındakı qızlar biri-birindən tutaraq ayaq üstə durmuşdu, hərəkət edən qatar onları sirkələyirdi, sanki onlar rəqs edirdi, digər bir yandasa analar dizi üstə… Bu qəribə bir rəqsi olan ayinə oxşayırdı. Bəlkə də elə bir ayin idi, faciə zamanı, millətin başına gələn müsibət zamanı keçirilən rəqsli bir ayindi bu! Bəlkə də…

Arzunun bir oğulu oldu, atasının adını qoydular, Qərib, amma körpə Qəribin ömürü atasının ömüründən də qısa oldu, cəmi üç gün yaşadı. Körpə Qərib dünyaya gəldikdə isti adına yalnız anasının hənirtisini tanıdı, canı heç qızmadı, dili var, ağzı yoxdu, üşüdüyünü deyə bilmirdi, amma bədəni gömgöydü, durmadan ağlayırdı. Hamı gündə bir dəfə verilən cörək payoxundan kəsib Arzuya verirdi ki, südü olsun, körpəni yedizdirə bilsin. Amma körpənin balaca canı bu şəraitsizliyə, soyuğa dözmədi, od tutub yanan körpə sonunda şaxtaya məğlub düşdü, halı yaxşı olmayan Arzu da axşamüstünə canını tapşırdı. Arzu və Qəribin cəsədini əsgərlər bir dərəyə atdı, nə kəfənləri, nə qəbirləri olmadı, bütün bu qatar yolçuluğunda ölən digər Axıska türkləri kimi…

Dərəyə bir qurd sürüsü endi, hər yanı qar örtdüyündən sürü ağıza vurulası bir şey tapa bilmirdi, iki həftə idi yiyəcək axtarırdılar. Öndəki qurd irəli cumdu, arxasıncada digər qurdlar da onu izlədi. Qarşıda bir qadın cəsədi və bir körpə cəsədi vardı, bunlar Arzu və Qəribin cəsədi idi. Qurd sürüsü öndəki qurdun cəsədi parcalamasını gözləyirdilər ki, onlar da öz paylarını götürsün, amma öndəki qurd anidən ağızını cəsəddən kənara çəkərək bərkdən yumdu, ağzı şaqqıldadı, yəni ki, gözləyin və o cəsədi imsilədi, başını yellədi, yenidən cəsədi imsilədi, mırıldandı və anidən başını göyə tutaraq uladı. Digər qurdlar da ona qoşularaq başlarını göyə tutaraq uladı, sonra başçı qurd qarı eşərək yerə çatdı və don vurmuş yeri çırmalamağa başladı, digər qurdlar da ona qoşuldu. Aradan xeyli zaman keçdi, qurdlar bir çuxur qazdı, sonra başçı qurd ağzı ilə Arzunu paltarından tutaraq dartıb çalaya saldı, ardınca da körpəni də çalaya atdı. Başçı qurd körpəni dartaraq anasının qoynuna qoydu, sonra digər qurdlarla birlikdə şalanı torpaqladılar. Yenidən üzlərini göyə tutub uladılar, qurd ulaması yerdə-göydə əks-səda verdi.

Hər il, o günü, o tərəfdə olanlar bir sürü qurdun kiçik bir təpənin üstündə üzünü göyə tutaraq uladığına şahid olur. O ulama yerdə-göydə əks-səda salır, çox uzaqlarda belə eşidilir. Sanki bu ulama min illəri yararaq keçmişə fəryad edir, min klometrləri aşaraq dünyaya və göyə fəryad edir…

Bu soyuqda şəraitsiz vaqonlarda iki ay yol gedən axıskalıların böyük əksəriyyəti tələf oldu, qatar hər dayananda əsgərlər meyt-

ləri alıb dərələrə atırdı. Bu sürgün yolunda Aişə ana da, Çingizin deyiklisi də, bacıları da, bacı uşaqları da tələf oldu, on minlərlə axıska türkü kimi. Sağ qalan türkləri Qırğızıstanda, Özbəkistanda, Qazaxıstanda heç bir şəraiti olmayan düşərgələrə topladılar.

… Çingiz sızıldayaraq dedi:

– Bu da bizim millətin sonu!

– Bəs bacına nə oldu, niyə onu tək qoydun?!

– Bacım, bacım mən gedəndən iki gün sonra canını tapşırdı. Artıq bu düşərgə məni heç nə tutmurdu. İçimdəki kin-nifrət hər an partlaya bilərdi. Düşərgədən kənara çıxmaq olmazdı, harasa getməyə icazə alınmalı idi, toy eləmək olmazdı, gərək komendant icazə verəydi, yalnız Sovet dövləti üçün durmadan işləməli idik, hər təhqirə dözərək işləməli idik. Mənsə dözə bilmirdim, bu hadisədən sonra içimdə qalan son inam da ölmüşdü, qəlbimdə bu dövlətə, onun havadarlarına qarşı yaranmış nifrət durmadan artırdı. Amma burada edəcəyim hər hansısa hərəkət xalam qızı Səhəri və onun ailəsini də məhv edərdi. Gecə ilə düşərgədən qaçdım. Yolu tutub şəhərə gedirdim. Yolda qarşıma bir maşın çıxdı, sən demə bizim düşərgənin komendantıymış…

… Komendant maşının işığını onun üzünə salaraq maşından çıxdı, tapançasını çıxarıb bağırdı:

– Küçük demək qaçırsan?! – onu nişan alaraq atəş acdı.

Çingiz sıçrayaraq qaranlıqda yoxa çıxdı. Komendant bir neçə əl atəş açdı və bağırdı:

– Çıx yoxsa vuracam. – anidən canına qorxu düşdü, qapını açıb maşına minmək istədi.

Qaranlığın içindən çıxan bir yumruq komendantın çənəsinə dəydi, ilk zərbəcədəncə yerə sərildi. Əlindən düşən tapancanı əlinə almaq istəyirdi ki, Çingiz əyilib tapancanı götürdü və ona altdan yuxarı daha bir yumuruq vurdu. Ağız-burnu qanla dolan komendant geri iməkləyərək bağırdı:

– Mən Sovet dövlətinin zabitiyəm! Sən mənə əl qaldırmaqla cinayət işləyirsən! – bağıraraq onu hədələmək istədi.

Çingiz onu təpiklə vuraraq dedi:

– Sənin hökümətini də, sənin hökümətinin ordusunu da, ru-

sunu da, səni də… Donuz uşağı donuz! – var qüvvəsi ilə onun burnun üstündən bir yumruq vurdu.

Burnu sınan komendantın qanı üst-başına dağıldı, əlini qabağa uzadaraq:

– Vurma məni, keç günahımdan. Mənim iki balam var!

– Mənim millətimi toplu halda qırırsınız! Türkü analı-balalı qırısınız, hələ bir mənə baladan da danışırsan?! Türkün balası yoxdu? Sənin balan baladır, türk balası köbələkdi? – daha bir neçə zərbə vurdu.

– Bağışla! – büzüşərək yalvarmağa başladı.

– Xalqa uzanan əllər bağışlana bilməz, tək bir cəzası var! – Tapancanı onun ağzına soxub bir əl atdı, sonra komendantın meyidini dartaraq yoldan kənarda olan çalaya atdı və üstünü torpaqladı və qayıdıb komendantın maşınına minib sürdü. Şəhərin yaxınlığınacan maşınla getdi və maşını da sürüb kənardakı bir yarğana atdı və dəmir yoluna yolandı. Həmin gecə böyük bir fırtına qopdu, boz çölün qumunu fırtına göyə sovurdu, görənlər həmin gecə bir göy xallı at gördüyünü söyləyirlər. Qum fırtınası həmin yarğanları yarıyacan örtdüyündən, bir daha nə o maşını, nə o komendantı görən oldu. Bütün axtarışlar mənasız qaldı…

…Çingiz ayağa qaxaraq dedi:

– Beləcə çıxıb gəldim bura. Dedim barı son dəfə səni görüm! – Çingiz sözünü bitirdi.

Aslanın eşitdikləri ona bir nağıl kimi gəlirdi, deyilənləri deyəsən tam dərk eləyə bilmirdi:

– Yəni hökümət bu qədər qəddarlıq edib, deyirsən?

Çingiz başını ağır-ağır tərpədərək dindi:

– Hə.

– Bəs sonra? Nə edəcən?

– Üzümü tutacam Rusiyaya tərəf. Qabağıma çıxan rus, erməni, gürcü zabitini öldürəcəm, sonra keçəcəm başqa yerinə. Allah nə qədər ömür veribsə, o qədər millətimin tökülən qanını, intiqamını alacam, sabaha beh-bazar yoxdur! Mən milətimin rəhmini bilirəm, bizim intiqamımızı kimsə alan deyil. Mənimsə gücüm öldürməyə çatır, müharibə mənə bunu öyrədib, düşmən yalnız öldürüləndə susur! Mən borcumdan çıxım, gerisi daha mənlik deyil!

– Hər rusun, erməninin, gürcünün nə günahı?

– Mənim millətimin də heç bir günahı yoxdu! Amma türkü türkdən ayırdılar, vətənini alıb gürcüyə verdilər, bizim qeyrətimizə, namusumuza sataşdılar, qırıb sonumuza çıxdılar, indi isə xalqım alman əsirləri olan düşərgələrdən də betər yerdə yaşayır! Rusun günahı torpağıma, malıma, namusuma göz tikməyidir! Nəysə… Yataq mən yorğunam.

– Yox axı, hər rus, gürcü, erməni pisdir?

– Yaxşısını Allah cənnətlik etsin, nə deyirəm! Mənsə qisasımı alacam! O işə Allah baxır, məni qarışdırma! Mən ayrıseçkilik salmıram!!!

Aslan daha heç nə demədi. Yatdılar. Səhər Aslan yerindən qalxanda Çingiz artıq yoxdu, getmişdi. Aslan bir neçə həftə bu hadisənin təsirindən ağladı, sonrasa ağlına qəribə bir fikir gəldi:

– Hökümət bu qədər qansız ola bilərmi? O ki, kantuzyalı idi, bəlkə hər şey ona elə gəlib! Ya olanları şişirdib! Bütün bir əyaləti sürgün eləmək, bütün bir əyalətin camaatına "vətən xaini" deməkmi olarmı? – Aslan özünə belə təskinlik bəhanələri gətirdi, ta ki, bir gün eşitdi ki, qansızlığına şübhə etdiyi hökümət, rus hüküməti qərar verib ki, İravanda yaşayan azərbaycanlılar Azərbaycana köçürülür! O günü Aslanın daha özünə təskinlik verə biləcəyi son bəhanəsi qalmadı, təskinlik üçün bir bəhanə tapa bilmədi. Görməzdən gəlmək istədiyi fəlakət, rus fəlakəti onun qapısını da döymüşdü. Gözünə dik baxa bilmədiyi həqiqət sonunda özü gəlib onun gözünə baxırdı.

O günü – 1944-cü ilin 14 noyabrında verilən əmrə əsasən millətimi, türkü iki saat ərzində elə bir quyunun dibinə atacaqdılar ki, XXI əsrin ilk on illiyində belə onların cinayətinə görə kimsə cavab verməyəcək, amma onların, o türklərin yurdunda gürcülər, hay-ermənilər səfa çəkəcəkdi, xarabalığa dönən bəzi axıska kəndləri isə hələ də boş qalmaqdadır.

Bu türklər düz 12 il müxtəlif düşərgələrdə, hər gün təhqir olunaraq yaşadıq. Sonra düşərgə həyatı qurtardı, düşmən adı verənlər axıskalılara 1956–cı ildə bəraət verdi. Düz 12 il sonra, min əzabla, min təhqirlə keçən 12 ildən sonra, quru-quru dedilər ki,

sizə bəraət veririk, vəsallam. Axıskadan qovulan, sürgün edilən bu türklər Səmərqəndə və onun ətraf rayonlarında, Fərqanə vadisində, Cambuldada, Çudada, Frunzedə, Alma-Atada yaşamağa başladılar və bu gündə yaşayırlar. Onlara heç vaxt Gürcüstana qayıtmağa icazə verilmədi.

Onlar vətənlərinə qayıtmaq üçün kimlərə müraciət etməmişdi? Sovet dövlətinin bütün rəhbərlərinə– Stalinə, Xruşşova, Brejneevə, Çernenkoya, Andropova və Qarbacova, müraciət edilmişdi, amma kimsə onları vətəninə qaytarmadı. Türklərin yurdundan edilməsini Stalin şəxsiyəti ilə bağlayan Sovet dövlətinin sonrakı rəhbərləri niyə bu səhvi düzəltmədi? Tək bir səbəbi var, bu Rus dövlətinin əsrlər əvvəl hazırlanmış senarisi üzrə olan bir cinayət idi.

1958-ci ildə onlardan 2150 ailə Azərbaycana qayıtdı, bütün köçürmə xərclərini Azərbaycan öz büdcəsindən ödədi. Sonraki illərdə də onlar Azərbaycana köçməyə davam elədi.

1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən, 1974-cü ildə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsinə təyin edilən Heydər Əliyev Axıska gənclərinin imtahandan kənar institutlara qəbul edilməsi ilə bağlı əmr vermişdir, bu hal on illərdi ayrı-seçkilik zəmnində, şəraitsiz yaşayan axıskalıların yenidən cəmiyyətlə ayaqlaşan kadrlarının hazırlanmasınma böyük rol oyamışdır*. Axıska türklərinin böyük hissə 1989-cu ilin yayınacan Qazaxıstanda, Qırğızıstanda və Özbəkistanda yaşadılar. Amma 3 iyun 1989-cu ildə Fərqanədə Axıska türklərini döyməyə, söyməyə başladılar, yüzlərlə axıska türkü öldürüldü. Onlar yenə yetimdi, tək başına idi, bu hadisədən sonra onlar Fərqanədən keçmiş torpaqlarına köçürülmələrini xahiş etdi. Onların bir qismi bir müddət yenə hərbi düşərgələrdə

**Heydər Əliyev SSRİ-nin ən mühüm sahələrinə rəhbərlik etmişdir və SSRİ məkanında və Azərbaycanda mühüm layihələrin həyata keçirilməsini təmin etmişdir. 1993-cü ilin may-iyun aylarında Azərbayvanda vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığı bir vaxtda, xalq Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələb etdi və ölkənin o dövrkü rəhbərliyi onu Bakıya dəvət etdi. Heydər Əliyev iyunun 24-dən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirdi, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu günü xalq onu "Ulu Milli Öndər" deyə yad edir.*

saxlandı, Mərkəzi rəhbərlik bildirildi ki, onların müraciətinə uyğun olaraq onların Gürcüstana köçürülməsi mümkün deyil, çünki gürcülər etiraz mitinqləri edir. Tarixin istezasına bax, türkün öz yurduna qayıtmaması üçün gürcülər etiraz mitinqi edirdi. Atalarımız bu yerdə deyib «oğru elə bağırdı, doğrunun bağrı yarıldı» və ya «gəmidə oturub gəmiçi ilə dava edir». Əslindəsə türk öz yurdundan gürcünün, erməninin çıxarılması və onların öz yurdlarına köçürülməsi üçün mitinq etməli idi. Onlarısa elə bir vəziyyətə salmışdılar ki, onlar yalvararaq vətənlərinə göndərilməsini xahiş edirdi. Yerinə yetirilmədi bu xahiş… Çünki imperiyadan nəyisə almaq üçün yalvarmaq yox, savaşmaq lazımdır…

Azərbaycan bir hissə axıskalının Azərbaycana köçürülməsini və yaşama şəraitinin təmin edilməsini həyata keçirdi, lakin bu ərəfədə Ermənistanda yaşayan azərbaycanlıların ermənilər tərəfindən qovulması onların növbəti köçürülmələrini mümkünsüz etdi. Yenə tarixin istezasına bax ki, tarixən İravan bizim olduğu üçün, gəlmə hayları biz qovmalı idik, lakin onlar bizi öz yurdlarımızdan qovurdu, həm də min vəhşiliklər törədərək.

Bəs nə oldu ki, özbək gəncləri öz soydaşlarını qırdı? Məsələ burasında idi ki, bu gənclərin içində yüzlərlə özbək milli paltarını geymiş başqa millətlərdən olan şəxslər vardı («Sovet Özbəkistanı» qəzeti 12 avqust 1989). Bəs onda bu olayın əsl tərəfi nədir? Sovet dövlətinin xüsusi xidmət orqanları və onun nümayəndələri bu hadisəni hazırlayaraq xalqı biri-birinə salmışdı. İmperialistlər hər zaman çətinə düşəndə daxili münaqişələr yaradaraq xalqın gücünü bölmək istəyir, bu metod Moskvanın daim istifadə etdiyi bir metod idi. Digər tərəfdən kompak halda yaşayan Axıska türkləri öz torpaqlarına qayıtmaq istəyirdi. O günlərdə Sovet İttifaqının hər yerində milli mənəmlik baş qaldırmışdı, belə zamanda Axıska türklərinin öz yurdlarına qayıtması, bəlkə də ən mümkün variantlardandı. O üzdən Moskva onları özbək türklərinin adı ilə qırdıraraq, bir növ dedi ki, sən kimə arxalanırsan? Bax, səni– Axıska türkünü, özbək türkü qırdı, mən yox. Və kompak halda yaşayan Axıska türkləri yenidən pərən-pərən salındı. Beləliklə. onların başı yaşama uğrunda məişət işlərinə qarışacaqdı, daha

uzun illər susacaqdılar. Rus xüsusi xidmət orqanı Orta Asiyada kompakt halda yaşayaq Axıska türklərini müxtəlif regionlara köçməyə məcbur edərək digər xalqların içində asimilasiyaya uğratmaq istəyirdi. Beləliklə, Axıska tamaşasının son pərdəsini endirmək istəyirdi.

Diqqət ediləsi bir məqam isə 1989-ci illər ərəfsində Özbəkistanın bütün gizli iqtisadiyatının ermənilərin əlində cəmləşməsi idi. Və digər diqqət yetiriləsi bir hadisə isə SSRİ prokurorluğunun ən mühüm işlər üzrə müstəntiqi Telman Xranoviç Qdlyanın Özbəkstanda fəaliyyət göstərdiyi 6 il ərzində 8 min özbəki dama basması idi. Xəlvəti iqtisadiyyatı ermənilərin əlində olan Özbəkistanda erməni Qdlyan 8 mindən çox özbəki korrupsuya adı altında həbs etmişdir və bu ölkədə qaranlıq işlərlə ermənilərin məşğul olduğunu bilən Özbəkstan SSR Daxili İşlər Nazirliyi milliyətcə erməni Telman Xranoviç Qdlyana qarşı iş açmaq əvəzinə mükafatlandırırdı. Belə ki, Özbəkistan SSR Daxili İşlər Nazirliyi Özbəkstan partiya, Sovet və təsərrüfat orqanlarının milliyətcə erməni olan məsul işçilərini Qdlyan daxid olmaqla korrupsuyaya qurşanmış şəxsləri «ifşa edənlər» sırasına saldı. Bu hal Özbəkstanda olan erməni «mafiyasını» və erməni milliyətindən olan məsul vəzifəli şəxslərinin «böyük bir qüvvə» tərəfindən dəstəkləndiyini göstərmirmi? Və erməniləri qoruyan qüvvə onların uzun illlərlə Özbəkistanda kök salmasına səbəb olmuşdu, ermənilər Özbəkistanda mafiya və dövlət sturukturlarının məsul vəzifələrində yerləşdiyindən, onları Moskvadan dəstəkləyən mərkəzin olduğunu göz önünə aldıqdan sonra bir daha düşünün… Fərqanə hadisəsinin arxasında kimlərin olmasını bir daha düşünün. O zaman Özbəkstanın əsl sahiblərinin kim olduğu haqda bir daha düşünün… Bir vaxtlar Axıska türklərin köçünü təşkil edərək türk genosidini təşkil edənlər, yenə öz oyunlarını təkrarlamamışdırmı? Həm Fərqanədə, həm İravanda (Ermənistanda) eyni anda, 1989-cu ildə yenə türklərə qarşı genosid baş vermişdi, milli-tarixi, çoğrafi-demoqrafiq, siyasi-iqtisadi genosiddi bu. 1944-cü il Axıska türklərinin köçü, 1948-ci il İravandan türklərin köç, 1989-cu ildə eyni anda Fərqanədə və İravanda eyni hadisələrin təkrarı… Senari eyni, sujet eyni, obrazlar eyni,

milli-siyasi aktyorlar eyni, faciə fonunda milli-çoğrafi qurbanlar eyni… Bəlkə bir daha düşünək…

Axıska türklərinin bir hissəsini də Krasnodara köçürdülər. Hökümət adamları onlara orada da təzyiqlər göstərir, yaşamağa şərait yaratmır və oradan köçməyi məsləhət görürdü. Hətta onları burada yaşayan ermənilər tərəfindən qırılacaqları ilə hədələyirdilər. Onlara orada kömək əlini uzadan yalnız Krım tatarları idi, yəni türklər idi.

Sovet dövləti qəsdən oyun oynayıb onları kompakt yaşadıqları yerdən təkrar köçürdü. Beləliklə onları elə bir yola salacaqdılar ki, onlar uzun illər buradan ora, ordan başqa yerə sürüklənəcəkdi. Pərən-pərən düşən axıskalılar Orta Asiyada, Azərbaycanda, Krasnodarda, Nalçikdə, Qroznıda, Stavropolda və Amerikada yaşamaqdadırlar.

Bu oyunun nəticəsi kimi Çingizgilin nəslindən sağ qalan tək xalasıqızı Səhərin uşaqları hərəsi bir yandadır. Bir vaxtlar Axıska türklərini Osmanlı türklərindən, sonra Azərbaycandan alan rus höküməti indi "Axıska-Mexseti" adı ilə tanınan türkləri biri-birindən ayırıb, indi Səhərin nəvələrinin biri Voronejdə, biri Rostovda, o biri Oryolda, biri Bakıda, biri Krasnadarda, biri Ohayoda, digərisə Fərqanədə yaşamaqdadır. Axıska isə onlarsızıdr. Qısa zaman kəsiyində onlar biri-birinə yad insanlar olmayacaqmı? Rus, erməni və gürcü bu yolla Axıskanın, Mexsetinin, Axalkalakinin onlara qalacağını düşünür! Onlar bu düşüncəsində haqlıdırmı?!

O türklər Osmanlı türklərinin, Azərbaycan türklərinin öz qanı, öz canı, bir parçasıdır! Onlar yetim deyil və onların arxasında biz varıq! Varıq?!

Bəlkə özümüzə sən, mən, o deməyək, BIZ deməyi öyrənək, vaxtı gəlib də keçir, hətta bir azdan gec qalmışıq…

* * *

Aslangilin kəndi də 1948-ci ilədək Azərbaycana köçürülən kəndlər sırasında idi, dağ ətəyində olan bu kəndin sakinləri iki aydan çoxdur Azərbaycanda, Mil-Muğan çöllüyünün ordasında, yarı qazılı daxmalarda yaşama savaşı aparırdı. Davada altı oğul

itirmiş Aişə ana  aran iqliminə üyğunlaşa bilməmişdi, son dəfə inildəyərək canını tapşırdı,  qonşuları başının üstündə dayanmışdı, ağlaşırdı.

Aişə ananın ruhu gördü ki, göy üzündən ona doğru bir qadın ruhu gəlir, soruşdu:

– Sən kimsən?

– Aişə…

– Sənin də adın Aişədır? – Aişə ana soruşdu.

– Hə, mən göz yaşını silərək üzündən öpdüyün əsgərin anasıyam…

– Çingizinmi? Aslanın yanına gələn dostunun anasısan?! – Aişə ana sevincək dilləndi.

– Hə.

– Sənə nə olmuşdu ki, Çingiz sənin qəbrini tapa bilməmişdi?

– Rus kafirləri  davanın son ilində bizim  kəndləri Özbəkistana köçürdü. İndi  sizin kəndləri  köçürdüyü kimi. Qış vaxtı xalqım həftələrlə qatarda yol getdi. Sürgün zamanı  çoxumuz davam gətirmədi, ölənləri  əsgərlər dəmiryolu boyu olan dərələrə atırdı…

– Sənidəmi? – Aişə ana heyrətlə soruşdu.

Çingizin anası Aişə başını ağır-ağır tərpədərək dedi:

– Hə məni də…

– Biz də burada, bu çöl-biyabanda tab gətirmirik…

– Hə, bilirəm. Hər şey eynidir. Yarımız orda, yarımız burada qazmalarda yaşayırıq. Mehseti, Axıskanı gürcülərə, İravanı, Göyçəni haylara verdilər. Yurdlarımızı  kafirlərə  verdilər,  xalqımızsa bu qazmalarda can çəkişir, yarımız Asiyada, yarımızı burda tələf olur.

– Demək adımızın eyni olması kimi, taleyimiz də, müsübətlərimiz də eynidir?

– Hə, ikimiz də türkük, ikimız də müsəlmanıq, ikimizin də yurdu ruslar tərəfindən haya, gürcüyə verilib. İkimizin də qohum-əqrabəsi qazmalarda ölür.  İkimizin də oğlu  rus üçün can qoyub, əvəzində isə  bizi yurdlarımızdan ediblər. İkimizin də adı Aişədı, keçmişimiz də eynidir, bu günümüz də, gələcəyimiz də eynidir!

– Hə, eynidir!

– Gedəkmi?

– Hara?

– Göylərə…

– Əvvəlcə bizim dağlara getmək olarmı?

Çingizin anası Aişə ana gülümsədi:

– Hə. Gedək…

* * *

...Aslan söhbətini bitirib Mərdanın üzünə baxdı və kövrək səslə pıçıldadı:

– Biz ilk deyilik, sonuncu da olmayacayıq!

Mərdan başını əlinin içinə alaraq təsdiqlədi:

– Demək ki, minlərlə Nazan qurban gedib, amma biz fil qulağında yatmışıq...

# UNUTMAYIN KƏRƏMİ

*Azərbaycanın qədim dastanlarından biri də "Əsli və Kərəm" dastanıdır. Tarixçilər bu dastanın XV-XVI əsrdə formalaşdığını düşünür. Bu dastanın qısa məzmunu belədir ki, müsəlman olan Kərəm və erməni qızı Əsli bir-birini sevir, lakin Əslinin atası Qara Keşiş bu sevdaya mane olur, dastanın sonunda Kərəm od tutub yanır, Kərəmdən qopan qığılcım Əslini də yandırır, hər ikisi külə dönür, onları yan-yana dəfn edirlər, onların qəbirlərinin üstündə iki qızılgül bitir, Qara Keşiş öldükdən sonra, o da qara tikan olub onların arasında bitir. Üzeyir bəy Hacıbəyov 1912-ci ildə eyni adla muğam operası yazmışdır.*

Bir avtobus dağın ətəyində ilan kimi dolanan yol ilə üzü yuxarı irəliləyirdi. Mərdan gah yolboyu uzanan dağa-dərəyə baxırdı, gah göy üzünə baxırdı, gah da qucağında yatan körpəsinə baxırdı. Olanlardan üç ay keçmişdi, sonunda ona kəndə getməyə icaizə vermişdilər, amma tapşırmışdılar ki, gedər-getməz həm uşağı, həm özünü poliklinikada qediyyata aldırsın. O, bunun nə demək olduğunu yaxşı anlayırdı, NKVD işçiləri onun kəndə döndüyündən əmin olmaq istəyirdilər. İçi içinə sığmırdı, ruhu yerə-göyə sığmırdı, amma NKVD işçiləri onu izləməsə belə, guya hara gedə bilərdi ki?! Gedə biləcəyi tək yer kəndləri idi. Bir xarici filimdə görmüşdü ki, fillərin özlərinə məxsus qəbirsanlığı olur, öləcəyini hiss edən fil bu qəbirsanlığa gedir ki, orada ölsün, avtobusa mindikdə niyəsə bu barədə düşündü, ona elə gəldi ki onun bu fillərdən heç bir fərqi yoxdur, o sadəcə instinqi olaraq kəndlərinə gedir, lap ölməyə gedən fillər kimi, elə o dilsiz-ağızsız fillər kimi də susacaqdı.

Avtobus bir yeməkxananın qabağında dayandı:

– Yarım saat burada dayanırıq, – deyib sürücü avtobusdan düşdü. Daha sonra sərnişinlər bir-iki düşüb yeməkxanaya getdilər.

Mərdan avtobusdan düşənlərin arxasında boylandı, özünü lap yalnız hiss etdi, qəribə olsa da o gedənlərdən küsmüşdü, az qala onların arxasınca bağıracaqdı, deyəcəkdi ki, – "nə olub sizə, karsız, korsuz, ya yaddaşınıza nəsə olub? Niyə özünüzü heç nə olmamış kimi aparırsız?" – Sərnişinlər də ona cavab verirmişcə-

sinə deyib-gülürdü, bəziləri sifariş verdiyi çayı-yeməyi gözləyirdi, bəziləri isə özləri ilə gətirdiyi ayın-oyunu süfrəyə qoyurdu. Bir dəstə gənc deyib-gülərək bir aşığa pul verərək nəsə dedilər, daha sonra aşıq sazını köynəyindən çıxarıb sinəsinə basdı. "Yanıq Kərəmi" havasını çaldı, gənclər aşığı dövrəyə alaraq rəqs etməyə başladı, deyib-gülərək sındırırdılar. Mərdan onlara baxaraq kövrəldi, daha sonra astadan, için-için ağlamağa başladı, getdikcə ucadan hönkürdü, körpə də atasının səsinə ayılıb ağlamağa başladı, amma Mərdana elə gəldi ki, körpədə ona şərik olduğundan ağlayır. Gənclərsə sındıraraq rəqs edirdi. Cəmi bir il əvvələcən o da bu havaya sındırıb oynayırdı. Kənddə elə bir toy olmazdı ki, o tay-tuşları ilə "Yanıq Kərəmi"ni oynamasın. Bir dəfəsində babası Səməd azarlamışdı, demişdi ki, bu havanı oynamaq olmaz, üstü örtülü olsa da nəsə demişdi, amma sözün düzü Mərdan onda ona heç fikir də verməmişdi. İndi ha çalışdı ki, babasının nə dediyini xatırlasın, amma xatırlaya bilmədi. Həmişə yaddaşı ilə fəxr edən Mardan babasının ağlayaraq dediklərini yadına sala bilmədi. Demək ki, o heç babasına qulaq da asmamışdı, amma niyəsə məhz indi babasının ağlayan üzü gəlib durdu gözünün qabağında, utandığından az qala yerin dibinə girsin, gec olsa da utanırdı, içi yanırdı.

Minayə ana nehrə çalırdı. Onlara gələn Səməd kişi də Yeganənin gətirdiyi çayı yudumlayırdı. Çöl qapısının səsi gəldi, bir xeyli keçdi, lakin kimsə görsənmədi, Minayə ana biləyi ilə alnının tərini silərək səsləndi:

– Yeganə, qapının arxasını bağlamısanmı? – Kimsənin gəlmədiyini görüb dedi.

– Yox ay ana! – Yeganə Ceyhunun qardaşı Abbasın qızı idi, lakin Mərdan öyündən kimsə qalmadığından Minayə onu öz himayəsinə götürmüşdü, Yeganə bunu bilsə də ona nə bibi, nə xala deyirdi, ana deyirdi.

– Bəs nə oldu? Gör onda kimdi? – Minayə ana hövsələsiz halda dedi.

Yeganə evi burulub çöl qapısına doğru getmək istəyirdi ki,

Mərdanı gördü, sevincək qaçıb onu qucaqlayıb öpdü, körpəni qucağına alıb dedi:

– Ana, baba, muştuluğumu verin, Mərdanla Nazan gəlib, özü də üç nəfər, bir də körpələri... – Qapıya tərəf boylandı, duruxdu, təəcüblə soruşdu – Bəs Nazan hanı?!

Minayə ana Mərdan adını eşidib qapıya tərəf yüyürdü, oğlunun üzündəki ağrı-acını görər-görməz hiss etdi:

– Oğul balam nə olub? – alnından öpərək soruşdu, əlini uzadıb körpəni qucağına alıb öpdü, oğlunun cavab vermədiyini görüb hövsələsiz halda dedi, – Nazan hanı? Bu nə sir-sifətdi? Nə olub axı?

– Nazan doğuş vaxtı öldü, – Mərdan zarıyaraq dedi.

– Can bacı! – Yeganə bağıraraq dedi.

Minayə ana bir anlıq keyidi, sonra vahimə içində sinəsinə, dizə vurdu, Mərdansa bütün bunlara məhəl qoymadan ağır addımlarla gəlib oturdu, babasını yalnız indi gördü:

– Baba... – zarıdı, nəsə demək istədi, ha fikrini toplamaq istədisə alınmadı, pıçıldadı, – Baba Kərəmi yandırdılar. Bağışla baba, bağışla. Kərəm yanıb kül oldu!

Oğlunun arxasınca gələn Minayə ana təəcüblə dedi:

– A bala, nə danışırsan? Kərəm kimdir?! Əli öyünün Kəramininimi deyirsən? Onu nə vaxt gördün ki?!

– Ey sən də, ay ana, nə Əli öyü? – Yeganə Minayə anaya susmasını işarə etdi.

Səməd kişinin gözü doldu, başı ilə onu anladığını təsdiqlədi, nəvəsinin boynunu qucaqlayıb öpdü:

– Can balam, demək Kərəmi yenə yandırdılar! Əslinisə kül etdilər!

Minayə ağzını tutaraq səndələdi, Yeganənin köməkliyi ilə oturdu:

– Demək deyilənlər düzmüş, hə? Şəhərdə qırqın olub? Bəs niyə deməmisən?

– Minayə bir kiri* – Səməd kişi qızına acıqlandı; – bilmirsənmi zamanəni, necə desin, necə yazsın?! Heç kimə də bir kəlmə

---

** “Sus” mənasında Azərbaycan dialektlərində işlək sözdür.*

də deməyin! Başa düşdüz?! – Minyə ilə Yeganənin üzünə baxdı, hər ikisinin başı ilə "hə" dediyini görüb Mərdana baxdı, körpəni qucağına aldı, – Lap rəhmətlik Ceyhunun özüdür ki, oğlandır?!

Mərdan başı ilə təsdiqləyərək dedi:

– Baba bağışla, sənlə sözləşmişdim, demişdim ki, oğlum olsa adını Şaumyan qoyacam! Sən də dedin ki, nəslində bir kişi yoxdur ki, bala uşağına dığa adı qoyursan?!

Səməd kişi asta-asta başını yırğaladı və soruşdu:

– Bəs indi adını nə qoymusan?!

– Bilmirəm? Adını sən qoyacan baba, sən!

Minayə ana istədi desin ki, "atası Ceyhunun adını qoyacaq", lakin atasının söz dediyini görüb susdu, Səməd kişi qucağındakı körpəyə baxaraq dedi:

– Adı Orxan olsun, Orxan, – üzünü qızına tutdu, – Qismət olsa Orxan babası Ceyhunun adını qoyar!

Minayə ayağa qalxdı:

– Gedim qudamgilə, ay Allah mən Nazanın xəbərini necə verəcəm, – Yeganənin əlindən dartdı, – Sən də gəl mənlə! Off ciyərim yandı, of! Bədbəxt millətim, yiyəsiz millətim! – Şalı başına bağlayıb, körpəni qucağına alaraq getdi.

– Mən də getdim, – deyib Yeganə də Minayə ananın arxasınca qaçdı və ona səsləndi, – Orxanı mənə ver.

– Ay qız, doğuşda vəfat edib, de. – Səməd kişi onların arxasınca səsləndi və üzünü Mərdana tutaraq dedi, – Bir azdan biz də gedərik...

– Baba, sən ermənilərin kim olduğunu bilirsənmi? Hə, bilirsən ki, haylar bura gəlmədir?! Bütün bu oyunlardan xəbrin varmı?!

– Hə... – astadan dedi.

– Bəs mənə niyə deməmisən?! Niyə?!

– Hərənin öz yükü var, hər yükü daşımağınsa bir vaxtı var! Sənə olanları desəm, hay haqsızlığına dözə bilərdinmi, olanlara cavab vermədən susa bilərdinmi?!

– Buralardan gedərdik! – Mərdan əsəbi halda dedi.

– Min illik ata-baba yurdlarımızı onlara qoyub gedək?!

– Yox, bu da cıxış yolu deyil! – Mərdan səhv dediyini etiraf etdi, – amma belə də olmaz! Bəs indi, bəs sonra?! Hə baba, necə olacaq, nə etməliyik?!

– Sabah savaşmaq üçün, bu günü yaşamaq lazımdır!

– Başa düşmədim, susaq, vəssalam?!

– Gəl tələsmə, sabah qızımıza ehsan verək, birisi gün qoyun sürüsünü sənlə mən apararıq otlatmağa, hər şeyi danışarıq.

* * *

Dan yeri yenicə sökülmüşdü, Səməd kişi və Mərdan at belində, sürünü qabaqlarına qataraq dağ ətəklərinə tərəf gedirdi. Mərdan heç bir şey demədən babasının nə zaman sözə başlayacağını gözləyirdi. Bunun əksinə Səməd kişi kənddən çıxanacaq bir kəlmə də olsun danışmadı. Kəndən bir xeyli aralandıqdan sonra Səməd kişi Ulusoylu kəndi haqqında danışdı, daha sonra Soylu kəndi və onun son aqibəti haqqında danışdı, erməni Artaşın Tural bəyin qızlarını necə xilas etməsi haqqında da danışdı və əlavə etdi:

– Bax bu ermənlərin son çırpınışı idi, ancaq onlar özlərini haylaşmaqdan qurtara bilmədi, biz də torpaqlarımızı qurtara bilmədik və bu da nəticəsi... – deyib susdu.

Mərdan qəribə tərzdə babasına baxdı və soruşdu:

– Demək Tural bəyi və qardaşını idarənin qabağındakı qoşa çınara bağlayıb yandırıblar, eləmi?! Cinarın qabığındakı o qəribə izlər bu səbəbdəndir, hə?!

– Hə. – Səməd kişi qısa cavab verdi.

– Bəs Artaşa nə oldu?!

– Bir müddət bizim kənddə qaldı, lakin Sovet Ermənistanı qurulduqdan sonra, bəlli idi ki, geci-tezi onu tanıyacaqlar, aramızda pul toplayıb verdik, getdi. – Yaşına xas olmayan isteza ilə gülümsündü, – Artaş İslamı qəbul etdi, hətta Tural bəyin qızı Məryam belə ona aşiq oldu, evləndilər, amma sonunda biz onları qoruya bilmədik, necə deyərlər, qovduq! – Gözündən axan yaşa məhəl qoymadan dedi, – Bax bizim aqibətimiz belədir!

– Baba, sənə bir şey demək istəyirəm!

– De.
– Son aylardı sanki içimdə biri var, mənlə danışır! Deyəsən mən dəli oluram!
Səməd kişi nəvəsinə, sanki ilk dəfə görümüşcəsinə baxdı, başını bulayaraq dedi:
– Yox, sən dəli olmursan! Demək ki, nəslimizin növbəti gizli piri sənsən!
– Gizli pirmi?!
– Hə, – sürüyə məhəl qoymadan atının başını burdu, – gedək, sənə gizlətdiyim kitabların yerini göstərim!
– Kitabmı, nə kitabı?!
– Ötök yasası, Törə, Tövrat, İncil, Quran, insanlığı, bizi, türkü var edən bütün kitablar!
– Baba, sən nə danışırsan?! Bütün bu kitablar səndə var, amma bunu kimsəyə deməmisən?!
Səməd kişi atının yüyənini çəkdi, çəp-çəp Mərdana baxdı:
– Kimə deyək?! Rusa, ingilisə?! Kimə deyək?! Hə?! Səncə onlar bu günəcən lazımı yazıları tapa bilmədiklərindən tarixi yarımçıq oxuyurlar?! Ya lazımı yazıları yox edirlər, görməzdən gəlirlər?! Hələ də dərk etməmisən, bala?
– Aydındır! Ancaq yenə də bütün dünyanın bizə düşmən olmasını unuduram... – Mərdan təəssüflə dedi.
– Unudtmaq olmaz! Gizli pirsən, başa düşürsən, – uca səslə dedi; – min illərin gərdişini biləcən, onlarsa türkü inkar edəcəklər, dinməyəcən, min illərin yazılarını oxuyacan, hər yazıda türkü görəcən, onlarsa tarixdə misiri, yunanı görəcək, amma susacan, xalcalarımızın rəmzlərini biləcən, onlar deyəcək bunlar sadəcə naxışdır, yenə susacan! Başa düşürsən?! Sən elə bilirsən bir rusların gözü üstümüzdədir?!
Mərdan başını yırğaladı:
– Başa düşürəm baba! Susacam! Amma nə zamandan susacıyıq?!
– Bəlkə bir ömür, bəlkə on ömür, lazımı qədər susacan, susacayıq! Takı doğru zamanda, doğru məkanda, Mətə gələnəcən susacıyıq!

– Mətə?! Mətə kimdir, Mehtini nəzərdə tutursan?!

– Biz Mətə deyirik, bu inancı bizdən alanlar ona Mehti deyib, Məsih deyib, Moşeyah deyib, Mahtre deyib, – qəribə tərzdə qımışdı, – lakin bir şeyi tam anlamıyıblar, bu qurtarıcı göydən zənbillə düşməyəcək, bunu biz istəməliyik, o bizim içimizdən çıxmalıdır və o qurtarıcı gəldikdə isə arxasında durmalıyıq!

– Yəni Mətə-Mehti ilahi varlıq deyil?!

– Yox, o düşünüldüyü kimi ilahi varlıq deyil, o bir mələk deyil, ilahi möcüzələri də olmur. O, sadəcə dini, dilini, elini birləşdirərək haqq yolunda inamla və imanla savaşır, zaman-zaman türk ulusunu yox oluşdan qurtaran mətələr olub, bu ulus yeni mətəsini doğmalıdı, qorumalıdı, arxasında dayanmalıdır.

– Tam başa düşmədim axı... – Mərdan babasına qəribə tərzdə baxdı, illər boyu axtardığı xəzinəni tapan arxeoloq kimi heyrət içində idi.

– Yəni mətəni Tanrı göndərmir, onu xalq özü doğur və özü də qorumalıdır!

– Belə çıxır hamı mətə ola bilər?!

– Bunun iki cavabı var, həm hə, həm yox!

– O necə olur baba?

– Hər kəs saz çala bilərmi? Bəlkə də məcbur etsən hamı saz çala bilər, amma onların içində fitri istedadı olanla sıradan biri eyni ola bilərmi?!

– Yəni? – Mərdan söhbətin qəlizliyindən əsəbləşdi.

– Yəni hamı haqq yolunda savaşmalıdır, bu zaman onların içindən biri mətə olacaqdır, bu üzdən tarix boyu "kiçik mətələr" və "böyük mətələr" olmuşdur. Haqq yolunda savaşdıqdan sonra sən də, mən də, o da mətədir, amma "kiçik mətə". Belələri kiçik qığılcım kimidir, amma bir gün bu qığılcımdan bir alov doğur, bax o əsl mətə olur! Amma Tanrı istədiyi üçün o mətə olmur, o Tanrını istədiyi üçün Mətə olur! Başa düşürsən, bu əslində olduqca sadə, eyni anda da çox qəliz məsələdir! – bunu deyib Səməd kişi atdan düşdü, qayalıqların arasına girərək Mərdana səsləndi. – Bura gəl. – Cibindən çıxardığı bıçaq ilə bir qayadakı ovuğu qurdaladı, daşların arasındakı torpağı yerə töküb, daşları ovuqdan çıxarıb kənara atdı, keçi piyi ilə yağlanmış bir keçə bağlamasını

çıxardı, açıb içindəki kitabları bir-bir Mərdana göstərdi, bir xeyli danışdıqdan sonra dedi: – İndi kitabları keçəyə bük, yerinə qoy, daşları yerinə qoy və palçıq düzəldib qovuğun ağzını suva, üstünə də kol-kos basır! Artıq bu kitablar sənin məsuliyyətindir!

Mərdan atdan düşüb, kitabları keçəyə büküb qayanın içindəki qovuğa qoydu, içini daşlrla doldurdu, içmək üçün gətirdiklərİ su ilə palçıq düzəldib qovuğun ağzını suvadı, bir necə dəst kolu suvağın içinə basırdı, alnının tərini biləyi ilə silərək dedi:

– İş bitdi.

Səməd kişi qəribə bir rahatlıqıa atına mindi:

– Atına min, sürünün yanına gedək!

Səməd kişinin arxasınca çapan Mərdan ona səsləndi:

– Bəs o kitabların içində nə yazlıb?! Mən axı o hərifləri bilmirəm.

– Hə, bu axşamdan dərslərə başlayırıq! Yazıdan xalçaya, bütün sirləri biləcəksən. Çox şey öyrənəcən, bir o qədər də susacan! Qətiyyən şübhə çəkməməlisən!

– Bilmək və susmaq! – Mərdan qəribə tərzdə dedi və başı ilə anladığını təsdiq etdi.

– Bəzi gizli pirlərin kim olduğunu deyəcəm...

– Başqa gizli pirlər də var?! – Mərdan heyrət içində soruşdu!

– Min illərdi türk ulusu səncə niyə yox olmayıb?!

– Gizli pirlər! – Mərdanın üzündə qəribə bir sevinc parladı. – Biz çoxuq?!

– Çox deyilik, amma azda deyilik! Sovet rejimi çoxlarını məhv etdi, sildi-süpürdü, ocaqlarımızı söndürdü, amma qığılcımlar yaşamaqdadır!

– Mənim üzdən tanıdığım var?! – Mərdan yaşına məxsus sevinclə soruşdu.

– Tələsmə, bala nə olub?! – Səməd gülümsündü.

Babasının gülməsindən tanıdığı birinin olduğunu anlayan Mərdan atını babasının yanına sürüb dedi:

– Baba, de. Bu qədər bəd xəbərdən sonra, xoş nəsə eşitmək mənim də haqqımdır!

– Qazaxdan gizli pir öyü var!

– Ağ saklılar?! Atamın nəsli?!

– Hə... – Səməd kişi qımışaraq dedi.

– Demək ki, qan yaddaşımızı yaşadanlar var, hələ bir ümid var!

– Mərdan...

– Hə.

– Haqqı unutmadıqca, haq da səni unutmaz!

Mərdan qeyri-ixtiyarı bu cümləni təkrarladı:

– Haqqı unutmadıqca, haq da səni unutmaz!

– Allah diləyəni haqqa yönəldər, diləməyəni isə sapdırar!

– Allah diləyəni haqqa yönəldər, diləməyəni isə sapdırar! – Mərdan bu cümləni də təkrarladıqdan sonra soruşdu:

– Baba, gizli pirlər varsa, necə olur ki, bütün tariximizi, ədəbiyyatımızı dəyişiblər! Mən keçən iləcən "Yanıq Kərəmi"yə oynayırdım, o böyüklükdə Üzeyir bəy Hacıbəyov "Əsli və Kərəm" dastanına opera yazır, orada Əsli bir erməni qızı olduğunu yazır, amma ermənilərin xristian türkü olduğu yazılmır?

– Son 150 ildir türklərin başına gəlmiyən qalmayıb, ocaqlarımızı söndürüblər, yurdlarımız yerlə yeksan ediblər, nəyimiz var sahibləniblər, hə?! – Səməd kişi qalib gəlmiş döyüşçü ədası ilə soruşdu.

– Hə, elədir! Son eşitdiklərimdən sonra, etiraz edəcək tək bir kəlməm yoxdur! Amma bunun mənim sualıma nə dəxli var, bunu anlamadım?!

– Bütün dünya bizə qarşıdır, hamı bizə düşmən kəsilib! Daş üstə daş, baş üstə baş qoymadılar! Amma... – acıq verirmişcəsinə güldü.

– Nə amma? Güləcəyimiz nəyimiz var ki?!

– Sözümüzü, şerimizi, aşığımızı, sazımızı, dastanlarımızı belə oğurladılar, sildilər, pozdular. Amma... – Səməd kişi yenə gülərək susdu.

– Nə amma, baba?!

– Əsli və Kərəm dastanını danışan aşıqlar daha yoxdur, sən demiş orada erməni qızı Əsli və müsəliman oğlu Kərəm var. Hətta bu günü "yanıq Kərəmiyə" oynayanlar da var! Amma... – Səməd kişi yenidən qalib gələn döyüşçü ədası ilə güldü, – Aşıqlarımızı

öldürdülər, amma külündən doğan aşıqlar bu dastanı danışdı və sonra Üzeyir bəy Hacıbəyov bu dastanı opera kimi yazdı. Beləcə, tarixin bir parçası "Əsli və Kərəm" adı ilə iz qoydu, bir gün biri geri boylanıb deyəcək ki, tarixdə nə baş verdi ki, bu xalq bir dastanda bu erməni qızı ilə bir türk oğlunun nakam sevgisindən danışdı, niyə Əslinin atası Qara Keşiş öləndə belə iki gəncin qəbrinin arasında qara tikan kimi bitir?! Bir gün biri bunu soruşacaq, bəs bu dastan qalmasa, bu dastana opera yazılmasa hansı iz qalacaqdır?! Hə?!

– Əslində onlar bizi aldatdıqlarını düşündükləri zaman özləri aldanıb! – Mərdan köksünü ötürərək dedi, – Yanıq Kərəmi yandığı müddətcə bu millətin ocağı sönməz! Kərəm sönən ocaqların əvəzinə yanır! – Babasının gözünə baxdı və bağırdı, – Baba Kərəm bizim üçün yanır! Nazan üçün yanır, nazanlar üçün yanır! Hə?!

– Hə! Biz Kərəmi unutduğumuz gün öləciyik, Kərəm yandığı müddətcə bir şansımız var! O üzdən aşıqlarımız ölüb, amma Kərəmi sönməyə qoymayıblar!

– Baba... – Mərdan yenidən sualı olduğunu bildirmək üçün dedi.

– De bala, de.

– Ölüm fərmanı verilən bir millət bunu necə bacarıb, bizim ocaqlarımızı söndürərkən biz Kərəmi yandırmışıq, bu böyüklükdə sovet maşınını, ingilis maşınını necə aldada bilmişik?!

– Bəs gizli pirlər nə üçün var?! Qədim yunan şairi Homeri tanıyırsanmı?! Onun yazdığı dastanda Troya haqqında olanları eşitmisənmi?!

Mərdan heyrətlə babasına baxdı:

– Baba sən Homeri də tanıyırsan?! Troyanın türklərə nə dəxli? – Babasının istеza ilə ona baxdığını görüb sözünü dəyişdi. -Troya türk şəhəri olub?! Yəni Homer də gizli pir olub?! Homer də ocağı söndürülən Troyanın ocağını yandırmaq üçün əsl həqiqəti yunanların xoşuna gələn formada dəyişib?!

– Hə. Necə ki Kərəm sönən ərmənlər üçün yanır, Troyada öz keçmişinin unudulmaması üçün yanır! – Səməd kişi əmin halda

dedi, – Biz bir yolunu tapıb keçmişi yaşatmaqla mükəlləfik!

– Baba, Homer haqqında danış!

– Bir onu deyim ki, Homer onun adı deyil, tayfasının adıdır. O qəmər türklərindən olub!

– Homer qəmər türkü demək olub! İlahi! Baba danış!

– Yox, o indinin söhbəti deyil. Gizlətdiyimiz kitablar içində o haqda geniş yazılıb!

Axşam evə döndükdə Mərdan sazı götürün sinəsinə basıb "yanıq Kərəmi" havasını çaldı, çaldıqca ağladı, ona elə gəlirdi ki, Nazan onun yanında oturub başını onun çiyninə qoyub, saza qulaq asır.

## NAZAN

*Qoca qartal, nə gəzirsən,*
*Dağlar qoynunda, qoynunda.*
*Bala gördüm anasının*
*Ağlar qoynunda, qoynunda.*

*Niyə qəlbin qaralıbdı,*
*Gül üstünü xar alıbdı.*
*Şamamalar saralıbdı,*
*Tağlar qoynunda, qoynunda.*

*Bir həkim yara bağlayır,*
*Bir həkim sinə dağlayır.*
*Bağban gördüm, gül ağlayır*
*Bağlar qoynunda, qoynunda.*

*Azaflı, yaz, dilə gəlməz,*
*Uçdu sonan, gölə gəlməz.*
*Keçən keçdi ələgəlməz*
*Çağlar qoynunda, qoynunda.*

***Mikayıl Azaflı (1924-1990) – Azərbaycan aşığı***

Solmazın xəstəxanaya gətirilməsindən bir saatdan çox vaxt keçmişdi, amma bir səs-səmir yoxdu. Orxan heysiz halda gözlərini qapıya dikmişdi. İndi onun bütün umidi, bütün qorxuları, bütün sevinci bu qapıda idi. Gözlərini qırpmadan qapıya baxırdı ki, qapı açıldı, orta yaşlı həkim yaşına uyğun olmayan həyacanla Orxangilə yaxınlaşaraq soruşdu:

– Qızın əri kimdir?

Orxan bir şey anlamadan tək bir söz deyə bildi:

– Mən.

– Vəziyyət ciddidir! Qız özündə deyil…

– Solmazmı? – Orxan həkimin sözünü kəsərək həyacanla soruşdu.

– Hə, qız özündə deyil. İki yolumuz var, ya yoldaşını, ya körpəni qurtara bilərik! – o gözlərini Orxandan qaçıraraq pıçıldadı.

Orxanın gözü qaralmağa başladı, ürəyi elə döyünürdü ki, sanki indi partlayacaq, o əlini atıb həkimin çiynindən tutdu, zorla pıçıldadı:

– Həkim mənim Solmazıma bir şey olmasın, onu qurtarın! – həkimin gözünə baxaraq əmir verirmişcəsinə dedi, – Solmazı qurtarın!

Həkim onun gözündəki kədərdən hürkmüşcəsinə tez gözlərini çəkdi, bir anlıq durdu, sonra sürətlə qapını açıb içəri girdi.

– Həkim, nə edirik? – Solmazın başının üstündə dayanan tibb işçiləri soruşdu.

– Körpəni doğramaq lazımdır! Gəlini qurtarmaq lazımdır!...

Solmazın bədəni boşalmışdı, heç nə edə bilmir, heç nəyə reaksiya verə bilmirdi. Gözündəki görüntü yox olmuşdu, gördüyü yalnız boz bir ləkə idi. Beynində qəribə küy vardı, sanki bir boşluqda aşağıya yuvarlanırdı. Lap uzaqdan bir səs beynində əks-səda verdi:

– Həkim nə edək, həkim nə edək?! – Bu sual beynindəki küyü yararaq, beyninin bütün güşəsinə dəyərək əks-səda verdi – Həkim nə edək? Həkimin cavabı gecikmədi və cavabın əks-səda beynində cingildədi: – Körpəni doğramaq lazımdır! Gəlini qurtarmaq lazımdır! – Bu cümlə beynində əks-səda verirdi və hər yeni əks-səda əvvəlkindən daha yüksək səslə beynində cingildəyirdi, – Körpəni doğramaq lazımdır! Gəlini qurtarmaq lazımdır! –Bu əks-sədadan beyninin bir küncündə bir sual qığılcımlandı. – Kimin körpəsini doğrayırlar?! – Haradansa gələn cavab onun beynini sirkələdi, – Sənin körpəni doğrayırlar, səni qurtarmaq üçün…

Həkim əlini əməliyyat alətlərinə tərəf uzadaraq tibb bacısını səslədi:

– Qızım tez qayçını ver…

Solmazın ifadə oxunmayan gözlərində bir ışıltı parladı, o bütün qüvvəsini toplayaraq gözünü otağa gəzindirərək həkimi axtardı:

– Mənim körpəmə bir şey olsa və mən sağ qalsam, kimsə səni mənim əlimdən qurtara bilməz, hamınızı öldürərəm. – O, pıçıltı ilə zarıdı. Amma bu pıçıltıda nə qədər böyük qətiyyət vardı. Solmazın daha nəsə deməyə gücü catmadı, gözünü həkimin gözlərinə dikdi.

Həkim Somazın səsinə əlini dayandırdı, gözü onun gözlərinə sataşdı, Solmazın gözündəki o baxış bədəninə işlədi. Solmazın deyə bilmədiyi bütün sözləri onun gözündə oxuyan həkim dedi:

– Qızım onda bütün gücünü topla, mənə baxdığın o qətiyyətlə…Dərindən nəfəs al, dərindən nəfəs al… Güc ver...

Solmaz bütün gücünü toplayaraq dərindən nəfəs aldı, sonra birdə dərindən nəfəs aldı, daha sonra birdə dərindən nəfəs aldı…

Bir körpə qığıltısı eşidildi, körpənin ağlama səsi anası Solmazın inləməsinə qarışdı.

Həkim sevinclə pıçıldadı:

– Bir qızın oldu…

Somaz gözünü yumaraq dərindən nəfəs aldı, yorulmuş üzündə bir təbəssüm sezildi, analıq təbəssümü…

Mərdan kişinin bir qız nəvəsi olmuşdu, Orxanla Solmazın bir qızları olmuşdu.

Solmazın doğumu ağır keçmişdi, o iki gün özünə gələ bilməmişdi. Özünə gəldikdə ilk verdiyi sual bu olmuşdu:

– Körpəm hanı? – Qızını gördükdən sonra sakitləşmişdi.

Nazandan fərqli olaraq Solmaza heç nə olmamışdı, cəmi on dəqiqə əvvəl Orxan Mərdan kişinin həm gəlinini, həm nəvəsini evə gətirmişdi, amma Mərdan kişi hələ də özünə gələ bilmirdi, qəlbində qəribə bir təlaş vardı. Oğlunun səsinə xəyaldan ayıldı:

– Ata...

– Eşidirəm oğul.

– Ata körpəyə bir ad fikirləşmisənmi?

– Ad... Nəvəmə... – qəribə tərzə oğluna baxdı.

– İcazənizlə körpəyə rəhmətlik anamın adını qoymaq istəyirik…

– Nazan, Nazan. – Mərdan kişi bütün varlığı ilə dedi bu adı.

– Demək razısan, adı ilə yaşasın! – Orxan gülümsünərək dedi.

Mərdan pıçıldadı:

– Allah nənəsindən aldığı ömrü bu körpəyə versin! Nazan... – qəhər boğmuş səslə oğluna dedi, – Orxan, o sazı maa ver, ürəyimə “yanıq Kərəmi” düşüb, – nəsə düşündü, – amma yox, sən çal...

# BALIŞ ALTINDAKI QƏTİL

*İlan yatar düşmən yatmaz.*
***Azərbaycan atalar sözü***

Mərdan kişi qapının səsinə yerindən dikəldi:

– Ayə kimsən, bəri gəl!

Qapının arxasındakı adam Mərdan kişinin hayına məhəl vermədən qapını döyürdü. Mərdan kişi ayağa qalxıb deyinə-deyinə qapıya sarı getdi:

– Bu da təzəmi adətdir, qapı döyürlər! Kimsən keç içəri də! Abrını büküm ətəyinə, sən də gör, – deyib çölə çıxdı. Bir anlıq duruxdu, qarşısındakı adamı haradasa görmüşdü, amma ha elədi tanıya bilmədi, – Kimsən?! Tanıya bilmədim?

Qalın pala bığlı adamsa Mərdanın sözünə fikir vermədən onu qucaqlayıb öpdü və bu dəfə təklif gözləmədən içəri keçdi:

– Ayə nə yaman deyingən olmusan?! Belə getsə məndən qabaq qocalacaqsan?! –Mərdana sataşdı.

– Aslan?! – səsindən tanıdı, təəcüblə onun pala bığına baxdı.

– Hə, mənəm?!

– Bu nə vid-fasondur ay saqqalı ağarmış?! Bu nə bığdır?!

– Keç içəri, hamısını danışacam!

– Məzəli şeylər çıxır səndən də! – deyib Aslanın arxasınca içəri keçdi

– Orxan hanı?! – Aslan soruşdu.

– Hələ gəlməyif, harda olsa gələr! – Gəlinini səslədi, – Ay bala, ay Solmaz, Aslan…

Aslan onun ağzını tutub:

– Sussss, adımı çəkmə, Allah qonağıyam!

Mərdan Aslanın üzünə baxıb heç nə anlamadan:

– Başına havamı gəlif ayə?! Nətəri yanı adımı çəkmə?! Nə hoqqan var sənin?!

Solmaz səsə eyvana çıxdı.

– Xoş gəlifsiniz, – deyib qonağı süzdü, Aslanı tanıya bilmədi.

Mərdan heç nə anlamasa da astandan dedi:

– Aslan əmindir, təzə fasonudur! – qımışdı.

– Bağışla ay Aslan əmi tanıya bilmədim, həmişə sən gələsən! – deyib qabağa yürüyüb görüşdü, üzünü qaynatasına tutub soruşdu, – Mərdan qağa süfrəni harda salım?!

Aslan Mərdan kişiyə macal vermədən:

– Tut ağacının altında oturajayıq ay qızım! Mən Aslan əmin döyəm ha! Birdən qonum-qonşu gələr Mərdan qağamın qonağıdır, tanımıram deyərsən! -Solmaza baxıb qətiyyərlə dedi, – Yaxşımı?!

– Yaxşı Allahın qonağı! – Solmaz gülümsədi – Oldumu?!

– Əla! – deyib tut ağacının altındakı masaya sarı getdi, – Hə ay Mərdan, nə var, nə yox?!

– Vallah xəbəri səndə alası, iki məktubum geri qayıdıb, xeyirdimi?! Məktublar niyə saa çatmırdı?! Bu ad məsələsi də bir başqa məsələdir? Nətəri yanı Aslan döyəm!

– Yox hamısı bir məsələdir!

– Of ay… – Aslanın adını çəkəcəkdi, uddu, – sözü əzə-əzə danışmağın olmaya dana! – Mərdan hövsələdən çıxdı.

– Daha orada yaşamıram, Leynakana köçmüşəm.

– Niyə ki, ora yel əsib qozmu tökülüb?! Oturmuşdun da oturduğun yerdə.

– Yenilik axtarıram. – Aslan bic-bic gülümsədi.

– Sən sözdü adama oxşayırsan, xeyirdimi?! Orada nə işin var sənin?!

– Sözün açığı bir neçə səbəbdən köçdüm Yeravandan. Birincisi o haqq-hesablardan, o biqeyrətliklərdən sonra tanıdığım ermənilərin yenidən özlərini mələk kimi aparmasını götürə bilmirdim! İçlərini bildiyimdən sabah yenə namərdlik edəcəklərini bilirəm, az qalırdım göz qabağındaca başlarını kəsim!

– Sən də lap ağ etdin! Biri-birimizə ehtiyatlı olacağımıza söz verməmişikmi?!

– Vermişik! Amma daha səbrimi basa bilmirəm, -Mərdanın məzəmətlə baxdığını görüb dedi, Vallah düz deyirəm, məndən bu qədər! – yenidən bic-bic güldü.

Mərdan kişi onu süzüb, mənalı-mənalı baxışlarındakı məntiqi oxumağa çalışdı:

– Mən ölüm nə etmisən?! Belə gülürsən ki, birinci mən soruşum, sonra danışasan.

– Soruş da, rəhmətliyin oğlu soruş da, – əyilərək astadan Mərdan kişinin qulağına pıçıldadı, – Yeravan və ətrafında əllidən çox adamı cəhənnəmə vasil elləmişəm…

– Nə?

Aslan Mərdan kişinin təəcüblənməsinə məhəl qoymadan, gülərək dedi:

– Mərdan mənə bu qalajaq, mən millətimizin nə ayılmasını gözləyə bilərəm, nə buna mənim ömrüm yetər! Mən mənim payıma düşənlərdir, – yenidən güldü, –mən öcümü alıram.

Mərdan bir anlıq duruxdu:

– Yox, sənin etdiyin cinayətdir! – Mərdan Aslanın belə hərəkəti ilə həqiqi mənada razılaşa bilmədi.

– Bura bax Mərdan, sən erməniləri tanıyırsan, saa duruf dərs kecəsi döyüləm! Sən, indi də bajın Yeganə tarixi qurdalıyır, nəsə oxuyursuz, nəsə yazırsız, inan çox sevinirəm! Amma ürəyim ağrıyır, daha dözə bilmirəm, başa düşürsən?! – Yeganə tarix fakültəsinə qəbul olub, bu sahədə müdafiəyəyə hazırlaşırdı.

– Aslan səbr…

– Mərdan səbr kasam dolub. İnan sevinirəm, yazırsız, pozursuz, bu gün olmasa, sabah olmasa da, nə vaxtsa bir vətənoğlunun əlinə keçər, bəlkə nəsə olar…

– Onda bir yerdə otur!

– Olmur! Olmaz! Çünki tək yazı ilə heç nə olmur, bu hökümət bacının araşdırmalarının içini biləndə ona da edəcəyini edəcək! – Özü-özünün dediyi sözdən vahiməyə düşdü, – Allah özün Yeganəni qoru! – Bir az duruxdu, sonra başını yelləyərək dedi:

– Mərdan sənin, bacının topladığı məlumatlar, faktlar bu gün bu millətə heç nə verə bilməz! Sabah da kimin əlinə düşəcəyinə baxır!

– Yəni deyirsən bu millət ola bilsin bütünü ilə yanıb kül oldu?! – Mərdan ürək ağrısı ilə soruşdu.

– Bu gedişin hər hansı kəskin döngəsi olmasa, bu millətin sonu yoxdur! Gələcəkdə kəskin dönüş olsa belə, unutma ki, bizi yaşatmamağa çalışan böyük bir sistem var!

– Yəni…

– Yənisi budur ki, Mərdan, bilmək olmaz bu millətin intiqamı alınacaq, ya yox! Mən öz payıma düşəni edim də, nə olar, nə olmaz! – burnunu çəkdi.

– Kimləri öldürmüsən?! – Mərdan dalğın halda soruşdu.

– Kimi gəldi, harda gəldi?! Hərəsini bir metodla öldürürəm, heç bir iz buraxmıram! – Kədərili halda güldü, – barı davada öyrəndiklərim buradasa xeyrimə gəlsin, elə döyülmü?! Sonra baxdım Yeravanda ölü sayısı çoxalıb, milis, KQB biri-birinə qarışıb, belə getsə izimə düşə bilərəm, köçdüm Lenakana!

– Tanıdıqların da vardımı?

Aslan gülümsədi, bu gülümsəmədən çox ovunu tutacaq şirin mırıldanmasına bənzədi:

– Tanıdığım erməninі o vaxt öldürürdüm ki, onun hansısa erməni və ya rus ilə ədavəti düşmüş olsun və bunu bütün aləm bilsin! Beləcə birini öldürdükdən sonra digərini də dolayı yolla dama basdırmış olurdum!

– Belə axı yaramaz!

Aslan kinayə ilə gülümsədi:

– Mərdan sən davanı görməmisən, başa düşürəm səni! Amma davanı görən biri kimi məndən saa bir məsləhət, əlində silah tutan düşmən yalnız öldürüldükdə saa heç zad edə bilmir! Bir də ki mən erməninin xalqıma etdiyini özlərinə edirəm!

– Uşaqlıq eləmə…

– Nə uşaqlıq?! – Aslan deyəsən həqiqi mənada əsəbləşdi. – Mərdan onlar xalqıma altdan-altdan fırıldaqlar edir, kolxozları erməniləşdirir, xalqımıza göz verib, işıq vermirlər ki, camaat burdan köçüb getsin, indi nağaraq deyirsən, oturub nəyi gözləyək? Dinsizin öhtəsindən imansız gələr! – burnunu çəkdi. – Nəysə ki mən Allahıma inanıram! – güldü.

– Nə deyim, sən də özünə görə haqlısan! – Mərdan dalğın halda cavab verdi.

– Mən özümə görə yox, qanı yerdə qalan şəhidlərimizə görə, hər gün min adla öldürülən yeni qurbanlara görə, qul edilən xalqıma-vətənimə görə haqlıyam!

– Yaxşı indi nə edəcən, Leynakanda deyirəm?!

– Hələ ki heç nə! Amma gəlmişəm sənə təzə xəbərlərdən deyim…

– Nə xəbəri?!

– Son öldürdüyüm ermənilərdən biri Türkiyədən gələn ermənilərdən idi. Kimsəsi yoxdu, son işlədiyi iş yerindən də çıxmışdı, Leynakana köçəsi idi, yolüstü Yeravana gəzmək üçün gəlmişdi, – bic-bic güldü, – cibində olan arayışa görə üç gün vaxtı vardı Leynakana getməyə. Üç gün bunu maşınımda gəzdirdim, haqqında bütün məlumatları topladım, öyrəndim ki, burada kimsəylə elə bir tanışlığı yoxdur, yəni onun varlığı çibindəki sənəd qədər idi. İşini bitirdim, sənədlərini götürdüm, əl gəzdirdim…

– Sən nə danışırsan?!

– Hə, mən əslində Akbar Akopyanam!

– Bəs özün?! Aslana nə olcaq, birdən-birə yoxa çıxa bilməz ki?!

– İşdən çıxdım və hər kəsə yaydım ki, Sibirə işləməyə gedirəm! Biletəcən aldım, düz oracan getdim.

– Eeee, sonra? – Mərdan heyrətlə soruşdu.

– Qismətdən orada da qarşıma məni boyda bir erməni çıxdı, öldürdüm, sifətini o ki var əzişdirdim, sonra mənim adıma olan sənədləri onun cibinə qoydum və basırdım, amma elə yerdə basırdım ki, tezliklə tapsınlar və beləcə mən ölmüş olacam. Sonra öldürdüyüm ermənininin sənəti ilə Bakıya gəldim, Bakıdan burasa pulun gücüylə gəldim, yəni heç bir iz yoxdur, indisə Leynakanda Akbar Akopyan adına yeni həyata başlamışam. Sibir səfərim bir həftə çəkmişdi, yəni gecikmişdim, başladım Yeravana valeh olmağımdan danışmağa, yedilər. Beləcə ermənilərin içindəyəm. Bircə pis tərəfi var…

– Nə?

– Kilsəyə mən də pul verirəm, axı mən sənəddə bir erməniyəm!

– Demək kilsəyə hər ay pul yığılması söhbəti düzdür, hə?!

– Əlbəttə düzdür, amma dahası var!

– Dahası nədir?!

– Demək Leynakana gedən kimi, məni yataqxanada yerləş-

dirdilər, orada iki ay qaldım, münasibətlər qurmaq üçün. Sonra Türkiyədən gətirdiyim pulla özümə ev aldım. – güldü, – Axı mən Türkiyədən gəlmiş erməniyəm.

– Bu dediklərində elə bir şey yoxdur axı?! – Mərdan səbrini basa bilmədi. – Sözünün canını de.

– Qulaq as da, bir səbrini bas sözümün arxasını gətirim. Mən ora çatan kimi, milis şöbəsinə getdim…

– Niyə?

– Çünki Akbar Akobyan Türkiyədən gələn erməni olduğundan o ilk əvvəl milisdə qeydiyyata düşməli idi, gerisini onlar həll edəcəcəkdi. İlk bir ay mənə əsl erməni olmağın nə demək olduğunu öyrətdilər. Bir qadını mənim ixtiyarıma verdilər, nə bilim ya da məni onun ixtiyarına verdilər, nəyəsə elə bir şey. Dedilər ki, ilk əvvəl səni bura ilə tanış edəcəklər, sonra iş yerini filan təşkil edərik. Demək Aykanuş…

– Aykanuş kimdir?! – Mərdan onun sözünü kəsərək soruşdu.

Aslan bic-bic güldü:

– Hə onu demədim axı? Aykanuş məni Leynakanla tanış edəncək qadındı da. Nəysə o ilk günü məni Lenakanın Şirak müzeyinə apardı. Girişdəki tablonu göstərib dedi:

– Bu tabloya diqqətlə bax.

Mən tabloya baxdım, bu yağlı boya ilə çəkilən tablo idi, şəkildə yüzlərlə kəllə sümüyünün pramida şəklində üst-üstə yığılması çəkilmişdi:

– Bu nədir deyə? – soruşdum.

– Görmürsən üstündə nə yazılıb? Bunları türklər ermənilərə edib?! – dedi.

Mənim erməni olduğumuu düşündüklərindən bir görsəydin mənlə necə nəvazişlə davranırdılar, istədiyimi danışa bilərdim, qorxusu yoxdu və bu səbəbə də özümü gicliyə qoyub soruşdum:

– Axı bu foto şəkil deyil, hansısa rəssamın şəkilidir, məgər bunu fakt hesab etmək olar ki?!

Qadın tərs-tərs mənə baxdı, amma əsəbini zorla boğdu, nəsə düşündü və dedi:

– Arxivdə bizim başımıza gətirilən hadisələrlə bağlı minlərlə şəkil var, amma üzə çıxara bilmirik, hələ icazə yoxdur!

Üzündəncə bilinirdi ki, yalan danışır, amma daha üstünə getmədim, muzeydə türk düşmənçiliyi ilə bağlı onlarla belə ekspanat göstərdi. Türklərin vəhşiliyindən danışdı. Bu vaxt müzeyə oktyabryat şagirdlərlə müəllimləri gəldi, müəllim ilk şəkili göstərib türklərin qarasınca danışmağa başladı. Uşaqlar da türkləri söyə-söyə şəkilə baxırdı.

Sonra mənim əsl ermənilərin nələr hiss etdiyini görmək üçün yataqxanaya yerləşdirdilər. Türkiyədən pul gətirdiyimi desəm də, məni evlə təmin edəcəklərinə söz verdikləri halda, iki ay məcburi yataqxanada qaldım, erməni ruhunu hiss etmək üçün. Bu ermənilər, türklərin onların babalarını öldürməsindən tutub, Andranikin qəhramanlığınacan min uydurma danışırdı. Əlim gicişirdi, dəli şeytan deyirdi gecənən hamısının başını kəs, nəysə… Tez-tez yataqxanaya yoxlama gəlirdi…

– Səninləmi bağlı? – Mərdan soruşdu.

– Yox, onların dili ilə desək təşkilatdan və kilsədən gəlirdilər, otaqları yoxlayırdılar, kiçik uşaqlara suallar verirdilər…

– Nə sualı?!

– Məsələn “Andranik kimdir? Türk kimdir? Bizim düşmənimiz kimdir?, haylar kimdir?” kimi suallar. Əgər uşaq sualın cavabını bilməsə idi, valideyinlərini aparırdılar, özlərinin dili ilə desək başa salıb göndərirdilər. Hətta içlərində də cavabdehlər var, bir növ casuslar, – dişlərini qıcıyaraq dedi; – “sukalar”, kim onlara verilən “hay kimliyindən” kənara çıxsa, təşkilata xəbər verirlər…

– Yəni kilsə hamıya tam nəzarət edir?!

– Səbr elə, hələ harasıdır? Bir də körpələrin balışının altında mütləq Andranik haqqında yazılan kitab və şəkili olmalıdır, bunu da yoxlayırlar, əgər olmasa yenə aparırlar!

Bir dəfəsində yenə təşkilatdan yoxlama gəlmişdi. Bir-bir otaqları yoxladılar, körpəsi olanların beşiklərini yoxladılar. Birdən bir otaqda səs-küy qopdu:

– Bu nə biabırçılıqdır? – deyə təşkilatdan gələnlər soruşdu.

Körpənin anası heç nə anlamadan:

– Nə olub ki?! – Deyə soruşdu, onlar bir həftə olardı yataqxanaya gəlmişdilər, onlar Bakı ermənisi olduqlarından, kilsəyə yal-

nız  pul köçürməklə yetişmişdilər. Onlar təşkilatın Bakıdakı tələbi ilə buradakı tələbinin  çox-çox fərqli olduğunu daha bilmirdilər!

– Körpənin balışın altında niyə Andranikin şəkili və kitabı yoxdur?! – deyə təşkilatdakılar ondan soruşdu.

Qadın onunla zarafat edildiyini düşünüb gülərək soruşdu:

– Məgər körpə oxumaq bilir?! Onun heç bir yaşı yoxdur… O kitabla nə edəsidir ki?!

– Kəs səsini, təşkilata ağıl verirsən?!  Sən ermənilər üçün şərəf olan bir məsələyə lağmı edirsən?! – deyən təşkilatın adamlarından biri bağıraraq qonşu Aşotu çağırdı:

– Sən hara baxırsan?! Sən burada nəsən, kimsən?!  Özün başa sala bilmirsən, bizə niyə xəbər vermirsən?!

– Onlar təzə gəlib qardaş! Mən ümumi vəziyyəti başa salmışam, şəkili və kitabı da özüm hədiyyə verəcəkdim, o vaxt da nə lazımdır deyəcəkdim.

– Bəs niyə etməmisən?!

– Nə kitab, nə şəkil var, qurtarıb. Dedilər ki, iki həftədən sonra olacaq! İnan heç kimdə yoxdur, məncə sizdə bilirsiniz ki, tələbat çox olduğundan nəşriyyat çatdıra bilmir! – Aşot məzlum halda dedi.

– Hə tələbat çoxdur, erməni xalqının ilk istəyi nə olmalıdır ki?! – Bu xəbər təşkilatdakıların olduqca xoşuna gəlmişdi, əsəbləri soyudu. – Bacım, – onlar körpənin anasına dedilər, – bilirik Bakıda tamlığı ilə belə deyil, nə də olsa hələ ki oralar bizim deyil. Kənarda bəzi güzəştlərə gedirik, amma burada  hər bir hay övladının ən ümdə vəzifələrindən biri  bu kitab məsələsidir.

Qadın da gülümsədi:

– Qardaş biz Bakıda olsaq da, kilsəyə  deyiləndən artıq pul köçürürük! Ərim və mən həmişə bununla fəxr etmişik!

– Aşot sən özündəki kitab və şəkili gətir, özün sonra nəşriyyatdan götürərsən,– təşkilatdan biri dedi.

Aslan söhbətini bitirib Mərdana baxdı:

- Bax vəziyyət bu yerdədir!

Mərdan eşitdiklərinin şokundan ayıla bilmədən kəkələdi:

– Bunlar nə etmək istəyir?! Bunlar balış altında  qan canağımı yatızdırırlar?!

– Səncə?! Balıq başdan iylənir, onlar istəsə də kilsə onları düzəlməyə qoymayacaq.

– Mən bu qədərini təsəvvür etməmişdim! – Mərdan heyrət içində dedi.

– Məsləhət görürəm ki, sən bundan da artığını düşünəsən! Unutma ki, atalarımızın bir gözəl sözü var, "qorxaq namərd olar". Namərddənsə hər şey gözlənər! Hə bu arada sənə bir şey də deyim…

– De görək.

– Ermənicəyə çevirdikləri azərbaycan mahnıları var ha …

– Eeee – Mərdan heyrətlə soruşdu, – ona nə ediblər ki?!

– Akbar Akopyana, yəni Türkiyə ermənisinə Aykanuş dedi ki, bu mahnılar erməni mahnısıdır, əlindən heç nə gəlməyən azərbaycanlılar bizdən oğurlayır…

– Bəs sən nə dedin?! – Mərdan hiddətlə soruşdu.

– Mən Akbaram nə deyə bilərəm ki?! Dedim bəs niyə qoyursunuz onların oğurlamasına?!

– Nə dedi?

– Dedi ki, biz mahnılarımızı dünyaya yayırıq, vaxt gələcək bizi dəstəkləyən ölkələr onları oğurluqda günahlandıracaq. Fahişə gülürdü. – Aslan əsəbi halda dedi.

– Bəs soruşmadın ki, o dost ölkələr kimdir?!

– Soruşdum, dedi ki, İngiltərə, Fransa, Amerika və digərləri. Ardınca izah etdi ki, bütün xristian cəmiyyəti bizim dostumuzdur ay Akbar, Türkiyə səni yamanca yalnız qoyub, qorxma dünya arxamızdadır. Elə dedi Aykanuş.

– Bəs indi nə edəcən?!

– Görək. Sən Solmaza, Orxana başa sal mənim adımı çəkməsinlər. Nəsə olsa desinlər Mərdan qağamın məktubları boş qayıdır. Sən də bir neçə ay sonra milisə gedərsən, deyərsən ki, bu adam yoxa çıxıb, məktubuma cavab yazmır. Mən də bura yəqin ki gec-gec gələcəm, gələndə də meyvə almaq adı ilə gələcəm, şübhə çəkməmək üçün. Bu arada bilirsənmi nə etdim?!

-Nə?

– Əlim dinc durmadı, altı dənə gürzəni tutub gecə ilə bir mi-

lis idarəsinin açıq pəncərəsindən içəri saldım. 4 erməni milisinin ölüsü çıxdı oradan, canisə ilanlardır, necədir sənin üçün?!

– Nə deyim saa, heç bilmirəm ki?!

Yan otaqdan körpə səsi gəldi, bunu eşidən Aslan soruşdu:

– Oğlandır, qız?!

– Qızdır!

– Adını nə qoymusunuz?! – Aslan həyacanla soruşdu.

– Nazan! – Mərdan doluxsundu.

Aslanınsa gözündən iki damla yaş süzüldü:

– Ömrü uzun olsun! Adıyla yaşasın! Gedən kimi onun adına yeddi qardaş ilan tutacam…

Mərdan duruxdu, düşündü ki, razılıq versin, ya lazım deyil desin…

# QAZAX TORPAQLARININ VERİLMƏSİ HAY-KÜYÜ

*Üz verəndə astarını da istəyir* – ***Azərbaycan deyimi***

*İlanın ağına da lənət, qarasına da* – ***Azərbaycan atalar sözü***

Mərdan kişini ata nəslindən olan ağsaklılar Qazaxa toya çağırmışdı. Mərdan kişinin ata tərəfi Mərdan öyü adlanırdı, lakin "Mərdan öyü" onların ulu babasının adı ilə bağlı idi, bu ad onların hansı türk boyundan olduğunu göstərmirdi, yəni, Mərdan öyü "ağ sak" boyundan idi, bu boydan qalanlar Qərbi Azərbaycan ətrafında müxtəlif kəndlərdə yaşamaqda idi. Bəziləri qohumluq əlaqələrini saxlamışdı, bəziləri isə nəinki qohumluq əlaqələrini itirmişdi, hətta ağsaklarla bağlı böyük bir keçmişi unutmuşdu, onların yerləşdiyi kəndlər "sakeli", "ağsaklı", "sakaklı" kimi çağrılırdı, lakin rus-sovet hakimiyyətinin qurulmasından sonra bir çox sahədə olduğu kimi, yer, kənd, şəhər, toponim adlarındakı türk izləri də silinməyə başladı. Beləliklə, Sakeli çönüb oldu Şıxlı, Sakaklı çönüb oldu Salahlı, Oğuzlar çönüb oldu Kosalar, Qəmərеli çönüb oldu Kəmərli və bu adını çəkdiklərimiz Qazax rayonundakı bəzi kəndlərin adıdır, indi gerisini siz düşünün.

Mərdan kişi vaxtaşırı Qazaxa səfər edirdi, oradakı Mərdan öyünün qonağı olurdu, əsas da adaşı ilə məlum məsələr haqqında söhbət edirdi. İndi də adaşının nəvəsinin sünnət toyuna gedirdi.

Mərdan kişi avtovağzaldakı avtobusların üstünü oxuyaraq sonunda Qazaxa gedən avtobusu tapdı, dəqiqləşdirmək üçün avtobusun qarşısında dayanan sürücüdən soruşdu:

– Qazaxa gedir?

– Hə Qazaxa gedir! Biletin varmı? – Mərdandan bileti alıb baxdı, – hə hər şey düzdür, amma getməyimizə hələ yarım saat var! – dedi.

– Eybi yox, – deyib Mərdan avtobusa mindi, pəncərənin kənarındakı yerinə oturub gözlərini yumdu və Qazaxa getdiyi bir səfəri düşündü…

…1984-cü ilin oktyabır ayı idi. Mərdan adaşıgilə qonaq gəlmişdi. Adaşı da Kəmərli kəndinə toya çağrıldığından, adaşının israrı ilə birlikdə toya getmişdilər. Əsəd kişinin böyük oğlunun toyu idi. Hər şey gözəl başlamışdı, toy olduqca şən keçirdi. Süfrədə nə yox idi… Yeyən kim, oynayan kim. Birdən kimsə mağara girib bağırdı:

– Ay camaat Qılınckənd meşəsindədirlər, meşəni erməniyə verirlər!

Hamı bir anlıq susdu, aşığın döşünə basdığı saz boşalan qollarından yerə düşdü, mağara ani bir sükut çökdü, hamı biri-birinin üzünə baxdı. Və mağardakı ani sükutu qiyaməti xatırladacaq bir bağırtı pozdu:

– Ay camaat cəld olun, Qılınckənd (meşəsi) əlimizdən gedir! Bizi gənə* yuxuya vermək istəyirlər! – hamının səs-küyü biri-birinə qarışmışdı,

– Qazaxı böldükləri yetmədimi? – kimsə bağırdı.

– Borçalını aldılar, Dilcanı aldılar, Göycəni aldılar, Zəngəzuru aldılar, indi növbə Qılınckənddədir? – xor içində bu suallar nidalanırdı.

Toy camaatı bəy qarışıq ayağa qalıxdı, hamı Qılınckənd meşəsinə tələsirdi. Toyun elə bu yerində çatan Mərdangil bir şey anlamadan biri-birinə baxdı, adaş Mərdan o yan-bu yana qaçan Əsəddən soruşdu:

– Nə baş verib?! Camaata nə olub?

– Öyümüzü yıxıflar qağa, görmersənmi gənə torpağımızı vererlər erməniyə!

– Kim? – adaş Mərdan hələ də bir şey anlamadan soruşdu.

– Kim olajax, öz ermənilərimiz, öz satqınlarımız, öz binamusdarımız! – adaş Mərdanın üzündəki həyacanı görüb:

– Qağa sən narahat olma, oturub bir qısmat çörək yeyin, biz varıv gedək ora, görək nə məsələdi, burada durmaqla olmaz! Sən narahat olma!

Mardan kişini indi görüb, gülümsəməyə çalışdı, – Xoş gəlivsiz qardaş. Sən Allah bağışlayın, oturun!

---

* *yenə*

– Əsəd nə danışırsan, biz burada dura bilərikmi, biz də gəlirik!

Əsəd təlaş içində onların qolundan tutub çölə doğru dartdı:

– Di yaxşı, onda bəri gəlin gedək, öyü yıxılmışdarın başımıza açdığı müsübətə baxersanmi?! – Əsəd kişi  toy cammatından birinə səsləndi, – Ayə mənim maşınımı bəri sür,  gedək, mənim əlim-ayağım əsir rol tuta bilmərəm.

Mərdangil Əsədin juqili maşınına mindi, maşın  digər maşın karvanına qoşularaq Qılınckənd meşəsinə tərəf hərəkət etdi. Toy üçün bəzədilən maşınlar, gəlin maşını, siqnal verə-verə meşəyə tərəf şütüyürdü. Əsəd maşını sürəndən  soruşdu:

– Ay Mahmud, meşəyə gələn ermənilərdimi? Ermənilər belə quduruf?

– Yox ay Əsəd dayı, bizimkilər də oradadır!

– Bizimkilər kimdir? – Mərdan kişi  soruşdu.

– Kim olasıdı, bizim rəhbərlik hamısı oradadır! Azərbaycan Komminist Partiyasının rəhbər şəxsləri, nazir mavinindən  balacasına kimi hamısı ordadır! Heydər Əliyev katiblikdən getdi, bu millətin başına daş düşdü!  – Mahmud bir nəfəsə dedi.

Əsəd başı ilə təsdiqlədi:

– Hə,  Heydər Əliyev katib olaydı, görüm bu soysuzlar bu hoqqanı edə bilirdimi!  – Başını bulayaraq ofuldadı, sonra rəhbərliyi nəzərdə tutaraq soruşdu, -Bə bizim ermənilər nətəri gəlif ki, kəndin xəbəri olmayıf?! Hay?!

– Nə kəndi, səni sağ ol. – Mahmud əlini rula vurdu, – ağzında bizim ermənilər deyirsən, bizim rəhbərlər ha demirsən! – Kinayə ilə gülümsədi. – Ermənistan yolu ilə gəliflər, ermənilər də, bizim rəhbərlik də! Atalar yaxşı deyib, taylı tayını tapar!

– Nə olasıdır satqın köpək uşağı,  pərdə  arxasından, xalqı yuxuya verərək iş görməyə alışıflar! Bəə  İsaya söz vermişdilər ki, kənddə iclas keçirəcəklər, nə oldu?!  – sovxoz sədrinə verilmiş sözü nəzərdə tuturdu.

– Nə sözü, bunlar hamısı xalqın gözünə kül üfürmək üçün olan şeylərdir! Torpağı verəndən sonra muştuluğa gələr bunlar, nə iclası?! – Mahmud  fısıldadı, əsəbindən gömgöy göyərmişdi.

– Bunlar bu gedişlə bütün İncədərəsini erməniyə verəcəklər. – Əsəd özüdə bilmədi bu sözü kimlərə deyir! – Ayə o biri kəndlərin xəbəri varmı?

– Hə, Qaymaqlı, Aslanbəyli kəndinədə xəbər çatdırmışıq, hamı ora töküləjək! O biri kəndlərə xəbər verənlər birbaş ora gələcək! Bunlar aldıqca üz görür! Üz verdikcə astar istəyirlər!

Xəbəri eşidən bütün qazaxlılar Qılınckənd meşəsinə tökülüşmüşdü, məmə deyənindən pəpə deyəninə, qadınlı-kişili hamı burada idi. Səs-küy biri-birinə qarışmışdı. Birisi bağırıdı:

– Ermənilərə yaylaqlarımızı verəndə axırı belə olajaqdı da! Bunlar yalamaqla doymaz! Atalarımız nə deyif, «dadananla, qudurandan qorx».

– Göycəmizi aldılar, yaylaqlarımızı aldılar, indi də meşəmizi-suyumuzu əlimizdən alerlər! – Bir nənə əlini dizinə vurub fəryad edirdi, qalan qadınlar da onu ağısını təkrarlayırdı.

Sovxoz direktoru İsa Bəbirov Ermənistan tərəfdən gələn maşınları görüb əlini havaya qaldırdı:

– Ay camaat sakitləşin bir horu, qoy görək gələn kimlərdi.

Mahmud, Əsəd camaatı sakitləşdirməyə çalışdı:

– Ay camaat, bir sakitləşin, qoy bir məsələdən halı olax dana!

Maşınlar dayandı, içindəki adamlar tökülüşdü. Qabağdakı maşından düşən bir şəxs qabağa yeriyərək mehribancasına dilləndi:

– Barev. – ermənicə «salam» deməkdir, üzündəki təbəssümün itməməsi üçün xüsusi qarət göstərdi.

İsa Bəbirov onu süzüb sərt tonla azərbaycanca dedi:

– Salam!

Həmin adam çaşqın halda soruşdu:

– Siz azərbaycanlısınızmı?!

Hamı bir ağızdan dedi:

– Azərbaycanlıyıq! Bura Azərbaycandır! – xorla deyilən bu cümlə bir necə dəfə təkrarlandı.

Həmin adamın üzü tamamilə dəyişdi, köntöy halda soruşdu:

– Sizin burada nə işiniz var?!

– Səni başa düşmədik yoldaş Rəsizadə! – İsa Bəbirov sərt halda soruşdu. Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini yoldaş Rasizadə tərs-tərs İsa Bəbirovu süzdü, dodaqların gəmirərək dedi:

– Bura sizin torpağınız deyil, sizin burada nə işiniz var?!

Bu dəfə camaat İsa Bəbirovu gözləmədən bir ağızdan bağırdı:

– Bura bizim torpaq olmayıb da kimin torpağıdır?!

Rasizadə camaatın üzündəki nifrəti görüb bir neçə addım geri çəkildi, amma özünü o yerə qoymayaraq dedi:

– Bura Ermənistan torpağıdır! Siz bura gəlməklə cinayət edirsiz…

Camaatın bağırtısı onun sözünü kəsdi:

– Cinayətkar sənsən, səni kimilərididir! Bura nə vaxtdan erməninin olub?! Verdikləriniz yetməyib, ermənilər aldığı ilə doymayıb, yenəmi istəyir?!

Rasizadə digər maşındakı vəzifəli adamların da gəldiyini görüb bir az ürəkləndi, bir az da qorxusunu biruzə verməmək üçün bağırıb-qışqırmağa başladı:

– Kəsin səsinizi! Bu nə ədəbsizlikdir?! Siz hökümət adamı ilə danışırsınız! Gədalar…

Əsəd bağırdı:

– Ə gəda səni kimisidir, sən kimsən ki, xalqın torpağını erməni gədələrinə verirsən?! Atalar düz deyib, gədədən bəy olmur!

– Sən mənəmi gədə deyirsən? – Şamil bozardı.

Mahmud Əsədə macal vermədən:

– Hə səninləyik! Gədə olmayıf nəsən? Azərbaycan torpaqlarını erməniyə verənə başqa nə ad qoymaq olar?! Gədə ən ədəblisidir, biz səni kimi ədəbsiz, şərəfsiz olsaq daha betərini deyərdik! Sovet höküməti qurulanda əlimizdən aldığınız torpaqlar bəs döyülmüş kimi, sonradan da 20 min kv. km. torpağımızı paylayıb veribsiniz erməniyə?!

– Nə? Sizin qorxunuz yoxdumu? Mən hökümət adamıyam! – Rasizadə heyrətlə soruşdu.

Bir neçə qadın irəli çıxdı:

– Bizi sənin o qara kostyumun, o qara qalustukun qorxutmur! – Şamilin gülməyə çalışdığını görüb, onlardan biri bağırdı, – Təlxək kimi irişmə! Bu meşə sənindirmi ki, erməniyə verirsən?! Bütün kəndlərin suyu bu meşədəndir, öz camaatını düşünmürsən?!

Hamı bağırmağa başladı:

– Yediyin qurğuşun olsun!

– Yediyin burnundan gəlsin!

– Bu torpaq, bu su, bu hava sənə qənim olsun!

– Hayıf o Caviddən ki, səni kimi qardaşı oğlu var! Cavid kimi oğul repressiya qurbanı ola, səni kimi gəda da yaşayıb maşa ola!

Rasizadə utanaraq üzünü erməni nümayəndələrinə tutdu:

– Bunlar vəhşidir! Bunlar barbardır! Bunlar insan deyil! – üzünü camaata çevirib bağırdı; – Hamınızı Sibirə sürgün etdirəcəm! – deyib maşına oturdu.

Kimsə arxadan bağırdı:

– Ayə, ehtiyatlı ol, bizi Sibirə sürgün etməmiş oranı da erməniyə verərlər! Dəqiqləşdir!

Başqa biri maşına tərəf qaçaraq bağırdı:

- Hüseyin Cavidi də o Sibirə sürgün etmişdilər, səni kimi gədalarsa yaşayır! Səni kimi şərəfsiz olmaqdansa, Cavid kimi şərəfmizlə Sibirdə ölərik!

- Cavidin yazdığı İblis sənsən! İblisss! – hamı bağırmağa başladı, – İbliss! İbliss!

O gün məsələ beləcə qurtardı. Geri dönərkən Mərdangil Əsəddən soruşdu:

– İlk danışan kim idi?!

– İsa Bəbirovumu deyirsən?! O sovxozun direktorudur! Mərd adamdır, başımızda oturanlar onu kimi olsa idi, bir qarış da torpağımızı erməniyə verməzdilər! Bir bilsən hansı təzyiqlərə tab gətirir, halal olsun ona!

– Cöycəni ermənilərə verdiklərini başa düşdüm, bundan xəbərim var! – Mərdan kişi soruşdu, – ermənilərə sonradan verilən yaylaqlar deyəndə nəyi nəzərdə tuturdular?! Ondan xəbərim yoxdur.

Əsəd kişi dərində köks ötürdü:

– Of nə deyim?! Yetim günlərə qalmışıq! Bilmirəm nəyə lənət oxuyam? Özümüzəmi, satqın rəhbərlərimizəmi?!

Mərdan kişi təəcüblə soruşdu:

– Özünüzə niyə lənət oxuyursan? Sözün düzü mən sizin kəndlilərlə fəxr etdim, hamı bir nəfər kimi ayağa qalxdı, qorxmadan, mərd-mərdanə torpağını qorumağa çalışdı.

– Hə, savaşırıq, amma axırını Allah bilir! Heydər Əliyev ge-

dər-getməz yenə başladılar! – Mərdangilin başı ilə təsdiqlədiyini görüb yaylaqlar barəsində danışdı; – Bizim yaylağımız olan Göydağı 1949-cu ildə Mikoyanın oyunu, Stalinin əmri ilə bizdən alıb Ermənistana verdilər, daha doğrusu erməni kəndi edilən Balakəndə qatdılar. Xatırladıqca cızdağımacan yanıram!

Mərdan kişi səbrini basa bilmədi:

– Əsəd qardaş düz əməlli danış görək, yanan sən yox mənəm, partladım, tez ol danış!

– Qağa Balakənd, adından da bəli olduğu kimi lap əvvəllər bizim kənd olub 1918-ci il hadisələrindən sonra bal arısı pətəyinə eşşək arısı dolan kimi erməniləri ora doldurdular. Olana güzəşt deyib olanları unutduq, qonşudurlar, dedik, insandırlar, dedik. Davadan sonrakı vəziyyəti bilirsən, qıtlıq, aclıq-səfalət. Bir də dağ kəndlərində yaşayan ermənilər, arpası-buğdası qışı zorla ya görə, ya görməyə, yaz başı başlayırdılar dilənməyə. Bax, Balakəndin sakinləri bu günlərə bizim kəndlərin yardımı ilə gəlib çıxıb. Nəysə, Göydağ yaylaqlarını da ermənilərə verdilər, olana güzəşt deyib barışmağa çalışdıq. Yaylaqlarda olan dədə-bava qəbirlərimizi dağıtdılar, sak qəbirləri, alban qəbirləri, ərəb əlifbalı qəbirləri, bir də bildik ki, yerlə-yeksan ediblər! Onda da bir ayağa qalxdıq, başımızı qatıb susdurdular, dedilər qəbirləri arxeologiya inistutuna aparacaqlar, araşdıracaqlar, sonra muzeylərə qoyacaqlar. Yenə susdurulduq. İndisə meşəmizi istəyirlər! Bu yerdə deyib atalarımız «üz verirsən, astarını istəyir»

Əsəd köks ötürərək dedi:

– Qağa bu yüzlərlə hektar torpaq deməkdir! Xalqımı, vətənimi yenidən şikəst etmək deməkdir! – Əsəd əsəbi halda güldü, – Bu arada Balakəndin indiki adı Dovexdir! Artıq Göydağ, Armudlu, Çayqovuşan yaylaqlarında bizə aid heç bir iz qalmayıb!

– Parçala və hökm sür! – adaş Mərdan əsəbi halda dedi.

– Bəs biz nə vaxtacan parçalanacayıq?! Nə vaxtacan bir kəndimizi parçaladıqda digərləri göz yumacaq qağa?! – Əsəd üzünü adaş Mərdana tutaraq soruşdu.

Adaş Mərdan xəcalət çəkərək cavab verdi:

– Bilmirəm!

– Mərdan, qaga!

– Eşidirəm Əsəd! – adaş Mərdan bu günü şahidi olduqlarının acizliyində boğularaq pıçıldadı.

– Mənim anam əslən Göycədəndir! Onlar 1919-da erməni zülmündən qaçıb Kəmərliyə pənah gətiriblər! Anam deyirdi ki, yüz evlik kənddən cəmi yeddi ailə canını qurtara bildi, qalanlarını ermənilər min vəhşiliklə öldürdü! O vaxt ermənilər İravana, Göycəyə, Zəngəzura qan udduranda digərləri köməyə gəlmədi! Ermənilərsə hər gün bir az da irəli gedir, bizi tapdayır, parçalayır, udur! İndi buraları alırlar, hər yana xəbər saldıq, kömək istədik, çox kənddən kömək gəldi, amma hamı gəlmədi. Bəziləri deyib ki, bizə nə?!

– Necə yəni «bizə nə»? – Mərdan kişi dəfələrlə şahidi olduğu halda bəzilərinin bu reaksiyasını dərk edə bilmirdi.

– Deyiblər ki, o meşədən bizə nə? Meşədəki sudan bizə nə? O suyu siz istifadə edirsiniz, meşəsini-odununu siz yandırırsınız, siz heyvanınızı otarırsınız, gedin özünüz də həll edin! Bəs itirilən bütün Azərbaycanın torpağı deyilmi?! Biz niyə belə biganə millətik?! Niyə?! Niyə bəzilərimiz fil qulağında yatmağı sevir?! İravandan, Zəngəzurdan, Göyçədən, Dilcandan, Borçalıdan dərs götürmədikmi?!

Mərdan kişi gözlərini məhcul nöqtəyə dikərək pıçıldadı:

– Biganəlik! Özümüzə qarşı, keçmişimizə qarşı biganəlik!

– Hə, biganəlik!– adaş Mərdan da bu sözü təkrarladı.

Əsəd adaş Mərdanın üzünə baxaraq dedi:

– Qardaş məni ən çox yandıran bilirsənmi nədir?

– Nə?

– Əsgəri tanıyırdınmı?

– Cəbhə yoldaşınımı deyirsən, o da Qazaxlı döydümü?

– Hə onu deyirəm, onunla yaxşı dostluğumuz vardı. Davada neçə dəfə biri-birimizi kürəyimizdə daşımışıq! O bizə qonşu kəndlərdən birində kənd sovetidir! Bu məsələdə onunda yanına getdim! “El bir olsa, dağ oynadar yerindən” misalı onun da bizim səsimizə səs verməsini istədim. O da xaraf çıxdı!

– Demək davadan sağ çıxmış bir igiddə xalqını, vətənini kresloya, pula satır! – adaş Mərdan dedi.

– Hə qağa! Bax beləcə parçalanırıq! Tariximiz yarım yama-

laq, kitablar düşmənə işləyir. Misal üçün Qobustanı farsların adına çıxırlar. Qağa bəs demirdinmi buralar bizim ilk ata yurdumuzdur, bəs uşaqlarımıza öyrədilən nədir?!

Adaş Mərdan təmkinlə dedi:

– Səbr et Əsəd! Ayının min oyunu var bir armudun başında, düzdür, amma əmin ol, nə etsələr də, nə qədər inkar etsələr də türk izlərini silə bilməzlər! Türk izini silmək istəyirlərsə, gərək Qobustanın özünü silələr! Soyuq bulaqdakı rəsmlər, Naxçıvanda Gəmiqaya, Orta Asiyada, Türkiyədə, Amerikada olan keçi, buğa, ay-ulduz, xaç damğalarını Qobustanın təkrarıdır və bu damğalar bizim xalçalarda yaşayır, o dili isə biz bilirik. O, sonranın işidir, indi nə olacaq, onu düşünmək lazımdır.

– Sözün açığını deyimmi qağa?! – Əsəd soruşdu.

– Əlbəttə… – adaş Mərdan bir sözlə kifayətləndi.

– Hökümətin daha böyük şəxsləri gələcək, bir çoxumuzu damlayacaq, bir çoxumuzu partiyadan atacaq, bir çoxumuza töhmət verəcək, torpağı da erməniyə verəcəklər, daha doğrusu torpaq artıq verilib, biz kəndlilərin inadı qalıb, onu da sındırmaq Sovet höküməti üçün elə də çətin deyil! Bu boyda Azərbaycanın torpağını erməniyə veriblər, indi beş-altı kənd torpaq davası döysə nə olasıdır?! Hər kəs öz ağlınca isti ocağına çomaq soxmaq istəmir. Amma başa düşmürlər ki, obada tək olan igid həmişə basıncaq olur! Dünən İravan, Zəngəzur, Göycə, bu gün bura, sabahsa… – sözünün dalını deməyə dili gəlmədi.

Bu hadisədən sonra Mərdan daha bir neçə gün orada qalmağı qərarlaşdırdı. Kənd camaatı hara getdisə bir cavab ala bilmədi. Nəhayət üç gün sonra Azərbaycan KP MK-nin iki katibi kəndə gəldi, qorlu-qoşunlu, mirli-milisli, çayqa, qaz 31 markalı maşınlardan ibarət karvanla. Bu gələnlərin camaata izahı və ya deyəcəkləri təhqirdən, hədə-qorxudan başqa bir şey olmadı. Təcili olaraq Azərbaycan KP MK-nın bürosu çağrıldı və "bir qrup Kəmərli kənd sakininin nalayiq hərəkətləri haqqında" xüsusi qərar çıxarıldı, bir çoxlarının partbleti əlindən alındı və əsl vətən oğulları cəzalandırıldı. Ardınca Kəmərliyə hətta baş katib Kamran Bağırov da gəldi. Artıq Koroğlu-Babək ruhlu vətən oğulları

cəzalandırılmışdı, bütün bunlardan sonra Kamran Bağırov gəlib Kəmərli camaatı ilə görüşdü. Kəmərli camaatının gözü qorxmuşdu, artıq kimsənin açıq-aşkar nəsə deməyə cürəti çatmırdı, amma hələ də tək bir şeyi bilmək istəyirdilər. Torpaqları erməniyə nə üçün verilir?! Kamran Bağırov bu sualla özüncə bir cavab verdi: – «ELƏ BİLİN, BU TORPAĞI MƏNƏ BAĞIŞLAYIRSINIZ». Kimsə üzdə Kamran Bağırova cavab verə bilməsə də, hamının ürəyində dediyi bu idi: – «Başa düşmədik, erməni olmasın sən ol, xalqın torpağını sənə niyə bağışlamalıyıq ki? Sən böyük ……?!» – Heyif ki, bunu hamı ürəyində dedi, çünki ucadan deyənlər cəzalandırılmışdı. Ara sakitləşdikdən sonra, torpaq tam ermənilərə verildikdən sonra, Sovet hökuməti öz yaxşı niyyətini göstərməkdən ötrü bəzi adamların portbletini geri qaytardı (yaxşı-pis oyunu).

Bütün bunları xatırlayan Mərdan kişinin Kəmərliyə çatanacan düşündüyü tək şey bu idi ki, torpağı kresloya, bir qalustuka satmayan İsa Bəbirovun son aqibəti nə oldu, cəzalandırılanların son aqibəti nə oldu? Kəndə çatar-çatmaz, adaşını görər-görməz soruşduğu ilk sual bu oldu:

– İsa Bəbirolovun sonu nə oldu?

– Yazığa vətəni sevdiyinə görə min təzyiq etdilər! Ürəyi partlayıb öldü! Bundan sonra hümanist hökümətimiz İsadan aldığı partbletini geri qaytardı! – kinayə ilə güldü.

– Zarafat edirsən?! – Mərdan eşitdiklərinə inana bilmədi.

– İsanın ölməsinimi deyirsən, ya partblet məsləsini? – Adaşı yenə kinayə ilə gülərək Mərdandan soruşdu.

– İkisini də.

– İkisini də doğru deyirəm! Sataşırlar da, dirimizə də, ölümüzə də.

Mərdan yalnız bunu deyə bildi:

– Allah ona qəni-qəni rəhmət eləsin!

Bu vaxt yolu tozlaya-tozlaya böyük sürətlə gələn bir "qaz 24" markalı maşın gəlib onların yanında dayandı. Maşının sürücü oturacağında cavan bir oğlan, sağ qabağ oturacaqdasa kök yaşlı bir kişi oturmuşdu. Onlar maşından düşdü. Kök kişi gülərək adaş Mərdana yaxınlaşdı, qucaqlayıb öpdü:

– Mərdan oğluna toy edirsən, mənə xəbər etməmisən! – Əsədi görüb bağırdı, – Ayə Əsəd bəri gəl, can qardaşım.

Əsəd soyuq halda onlara yaxınlaşdı, Əsgər dişlərini ağardaraq güldü:

– Əsəd  neçə vaxtdı səni görmürəm? Yoxsa  inciyibsən?!

– Yox Allah eləməsin, Əsgər niyə küsürəm, kefsizəm! – məcburən yalan söylədi, əslindəsə Qılınckənd meşəsi məsələsindən sonra Əsgərlə qurtarmışdı.

Əsgərin oğul nəvəsi  Əsədgilə yaxınlaşıb hamı ilə görüşdü:

– Salam Əsəd əmi! – deyib onu qucaqlayıb öpdü.

Əsəd də oğlanı qucaqlayıb öpdü, soruşdu:

– Xoş gördük səni ay Nizami! Bala dərslərin necədir? – Nizami Əsgərin tək oğul nəvəsi idi, oğlunun  başqa uşağı yoxdu və Əsgərin gözünün ağı-qarası, həyat nəfəsi, yaşama amalı idi.

– Dərslər yaxşıdır, – güldü, – yarı mən, yarı bavam oxuyuruq!

Əsgər nəvəsinə baxıb güldü:

– Ay yalansa, ay kopolu* niyə yalan danışırsan, hamısını mən oxumurammı?!

– Bəs dərsə gedən, pulu aparan kimdir?! – Nizami şəstlə cavab verdi.

Əsgər nəvəsini qucaqlayıb Əsədə dedi:

– Ay bavası mənim balam prokuror olajax!

Əsəd heç nə demədi, adaş Mərdan da  onları içəri buyurdu. Toy başlamışdı, gah aşıq, gah nağara ilə qara zurna yeri-göyü inlədirdi. Hər şey qaydasında gedirdi. Birdən  mağarın girəcəyində bir nəfər göründü, o gözünü hərləyib kimisə axtardı və şəstlə bağırdı:

– Kirvə!

Hər kəs çönüb  həmin adama baxdı. Adaş Mərdan də üzün çevirib ona baxdı və çaşqınlıqla pıçıldadı:

– Arşak!

– Kirvə səndən yaman incimişəm, – Arşak azərbaycanca dedi, – məni niyə oğlunun toyuna çağırmamısan?! – ermənilər əsasən azərbaycanlılara “kirvə” deyə müraciət edirdi.

---

* *köpək oğlu – Qazaxda bu söz bəzən təhqir kimi yox əzizləmə kimi də işlənir.*

Adaş Mərdan tutuldu, sonra gülümsünərək dedi:

– Xoş gəlifsən Arşak!

– Kirvə olmaya məni də o biri ermənilərin gözünə qatırsan?! Məni də? – bərk-bərk onu qucaqlayıb o üzündən-bu üzündən öpdü. – Vallah mənim bir günahım yoxdur! Mən sizdən torpaq istəmişəm? – özü də cavab verdi. – Yox! Mənə meşə lazımdı?! Mənim bir murazım vardı, o da gözümdə qaldı! – gülməyə çalışdı.

Adaş Mərdan onu gətirib Mərdanla, Əsədlə, Əsgərlə bir yerdə oturtdu, çünki özü də Mərdanın yanında otururdu. Arşak səmimi bir halda əlini Mərdana uzadıb:

– Mən Arşak, tanış olduğuma şadam!

Mərdan da can dərdi onunla görüşdü. Arşak sonra Əsgərlə və Nazimlə görüşdü və qabına yemək qoyub, yağlı bir tikəni də ağzına ataraq danışmağa başladı:

– Qağa, – üzünü Mərdan kişiyə tutub dedi, "qağa" sözünü elə səmimi deyirdi, sanki Mərdanı on ildi tanıyırdı. – Kirvə məndən inciyib, məni oğlunun toyuna belə çağırmayıb! Namərd ermənilər torpaq istəyib, namərd Azərbaycan rəhbərləri torpaq satıb, mənim nə günahım?! – elə kədərli tonla dedi ki, bu cümləni, inan daşı da yumşaldardı. Mərdandan başqa ona qulaq asan hamı yumşaldı. – İnan kirvəmə ürəyim lazım olsa çıxarıb verərəm! Vallah! – tam əminliklə dedi.

Mərdan soyuq baxışlarla Arşaka baxırdı. Arşak da tək Mərdanın ona soyuq baxdığını görüb:

– Qağa canım üçün kirvəm üçün burnumun ucu göynəyirdi. – O, azərbaycanca elə səlist, elə şirin danışırdı ki, – hələ Gülsüm bajımın xəngəlini, dolmasını demirəm, iyisi burnumdan getmir. – Gülsüm adaş Mərdanın yoldaşı idi, – son olanlardan sonra gəlməyə üzüm gəlmirdi! Amma qulağım səsdə idi! Eşidəndə ki, kirvəmin qapısında toydur, dedim ki, gedəcəm! Məndən inciyibsə qanım halaldır bu kişiyə! Hər şeyimizi bu kişiyə, bu kəndə borcluyuq biz, Allah adamın belini qırar! – «Allah» sözünü elə ürəkdən dedi ki, adamın az qala onun müsəlman olduğuna da inanmağı gəlirdi.

Əsgər Arşakın belə şirin, belə səmimi danışmasına valeh olaraq üzündən öpdü:

– Ay Arşak, sən nə mərifətli adamsan, adam səni kimilərini görəndə erməni Azərbaycan qardaşlığına bütün varlığı ilə inanır! Bu qardaşlığı istəməyənlərin gözü kor olsun!

Arşak gülümsəyərək:

– Kirvə, onun ailəsi, belə bu kəndi olmasa davadan sonra bizim kənd acından ölərdi! Amma məni o birilərə qatmayın! – İçdiyi içkinin təsirindən xumarlanmışdı, – Mən erməniyəm, erməni! – Əksəriyyət onun nə demək istədiyini anlamadı, amma o nəyə eyham etdiyini hər iki Mərdan yaxşı anlayırdı. Arşaq niyəsə kövrəlmişdi, – İtən itdi, şerimiz sizinkidir, nağılımız sizinkidir, qulaq asacaq mahnılarımız sizinkidir, yediyimiz yeməklər sizinkidir, amma qalan şeylər itdi! İtib batdı… – 1986-cı  ilin son ayları idi, ermənilər əsl üzlərin hələ açıq-aşkar göstərməmişdi.  Arşaq ayağa qalxdı adaş Mərdanın üzündən öpdü, – Kirvə qoy səni doyunca qucaqlayıb! Ölümlü dünyadır!

Adaş Mərdan onu yerinə otuzdurdu:

– Yaxşı Arşaq otur!

Mərdan kişi  qəsdən soyuq baxışlarını ılıqlandırıb Arşakın rumkasına  araq süzdü:

– Elə isə qardaşlığa!

Arşak rumkanı başına çəkdi. Mərdan ara vermədən:

– Azərbaycana!  Sovet qardaşlığına! Sovet gələcəyinə! Mərdan kirvənə! Xoş günlərə! – Mərdan Arşakı o qədər içirtdi ki, sonunda Arşak təmiz piyan oldu. Mərdan Arşakın piyan olduğuna tam əmin olduqdan sonra  bir yüz də süzüb dedi:

– İndisə tay qulaq Andrionikin kəsilən qulağına!

Arşak  pörtmüş başını qaldırıb Mərdana baxdı, qəribə tərzdə qımışdı:

– Sən bilirsənmi Andronik kimdir? – isteza ilə soruşdu.

– Niyə bilmirəm? – Mərdan qəsdən tam sakit, amma tam tikanlı cavab verdi – Quldurun, qorxağın dal ayağı idi Andronik! Türk paşası  qulağını kəsib  əlinə verib!

Adaş Mərdanın başı gələn qonaqlara qarışmışdı, gəlib yenidən onların yanında oturdu, üzünü Mərdan kişiyə tutdu:

– Bu yetim nə yaman içib?

Mərdan kişi onun susmasını işarə edib, dedi:

– Hə, Arşak danış görək!

– Eh, bir bilsən Andrionik nələr edib?! – Arşak dalğın halda dedi, içkinin təsirindən üzü pörtmüşdü.

– Ona görə Andır–ionikin qulağını kəsib əlinə verdik də, – Mərdan xasiyyətinə xas olmayan əda ilə qımışdı, – Andır və onik! Bilirsən də biz «andır» nəyə deyirik! Tay qulaq Andır – onik!

– Eh bir qulaq ilə bu məsələ bitsə idi, nə vardı ki?! – Arşak başını buladı, – Yox, bu xəmir çox su aparacaq!

Adaş Mərdan onun qolundan tutdu:

– Dur gedək əl üzünü yu!

– Gedərəm, amma qağam da gəlsin, – Mərdan kişinin qolundan tutdu.

Əl-üzün yuyan Arşak bir kənarda oturdu, hər iki Mərdanın üzünə baxdı və dedi:

– Hə qağa, sən elə bilirsən mən sərxoş olmuşam, yox, amma mən bunu acığa demirəm, – pıçıldadı; – kirvəm bilir məni, mən erməniyəm, amma bizə bir dəfə hay donu geydiriblər, siz də necə deyirlər, – gözləri doldu, – yuxarı baxırsan bığ, aşağı baxırsan saqqal! Bir bilsən mən nələr görmüşəm, nələr bilirəm, eh, eh…

– Sözünün canını de Arşak! – Mərdan kişi heç nə anlamadan dedi.

– Nə deyim, ikimiz də acizik. Oxu atıblar, yayı gizlədiblər.

– Nə oxu, nə yayı? – Mərdan kişi bozararaq soruşdu.

– Qarabağı deyirəm! – Arşak dişlərini qıcadı.

– Qarbağı istəyirlər? – Mərdan kişi əsəbi halda dedi.

– Hə, növbə Qarabağdadır!

Adaş Mərdan da onun dediklərini təsdiqlədi:

– Demək ermənilərin planında Qarabağ var, bəs nə vaxt?!

– Dövr tamam olur, az qalıb! – Arşak ürəyinin bulanmasına məhəl qoymadan dedi.

– Hansı dövr? – hər iki Mərdan əsəbi halda soruşdu.

– Onu mən də bilmirəm?! Amma bildiyim tək bir şey var, eyni senarini oynayırlar, dövr tamamlanır və yenidən başlayırlar, saat əqrəbi kimi! Saatın dəqiqə əqrəbi kimi dövr vurur bir mərhələni tamamlayırlar, sonra yeni mərhələyə keçirlər! Beləcə

erməni hay olur, İravan Yeravan olur! – Bir az duruxub dedi, – Kirvə evi zadı satıb gedirəm, hey deyirdim səni görüm, toy bəhanə oldu.

– Niyə gedirsən?

– Çünki ikimizi də qumara qoyublar! Sizi də, bizi də, – ağlamağa başladı.

Adaş Mərdan onun üzünə yenə su vurdu:

– Yaxşı, toxda.

Mərdan kişi adaşından soruşdu:

– Bu içkinin təsirindən belə danışır?!

– Yox, adaş bu da bizi kimi bədbəxdir! – adaş Mərdan təəssüflənərək dedi.

– Başa düşmədim? – Mərdan kişi təəcüblə soruşdu!

Arşak istеza ilə gülümsündü:

– Qağa, mən ermənlərin kim olduğunu bilib, hay bataqlığında boğulan biriyəm! Mən heç bir tərəfə yaramıram!

Mərdan kişi bayaq etdiklərinə utandı:

– Gərək səni içirtməyəydim! – dedi.

– Öyrəncəkliyəm qağa! Kefini pozma! İlk dəfə deyil ki?! – Üzünü adaş Mərdana tutdu, – Düz demirəm ustad?!

– Yaxşı Arşak, ağlama! – adaş Mərdan ürək ağrısı ilə dedi.

– Ustad?! – Mərdan kişi hər ikisinin üzünə baxdı.

– Hə, qağa o mənim ustadımdı. Amma məni satdız! Məni satdız! – Arşak çiynini çəkdi.

– Niyə, saa nağardıq ki?! – Mərdan kişi təəcüblə soruşdu.

– Niyə bizdən qız alırsınız, amma qız vermirsiniz?!

Mərdan bununla fəxr etməsə də niyəsə acıq vermək üçün dedi:

– Kərəmin heyfini alırıq!

Arşak dişlərini ağardaraq güldü:

– Hə, qara keşiş Əslini Kərəmə vermədi, türklə ermənini ayırdı! Bəs məni ayırdınız, onu nə edək?! Hə? siz də qara keşiş kimi məni satdız!

Mərdan kişi heç nə anlamadan adaşının üzünə baxdı:

– Bu nə deyir?

Adaş Mərdan köksünü ötürərək etiraf etdi:

– Arşak mənim aşıq tələbələrimdəndir, erməni kimliyini bilən biridir, sən demə qonşu Zahidin qızı Şəhlaya vurulub, gizlin-gizlində danışırmışlar. Söhbəti biləndə Zahid aləmi bir-birinə qatdı, Arşakı o ki var döydü, bir az da gec çatsam bəlkə də öldürəcəkdi. O səhnə heç gözümdən getmir. Zahid Arşakı döyərək bağırırdı ki, – "Mənim erməniyə verəcək qızım yoxdur". Arşak da yalvararaq deyirdi ki, – "Zahid əmi müsəlman olaram. Vallah olaram! Bu dəfə də sən Əsli və Kərəmi ayırma".

Mərdan kişi adaşının susduğunu görüb hövsələsiz halda soruşdu:

– Bəs sonra nə oldu?!

– Zahid gecə ilə qızını uzaq bir qohumuna ərə verir, yəni qohumuna deyir ki, gəl qızı qaçır! Arşak da o gündən saza əl vurmadı, sazı mənim evimə qoyub getdi. Əvvələr mənə "ustad" deyirdi, o gündən kirvə deyir.

– Niyə kirvə?

– Axı kirvələr biri-birinə qız alıb vermir! Yəni hər kirvə deyəndə, o hadisəni yadıma salır!

Mərdan kişinin əlləri yanına düşdü, ilk dəfə Arşakı görürmüşcəsinə ona baxdı. Arşakın gözü sanki kiməsə sataşdı, qəribə tərzdə gülümsündü və təlaş içində dedi:

– Kirvə!

– Hə Arşak!

– İcazə ver bu toyda, elə indicə Yanıq Kərəmi çalım!

– Sən ki bir daha saz çalmıyacam demişdin? – adaş Mərdan Arşaka baxdı. Sonra onun boylandığı tərəfə baxdı, toya gəlmiş Zahidin qızı Şəhlanı gördü, uşaqlara səsləndi; – Sazı bəri gətirin! Ay uşaq evdəki sazı da gətirin, Arşakın sazını! – Üzünü adaşına tutdu, – Mərdan bəlkə sən də bizə qoşulasan?! – gülümsəməyə çalışdı. – Sazı üç edin – deyə bağırdı. Adaş Mərdan Arşakın illərdi toxunmadığı sazını özünə verdi, bir sazı Mərdan kişiyə verdi, bir sazı da öz bağrına basdı, "Yanıq Kərəmi"ni çalaraq mağara girdi, ardınca Arşak və Mərdan kişi də ona qoşuldu.

Yanıq Kərəmi mağarı başına götürmüşdü, Arşakın gözündən tökülən yaş sazın üstünə tökülürdü, Şəhla boynunu büküb oturmuşdu…

# KORLAR ŞƏHƏRİ

*Ulduzlar yalnız qaranlıqda görünür.*
***Vitelo, XIII əsr filosofu***

*Təklikdə ağıllı olmaqdansa, hamı ilə birgə dəli olmaq yaxşıdır.*
***Baltasar Qrasian – ispan yazıçısı***

*Ağıllı düşünənə kimi dəli çayı vurub keçdi*
***– Azərbaycan atalar sözü.***

*Dəli ağlamaz, ağıllı gülməz –*
**türk – *Azərbaycan atalar sözü***

1986-ci ilin son ayı idi. Ulusoya yaman qar düşmüşdü. İş-güc dayandığından kəndin kişiləri əsasən günorta çağı kənd sovetinin idarə binasının qabağına yığılıb ordan-burdan söhbət edirdilər. Kənd camaatı buranı qısaca olaraq "idarənin qabağı" adlandırırdı, əsasən hamının görüş yeri bura təyin olurdu. Misal üçün "saat birdə idarənin qabağında görüşək, oradan gedək" kimisindən. Bu gündə, son bir həftədəki kimi kənd camaatı idarənin qabağına yığışıb söhbətləşirdi. Kolxoz sədri Aşot Hikmət kişiyə dedi:

– Bu qar camaatı qıracaq!

– Hə, demə-demə, heç builki kimi qar yağmamışdı! – Hikmət kişi Aşotun sözünü təsdiqlədi.

– Soyuq kolxoza ziyan vurmasa yaxşıdır! – Aşot hər kəsi süzərək dedi.

– Düz deyirsən! – Hikmət kişi onün sözünü təsdiqlədi, – Asot eşitdim ki, bu gün məktəfə gedifsən!

– Hə, bu soyuqda dərsə gedib-gəlmək düzgün deyil! Uzaqlara günah deyilmi?! Yol-iz açılanacan qoy dərsə getməsinlər!

– Sonra söz deməsinlər!

– Məsləhətləşmişəm, nə deyəsidilər?! Burada söhbət sovet xalqının gələcəyindən gedir! Körpələrimiz gərək sağlam böyüsün! – Aşot özündən razı halda dedi.

Hikmət kişi Asotu süzərək ağız dolusu dedi:

– Səndə ki ürəyə, mərifətə, düşüncəyə heyran qaldım mən!

Aşot zarafat edirmişcəsinə:

– Elə isə partiyanın iclasında bir iki ağız de də! Sizinkilərdən bir iki ağzıgöycək var, məni bəyənmir, qoy görsünlər ki, əsl komminist üçün erməni azərbaycanlı fərqi yoxdur! – zarafatla başladığı söhbəti ciddiləşdirdi. – Elə bizimkilər də görsün ki, səni kimi azərbaycanlılarla biz bir cəbhədəyik!

Hikmət düşünmədən cavab verdi:

– Deyim də, sən hələ o ağzıgöyçəklərin adını maa da de görüm! Görüm sovet qardaşlığına kəm baxanlar kimdir! Elə mən özüm onların quyusunu qazım! Bizim namərdləri cəzalandırmaqda bizim boynumuza düşür!

– Nə deyirəm, bu sənin bir komminist kimi borcundur, necə etiraz edə bilərəm! Amma burda yox, təklikdə söhbətləşərik!

– Yaxşı! Nə vaxt istəsən!

– Hikmət ürəyimə yaman xəngəl düşüb, bajımın xəngəlindən! Bəh-bəh, lap ağzım sulandı!

– Ürəyinə xəngəl düşüb daha burada niyə durmusan, gedək də!

– Bəlkə sabah səhər tezdənə qalsın, axşam bir az işim var, səhər rahatlıqla oturaq!

– Yaxşı, sabah xəngələ gələrsən, bajın saa cücəli bir xəngəl bişirsin ki…

Zahid kişi hamı ilə salamlaşıb onlara yaxınlaşdı:

– Salam ay Aşot, ay Hikmət nə yaman kaplaşırsınız!

– Salam Zahid nə yaman gec gəldin? – Aşot soruşdu.

– Bir balaja işim vardı! Nağarırsınız?

Hikmət Aşotu göstərib tərifləməyə başladı:

– Ay Zahid, deyirəm nə nəcib, nə humanist, nə ürəyi yumşaq adamdır bu Aşot, yuxarıyla zəngləşib, gedib məktəbi bağladıb ki, uşaqlar soyuqdan donmasın…

Zahid kişi:

– Afərin, afərin…

Yolun o başından onlara tərəf gələn Kamilin bağırtısı Zahid kişini sözünü yarımçıq kəsməyə məcbur etdi:

– Gözünüz aydın ay camaat! Gözünüz aydın ay camaat!

Hikmət kişi Kamilə baxıb ağzını büzdü:

– Yenə bu dəlini kim buraxıb küçəyə?! Genə ağzına gələni danışacaq!

Zahid onun sözünə qüvvət verərək:

– Mərdandır dana, onda deyirəm ay Mərdan atası bezib bundan, sən niyə saxlayırsan öyündə! Qoy verək dəlixanaya…

Aşot həyacanla soruşdu:

– Bəs nə dedi?

– Deyir mənim çörəyimi yeyir, mən billəm! Mən də dedim ki, ay Mərdan ağzına gələn cəfəng şeyləri danışır!

– Bəə Mərdan nə dedi?! – Hikmətlə Aşot bir ağızdan soruşdu.

– Demirsiz dəlidir, cəfəng şey danışırsa niyə fikir verirsiniz, dedi.

Onlara yaxınlaşan Kamil bağırırdı:

– Ay camaat gözünüz aydın! Muştuluğumu verin!

Kimsə onu ələ salaraq soruşdu:

– Ay Allahın dəlisi, – hamı gülüşdü, – nəyin muştuluğunu verək?!

– Azərbaycan xalqı Qazaxın bir qulağından erməni qardaşlarına yeni il payı verib! Yatanlar oyansın, korlar görsün, muştuluğumu verin!

Bir neçə azərbaycanlı bir ağızdan:

– Ay Allahın dəlisi yenə nə gicləyirsən?!

Bir başqası:

– Ay dəli Kamil bu təzə xəbəri haradan eşidibsən? – hamı Kamili fitə basır, əl çalır, gülürdü.

– Korlar şəhərindən gətiriblər xəbəri, həmdə xəbər maa təzə çatıb, əslindəsə bu hədiyyəni erməni qardaşlarına Azərbaycan iki il əvvəl, 1984-də verib!

– Baho, bəə Qazaxın özünü niyə vermiyiblər? – başqa bir azərbaycanlı yenə Kamili ələ saldı, hamı gülüşdü.

Kamilsə mahsum baxışlarla onları süzdü:

– Erməni xalqı ürəyi açıq xalqdır, nə versən etiraz etmir, Qazaxı da versək götürərdilər, amma hələ ki Qazağı verməyiblər! Amma ay erməni xalqı, – üzünü ermənilərə tutdu; – Dərd etməyin, böyük qardaşımız rus xalqı hələ ölməyib, qabağda da ürəyi-

niz istəyən qədər yeni illər var, parça-parça alıb verəcəklər!

Azərbaycanlılar heç nə anlamadan hamısı yenə gülüşdü. Ermənilərsə bu dəfə onun dediklərindən sonra ona tərs-tərs baxsalar da, sükutu pozmaq istəmədilər. Axı səs salsalar, yatanları oyadardılar.

– Ay dəli Kamil deyirsən xəbəri korlar şəhərindən alıfsan…? – ələ salanlardan biri gülərək soruşdu.

– Hə ay başı batmış, xəbəri korlar şəhərindən almışam!

– Bəə korlar bu xəbərdən necə agah olub? – azərbaycanlılar öz qırqırlarında idi, hamı gülüşürdü.

Bu dəfə Kamil də onlara qoşulub güldü, amma digərlərindən fərqli olaraq o kinayə ilə gülürdü.

– Ayə, ay Allahın dəlisi, deyəsən öz dediyinə özünün də gülməyin tutdu! – gülüşənlərdən növbətisi dedi.

Bir başqa azərbaycanlı onun sözünə qüvvət verdi:

– Bu yerdə deyirlər «bişmiş toyuğunda gülməyi gəldi».

Kamil güləməyini kəsdi, o bir anda necə gülmüşdüsə, elə bir andaca susdu, sifəti dondu və buz soyuqluğu hiss olunan səslə dedi:

– Mən sizə gülürəm, siz kimə gülürsünüz?!

– Bah, Allahın dəlisi bizə gülür ay camaat! – yenə ona lağ edərək dedilər.

Bir başqası ucadan soruşdu:

– Ay dəli Kamil niyə bizə gülürsən?! – Yanındakını dümsükləyib, – Görək indi nə cavab verəcək?! Dəliyə hər gün bayramdır da, bəxtəvər başına… – dedi.

– Çünki iki cür kor var! – Kamil cavab verdi; – bir gözü kor olanlar var, bir də beyni kor olanlar!

Kimsə onun nə demək istədiyini anlamadan şaqqanaq çəkdi.

– Aha, sonra? – həmin adam yenə ucadan soruşdu.

– Xəbəri mənə çatdıran korlar şəhərinin sakinidir, amma o gözü kor olanlardandı, daha beyni kor olanlardan yox! – Əlini uzadıb erməniləri göstərdi – Görürsünüzmü bunlar korlar şəhərini tanıdığından mənə gülmürlər!

Aşot əsəbini çilovlaya bilmirdi:

– Nə demək istəyirsən biz korlar şəhərini tanıyırıqmı?

– Siz beyni kor olan korlar şəhərini tanıyırsınız! Amma gözü kor olub beyni düşünən korlar şəhərini tapa bilməyibsiniz, tapsanız kökünü qazıyarsınız! Harada o şəhərin sakininə rast gəlsəniz yox edirsiniz, amma o şəhəri tapa bilmirsiniz!

– Sən nə çərənləyirsən? – Aşot hikkə ilə soruşdu.

Ermənilər nifrətlə Kamilə baxırdı, azərbaycanlılarsa şaqqanaq çəkərək gülürdü. Kamilsə heç nəyə fikir vermədən, heç nədən çəkinmədən, heç nədən pərt olmadan dedi:

– Qazaxın daha bir parçasını aldığınız yalandırmı?! Bu xəbəri yayanları öldürmək istəməzsinizmi?! – əyilib qarı eşdi.

Bunu gördükdə ermənili-azərbaycanlı hamı bir nəfər kimi güldü, tək Aşotdan başqa. O, bilirdi ki, bunun da altından bir şey çıxacaq. Hikmət kişi də sakit dayana bilməyib Kamilə sataşdı:

– Ayə olmuya toyuq olmaq istəyirsən?!

Zahid kişi etiraz etdi:

– Yox eşşək olmaq istəyir! Ayə, eşşək ağnıyanda qar yağar deyiblər, az ağna! – hamı gülüşdü, bu dəfə Aşotda ürəkdən güldü.

Kamilsə ona məhəl qoymadan, qarı eşib torpağa çatdı, torpağın don olmasına məhəl qoymadan, bir ovuc torpağı əlinə alıb ayağa qalıxdı və Aşota göstərərək dedi:

– Bu torpağın əsl sahiblərinin kim olması sizi maraqlandırmır, elə döymü?! Buradakılar daha neçə il burada yaşıyacaq?!

Aşot bir anlıq tutuldu, geri-geri çəkildi. Ermənilər yerlərində quyurucuğdu, azərbaycanlılarsa əlini-əlinə vuraraq gülürdü:

– Allah səni güldürsün, ay dəli Kamil, yaman güldürdün bizi!

– Ay dəli "biz daha neçə il burdayıq?" nə deməkdir, olmuya bu sözdə korlar şəhərinin sözüdür?! – lağ edənlərdən biri gülərək dedi.

Kamil bağırdı:

– Bunu məndən yox, Aşotdan soruşun, o yaxşı bilir mən nə deyirəm!

Aşot bağıraraq Kamilə yaxınlaşdı:

– Kəs səsini küçük, mən sənin oyuncağınam? Dəli əlində qalmışıq! – əlini hərləyib onu vurmaq istədi.

Kamil Aşotun əlini havada tutdu və əlini sıxmağa başladı.

Kamilin sifəti əvvəlki kimi donuqdu, buz parçası kimi, Aşotunsa əksinə sifətindəki kin, nifrət, cəsarət əzabla əvəz olunmuşdu. Aşot sıxılan əlinin ağrısından diz çökdü, ağrıdan bağırdı. Azərbaycanlılar heç nə anlamadan gülməklərini dayandırdılar. Axı Kamili uşağından böyükünə çox azərbaycanlı vurmuş, döymüş, əla salmış, daşa basmışdı. O isə hətta daş atılanda belə, barı bir dəfə özünümüdafiə üçün, daşın qabağını tutmaq üçün əlini qaldırmamışdı. İndisə bu yekəlikdə Aşota əl qaldırırdı. Bu yekəlikdə Aşot onun qabağında diz çökərək bağırırdı. Ermənilər Aşotun yerə yıxılaraq bağırdığını gördükdə kömək üçün Kamilin üstünə tökülüşdü. Azərbaycanlılar Kamili dartışdıran ermənilərə baxaraq yenidən gülməyə başladı. Kamil gözünü hərləyib onu dartışdıranlara baxdı, içlərində bir nəfər də olsun azərbaycanlı yoxdu. Bunu görən Kamil yumruğunu düyünləyərək bütün gücü ilə bağırdı:

– Allah, Allah! – deyib əlini atıb bir ermənini başı üstünə qaldırıb iki-üç erməninin üstünə atdı. Üstünə gələn ermənininüstünə şığıdı, – Urra-urra, vurra-vurra, – tullanıb qoşa təpiklə ermənininin sinəsinə vurdu.

Ermənilər yerə düşən Kamilin üstünə tökülüşdü, onu vurmağa başladılar. Osa vurulan zərbələrə baxmayaraq hər dəfə birini səmtləyib ya vurur, ya yıxır, ya sürüyürdü və bağırırdı:

– Urra-urra, vurra-vurra!

Onu dövrələyən ermənilərin içində yekəpər bir erməni onu arxasından vurub, Kamili təqlid edərək bağırdı:

– Urra-urra…

Kamil arxaya çönüb «urra-urra» deyən yekəpər erməniyə baxdı, tullanıb sifətinə yumuruq vurdu:

– Sən «urra-urra» deyə bilməzsən, bu söz bizimdir… – Kamil bağırdı.

Bu sözü eşidən azərbaycanlılar qəşş edərək güldü:

– Dəlinin dalında lafet ha olmur?! Eşitdinizmi urra bizimmiş?! – kimsə ucadan güldü.

… Kamil havaya qalxaraq yumruğu yekəpər erməniyə vurub, yerə düşən kimi, əyilib onun ayaqları arasından arxaya keçdi, peysərinə bir şillə vurdu:

– Bir də «urra-urra» sözünü ağzına alma. – Saçından tutub, erməni arxası üstə yıxdı və sürüməyə başladı. Erməni avazı çıxdığınca bağırırdı. Ermənilərin gözü yamanca qorxmuşdu, onlar erməni sürüyən Kamilin yanınca qaçsa da, daha kimsə ona yaxınlaşmağa cəsarət etmirdi. Hikmət kişi azərbaycanlılara bağırdı:

– Nə durmusunuz, kömək edin!

Azərbaycanlılar Kamilin üstünə tökülüşdü. Kamil ona sarı cuman azərbaycanlıları görüb dayandı, sürüdüyü yekəpər ermənini buraxdı, əllərini yanına saldı və heykəl kimi dayandı. Kamilə ilk yumruğu Hikmət kişinin oğlu Babək vurdu. Ardınca digər azərbaycanlılar onu vurmağa başladı, deyib-gülərək, sevinc içində Kamili vururdular. Kamil əllərini yanına salaraq heykəl kimi dayanmışdı, vurulan zərbələrdən ləngər vururdu, amma inadla özünü tarazlayır və yenidən şax dururdu. Bəzi zərbələrdən yıxılırdı, amma yenidən ayağa dururdu. Babək keçmişdən qalan məğlubiyyətinin intiqam alovu ilə Kamilə ən tutarlı zərbələrini vururdu. Kamili vurduqları vaxtdan bəri, onun gözünü yumub, heç açmadığını sezən Babək özü də bilmədən soruşdu:

– Gözlərini niyə yumursan Kamil? – dediklərinin qətiyyətini itirmək istədi, istədi desin ki «yoxsa qorxursanmı?», amma nə qədər səy göstərsədə söz ağzından çıxmadı.

Kamil gözlərini açmadan, ona vurulan zərbələrə məhəl qoymadan cavab verdi:

– Azərbaycanlının azərbaycanlını vurduğunu, qanını tökdüyünü görmək istəmirəm! – burnunun qanı ağzının qanına qarışaraq sinəsinə tökülürdü.

Səs-küydən çoxları bu sözləri eşitmədi, eşidənlər də gülərək Kamili vurmağa başladı. Amma bu sözlər Babəkin beynindən göy gurultusu kimi guruldadı, dəfələrlə əks-səda verdi, əlləri boşaldı, bir Kamili qucaqlayıb daha vurulmasına mane olmaq istədi. Amma atasına baxıb geri-geri çəkildi, qoşa çınardan birinə söykəndi, gözünü hərləyib bir atasına, Zahid kişiyə, Aşota, bir kənardan sirkə baxırmış kimi baxan erməni-azərbaycanlılara, bir yıxıldıqları yerdən hələ də dura bilməyən ermənilərə, bir də

Kamili vuran azərbaycanlılara baxdı və heykəl kimi dayanaraq, gözlərini yuman Kamilə baxdı. Özü də bilmədiyi, dərinliyini dərk etmədiyi səbəblə ağlamağa başladı.

Camaata tərəf qaçan Mərdanın səsinə hər kəs əlini aşağı saldı:

– Nə edirsiniz siz? Əl saxlayın!

* * *

Mərdan kişi Kamilin yaralarını sararaq soruşdu:

– Qazax məsələsini haradan bilirsən?!

– Yazdığın dəftər əlimə keçdi, qağa mən də oxudum!

– Of Kamil nə deyim sənə! Oxumağına bir sözüm yox, niyə danışırsan, sənə axı demişəm, nə dərdin var mənimlə dərdləş! Başa düşürsənmi ki, hamı saa düşməndir!

– Anamla, səndən başqa qağa… – Kamil uşaq kimi sevindi, – Bir də Orxan qaqam!

– Of Kamil mən belə səndən baş açmıram, dəlisən, ağıllısan, nə cinlisən! – deyib Kamili qucaqladı və sabah olacaqları düşünərək ağladı.

Həyətdən Zahidlə Hikmətin səsi gəldi:

– Ay Mərdan biz gəlmişik!

Mərdan gözünü silərək bir neçə dəfə dərindən nəfəs aldı:

– Kamil sən o biri otağa keç və mən cağıranacan gəlmə! Eşitdinmi?!

Kamil başını yelləyərək o biri otağa keçdi. Mərdan çölə çıxıb:

– Gəlin görək! Keçin içəri! – Gəlininə səsləndi. – Ay qızım bizə çay ver!

Hikmət əyləşər-əyləşməz başladı:

– Mərdan bu nə zibildir bizi salmısan?!

– Nə zibili?

– Ayə bu dəlini niyə qoymurdun vaxtında aparıb dəlixanaya salaq ki, bu günkü hadisələrdə olmayaydı!

– İlk vurmaq istəyən Aşot olub, ardınca yenə ona hücum çəkən erməni köpəkləri olub!

– Ayə nə ermənibazlığı salıbsan, sovet hökümətində yaşayırıq! – Zahid hövsələsiz dilləndi.

– Aşot niyə Kamili vurmaq istəyirdi? – Mərdan kişi soruşdu.

– Dəlidir də ağızına gələni danışırdı! – ikisi də dedi.

– Nə deyirdi ki?

– Nə bilim Qazaxın bir hissəsini erməniyə veriblər… – Zahid istеza ilə dedi.

– Düz deyir də! Tək Qazaxdanmı verilib, Gədəbəy də eyni aqibəti yaşamayıbmı?! – Mərdan qeyzlə dedi.

-Tutaq ki, düz deyir, Qazaxdan, Gədəbəydən torpaq verilib, onların torpağından bizə nə, mənə nə?! Ora hara, bura hara?! – Hikmət kinayə ilə soruşdu.

– Sənin bu qədər çılız, dar düşüncəli olduğuna inana bilmirəm! Məsələ də elə bundadır ki, uzaqlığına baxmayaraq hər yerdə bizə oynanılan oyun eynidir?!

– Pah atonnan?! Nədir ayə o oyun? – Hikmət yenə kinayə ilə soruşdu.

– Hər dəfəsində qurban edildiyimiz oyundur bu, ay Hikmət! – Mərdanın əsəbindən üzündəki bütün əzalar əsirdi.

– Nəysə sənin dediklərin bir var sayımdır, itopiyadır, başa düşürsənmi, belə şeylərin üstündə adama şizofren deyirlər, havalanıb deyirlər, Mərdan! – Zahid guya canı yananlıq etdi.

Hikmət Zahidin üzünə baxaraq:

– A kişi sən nə danışırsan?! Kamilin ermənilәri ələ saldığından danışsana. Qoy görüm nətəri dedi, – alnını ovuşduraraq düşündü, – hə, yadıma düşdü, deyirdi ki, "erməni xalqı ürəyi açıq xalqdır, nə versən etiraz etmir, Qazaxı da versək götürərdilər, amma hələ ki Qazağı verməyiblər! Amma erməni xalqı dərd etməyin, böyük qardaşımız rus xalqı hələ ölməyib, qabağda da ürəyiniz istəyən qədər yeni illər var, parça-parça alıb verəcəklər", belə dedi. – rişğəndlə güldü.

– Düz deyir də, – Mərdan hövsələsiz cavab verdi. – 400 min kv. km olan Azərbaycanı gör neçə yerə parçalayıblar! Sovet hökuməti təzə qurulanda parçaladığı bəs deyil, qurulandan bəri 18 min kv. km-dən çox torpağımızı yenidən alıb erməniyə verib! Sən ki azdan-çoxdan bunu eşitmisən, xəbərdarsan, burada yalan nə var ki?! Bəyənmədiyiniz müsavat vaxtı Azərbaycan 115 min kv.

km olub, indisə 86,6 min kv. km ərazimiz qalıb.

– Bu qardaşın qardaşa köməyidir! Bu qardaş payıdır! – ikisi də ağız dolusu dedi.

– Sənin dediyindən bildiyim qədəri ilə Kamil də elə bir pis şey deməyib, deyib ki, ay erməni qardaşlarımız ürəyinizi sıxmayın, bu qardaş payından hələ çox olacaq! Burada pis nə var ki?! – Mərdan da bu dəfə istehza ilə onlara dedi.

– Bəs bizim bir gün buradan qovulacağımızı güman etməsinə nə deyirsən?! – Zahid əlini yelləyərək soruşdu.

– Zahid dünya görmüş adamsan, düzdümü? – Mərdan soruşdu.

Zahid kişi şəstlə:

– Hə, azdan-çoxdan oxumuşuq!

– Bir zehnini qurcala o vaxt buralarda erməni çoxdu, azərbaycanlı?

Hikmət gözünü ağartsa da, Zahid bunu görmədən cavab verdi:

– Bizimkilər sayca çox olub?

– Nə qədər olub sayları?

– Milyondan çox olub ki, az olmayıb!

– Bəs indi niyə ermənilər bizdən çoxdur?! – Mərdan əsl sualını verdi.

– Şey… çünki – Zahid əlini yellədi, dodağı uzanıqlı qaldı, sözünün dalını deyə bilmədi.

Hikmət tez söhbətə qoşuldu:

– Çünki bura davadan sonra ermənilər gəlib!

– Yaxşı buna da bir şey demirəm, tutaq ki, o qədər erməni gəlib ki, sayları bizdən çox olub, bəs…

– Daha nə bəs? – ikisi də bir ağızdan soruşdu.

– Ermənilərin sayının artması bizim burada nisbətdə sayımızı azaltmalıdır, daha sayca yox ki? Elə deyil?

– Hə. – hər ikisi cavabladı.

– Bəs indi nə qədər azərbaycanlı var burda?

– Yarım milyondan azdır! – hər ikisi birdən cavabladı.

– Bəs qalan azərbaycanlılara nə oldu?

– Davadan sonra 300 minə yaxın adam Azərbaycana getmədimi? – onlar Mərdanın yadına salırmışcasına fəxrlə dedi.

– Birincisi onlar getmədi, qoylandı, sürgün edildi, ikincisi bu

gedənlərin sayını buradakıların üstünə gəlin arada qalan o böyük sayda azərbaycanlı hara yox oldu?! Hələ əhalinin artımını demirəm?! Niyə burada sayımız hər gün bir az daha azalır?!

– Mərdan sən də Kamil kimi dəli olufsan deyəsən?! – Hikmət güldü.

– Sən də bunları görməyəcək qədər kor olufsan! – Mərdan kinayə ilə dedi.

– Demək bir dəlinin tərəfini tutursan? – Zahid incik halda soruşdu.

– Mən həqiqəti deyirəm, burada iki tərəf var, bədbəxçiliyə sürüklənən Azərbaycan və süni şəkildə qələbə qazandırılan Ermənistan! Sizin danışdığınız tərəf haradır, mən hələ də dərk etmirəm! – Mərdan kədərli halda dedi.

– Mərdan bizimlə oyun oynama, biz saa uşaq-muşaq döyük! – Hikmət hikkə ilə dedi.

Zahid kişi də onun dediklərini təsdiqlədi:

– Hikmət düz deyir, bəsdir bizi ələ salaraq danışdın, kimsə çörəyi qulağına yemir!

Mərdan səsini ucaltmamağa səy göstərək dedi:

– Cörəyi qulağının dibinə yiməyən yaxşı bilir ki, torpaqdan pay olmur! Erməni kəndlərinin şəraitinə bax, bizim kəndlərin şəraitinə bax, aradakı fərqi açıqca de, mən də inanım ki, çörəyi qulağınıza yemirsiniz!

Hikmət əlini masaya vurdu:

– Bura bax Mərdan, səni uşaqlıqdan tanıyırıq, çox sözünü eşitməzdən gəlirik! Amma bəsdir hökümət əleyhinə, ermənilərin əleyhinə danışdın!

Zahid təsdiqlədi:

– Düz deyir Mərdan, bəsdir sovet qardaşlığına daş atdın!

– Mən olanı deyirəm! Məni şipiyonlamaqlamı qorxudursunuz, buyurun onu da edin, üzünüzə sizi qınıyanın atasına lənət!

– Olmuya kahinsən sən?! Özünü elə aparırsan ki, guya gələcəyi güzgüdə görüf bizi xəbardar edirsən?! – Hikmət kinayə və isteza ilə soruşdu.

– Mən faktları ard-arda düzürəm, bundan sonra gələcəyi görmək üçün kahin yox, kor olmamaq bəsdir!

– Sən Allah?! – Zahid kinayə ilə dedi.

Hikmət əlini masaya vuraraq:

– Nəysə səninlə danışmağın mənası yoxdur! Sabah ərizə yazıb Kamili buradan elə itirəcəm ki, sən belə əhsən deyəcən! Sənin məsələnisə partiya iclasında qaldıracam!

– Mən ki, komminist partiyasının üzvü deyiləm, get ver milisə! – Mərdan ayağa qalıxdı.

Zahid astadan:

– Bəsdirin! Mərdan bir az düşün, bir dəliyə görə dəyməz! Hikmət sən də sakitləş, sonra bu barədə bir də danışarıq! Kamili aparsınlar, vəssalam!

– Kamilin qeyrətinin milyonda biri sizdə, başda oturanlarda olsaydı, bu millət, bu vətən bu hala düşməzdi!

Zahid təəcüblə soruşdu:

– İndi bu nə deməkdir?!

Hikmət astadan:

– Hər şey aydındır?! Mərdan heyif ki, Sibir yoxdur, amma mən bilirəm nə edəcəm!

Mərdan isteza ilə:

– Sibir yoxdur, amma nakişilər, satqınlar, korlar elə əvvəlki kimidir!

Hikmət bağırdı:

– Nə?

Zahid qırıla-qırıla:

– Biz dediklərinin  içində hansıyıq?

– Özünüz seçin! – Mərdan ayağa qalxaraq dedi.

Çöldən səs gəldi:

– Papa burdasan?! – bu Babək idi.

Hikmət yerindən dik atılaraq çölə qaçdı:

– Oğul nəsə olub?!

Babək  atasının sualına cavab vermədən:

– Mərdan qağam da buradadır da?! – atasına məhəd qoymadan içəri keçdi: – Mərdan qağa məni bağışla?! Mən sənin dediklərini qəribçiliyə salmışam!

Arxadan evə girən Hikmət kişi sərt tonla:

– Sən nə danışırsan bala?

Babək üzünü atasına tərəf çevirib qətiyyətli səslə dedi:

– Bax, əgər Kamili dəlixanaya göndərsən, Mərdan qağama bir şey etsən ağlına gəlməyəcək şeyləri edəcəm! İnan səni peşman edəcəm ata, – bu dəfə «papa» demədi.

Hikmət key-key soruşdu:

– Ata?

– Hə mənə ata ol, papa yox! Bəsdir özümüzü satdıq! – Bəbək Mərdan kişiyə baxaraq, – Ömrü boyu Kamilə paxıllıq etmişəm, ondan qabağa getmək istəmişəm, əslindəsə ən yaxşı halda onu təqlid edirdim! – Üzünü atasına çevirərək, – hamısı sənin günahındır ata! Kamil hər zaman mənim ən yaxşı dostum olub, məndən dəfələrlə bacarıqlı olub, sən mənə Kamilə paxıllıq etməyi öyrətdin! İnsanlığımı itirdim! Məni o qədər vəhşi bir hala gətirdin ki, başqa qızdan xoşlandığım halda Kamilin sevdiyi Könülü sevməyi qərara aldım! Çünki ata sən məni elə bir xəstəliyə salmışdın ki, özüm də bilmədən Kamillə bəhsə girmişdim! Əslindəsə mən Könülü heç sevmirdim də! Sonra Kamilin başına nə oyun açdılar bilmirəm, dəli etdilər! Bu xəbəri eşidəndə çox sevinmişdim! Sonra Könülün özünü, ailəsini qorxudaraq, atamın köməkliyi ilə Könülü özümə arvad etdim! Kamili sevdiyinə görə onu dəfələrlə necə döydüyümü bir Allah bilir! Amma döyüləsi olanda, nifrət olunası da mən idim!

Zahid əli ağzında qulaq asırdı. Hikmət kişi boğularaq soruşdu:

– Oğul sən nə danşırsan?!

Babəksə atasına məhəl qoymadan:

– Mərdan qağa heç bir səbəb olmadan Kamillə bəhsə girmişdim, sonra ona nifrət etməyə başladım! Sevgilisini əlindən aldım. Hətta bir dəfə küçədə Könüllə birlikdə harasa gedirdik, Kamillə rastlaşdıq. Kamil divara qısılaraq dayandı. Bilmirəm niyə, Könülü döyməyə başladım, kimdən nəyin heyfini alırdım bilmirəm! Divara qısılan Kamil bir şir kimi gəlib əlimdən tutdu, o biri əlimlə onu vurdum, o əlimidə tutdu və astadan, hətta Könülün belə eşidə bilməyəcəyi səslə dedi ki, «onu vurma Babək!». Səsində heç bir nifrət yoxdu, sadəcə bir qırğınlıq vardı. Səsində nifrət olmaması məni daha çox əşəbləşdirdi, əlimi çəkib onu vurdum. Könül ağlayaraq getmişdi. Mənsə onu vurmağa başladım, elə sanmışdım ki,

gücü çatmadığından mənə cavab vermir, qorxduğundan gözünü yumur!

Zahid kişi:

– Bala sən ki, idman ustasısan, əlbəttə bir dəli kimdir ki, sənin yanında?!

– Zahid əmi elə eləmə ki, səni qırım! Ona bir də dəli deməyin! – Üzünü Mərdan kişiyə çevirib; – Mərdan qağa bu gün onlarla erməni ona heç nə edə bilmədi. Atamın əmrindən sonra biz başladıq onu vurmağa. İlk zərbəni mən vurdum. O bizə cavab vermirdi, hətta əli ilə belə özünü qorumurdu. Düşündüm ki, ilk zərbəmdən özünü itirib. Birdən sanki kimsə dedi ki, bax Kamil gözlərini yumub, heç açmır! Mərdan qağa, – Babək ağlayırdı, – onu vurduğum anda hansısa qüvvə mənə, – «niyə gözünü yummusan?!» dedizdirdi. Cavabında Kamil mənə «azərbaycanlının azərbaycanlını vurduğunu, qanını tökdüyünü görmək istəmirəm» dedi. Sən demə… – Babək ucadan ağlamağa başladı.

Hikmət keyimişdi, sadəcə bir kəlmə deyə bildi:

– Oğul…

– Mərdan qağa bu gün düşünürəm ki, mən niyə Kamillə bəhsə girmişdim?! Niyə onu özümə düşmən bildim? Utanıram! Allah belə götürmədi bu murdarçılığı, mən Könülü zorla aldım, Allah da övlad payımı məndən aldı. Həkim-dərman fayda etmir! Allah götürməz da! – deyib yenidən fəryad etdi! Babək yerə çöküb ağlayırdı.

Hikmət üzünü Mərdana tutub dedi:

– Qanınıza Babək girdi! Amma sənin mən adlı dostun yoxdur! Çünki sən qorxulu xəstəliksən, oğlumu belə özünə oxşatdın!

Bəbək yerə çökərək ağlayırdı.

Zahid əli üzündə qalmışdı, olanlara məəttəl qalmışdı. Bilmirdi övladlarının Babək kimi olmadığına şükür etsin, ya lənət etsin!

Mərdan kişi Babəki qucaqladı…

Kamil o biri otaqda, ağlayaraq pıçıldadı:

– Babək biz yaxşı dost idik!... Dost…

# YENİDƏNQURMA

*Gecə fahişə ilə yatan, səhəri fahişə ilə durur…*
***Şərq zərb məsəli.***

*Cəhalət yoxdursa xəyanət var.*
***Qədim türk atalar sözü.***

*Kür, Araz, Ararat,*
*Gözəldir bu həyat,*
*Qardaş olub Hayestan*
*Azərbaycan!*
***Zeynəb Xanlarovun oxuduğu mahnıdan bir nəqarət.***

Sovet dövləti sosializimə yeni nəfəs gətirmişdi, bu nəfəsin adı «yenidənqurma» idi. Sovet dövləti bir baxıma yenidən köhnə dövrü bağlayıb yeni dövrə keçmək istəyirdi və bu yeni dövrdə bəzi şeyləri gözdən keçirərək, hər şeyi yenidən qurmağa başlamışdı. Yenidənqurma siyasəti ilə köhnə arzularına yeni nəfəs vermək istəyirdilər. Doğurdan da onlar köhnə siyasətlərini yenidən qurmağa başlamışdı, adı üstündə «yenidənqurma».

Köhnə zamanlardakı kimi yenə hər şey anidən başladı, hər şey qəfildən əvvəlki mənasını itirdi, neçə onilliklərdə formalaşan münasibətlərin əsl üzü göründü. Beynəlmiləlçilik laylası ilə yatmış xalqımın qulağında yenidən «türkə ölüm», «türklər vətənimizdən rədd olsun», «Ermənistan birləş», «Qarabağ bizimdir» kimi şuarlar əks-səda verməyə başladı. Bəd əməllərini gizli-gizli həyata keçirən ermənilər və havadarları yenidən bütün həyasızlıqları ilə qulağımız dibində bağırırdı, lap 1905-1906-ci ildəki kimi. Qəribə olsa da o zaman, yəni 1905-ci ildə də bütün dünya erməniləri anidən, eyni anda, eyni avazı oxumağa başlamışdı, bir toplumun uydurma bir fikri söyləməsi tək bir halda mümkündür. Bu toplum bir mərkəzdən idarə olsun. Bax qəribəlik burasında idi… 1905-ci ildə erməni toplumu böyük bir uydurma mifi eyni anda bağırırdı. Necə ola bilərdi ki, müxtəlif coğrafiyalarda yaşa-

yan bir toplum bir yalanı eyni anda desin? Bəlkə də burada bir qəribəlik yoxdur, amma bütün dünya ermənilərinin bir uydurmanı eyni anda danışması və bu yolda fəaliyyətə başlaması qəribə deyilmi? Hansı güc bu uydurmanı eyni anda dünya ermənilərinə yaymış, onları təşkilatlandırmışdı, bir mərkəzə bağlamışdı? Demək ki, ortada bir güc vardı…Bu qəribəlik yenidən, 1987-ci ilin gəlməsi ilə yenidən başladı. Sovet Ermənistanında yaşayan ermənilər və onlara dəstək olan dünya erməniləri eyni anda uydurduqları «vətən» xəstəliyinə tutuldu. Sovetin yenidənqurma siyasətinə parallel olaraq ermənilərdə yenidən Qarabağı Azərbaycandan tələb etməyə başladılar.

Moskva 1987-ci ildə Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırdı...Səbəb nə idi?! Baş verən hadisələr ardıcıllığı məsələyə aydınlıq gətirir, onlar Azərbaycanı hər cəhədən yetim qoymaq istəyirdilər...

1987-ci ilin gəlişi ilə hansısa qüvvə erməniləri yenidən açıq-aşkar həyasızlıq etməyə təhrik etdi, cəsarət verdi. Ermənilər Xankəndində (Spanakertdə) nümayiş keçirməyə başladı, artıq onların səsi Qarabağ vilayət partiya komitəsinin meydanından gəlirdi. Qəribə idi, Qarabağ Azərbaycana tabe bir muxtariyyət idi, amma bütün bunlara baxmayaraq ermənilər həyasızcasına «Hayrenik-vətən» deyib Qarabağı bizdən istəyirdi, azərbaycanlılar təhqir olunmağa başlanmışdı. Azərbaycan Kominist Partiyasının Mərkəzi Komitəsinin katibi Kamran Bağırov və demək olar kı Mərkəzi Komitənin bütün büro üzvləri Qarabağ vilayəti partiya komitəsinə gəlmişdi və onlar ermənilərin həyasızlığına sakitcə qulaq asırdı. Azərbaycanlılar vətənləri Qarabağda erməni təhlükəsi ilə üz-üzə qalmışdı və azərbaycanlıların təhlükəsizliyi təmin olunmaq əvəzinə Azərbaycan KP MK-nın bütün büro üzvləri niyəsə susurdu.

Sonunda Qarabağ vilayətində baş verən bu nümayişlər belə nəticələndi ki, Kamran Bağırov meydana toplaşan ermənilərin qarşısına çıxaraq dedi ki, Qarabağ vilayətinin partiya komitəsi bürosunun I katibi B. Keverkov bu vəzifədə qalması məsləhət deyil. Və bu vəzifəyə o H. Poqosyanın seçilməsini məsləhət görür. Vilayət partiya komitəsinin meydanına toplaşan erməni izdihamı

K. Bağırovun bu sözlərini içdənliklə alqışladı. Görən Qarabağı istəyən erməni izdihamı niyə H. Poqosyanın Qarabağ vilayəti KP-nın I katibi olmasına sevinmiş və bu halı alqışlarla qarşılamışdı?! Bu sualın cavabını Qarabağdakı bütün azərbaycanlılar yaxşı bilirdi, vilayətdəki nümayişin başında elə bu şəxs dururdu. Qəribə idi, Azərbaycan KP MK-nın I katibi K. Bağırov və siyasi bürosu nümayişin başında duran erməni Poqosyanı Qarabağın I katibi etməklə nəyi hədəfləmişdi? Yoxsa onlar nümayişin başında kimin durduğunu və ya vilayətdəki bu hərakatın başında duran şəxsin H. Poqosyan olduğunu bilmirdi?! Axı bunu bütün Qarabağ bilirdi, bəs dövlət bundan xəbəsizdimi? Bundan xəbərsizdilərsə onda niyə Azərbaycana rəhbərlik edirdilər?! Bu bir təsadüfdümü? Nə vaxtdan qoyunu qurda tapşırırlar? Əslində bizim xalqı elə həmişə cəlladlara tapşırıblar, Şaumyan kimi, Mirzoyan kimi cəlladlara… Hər şey yenidən qurulurdu, köhnə senari yenidən oxunurdu, bizsə köhnəsi kimi yatırdıq, yenə köhnəsi kimi başımızda öz satqınlarımız vardı… Xalqın tək ümidi olan Heydər Əliyevsə hakimiyyətdən uzaqlaşdırılmışdı, baş bədəndən uzaq salınmışdı…

1988-ci il Fevralın ilk günllərində Sov. İKP MK-nın baş katibi M.S.Qorbaçov Zori Balayan, Silva Kaputikyan və ehtimal ki, bəzi başqa erməni liderləri ilə görüşdü…

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayətinin xalq deputaları Sovetinin nöbədənkənar sesiyası keçirildi. «DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqda Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsatət qaldırma barəsində» qərar qəbul olundu.

Qarabağa H.Poqosyanı I katib vəzifəsinə təklif edən Azərbaycan rəhbərləri yenidən susdu, axı onlar əmr almağa öyrəşmiş ipli oyuncaqlar idi. Ermənistandansa Stepanakertə* *(Xankəndi)* olan təyyarə uçuşlarısa fevralın 21-də dəfələrlə artdı. Bizi susduran, yuxuya verən o qüvvə, yenə erməniləri təşkilatlandırır, silahlandırırdı…

Qəribə idi, fevralın 22-də hay-küylə bağlı Qarabağa Sov. İKP MK Siyasi Bürosu üzvləri gəldi, sabahısı DQMV PK-nın ple-

nimunda H.Poqasyan I katib seçildi. Azərbaycan rəhbərlərini susduran, Azərbaycanı irili-kiçikli parçalarla ermənilərə verənlər yenə öz oyunlarını oynamışdı. Fevralın 23-də Ermənistan partiyası qətnamə qəbul etdi, bu qətnamənin III maddəsi belə idi:

«3. Sov. İKP MK-dan xahiş edilsin ki, milli siyasət problemlərinə dair Sov İKP MK pulenumunu hazırlayarkən digər problemlərlə bir kompleksdə Dağlıq Qarabağ məsələsinə də hərtərəfli baxsın».

Bəs görən Azərbaycan partiyası Sovet höküməti qurularkən "Sovet qardaşlığı" yalanı ilə bizdən alınan İravan, Zəngilan, Zəngəzur, Göycə, Borçalı, Axalkalaki əraziləri ilə bağlı qətnamə qəbul etmirdi? Görən bizim rəhbərlər niyə ağzına su alıb susmuşdu?

Bəs sovet qardaşlığına nə oldu? Yoxsa rus təkcə erməniyə böyük qardaşdı?!

Fevralın 26-da Ermənistan KP MK I katibi Dəmirçiyan «Dağlıq Qarabağ məsələsinə baxmaq üçün xüsusi komissiya yaratmağı Sov. İKP MK-dan xahiş etmək» haqda qərar qəbul etdi.

Həmişəki kimi Moskva öyüd-nəsiyyət verməyə başladı. Azərbaycan üçün ümidverici sözlər danışdı, hətta Siyasi Büronun üzvlərindən olan bəzi ermənilər də erməniləri sakitləşməyə çağırdı. Bu da həmişəki kimi xalqıma oynanılan «yaxşı-pis» oyunu idi, yəni yaxşı erməni, pis erməni, amma hamısının məqsədi eyni idi, nə qədər yenidənqurma olsa da, düşmən köhnə oyununu oynayırdı. Yeni olan zamandı… «Yaxşı» rolunu oynayan ermənilər və Moskva əslində heç bir hərəkət etmirdi, buna qanunda «hərəkətsizliyə görə baş verən cinayətlər» deyilir və «pis» rolunu oynayan ermənilərsə məqsədə hər an daha çox yaxınlaşırdı. Və 1988-ci il fevralın 23-24-də I Vazgen ermənilərə səsləndi, bizimkilərsə Moskvanın əmrinə uyğun susur, hətta yatırdı. Və təsadüfdən Ermənistanı qirip xəstəliyi bürüdü. Ermənistanı bürüyən qirip xəstəliyi bəhanəsi ilə ölkədəki bütün orta və ali məktəblər bağlandı. Bəli hər şey yenidən qurulurdu.

1988-ci il fevralın 25-də artıq Əsgəranda ilk azərbaycanlılar öldürülməyə başladı. Hətta xalqımızı o qədər üzü yola, susqun, yatmış, aciz, sahibsiz gördülər ki, martın ilk günlərində Bakıda,

ermənilərin asayişini qorumaqla təlimatlandırılmış azərbaycanlı milisini bir erməni ov tüfəngi ilə gülləyib öldürdü. Bu o vaxtlar idi ki, ermənilərin daha böyük izdihamı Yeravanda opera və balet teatrının meydanına toplaşmışdı, 1965-ci il Aprelin 23-dəki kimi. O vaxt əlləri heç nəyə çatmayanlar, yenidən köhnə senarini qurmuşdu, axı yenidənqurma idi.

Düşünülmüş-planlı oyunun sonrakı mərhələsində, erməni kilsəsi onlara pul ödəməyən ermənilərin Sumqayıtda öldürülməsini xüsusi hazırlanmış ermənilər tərəfindən həyata keçirdi (28-29 fevral tarixində). Erməni kilsəsi dirisindən fayda görmədiyi ermənilərin ölüsündən faydalanmaq istəyirdi, onların ölümlərini azərbaycanlıların üstünə atmaq istəyirdilər. Düşünə bilərsiz ki, bu dediklərimiz təxəyyül məhsuludur, amma gəlin faktlara baxaq:

I. Sumqayıt və Bakıda yaşayan erməni əhalisi Sumqayıt hadisələrindən 15-20 gün əvvəl öz pullarını əmanət kassalarından çıxarmışdı. Demək ki, onlara qarşıdakı təhlükə ilə xəbər verilmişdi.

II. Sumqayıt şəhərində baş verənlər hadisə ermənilərin özləri tərəfindən videolentə çəkilmişdi. O zaman video kameraların əhalidə olmadığı bir vaxt idi, bu zaman bir sual yaranır, «kameraları əvvəlcədən kim, necə təşkil etmişdi və bu kameralar doğru zamandan, doğru yeri necə çəkmişdi?». Və bu sualın bir tək cavabı var, Sumqayıt məsələsi ermənilərin və havadarlarının əvvəlcədən hazırladığı senari idi. Öləcək ermənilərin siyahısı və bu hadisələrin çəkilməsi əvvəlcədən təşkil olunmuşdu. Buna ən yaxşı dəlil, erməni qızını zorladıqdan sonra, onu doğrayarkən cinayət başında tulumuş erməni millətindən olan Qriqoryandır. Qəribə olsa da, SSRİ prokrorluğunun, SSRİ Daxili İşlər Nazirliyinin məlumatlarında, Sumqayıtda vuruşmanı ilk başladan, 5 ermənini öldürən (erməni) Qriqoryanın adını birdən-birə cinayətkarlar sırasından çıxardı.

Sual oluna bilər, Sumqayıt məsələsində öldürülən ermənilərin xüsusilə seçilmişdir, yoxsa rast gələ öldürülmüşdür? Qeyd edək ki, ermənilər Sovet dövründə də erməni kilsə ətrafında zorla təkilatlanmış bir sistemə malikdi və mütamədi olaraq bütün iş-

ləyən ermənilər bu təşkilata pul keçirirdi. Əlbəttə ki bundan sıxılan, buna etiraz edən və pul verməyən ermənilərdə olmuşdu, belə ermənilər erməni siyasətinə lazımsız adamlardı və Qriqoryan kilsəsi belələrini Sumqayıtda qurban vermişdi! Bu erməni kilsəsinin təzə metodu deyildu, onlar 1915-ci ildə də Osmanlı daxilində müsəlimanların qırğınını törətmişdi ki, müsəlimanlar qisas aldıqda xristiyan dünyasından kömək istəyhhə bilsinlər.

Sonu bəlli olan addım atıldı, 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında H.Poqosyan çıxışında uydurma faktlara əsaslanaraq DQMV Ermənistana verilməsini tələb etdi. Bəli, «Qarabağın ermənilərə verilməsi» tələbi bax beləcə meydanlardakı erməni nümayişçilərindən siyasi səhnəyə daşınıldı. Göz görə-görə, sonu bəlli ola-ola edilmişdi bu… Bu o H.Poqasyan idi ki, 1987-ci ilin əvvəllərində, Azərbaycanın I katibi K. Bağırov tərəfindən Qarabağa I katib seçilməsi məsləhət görülmüşdü.

1988-ci il martın ilk günləri ilə azərbaycanlıların zorla, silah gücünə, döyülərək-söyülərək, təzyiqlərə məruz qalaraq İravandan* yenidən qovulması dövrü başladı və bu oktyabr aylarına doğru daha şiddətli hal aldı.

Qəsdən gecikdirilən fərman sonunda verildi, Moskva azərbaycanlıların qovulmasının qarşısını almaq üçün fərman verdikdəsə artıq Ermənistanda bir azərbaycanlı da yoxdu, hamısı qovulmuşdu. Bu idi rus ədaləti, qardaşlığı. Bu o vaxtlar idi ki, ermənilər Azərbaycanda işləmədən maaşlarını alıb evlərində otururdu. SSRİ Nazirlər Soveti hər iki resbuplikadan, yəni Ermənistan və Azərbaycandan xalqların qovulmasını qadağan edən qərar qəbul etdikdə görən kimi qoruyurdu? Axı bizimkilərdən İravanda kimsə qalmamışdı, ermәilərsə hələ də Azərbaycanda idi… Bu qərarın bizə zərrə qədərdə olsun xeyri yoxdu, mənim bildiyim bu idi, buna ikili standart deyirlər…

Rus necə ədalətli və necə qardaş olduğunu göstərən qərarsa «1990-cı il yanvarın 1-dən sonra Azərbaycan SSR-ni məcburən tərk etmiş vətandaşlara yardım göstərilməsi sahəsində tədbirlər

* *Ermənistandan*

haqda» idi. Görən 1990-cı ilin ilk gününə Ermənistanda neçə azərbaycanlı qalmışdı ki, onlar zorla qovulduqda onlara birdə yardım göstərilə idi. Qovulanlar çoxdan qovulmuşdu.

Rus ədaləti və qardaşlığının necəliyi o dövrdəki bütün qərarlar da özünü göstərdi. Yenidənqurma nəticəsində azərbaycanlılar öz tarixi torpaqlarından-vətənlərindən, İravandan yenidən qovuldu. Ancaq Moskva Azərbaycanı tərk edən erməni və rusların itgilərinin ödənilməsini Mərkəzin həyata keçirməsi və sonradan Azərbaycan SSR-nin büdcəsindən çıxılması qərarını vermişdi. Görən Fərqanədən qovulan türklərin, İravandan qovulan azərbaycanlıların xərclərini Azərbaycana kim ödəyəcəkdi?! On illərdi rus, erməni qardaşlığından, sovet ailəsindən, humanizimdən, beynəlmiləl kefiyətlərdən danışan Sovet Rusiyasının əsl üzü bu idi. Demokratiya, beynəlmiləçilik uydurmasının sonu bu idi! Türklərə-müsəlmanlara olan siyasi-mənəvi münasibət bu idi! İnsan hüquqlarının müdafiə edilməsi haqda Lozanna konqresi, Vyana bəyannaməsi kimi sənədlər bütün dünya dövlətləri tərəfindən qəbul olunduğu halda, bizə olan münasibət bizi görməzlik idi. Bizi görməyənlər haqda bir daha düşünün…

Doğurdan da Sovet höküməti hər şeyi yenidən qurmuşdu, XX əsrin əvvəlindəki kimi, 1905-1906-cı ildəki kimi, 1920-ci ildə Azərbaycanda Sovet höküməti qurulduğu zamandakı kimi. XX əsrin ilk yarısında Rus dövlətçiliyinin türk-müsəlmanlara qarşı şovinist, çilpaq cinayətləri, acımasız soyqırımları sonraki on illiklərdə gizli hal almışdı və yenidənqurma ilə əsrin son onillyində bizə qarşı olan nifrət yenidən öz çılpaqlığı ilə, ikili standartı ilə zühur etmişdi. Hər şey yenidən başlayırdı, köhnə senari yenidən qurulmuşdu və bu yenidən qurmalar bizi tamami ilə məhv edənəcən olacaq! Saat əqrəbinin döngüsü kimi! Bizə deyilən və verilən beynəlmiləlçiliyin, bərabər hüquqların sonu bax belə olub və olacaq! Nə qədər ki, biz kimlərdənsə asılıyıq. YENIDƏN QIRILACAYIQ! Atalarımız demiş «SÜLH istəyirsənsə, SAVAŞA hazır OL!». Axı «Kolgədə qalan ağac bar vermir!».

# KƏRƏM OLMAQ İSTƏYİRƏM

*Pişik olmayanda siçanlar ova çıxar*
**Azərbaycan atalar sözü.**

Bu günü geriyə baxdıqda, o günləri xatırladıqda, etdiklərim, hətta düşündüklərim üçün utanıram, xəcalət çəkirəm. Əslində düşündüklərimdə, əməllərimdə mənim elə bir günahım yoxdu, bizi, cəmiyəti tərbiyə edən və idarə edən sistem bizi kor etmişdi, hətta arzularımızı, istəklərimizi, hislərimizi, duyğularımızı da. Mənim ülvi və ali bildiyim duyğular belə o sistemin törəməsi idi. Bütün bunlara baxmayaraq mən utanıram, xəcalət çəkirəm, o günlər yadıma düşdükdə xəcalətimdən bədənimi titrətmə tutur…

Mən həmin o oğlanam, yox edilən Ulusoydan qalan yeganə adam. «Yeganə adam» demiş, mənim anamın adıda Yeganə imiş. Hə o Yeganə, Mərdan kişinin əmisi Abbasın qızı. Mən anamı görməmişəm. Anam Bakıya oxumağa gedibmiş, başı elmlə qarışdığından evlənməyib, tarixi fakultəsini bitirdikdən sonra inisututda qalır, müdafiə üçün iş götürür. Anam burada atamla tanış olur. Atamda anam kimi tarix fakültəsində dərs deyirmiş. Düşüncələri, həyat tərzləri, arzuları eyni olduğundan biri-birinə isinişirlər və tezliklə evlənirlər. Mən anadan olduqdan sonra, onlar işləri ilə əlaqədar, ən əsasısa Mərdan babanın israrından sonra, məni kənddə gətirib saxlamaq üçün Minayə nənəyə verirlər. Yəni qısası anam kimi məni də boya-başa çatdıran Minayə nənəmdir. Məni kəndə gətirdikdə qırxım təzəcə çıxıbmış, bunun üstündən heç bir il keçmir ki, valideyinlərim naməlum maşın avaryasında ölür. Valideyinlərimdən mənə yadigar qalan mənə verdikləri addır, Azər. Mən özümü biləndə bir Minayə nənəmi, bir Mərdan babamı, bir də Orxan əmimi tanımışam, təbii ki, Səməd babanı və oğlu Yusif babagili də unutmaq olmaz.

Nənəmin nağıllarını, dastanlarını dinliyə-dinliyə böyüyürdüm. Məlikməmməd, Zümrüd quşu, Pəri qızı, ən əsası Lenin baba bizimkilərdi. Divlər, cinlər, saç əvəzinə başında ilan bitmiş məxluqlar, suyun qabağını kəsən əjdahalar, almanlar, varlılar,

burjaziya isə bizim düşmənlərdi, bizimkilərdən deyildi. Yatağıma girəndə gah Məlikməmməd olub divləri öldürürdüm, gah Koroğlu olub qırata minirdim, gah sovet əsgəri olub almanları qırırdım. Amma bütün bunlara baxmayaraq birdə baxdım ki, mən Kərəm olmaq istəyirəm. Artıq nə Məlikməmməd, nə Koroğlu, nə də ki onların düşmənləri məni maraqlandırmırdı, mən Kərəm olmaq istəyirdim. Çünki bizim evdən üç ev yuxarıda Əsli adlı bir qız yaşayırdı. Uşaqlıq sevgisi bu olsa gərək ki, mənim uşaqlıq sevgim nə qədər acı, nə qədər murdar olsada. II sinfə təzəcə gedirdim, qaçtı-tutdu, gizlənqaç oynadığım qonşu qızı Əsli ilə bir partata otururduq və mən «Əsli və Kərəm» dastanı haqqında televiziyada eşitdikdən sonra Kərəm olmaq istəyirdim. Haradansa ağlıma girmişdi ki, mən onu, yəni qonşu Haykaz əminin qızı Əslini sevirəm və yenə haradansa ağlıma girmişdi ki, mən onu Kərəm kimi sevirəm. Artıq yatağıma girdikdə Kərəm olub Əslini sevirdim və mənə danışılan dastandakının əksinə biz xoşbəxt olurduq, axı biz dogma sovet ailəsi idik. Mən «Əsli və Kərəm» dastanını demək olar ki, bütün günü beynimdə fırladırdım və dastandakı qəhramanlarla bizi müqayisə edirdim. Qonşu qızı Əslinin atası Haykaz əmi heç də Qara Keşişə bənzəmirdi. O, gülərüzlü, mehriban biri idi. Hətta Mərdan babanın onunla soyuq davranmasına baxmayaraq, hər yerdə babamı tərif edərdi. Və Haykaz əmi Qara Keşişin əksinə qızını məndən qaçırtmırdı, əksinə bizi bir yerdə görəndə sevinirdi, hətta Əslinin dərslərində çətinliyi olanda bizə gəlməsinə də icazə vermişdi. Əslinin anası Asmik xala Əslini yemək üçün evə çağıranda, həmişə məni də evlərinə dəvət edirdi. Əvvəllər mən utanaraq getmək istəmiyəndə, Asmik xala zorla məni evlərinə aparardı, sonralarsa günortaları biz demək olar ki, birlikdə yemək yeyirdik, kim qabağa düşüb çağırsa orada yeyirdik, ya bizdə, ya Asmik xalagildə. Xəcalət çəkdiyim ən böyük səhvlərimdən biri beləcə başladı…

* * *

Bir gün nənəmdən soruşdum:

– Ay nənə, niyə mənim adımı Kərəm qoymamısınız? – Adımın Kərəm olmadığına elə hefsilənmişdim ki…

Nənəm saçıma sığal çəkib alnımdan öpdü:

– Bala adını anan qoyub! Azər məgər pismi addır?! – deyə mehribancasına soruşdu. – Bax, Azərbaycan sözünün köküdür.

Mən etiraz edərək dedim:

– Eh, mən axı Kərəm olmaq istəyirəm! Bax Haykaz əmi ilə Asmik xala qızının adını Əsli qoyub, bəs mənim adımı niyə Kərəm qoymayıblar?!

– Bala anan tarixçi idi, çox oxuyub, çox görmüşdü. İstəyirdi ki, sən Azərbaycan xalqının şanlı oğullarından olasan, ona görə də sənə Azər adını qoymuşdu. Rəhmətliklər elə ağız dolusu «Azər» deyirdilər ki… – nənəm doluxsundu.

– Amma ki, adımı Kərəm qoysalar nə yaxşı olardı… – inadımdam əl çəkmədəm dedim və nənəmin üzünə baxaraq soruşdum, – Hə?!

Nənəm heç bir vaxt mənim dedklərimə etiraz etməzdi:

– Hə mənim noğulum, hə mənim Kərəmim, – deyib alnımdan öpdü.

Bu vaxt Mərdan baba içəri girdi, mən də nənəmlə etdiyim söhbətin əhval-ruhiyəsi ilə onun üstünə qaçaraq soruşdum:

– Bafa mənim adımı dəyişdirsən olar?

Babam çaşqın halda soruşdu:

– Niyə ki, Azər adı pis addırmı? – onun səsində bir sərtlik vardı.

Mənsə eyni sevinclə dilləndim:

– Mən istəyirəm adım Kərəm olsun?

Babam eyni sərtliklə soruşdu:

– Niyə?

Mən babamın mənimlə sərt danışdığını hiss etsəm də heç nə anlamadım, deyəsən elə pərt olduğumdan daha tələbkarcasına dedim:

– Nəaxşı* Haykaz əmi qızının adını Əsli qoyub?

Babam qəzəblə üstümə bağırdı:

– Canın yaraya yaxşı! – babam ilk dəfə idi ki, üstümə bağırırdı, – Kərəm olacaqmış! Hələ bir Əslinin kim olduğunu bil, – üzümə yağlı bir sillə çəkdi.

---

* *nə yaxşı*

Sillədən yerə yıxıldım, ağlamağa başladım. Nənəm araya girdi, babamın üstünə bağırdı:

– Gör bir nağarıssan?* Ə adam da uşağı elə vurarmı? Yekə kişisən, bir hərəkətinə bax! Can səfim, – deyib məni qucaqladı, – can balam ağlama, – yenidən babamın üstünə bağırdı: – Sənə neçə dəfə demişəm, keçmişi unut! Uşaq qədər ağlınız yoxdur!

Babam əsəbindən qırpqırmızı olmuşdu və əsəbini boğaraq:

– Ana bu uşağı belə edən elə sənsən! Nazana olandan sonra, Yeganəyə olandan sonradamı…? – O, naməlum sual verdi. – Düz əmməlli saz çala bilmir, amma Kərəm olmaq istəyir!– Niyəsə mızıldandı, – Bir böyü, bir imkan ver bildiyimizi öyrədək də...

Nənəm əsəbi halda onun üstünə bağırdı:

– Kəs səsini! Qızım qəzaya düşdü, elə demədilərmi? – amma səsindən heç özü də dediklərinə inanmırdı deyəsən, amma inanmaq istəyirdi. – Qoy bunlarsa yaşasın! Unut!

– Niyazini vuran maşındandır da… Mən unutmaqla düzələcək?! Boş yerə Yanıq Kərəmi havası var?!

Nənəm əlini yelləyərək pıçıldadı:

– Nəysə! – mənə baxdı və babama dedi. – Bala sülh lazımdır, bunudamı həmin maşın vursun? – ağlayaraq soruşdu, nənəmin gözündə qəribə təlaş vardı.

Mən bu naməlum söhbətdən heç nə anlamırdım, axı bu söhbətlərin mənim «Kərəmliyimə» nə dəxli vardı? Babamsa qırıq səslə dedi:

– Nazanda tarix araşdırdığınamı görə öldürüldü?

– Bala «sirkə nə qədər tünd olsa öz qabını çatladar» deyirlər, yaşamaq üçün unutmaq lazımdır, başımızın üstündə damımız var, bir tikə çörəyimiz var, şükür! Orxanın beynini boş şeylərlə doldurmusan, sonra? Qaçaqlıqmı edəcək, hamımızı sürərlər, Allah elməsin! – tez həyacanla pıçıldadı.

– Nə, budamı «Yanıq Kərəmi» havasına oynayanlardan olacaq? – əli ilə məni göstərdi – Ayaqlarını qıraram!

Nənəm əli ilə babamı tələyib bağırdı:

– Yox bir siz ağıllısınız! Guya bilmirəm qızım, – anamı nəzər-

---

* *nə qayrırsan*

də tuturdu, – uşağın adını niyə Azər qoyub?! Bala bu uşaq qədər ağlınız yoxdur, elə bu düz deyir, Azərdən Kərəm adı yaxşıdır…

Mən bunu eşidəndə özüm-özümə qürrələndim və babamın üstünə bağırdım:

– Hə, mən Kərəm olmaq istəyirəm!

Babam əlini irəli uzadaraq bağırdı:

– Kəs səsini küçük, bu saat dilini malazandan çıxararam!

Nənəm məni qucaqlayıb babama dedi:

– O yana dur ədə, uşaqla işin olmasın! Hələ bir də mənim nəvəmi vurasan, canın üçün südümü sənə halal etmərəm! Keçmişi unut bala, heç nə, nə Nazanı, nə bununkuları, – məni göstərdi, – geri gətirməyəcək! Yaşamaq üçünsə geri baxmaq lazım döy. Nənəm babamın üstünə bağırdı. –Bir də uşağı vurma! – Özü-özünə deyindi, – demir uşağın söyən yerinə vurar! – qucaqlayaraq məni sakitləşdirmək istədi. – Can balam, ağlama. – Və yenə özü-özünə pıçıldadı, – Kərəm olsun, təki yaşasın, təki sülh olsun, daha qan tökülməsin!

Allah rəhmət eləsin sənə ay nənə, amma kaş o günü babamdan əvvəl sən məni vuraydın, kaş… Sən yazıqsa sülh istəyirdin, balalarını qurban vermə bahasına belə sülh istəyirdin, amma olmadı…

Xatırlayarkən xəcalət çəkdiyim başqa bir əhvalatsa V sinifdə oxuyarkən baş vermişdi. Kənddə toydu. O günlərdə ağız dolusu əmi dediyim Haykaz «Yanıq Kərəmi» havasını çaldırdı, ailəsi ilə oynamağa başladı, hamını oynamağa dəvət etdi, cavanların çoxusu oynayanlara qoşuldu, ermənili-azərbaycanlı hamı deyib gülürdü. Mən də durub oynamaq istədikdə babam üstümə çəmkirdi:

– Qaxıl yerinə, ayaqlarını qıraram! – və pıçıldadı. – Yazıq Kərəm, ay Kərəm! Bax, gör nə sındırırlar!

Əsli mənim oynamağa durmadığımı görüb, oynaya-oynaya qabağıma gəldi və məni çağırdı:

– Dur oynayaq!

Mən babama baxmadan tez yerimdən durdum və oynamaq üçün camaatın arasına girdim ki, babamla göz-gözə gəlməyim. Yanıq Kərəmi havasını Əsli ilə oynayırdım, hamı kimi üzümüzdə sevinc vardı, artıq babamı belə unutmuşdum. Ağzım sevincdən

çənəmə çatmışdı. Haykaz əmi hərəmizin əlinə bir beşlik* verdi və bizim oyunumuza baxaraq əl çalmağa başladı. Əsli ilə mən «Yanıq Kərəmi» havasına sındıraraq oynayırdıq, hamı ətrafımızda dövrə vuraraq, böyüklü-kiçikli əl çalıb bizə tamaşa edirdi. Birdən babamı qarşımda gördüm, mənə elə bir sillə vurdu ki, gözümü açanda özümü evdə, yataqda gördüm. O günü mənə elə gəlmişdi ki, Qara Keşiş məhz mənim babamdı. Sonradan ermənilərin xalqımın başına gətirdiklərini gördükdə və babamın mənə danışdıqlarını eşitdikdə belə mən Kərəm olmaq istəyirdim, Əslini alaraq iki xalqı sülhə gətirmək istəyirdim. Axı ermənilər haqda nə qədər pis şeylər eşitsək də, Haykaz əmi, Asmik xala elə əvvəlki kimi gülərüzlü-mehriban idi. Əsli məni sevirdi, erməni quldurlarının hərəkətinə ağlayır, sülh istəyirdi. Mənim bu barədə çəkdiyim bir rəsmə isə çox sevinmişdi. Bu rəsimdə əl-ələ tutan erməni-azərbaycanlı uşaqları «sülh» bağırırdı, başları üstündə hər iki dövlətin bayrağı dalğalanırdı...

İndi o yerlərdə ermənilər «Yanıq Kərəmi» havasına sındıraraq oynayır, mənsə artıq Kərəm olmaq istədiyimə görə xəcalət çəkirəm, Əslini sevdiyimə görə isə Kərəm kimi yanıram. Qara Keşiş bildiyim babamı, xalqımı erməni «qarakeşişləri» qırdı, yenidən minlərlə kərəmləri yandırdı. Xalqımın inamını, sevgisini sömürən əslilərsə, haykazlarsa, asmiklərsə son anacan bizə dost olduqlarını, erməni quldurlarına lənət oxuduqlarını söyləyirdi. Son anda isə onlar qarakeşişlərdən betər oldu.

İndi o günləri xatırladıqda utanıram və məni «Yanıq Kərəmi» havasına sındıran ermənilərə, məni oynamağa dəvət edən Əsliyə nifrət edirəm. İndi toylarda özümüzünkülərin də «Yanıq Kərəmi» havasına oynadıqlarını görürəm, onlar üzlərində sevinc «yanan kərəmlərə, gülən qarakeşişlərə» sındıraraq oynayırlar, mənsə bir vaxtlar babamın mənə nifrət etdiyi kimi onlara nifrət edirəm… Yanıq Kərəmi havasına sındıran bizimkilər "keçmiş mən kimi" məni "Qara Keşiş" hesab edir, bəziləri ermənilərlə yenidən sülh bağlamağı vacib və alternativsiz yol sayır, gərcəkliksə kərəmlərin yandığını deyir…

---

* *pul*

Sizə «düşünün» deməzdən əvvəl özüm düşünürəm ki, bir vaxtlar bizi «Yanıq Kərəmiyə» sındıraraq oynamağa öyrətmiş-tərbiyə etmiş «sovet sistemi» dağılmadı? Bəs hansı sistem və ya sistemlərin törəməsi bizi yenə eyni havaya oynadır?! Düşünək…

# VƏTƏNİMİ DADAN ÇİNAR AĞACI

*Soyunu və ya günahsız-silahsız insanları*
*qıranlara barış – qardaşlıq təklif etmək,*
*barışa və qardaşlığa xəyanətdir*
***Müəllif***

*Qeyrətli dərdli olur, qeyrətsiz namərd –*
***Qədim türk atalar sözü***

Bir əlini belinə qoymuş, bir əlində çəliyi olan ağsaqqallı bir dədə asta-asta addımlayırdı. Bu artıq doxsanı haqlamış Səməd kişi idi. Səməd kişi kənd sovetinin binasına sarı gedirdi. Əslində orada bir işi yox idi, amma gedirdi. Özlərinin dili ilə desək idarəyə tərəf gedirdi. İşi düşdükdə belə, gedəcəyi yerin yolu kənd sovetinin yanından keçdikdə belə, kəsə yolu qoyub, kənd sovetini görməmək üçün dolama fırlanan Səməd kişi indi, heç bir səbəb olmadan ora gedirdi. Səməd kişinin yazılmamış qanununu kimsə ondan soruşmamışdı, o bu haqda kimsəyə deməmişdi, amma uzun illərdə hamı Səməd kişinin bu adətindən agah olmuşdu. İndisə hamı onun kənd sovetinə tərəf getdiyini görüb təəcüblənirdi, üzünə vurmadan, xəbərdar etmək istəyirdilər.

– Salam, Səməd bava. – bu İsrafil kişinin oğlu idi.

– Salam bala. – Səməd kişi ona baxıb başını yırğaladı.

– Hara belə? – «Sən idarəyə tərəf getməzdin, olmaya çaşmısan?» – deməyə cəsarəti çatmadı.

Səməd kişi onun üzündən sualını oxuyub gülümsədi:

– Elə ora gedirəm bala, elə ora gedirəm! – mənalı-mənalı pıçıldadı.

– Şey… – o səhv başa düşdüyünü düşünüb, – Mərdan qağamgiləmi gedirsən? Gəl gedək!

Səməd kişi ağır-ağır başını yellədi:

– Yox bala, keçmişə gedirəm! – əlini qaldırıb çəliyi ilə kənd sovetini göstərdi.

– Hara?!

– Keçmişə… – başını yellədi – Keçmişə gedirəm ağrın alım. – deyib onu gözləmədən addımlamağa başladı.

Hamı təəcüblə Səməd kişiyə baxırdı, sanki qiyamətin əlaməti olaraq günəş qərbdən çıxmışdı.

– Allah sən özün saxla, – yaşlılardan biri ağzını tutaraq pıçıldadı.

Səməd kişi başını qaldırıb qoşa çınara baxdı, qoşa çinar həzin-həzin xışıldayaraq qəm nəğməsi oxuyurdu. Yaxınlaşıb qoşa çınara toxundu, əlini sürtərək ağacın üz qabığı olmayan kalafanı sığalladı:

– Salam Tural bəy. – Səməd kişi ağlayaraq pıçıldadı.

Bu Tural bəyin bağlandığı ağacdı, bu kalafa da onun yanarkən ağacın qabığında əmələ gətirdiyi iz idi.

– Tural bəy bağışla, türküm bağışla, din qardaşlarım bağışla! – o əsən əli ilə ağacı oxşayırdı, – Tanrım sən özün bizi bağışla! Bir ağac qədər qeyrətimiz olmadı! Bir ağac qədər yaddaşımız olmadı! Bir ağac qədər sədaqətimiz olmadı! O, ağacda qabığı olmayan kalafanı oxşadı, – Ağac ağaclığı ilə Tural bəyin yanğısını unutmayıb, neçə illər keçib, amma onun yarası sağalmayıb, o qiyaməti unutmayıb! «Qanı su ilə yuyarlar» demişik, bu ağac qədər hikmətimiz olmayıb! Suyu bu ağacdan yaxşımı tanıyırıq, yoxsa bu ağacdan daha yaşlıyıq, yoxsa bu ağacdan daha çox düşmən görmüşük?! – Səməd kişi çinar ağacının dibində oturdu, amma əlini ağacdan çəkmədi, – Bu ağac neçə illərdi dayanmadan su içir, amma düşmənin yanğısını unutmayıb. Tural bəyin yanan bədəninin qanı ağacın gövdəsinə hopub. O gündən bu yana 65 ilədən çox vaxt keçib, bu müddətdə bu qocaman çinar ağacı durmadan su içir, amma bu su bu ağacın gövdəsinə hopan qanı yumağa yetməyib! 65 ildən bəri içdiyi su ağacın gövdəsindəki bu yaranı qaysaqladaraq bağlaya bilməyib! Bizsə «qanı su ilə yumaq» lazımdır demişik! Ermənilərin başımıza gətirdiklərini unutmaq istəmişik, xalqımın axıdılan qanını su ilə yumaq istəmişik, qəlbimizdəki yaraları qaysaqlatmaq istəmişik, bir ağac qədər hikmətimiz olmayıb! – O, əli ilə ağacın qabığındakı kalafanı oxşayırdı. – Bizim sizdən nə fərqimiz var ki?! Bizim Tural bəydən, ailəsindən, qızlarından, kəndindən nə artığımız var ki?! Onların

min murdarlıqla axıdılan qanını yerdə qoyduq, dedik qoy yağan yağış onların qanını yusun! İndi bizim onlardan nə artığımız var ki, onlara olanlar bizə olmasın?! Bizə olanlar gələn nəsillərə olmasın?! Buradakı türklərə-müsəlmanlara olanlar sabah başqa yerdəki müsəlmanlara olmayacaqmı?! – Səməd kişi asta-asta ağacdan tutunaraq, çəliyinə dikinərək ayağa qalıxdı və pıçıldadı; – Vətən ağacı, hər şey yenidən başlayır! 1905-ci ildə olduğu kimi, 1918-1920-ci ildə olduğu kimi, hər şey yenidən başlayır! Urus hökümәti saat kimi dövrə vurub ilk başladığı yerə gəlib, hər şeyə yenidən başlamaq istəyir! Budur, ermənilər yenidən Qarabağı istəyir, yenidən xalqıma türk deyir! Bəs hər şey yenidən, belə olacaqdısa, biz niyə vaxtında türklüyümüzü unutduq, kimlərinsə xətrinə dəyməmək üçün özümüzü dandıq, niyə?! Biz sülh üçün susduq, sülh üçün axıdılan qanlarımızı unutduq, vətəni dadan ağacını-daşını, üstündə yaşayan xalqını unutduq, dedik ki, təki sülh olsun! Yenə qanımızı axıdacaqlar, ara yerdə axmaq olduğumuz üzə çıxdı, qardaşlarımıza, öz soyumuza-dinimizə xəyanət etdiyimiz aşkar oldu! Qardaşlarımızın qanını unutmağı qardaşlıq adlandırdıq, xalqımızın qanını yerdə qoymağı sülh adlandırdıq, «Yaxşılığa yaxşılıq hər kişinin işidir, pisliyi yaxşılıq ər kişinin işidir» dedik, amma kişilik etmədiyimiz, ərlik etmədiyimiz aşkar oldu! Köpəkoğlunun urus Qarbaçovu düz deyir, aşkarlıq dövrüdür, bizim səhvlərmizi, özlərinin əsl üzlərini, əsl qardaşlığı, əsl sülhü və bizim özümüzə xəyanət etdiyimizi aşkar etdi. – Asta-asta çevrilib kənd sovetinin binasına baxdı, ağır addımlarla Leninin heykəlinə yaxınlaşdı, başını qaldıraraq Leninin gülümsəyən üzünə baxdı və soruşdu:

– Hanı dediyin sülh?! Hanı xalqların qardaşlığı?! Hanı urusunun böyüklüyü?! Hanı gətirdiyiniz bərabərlik?! Hanı körpələrə verdiyin xoş gələcək?! Təzə gələndə hər şeyi alt-üst etdiz, xalqımın ərlərini-nərlərini, sonrasa bütün başı papaqlılarını güllələtdin, sürdün, körpələri yetim qoydun! Dedin xoş gələcək üçündür bunlar! İndi həmin körpələrin ahıl vaxtıdır, özlərinin körpələri var, yenidən qan iyisi gəlir! Bəs dediyin xoşbəxtçiliyə nə oldu?! – başını çevirib kənd sovetini göstərdi, – Lenin bu sənin hökümə-

tinin binasıdır! Bu binanın yeri o vaxt ermənilərin yandırdığı samanlığın yeri idi!  Sənin urusunun verdiyi silahlarla silahlanan, topuyla toplanan hay-erməni bütün kəndi qırdı, yüzlərlə  qırdığı kənd kimi. Unut dediniz, unutduq, susun dediniz susduq, bəs nə oldu Lenin?! Mən  65 ildir buradan qaçıram, keçmişi danmaq üçün, keçmişi xatırlamamaq üçün buradan qaçıram. Lenin urusun yenə ermənini silahlandırır, hər şeyimizi almamışdınızmı?! Daha nə istəyrdiniz?! Qalan quru canımız döydümü, canımızıdamı istiyirsiniz?! – Lenin əlini yelləyərək gülürdü… – Hə, müsəlmanın aldığı nəfəsi də, quru canın da almasanız dincələn döysünüz! Artıq bu da aşkardı! Balalarım üçün, balalarımız üçün keçmişimizi, qeyrətimizi, kişiliyimizi satdıq, indi balarımızı istəyirsəz?! Ara yerdə o biri dünyaya da başaşağı gedəcəm! Üzün qara olsun Lenin, Allah sənə də, urusuna da,  hayına da, erməninə də, hamınıza lənət eləsin!

***

İsrafil kişinin oğlu sonunda Mərdan kişini tapdı:

– Qağa tez ol!

Mərdan təftişə düşərək soruşdu:

– Nə olub a bala, niyə tənginəfəs olmusan?!

– Tez ol idarənin qabağına gedək.

– Nə olub?! Yoxsa ermənilərmi…

– Yox e qağa, Səməd bava idarəyə tərəfə gedirdi. – töyşüyərək dedi.

– Səməd bavanın o tərəfdə nə işi var? Sən də  söz tapdın, yəqin səhv görüfsən!

– Yox e qağa, özüm danışdım, elə bildim sənin yanına gəlir, yaşlılıqdı, huşu çıxıb, yolu səhv salıb, məzəli danışırdı,  kənd sovetini göstərib dedi ki, keçmişə gedirəm…

Mərdan kişi yaşına-başına baxmayıb kənd sovetinə tərəf qaçmağa başladı, sanki Səməd kişinin ora getməsi qiyamət əlamətlərindən biri idi.  İsrafil kişinin oğlu da onun arxasınca  götürüldü, amma Mərdan kişiyə çata bilmirdi.

– Bava… – Mərdan kişi  uşaq vaxtlarındakı məlahətlə Səməd kişini səslədi, – Burada nə edirsən?!

Lenin heykəlinin dibindəki daşda oturan Səməd kişi Mərdana baxıb ağır-ağır pıçıldadı:

– Bala bu bizi aldatdı, urus-erməni genə bizi qırajax! – əlini uzadıb çinar ağacını göstərdi, – Bala göürsənmi ağacın belə yarası sağalmayıb…

Mərdan kişi babasının nəyə işarə vurduğunu bal kimi anladı, köksünü ötürərək dedi:

– Ağacı aldatmaq olmurmu deyirsən?!

Səməd kişi heyfsilənərək dedi:

– Susmaq yordu məni, təngə gətirdi!

Mərdan kişi babasının rənginin avazımasına baxıb dedi:

– Yaxşı özünü həlak eləmə, evə gedək…

– Halım yoxdur, bir maşın tap.

Səməd kişi gələndən sonra yatağa düşdü, amma buna baxmayaraq bütün qohum-əqrabanı başına yığdı. Soylu faciəsini, qoşa çinarın hikmətini, yandırılan samanlıq haqqında danışdı və dedi ki, balalarınız üçün bir olun, urus hökümətinə, onun qardaşlığına inanmayın. Ona haqq verən də oldu, verməyən də, inanan da oldu, inanmayan da. Çünki axmaqları söz yox, bədbəxçilik ayıldır. Bizimsə ən böyük bədbəxtçiliyimiz qapının ağzında duran, hətta qapımızı döyən bədbəxçiliyi görməməyimizdir.

Bu hadisədən iki gün sonra, 1988-ci il fevralın 20-də Səməd kişinin nəvəsi gəlini Lalə dünyaya bir körpə gətirdi, bir qız uşağı. Yusif kişi atasının yanına gəldi, yanı başında oturaq soruşdu:

– Ata körpəyə rəhmətliyin, – anasını nəzərdə tuturdu, – adını qoymaq istəyirəm, nə deyirsən?!

Səməd kişi oğlunun əlindən tutaraq:

– Sağ ol bala, amma ananın adını hələ ki xatırlayanlar var, onun adını sonra da qoya bilərsiniz, amma xalqımızı, öz adımızı unutmuşuq, körpənin adını Türkan qoyuram. Əgər qismət olub balalarım yaşasa, Lalə balam oğul dünyaya gətirsə onun da adını Turan qoyun. – Oğlunun əlini sığalladı və günahı xəfifləmişcəsinə gülümsədi.

Yusif kişinin nəvəsinə Türkan adı qoyması ildırım sürəti ilə kəndə yayıldı. Bu xəbəri eşidən kolxoz sədri Aşot, yanında bir

xeylidə erməni ilə özünü Yüsifin yanına yetirdi, evə girib salamsız-kəlamsız soruşdu:

– Başa düşmədim Yüsif kişi?!

– Nəyi başa düşmədin Aşot! – Yüsif emosiyasız danışmağa çalışdı.

– Nəvənin adını Türkan qoymusan?!

– Hə, Türkan qoymuşam, kimnənsə soruşmalı idim ki?! – səbrini basa bilməyib kinayə ilə soruşdu.

– Bilirsənmi ki, Türkan adında türk sözü var!

– Tutaq ki türk sözü var, cinayətdirmi?!

– Bununla nə demək istəyirsən?!

– Burada deyiləsi tək bir şey var, nəvəmə ad qoymuşam!

– Niyə məhz Türkan adını?! Səbəbsizdirmi?!

Mərdan kişi də ailəsi və Kamillə bir yerdə babasına baş çəkməyə gəldiyindən orada idi, ermənilərin Aşotla Yusif kişinin evinə gəldiyinə görə onsuz da qonum-qonşu bura yığılmışdı, nə olar-nə olmaz. Mərdan kişi söhbətə qarışdı:

– Aşot azərbaycanlılar uşağına rus, erməni adı qoyanda, fransız adı qoyanda nə demək istəyirsə, indi də onu demək istəyir.

– Axı bu adda türk sözü var.

– Uşağımıza Rac Kapuru bəyənib Rac adını qoyanda hümanizim olur, Türkan Şorayı bəyənib Türkan adını qoyanda nə olur, onu başa düşmədim?! Ümumiyyətlə nə demək istədiyinizi başa düşmürəm?! Adların necə yaranmasını, adların tarixinimi təhlil edirsən, yoxsa başqa bir elmi iş yazırsan?! – Mərdan kişi içində dişi bağırsağını gəmirsə də, üzdə tükü belə qımıldamadan, soyuqqanlılıqla soruşdu.

Aşot əsəbi halda dedi:

– Raç Hindistan adıdır!

– Türkanda türk adıdır! İndi nağaraq deyirsən?! – Mərdan soyuqqanılıqla soruşdu.

– Niyə axı o adı qoymusunuz?!

– Diliniz başdan ayağa türk sözləri ilə doludur, nağıllarınız türk-azərbaycan nağıllarının təqlididir, erməni sözü türkdür, indi nə olub türk adını bəyənmirsiniz?! – “ermənilər türkdür” deyib vəziyyəti daha da gərginləşdirmək istəmədi.

Aşot vəzifəsindən sui-istifadə edib göz qorxutmaq, hədə gəlməkdən başqa nəsə bilmirdi. Qərbi Azərbaycanı hədə-qorxu ilə ram etməmişdilərmi?! Mərdansa ehtiyatlı adamdı, amma qorxaq deyildi, kənddə hamı onun zəhmindən çəkinirdi. Aşot onu hədələməklə nəsə əldə edə bilməyəcəyini yaxşı bilirdi, tək yol qalırdı, onunla söz davası etmək, Mərdansa ya dınışmazdı, danışdıdamı onu sözlə məğlub etmək çətindi. Aşot çaşbaş halda:

– Nə demək istəyirsən sən?! – geri çəkilmədiyini göstərmək üçün ağlına gələn ilk cümləni dedi.

– Belə deyim, Sultan, Məlik türk sözləri deyilmi?! Niyə millətiniz bunları özünə ad qoyub?! Bizə verdiyin sualı get o adı qoyanlara da ver?!

– Qəribə adamsan? – Aşot nə cavab verəcəyini bilmədi.

– Ən sevimli adlarınızdan biri Arturdur, hə?! Oğlunun da adı Arturdu, səhv etmirəm ki?! – Mərdan qəsdən soruşdu.

– Hə Arturdur, nə olsun?!

– Qədim türkcədə bu ad Ərtur idi…

Aşot onun sözünü kəsərək bağırdı:

– Nə demək istəyirsən?!

– «ƏR» türkcə kişi deməkdir, azərbaycan dilindən bilirsən, türklərə tarixdə «TUR» da deyilib, məsələn turan, TUR + AN, başa düşdünmü?!

– Bu ağ yalandır? Sənin dediyin biabırçılıqdır. – Aşot yerindən dik atıldı.

– Düz deyirsən, Ərturun, yəni «türk əri» adının erməniləşdirilməsi bıabırçılıqdır… – Mərdan kişi soyuqqanlılıqla danışırdı, tükü belə tərpənmirdi.

– Bunlar cəfəngiyatdır! – Aşot yanındakı ermənilərə baxdı, sanki gözü ilə onlardan kömək istədi.

– Aşot, – Mərdan xüsusi vurğu ilə səsini uzatdı, – kiçik oğlunun adı Arşakdı, hə?!

Aşot əlini yelləyərək bağırdı:

– Yoxsa Arşak da türk adıdır? – isteza ilə gülmək istədi, amma «ilan vuran ala çatından qorxar» misalı gözü bərəldi. Gülümsəməsi üzündə qorxuya çevrildi.

– Arşak ƏR+SAK deməkdir, SAK-da qədim türk tayfalarından biridir! Ərşakın mənası, sak əri, sak kişisi deməkdir. Nə etməli, yoxa lənət! – Mərdan kişinin sözü başdan ayağa kürzə zəhəri olsa da, özü çox soyuqqanlı idi, – Türkan adını da sizinlə bölüşə bilərik, istəsəniz onu da qızlarınıza qoya bilərsiniz! Bunun davası üçünmü gəlmisiniz?! – Mərdan kişi elə ciddiliklə soruşdu ki, kim eşitsə elə bilərdi, Aşotgil həqiqətən bu səbəbdən bura gəlib.

Aşot pərt halda ayağa durdu ki, getsin və dedi:

– Bizə Türkan zad lazım deyil, bizə Qarabağ lazımdır!

Mərdan soyuqqanlılqla dedi:

– Allah Kərimdir, quyusu dərindir!

– Biz erməniyik! – Aşot şəstlə əlini sinəsinə vurdu. – Biz dediyimizə nail oluruq! Qarabağ ermənilərin olacaq!

Mərdan diqqətlə Aşotun gözlərinə baxdı, Aşotun dediklərində bir balaca da olsa həqiqət vardı, axı onlar doğurdan da dediklərini edirdi, necə ki «İravan bizim olacaq» deyə-deyə sonunda İravanı Yeravan edərək özlərinə dövlət qura bilmişdilər. Bu həqiqət Mərdanı yandırıb-yaxsa da üzdən bunu büruzə vermədi. Və düşündü ki, bir başqa həqiqət də budur ki, haylar və onları qıs tutanlar nə qədər türk tarixini qaralamağa çalışsa da, tarixi-keçmişi gizlətməyə, azdırmağa çalışsa da tarix hələ də öz etibarını itirməyib. Və bu düşüncəylə də Aşota baxdı:

– Aşot Qarabağın son aqibətini də sonda görəcəyik, bizim bir missal var, bilirsən də, cücəni payızda sayırlar! Sizin gələcəyiniz türklərin keçmişinin təqlidindən başqa bir şey olmayıb və gələcəkdə də olmayacaq. Bu həqiqətdən heç bir vaxt yaxa qurtara bilməyəcəksiniz!

– Sən nə danışırsan?! – Asot tamamilə hövsələdən çıxmışdı.

– Millətinin adı nədir Aşotttt? – Mərdan əvvəlki soyuqqanlılığı ilə soruşdu.

– Erməniyik! – Aşot Mərdanı yandırmaq üçün ağız dolusu dedi. – Qədim qaynaqlarda adı keçən erməni millətiyik biz.

– Hə o qədim qaynaqları mən də araşdırmışam, doğurdan da qədim qaynaqlarda Fırat çayından Göycə gölünəcən Ermənistan adlanmışdır. Amma o qaynaqlarda yazılanlar ƏRMƏN türk tayfaları ilə bağlıdır. O ərmən tayfaları ki, Çin qaynaqlarında belə

yad edilir. Adı üstündə ƏR+MƏN,   ƏRMƏN ismini belə bizdən oğurlamısınız. Sizin tək sahib olduğunuz şey «HAY» ismidir, başqa heç nə! Amma unutmayın ki, bizdə belə də deyilir «hayla gələn vayla da gedir!». Bir az tez, bir az gec!

Aşot yumruğunu düyünlədi, dişlərini qıcadı, düşündü, Mərdana nəsə tutarlı cavab vermək istədi, amma sanki bir boşluqda idi, ağlına heç nə gəlmədi. Gözündəki nifrət belə öləzimişdi, yerini hikkə almışdı, daha nəsə deyə bilməyib getdi, digər ermənilər də onun arxasınca! Səməd kişi nəvəsi Mərdanın danışığından mənəvi həzz alaraq gülümsədi:

– Mərdan daha ölsəm də qam yemərəm! Yaxşı ki, haqq, həqiqət bizdən yanadır! – razı-razı gülümsədi. – Bir də gözlədiyimiz Mətə gəlsə idi! – ofuldadı.

Mərdan kişi əlindən tutdu:

– Düz deyirsən baba, tək həqiqətlə silahlanmaq da yetmir, gərək o həqiqəti nahaqdan qoryuyacaq gücündə olsun! Haqla güc bir yerdə olmayanda, nahaqq doğru olur! Mənə elə gəlir ki, Mətə də artıq gəlib, bir də başla bədən bir olsa…

# GÖZLƏYƏCƏM

*Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.*
***Azərbaycan atalar sözü.***

*...Bəs vətənə baxmasan nə olar?! –*
***Kinayəli ataların sözü.***

*Eli olmayanın dili də olmaz –*
***Azərbaycan atalar sözü.***

*...Ellərimizi itiririk, dilimiz susur...–*
***Atalarını unudan oğullara***

*Aləmə iman verdim, özüm imansız öldüm –*
**Azərbaycan atalar sözü**

Səməd kişi beynində uğuldayan səssiz səsin gurultusuna yuxudan oyandı.

– Hə Səməd kişi, nə var-nəyox?!

Yatağında dikələn Səməd kişi soruşdu:

– Mənə demişdin daha gəlməyəcəm!

– Yaşayıb gördün! Mən də demişdim, daha danışmayacam, yaşa gör!

Səməd kişi içindəki son umidi yandırdı:

– Urus, erməni lap əvvəlki kimi müsəlmanın qanınımı axıdacaq?!

– Görünmürmü?!

– Lap o vaxtkı kimimi?!

– Şübhənmi var?!

– Şübhəm yoxdur, ümid edirdim ki…

– Boş ümidlər cücərmir Səməd kişi! Olmayacaq duaya amin deməzlər! Soyunu, qardaşını, qıranlardan qardaş olmur Səməd kişi!

– Düşünürdüm ki, onların da Allahı var, vicdanı var, peşman olarlar!

– İslamın da, İncili də, Tövratın da Allahı eynidir, o kitabdan

hansısa birinə kim həqiqi iman gətirsə qan tökməz! Dini bəhanə edib qan tökənlər Allaha yox, Şeytana qulluq edir! Cinayətlərinə kilsəni qatan millətin Allahı olmaz Səməd kişi!

– Mən umid etdim… – başını bulayaraq dedi.

– Səməd kişi bilirsən də boş ümidlər cücərmir! Çaqqaldan qurd törəmir! Qarğadan qırğı olmur! Heyif ki belədir!

– Yoruldum susmaqdan! Daha nə qədər susacıyıq!

– Onlardan dost-qardaş olmayacağını xalq anlayana qədər!

– Birdən anlamasalar?!

– Səməd kişi yatanlar gərək fəlakət gəlməmişdən əvvəl oyana, sonra gec olur!

Səməd kişi mənalı-mənalı başını yırğalayaraq dedi:

– Kaş gec olmadan ayılsaq.

– Ayılmasaq, birlik olmasaq qarğa quzğuna dönəcək!

Səməd kişi alnını ovuşdurdu, buna oxşar hansısa atalar sözü vardı deyəsən. Qeyri-ixtiyari pıçıldadı:

– Leş görəndə qarğa quzğuna dönür!

Səssiz səs pıçıldadı:

– Hə, qarğa leş görəndə quzğuna dönür! Bəs görən daha nə qədər yatacaqsız?!

Səməd kişi peşmançılıqla pıçıldadı:

– Bizim başımıza min müsübətlər gətirdilər, bizsə yerimizdən tərpənmədik sülh olsun dedik! Diriykən ölüyə çevrildik. – Hər ikisi xorla dedi, – Qarğa leş görəndə quzğuna dönür! Qarğaları özümüz başımıza çıxarıb quzğun etmişik!

Hər ikisi bir anlıq susdu, səssiz səs sükutu pozdu:

– İndən sonra nə edəcən Səməd kişi?!

– Turalı görmək istəyirəm! – Soylu kəndinin bəyi Turalı nəzərdə tuturdu.

– Bunun üçün bu dünya ilə vidalaşmaq lazımdır!

– Vaxtdır!

– Son kəs bir istəyin varmı?!

– Qoşa çinarın sağalmaz yarasına son kəs bu əllərimlə toxunmaq istəyrəm…

Səssiz səs acı-acı gülümsədi…

Səhər tezdən Yusif kişinin evində hay-həşir qopacaqdı, Səməd kişi yatağında yoxdu. Onun meyidini qoşa çnarın dibində tapacaqdılar, Səməd kişinin bir əli ağacın üstündə əbədiyyətə qovuşmuşdu.

Qəbirində belə yazılacaqdı:

Səməd Məhəmmədoğlu.

… – 21 fevral 1988

«Su ilə şərəf təmizlənmir» – cəmi üç gün sonra Qarabağı istəyən ermənilər Sumqayıt oyununu oynayacaqdı…Ardınca Qərbi Azərbaycandan* bu torpaqların əsil sahiblərini, türk-müsəlmanları qovmağa başlayacaqdılar…

Səməd kişinin ruhu göydən ona sarı gələn Tural bəyin ruhunu tanıdı:

– Salam Tural! – utanaraq dedi.

– Salam Səməd, yaman qocalmısan!

– Atalar nə deyib, «ölmürsənsə qocalırsan»! – Turalın hələ də qan gələn yaralarını görüb ürək ağrısı və təəccüblə soruşdu. – Bu vaxtacan yaran sağalmayıbmı?!

Tural bəy istəməsə də ona qınayacı nəzərlərlə baxıb:

– İntiqamı alınmayan yaralar sağalmır Səməd!

– Hə, alınmayan intiqam! Bağışla… – Nəzəri göy üzündə onlan miyonlarla ruha sataşdı, hamısının yarasından qan axırdı, ruh olsa da gözü yaşardı, dili topuq vuraraq dedi: – Bağışlayın! Hamınız bağışlayın! – onlar susmuşdu, amma yaralarından qan axırdı. Səməd kişi başını aşağı dikdi.

– Gedək!

– Hara?!

– Göylərə, artıq burada sənlik bir iş yoxdur!

– Nə deyirəm Tural, gedək!

Onlar əl-ələ tutub bir xeyli yuxarıya qalxmışdılar ki, Səməd kişinin gözü göydə pərvaz edən məscidlərə sataşdı, bu məscidlərdən biri od tutub yanırdı.

– Bu nədir Tural?! Bu məscid nə yaman yanır?!

---

* *Ermənistandan*

– Bu gün* ermənilər Yeravan şəhərindəki son məscidi də dağıtdı, onun ruhudur!

– Bəs bu yanğın nə vaxt sönəcək?!

Tural bəy qəh-qəhə çəkdi, amma o gülmürdü, ağlayırdı:

– O məscid öz yerində tikilmədiyi müddətdə, ruhu burada dayanaraq yanacaq!

Səməd kişinin gözü kəndlərinə sataşdı. Kənd qan rənginə bürünmüşdü. Gözünü hərləyib qoşa çinara baxdı, çinarın sağalmayan yarasından qan axırdı. Səməd kişi təəcüblə soruşdu:

– Bu nədir Tural?! Buralar niyə qan rəngindədir?!

– Tezliklə buradakı bütün müsəlmanların qanı axıdılacaq! Bu torpaq, bu qoşa çinar bu müsibətlərə dəfələrlə şahid olduğundan, yenidən axıdılacaq müsəlman qanını əvvəlcədən hiss edir, bu səbəbdən də köhnə qurbanların qanı var olub…

– Necə yəni var olub?! Var olub, nə deməkdir?!

– Bunu var edən bilir, mən yox!

– Nə səbəblə?!

– Yuxarıda vaxt məhdudiyyəti yoxdur! Vaxt yer üçün keçərlidir!

– Bir şey başa düşmədim?!

– Köhnə qurbanların qanı yenidən var olur ki, yeni qurbanların qanı ilə qarışsın! Axı Yuxarıda fərqi yoxdur ki, bu müsəlman 1905-ci ildə öldürülüb, ya 1918-ci ildə öldürülüb, ya 1988-ci ildə. Axı buradakı təqvimin Göyə heç bir dəxli yoxdur!

– Bəs… – Səməd kişi kəkələdi, söz ağzında dönmədi, düşündüyünü dilə gətirməyə cəsarət etmədi.

– Bu kənddəki bütün müsəlmanlar ya qırılacaq, ya əsirliyə aparılacaq! – Tural bəy təəssüflə dedi.

– Ola bilməz! – Səməd kişi bağırdı.

– Niyə ola bilmir Səməd?! Mənim başına gətiriləni, mənim kəndimin başına gətiriləni sizin başınıza niyə gətirməsinlər?! Fərq nədədir?!

– Yox fərq yoxdur! Mən sadəcə düşündüm ki, indi o vaxt deyil… – Səməd kişi utanaraq dedi.

---

* *1988-ci il fevralın 21-də Yeravan şəhərindəki son məsciddə ermənilər tərəfindən dağıdılmışdır.*

– Vaxtın bura nə dəxili var ki?! Şərəfsizliyin vaxtla-zamanla nə adiyyəti var, haqq düşmənlərinin zamanla nə adiyyəti var?!

– Mən belə düşünməmişdim! – Səməd pərt və peşman halda dedi.

– Qarğa suya düşər, amma qaz olmaz! Bunu bilmirdinmi?! Səncə atalarımız bunu deməklə sadəcə qulağa xoş gəlsin deyə bozboğazlıqmı etmişdi?!

– Əlbəttə yox! – O gözünü qaldırıb Turalın gözünə baxdı, düşündü ki, onun gözündə özünə qarşı kin-qəzəb görəcək.

Turalın gözündə kədər vardı, intiqamı alınmadıqda gözdə necə kədər olarsa, bax elə bir kədər vardı. Səməd kişi bu kədərdən utandı. Turalın səsinə diksinən kimi oldu.

– Gedəkmi Səməd?!

Səməd qan rənginə boyanmış Ulusoya baxdı.

– Bu kənddə bizimkilərdən kimsə qalmayacaqmı?!

– Yox!

– Bəs intiqamımızı almayacaqlarmı?! – Səməd kişi hiddətlə soruşdu.

Tural bəy onun gözünün içinə baxıb acı-acı gülmsədi:

– Qarğanın bülbül olmasını gözləyəcəklər!

– Bəs sonra?! – Səməd kişi hövsələsiz soruşdu.

– Sonrasını bilmirəm, məncə iki başı var!

– Nəyin iki başı?! Tez de!

– Ya intiqam, ya ölüm…

– Bu kəndə bir də türk-müsəlman ayağı dəyməyəcəkmi?!

– Əsl türkün, əsl müsəlmanın ayağı bura tək bir halda dəyə bilər, savaşarsa! Onusa mən bilmirəm!

– Əsl türk, müsəlman deyəndə nəyi nəzərdə tutrsan?!

– Bəziləri pul üçün, siyasət üçün türklüyünü, Allahını satacaq, erməni və havadarları ilə ticarət edəcək!

– Nə ticarəti?!

– Görəcəksən, göylərdən hər şey daha başqa, daha aydın görünür, heç nə gizli qalmır! Hər ticarəti edəcəklər! Allahı satmağa vərdiş edən “dindaşlarımız” indi də ermənilərlə ortaq bir bazar acacaqlar, daxıldakı isə türk, türkün vətəni və haqqın sahibi olacaq.

– Dindaşlarımız ha?!

– Hə Səməd, biz hər şeyi görürük, amma heç nə edə bilmərik! Tanrının əmri belədir, qiyamətəcən səbr! Allahdan danışan neçə saxtakar gördüm bir bilsən! Elə bu torpaqlara da bizi və Allahını satmağa gələcəklər!

– Gələcəyimiz aqibəti bəlli deyilmi?!

– Bütün dünya bizə qarşı birləşib! Ayılıb bir baş, bir bədən ola bilsək bir şansımız var, bəlkə də son şansımızdır bu.

– Elə isə mən gedə bilmərəm Tural!

– Niyə?!

– Bu kənd bizimdir, başsız qoya bilmərəm! Buraları haylara qoymaq olmaz, göz-qulaq olmaq lazımdır!

– Əlindən bir şey gəlməz Səməd!

– Lənət ki, yağdıra bilərəm! Torpağıma ki, yaxın ola bilərəm! Yanan İravan məscidlərini ki, görəcəm!

– Buralarda çox müsəlman qanı axıdılacaq, dözə bilməzsən!

– Bu dözmək-dözməmək məsələsi deyil Tural, bu mənim borcumdur! Gec olsa da daha ayıq olmalıyam! Sən get! Mən bizimkilər geri qayıdanacan gözləyəcəm!

– Amma bu bəlkə də qiyamətəcən olmadı!

– Olsun! – Səməd kişi qətiyyətlə dedi, – Elə bunun üçün burada birinin qalması lazımdır!

Turk babanın səsi gəldi:

– Qoy qalsın!   Səməd kişi tək bir şərtlə qala bilərsən!

Səməd kişi şərti eşitməmiş razılaşdı:

– Razıyam!

– Daha şərti eşitmədin!

– Nə şərti olsada razıyam, yetər ki torpağımın, yurdumun, obamın üstündə olum!

– Hər öldürülənlə öləcən, hər ağlayanla ağlayacan, hər doğrananın acısını  sən də çəkəcən! Hər yananla sən də yanacan! Bütün obanın acısını çəkə biləcənmi?!

Səməd kişinin çiynindəki yük sanki azaldı:

– Bundan böyük xoşbəxtçilik ola bilərmi!  Onların dərdi-fəryadı ilə yanmaq mənim üçün şərəfdir! Beləcə düşməni daha yaxşı tanıyacam…

– Elə isə qal! – Türk baba nəvazişlə ona baxaraq dedi.

Səməd kişi obasının üstündə dövrə vurmağa başladı. Qarşıdan gələn Novruz bayramında o dəfələrlə öldü, dəfələrlə döyüldü, dəfələrlə işgəncələrə məruz qaldı, dəfələrlə yandırıldı. Qoşa çınara bağlanaraq yandırılan oğlu Yusiflə birlikdə oda yandı, Tural bəy kimi, Kərəm kimi, Novruz tonqalı kimi yandı…

Ermənilər bu kəndin məscidini partlatdıqca, əlindən tək bir şey gəldi, haylara, ermənilərə, havadarlarına lənət yağdırmaq…

Köhnə şəhidlərin qanı ilə yeni şəhidlərin qanı biri-birinə qarışırdı, hər köhnə şəhid yeni şəhidi göylərə aparmaq üçün yerə enirdi… Səməd kişi od tutub yanırdı…

# SOVET ORDUSU BİZİ QORUYUR

*Qoyun başlı, qurd dişli.*
***Azərbaycan atalar sözü***

*İtə dedilər: – Gündə neçə dəfə döyülürsən?*
*Dedi: -Mərdimazara rast gəlməklədir! –*
***Azərbaycan atalar sözü.***

*Türk-müsəlimana dedilər: – Neçə dəfə qətl edilmisən?*
*Dedi:– ...Nə dedi? Sən nə deyirsən? –*
***Yeni atalar sözü.***

1988-ci il mart ayının ilk günü idi. Martın gəlişi ilə sanki dünya tərsinə dönməyə başladı, çünki Sovet hökuməti qurulandan bəri eşitməkdən qulağımızın kar olduğu «qardaşlıq, bərabərlik, sovet haqq-ədaləti, rusun böyük qardaşlığı, sovet xalqlarının təhlükəsizliyini təmin edən sovet qızıl ordusu» hekayələrinin nə qədər çürük olduğu hiss olunmağa başladı.

Son hadisələrdən sonra ermənilərin azərbaycanlılar yaşıyan kəndlərin ətrafında sılah-sursat yığması açıq-aşkar hiss olunmağa başladı, «saqqallılar» adlanan erməni ekstremistləri kövələk kimi üzə çıxdı, saqqallılar əllərində silahları ilə heç kimdən qorxmadan günün günorta vaxtı gəzməyə və qabaqlarına çıxan azərbaycanlıları hədələməyə, təhqir etməyə, hətta döyməyə başladı. Və bütün bunlar Yerevanın hər yanında adi hala çevrilməsi bir yana, erməni dövlət orqanlarının rəhbərlərinin gözü qarşısında baş verirdi. Kimsə qardaş erməni xalqına nə olduğunu ayırd edə bilmirdi. SSRİ rəhbərliyinə, Ermənistan rəhbərliyinə və Azərbaycan rəhbərliyinə yazılan bütün şikayət ərizələrinə, teleqramlarına eyni cavab gəlirdi «…emusyalara qapılmayın, sizin ərizənizə, teleqramınıza diqqətlə baxılır…». Əvəzindəsə erməni quldurları hər gün daha çox qudurur, daha çox özbaşınalıqlar edir, daha irəli gedirdilər. Bəs baxılan nə idi?! Rəhbərlik hara baxırdı?! Əli yalın, sahibsız, azərbaycanlıların silahlı erməni quldurlarının

təhdidləri, hədələri və cinayətləri qarşısında sahibsiz qoyanların məqsədi nə idi?! Bu azərbaycanlıları qorumaq kimin məhsuliyyəti və vəzifəsi idi?!

Üç gün bundan əvvəl silahlı erməni saqqalıları səkkiz maşınla Ulusoya girmişdi. Onlar kəndin girəcəyindəki evlərin divarlarını güllələmiş, sonrasa dörd evi oda verib getmişdilər. Xoşbəxçilikdən kimsəyə güllə dəyməmişdi, amma hələ ki…

Ulusoy kəndi artıq başını itirmişdi, nə baş verdiyini anlaya bilmirdilər. Nə olmuşdu bu hökümətə? Nə olmuşdu bu ermənilərə?! Gərçi Yeravanda ermənilər həmişə azərbaycanlılara II sinif insan kimi baxmış, hər cəhətdən təzyiqlərə məruz qoymuşdur, amma daha belə yox. Sanki Qarbaçovun «yenidənqurma və aşkarlıq» dövrünün başlamasını qeyd etməsindən sonra kimlərsə ermənilərin azərbaycanlılara qarşı əsrlərdən bəri etdikləri düşmənçiliyi açıq-aşkar etməyi məsləhət görmüş, hətta cəsarət vermişdi. Qarbaçovun dediyi aşkarlıq, yenidənqurma bu idimi?! Ulusoylular gördüklərindən tək bir nəticə çıxarmalı olduqları halda, yenə də aşkar edilən düşmənçiliyi görmək istəmirdilər, onlara rəhbərliyin verdiyi boş vədlərdəki kimi sülhün yaranacağına inanırdılar. Daha doğrusu inanmaq istəyirdilər. Amma ətraf erməni kəndlərində günbəgün silahlı erməni quldurlarının toplaşdığını Bağdadda kor xəlifə belə bilirdi. Ermənilərin silahlı qruplar yaratdığını, xarici ölkələrdə yaşayan ermənilərin Yerevana gəldiyini «erməni dostluğuna» inanmaq istəyən İravan azərbaycanlıları da bilirdi, amma rəhbərlik, Qorbaçov azərbaycanlıları «emusyalara qapılmamağa» çağırırdı. Hadisələrin nə yazılı, nə konistitisiyon, nə də ki məntiq qanununa uyğun olmadığını görən kəslərin şikayətləri ya cavabsız, ya da kı «diqqətlə baxılır» cavabları ilə ötüşdürülürdü.

Mərdan son yazdığı teleqrama cavab almışdı. Mərdanın yazdığı teleqrama cavab aldığını bilən hər kəs onun evinə toplaşmışdı. Mərdan kişinin yuxarıya, bütün hökümət orqanlarına şikayət ərizələri yazarkən onu qınayan-qınamayan, haqq verən-verməyən, bu hərəkətinə görə onu kəndin başbiləni sayan-saymayan hamı onun evinə gəlmişdi, hamı hökümətdən bir çarə gözləyirdi.

Mərdan kişi evinə yığışan ulusoylulara baxdı və niyə gəldiklərini öz dillərindən eşitmək üçün soruşdu:

– Nə olub?

– Teleqramda nə yazıblar? – hamı bir ağızdan soruşdu.

– Yaxşı olacaq! – Mərdan kişi kinayə ilə güldü.

Zahid kişi Mərdanın naməlum cavabından razı qalmadı:

– Mərdan düz əmməlli danış, onsuz da çaşbaş qalmışıq, sən də bir yandan…

Mərdan kişi masanın üstündəki cavab teleqramını əlinə alıb oxudu:

– Sizin teleqramınıza diqqətlə baxılır. Problemin həlli üçün Azərbaycan SSR və Ermənistan SSR ərazisindəki daxili qoşunlara yazdıqlarınızı araşdırmaq və vəziyyəti sabitləşdirmək üçün tapşırıqlar verilib. – Mərdan kağızı masanın üstünə ataraq dedi, – Bax belə. Narahat olmayın, dediyim kimi, hər şey yaxşı olacaq.

Hikmət kişi Mərdanın lağlağısından əsəbləşərək soruşdu:

– Cavabı yazan kimdir?

Mərdan qaşlarını dartaraq gülümsündü:

– Hə mən bunu unutmuşam axı. SSRI DIN DQ qərargahının rəisi Borukayev yazıb cavabı.

Hikmət kişi arxayın şəkildə gülümsəyərək:

– Bu iş bu qədər, tezliklə hər şey sabitləşəcək! – O masadan kağızı alıb Mərdanın dediklərini öz gözü ilə gördükdən sonra əminliklə güldü, – Hansı dövlətdə yaşayırıq biz ay camaat! – Fərəh hissi ilə bağıraraq özü də cavabladı, – Sovet dövlətində yaşayırıq! Belə boş münaqişələrdən qorxmaqla biz özümüz sadəlövlük edirik canım, bizim arxamızda dağ boyda Sovet dövləti durur! – O arxayınlıqla güldü.

Zahid kişi də onun sözünə qüvvət verərək:

– Hə hökümət üç-beş quldurun, üç-beş ağciyərin qorxusundan yıxılası olsaydı bu günə gəlib çıxardımı?! – o tərs-tərs Mərdanın üzünə baxdı.

Mərdan Zahid kişinin ona belə qınaq dolu baxdığını gördükdə, ürəyi ağrıdı, amma özüdə bilmədi ürəyi kimə ağrıyır:

– Nədir ay Zahid niyə belə baxırsan?!

Zahid istehza ilə güldü:
– Sən  daha yaxşı bilərsən!
– Nəyi bilməliyəm, mən bir şey bilmirəm! Sözü olan desin, hamıda bilsin!
Hikmət kişi söhbətə qarışdı:
– Daha nə biləsisən ay zalımın oğlu! Ağciyərlik etdiyin yetmir, bir də  hamının ürəyinə xof salmısan! Günah sən də döy, bizdədir!
Orxan əsəbi halda soruşdu:
– Ay Hikmət əmi, qağamın günahı nədir ki?!
Mərdan oğluna baxıb:
– Böyüyünlə bu nə danışıqdır? – deyə bozardı.
Hikmət qımışaraq əlini qaldırdı:
– Yox, qoy danışsın, niyə ki? Aşkarlıq dövrü döymü?!  Mərdan, sən çoxdandır bu hökümətin qarasınca danışmısan, niyəsini bilmirəm? Bəlkə də təxribatdır bu! Amma dost deyib susmuşuq, yuxarıya deməmişik. – Mərdanın sakit baxışlarından daha da əsəbləşdi,  – Birinci günahımız bax budur! Amma keçəl daha suya gedəsi döy! Bildinmi…?
Mərdan acı-acı güldü:
– Bilmədim! Aşkarlıq dövürü döymü, aşkar danış…
– Sənin bu ərizələrin bu yekəlikdə hökümətə, – ağız dolusu əlavə etdi, – Sovet hökümətinə, milisinə, ordusuna  inamsızlıqdan irəli gəlir! – Amma, – səsini daha da ucaltdı, – dərd bu döy,  sənin ərizələrin bizim xalqıda hökümətin, partiyamızın gözündən sala bilər! Sabah hər şey düzəldikdə deməyəcklərmi ki, bu nə ərizələrdi yazırdınız ay azərbaycanlılar?! Siz dövlətinizə, partiyanıza inanmırdınızmı?! Və səni kimi ağciyərlər tək öz adını yox, bütün azərbaycanlıların adını batırır! Hər şey düzələndə sənin günahını bütün xalq çəkəsi olacaq!
Mərdanın ürəyi sancdı, amma buna məhəl qoymadı və bütün əsəbini boğmağa çalışaraq dedi:
– Artıq heç nə düzlən deyil! Artıq yeni mərhələ başlayıb! Təzə dövrə başlayacaq!
– Nə? – Zahidlə Hikmət bir ağızdan soruşdu.

– Sözlə başa düşə bilsəydiniz çoxdan başa düşərdiniz! Sizdik döy! –Mərdan kişi əlini yelləyərək dedi.

– Hııı… – Hikmət isteza ilə güldü, – bax Mərdan, bəsdir bizi də özün kimi ağciyər edib dövlətimizə qarşı qaldırdın? Yoxsa…

Mərdan gah ona, gan Hikmət kişiyə baxaraq iki arada qalan ulusoylulara baxaraq pıçıldadı:

– Yazıqlar…

Orxan daha susa bilməyib bağırdı:

– Yoxsa nə? Bizə xalq düşməni adımı verərsən? Bax, Hikmət əmi böyüyümsən, amma ağzından çıxanı qulağın eşitsin, bura sənin kabinetin deyil! Bəsdir vəzifəyə görə özünüzü də, xalqıda kor etdiniz! Silahlanan ermənilər qalıb qıraqda, azərbaycanlıları gözümçıxdıya salan ermənilər qalıb qıraqda, bizə boş vədlər verən hökümət orqanları qalıb qıraqda, bütün günahların səbəbkarı bizikmi, Mərdan qağamdımı?!

Hikmət kişi tərs-tərs Orxanı süzərək dedi:

– Tezliklə hökümət hər şeyi səhmana salacaq! Ara qarışdıran erməni quldurlarınısa tutacaqlar, sənin atan kimi!

Orxan yumuruqlarını düyünləyərək bağırdı:

– Mənim atam kimi?!

Mərdan bu dəfə oğluna əsəbi halda deyil, təssüflə baxaraq:

– Oğul sakitləş! Dünyanı kim necə istəyirsə elə görür! Allahı bütlərə sığdıran, inkar edən də insanlar deyilmi?! Bunlar Allahı bütlərə sığdıracaq qədər belə sevmirsə gerisini özün düşün!

Hikmət kişi Mərdanın cavabından tutulsa da, ulusoylular qarşısında son sözü deyən kimi görünməyə çalışdı:

– Allah deyə bir şey yoxdur!

– Düzdür, Allahın varlığına inanan kəslər bütün bir millətin taleyi ilə oynayarkən qorxudan gecələri yata bilməz! Allahın varlığını qanan kəs xalqı uçuruma aparmaz!

– Biz buradayıq! Bütün Ulusoy buradadır, nə olub ki, bizə?! –Hikmət kişi şəstlə əlini sinəsinə vurdu.

– Deyəsən kəndə gələn saqqallıları unutmusan? Onlar lotuluq edəndə, fermanın qoyunlarını kəsib kabablayan da, maşını camaatın üstünə sürəndə harada idin? Hökümətin, ordun, milisin harada idi? – Orxan bozaraq dedi.

– Hökümət işə əl qoyacaq, tələsmə! Məsələdən təzə halı olublar!

– Rayonda milis şöbəsinin qabağındaca saqqalıların döydüyü azərbaycanlılara nə deyirsən? Saqqallıların döydüyü azərbaycanlıları xəstəxana belə qəbul etməyib, milis işə qarışmayıb, bəs bu nə olsun? – Ulusoylularan biri dedi.

– Üç-beş erməni milisi nə erməni xalqı deməkdir, nə də bütün Sovet milis orqanı deməkdir!

– Hikmət, bir balaca hikmətli olsan nə olar?! Söhbət üç-beş erməni milisindən getmir, rayon milis şöbəsindən gedir və bütün Ermənistanda ermənilərin anidən quduzlaşma xəstəliyinə tutulmasından gedir! – Mərdan başını bulayaraq dedi.

Hikmət əlini yellədi:

– Sən həmişəki kimi məsələni şişirdirsən! Hökümət məsləyə diqqətlə baxdığını deyir, daha nə istəyirsən?

– Xalıqımın təhlükəsizliyinin təmin olunmasını istəyirəm, torpaqlarımızın xalqımıza qaytarılmasını istəyirəm! Daha boş sözlər yox! Qulağımızın dibində ermənilər əllərində avtomatlarla gəzir, hökümətsə deyir, gözləyin məsələyə baxırıq! Görünməyən nə var ki, hələ bunlar bir diqqətlə baxırda… Hara baxır, nəyə baxır?!

Hikmət daha da əsəbləşdi:

– Bəsdir daha, kimsən eee sən?! Kəndli babasan da, hökümət səni qədər bilmirmi?!

Hamı iki arada, bir dərədə qalmışdı, kimə inansaydılar! Hər halda Mərdana inanmaqdansa hökümətə inanmaq daha xeyirli olardı…Birisi Mərdan kişi ilə Hikmət kişini süzüb düşündü:

– Mərdan dayı pis adama oxşamır, amma Hikmət kişi də çox hikmətli söz deyir. Kimdir axı o? Biz kimik? Kəndli babalarıq, oysaki hökümət başqa şeydir. Hikmət kişi bu boyda hökümət işində işləyib, höküməti bizmi ona tanıdacayıq?

Bir başqası belə düşündü:

– Mərdan kişinin dediklərinə adam heç inanamaq istəmir! Mərdan kişiyə inanmaqdansa hökümətə inanmaq məsləhətdir, çünki qulağımız dinç oturmaq üçün hökümətin hər şeyi düzəldəcəyinə inanmaq ən yaxşısıdır. – Səssiz səsin onun qulağına

pıçıldadığı sözlərdən canını üşütmə tutdu: – Bəs Mərdan deyən kimi olsa? Sənin hökümətə inanmağın həqiqəti dəyişərmi?! – o kəkəldəyərək Mərdan kişidən soruşdu, – Mərdan əmi indi sən nə deyirsən? Bunun axırı nə olacaq?! Hökümətə inanmayaqmı?!

Hamı bir ağızdan soruşdu:

– Hə ay Mərdan, indi bəs nə olcaq?!

– Baxın, – Mərdan camaatı süzdü, – mən hər şeyi yaxşı anlayıram. Nə düşündüklərinizi, niyə mənə tərs gəldiyinizidə yaxşı anlayıram, amma ki…

Hikmət kişi onun sözünü kəsdi:

– Mərdan sən canın bəsdir, elə danışırsan ki, elə bir dram oynayırsan?!

Mərdan bu dəfə təmkinli səslə yox, uca və qəti səslə dilləndi:

– Bura bax Hikmət, sənsə özünü elə aparırsan ki, elə bil sirk təlxəyisən! – Hikmət nəsə demək istədi, Mərdan onun sözünü kəsərək bağırdı:

– Bura bax Hikmət, mən oyun oynamıram, – üzünü camaata tutub; – hamı diqqətlə mənə qulaq assın, bir yerdə qərar verək…

Hikmətlə, Zahid kişi yenə onun sözünü kəsərək camaat arasında rəhbərliyi Mərdana vermək istəmədən dedilər:

– Nədir sənin təklifin? – kinayə ilə soruşdular.

Mərdan əsəbindən dodağını gəmirdi:

– Baxın həyat elm deyil, ona görə ağıllı da, ağılsız da, təcrübəli də-təcrübəsiz də istədiyini danışır. Bu gün bəziləriniz məndən daha yaxşı vəzifələrdə işləmiş ola bilər, buna bir söz demirəm. Amma hamı bir şeyi bilməlidir, vəzifədə işləmək hələ ağıl, savad, təcrübə deyil…

– Bəs nədir? – Hikmət bozardı.

Zahid Mərdanın sözü onlara vurduğunu bildiyindən:

– Ağılsızın vəzifədə nə işi?!

Mərdan Zahidə baxdı:

– Zahid unutma ki, Nizami Gəncəvi saray şairi deyildi, öz əli, öz başı idi, amma zamanından bu günə və daha min illərə ad saldı. Onun zamanında şaha çaqqallıq edənlərisə kimsə tanımır, başa düşdünmü?! – sərt tonla soruşdu.

Hikmət söz tapmadan söhbəti dəyişməyə çalışdı:

– Bunun bura nə dəxli e?!

– Yox çox dəxli var! Sən bir sus, eşidəcən hamısını! Atalarımız «xalqın gözü tərəzidir» deyib, bəs mənim o hikmətli xalqıma nə olub?! Gözünüzü açın! Mən bəzi şeylərin mənasını sizə yenidən açmağı özümə borc bilirəm! Çünki çox şey artıq həqiqi məansını itirib.

Vəzifə nədir? İlk məsələ budur! Mən həyatda bir şey öyrənmişəmsə bu da odur ki, hökümət necədirsə, ətrafınada özü kimisini yığır! Burada ağıl və ya bacarıq məsələsi yoxdur! Tək məsələ hökümətin dediyini hərifiynən yerinə yetirəcək kukla olmağı bacarmağındır! Deyə bilərsiniz ki, Mərdan niyə belə danışır? Kimin paxıllığını çəkir! Kimsənin paxıllığını çəkmirəm! Gözümdə vəzifə filan da yoxdur! Çünki millətini, keçmişini vəzifəyə satanların hansının sonu yaxşı olub? Tarixdə belə birisi olmayıb ki, xeyir tapsın! İsgəndərə qalmayan dünya kimə qalasıdır?! Mənim bunu deməkdə tək bir məqsədim var, həqiqəti görməyə çalışın! İravanı Yeravan edən, Göycə-Zəngəzuru Yeravana qatan hökümət bu hökümət deyilmi?! Uzaq tarixi demirəm, 1984-1985-ci ildə Qazağın yüzlərlə hektar torpağını gözümüzün qabağındaca əlimizdən alıb erməniyə vermədilərmi?! Gədəbəyin torpaqlarını vermədilərmi?! Bu o hökümət deyilmi, sizinləyəm?! Ermənilərin silahlanıb, artıq kənarda deyil, kənddə, öyümüzün içində belə bizi təhdid və təhqir edirlər! Ordu hanı? Ordunun vətandaşlarını qoruması SSRİ-nin konstitusyon borcu deyilmi?! Bəs niyə bizi qorumurlar?! Bu qədər sualın bir məntiqi cavabı var, bizi yenə qıracaqlar!

– Niyə bizdən nə istəyirlər ki? – hamı bir ağızdan dedi, – Biz kimə nə etmişik ki?

Mərdan başını yellədi:

– Yox məsələ sən, mən deyil. Məsələ siyasi, milli, dini, strateji məsələdir! Biz türük, biz müsəlmanıq, bu torpaqlar nə qədər Ermənistana verilsədə tarixən bizimdir! Axı Ermənistan deyilən bu dövlət qurma, saxta bir şeydir! Nəysə bu başqa mövzudur. Əsas məsələ hamımızın bir araya toplanmasıdır! Parçalansaq bizi daha tez məhv edəcəklər! – üzünü Zahidlə, Hikmətə tutdu.

– Sizə gəlincə. Mənə nəyin paxıllığını edirsiniz? Cibinizdə daşıdığınız partbletə* xalqı satmayın, Sovet höküməti təzə qurulanda xalqı satanlar, Nəriman Nərimanova paxıllıq edərək onun ayağının altını qazanlırın sonu yenə bu hökümət tərəfindən güllələnmək olmadımı?! Məni satmaqla hədələyirsən?! – Başını yellədi, – Bu dar günümüzdə belə bir yerə toplaşa bilmirik, biri-birimizin paxıllığını çəkirik! Axı mənim nəyimin paxıllığını çəkirsən?! Mən bu höküməti tanımaq üçün Nazanı itirdim, sizsə öz xanımlarınızla bir yerdəsiniz! Bir «rəhməti» belə ona, mənə əsirgədiniz, indi nəyin paxıllığını edirsiniz?!

– Kim paxıllıq edir?! – Hikmət sonunda həqiqəti tapdamağa güc tapdı.

Camaatın içindən birisi bağırdı:

– Mərdanın paxıllığını çəkməyən, ona həsəd aparmayan olmayıb. – Bu Həmid müəllim idi. – Məktəbdə lövhə qabağında səsiniz çıxmırdı, çünki elmin tək cavabı var, həqiqət. Mərdan kimi oxuyanınız vardımı?! – başını buladı, – İndi hamının dili çıxıb! Hikmət sən Mərdandan neçə yaş böyüksən, düzdümü?!

– Düzdür, 4 sinif yuxarı oxumuşam!

– Hə 4 sinif! Xatırındadırmı, sinifinizdə cəbrdən məsələni kimsə həll edə bilməmişdi? Məktəbə yeni gələn cəbr müəllimi Arsen də o məsələni düz həll etməmişdi. Mən onda böyük bir səhv etdim, Mərdanı cağırıb o məsələni həll etməsini istədim. – O, əsən əllərini gözlərinə aparıb sulanan gözlərini sildi;– Mərdan məsələni beş dəqiqədə həll etdi. Müəlliminiz qarışıq hamınız onda Mərdana paxıllıq etmədinizmi?! O erməni idi, bəs siz?! Sonra məktəb direktorunu da erməni qoydular, onlar da Mərdanı vurdular! Mərdana neçə fəndən rüblüyü «3» çıxardılar, buna sevindiyini mən öz gözümlə görmüşəm! Ermənilər Mərdanın inkişaf etməsini istəmirdi, buna görə onu ruhdan salırdı, mən bunu anlasam da, qorxumdan susurdum! Sənsə buna sevinirdin, səni kimi bütün azərbaycanlı şagirdlər də sevinirdi! Mərdana çata bilmirdiniz, əvəzinə onun ayağını qazanların olduğuna sevinirdiniz?! İndi burada nə yekə-yekə danışırsan?! Burada tək bir

---

* *kominist partiyasının vəsiqəsi*

vətən oğlu varsa, o da Mərdandır! Çünki o canından qorxmadan bizim gözümüzü açmağa çalışır! Mənim bir ayağım görda olsada, qorxub susurdum. Mərdanın vətən sevgisisə canından yüksəkdəymiş! Sevinin ki, içimizdə belələri hələ ki var, bəlkə belələri bizi bu oyundan qurtara! Mərdan düz deyir!

Hikmət əsəbi halda bağırdı:

– Mən hökümətə inanıram…

Ulusoy kəndinin üstündə avtomat gülləleri uçuşdu. Hikmət kişi güllə səsindən qorxaraq aşağı əyildi. Həmid müəllim soruşdu:

– Nə oldu, Hikmət hökümətə inanmırsanmı? – kinayə ilə güldü.

Zahid kişi mızıldandı:

– Bu erməni quldurları artıq lap ağ elədi!

Həmid kişi daha onlara məhəl qoymadan soruşdu:

– Ay bala, – Mərdanı nəzərdə tuturdu – nə edək?!

– Kəndimiizn ətrafına yığışan ermənilər, tezliklə kəndə hücum edəcək! Bunu anlamaq üçün əslində alim olmağa ehtiyac da yoxdur! Kəndə gələn saqqallılar dəfələrlə deməyibmi ki, öz xoşunuzla gedin, yoxsa sizi buradan it kimi qovacayıq! Keçən dəfə edilən hücum da buna işarədir! Onda 3-5 yandırılan evlə canımızı qurtardıq, bəs növbəti dəfə?! Bu səbəblə də yol qırağındakı azərbaycanlı evlərində növbə ilə keşikdə durmaq lazımdır! Gecələri də ayıq olmaq lazımdır! Kənddə kimin tüfəngi, patronu var o növbədə duran adamlara verilsin! Bu arada kənddə ermənilər bizi münaqişələrə sövq etməyə çalışacaq, qətiyyən baş qoşmaq olmaz! Çünki bunlar Sumqayıtda oynadıqları oyunu yenidən burada da oynamaq istəyəcəklər! Sadəcə qoy görsünlər ki, biz də birlik halındayıq, bu bizi müəyyən qədər qoruyar! Hikmət umu-küsü vaxtı deyil! Sənin də boynuna böyük iş düşür!

Hikmət ona olunan minnətə sevindi:

– Nə?!

– Sənin rayondakı hərbi hissənin komandiri ilə aran yaxşıdır, elə deyilmi?!

– Hə!

– Hər kəsdən pul yığaq, götür apar ver ona?

– Niyə?

– Bizim kənddə on-on beş sillahlı əsgər versin, postlar qur-

sun! Denən əsgərləri hər şeylə biz özümüz təmin edəcəyik! Cavanlar da növbə ilə əsgərlərlə birlikdə postda durar. Yəni qısacası kəndə pulla-parayla əsgər gətirilməlidir!

Hikmət əminliklə dedi:

– Pula ehtiyac yoxdur, mən bu işi həll edə bilərəm! Mən Saşa ilə, – hərbi hissənin komandirini nəzərdə tuturdu, – tonla duz-çörək kəsmişəm! Evimdə dəfələrlə qonaq olub!

– Eybi yox, biz pulu düzəldək, hər ehtmala sən ona pul ver! Düz-cörəksə bizim xalq üçün müqəddəsdir, başqası üçün yox, Hikmət bunu anla…

– Yox, o yaxşı adamdır. – Hikmət etiraz etdi.

– Nə deyək, təki sən deyən kimi olsun! Amma sən yenə də pulla gedərsən!

O gecə qərarlaşdırıldığı kimi camaat yığışıb beş min pul düzəltdi. Hikmət pulu da götürüb hərbi hissənin komandirinin yanına getdi. Hikmət komandiri gəlişindən hali etdi:

– Saşa, kəndə hər ehtimala əsgər postu qoymağı xahiş edirəm!

– Bilirsən Hikmat məsələ necədir?! Bu iki xalqın daxili işidir, mənim buna qarşımağa ixtiyarım yoxdur!

Hikmət tutuldu:

– Daxili işimizdi? Bəs bizi kim qorusun? Onlar hər gün silahlanır, bizsə yetim kimi ortada qalmışıq. – özü də bilmədən Mərdanın dediklərini dedi.

– Yuxarıdan əmir var, məni başa düş!

Hikmət çibindən pul paçkasını çıxarıb stolun üstünə qoydu:

– Saşa, bilirsən bizim xalq yaxşılığı unutmur, bir də ki biz dostuq! Kəndə əsgər ver, dediyim kimi, yemək-içməyi, yeri-yatağı bizim boynumuza! Hər ayda bundan əlavə, – masadakı pulu göstərdi, – sənə 500 manat veriləcək! – Bunu Mərdan deməmişdi, amma Hikmətində deyəsən dalağı sancmışdı.

Saşa gülümsədi:

– Hikmat bax a sənin xətirinə edirəm bunu, pul üçün yox a!

Hikmət zorla güldü:

– Bilirəm!

Martın 5-də kəndə hərbi maşınla 15 əsgər gətirildi, post qu-

ruldu. Mərdan əsgərlərə də inanmırdı, bu səbəblə də əsgərlərələ bir yerdə Ulusoy kişiləri də postlarda dururdu. Martın 13-də bir maşın gəlib əsgərləri hərbi hissəyə apardı, bununla da sovet əsgərlərinin Ulusoyu qoruma dövuru cəmi 8 gün çəkdi. Hikmət yenidən Saşanın yanına getdikdəsə komandir onu qəbul etmədi. Hikmət də axşam üstünəcən gözləyib sonunda geri qayıtmağa məcbur olmuşdu.

Sovet ordusu Azərbaycan SSR-nin ərazi bütövlüyünü və azərbaycanlıların təhlükəsizliyini qorumağa borclu idi, bu onların konstitusya borcu idi, amma…

# «BEYNƏLMİLƏLÇİLİK, HÜMANİZİM» ERMƏNİCƏ

*Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı.*
***Azərbaycan atalar sözü***

*«Beynəlmiləlçilik, hümanizim, millətlərin qardaşlığı» və bunu kimi başqa mənəvi-siyasi dəyərlərin adları hər kəs tərəfindən qəbul edilsədə, tarix göstərir ki, «siyasi-hərbi güc hegomonları» tərəfindən bu dəyərlər kağızdan kənarda əməl olunmur. Yəni bu dəyərlər hər kəs tərəfindən deyildiyindən fərqli, başa düşüldüyündən fərqli mənalar kəsb edir, bu siyasi yem, umidsüzlərə sonu olmayan umid vermək üçün, digər xalqlara uzadılan təcavüzkar əllərin siyasi pərdələnməsi üçün, milli siyasəti korşaltmaq üçündür.*
***Müəllif***

Son olanlardan sonra ulusoylular tikan üstünə oturmuş kimi idi. Kənddən kənara çıxmaq təhlükəli idi, rayona-şəhərə getmək, bazara getmək, bazara mal aparmaq, bazarda mal satmaqdan söhbət belə gedə bilməzdi. Kənd özü-özünü dolandırmağa çalışır, əlləri hər yandan üzülmüşdü. Bu olanların sonunu gözləyirdi. Amma bu olanların sonu gəlmək bilmirdi. Burada azərbaycanlılara qarşı rəftar get-gedə daha da qatılaşırdı, Mərkəz boş-quru vədlər verirdi. Azərbaycansa aciz, tək başına qalmış, qorxmuş azərbaycanlıları səbrli olmağa səsləyirdi.

İlk çərşənbə idi. Hamı bütün bu olanların həqiqət olduğuna inana bilmirdi, deyilən vədlərə inanıb nəyinsə düzələcəyinə ümid edirdilər. Başqa yolları da yoxdu deyəsən, bu inamsa əslində başqa çıxış yolunun olmamasından irəli gəlirdi deysən…

Ulusoylular ilk çərşənbənin tonqalını qalamışdı, hər ulusoylu doqqazının qabağında bayram tonqalı qalamışdı, içlərində bir ümidlə…

Mərdan kişi çırtaçırtla yanan çərşəmbə tonqalına baxırdı, ocağın işıltısı üzündə bərq vururdu. Nəvəsi Nazan onun əlindən dartaraq yuxarıya doğru dartındı:

– Bava, məni qucu al,  tonqalı atdandıy… – dili dolaşa-dolaşa dedi, üzündə  bayram sevinci vardı.

Mərdan kişi Nazanı qucağına alıb ocağın üstündən atlandırırdı:

– Ağırlığın-uğurluğun  tonqala! – deyib nəvəsini bağrına basdı, üzündən öpdü – Üzünü Orxana tutub. – a bala o lopanı da* yandır, at!

– Bəlkə lopanı yandırmayaq,  erməniləri daha da acışdırmayaq! – atasına etiraz etdiyinə görə tutuldu.

– Bala onların acışması bizim nə etməyimizlə bağlı deyil! Onlar  edəcəyini edəcək! Barı son Novruzu layiqi ilə qarşılayaq!

– Son Novruzumu?! – Orxan düşündü ki, nəyisə düz başa düşməyib.

Mərdan kişi  astadan, amma qətiyyətlə dedi:

– Hə, son Novruzu…

– Ata, sən nə deyirsən?! Yəni bizi… – düşündüyünü dili deməyə varmadı.

– Hə bizi qovacaqlar, əminəm. Bizi yox etmənin yeni, bura üçün souncu mərhələsi başlayıb.

– Bəs hökümət?! Partiya qoyarmı?! Elə şey ola bilməz ata? – elə etiraz edirdi ki, guya olacaqlar Mərdanın deməsindən asılı idi.

– Elə hökümət, partiya edir də bunu…

Darvaza qapısından içəri girən Zahid kişinin arvadı Səhər onun sözünü ağzında qoydu:

– Qağa öyüm yıxıldı, – o ağlayaraq dizini döydü.

– Noluf** ay Səhər, niyə özünü həlak edirsən, bir düz əməlli danış görək. – Mərdan heç nə anlamadan soruşdu.

– Zahid hələ də gəlməyib.

– Zahid hara getmişdi ki?!

– Rayona getmişdi…

– Niyə? Uşaqdımı  belə vaxtda rayona niyə gedirdi ki?!

– Nə bilim, nə qədər dedimsə eşitmədi.  Xaçaturyan, bizim raykomu deyirəm, axı onlar dostdur, dedi gedim  bir onu görüm,

---

* *ağacın başına əski dolayıb, bir nöf məşəl düzəldilir və Novruz bayramında onu atırlar*

** *nə olub*

görək bu nə məsələdir! Dedi ki, dostumdur bir dərdləşim! Səhər dan üzündən durub getdi.

– Və o gedəndirmi?!

– Hə, o gedəndir, boy öyüm yıxıldı.

– Orxan, a bala sən İsrafil əmingilə keç, uşaqları da götür Aşotun yanına get, – kolxoz sədrini nəzərdə tuturdu, – Məsələni deyin, səhərə qədər gözləyək, olmasa rayona getmək lazımdır.

Zahid kişi o axşam evə gəlmədi, gecəni onsuz da tikan üstündə oturan ulusoyluların canına vəlvələ düşmüşdü. Səhəri diri gözlü açdı ulusoylular. Evinə gedənlər evində yata bilmədi, Mərdan kişi ilə bərabər Zahid kişinin həyətinə toplaşanlarsa burada yata bilmədi. Dan üzündən hamı yenidən Zahid kişinin evinə toplaşdı, məlum oldu ki, Zahid kişi hələ də gəlməyib. Camaat kənd sovetinin qabağına yığışdı, kolxoz sədiri Aşotun gəlməsini gözlədilər. Sonunda Aşot gəldi, rayona zəng etdilər, belə çıxdı ki, Zahid raykomla bir saat ancaq söhbət edib, raykomun işi varmış. Qərarlaşdırıldı ki, kolxoz sədrinin müşayətində bir neçə maşın rayona getsin.

Zahid kişini yaralı halda rayona gedən yolun üstündə tapdılar, maşını yox idi, oğurlamışdılar. Onu rayon xəstəxanasına apardılar, amma xəstəxana onu azərbaycanlı olduğu üçün qəbul etmədi. Məcbur olub Zahidi kişiyə heç bir tibbi yardım etmədən Ulusoya qaytardılar. Mərdan kişi son maşınla lazımı hökümət orqanlarına yazılı şikayət ərizələri yazdıqdan sonra kəndə qayıtdı.

Zahid kişinin dediklərindən məlum oldu ki, o rayondan qayıdarkən yol milisi onu saxladıb, sənədlərinə baxan milis işçisi onun azərbaycanlı olduğunu kənarda dayanan ermənilərə dedikdən sonra, onlar Zahid kişini döyüb, milis işçisi bir müddət onlara tamaşa etdikdən sonra oturub maşınına gedib. Bundan sonra ermənilər onu soyub, maşınını da götürüb gediblər. Zahid kişinin vəziyyəti pis idi, bütün bədəni döyülməkdən gömgöy idi, sifətini zərbələrdən qorumaq üçün əlini qabağa tutduğundan sol qolu 3 yerdən sınmışdı, başı yarılmışdı, sifətində salamat yer yoxdu, amma bir həkim tapmırdılar ki, ona baxsın. Qolunun sınığını ağac qoyaraq bağladılar, hansı ki, bunu qoyunun ayağı sındıqda edirdilər.

Mərdan kişi, İsrafil kişi, Hikmət kişi və başqaları Zahidin başına yığışmışdı. Hamı Zahid kişinin halına baxır, amma kimsə ürəyinə gələni dilinə gətirib danışmaq istəmirdi. Səhər arvad ərinin balışını düzəldərək dilləndi:

– Ay kişi görürsənmi başımıza gətirdiyini? Niyə oturmurdun oturduğun yerdə?

Zahid kişi günahkarcasına onun üzünə baxdı, astadan pıçıldadı:

– Ay Səhər, burada bizim xalğa daha səhər açılmayacaq!

Bu sözdən hamının üzündə bir vahimə yarandı, bir tək Mərdan kişi eşitdiklərini soyuqqanlılıqla qarşıladı və Zahidin əlindən tutub soruşdu:

– Necəsən? Özünü becə hiss edirsən?

Zahid kişi ağır-ağır başını yırğalayaraq suala cavab vermədən dedi:

– Sən haqlıymışsan Mərdan qağa, mənsə, – o otaqdakıları süzərək, – bizsə sənin sözünü qəribçiliyə salırdıq. Amma erməni sən deyən erməni imiş, haylaşıblar. – Əsəbindən dodağı əsdi, – bizim ermənilər haqqında uydurduğumuz qardaşlıq mifləri tutmadı.

Səhər arvad ərinin dediklərinə qulaq asaraq bir yandan da özü üçün pıçıldayırdı:

– A kişi görürsənmi başımıza gətirdiyini?!

Zahid kişi kinayə ilə gülümsədi, başı ilə arvadını göstərdi:

– Bax biz belə avam millətik! Döyülənəcən mən özüm də bax onlardan idim, bağışla məni Mərdan!

Səhər arvad ərinə çəmkirdi:

– Aha mənimlə nə işin var?! Niyə avam oluruq?! Başımıza iş açan sənsən, avam biz oluruq?!

Zahid kişi arvadının, sonrasa otaqdakıların üzünə baxaraq:

– Döyülən mənəm, döyən ermənidir, amma hamı deyir ki, a kişi bu nə işdir başımıza açdın?! Mən dedim ermənilərə məni döyün?! Ya gedib onlarla dalaşdım?! Biz hələ də gözümüzü açıb məsələnin mahiyyətini görə bilmirik! Biz nə olsa da özümüzünkünə «sus» deyirik, amma susmağın nə mənası var ki? İndiyəcən susduq, nə oldu?! Bir vaxtlar Mərdan danışanda, onu günahlan-

dırmağı, onu susdurmağı qəhramanlıq hesab edirdik! Mərdan «erməni pisdir, bu hökümət bizim düşməndir» dedikdə, onun ağzına vurmağı özümüzə hünər hesab edirdik, Mərdanın əksinə rus-erməni qardaşlığından danışırdıq! Əslində Mərdan danışan ilk gündən onun haqlı olduğunu bilirdim, amma vəzifəm vardı, maşınım vardı, hamının evi-eşiyi vardı, ona görə də hər şeyin yaxşı olacağına inanmaq istəyirdim, bu mənim işimə gəlirdi, hamının işinə gəlirdi. Amma olmadı, budur da erməni qardaşlığı, rus qardaşlığı! Nə oldu sovet qardaşlığına, nə oldu erməni qardaşlığına?! Xəstəxanada mənə göz ucu baxmadan geri göndərdilər! Bəs sovet beynəlmiləlçiliyinə, sovet humanizimінə, sovet qardaşlığına, sovet kollektivçiliyinə nə oldu?! Bizsə Mərdan danışanda bax o sözlərlə onun ağzına vururduq! Amma o sözlər hamısı içiboş qoz kimi idi, – dedi.

Mərdan onun əlini mehribancasına sıxaraq:

– Yaxşı özünü həlak etmə…

Zahid kişi onun sözünü kəsdi:

– Yox Mərdan, mən özümü həlak etmirəm, mən günahlarımı etiraf etmək istəyirəm, istəyirəm hamı sən deyənlərin düz olduğunu, məni kimi son anda başa düşməsin! Biz sənə deyirdik ki, hamı sovet ailəsidir, hamı sovet kollektivçiliyi üçün xidmət edir, amma bu gün xəstəxana mənə xidmət etmədi, niyə?! Sən 1965-ci ildə arvadının ölümündə erməniləri günahlandıranda, mən sənə acıqlanmışdım, hətta çox irəli gedib lağ da etmişdim… – Onun gözü doldu, – məni bağışla Mərdan, gec də olsa!

Hikmət kişi deyəsən səbrini zorla basırmış ki, Zahidin sözünü kəsməsi ilə açıldı:

– Bəsdirin uşaqlıq etdiniz! Bir iki quldura görə bütöv erməni-rus millətini, bu yekəlikdə höküməti günahlandırırsınız! Sovet höküməti qurulan ilk gündən bilirik ki, sovet kollektivçiliyini anlamayan, fərdiyyətçilər, millətçilər var, olub, bu gündə var! Belə əclaflara görə hökümətin, erməninin, rusun nə günahı var?!

Zahid kişi sinəsinin ağrımasına baxmayaraq ucadan bir qəhqəhə çəkdi:

– Bizə təzyiqlər göstərən, bizi buradan qovmaq istəyən, ölumlə hədələyən kimlərdi?!

Hikmət kişi tam əminliklə:

– Quldurlardır?!

– Yəni ermənilərdir? – Zahid kişi soruşdu.

Hikmət onun sözünə düzəliş verərək cavabladı:

– Yəni erməni millətinin adına ləkə gətirən quldurlardır onlar!

– Yaxşı nə olar qoy onlar erməni millətinin adına ləkə gətirən quldurlar olsun! Bəs bizi döyən, təhqir edən, qız-gəlinlərimizə sataşan bu quldurları Yeravandan Moskvayacan yazmışıq, niyə bir tədbir görmürlər?! Mərdan kişi qalaq-qalaq şikayət ərizəsi yazıb, buradakı vəziyyəti bütün rəhbər orqanlara yazaraq ətraflı izah edib. Biz də Mərdanı bəyənmirdik ki, ayə nə edirsən, hökümət küsər…

– Məsələni daha da böyütmək istəmirlər yəqin… – Hikmət kəkəldədi.

Mərdan Zahidin nəsə deyə bilmədiyini görüb əlavə etdi:

– Məslənin daha da acışmasını, yəni böyüməsini istəmirlər?! – Hikmətdən soruşdu.

– Hə, böyüməsini istəmirlər?!

– Məsələni böyüdəcək olan kimlərdi, erməni quldurları deyil?! Nə vaxtdan bu hökümət quldurlara güzəşt edir?! Azərbaycanlıları bir söz üstündə güllələyən hökümət döymü bu?! Bu arada, xarici ölkələrdən minlərlə erməni gəlib bura, necə gəlib, hansı yolla gəliblər, Sovet sərhədlərini bu ermənilər necə keçib?!

– Demək ki, burada Amerikanın təxribatı var. Moskva da səbr edir ki, erməni xalqını narazı salmasın. – Hikmət mızıldandı.

– Erməni xalqınımı narazı salmaq istəmirlər?!

– Hə də erməni xalqının… – Hikmət yenə mızıldandı.

– Bəs başımıza gətirilənlər erməni xalqınını yox, erməni quldurlarının işi idi. Nə oldu?! – Mərdan erməniləri hələ də müdafiə edən Hikmət kişidən soruşdu, – Daha erməni xalqı niyə narazı olur! Demək hamısı bir bezin qırağıdır…

Hikmət söhbətdə müəyyən qələbə qazanma eqoizmi ilə:

– Tutaq ki, sən deyən kimi burada bütün erməni xalqı günahkardı, daha höküməti niyə pisləyirsən?! Sovet hökümətinin nə günahı?!

– Yazdığımız ərizələrə baxmayan, hələ də boş sözlərlə vəd

verən, amma bir tədbir görməyən bu hökümət deyilmi?! Bir hökümətin milisi, ordusu, xəstəxanası və qanunları azərbaycanlıları qorumağa gələndə heç nə eləmir, demək ki, bu hökümət azərbaycanlıları məhv etmək istəyən hökümətdir! Torpaqlarımızı alanda qardaşdıq, Azərbaycandan ordu üçün pul alanda qanunlar hamı üçündür, amma bizi yenidən qırırlar, rus ordusu, onun qanunu bizi qorumağa yaramır?! Vaxtında Mərdan deyəndə ağız əyirdik ona, amma görürsənmi adamın ağzını necə əyirlər! – Zahid kişi özünün döyülməsini nəzərdə tuturdu, – Və məsələ bundadır ki, mən nə ilk, nə də ki sonuncuyam, Mərdan düz deyir! Birləşmək lazımdır! Amma necə?! Bizi hər cəhətdən parçalayıblar! Mərdan demiş, Azərbaycan Respublikasının başına elələrini qoyublar ki, Moskvanın kuklasıdır. Xainlər başımızda, millət dərdi çəkənlərsə torpaq altında, Heydər Əliyevsə işdən çıxarılıb, bəs bizim halımız nə olcaq?! – Zahid kişi otaqdakılara baxaraq soruşdu.

Mərdan astadan pıçıldadı:

– Bizə böyük fiqurlar lazımdır!

Hikmət narazı halda dedi:

– Bizim Partiyamız və üzvləri böyük fıqurlardır da…

Mərdan onun sözlərinə pisixi reaksiya vermədən təmkinlə dedi:

– Mən şişirdilmiş balonlardan, içinə hava doldurulmuş əslindəsə içiboş fiqurlardan danışmıram! Mən milli təffəkkürə, düşünmə bacarığına malik, həqiqi mənada vətənini-millətini hər şeydən üstün tutan fiqurlardan, şəxsiyyətlərdən danşıram!Ümidimiz bir Heydər Əliyev idi, o Moskvada göz həbsindədir. Dünyanın işinə baxın, biz təlxəklik edən Vəzirovdan mədət umuruq!

– Nə demək istəyirsən Partiya rəhbərlərimiz içi boş şarlardımı?! Heydər Əliyevi kənarlaşdırıblarsa, demək hökümətin bir bildiyi var! – Hikmət kişi qeyzlə dedi.

– Düz deyirsən, Moskvanın bir bildiyi var ki, Heydər Əliyevi kənarlaşdırıb, indi biz yetimik! – Mərdan ofuldayaraq dedi.

– Pay atonnan, bir Heydər Əliyevlə bütün iş düzələcəkdi elə?! – Hikmət kişi əlini-əlinə vuraraq güldü.

– Moskva onu 1987-ci ildən hakimiyyətdən uzaqlaşdırıb.

Bax Heydər Əliyevi kənarlaşdırandan sonra nələr baş verib?! Ermənistan od tutub yanır!

– Təkcə bizim kənddə neçə evi erməni saqqallıları yağmalayıb?! – ulusoylulardan biri Orxanın dediklərini təsdiqlədi.

– Doğurdan da Heydər Əliyevi kənarlaşdırandan sonra başlayıb hər şey... – hamı bir ağızdan dedi.

– Hökümət orqanları bizim şikayətlərimizə nə cavab verdi?! Heç nə…Çünki başsız qaldıq, yiyəsiz qaldıq! – qadınlar dizinə vuraraq qıy vurdu.

Zahid kişi peşmançılıqla etiraf etdi:

– «Səbrli olun, hər şey düzələcək, siz erməni quldurları ilə münaqişəyə girməyin!» – deyirlər.

Orxan əlindəki qəzeti ortaya ataraq dedi:

– Biz ümid edirik bəlkə bizim halımızdan öz yazıçılarımız-şairlərimiz yaza. Siz bu Qabilin yazısına baxın, bunu yazmaqla o nə demək istəyir?

– Nə yazıb ki? – ulusoylular bir ağızdan soruşdu.

Orxan qazeti əlinə alaraq oxudu:

– Dosta da, düşmən də sülh şəraitində yaşaya bilər. Qovulmuşlar öz yurd-yuvasına qayıda bilməsələr də və bunu heç kim heç kəsə bağışlaya bilməsədə sülhsüz, sülhsüz, yenə də sülhsüz keçinmək olmayacaqdı! – O, bu fikrini 1990-cı ilə İravanda bir nəfərdə azərbaycanlı qalmayanda da təkrarlayacaqdı.

– Hə, bu yerdə deyirlər, özünə hamam suyu ilə dost tutur. Burda yetim-yesir qalmışıq, bəziləridə bzim üstümüzə hümanizim oyunu oynayır. – Səhər ərinə baxaraq dedi.

Hikmət əlini yelləyərək:

– İndi nə edək deyirsiniz? Deyirsiniz, düşmənmi olaq, barışmaq lazımdır da!

Zahid əsəbi halda bağırdı:

– Ay kalçabaş mən erməni ilə dalaşmaqmı istəyirdim ki, məni döyüblər?! Azərbaycanın bu Ermənistana nə pisliyi dəyib ki?! Ver ki, verəsən olub da işimiz, daha nə istəyirlər?! Biz nağarmışıq ki, bir barışaq da?!

Hikmət əlini sinəsinə qoyaraq soruşdu:

– Sən mənə kalçabaşmı dedin?!

– Bəs nə deyim, ha?! – Zahid kişi əsəbi halda soruşdu, – Guya sən çox beynəlmiləlsən, eləmi?! Mən də Mərdanla danışanda elə edirdim, bəs nə oldu?! Bax halıma! Erməni öz düşmənliyindədir, Moskva niyəsə bu cinayətə göz yummaqdadır, biz avamlarsa hələ də üç cəbhədə durmuşuq! Səni kimilər, Mərdan kimilər və hələ də heç nə anlamayıb ortalıqda qalan avamlar! Niyə etiraf etmirik ki, bizim içimizdə ən düşüncəlimiz, ən vətənpərvərimiz Mərdandır! Biz onu ucaltsaq, onun arxasında dursaq bizim kəndin xeyrinə olmazmı?! – Səsini ucaltdı, – Yox amma, canımızın canı çıxar! Özümüz özümüzün ayağından çəkək gərək! Ay camaat, ay Hikmət, Mərdanın iyirmi ilə bundan əvvəl dediyini biz hələ də görmürük, daha ayılıb görün, Mərdandan bərk yapışın!

Hikmət bağırdı:

– Nə olur olsun sülh lazımdır!

– Ayə, beynəlmiləlçi sovet vətəndaşı, – Mərdan Hikmətə dedi, – sənin beynəlmiləlçi olan Leninin belə deyib ki, sülh müharibələr arasındakı fasilədir, bildin?!

– Biz sivilzasiya dövründə yaşayırıq, sənsə şiddətdən danışırsan? – Hikmət kişi başını yelləyərək dedi.

– Mən danışmıram ee, bizə edilən şiddətdir! Qaldı sivilzasiya dövrünə, hər dövr özünü inkişaf etmiş sivilzasiya hesab edib, amma köhnəlib. Qaldı susmağa, yenə Lenin belə deyib ki, inqilabda ən yaxşı müdafiə hücumdur. Biz susmaqla düşmənə daha çox qol-qanad veririk! – Mərdanda qəsdən onu kimi başını bulayaraq dedi.

Hikmət əsəbi halda ayağa qalxdı:

– Mən inana bilmirəm ki, burada sizi kimi canilərlə söhbət edirəm. – çönüb getdi.

Mərdan onun arxasınca bağırdı:

– Zahid, döyüldüyünə görəmi, erməni milisi və adamları onu döydüyünə görəmi cinayətkarıq?!

Araya bir xeyli sükut çökdü, hər kəsin gözündə bir məhçul vardı.

– Yəni hökümət bizi aldadır? Belə çıxır ki, ermənilər həqiqi mənada bizim düşmənimizdir? Bu üç-dört quldur məsələsi döymü?! – söhbətə qulaq asan otaqdakı gənclərdən biri soruşdu.

Mərdan başını əlləri arasına alıb dərindən nəfəs alaraq oful-dadı, Zahid əli ilə Mərdana toxunaraq dedi:

– Can qardaş, səni başa düşürəm, indi səni başa düşürəm. Sənin gördüyünü kimsə görmədikdə, dediyini anlamadıqda çox çətn olurmuş! Mən bir Hikmət söhbətinə əsəbləşdim, sən neçə illərdi necə dözmüsən? Sən dağsanmış, daşsanmış qardaş! Baxın, – o üzünü otaqdakılara tutdu, – mən rayona getdikdə bir məqsədim vardı, neçə illərdi dost bildiyim Xaçaturyanla söhbət edim. Dedim o raykomdur, bu məsələnin nə vaxt düzələcəyini bizdən daha yaxşı bilər, bir də istəyirdim ki, dələduzluq edən erməniləri erməni dostuma şikayət edim, bir növ dərdləşərmək istədim… – köks ötürdü, yadına saldığı hadisə onu elə əsəbləşdirmişdi ki, üz-gözü əsirdiə. – Dünənəcən mənə kirvə deyən, marçamurçla öpən elə bil o erməni dığası döymüş, çox soyuq qarşıladı məni. Atalarımız yaxşı deyib, «düşmənin dostluğu fürsət düşənəcənimiş».

…Xaçaturyanın kabinetinə girən Zahid əvvəlki kimi gedib onunla qucaqlaşmaq, öpüşüb-görüşmək istəyirdi, amma Xaçaturyanın heç yerindən də durmadığını görub, salam verib stul çəkərək oturmağa məcbur oldu. Xaçaturyan kinayəli-kinayəli Zahidi süzüb dilləndi:

– Salam yoldaş Məmmədov, necəsən? – o ilk dəfə idi Zahidə «yoldaş» deyirdi və bunu xüsusi vurğu ilə dedi.

Zahid tutuldu, yalnız:

– Sağ ol. – deyə bildi.

– Nə istəyirsiniz bizdən? – Xaçaturyan həyasızcasına soruşdu.

– Kim nə istəyir? – Zahid həqiqi mənada heç nə anlamıdı, çünki Xaçaturyanın danışığı elə dəyişmişdi ki, Zahid onun nə etdiyini və ya özünün nə edəcəyini bilmirdi.

– Sizinkiləri deyirəm də, türklər bizim torpaqları niyə vermir?! – o qarnını sığallayaraq güldü.

– Türklərmi?! Bizikmi türk?! – Zahid belə rəftar qarşısında tutulmuşdu, dost sandığının belə rəftarı onu pərt etmişdi.

– Özünü tülkülüyə qoyma Zahid, nə demək istədiyimi yaxşı bilirsən!

– Sən nə ikiüzlü adammışsan Xaçaturyan?! Dünənəcən kirvə deyirdin, indi tülkümü oldum?

– Daha bəsdir də səbr etdiyimiz, nə qədər sizi kürəyimizdə daşıyacayıq?! Sizdən Qarabağı istədik, sizsə özünüzü naza qoydunuz! Bəs nə etməliydik?! – hırıldadı.

– Başa düşmədim? – Zahid əsəbi halda soruşdu, – Qarabağı istəyəndə sizə verib üstünə də «afərinmi» deməliydik?!

– İnan o torpaqlar bizim olacaq, üstəlik geci-tezi bizə «afərin də» deyəcəksiniz, bunu sizə, siz türklərə dedizdirəcəklər!

Zahidin əsəbdən əlləri əsdi. Xaçaturyanın belə həyasızlığı, ikiüzlülüyü və ən əsası onun anidən belə dəyişməsi, daha doğrusu inamının aldadılması, sirdaş bilib gəldiyi Xaçaturyanın bu hərəkətləri onu dəli etmişdi, içindəki öfkə qəlbini didib-parçalayırdı və bu əsəblə də əlini stolun üstünə vuraraq bağırdı:

– Bizi, Azərbaycanı nə bilibsiniz ki, siz belə qudurmusunuz?! Biz yersiz sahibsizik ki?! Yoxaaa, sizə «afərin» deyəcəkmişik! – Zahid əsəbi halda qımışdı.

İsteza ilə Zahidin üzünə baxan Xaçaturyan qəh-qəhə çəkdi, qarnını sığallaya-sığallaya:

– Sizin sahibiniz nə vaxt olub ki? Ara, – o ilk dəfə idi Zahidə «ara» ilə xitab edirdi, – İravanı bizə verəndə, Göyçəni atanıza od vuraraq sizdən alanda, Zəngilanda Novruzunuzu burnunuzdan gətirərək sizi qıranda sahibiniz vardımı ki, indi də ola?! – Ucadan qəh-qəhə çəkdi. – Ara səninləyəm, nə vaxt olub sahibiniz?!

– Biz keçmişi unutudaraq qardaş olmaq istəyirdik! – Zahid hümanist sözlərlə onun vicdanını sızlatmaq istədi.

– Ha, ha ha, – Xaçaturyan ucadan güldü, – ara sizi yenidən qıracağıq, qalanlarınız da sizi kimi hər şeyi unudacaq, "oldu, bitdi" deyəcəklər və Qarabağ da bizim olacaq, vaxtı gələndə Naxçıvan, Gəncə, Bakı da bizim olacaq!

Zahid əsəbindən əsirdi:

– Nə murdarmışsınız?

– Biz yox, sizsiniz murdar, əclaf! Ara bizə qardaşlıqdan danışırsınız, amma qardaş düşməni özünüzsünüz!

– Necə-necə? – Zahid kişi qətiyyətlə soruşdu.

– Öldürdüyüüz qardaşlarınızın qədirini bilmirsiniz, bir də qardaşlıq dərsi keçmək həvəsinə düşürsünüz! Kimdir murdar,

hə?! Sizi qırıb qovacayıq Yeravandan, sonra, – o yenidən güldü, – sizin uşaqlarınız da sizi kimi əcilaf olacaq, sizi, sizin qanını unudacaq, siz keçmişdə atalarınıza necə etmişdinizsə!

Zahidin qətiyyətli kini öləzidi, xəcalət təri basdı onu, amma bilmədi kimin üçündü bu xəcalət təri, özü üçün, Xaçaturyan üçün, unudulmuş qan üçün, korluğu üçün, ya… Zahid keyimişdi, onun humanizim, qardaşlıq adlandırdığı hislərin erməncə tərcüməsi onu ağladırdı, hə o ağlayırdı:

– Yox ola bilməz!

– Niyə, siz atanızı unudanda niyə olurdu?!

Zahid qeyri ixtiyarı cavab verdi:

– Gələcək üçün, sülh içində beynəlmiləl hislərlə yaşamaq üçün!

– Bax övladlarınız da sizi bu adla unudacaq, ha ha haaaa… – o qəşş edərək güldü, gülməkdən gözlərindən yaş gəlirdi.

– Sizə lənət olsun! – Zahid kişi bağırdı.

– Yox bizə «afərin» deyin! Axı niyi gecikdirirsiniz, onsuz da bizə «afərin» deyəcəksiniz, Qarabağı verəcəksiniz, üstünə də «afərin» deyəcəksiniz, Şaumyana, Kirova, Mikoyana dediyniz kimi, onlara heykəllər qoyduğunuz kimi.

– Yoxxxx… – Zahid kişi zarıdı.

– Hə deyəcəklər, siz Şaumyana, Kirova «afərin» dediyiniz kimi, onların heykəlləri qarşısında uşaqlarınıza and içdirdiyiniz kimi, gələcək nəsilləriniz də bizə «afərin» deyəcək! Onlar da «qardaş olub azərbaycanla hayestan» mahnısı oxuyacaq, siz axmaqlar kimi! Bütün sistemlər bunu sizə etdirəcək! Siz var olduqca, bütün sistemlər bizim arxamızdadır…

– Yoxxx… Olmazzz…

– Niyə olmur! Erməniləri hay etmədikmi?! İravanı Yeravan etmədikmi?! Korlar, bədbəxtlərrr… – Ucadan güldü, – Siz nə vaxt öz yaxşınızın qədrini bilmisiz ki?! Heydər Əliyevi Moskvada göz həbsində saxlayırlar, – qəşş edərək güldü, -birinizin tükü qımıldadı?! Yox, siz ölümə məhküm xalqsız! Ha-ha-haaaa… – qəşş edərək gülürdü.

…Zahid kişi danışdığı əhvalatını kəsib dedi:

– Mən erməni qardaşlığını, bizim beynəlmiləlçilik dediyimiz

şeyə onların nə dediyini beləcə gördüm. Sözün düzü onun sözləri mənim yeddi qatımdan keçdi.

– Hansı? – cavanlardan biri soruşdu.

– «Ara, bizə qardaşlıqdan danışırsınız, amma özünüzün qədirinizi bilmirsiniz» demişdi mənə, düz deyir, on illərlədi bizi qıranlara qardaş deyirik, amma qırılan qardaşlarımızı yada da salmamışıq, indisə o söz məni yandırır! Bir də «bütün sistemlər arxamızdadır» dedikdə nə demək istəyirdi anlamıram. Sual verdim, kinayə ilə güldü və dedi ki, get, birdə mənim qabağıma çıxma. «Bütün sistemlər» dedikdə nə demək istəyirdi?!

Mərdan astadan pıçıldadı:

– Təşkilatları, dövlətləri, xristian dünyasını nəzərdə tutur!

Zahid həyacanla soruşdu:

– Axı bizdən nə istəyirlər? Bizim günahımız nədir ki?!

– Müsəlman olmağımız, türk olmağımız…

# ULUSOYDA SON NOVRUZ

*Xalqımızın inanclarına görə Novruzda yeni ilə necə girərsənsə bütün ili o cürdə başa vurarsan. Bir də Novruzun ən gözəl və maraqlı atributlarından biridə «qapı pusmaqdır», bu inança görə pusduğun qapıda nə eşitsən o il elə keçir. Tariximizə baxıb gördüm ki, XX əsrin o başından bu yana bütün Novruzlarımız ya axıdılan, ya susdurulan qanla keçib, elə isə biz daha neçə əsri belə gecirəcəyik görəsən? Neçə Novruzlarımızda xalqımın fəryadı göylərə ucalıb, qulaq falına gələnlər bir düşünün…*

*Bayquş xarabalıq sevər –*
***Azərbaycan atalar sözü.***

*Ermənilər nə sevər? –*
***ataların bizə sualı.***

Kənddə vəziyyət hər gün getdikcə daha da çətinləşirdi. Ermənilər hər gün dünənə görə daha da azğınlaşırdı. Hər yandan, bütün Yeravanda azərbaycanlılar döyüldü, evləri soyuldu, maşını əlindən alındı, qıza-gəlinə sataşdı xəbərləri gəlirdi. Ermənistan hökümət orqanları şikayətlərə baxmırdı. Moskva boş vədlər verirdi, Azərbaycan xalqını səbirli olmağa səsləyirdi.

Bu hadisələr Mahmudu da olduqca narahat edirdi. Çünki bir vaxtlar o da komminizim idyalaogiyası ilə kor olmuş, sovet qardaşlığı, sovet ailəsi tilsiminə inanaraq evlənmişdi. Komminizim ideologiyasının onun evlənməsinə nə dəxlimi var?! Çox dəxli var! Sovet dönəmində azərbaycanlılar üçün yazılmamış bir qanun var idi, komminist idyalogiyasına nə qədər çox sadiq olduğunu göstərmək rus-erməni qızı ilə evlənməkdən keçirdi, axı biz guya ki sovet ailəsi idik və sovet xalqı olacaqdıq. Buna inanan «azərbaycanlı sovet patriotlarısa» zamanı qabaqlayaraq "sovetləşməni" sürətləndirmək istəyirdi. Mahmud da kommunist ideolagiyasına nə qədər sadiq olmasını Aykanuşla evlənərək isbatlamışdı. Bundan sonra onu partiyaya götürmüşdülər, hətta rayonda yaxşı vəzifə də vermişdilər. Bəli, o günlər üçün Mahmud əsl qələbə qa-

zanmışdı, evi-eşiyi, maşını, vəzifəsi vardı, çünki o bir erməni ilə evlənmişdi. Nə olsun ki, evində Azərbaycan dilində danışılmırdı? Əvəzinə çox şey vermişdilər ona…

Üçüncü çərşənbə idi. Bütün çətinliklərə baxmayaraq ulusoylular bayram tonqallarını qalamışdı. Mahmud da çölə çıxdı, bayram tonqalını qaladı. Əvvəlcə tonqalın üstündən atlanaraq «ağırlığım-uğurluğum tonqala» demək istədi, amma hiss etdi ki, ayağında zərrəcən güc yoxdur, yerə çökdü, yanan tonqala baxaraq xəyallara daldı. Bilmirdi yanan bayram tonqalının istisi idi onu yandıran, ya geri dönüşü olmayan peşmançılıqdı içini yandırıb qovuran… Əvvəllər Aykanuş onunla xoş davranırdı, deyib-gülürdülər. Bir vaxtlar Aykanuş bütün ulusoylularla bir yerdə Novruz şirniyatı bişirdi, bayram tonqalından atlanırdı. Sonra nəsə oldu, iyirmi illik arvadı birdən-birə dəyişdi. Mahmudun Novuruz tonqalı qalayacağını bildikdə onu ələ salaraq dedi ki, pah atonnan, türkün bir Novruzu çatışmırdı.

– Bəs mənim beynəlmiləlçi arvadıma nə oldu? – Mahmud ocağa baxaraq düşünürdü. – Biz axı iyirmi ildi bir yastığa baş qoyuruq, yəni o iyirmi ildi mənlə oyun oynayıb?! Artıq neçə aydı yatağımızı belə ayrı salır, axı niyə? Əslində niyəsidə məlumdu! İyirmi ildi çanımla-başımla erməni xalqına işləmişəm, öz xalqımdan kəsib onlara vermişəm, demişəm beynəlmiləl olmaq lazımdır! Neçə oğlanı mən «sovet ailəsiyəm» deyib güdaza vermişəm, çünki o azərbaycanlıların sözlərində – «İravan, Təbriz, Dərbənd, Göycə» vardı. İndisə bu ermənilər Qarabağı istəyir, indi nə edim?! Ermənilərin etdikləri millətçilik belə deyil, bu həyasızlıqdır, bu acgözlükdür! Məni aldadıblar, dünya malına aldadıb özlərinə bir «peşka» ediblər, məni kimi minlərini aldadıblar! Amma artıq onlara lazım deyiləm, heç deyəsən Aykanuşa da bir ər kimi lazım deyiləm, axı mən türkəm. Bəli, nə qədər “sovet vətəndaşıyam” desəm də, məlum oldu ki, mən onlar üçün bir türkəm, onlarsa antitürklərdir, bu qədər sadə. İllərcə öz maaşımdan öz əlimlə erməni təşkilatına pul ödəmişəm, inandırıblar ki, xaricdəki erməniləri sovetləşdirmək üçündür bu. Sən demə bu hadisələr üçünmüş! İndisə gecdir! Amma mən Aykanuşa necə bağlanmış-

dım… – O özü-özünə xəcalət çəkərək etiraf edirdi. – İndisə Novruz tonqalının başında durmağı belə özünə ar bilir! Bəs oğlum niyə belə dəyişib, kim dəyişib onu?! Axı onun atası mənəm, osa məni belə türk olduğum üçün öldürmək istəyir! Dərdimi kimsəyə deyə də bilmirəm! – Zərblə vurulan darvaza qapısının səsinə xəyaldan ayıldı.

Gələn oğlu Məlikdi, həyətlərində yanan bayram tonqalını görüb atasının üstünə bağırdı:

– Bu nədir?

Mahmud pərt halda dilləndi:

– Bala bu gün çərşəmbədir, bayram axşamıdır!

– Nə bayramı, bizim elə bayramımız yoxdur?!

Mahmud göz yaşlarını saxlaya bilmədi:

– Bala nə tez unutmusan? Körpə ikən necə sevinərdin, hava qaralmamışdan özün gəlib deyərdin ki, tonqalı yandırsana! İndi nə olub axı?!

– Kəs səsini, mən türkəmmi ki, Novruzu da bayram edəm?!

– Bala mən sənin atanam… – Niyəsə «mən türkəm» deməyə cəsarəti çatmadı, amma düşündü ki, – İyirmi il əvvəl etdiyim səhvlə üzləşirəm.

– Canın cəhənnəmə, öl-gəbər! Bizim ailəyə utancsan sən! – Məlik bağırdı.

Söz Mahmudun beynində əks-səda verdi, başını dizləri arasına alıb ağladı, Məliksə ona məhəl qoymadan bayram tonqalını torpaqlayaraq söndürdü.

Son günlərdə Ulusoya tez-tez, yad maşınlarla erməni ekstremistləri gəlirdi, onlar camaatı təhqir edir, söyür, hətta döyürdü. Kənd isə qərara gəlmişdi ki, mümkün qədər səbirli olsunlar, çünki münaqişələri alovlandırmaq lazım deyil! Yazılan şikayətlərsə hələ də cavabsız qalırdı.

Kənddəki ermənilərin azərbaycanlılara qarşı münasibəti tamamilə dəyişmişdi, olduqca soyuq rəftar edir, aqressiv hərəklər edərək münaqişə yaratmağa çalışırdılar. Yalnız yaşlı ermənilər nisbətən azərbaycanlılarla üz-üzə gəlməməyə çalışırdı…

Orxan bir neçə azərbaycanlı tay-tuşu ilə küçədə dayanıb söhbət edirdilər. Məlik kənddəki erməni cavanları ilə küçənin

yuxarı başından aşağıya doğru gəlirdi. Məlik Orxangilə çatanda salamsız-kəlamsız onlardan siqaret çəkəninə söz atdı:

– Oqtay havanı çirkləndirmə! – qəribə əda ilə güldü.

– Dədəninmi havasıdır? – Oqtay da kinayə ilə qısaca cavab verdi.

– Erməni havasıdır, buralar bizimdir, başa düşdün?! – ermənilərdən biri Məlikə macal vermədən Oqtaya bozararaq cavab verdi.

– Demək buralar sizindir hə? – Oqtay qımışdı. – Məncə siz bura sonradan gəlmisiniz, məsələn bu kənddə əvvəllər erməni-zad olmayıb!

– Az qalıb! – Məlik onların üstünə bozardı, – Az qalıb, dayanın!

Oqtay bir istədi onları elə buradaca şil-küt etsin, amma ağsaqqalların sözü yadına düşdü: «Bala onlarla münaqişəyə girməyin! Qəsdən elə edirlər ki, sonra dava səbəbkarı kimi bizi göstərsinlər! Səbr edin!». Oqtay dodaqlarını gəmirərək Orxangilə dedi:

– Gedək, buranın havası çirkləndi!

Novruz bayramına bir gün qalmışdı. Artıq neçə gündü kənd mağazasında ulusoylulara mal satılmırdı, azərbaycanlı müəllimləri və şagirdləri məktəbdən qovulmuşdu. Kənd camaatı başına bir çarə qılmaq üçün Mərdan kişinin evinə toplaşmışdı. Zahid kişi söhbəti açdı:

– Nə edək deyirsiniz? Artıq kənd yaşanılası haldan çıxıb, bir cəhənnəmə dönüb! Belə nə qədər gedəcək?! Artıq burada yalnızıq, kimsəsiz!

Mərdan qorxmuş camaata baxıb:

– Baxın, mənim təklifim belədir ki, Novruzdan sonra qadınları-uşaqları kənddən çıxaraq! Həm bizim əl-qolumuz açılar, həm onlara bir şey olacağı təhlükəsindən uzaq olarıq!

– Belə qorxuludur ki?! Yəni bundan da betəri ola bilər? – ulusoylulardan biri soruşdu.

– Baxın, ermənilər belə edir ki, biz buraları onlara verib gedək, bu səbəbdən də getdikcə azğınlaşacaqlar! Başa düşürsünüz?! – Mərdan sınayıcı nəzərlərlə camaatı süzdü. – Arvad-uşağı Nov-

ruzdan sonra çıxaraq və kişilərsə kəndin müdafiəsi ilə məşğul olsun. İşin nə yerdə olduğu, ermənilərin əsl üzü tezliklə açılacaq, onda yəqin bütün Azərbaycan ayağa qalxacaq, bizsə o vaxtacan torpaqlarımızı qorumalıyıq! Axı ermənilər sırf azərbaycanlılar yaşayan kəndlərin işığını kəsib, belə nə vaxta qədər gedəsidir?! Əlbət bizimkilər də ayağa qalxacaq! O vaxtacan torpaqlarımızı qorumaq lazımdır!

– Nəylə qoruyaq?! Onlar silahlı, bizsə silahsız! – yenə kimsə yerindən dilləndi.

– Baxın, sizi başa düşürəm, özünüzü yiyəsiz-arxasız hesab edirsiniz, amma yadınızda saxlayın ki, Babəkin, Koroğlunun fərqi də məhz belə hallarda kimsənin köməyini gözləmədən, qorxmadan düşmənə qarşı vuruşması olub və xalq buna görə onları unutmayıb! İndi iki yol var, ya qorxaraq qaçaq, ya Koroğlu-Babək babamız kimi erməni dığaları ilə mübarizə aparaq! Başa düşün ki, bu torpaqlardan getsək bir daha buraları görməyəcəyik! Bizim ən böyük savaşımız elə bu torpaqlarda qalmağımızdır! Azərbaycan ayağa qalxanacan, bizim səsimizə səs verənəcən! – Mərdan hamını süzüb, – Gəlin səsə qoyaq, kim qalır?

Hamı arvad-uşağın kəndən çıxarılması şərti ilə kəndə qalmağa səs verdi. Mərdan əlavə etdi:

– Amma gedən-analar bacılarda getdiyi yerdə vuruşmalıdır!

– Necə?! – hamı bir ağızdan soruşdu.

– Getdikləri yerdə hamıya buradakı vəziyyəti danışsın, kim əlindən nə gəlir bizə kömək etsin! Ən əsası yalançı mətbuatın əvəzinə qoy onlar burada nə olub-keçdiyini, ermənilərin əsl üzlərini onlara anlatsın! Yatanlar oyanandasa vay düşmənin halına, bircə oyanaq!

– Bəs sabah Novruz tonqalları qalayırıqmı?! – Zahid kişi soruşdu.

– Hə qalayaq, qoy görsünlər ki, ölməmişik! Ümid edək ki, bu bizim son Novruzumuz olmasın!

* * *

Kəndə gələn Rayon Komminist Partiyasının rəhbərlərinin,

prokurorluq işçilərinin, komendantın ulusoylulları inandırmasından, «səbirli – təkminli olun, tezliklə hər şey düzələcək» deməsindən xeyli vaxt keçmişdi, artıq hökümət orqanlarından kimsə gəlmirdi də. Hərbi strukturlara, hökümət orqanlarına vurulan teleqramlara artıq boş vədlər verən cavablar belə gəlmirdi. Əvəzindəsə kənddə tez-tez erməni ekstemitsləri görünürdü, onlar camaatı qorxutmağa çalışır, kənddən öz xoşları ilə çıxıb getmələrini tələb edirdilər. Ermənilərlə qaçılmaz olan münaqişənin gecikməsisə ulusoyluların altdan alaraq susmasının nəticəsiydi.

Kolxoz sədri camaatı danışıq üçün kənd sovetinin qabağına çağırmışdı. Yanında raykomluqdan və prokrorluqdan da bəzi adamlar vardı. Təzə gələn kolxoz sədri Mirzoyan rahat bir səslə dedi:

– Baxın ay camaat, özünüz görürsünüz ki, biz əlimizdən gələni etdik ki, sizi qoruyaq! Amma daha bu mümkün deyil! Bizım aldığımız xəbərə görə saqqallılar kəndə hücum edəcək! İmkan varkən, şey-şüydən nə yığa bilirsinizsə yığın, öz xoşunuzla çıxıb gedin!

Mərdan onun oynadığı «yaxşı-pis» oyununu yaxşı anlayırdı və bu səbəblə də:

– Bax yoldaş Mirzoyan, get deyirsən...

Mirzoyan Mərdanın sözünü kəsərək dedi:

– Sizin yaxşılığınız üçün deyirəm. – O məzəli şəkildə güldü, deyəsən dediyinə özünün də gülməyi tutmuşdu və gülməyini saxlaya bilməmişdi.

– Tutaq ki, səninlə razıyıq, biz də bezmişik, getmək istəyirik, necə gedək?!

– Yolla… – Mirzoyan dişlərini ağartdı.

– Bütün yollar siz deyən saqqalılar tərəfindən tutulmayıbmı?! Necə gedək?!

– Daha onu mən bilmirəm, bizdən deməkdi, biz borcumuzu yerinə yetirdik!

– Düz deyirsən, siz borcunuzu yerinə yetirib bunu dediniz ki, əgər hər şey siz planlıyan kimi alınmayanda, iş tərs gətirsə, bu hərəkətinizlə özünüzü sığortalayasınız!

– Bizim vicdanımıza şübhənizmi var?! – o həyasızcasına soruşdu.

– Yox bizim sizdəki vicdana artıq heç bir şübhəmiz yoxdur! – Mərdan rişxəndlə dedi.

– Bizim əlimizdən başqa şey gəlmir. – Prokrorluq işçilərindən biri dedi.

– Bəs komendant haradadır? Əgər siz bizim təhlükəsizliyimizi istəsəniz, ən azından onu və əsgərləri bura gətirərdiniz! Amma əslində ordu belə qıraqda durmaqdan başqa bir şeylə məşğul olmur! Artıq neçə həftədir buranı gülləyə tuturlar, amma komendant bir dəfə də olsun gəlməyib. – Zahid əlavə etdi.

– Ordu bizə tabe deyil və biz onların hərəkətinə cavabdeh deyilik!

Mərdan kinayə ilə dedi:

– Siz heç öz ermənilərinizə də cavabdeh deyilsiniz!

Mirzoyan artıq rol oynaya bilmədi:

– Mən sözümü dedim, sonra deməyin bizi xəbardar etmədiz! Vaxt varkən gedin… – qəribə tərzdə qımışdı.

* * *

Son olanlardan sonra artıq hər şey bəlli idi. Məzlum hala salınmış xalqı yenidən, sonu bəlli olmayan yola sürükləyəcəkdilər. Mərdan kişi dəftərə son cümləni də yazıb bu dəftəri də digər dəftərlər olan kiçik çantaya qoydu və öz-özünə dedi:

– Mənə də, soyumada, Ulusoyadan da son qalan sən olacan… – o bərk-bərk çantanı sıxdı. Gözündən bir damla yaş süzüldü. – Bu son Novruzumuzdur deyəsən… – o acı olsa da etiraf etdi.

Nazan uzaqdan gələn güllə səsini eşidib ağladı, anasının qucağına girib pıçıldadı:

– Ana, emənilər xortdan… Xortdan ermənilər… – körpənin gözlərində qorxu vardı.

Mərdan kişi qorxudan anasının qucağında tir-tir əsən nəvəsinə baxdı, kədrli-kədərli düşündü:

– Səni qədər ola bilmədik nəvə bala, sən bu yaşında erməninin xortdan olduğunu qandın, amma biz bunu neçə ildə qana

bilmədik! Qanan da bu sözü səni kimi dilimizə gətirə bilmədik. Amma nə qədər asanmış, «ermənilər xortdandır, ermənilər əclafdır, ermənilər türkün düşmənidir, onun havadarları bizim, türkün-müsəlmanın can düşmənidir, demək!». Bunu etiraf etməyə nə qədər gec qalmışıq!

– Bava… – Nazan Mərdana səsləndi.

– Can… – səsi qırıldı.

– Mən qorxuyam…

Kəndin üstündə fişəng parladı, kəndin üstündəki zülmət qırmızı rəngə boyandı. Kəndin yaxınlığında güllə atırdılar. Güllə səsləri getdikcə yaxınlıqdan eşidilirdi. Erməni saqqallılarından ibarət maşın karvanı havaya güllələr ataraq kəndə doluşdu. Raykom katibi Xaçaturyanın nəzarətində erməni milisləri, kəndin erməni əhalisinin köməkliyi ilə erməni saqqallıları azərbaycanlıları evlərindən küçəyə çıxarıb dəstə-dəstə kənd sovetinin qabağına yığırdı.

Erməni saqqallısı təpiklə qapını açaraq Mərdan kişinin həyətinə girdi, arxasıyla bir milis işçisi və kolxoz sədiri Mirzoyan. Milis işçisi istеza ilə bağırdı:

– Beş dəqiqəniz var, hamınız küçəyə çıxın, buradan getməlisiniz, biz sizin təhlükəsizliyiniz üçün cavbdeh deyilik…

Erməni saqqallısının səsi onun sözünü yarımçıq qoydu:

– Tez nəyiniz var götürün çıxın, kənddən gedirsiniz! – o avtomatını havaya qaldırıb bir-neçə əl atdı.

Mərdan kişi üzünü Orxana çevirib astaca pıçıldadı:

– Boxçaya sıxası nəyiniz var götürün, tez… – masanın üstündə olan kiçik dəftər çantasını kürək tərəfdən kəmərinin altına qoydu.

Mərdanın yanında dayanan erməni saqqalısı tərs-tərs ona baxdı, anidən dişlərini qıcayaraq Mərdanın süysünün arxasına zərblə vurdu:

– Niyə durursan, tez küçəyə? – Mərdan kişini qolundan dartaraq küçəyə atdı.

Mərdan kişi səndələyərək üzü üstə yerə sərildi. Qonşu gəlini Tünzalə əyilib Mərdan kişini qaldırdı, nəsə demək istədi, amma

Mərdan kişinin gözündəki kədərlə qəlbindəki kədər deyəsən artıq kef-əhval tutmuşdu, artıq sözə ehtiyac yoxdu. Mərdan kişi başını qaldırıb küçədəki qonşularına baxmaq istədi, amma niyəsə başını dik tutmağa utandı. Gözünü hərləyərək küçədəki yüzlərlə ayağa baxdı, bütün qonşuları küçədə idi, kiminin əlində çamadan, kiminən əlində bir bağlama, kiminin belində balası şələlənmişdi. Mərdan kişinin gözü qapılarının üstündəki tabaşirlə çəkilmiş kerestə sataşdı, qonşularının qapılarınada baxdı, bütün azərbaycanlıların qapısının üstündə tabaşirlə krest işarəsi çəkilmişdi, təkçə Mahmudun qapısında bu işarə yoxdu, çünki onun arvadı erməni idi.

Bir erməni saqqallısı qaçaraq Mərdana yaxınlaşdı, Mərdan bu dəfə başını qaldırıb gözlərini saqqalının gözlərinə dikdi. Erməni saqqalısı onu itələrəyərək:

– Kənara çəkil görüm. – iki addım kənarda dayanıb zəfərinə baxan kolxoz sədiri Mirzoyana yaxınlaşdı, qulağına pıçıldadı:

– Raykom komendantı razı salıb, bu tərəfə gəlməyəcək. Bu gün Novruz bayramı bizimdir! – vəhşi heyvanlar kimi güldü.

Mirzoyan da qımışdı və astadan pıçıldadı:

– Uşaqlara deyin icasəsiz heç nə etməsinlər, gözləyin.

– Oldu. – deyərək saqqalı yenə vəhşi kimi hırıldayaraq güldü.

Mərdan kişi bütün deyilənləri aydınca eşitmişdi, düşündü:

– Demək komendant bura gəlməyəcək, bəs bunlar nə etmək istəyir? Edəcəklərini etməyiblərmi?! Bundan artıq nə istəyirlər?! Qovmaq yetmirsə… – düşündüyünün dalını özünün -özünə deməyə cəsarəti çatmadı.

Mərdan küçənin ortasında key-key durmuşdu, birdən üzümə baxdı astadan pıçıldadı:

– Azər yaxın gəl! Tez… – pıçıldadı.

– Hə Mərdan bava. – deyərək ona yaxınlaşdım.

O pencəyini qaldırıb kürək tərəfdən kəmərinin altında gizlətdiyi kiçik çantanı çıxarıb mənə verdi və pıçıldadı:

– Bu çantanı götür, bütün ulusoyun tarixi buradadır. Sənə indiyəcən öyrətdiklərimi unutma! Bu dəftərləri kimsəyə etibar etmə! Dönə-dönə oxu! Dəftərləri qoru! Səni tez-tez Xaçlı dağda bir yerə aparırdım, yadındadır?

– Hə…

– Hər  gün o yolu gözünün qabağına gətir. Hər gün! Törə kitablarımız orada göstərdiyim yerdədir. Bəlkə bir gün geri döndüz!

– Baba  axı niyə belə deyirsən?!

– Deyirdin Kərəm olmaq istəyirəm…

– Daha istəmirəm…

– Yox, indi əsl Kərəm olmalısan!  Xalq üçün yanmalısan! Yadındadır sənə "Gizli pir" adlı dastan danışırdım?

– Hə…

– İndi gizli pir sənsən?!

Babamın üzünə baxdım:

- O dediklərin hamısı həqiqət idi?
- Hə, indi ulusoyun gizli piri sənsən! İlk  savaşın susaraq olacaq!
- Baba bizə nə olacaq? – ürəyim bir quş kimi çırpınırdı.
- Ağlama. Sən yaşamalısan!
- Mən nə edəcəm!
- Hər şeyi öyrətmişəm. Özünü dinləməyi öyrən, onda o sənlə danışacaq! Dastandakı kimi. – Erməni saqqallıları artıq hamını küçəyə çıxarmışdı, üzümə baxdı, gülümsüyərək göz vurdu, – Ulusoyun pirisən! – Gözümün yaşını sildi. –  Aradan çıx, sən uşaqsan fikir verməzlər. Bizi gözləmə, dağı aş,  qonşu kəndə get!

– Baba…

– Get pirim…– həyacanla dedi. – Get. Qismət olsa biz də gələrik. Qismət..., Dediklərimi unutma… – O başını qaldırıb göyə baxdı. Göy üzünü qara buludlar tutmuşdu,  göydə haradansa peyda olan qarğalar qarıldayaraq uçuşurdu  – Dəftərləri kimsəyə göstərmə. Azərbaycandakı ermənilər burdan çoxdur, dili azərbaycanlı əqidəsisə erməni… – qolundakı saatı açıb mən verdi. – Bunu qoluna tax, hekayəsi dəftərdə yazılıb, Bayazevin saatıdır.  Get!

– Bava… – mən həm qorxmuşdum, həm də bir şey anlamırdım.

– Dağı aş, bizimkilərin yanına get, dəftərləri yenə deyirəm heç kimə göstərmə! Mən ölməsəm özüm bilirəm nə edəcəm,  mən olmasam, Orxan əmin gəlməsə sən gizli pirsən…

Mən onun ayağından qucaqlayıb ağladım:

– Bava sizə nə olacaq?!

– Çıx aradan. – o əlini uzadıb başıma tumar çəkdi və astadan pıçıldadı – ananla-atanı bu hökümət öldürüb Azər, onlar Azərbaycan tarixində olan həqiqətləri üzə çıxarmışdı. Yazılarının bir nüsxəsi çantadadır, oxuyarsan!

Gözlərim eşitdiklərimdən alma kimi böyüdü. Ürəyim şiddətlə atmağa başladı. Babam tam qətiyyətlə dedi:

– İndi get!

Mən Mərdan babanın və digərlərinin üzündəki kədərdən vəziyyətin nə qədər ciddi olduğunu anlayırdım. Mərdan baba astadan dedi:

– Əgər sən hələ kənddən çıxa bilməsən, bizə bir şey olsa, ara sakitləşənəcən ortaya çıxma. Evlərin birinin damında gizlən, ara sakitləşəndə aradan çıx, bildinmi?

Mən başımla hə deyib aralandım, gözdən yayınıb İsrafil babagilin həyətinə girdim. Heç kim yoxdu, küçəyə baxan əl damının çırdağını qalxıb gözlədim. Erməni silahlıları hamını qabaqlarına qataraq küçə yuxarı qalxırdı. Kənd erməniləri və saqallılar isə boş evləri talan etməyə başlamışdı. Mən çardağın taxtapuşundan qonşu ermənilərin necə sevinərək bizim evləri talan etməsinə tamaşa edirdim. Onlar neçə murdarcasına gülürdü.

Bütün ulusoylular küçələrdə idi, erməni saqqallılarının müşayətində kənd sovetnə doğru gedirdilər. Erməni saqqallıları kimi istəyirdisə söyürdü, kimi istəyirdisə döyürdü, ulusoylular qeyrətlərini arxada qoyaraq küçə yuxarı, kənd sovetinə doğru addımlayırdı.

Artıq bütün ulusoyluları kənd sovetinin qarşısına yığmışdılar. Milis rəisi, raykom, kolxoz sədri, ona yaxın milis işçisi, prokurorluq işçiləri və yüzlərlə erməni saqqallısı əlində silahlar ulusoyluları dövrəyə almışdı.

Raykom ulusoyluraı süzdü, mənalı-mənalı güldü:

– Hə azərbaycanlı qardaşlarım bu da son görüş! Sizdə bir məsəl var, «haqq incələr, amma üzülməz», görürsünüzmü sonunda bura bizim oldu. – Əlini-əlinə vuraraq güldü, – Bu arada Novruz bayramınızı təbrik edirik! Baxın nə mehriban qonşularıq, hətta sizin bayramınızı da təbrik edirik. – Üzünü ermənilərə tutub

bağırdı; – Ara bir Novruz tonqalı qalayın, son dəfə qardaş xalqla birlikdə qeyd edək.– Gözünü ulusoyluların üstündə gəzdirərək qəh-qəhə çəkdi.– Görmürsünüzmü bu dəfə bir dənə də olsun bayram tonqalı qalamayıblar, mən heç buna razı olarammı?!

Saqqalılar kənd sovetinin qabağında böyük bir tonqal qaladı. Ulusoylular məzlun-məzlun tonqala baxırdı. Kimisi düşündü:

– Buda bizim Novruz bayramı! Bu da bizim bayram günü eşitdiyimiz xoş sözlər!

Bir başqası düşündü:

– Bu təhqiri unutmaq olmaz!

Hikmət kişi ürəyinin sancmasına məhəl qoymadan düşündü:

– Bağışla məni Mərdan, mən dediklərinə görə səni qınayırdım. Bu da sovet qardaşlığı, bu da erməni qardaşlığı. Bu da beynəlmiləl ruhlu sovet ordusu və milis orqanı! Bu da saxta sözlərə inanan biz! – onun gözləri Mərdanı axtarırdı.

Mərdan kişi düşünürdü:

– Bircə qadınlar sağ-salamat, alnı açıq çıxsaydı! – o artıq nəyəsə heyfslənmirdi, o bu anın qorxusunu artıq neçə illərdi yaşamışdı. Azərbaycan rəhbərliyinə, üst qurumlara, Yazıçılar İttifaqınacan neçə adsız məktub yazmışdı. Amma...

Solmaz heydən düşmüşdü, Nazansa qorxusundan onun qucağına sığınaraq tir-tir əsirdi, baş barmağını souraraq atasına baxırdı, aciz duran atasına. Solmazın taqətdən düşdüyünü görən Orxan Nazanı qucağına aldı, körpəsi dərindən köks ötürərək atasına baxdı. Orxan gözlərini onun gözündən yayındırdı, qızının gözlərinə baxmağa atalıq çəsarəti çatmadı.

Raykom tonqalı göstərib dedi:

– Deməк siz türklər Novruzu sevirsiniz hə?! – Silah qabağında duran ulusoylulara baxdı, – Neynək biz də qonşu olaraq sizin bayram tonqalına hörmətlə yanaşmalıyıq. Tonqalınızı sönməyə qoymayaq gərək, hə? Nə deyirsiniz?! – Üzünü saqqallılara çevirib dedi, – Əyinlərində qalın nələri varsa soyundurub tonqala atın!

Saqqallıların nəzarətində körpədən-qocayacan, qadından xəstəyəcən hamının qalın nə əyin-başı vardısa soyundu, saqqallılar xoşuna gələni götürdü, qalan pal-paltarısa tonqala atdılar.

Raykom soyuqdan tir-tir əsən ulusoylulara baxdı, üzündə qəddarcasına bir sevinc parlayırdı:

– Hə, indi nəyiniz varsa, çəmadan, boxca hamısını gördüyünüz lafetlərə atın, axı siz köməksevər xalqsınız!

Hamının ver-veş adına nəyi varsa əlindən alınaraq lafetlərə yığıldıqdan sonra raykom dedi:

– Sizə təklifim budur ki, üstünüzdə qır-qızıl, pul, nəyiniz varsa, dinməz-söyləməz verin, yoxlamada əlavə bir manatı tapılanı özüm güllələyəcəm! Qızıl, istiqraz, pul, nəyiniz varsa verin bizim igidlərə. – o əli ilə erməni saqqalılarını göstərdi.

Erməni saqqallıları ilk əvvəl öz xoşu ilə verilən pulu-qızılı yığdı, sonra sıra gəldi axtarışa. Kişilərin ciblərindən ayaqqabılarının içinə qədər yoxlanıldı.

– Rəis gör nə gətirmişik. – Saqqallılar yeşiklərlə arağı-çaxırı raykomun qabağına qoydular.

Raykom və digər vəzifəli adamlar hərəsi bir butlka içki götürdü, butulkaları biri-birinə vuraraq:

– Hə türklər icazənizlə Novruz bayramızını təbrik edirik! – deyib bir-iki qurtum içdilər, – Hə igidlər sizdə için. – saqqallılara dedilər.

Erməni saqqallıları bir yandan işki içir, bir yandan da ulusoyluların üst-başını yoxlayıb hamının əldə-ovucda qalan son umidini də alırdı.

Saqqalılardan biri ikinci yoxlamada üstündən yenə pul çıxan birini döyməyə başladı. Bir neçə saqqallıda bu erməniyə qoşularaq onu təpikləriylə biri-birinə ötürməyə basladı. Camaat araya girmək istədikdə digər saqqallılar silahı camaata tuşladı. Son yumuruqdan yazıq kişi yerə sərildi, ağzına dəyən təpikdən başı havaya qalxıb yenidən yerə dəydi və bir daha tərpənmədi. Ermənilər tövşüyərək, mühüm bir işi qurtarmışcasına sevinirdilər.

Davanı görmüş, səksəni haqlamış Mövsüm dədə üzünü raykoma, prokrorluq-milis işçilərinə tutaraq bağırdı:

– Allahdan qorxun, niyə belə edirsiniz, silahsız camaatı niyə bu hala salırsınız?! Siz axı hökümət adamısınız! Biz axı qonşuyuq?! Amma heç faşistlər də düşməninə belə etməyib!

Raykom əlini atıb milis rəisinin qoburundan tapançasını götürdü, Mövsüm dədəyə yaxınlaşıb, tapançanın küpü ilə onun başına vurdu, kişi səndələyərək yerə yıxıldı.

– Qalx, – o yaşlı kişinin qolundan dartaraq qaldırdı, – dizi üstə dur, tərpənmə, – üzünü araq içən saqqallılardan birinə tutub, – Butulkanı bura gətir, bunun başına qoy. – dedi və dörd-beş metr aralanıb dayandı.

Erməni saqallısı butulkanı yaşlı kişinin başına qoyub aralandı, raykom tapançanı tuşlayıb atəş açdı, güllə butulka əvəzinə Mövsüm kişinin beynini parçaladı. Raykom əlini yelləyərək:

– Mən heç yaxşı nişançı deyiləm… – Üzünü saqqallılara çevirib bağırdı. – Bunları yaxşı-yaxşı yoxlayın. – Yanan Novruz tonqalına baxıb nəsə düşündü və üzünü ulusoylulara çevirib, – Novruz bayramı sizin üçün çoxmu vacibdir? – deyə soruşdu.

Hamı susmuşdu, nə cavab verəydilər, eşşəyə zəfaranı başa salmaq mümkündümü ki?! Tək Novruz tonqalı çırtaçırtla nəsə pıçıldayırdı.

– Qadağan olandan sonra bu kənddə ilk Novruz tonqalını kim qalayıb? – O 1967-ci ildə baş vermiş hadisəni nəzərdə tuturdu.

Sovet höküməti qurulduqda Novruz bayramını qadağan etmişdi, bu bayramı keçirməyə cəhd göstərənləri şovinist, millətçi, pantürkçü və vətən xaini, əks inqilabçı adı altında yox edirdilər. Azərbaycanda, ilk dəfə 1967-ci ildə Şıxəli Qurbanov Novruz bayramını "bahar bayramı" adı altında yenidən keçilməsinə nail oldu. Bundan sonra onu Moskvaya çağırmış və bu etdiklərinin izahını istəmişdilər. Şıxəli bəysə cavabında demişdir ki, daha bəsdir Sovet diktovkası ilə Azərbaycan tarixi yazdıq. Azərbaycan tarixini azərbaycanlı tarixçilər yazmalıdır. Bizim əl-qolumuzu bağladığınızdan ermənilər başımıza ağa kəsilib, çünki bizə əsl həqiqətləri yazmağa qoymursunuz. Bundan sonra Şıxəli Qurbanov ani ölümü diş ağrısından olacaqdı. Novruz bayramını yenidən dünyaya gətirmək Şixəli Qurbanovun özünü qurban etməsi hesabına olmuşdu. Hökümət bütün xalqı öldürə bilməyəcəyinə görə Novruz bayramını saxtalaşdıraraq bizim keçmişimizi azdırmaq istədi. Novruzu Zərdüşlüklə və fars milləti ilə əlaqələndirdilər, bu

haqda onlarla elmi iş yazdırıldı, Novruz Zərdüşlüyün-atəşpərəstliyin atrubutu kimi qələmə verildi, busa bizi İslamla, türk tarixi ilə üz-üzə qoymaq üçün düşünülmüşdür, beləcə bizi iki arada, bir dərədə qoymaq istəyirdilər. Əslindəsə Novruz bayramının yaşı Zərdüşlükdən çox-çox min illik qabağa gedir.

Raykom dəli kimi qışqırdı:

– Novruz tonqalını bu kənddə ilk kim qalayıb?! – avtomatının qundağı ilə bir neçə arvadın sifətinə-sifətinə vurdu, qadınlar yerə yıxılaraq çabaladı.

Səməd kişinin oğlu Yusif kişi  bütün iradəsini toplayıb əmiranə səslə dedi:

– Mən qalamışam bu kənddə ilk Novruz tonqalını!

– Niyə?! Nə haqla?! – Raykom bağırdı.

– Əcdadlarımın mənə verdiyi haqla!

– İndi göstərərəcəm sənə Novruz tonqalını. –  üzünü ermənilərə çevirib bağırdı – Bunu bu qoşa çinara bağlayın… – qəhqəhə çəkərək bağırdı. – Üstünə Bakı neftindən tökün!

Saqqallılar raykomun əmrinə əsasən Yusif kişini çinar ağacına bağladılar, üstünə Bakı benzini tökdülər və yandırdılar…

Köhnə kolxoz  sədri Aşot pul üçün adamları  yoxlayan saqqallılara yaxınlaşıb onlardan birinin qulağına nəsə pıçıldayıb Hikmət kişini göstərdi. Həmin saqqallı Hikmət kişiyə yaxınlaşıb, qabağında dayandı, avtomatın lüləyiylə onun sinəsinə vuraraq bağırdı:

– Çiblərini çıxar, tez… – avtomatının lüləyiylə yenidən sinəsinə vurub, – Səndə daha çox pul olmalıdır! Onları burada qazanmısan, çıxar!

Hikmət kişi asta-asta çiblərini çevirib əllərini havaya qaldırdı:

– Heç nəyim yoxdur, nəyim varsa  verdim. – gözünü hərləyib Aşota baxdı.

Asot bir gözlərini Hikmət  kişidən yayındırdı, amma nəsə düşünüb ona sarı gəlib bağırdı:

– Ara mən səni bildim-biləli vəzifədəsən, canını verdiklərinlə qurtarmaq istəyirsən?! Hamısını çıx bura!

Hikmət kişi onun gözlərinə baxdı, başını bulayıb, üzünə tüpürdü:

– Kəsdiyin düz-çörək haram olsun sənə!

Aşot bir anlıq duruxdu, sonra yenidən həyasızcasına gülərək dedi:

– Hikmət mənə halal-haramdan danışma, axı sən Allaha inanmırdın! Sənin inamın, komminizim-ateizim deyildimi?!

Hikmət kişinin üzündə bir məyusluq, min peşmançılıq vardı, amma gecikmişdi, məyus olmaq üçün belə gecikmişdi. Sinəsinə dəyən təpikdən yerə yıxıldı, nəfəs almağa çalışdı, nəfəsi gedib-gəlmirdi. Əli ilə sinəsini tutub inlədi:

– Iıhhhh… – zorla nəfəs aldı.

Erməni saqqallıları gülüşməyə başladı. Hikmət kişinin gözləri qızı ilə gəlininə sataşdı, tez gözlərini onlardan çəkdi, deyəsən onlara baxmağa utanırdı. Başının üstünü kəsdirən erməni saqqallısı:

– Ayaqqabını çıxar… – deyərək avtomatını yelləyərək onu hədələdi.

Hikmət kişi ayaqqabılarını çıxarıb göstərdi.

– Yaxşı-yaxşı yellə, görək nəyin var. – saqqallı onu ələ salaraq güldü.

Ulusoylular silahlar altında ağlayaraq, susaraq, döyük-döyük, nifrətlə, qorxa-qorxa bu faciəyə baxırdılar. Soyuq qadınların-körpələrin iliyinə işləmişdi. Kişilərsə qəhərlərindən daş heykəl kimi tərpənmirdilər.

– Yaxşı, ayaqqabında heç nə yoxdur, indi corablarını çıxar. – Hikmət kişinin dayandığını görən erməni saqqallısı avtomatın qundağıyla onu vurdu, – Tez, çorabını çıxar, kiminləyəm?!

Hikmət kişi əyilib çorablarını çıxardı, tərsinə çevirib saqqallıya göstərdi, sanki foks edən sehrbaza baxırmışçasına baxan saqqallı çoraba baxıb güldü:

– Yaxşı soyun…

– Nə? – Hikmət kişi pərt halda soruşdu, artıq o bilmirdi ki, keçirdiyi duyğunun adı nədir, qəzəb, qorxu, pərtlik, rusvayçılıq, hikkə, ya nə…

– Soyun da, köynəyini, şalvarını. – Saqqallı güldü, digərləri də ona qoşuldu.

Hikmət kişi pərt halda dedi:

– Allaha and olsun heç nəyim yoxdur, arvad-uşağın içində bizi bundan da artıq rusvay etməyin!

– Soyun! – Saqqalı gülməyini kəsərək , onu təpiklə vurdu.

Hikmət kişi arxası üstə yerə yıxıldı, nəfəsi kəsilirdi, zorla dərindən bir neçə dəfə nəfəs aldı, gücünü toplayıb ayağa qalıxdı.

– Soyun türk köpəyi, – erməni saqqallısı bağırdı.

Hikmət kişi bir qadınlara baxdı, bir qızına baxdı, bir gəlininə baxdı, yenidən ulusoylu ana-bacılarına baxdı, heç nə etmədən erməni saqqallısının gözlərinə baxdı.

– Soyunmursanmı? – Hikmətin cavab vermədiyini görüb silahının lüləyini sinəsinə tuşlayıb, tətiyi çəkdi, avtomat taqqıldadı, güllələr qəh-qəhə çəkdi.

Hikmətin cansız bədəni yerə sərildi. Hikmətin ailəsi bu dəfə silahlara baxmayaraq qaçıb onun cəsədini qucaqladı. Ulusoylu qadınlarının hay-həşiri biri-birinə qarışdı. Bir neçə milis işçisi və saqqallısı Hikmətin ailəsini döyərək ayağa qaldırdı. Raykom istehza ilə gülümsədi və dedi:

– Müsəlman arvadlarını yoxlayın, onu kimi… – Hikməti göstərdi.

Milis işçiləri və saqqallılar Hikmətin gəlininə və qızına səsləndi:

– Əllərinizi havaya qaldırın. – Və əlləri ilə onları yoxlamağa başladılar.

Hikmətin qızı ona toxunan erməninin əlini kənarə itələdi, erməni milisi ona tərsinə bir sillə çəkdi və…

Kənd ermənisi olan Arsen qoşalüləsini çiyninə keçirərək digər ermənilərlə birlikdə guya ki, qadınları yoxlayırdı, ermənilər buna baxıb gülürdü. Arsen əlini uzadıb barmaqlarını Hikmətin gəlini Könülün üstündə gəzindirdi. O Arsenin üzünə sillə vuraraq, üzünə tüpürdü:

– Nə murdan millətsiniz! Mənə bacı deyirdin, mən sənin uşağına süd vermişəm, nakişi oğlu!

Arsen arsız-arsız gülərək əlini onun sifətində gəzindirdi ki…

Ulusoylular gözlərin yerə dikmişdi...

Hikmətin oğulu Babək cəmi bir an tərəddüd etdi, ilk əvvəl

gözlərini yummaq istədi, istəyirdi ki, olanları görməsin! Sonra içində bir fırtına baş qaldırdı, əsəbindən bədəni əsməyə başladı və düşündü:

– Daha nədən qorxuram, bundan o tərəfi varmı? Kəndimiz getdi, atam getdi, tək sınmış olsada qeyrətimiz qalmışdı, onudamı itirəcəm?! Həmişə xalqımın qəhraman oğlu Babək kimi olmaq istəmişəm, bu andasa Babək yalnız bunu edərdi…

– O, bağıraraq ermənilərin üstünə atıldı. Arsen onu görüb kənara qaçdı…

Ardınca Hikmət kişinin kürəkəni və daha dörd ulusoylu kişisi oyun çıxaran ermənilərin üstünə atıldı.

Hikmət kişinin oğulu Babək yaxşı bilirdi ki, onun vaxtı yoxdur. İndicə güllələnəcək, bütün gücü ilə qarşısındakı erməniyə kəllə atdı, burunu sınmış erməni saqqallısı zərbədən dizi üstə çökdü. Babək əlini atıb onun silahını əlindən aldı, bacısına, arvadına toxunan erməniləri güllələdi, kənardan saqqalılar da onu güləlməyə başladı. Dəyən güllələrdən arxası üstə yerə yıxılan Babək son gücünü toplayıb, tuşunda olan erməniyə bir güllə də atdı, güllə ermənənin sinəsini dağıtdı. O son nəfəsində başını çevirib sağ qalan Arsenə baxdı, gözündə nifrət-kin dondu.

Hikmətin kürəkəni özünü Arsenin üstünə atdı, Arsenin üzünü şillə vurmasıyla qoşalüləsini alması bir oldu, var qüvvəsi ilə bağırdı:

– Kəsdiyin çörək haramın olsun Arsen! – qoşalülənin lüləsini onun çənəsinin altına dirəyib iki güllənin ikisini də boşaltdı, Arsenin beyini parça-parça oldu.

Digər dörd ulsoylu da üç erməni saqqallısını boğazlamışdı, arxadan vurulan güllələr onların gücünü tükətdi.

Ermənilər digər ulusoyluların da onlara hücüm etmək istədiklərini görüb camaatı gülləyə tutdu, güllə dəyəndə-dəyməyən də yerə uzandı, ondan çox ulusoylu güllələmişdi. Raykom bağırdı:

– Ayağa qalxın.

Ulusoylular ayağa qalıxdı, raykom yaxınlaşıb bir-bir onların üzünə baxdı, onuncu sinif şagirdi Həcərin qabağında dayandı, murdar iştaha ilə onu seyr edərək əlini ona tərəf uzatdı…

Qonşu Muxa yaxınlaşıb Orxanın qabağında durdu:

– Bilirsən də o vaxt mən də Solmazı sevirdim. – hırıldamağa başladı.

Orxan dodaqlarını gəmirərək əsəbini boğmağa çalışdı və susdu.

– Mənim elçimi belə qəbul etmədilər, amma sənə verdilər bunu. Sənsə mənə meydan oxuyurdun o vaxt, yadındadırmı?! – Muxa yenə murdarcasına güldü, – İndisə mən sənə məhəl qoymadan Solmazı səndən alacam, indi meydan mənimdir…

Qaradan başqa qara olmur. Orxan gözünü çevirib göz ucu Solmaza baxdı:

– Qaç! – bircə kəlmə dedi və havaya sıçrayaraq yuxarıdan aşağıya Muxaya bütün gücü ilə kəllə atdı. Kürəyi üstə yerə yıxılan Muxanının üstündə də yerə çökdü, bir anlıq Muxanının gözünə baxdı, sanki bütün nifrətini beləcə onun canına axıtmaq istəyirdi. Digər silahlı ermənilərdən Muxanı üç-dörd metr ayırırdı, silahı belə Muxanın öz əlində idi, amma ölümünü bilən şikar kimi baxırdı Orxana. Orxan onun boynunu tutub bircə kərə buraraq sındırdı. Solmazın arxısınca qaçmaq istəyən ilk erməninin kürəyindən yapışdı, əlini hərləyib erməninin boğazından tutdu, geriyə qanıraraq onun da boynunu sındırdı. Kürəyindən dəyən güllərdən dizi boşaldı…

Mərdan kişi, bir kənd sovetinin binasına baxdı, bir əli silahlı ermənilərə baxdı, bir silahsız-sahibsiz xalqına-ulusoylulara baxdı, bir gülümsəyən Leninin heykəlinə baxdı, bir qırmızı həriflərlə yazılan şuara baxdı «Qardaşdır Azərbaycanla Hayestan!», «Yaşasın Sovet qardaşlığı!», bir qoşa duran qozalı çinara baxdı, dayısı Yusif yanaraq qaxaca dönmüşdü və üzü yuxarı dağ döşündəki meşəyə doğru qaçan gəlini ilə nəvəsinə baxdı və oğlunu güllələyərək gəlini ilə nəvəsini nişan alan erməninin üstünə atıldı. Bütün qüvvəsi ilə erməninin ağzına bir yumruq vurdu və əlini atıb kəmərindən tuması ilə onu başı aşağı yerdəki daşa çırpması bir oldu. Arxadan Mərdan kişiyə sarı güllələr uçuşurdu…

Nazan yerə yıxılan atasını və babasını görüb daha ucadan ağlamağa başladı:

– Xortanlar vuydu atanı, bafanı – o hıçqıraraq ağlayırdı.

Amma Leninin heykəli bütün bunlara məhəl qoymadan gülümsəyirdi və anasının qoynunda ağlayaraq baxan Nazana əl edirdi…

Solmaz Nazanı qucağını sıxaraq qaçırdı. Arxadan erməni saqqallılarının səsi gəlirdi. O, bir vaxtlar bu yolla, düz on il kəndin qurtaracağındakı məktəbə ayaq döymüşdü. O, bu məktəbdə düz on il erməni-azərbaycanlı qardaşlığınından danışan uydurmalara qulaq asmışdı. Düz on il hamıya bərabər hüquqlar verən, böyük rus xalıqının qardaşlığından danışan uydurmalara qulaq asmışdı. Bu uydurmalara inanmışdı, hətta erməni quldurları onları soyarkən belə içində bir inam parçısı qalmışdı, o rus-erməni qardaşlığının yalançı olduğuna inanmaq istəmirdi. Hər şey düzələcəkdi, axı böyük rus xalqı söz verib, gec də olsa qərarlar verib, erməni rəhbərlərindən də umid dolu danışanlar vardı axı. Bircə vaxt və səbr lazımdır deyə düşünürdü. Takı ulusoylulara güllə atıldı, takı Orxan vuruldu, qaynatası vuruldu, o artıq rus-erməni qardaşlığına zərrəcən inanmırdı. Amma gec qalmışdı, arxasında beş nəfər erməni vardı. Hə, arxasında onun ovuna çıxan ermənilər vardı. O «arxamdakılar erməni quldurlarıdır» – deyə düşünmədi, artıq onun və xalqının düşmənlərinin hər hansı bir sinif olmadığını, rus-erməni olduğunu anlamışdı. Bunu anlayanda tək gücü körpəsi Nazanı qucaqlayaraq qaçmağa çatırdı. Artıq Sovet uydurması üyüdən məktəb də geridə qalmışdı. O, qaranlığa məhəl qoymadan meşəyə girdi. Başqa vaxt olsa, heç gün işığında da meşəyə girməzdi, amma indi tək bir düşmən vardı, erməni. Və bu qaranlıq, bu hürkütücü meşə indi onun tək dostu idi. Ermənilər arxadan havaya güllə ataraq onu izləyirdi. Solmaz dərindən daha bir nəfəs alaraq daha bir neçə addım atdı…

Arxadan Solmazı qovan ermənilərdən biri avtomatı ona sarı tuşlayıb bir neçə güllə atdı. Amma deyəsən güllə dəyməmişdi, çünki Solmaz dayanmadan qaçırdı. Həmin erməni yenidən güllə atmaq istəyəndə, Arsenin oğlu Sarıbek onu qoymadan sevinclə bağırdı:

– Nə edirsən, yüz metrdən sonra uçurumdur. Artıq əlimizdədir, ovladıq onu! – üzündə murdar bir iştaha vardı.

Solmazın ürəyi ağzına gəlmişdi, tənginəfəslikdən ağzına

qan tamı gəlirdi, taqəti yoxdu, amma dayana bilməzdi… Birdən hiss etdiki artıq qarşısında ağaclıq yoxdur, ayaq atacağı torpaq bitirdi… Qarşısı uçurum idi. Solmaz dayandı, bir dik uçurumdan aşağı baxdı, bir arxadan sevinc çığlıqları ataraq yaxınlaşan ermənilərə baxdı və düşündü:

– Ana vətən niyə mənim yolumu kəsirsən, axı arxadan yağı düşmən gəlir! Məni düşmənə təslimmi etmək istəyirsən?! – bu vaxt vətəninin qoynunda yuvarlanan həzin külək uçurumdan ona sarı əsdi, saçını dalğalandıraraq yellədi. Solmaz gülümsədi, – Anladım səni ana vətən!

Nazan bərk-bərk anasının boynuna sarılaraq həyacanla bağırdı:

– Xortan emənilər cəlir, ana! – körpənin gözü qorxudan dörd olmuşdu.

Solmaz qorxudan tir-tir əsən balasına baxdı, alnından öpdü və pıçıldadı:

– Şəkərparəm qorxma, səni erməni xortdanlarına verməyəcəm! – o düşməninə qələbə qazanan döyüşçülərin ədası ilə dedi.

Nazan anasının boynuna sarılaraq üzündən öpdü, dərindən köks ötürdü, niyəsə anasının onu erməni xortdanlarına verməyəcəyinə inanmışdı. Solmaz ULUSOYLUnun nəfəsini son kəs içinə çəkirdi, o dərindən nəfəs aldı, sonra bir daha dərindən nəfəs aldı və Nazanının sifətini sinəsinə sıxaraq gülümsədi. Göylərə sarı atıldı, üzündə bir zəfər ədası vardı… Üzündə bir təbəssüm vardı, türklük təbəsümü…

…Həkim Solmaza səsləndi:

– Qızım onda bütün gücünü topla. Dərindən nəfəs al, dərindən nəfəs al…

Solmaz bütün gücünü toplayaraq dərindən nəfəs aldı, sonra bir də dərindən nəfəs aldı, daha sonra bir də dərindən nəfəs aldı… Bir körpə qığıltısı eşidildi… Həkim sevinclə pıçıldadı:

– Bir qızın oldu…

Somaz gözünü yumaraq dərindən nəfəs aldı, yorulmuş üzündə bir təbəssüm sezildi, analıq təbəssümü…

…Ermənilərin sevinci üzlərində donmuşdu, üzlərində deyəsən bir kədər də vardı, məğlubiyyət kədəri… Gözlərində bir

sual vardı, amma cavabını qeyrəti, mənliyi, heysiyatı olmayanların əsla anlamayacağı bir sual…

Onlar aşağıya doğru süzsə də, ruhları göylərə varmaqda idi. Nazanın sifəti anasının sinəsində idi, amma bədəninə yayılan çəkisizlikdən sifətində bir təbəssüm vardı, onlara sarı bir qadın ruhu süzürdü, körpə Nazan şəkildə gördüyü nənəsini tanıdı:

- Aaa, ana Nazan nənəyə bax…

# ÜZLƏŞMƏ

*Böyüt qarğanı, oysun gözünü*
***Azərbaycan atalar sözü.***

*Quş dənə, milçək şirəyə yığılar! –*
***Azərbaycan atalar sözü.***

*...Bəs erməni nəyə yığılar, hara yığılar?! –*
***Ataların bizə tapmacası.***

Artıq erməni saqqallıları camaatı silahın qabağına qataraq aparmışdı. Geridə qalan saqqallılar və kənd erməniləri azərbaycanlıların evlərinə girərək talamaqla məşğuldu. Onlar evdəki xalçaları, barxananı* çölə tökür, oradan da gətirdikləri yük maşınlarına, traktorların lafetlərinə yığırdılar. Kənd erməniləri də saqqalılardan geri qalmırdı, əllərinə nə geçirdisə evlərinə daşıyırdı. Heyvan damının tavanı arasında gizlənən Azər ermənilərin kəndlərini, evləri neçə soyub-talan etdiyini öz gözü ilə görürdü. Gördükləri tarix kitablarında yazıldığı kimi düşmənin elləri yağmalamasına bənzəyirdi. Azərgilin kəndini soyub-talayansa ermənilərdi, hər tin başında hər şüarda «dostuq-qardaşıq» deyilən ermənilərdi. Azər ilk əvvəl evlərə girən saqqalıları görüb sevindi, uşaq ağılı ilə düşündü ki, bunlar pis ermənilərdir, kəndlərində qonşu olduqları ermənilərsə yaxşı ermənilərdi. Çünki evləri yağmalayan ermənilər içərisində hələ ki, kənd ermənilərindən kimsə görünmürdü. Əslində kənd erməniləri vəzifə başında idi, saqqallılar kəndə girmədən əvvəl onlar azərbaycanlı evlərinin üstünü nişanlamalıydı, sonrasa azərbaycanlıların kənddən qovulması zamanında kimsənin kənddə qalmaması üçün, kəndin dəlmə-deşiyini saqqallılara demək üçün onlarla bir yerdəydilər. Ulusoyluların hamısı kənd sovetinin qabağına yığıldıqdan sonra yerli ermənilər də talan üçün qonşularının evlərinə doluşdu. Azər

* *yorğan-döşək*

gizləndiyi tavanarasının taxtapuşundan qorxa-qorxa ətrafını seyr edirdi, küçə aşağı səs-küylə gələn ermənilər sonunda taxtapuşun arasından görünməyə başladı, bunlar kənd erməniləri idi. Əl-qollarını oynada-oynada gələn erməniləri görən Azər düşündü ki, erməni qonşuları erməni saqqalılarının azərbaycanlıların evlərini soymasına etiraz etdiklərindən əllərini yelləyə-yelləyə gəlirlər. Erməni qonşuları isə Azərin düşüncəsinə məhəl qoymadan sevinərək, həyasızcasına, vicdansızcasına, utanmadan neçə illərdi qonşu olduqları azərbaycanlıların evlərinə dolaraq saqqalılarla bir yerdə talana qoşuldular. Azər gördüklərinə inana bilmirdi, o ermənilərin namərd olduğunu babasından çox eşitmişdi, amma qonşuları bildiyi xoş, gülərüzlü Setrak əmini, Haykaz əmini, Asmik xalanı heç bir vəhclə onların arasında görə bilmirdi. Onlar bütün digər ermənilər kimi öz qonşularının evlərini yağmalayırdı, həm də sevinərək, gülərək, çalıb-oxuyaraq, bir zərrə də olsun vicdan əzabı çəkmədən! Azər Haykazla Asmikin sevinc içində onların evinə girdiyini gördükdə təəssüflə pıçıldadı:

– Haykaz əmi, Asmik xala sizdəmi?! – Azər gözlərinə inanmırdı, daha doğrusu inanmaq istəmirdi.

Haykazla Asmik Mərdan kişinin evinə girdi. Asmik üzünü ərinə tutaraq:

– Haykaz televizoru gətir qapının ağzına, sonra divardakı xalçanı sök, qattala. – güldü. – Əsas o xalçıdır, qədim xalçadır eee… – deyib özünü Solmazın otağına soxdu, skaf-sfaneri açıb pal-paltarı ortalığa tökdü.

Haykaz sevincək rəngli telovizoru qucağına alıb çölə çıxdı, qapının ağzına qoyub xalçanı sökmək üçün yenidən içəri girdi.

Asmik ortalığa tökdüyü pal-paltardan xoşuna gələnləri üstünə tutaraq yoxladı, deyəsən bəyəndi, çünki mağazadan təzə paltar alanlar kimi sevinirdi və cəld bir hərəkətlə yorğan ağını götürüb Solmazın paltarlarını içinə doldurdu. Paltar dolu ağı sürüyərək qapının ağzına gətirdi və ərinə səsləndi:

– Haykaz gəl bura, Orxanın kostyumlarından geyin, bəyəndiyini götür! – həyacanlı halda bağırdı.

O biri otaqdan Haykazın səsi gəldi:

– Hamısını götür, Orxanın bütün kostyumlarını bəyənirəm. – qəh-qəhə səsi otaqda əks-səda verdi, qətiyyətlə dedi. – Hamısını yığ… – Sevincək əlavə etdi, – Bir görsən sənə nə qab-qacaq yığmışam, – Solmazın gətirdiyi cehizləri nəzərdə tuturdu.

Asmik həyacanla bağırdı:

– Qırma ha, yoxsa əlimdən qurtara bilməzsən! Əntiq mallardı!

Azər kövrəlmişdi, deyəsən kənd camaatını yığıb aparanda heç belə kövrəlməmişdi, daha ziyadə qorxmuşdu, indisə Haykazla Asmikin də digər ermənilər kimi olması ona yamanca yer eləmişdi. Qucağında rəngli televizor evinə tələsən Haykazın, arxasınca iki yorğan ağı dolusu paltarı sürüyüb aparan Asmikin sevincindən atlana-atlana getməsinə baxan Azər, sonra küçədə azərbaycanlıların mal-qarasını aparan erməni saqqalılarına baxdı, Haykaz əmisi ilə, Asmik xalası ilə onlar arasında bir fərq görmədi. Və yalnız indi hiss etidi ki, hətta digər quldur ermənilərlə Haykaz əmisinin, Asmik xalasının üzü belə nə qədər oxşardır…

Azər taxtapuş arasından küçəyə baxıb, artıq kimsənin olmadığını yəqinləşdirdikdən sonra, tavan arasından düşmək istəyirdi ki, Haykazla Asmikin səs-küylə yenidən gəldiyini gördü və yenidən tavan arasında gizləndi. Onlar yenidən Mərdan kişinin evinə girdi və Azər onların çıxmasını gözləyərək xəyala daldı. İndi Azərin gözündə bütün ermənilər eyni idi, qatil idi, oğru idi, əclaf idi, həyasız-ikiüzlü idi, təkçə Əslidən başqa. Bütün ermənilər bir yana, onun sevdiyi Əslisə bir yana idi – «Əsli bunlar kimi ola bilməzdi. Yəqin indi o da məni düşünür?» – deyə fikirləşirdi ki, Əslidə ata-anasının arxasınca Mərdan kişinin evinə tərəf qaçdı. Onun üzündə qəribə bir kədər vardı. Bunu görən Azər sevindi «mənim üçün belə kədərəlidir» – deyə düşündü. Əsli kədərli halda evə girdi, o yana bu yana qaçdı, nəyisə axtarırdı. Anası qızına baxı soruşdu:

– Ay qız nə olub?! Nə axtarırsan?!

– Yoxdur, tapa bilmirəm! – o kədərli halda bağırdı.

Bu səsi eşidən Azər düşündü: «Əsli məni axtarır deyəsən» – üzündə sevinc parladı, sanki qovulan ulusoyluların ona bir dəxli yoxdu.

Asmik qızından yenidən soruşdu:

– Ay bala nədir olmayan?!

Əsli anasına məhəl qoymadan əlində üç rəsm albomu çölə çıxdı və sevinçək bağırdı:

– Tapdım, – üzündə sonsuz bir sevinc vardı, – hamı mənim rəsimlərimə həsəd aparacaq! – bu albomdakılar Azərin çəkdiyi rəsimlərdi.

Asmik qızının hələ də niyə bağırdığını anlamadan onun arxasınca çölə çıxdı:

– Nədir tapdığın ay qız?!

– Rəsmlərdir ana! Daha mənimdir hamısı… – sevincək bağırdı.

Asmik əhəmiyyət vermədən əlini yelləyərək evə girmək istəyirdi ki, gözləri rəsmlərə sataşdı, heyrətlə soruşdu:

– Bu rəsmlərimi deyirsən?!

– Hə anacan! – Əsli sevincindən atılıb-düşdü.

– Mərdanın dığası Azərmi çəkib?! – üzü heyrətdən donmuşdu.

– Artıq mənimdir! – Əsli öz anasına belə «hə, bu rəsmlər Azərindir» – demək istəmədi.

– Nə gözəl şəkillərdi! Bəs bu kimdir?! – o şəkildəki saqqalı adamı göstərdi.

– Nizamı Gəncəvidir. – Əsli öz hünəriymiş kimi fəxr etdi.

Asmik tez onun səhvini düzəltdi:

– Gəncəvi yox «Qanzavi», bizim şairin şəklidir ki! – üzünə tülkü təbəssümü yayıldı.

– Görürsən ana nə gözəl şəkillərdi?! – Əsli sevincək soruşdu.

Asmik balasının başına sığal çəkərək dedi:

– Ata komitəyə deyər, sənə qəşəng bir sərgi açarlar!

Əsli rəsm albomunun vərəqlərinə baxdı, onlar arasında Azərin «erməni azərbaycan qardaşlığı» rəsmini tabdı, vərəqi albomdan qoparıb tikə-tikə doğradı və ayaqlarının altına atıb tapdadı…

Taxtapuş arasından bütün bunları aydınca görən Azər hiss etdi ki, ürəyi bulanır, özünü saxlaya bilmədən öyüməyə başladı, bu dəfə Əslinin onun səsini eşidəcəyindən qoruxdu.

O gün bir üzləşmə idi! O gün ulusoyluların görmədiyi həqiqətlə üzləşməsi günü idi. O gün ulusoyluların çoxdandı

unutduğu keçmişlə üzləşməsi idi. O gün ulusoyluların uzun illərdi görməzdən gəldiyi xəyanətlə, cinayətlə, soyqırmla, unudulan soydaşlarının qanı ilə, ah-vahla, uydurduqları-inandıqları «qardaşlıqla» üzləşdikləri gündü. O gün ulusoyluların əsl erməni üzü ilə üzləşdiyi gündü. O günü ulusoylular əsl erməni üzü ilə üzləşdi, amma Azər kimi bəziləri tavan arasında gizləndiyindən, ulusoydan aralıda olduğundan hələ də içlərində «yaxşı-pis erməni» arayışında idi. O gün minlərlə-milyonlarla türk-müsəlman hələ də ermənin əsl üzün görmək istəmirdi, hələ boğazına erməni xəyanəti dirənməyənlər, hələ ellərindən qovulmayanlar, ermənilərdən xeyli uzaqda olanlar, Bakıda, Şəkidə, Qazaxda, Gəncədə, Türkiyədə, Özbəkistanda ermənilərlə qol-qola, qucaq-qucağa yaşıyanlar o həqiqəti, erməni həqiqətini görməzdən gəlirdi! Bir vaxtlar ulusoyluların görməzdən gəldiyi kimi, Azərin görməzdən gəldiyi kimi! Düşünün…

Azər küçənin, həyətin boşaldığını görüb damın tavanarasından düşdü. Küçə ilə getmək təhlükəli idi, qərara aldı ki, bağları adlayaraq kəndin kənarına çıxsın və babasının dediyi kimi dağı aşsın. Azər ehtiyatla, bağların çəpərlərini aşmağa başladı. Bağı ayıran çəpəri aşıb Mahmud kişinin bağına düşmüşdü ki, səs gəldi, tez əyilib ağaclardan birinin arxasında gizləndi. Hava tam qaralmamışdı, tərpənməyə cəsarət edə bilmədi, onu görə bilərdilər. Havanın bir az da qaralmasını və Mahmudun həyətindəki adam qaraltısının getməsini gözləməyi qərarlaşdırdı.

Bu qaraltı Mahmud idi. Onun üzündə yazıq bir ifadə vardı, qəhər onu boğurdu. Ağlamaq istədi, amma qəhər onu nə qədər boğsa da, boğazı qəhərdən dəyirman daşına dönub ağırlaşsa da gözündən bir damcı yaş gəlmirdi. O getməli idi, arvadı, oğulu onu da qovmuşdu, «rədd ol get» demişdilər. Amma hara gedəydi, qovulan ulusoylularla getməyə üzü də gəlmirdi. Axı vəzifə üçün, pul üçün, maşın üçün, yatağına aldığı erməni qancığı üçün, sonra isə doğulan oğlu üçün altdan-altdan kimlərin evini yıxmamışdı. Həyətin ortasında, camadanının üstündə oturan Mahmud yaxşı bilirdi ki, bütün əmməllərindən, bütün ömründən ona qalan elə bu çamadandı. Qovulan ulusoylulardan bəlkə də elə bir fiziki fərqi yoxdu, amma barı onlar arvadı-uşağı ilə qovulurdu.

Barı qovulanlar özləri ilə vətən həsrətini-kədərini aparırdı. Mahmudunsa tək aparacağı peşmançılıq və vicdan əzabı idi. Bütün bunları yaxşı anlayan Mahmud düşündü ki, hara gedir?! Bundan sonra o getməkdən vaz keçdi, bir anlıq keçmişində etdiyi hərəkətlərin səbəbini düşündü. Və bu gün bütün həyatını itirən Mahmud o günlərinə baxdıqda, «beynəlmiləlçilik», «hümanizim», «sovet kollektivçiliyi» adı altında evlərini yıxdığı azərbaycanlıları düşündü. O günlərdə özünə verdiyi bəraətin əslində nə qədər saxta, uydurma olduğunu gördü. Və gördü ki, əslində elə o günlərdə də əməllərinin saxta olduğunu görürmüş, amma onda mənliyini, milli qeyrətini, vətənini–millətini sata biləcəyi şeylərə uymuşdu. Bu xəyanət onun da bir növ işinə gəlmişdi və bilərəkdən özünü karlığa-korluğa qoymuşdu. İndisə etdiyi xayanətlə üzləşirdi. Xalqına, millətinə etdiyi xəyanətdən ona qalan yarısınacan belə dolmayan çəmadandı.

Sanki Mahmud yalnız indi xatırladı ki, bu gün Novruz bayramıdır. Ulusoylular qovulduğundan kənddə bir dənə də olsun bayram tonqalı yandırılmamışdı. Əl-ayağının əsməsinə baxmayaraq ayağa durdu, həyətin ortasına bir xeyli çır-çırpı yığdı və ağ neft töküb oçağı qaladı. Həyətdə nə qədər odun varsa hamısını yanan oçağın üstünə atdı, ocaq alovlanaraq böyük bir Novruz tonqalına döndü. Mahmud havaya atmaq üçün bir lopa düzəltdi. Bu vaxt qapı açıldı, arvadı və oğlu kimlərinsə mal-qarasını qabağına qatıb həyətə saldı. Aykanuş Mahmudun getmədiyini görüb bağırdı:

– Sən hələ getməmisən?!

Mahmud kədərli halda onları süzdü. Məlik yanan tonqala baxaraq:

– Bu nədir? – deyə atasının üstünə bağırdı.

Mahmud astadan dedi:

– Bu gün Novruz bayramıdır! – gülümsündü – Bu gün bayramdır! – lopanı ocağa uzadıb yandırdı və havada yellədi.

Məlik lopanın dartıb onun əlindən aldı və yanan lopa ilə onu döyməyə başladı:

– Al, bu da sənə Novruz! Necədir?!

Ağac dalında gizlənən Azərin Mahmuda yazığı gəldi:

– Yazıq Mahmud kişi…

Sanki Mahmud da onun dediklərini eşitdi və cavab verdi:

– Bu mənim öz günahımdır, bu da günahımın cəzası! Qanını it sumüyünə calamağın cəzasıdır bu! Bu görmək istəmədiyim həqiqətlə üzləşməmdir!

Bu sözdən sonra Məlik lopa ilə atasının sifətinə bir də vurdu. Mahmud yerə yıxıldı, amma yerdə qalmadan ayağa qalıxdı və oğlunun üzünə baxdı. Bu vaxt arvadı onun üstünə şığıyaraq onu ocağın üstünə itələdi və bağırdı:

– Ən yaxşı Novruz tonqalı türk yanan tonqaldan olur…

Onun sözü ağzında qaldı, ocağın üstünə yıxılan Mahmud Aykanuşun qolundan tutub onu da özü ilə tonqala saldı, Aykanuş çabalayıb onun əlindən çıxmaq istədi:

– Mahmud sən canın məni burax… – neçə illər bundan əvvəlki kimi mehriban səslə dedi və ərinin onu buraxmadığını görüb bağırdı: – Məlik məni qurtar bu türk qatilindən… – əsl erməni kimi bağırdı.

Mahmud onu yalayan alova əhəmiyyət vermədən bütün gücü ilə Aykanuşu tutmuşdu, üzündə bir təbəssüm vardı, acı təbəssüm… Deyəsən yandığına sevinirdi, axı bədəninin yanması, ürəyinin yanğısı yanında nəydi ki…

Məlik Novruz tonqalında yanan ata-anasına baxıb dəli kimi bağırıdı:

– Ana… Anacan… – nə qədər demək istəməsə də pıçıldadı, – Ataaa…

# SAKİT

*Susduqca sıra sənə gəlir –* ***türk deyimi***

*Qafil quşun ovçusu çox olar –* ***Azərbaycan atlar sözü.***

Ulusoyu xatırlayıb, Sakiti xatırlalamaq olmaz. Kimdir o?! Səni, məni kimi bir adamdı oda, iki gözü, bir burnu, bir ağızı vardı. Bir dəfə haqsızlığa qarşı susmayıb, gücə-sistemə, arxalı köpəklərə qarşı gəlmişdi, öz valideyinləri bunun üstündə onu döyüb, tənbeh etmişdi, «sakit dur» demişdilər. Sakit də o gündən sakitcə bütün haqsızlıqları sinəyə çəkmişdi, elə səni, məni kimi.

Yox, deyəsən yenə Sakitin kim olduğunu aydın başa düşmədin. Sakit məndən 5-6 yaş böyük olardı. Mən tanıyandan adı kimi özü də sakitdi, hətta dindirməsən danışmazdı da. Mən şəxsən Sakitin dilindən iki söz eşitmişəmsə biri «salam» olub, yəni qısaca danışmağı belə xoşlamırdı. Onun deyəsən danışdığı tək adam bizim kənddə dəli dediyimiz Kamil idi. Sakiti dəli Kamilə bir yerdə görənlər ağız əyərdi, «su axar suyu tapar, taylı da tayını» deyərdilər. Sakitin hərəkətləri hər kəsə yovuşmaz gəlirdi, o da dediyim kimi kimsə ilə dərdləşməzdi. Tək sirdaşı dəli Kamildi, bəzən də Mərdan babamla bir iki kəlmə kəsərdi. Amma Sakitin gözlərinə baxdıqda, mənə elə gəlirdi ki, o başqa dünyalardan gəlib, elə içində, düşüncələrində də bir başqa dünya var. Fəqət mən bu dünyanın adını özüm-özlüyümdə tapa bilməmişəm, onun yaşadığı, düşündüyü dünyanın adı nədir, varmı, kimsə bilirmi, bunu mən bilmirəm. Adı kimi sakit olan Sakit əvvəllər belə deyildi. Hətta əvvəllər mənim erməni qızı Əsliylə dostluq etdiyimə görə mənə əsəbləşdiyini də xatırlayıram. O gündən sonra hər şey dəyişdi, bax o günü, o indi dediyim «sakitə» çevrildi.

1984-1985-ci illər ərəfəsi idi. Əslində bizim üçün adi bir gündü, hamımız məktəbdə idik. Tənəfüsdü. Balacalar oynaşırdı, böyük sinfin uşaqları isə öz yoldaşları ilə dəstə-dəstə bir kənarda dayanıb söhbətləşirdi. Bizim məktəbdə erməni uşaqlarının bizim-

kilərlə bir o qədər də arası yoxdu, yəni anlayacağınız kimi məktəbdə biri-biri ilə dostluq edən erməni-azərbaycanlı uşaqları azdı. Əsasən ermənilər özləri ilə, bizimkilər azərbaycanlılarla dostluq-yoldaşlıq edirdi. Bax hər şey o günü başladı. Humaygil bir dəstə qızla bir kənarda pıçı-pıçı söhbətləşirdi. Sakitin tay-tuşları olan erməni uşaqları top oynayırdı. Artur topla Humayı vurdu, zərbədən Humay yerə yıxıldı, zorla dikəlib çöməldi, əlləri ilə başını tutdu, ağrıdan gözlərindən yaş gəlirdi. Artur yaxınlaşıb topu əlinə aldı, topu əlində oynada-oynada güldü:

– Az ağla, türk qancığına heç nə olmaz!

Məktəbin həyətində olan bütün şagirdlər sakitcə olanları izləyirdi. Kimsə dinmirdi, Humay ağlayır, Artur söz atır, erməni uşaqları olanlara baxıb gülür, bizimkilərsə sakitcə baxırdı. Heç kimsə Arturun dediyi «türk» sözünün nə demək olduğunu anlamırdı, mən elə düşündüm ki, «türk» sözü ermənicə nəsə söyüncdür, ona görə də Humaya «türk qancığı» demişdi. Artur əlində oynatdığı topla yenidən Humayın başına vurdu:

– Dur ayağa, özünü artistliyə qoyma.– O, elə şəstlə əmr edirdi ki, elə bil öz uşağı ilə danışırdı, – dur dedim, türk qancığı.

Sakit gözünü döyüb sakitcə duran azərbaycanlılardan ayrılıb onlara yaxınlaşdı. Arturun yenidən Humaya atdığı topu tutub onun sifətinə çırpdı, sinəsindən itələyərək bağırdı:

– Üzr istə qızdan!

Artur qımışdı:

– Nə, mən bir türkdən üzr istəyəcəm?!

Sakit bağırdı:

– Hə, sən türkdən üzr istəyəcən! – onun dediyindən belə çıxdı ki, «türk» söyünc deyil, amma mən yenə «türkün» nə demək olduğunu anlamadım. Tək anladığın «türk» sözünün söyünc olmadığı idi.

Artur Sakitin əsəbləşdiyini görüb bir addım geri çəkildi, amma yenə özünü o yerə qoymadan dedi:

– Mən kimsədən üzr istəməyəcəm!

Humay ağlayırdı, bizimkilər hələ də sakitçə dururdu, ermənilərin gülməyi üzündə donmuşdu, Artur çönüb getmək istəyirdi, Sakitsə olduqca əsəbi və qətiyyətli halda:

– Üzr istəmədən olmaz Arturrr! – Sakit onun adını xüsusi vurğu ilə dedi.

Artur ani zərbə ilə Sakiti vurmaq istədi, Sakitsə başını yana çəkərək zərbədən yayındı və Arturun qolunu havadaca tutub burdu və əsəbini cilovlamağa çalışdı, dişlərini qıcayaraq bağırdı:

– Üzr istə Humaydan!

Artur burulan qolunun ağrısından inlədi, erməni dostlarının Sakitin üstünə cumduğunu görüb ürəkləndi:

– Türkə ölüm! – dartınaraq Sakitin əlindən çıxmaq istədi.

Sakit üstünə gələn ermənilərə əhəmiyyət vermədən dizi ilə Arturun ağzına vurdu, Arturun ağız-burununun qanı biri-birinə qarışdı. Sakit Arturu itələyərək arxasından daha bir təpik vurdu, o ağzı üstə yerə yıxıldı. Sakit üstünə gələn ilk ermənini də kəmərindən tutub yerə çırpdı, arxadan vuran erməninin zərbəsi ilə yerə yıxıldı. Humay bir küncə qısılmışdı, artıq ağlamırdı, bağırırdı, axı Sakiti döyürdülər. Beş erməni Sakitin üstünə tökülüşmüşdü. Sakit əlləri ilə sifətini qorumağa çalışaraq yerə yıxılmışdı, azərbaycanlı şagirdlərisə kənardan olanları seyr edirdi. Sakitin bacısı qışqırdı:

– Qaqamı vurmayın. – onun göz yaşı yanaqlarından yağış kimi tökülürdü, fəryadı məktəbi başına götürmüşdü.

Sakit bacısının ağlamaq səsini eşitdi, ona vurulan zərbələrə əhəmiyyət vermədən gözü ilə onu axtardı, bacısın üzü ağlamaqdan pörtmüşdü, o qardaşını döyənlərə yalvarırdı:

– Nə olar, qaqamı vurmayın? Yalvarıram! – qardaşına tərəf gələndə erməni uşaqlarından biri onu itələyib yıxdı.

Ermənilər bu səhnəyə gülür, azərbaycanlılar sakitcə dururdu. Sakitin gördüyü səhnədən bütün bədəni lərzə gəldi, var qüvvəsi ilə bağırdı:

– Erməniyə yalvarma Aynur! – o sıçrayaraq ayağa qalıxdı, ilk əlinə keçən erməniyə tutarlı bir kəllə atdı, erməni yerə çömələrək çaqqal kimi uladı. Üstünə gələn ikinci erməninin ona atdığı yumruğa məhəl qoymadan onu da tutaraq gələn ermənilərin üstünə atdı. Dərindən nəfəs aldı, əlinin üstü ilə burnun qanın sildi, ani hərəkətlə üstünə gələn erməninin qollarından tutub kürəyi üstə yerə uzanaraq ayağı ilə onu dala atdı. Çöməlib onu

dövrəyə alan ermənilərə baxdı, üzündə vəhşi bir intiqam oynaşırdı, bu dəfə susmayacaqdı, içindəki öfkəni bütünlüyü ilə qusacaqdı. Sakit onun üstünə cuman erməniyə məhəl qoymadan son anacan yerindən tərpənmədi, çöməldiyi halda ermənininin ona yaxınlaşmasını gözlədi, ermənininin ayaq zərbəsini əli ilə qaytarıb altdan yuxarı ermənininin çənəsinə kəllə atdı, sonra bir əlini ermənininin paçasının** arasına keçirib başı üstünə qaldırıb yerə çırpdı. Göz gəzdirərək bacısını itələyən ermənini axtardı, yaralı pələng kimi nərildəyərək onun üstünə sıçradı, saçından tutdub başını özünə tərəf çəkib, yumruğu ilə onun sifətini döyəcləməyə başladı. Erməni ikinci yumruqdan dizi üstə yerə gəldi. Hay-küyə gələn müəllimlərdən Həmid müəllim Sakitin qabağına keçdi, əlini atıb onun qolundan tutdu. Sakit Həmid müəllimi görüb duruxdu, amma çönüb yenə də tərs-tərs Arturgilə baxdı, ağzının qanlı tüpürcəyini onların üstünə tüpürüb pıçıldadı:

– Kimlərə sataşdığını bil!

Erməni müəllimlərinin səsi məktəbi başına götürmüşdü:

– Bu nə bıabırçılıqdır?! Gör uşaqları nə hala salıblar?! Artur bu nə üst başdır, can bala?! Vəhşilikdir! – kimsə ağlayan Humaya, dizini sıyrılmış Aynura, salamat yeri qalmayan Sakitə baxmırdı. – Belə şovinizimmi olar?! Biz hansı əsirdə yaşayırıq?! – erməni müəllimləri qaraçı kimi bağırıdı. Əslində erməni müəllimlərinin qaraçı kimi bağırmasında elə bir günahları yoxdur, axı onların qanında qaraçı qanı da var.

Həmid müəllim sərt baxışla Sakiti süzdü:

– Bu nə oyundur çıxarmısan?

– Oyunu mən yox, onlar çıxardırdı... – sözü ağzında qaldı.

Həmid müəllimin şilləsindən Sakit yerə yıxıldı, burnundan yenidən qan açıldı. Ermənilər gülüşdü. Sakit buna məhəl qoymadan ayağa qalıxdı və sərt tonla dedi:

– İlk başlayan Arturdu, Humayı topla vurdu. Üzr istəmək əvəzinə yenidən topu onun başına vurdu! – O ədalətin bərpa olmasını istəyirdi...

Həmid müəllim Humayı süzdü, onun sifətindəki top izi ay-

---

*«paça» Azərbaycan Qazax dialektində iki ayağın arasına deyilir.*

dınca görünürdü, qəlbinin dərinliyindən baş qaldıran qəhəri boğaraq sərt tonla soruşdu:

– Nə olsun, lap elə olsa da, sənə kim deyib burada qoçuluq edsən?! Lotusan sən?!

Sakit nəsə demək istədi, amma qəhər onu boğurdu, ağlamamaq üçün susdu. Erməni uşaqları gülüşürdü. Azərbaycanlı uşaqları boynunu büküb susmuş, sakitcə dururdu. Erməni müəlliməsi Sakitə yaxınlaşıb qulağından dartdı:

– Türkbazlığı sənmi etmisən?!

Sakit çönüb tərs-tərs erməni müəliməsi Mariyaya baxdı, əli ilə onun əlini itələdi və dişlərini qıcayaraq dedi:

– Onu Arturdan soruş, öz uşaqlarınızdan soruş! Gör niyə bizə türk deyirlər, qarınlarının ağrısı nədir?!

Həmid müəllim yenidən ona bir sillə çəkdi:

– Bu nə tərbiyəsizlikdir, sən edirsən?! İki qardaş xalq arasında mənasız sözlər danışmaqdan utanmırsanmı?! Sənə yaraşırmı, əlaçısan, bir də pioner olacaqsan?! Sakit dur da! Qoy oturduğumuz yerdə oturaq!

– Pioner nə vaxtdan qıza sataşır, topla onu vurur?! Millətbazlıq edəndə mən deyiləm, kimdir, hamı yaxşı bilir! Bu komminizimin harasında yazılıb ki, günahsız olan da, döyülən də, danlanan da bizik! Ədalət haradadır?! Nə vaxtacan haqsız yerə biz ayaqlanacıyıq?! – Sakit əsəbini uda bilmədən soruşdu.

Həmid müəllim onun üstünə bağırdı:

– Kəs səsini, daha bir kəlmə belə danışma! Sən sakitcə otur! Atan gəlsin, eşitdin?! – erməni uşaqları gülüşürdü, azərbaycanlı uşaqlarsa boynunu büküb sakitcə dururdu. Mənsə fəxrlə Əslinin əlindən tutmuşdum, axı bu anda iki xalqın qardaşlığına nümunə olacan tək biz idik, əl-ələ.

O günü Sakitin atası məktəbə gəldi, daha kim çağırmışdısa... Sakitin atası bizim gözümüz qabağında onu döydü, sonra döşəmə üstündə onu ora-bura sürdü, amma deyəsən ürəyi soyumamışdı, yaxasından tutub Sakiti ayağa qaldırdı və yenidən döyməyə başladı. Sakitsə atasının vurduğu zərbələrə məhəl qoymadan heykəl kimi dayanmışdı, bəzən zərbələrin təsirindən yıxılırdı, amma

yenə heç nə olmamış kimi ayağa dururdu, əslində çox şey olmuşdu, Sakitin salamat yeri qalmamışdı. Bütün bunlara baxmayaraq atası Sakiti vurmağa salamat yer tapırdı...

– Hələ evə gəl, – deyib atası ermənilərə üzürxaxlıq edərək getdi.

O günü niyəsini bilmədiyim bir istək məni Sakitgilin küçəsinə apardı. Mən Sakitgilin evinin qabağından keçəndə onun atasının səsi gəlirdi:

– Ə sənin nəyinə lazımdır, ha? Niyə sakitcə oturmursan? Niyə qoymursan sakitcə oturaq yerimizdə? Bizi xalq düşmənimi etmək istəyirsən?! Qoysana sakitcə oturaq oturduğumuz yerdə, başımıza Koroğlumu kəsilmisən?! – bax o günü belə oldu.

Humay bir daha məktəbə gəlmədi. Niyəsini bilmirəm. Sakit də o gündən deyildiyi kimi sakit oturdu, dinmədi, danışmadı. Çünki demişdilər ki, sən sakit durmasan qardaş qırğını olar! Əslində sakit duran tək Sakit deyildi, hər kəsin uşağı sanki o gündən Sakitdən uzaq qaçırdı. Sanki kimlərsə onlara belə demişdi. Kim demişdi bilmirəm? Mən evdə Mərdan babama olanları danışdım və müəllimlərdən eşitdiklərimi təkrarlayaraq böyüklük etməyə çalışdım və dedim ki, Sakit bu gün az qala qardaş qırğını salırdı. Babam məzəmətlə mənə baxdı və dedi:

– O əsl Koroğluymuş, Babəkmiş. Heyiflər olsun! Yazıq uşağa… – mənə də acıqlanmışdı ki, – Sən də onun bunun tökdüyünü döşürmə! – amma əslində mən də Əslini sevdiyimdən, ürəyimdə nə babamla razılaşmışdım, nə Sakitlə…

Sakit o gündən susdu. Hamı Sakiti qınadı, babamla, dəli Kamildən başqa. Hamı Sakiti susdurdu, hamı sakit durdu ki, bircə ermənilər bizdən narazı olmasın. Bircə oturduqları yerdə sakitcə otursunlar. Amma bizi sakitcə oturmağa qoymadılar. Hətta Sakit o qədər sakit olmuşdu ki, atası öldükdə belə ağlamadı, sakitcə durdu. Lakin gün o gün oldu ki, erməni saqqallıları, ekstrimistləri İravanda at oynatmağa başladı, amma o səsini çıxarmağa cürət etmədi, qorxdu ki, yenə qardaş qırğınında onu günahkar bilərlər. Bu səbəblə də sakitcə oturdu…

Ermənilər ulusoyluları sürü kimi kənd sovetinin qabağına yığmışdı, hamını soyub-talayırdı. Olanlar əsl bıabırçılıq idi, qa-

dınlara sataşan kim, kişilərin qeyrətini tapdayan kim. Amma bütün bunlara baxmayaraq Sakit sakitcə dururdu. Bir erməni saqqallısı Humaya yaxınlaşdı, qabağında duraraq əlini onun sifətinə çəkdi:

– Məni tanıdınmı? – deyib şəstlə güldü.

Humay heç nə demədən bir addım geri çəkildi, başını aşağı dikdi. Saqqallı gülə-gülə dedi:

– Türk qancığı mənəm də, Artur! – o özündən elə razıydı ki. (O özündən elə əmindi ki! Bir qulduru özündən razı, özündən əmin hala gətirən hansı şərait idi, hansı cəmiyyət idi?)

Aynur cavab vermədən susdu, gözlərindən səssiz yaşlar damırdı, hamı susmuşdu, Həmid müəllim də susmuşdu, ermənilərə deyə bilmirdi ki, – «niyə qardaş qırğını edirsiniz? Axı Sakit sakitcə durub!». Erməni saqqallılarısa gülüşürdü, Ulusoylu talan olmuşdu, ulusoylular boynun bükmüşdü, ermənilər qız-gəlinə sataşır, kişiləri avtomatın qabağına salıb döyürdülər. O gündən bəri sakit dayanan Sakitin üzündə sanki dəniz dalğalandı, əsəbindən dodaqları əsdi. Artur Aynurun belindən tutub özünə sarı çəkmək istədi… Sakit elə bir sıçrayışla Arturun üstünə atıldı ki, bəlkə də ilk əvvəl kimsə nə olduğunu anlamadı. Sakit yumruq vuraraq onu yerə yıxdı, üstünə çöküb Arturun boğazından dişlədi, dişlərini bütün gücü ilə onun boğazına işlətdi və hülqumundan iri bir dişlək qopardı. Arturun boğazından qan fəvarə vururdu, o xırıldayaraq yerində çabalayırdı. Erməni avtomatları şaqqıldadı, Sakitsə bu dəfə son nəfəsinəcən bağırdı:

– Əclaflar… Şərəfislər… – onun səsi yeri-göyü inlətdi.

Həmid müəllim xəcalət çəkərək Sakitə baxırdı, axı Sakit sakit durmuşdu, erməisə yenə öz bildiyini etmişdi, azərbaycanlıları sakit oturmağa qoymamışdı. Sakitin atasının qəbri erməni gülləri ilə parça-parça olmuşdu, milyonlarala müsəlman qəbri kimi…

# DƏLİ KAMİL

*Məhəmməd peyğəmbərə də bir zamanlar (bədəvilər) dəli demişdilər…*

*Cəmiyyət bir özündən ağılsızına, bir də özündən çox ağıllısına dəli deyir…*

*Bir kasıbın, bir kamil insanların üzü gülmür…*
***– TÜRK deyimi***

*Doğru deyəni 9 kənddən qovmuşlar –*
***qədim TÜRK atalar sözü***

Keçmişə baxarkən düşündüyüm fikirlərdən biri də budur:

– Cəmiyyətmi sistemi tərbiyə edir, yoxsa sistemmi cəmiyyəti? – Bir də bunun üstünə düşündüyüm budur ki, sistemin çürüklüyünü görərək hər hansı bir şəkildə buna etiraz edənləri görən və başa düşən cəmiyyət olubmu və ya olacaqmı?

Deyəcəksiniz ki, bu soruşduqlarının bu olanlarla nə əlaqəsi var?! Var, həm də olduqca çox əlaqəsi var. Ulusoyun, yəni bizim kəndin bir dəlisi də vardı, Kamil, ona dəli Kamil deyirdilər! Bəs Kamil doğurdandamı dəli idi?! Bu sualı əvvəllər mənə kim versə idi, heç düşünmədən «hə» cavabını verərdim. İndisə bütün son olanları düşündükdə, xatırladıqda ağlımdan bunlar keçir:

– Dəli o idi, yoxsa biz idik?! Ona kim, niyə dəli demişdi?! Bəs mən niyə ona dəli deyirdim?! Görən hansı qüvvə bütün kəndə, eləcə də mənə Kamilin dəli olduğuna inandırmışdı?! Babam ona «dəli» dediyimə görə mənə acıqlandıqda və sonra məni başa salanda, niyə mən öz babama inanmamışdım?! Bəs Kamil dəli deyildisə, niyə qəribələşmişdi, başqalarından seçilirdi, danışığı başqa idi, hərəkətləri başqa idi?!

Dəli Kamili gözümün önündə canlandırıram və özümə sual verirəm ki, nə idi onun dəliliyi?

Kamilə kənddə kimsə hörmət etməzdi. Hamı, ermənili-azərbaycanlılı, böyüklü-kiçikli demək olar ki hami onu lağa qoyardı,

ələ salardı, birbaşa üzünə «dəli» deyərdilər. Deyirdilər ki, Kamil əvvəllər çox savadlı uşaqmış. O dərəcədə savadlı, bilikliymiş ki, bütün valideyinlər onun ata-anasına paxıllıq edirmiş. Tay-tuşları onun paxıllığını çəkirmiş, çünki kənddə gizlincə onun arxasınca baxmayan qız tapılmazmış. Mən bütün bu danışılanlara heç cür inana bilmirdim, bütün bunlar bizim dəli Kamil üçünmü deyilir deyə özümə sual verərdim! Hətta, guya indi Hikmət kişinin oğlunda ərdə olan Könüllə Kamil biri-birini dəlicəsinə sevirmiş! Heç inanmağım gəlmirdi. Axı Könül kəndin ən gözəl qızlarından olmuşdur, o bir dəlini necə sevə bilərdi deyə düşünürdüm.

İçi mən qarışıq bütün kənd uşaqları onu küçədə gördümü düşərdi arxasına, «dəli» deyə-deyə onu izləyərdik, taki kimsə çıxıb bizi qovanacan. Kamilə «dəli» deyərək arxasınca düşən uşaqları ya Mərdan babam qovardı, ya Səməd babam qovardı, ya Yusif babam, ya Orxan əmim, başqa kimsə. Kamilin qəribə üzü vardı, sanki indicə ağlayacaqdı. Nə qədər xatırlamağa çalışsam da, deyəsən mən onu heç gülərkən görməmişdim. Bəs «dəliyə həmişə toy-bayramdır» deyirdilər, bəs o niyə gülmürdü?! Bizim kəndin uşaqları da elə onun üzündəki bu ifadəni yamsılayaraq onu ələ salırdı, o isə daha fağır, daha qəmli baxışlarla uşaqlara baxırdı. Bəzən indi onun o baxışı yuxuma girir, xəcalət tərləri içində oyanıram…

…Kamil yuxudan durub əl-üzünü yudu. Hələ kimsə durmamışdı, çaydanı doldurub qazın üstünə qoydu. Pilləkanın sonuncu daşında oturub anasının durmasını gözlədi. Bir azdan anası durub çay-çörək hazırlayacaqdı, Kamilin yuxudan durduğunu görüb deyəcəkdi «sabahın xeyir bala» və gülümsəyəcəkdi. Amma gözlədiyi kimi olmadı, birinci atası durdu, Kamilin pilləkanın başında oturduğunu görüb ofuldadı:

– İlanın yarpızdan zəhləsi gedir, o da yuvasının qabağında bitir. – Kamili ayağıyla vuraraq əl-üzünü yumağa getdi.

Kamil anasının hələ durmadığını görüb atasına çay-çörək hazırlayırdı ki, Bəxtiyar kişi hamamdan geri döndü:

– Ədə nə edirsən? – Kamildən əsəbi halda soruşdu.

Kamil sakit bir səslə:

– Çay-çörəyi hazırlamayımmı?! – pərt halda soruşdu.

– Səndən çay-çörək istəyənmi oldu?!

Kamil tutuldu, stəkan tutan əli əsdi, ehmalca çayı masanın üstünə qoyub, üst qata, öz otağına qayıtdı. Anası aşağı düşsə də otağından çıxmadı, atasının işə getməsini gözlədi, atası işə getdikdən sonra aşağı düşdü. Anası gülümsünərək dedi:

– Sabahın xeyir bala!

– Sabahın xeyir ana. – Kamil uşaq kimi sevindi.

– Bu gün nə əcəb gec durmusan?! – Nigar xala soruşdu.

– Heç elə belə. – Kamil əlinin üstü ilə burnunu ovuşduraraq mızıldandı, o pərt olanda əsasən belə edirdi.

Nigar xala oğlunu süzdü, yaxınlaşıb Kamilin alnından öpdü:

– Atan yenəmi azarladı?! – oğlunun üzündən öpdü.

– Mən atamı çox istəyirəm. – Kamil uşaq sayağı bir cavab verdi və əlinin üstü ilə burnun yenidən ovuşdurdu.

– Atan da səni çox istəyir, sən ona baxma. – Anası hıçqırdı, amma ağlamamaq üçün özünü boğdu. Çünki o ağlasaydı Kamilə pis təsir edə bilərdi.

Kamil asta addımlarla gedib masanın arxasında oturdu, həmişəki qəmli baxışları ilə anasına baxdı. Nigar arvad soruşdu:

– Yemək verimmi?

Kamil uşaqlar kimi gülümsünərək başını yellədi.

– Bu saat bala, – Nigar xala oğluna çay süzdü, stəkana qənd ataraq, – balama şirinçay edim. – Şirin çayı oğlunun qabağına qoydu. Özü də oturdu.

Kamil anasına baxaraq asta-asta yeməyə başladı. Kamilin qardaşı Amillə, bacısı Lamiyə aşağı düşdülər, hər ikisi bir ağızdan:

– Sabahın xeyir ay ana. – dedilər.

Kamil sağ əlini qaldırıb dedi:

– Sabahınız xeyir. – kimsənin onun salamını almadığını görüb əlinin üstü ilə burnunu ovuşdurdu, çayını sonunacan içmədən çəkilib masanın lap qırağında oturdu.

Nigar xala Kamilə səsləndi:

– Kamilim yeməyini sonacan ye!

Kamil başını yelləyib, əlinin üstü ilə burnunu ovuşdurdu:

– Yoo… – qəmli səslə mızıldandı, anasının üzündəki kədəri görüb gülümsəməyə çalışdı, axı o gülümsədikdə, anası da ona gülümsəyirdi.

Amillə, Lamiyə oturub çay-çörəklərini yeməyə başladılar. Lamiyə Amilə göz vuraraq Kamilə tərəf çönüb anası eşitməsin deyə astadan soruşdu:

– Sənin nə işin var burda, hə?!

Kamil əli ilə burnunu ovuşdurub soruşdu:

– Harda nə işim var?!

– Burda, masada nə işin var hə? – Kamilə bozardı.

Kamil həmişəki qəmli baxışları ilə bacısına baxdı və sakitcə durub getmək istəyirdi ki, Amil soruşdu:

– Hara?

– Gedirəm, bacı dedi...

– Niyə?! Nə olsun dedi. – Amil onun üstünə bozardı.

Kamil astadan pıçıldadı:

– Gedirəm…

Amil onun üstünə çəmkirdi:

– Otur aşağı!

Kamil əli ilə burnunu ovuşdurub asta bir hərəkətlə oturdu və bacısının gözlərinə baxdı. Lamiyə əli ilə onu işarə edərək:

– Tez ayağa qalx, getdin. – deyərək sifətini bozartdı.

Kamil qardaşına baxaraq ayağa qalıxdı ki, getsin. Amil Kamilə bağırdı:

– Sənə otur demədimmi?!

Kamilin dodağı əsdi, əlləri ilə qulağını tutub divarın küncünə qısıldı, gözlərini yumdu. Amillə Lamiyə qardaşına baxıb ləzzət alaraq gülürdü. Nigar xala uşaqlarının öyrəncəkli olduğu gülüşünü eşidib hövlank arxa otaqdan çıxdı və Kamilə tərəf qaçaraq uşaqlarına bağırdı:

– Utanmırsınızmı?! Ayıb olsun! Heç olmasa sizdən böyük olduğu üçün utanın! Vaxtı ilə sizə qələm tutmağı, yazıb-oxumağı öyrətdiyi üçün utanın! Onu ələ salaraq mənim ürəyimə dağ qoyursunuz, bundan utanın!

Amilin sifəti dəyişdi, anasına bozararaq dedi:

– Buna görə bir də nə mənə, nə bacıma söz demə! Dəliyə görə bir danlanmağımız qalmışdı! – qənddandan götürdüyü qəndi Kamilin başına ataraq hünər göstərirmiş kimi bağırdı: – Dəli… – ucadan güldü.

Kamil əlləri ilə qulağını tutub divara qısılmışdı, ağzını balıq kimi açıb-yumurdu. Amillə Lamiyə qəh-qəhə çəkərək öz doğma qardaşına, böyük qardaşlarına gülürdü. Uşaqlarına sözü yetməyən Nigar ana aciz halda Kamili sakitləşdirməyə çalışırdı:

– Yaxşı bala qorxma! Hər şey yaxşıdır, bax mənəm, anan!

Kamil qorxa-qorxa gözlərini açıb baxdı, doğurdan da qarşısındakının anası olduğunu görüb uşaq saflığıyla gülümsəməyə çalışdı, dodaqları əsirdi. Nigar xala arxa otağa keçdi ki, Kamilə su gətirsin. Bu vaxt Amil ona daha bir qənd atıb bağırdı:

– Dur rədd ol burdan!

Nigar xala çölə çıxıb dolçadakı suyu qurtum-qurtum Kamilə içirdərək məzəmmətlə Amilə baxdı. Ağlamamaq üçün özünü boğdu, çünki ağlasa idi, Kamil daha betər olacaqdı.

Kamili sakitləşdirən Nigar ana uşaqlarının onu dinc buraxmadığını görüb dedi:

– Mərdan qağangilə get! Səni gözləyir, dünən demişdi.

– Qağam mənimi çağırıb? – Kamil sevinc içində ağızdolusu soruşdu.

– Hə mənim balam. – deyib anası Kamili yola saldı və arxasınca bağırdı: – Bir başa qağangilə get.

Kamil başı ilə «hə» deyib yola qoyuldu. Son döngənidə dönüb küçə yuxarı Mərdan kişinin evinə sarı gedirdi. Hikmət kişinin evi tuşuna gəlmişdi ki, qonşudan çıxan Könüllə rastlaşdı, Kamil başını sağa əyərək ona baxdı. Könül tutuldu, bir anlıq Kamilin qəmli gözlərində nəsə axtardı, amma cəmi bir anlıq.

– Nə var nə baxırsan?! – Könül nəyinsə hikkəsini ondan çıxırmışcasına bağırdı.

Kamil səksəndi, bir addım geri çəkildi, daha qatı kədərlə Könülə baxdı, niyəsə onun adını çəkdi:

– Könül! – gözündə bir sevinc işıltısı parladı sanki.

Könülün gözündən yaş süzülməsinə baxmayaraq onun üstünə bağırdı:

– Zəhrimar!

Kamil kədərdə boğulan bir mehribançılıqla pıçıldadı:

– Könül!

– Nədir?! – deyib ağlayaraq getdi.

Kamil əyilib onun göz yaşı düşən torpağı əlləşdirdi və pıçıldadı:

– Şey! – durub Mərdan qağasıgilə getdi.

Azər və tay-tuşları küçədəki ağacın kölgəsində oynaşırdı. Kamil asta-asta Mərdan kişinin evinə sarı yeriyirdi, kölgəsi havadakı istiyə baxmayaraq onun ardınca sürünürdü. Ağacın kölgəsində oynaşan uşaqlardan biri Kamili görüb sevincək bağırdı:

– Dəliyə baxın, dəli gəlir!

Bütün uşaqlar onlara əyləncə çıxdığına sevinərək bağırdı:

– Urra, dəliyə baxın! Dəli, dəli… – hamısı gülürdü.

Kamil onu ələ salaraq ona tərəf qaçan uşaqlara baxdı, üzündəki kədər daha da qatılaşdı, niyəsə pıçıldadı:

– Urra…

Uşaqlar onu mühasirəyə alaraq bağırışırdı:

– Dəli, dəli… – uşaqlardan biri arxadan ona təpik vurub qaçdı.

Kamil qəmli sifətlə çönüb onu vuran uşağa baxdı, İlqar gülərək uzaqlaşdı və sevinclə bağırdı:

– Urra, urra, mən dəli Kamili vurdum! – uşaqlar ona qoşularaq güldü və bir ağızdan bağırdılar: Urra-urra…

Kamil «urra» deyərək gülən uşaqlara baxdı, birdən dodağı əsməyə başladı, kədərli sifəti əyildi, gözləri sulandı, əlləri ilə qulağını tutub bağırdı:

– «Urra» deməyin. «Urranı» bizdən oğurlayıblar! – o qaçaraq uşaqlardan uzaqlaşmaq istədi.

Əsli yerdən daş götürərək Kamilə atdı, Əslinin ardınca İlqar, sonra Azər, sonrasa bütün uşaqlar Kamili daşlamağa başladı və Kamilin acığına daha ucadan bığıraraq sevinc çığlıqları atırdılar:

– Urra, Urra…

Kamil ona dəyən daşlardan orasını-burasını tutaraq qaçırdı, uşaqlarsa onu daşlayaraq qovalayırdı. Ayağı daşa ilişən Kamil

yerə yıxıldı, uşaqlar gülüşərək onu yenidən dövrəyə alaraq sevinclə ucadan bağırırdılar:

– Urra, urra… Dəli, dəli…

Kamil ağzı üstə yerə yxıldığından hər iki əlinin dərisi sıyrılaraq getmişdi. O zarıyaraq dizi üstə qalxdı, uşaqların yenə «urra» deyərək bağırmasına etiraz etdi:

– Urra deməyin. Urranı bizdən oğurlayıblar. – O əlinin, dizinin sıyrılmasına məhəl qoymadan uşaqların «urra» deməsinə etiraz edirdi.

Uşaqlar onun bu hərəkətinə ucadan gülüşdü. O isə kədərli gözləri ilə uşaqları süzdü, gözündən iri bir yaş damlası yanağına yuvarlandı, həzin, ülvi bir yalvarışla dedi:

– Uşaqlar «urra» deməyin… axı «urra» bizimdir, adam özünükünü vuranda «urra» deyərmi?!

Deysən dəlinin kədərli gözləri hər kəsi təsirləndirmişdi, daşlar uşaqların əlində donmuşdu, Azərin gözləri Kamilin kədərli gözləri ilə sataşdı, ayağından başına doğru bədəninə bir istilik qalxdı, özündən asılı olmayaraq daş tutan əli yanına düşdü, əlli boşaldı, daş süzərək yerə dəydi, dığırlanaraq dayandı. İlqar da əlindəki daşı yerə atdı. Ardınca digər uşaqlar əllərindəki daşı yerə atdı. Əsli bir anlıq duruxdu, sonrasa əlindəki daşı var qüvvəsi ilə Kamilə atdı və bağırdı:

– Dəli, dəli – niyəsə «urra» sözünü demədi. Əyilib yerdən bir ovuc daş götürdü və bir-bir Kamilə atdı – Dəli, dəli…

İlqarın üzündəki məyusluq çilik-çilik oldu, o da sevinclə bağıraraq yerdən əli boyda bir daş götürüb Kamilə atdı və bağırdı:

– Dəli, dəli…

Kamil daşın sifətinə dəyməməsi üçün əlini daşın qabağına verdi, daş onun qanlı, iç dərisi sıyrılmış əlinə dəydi. Azər bu olanlardan sonra uşaqlardan geri qalmamaq üçün yerdən əvvəlkindən daha iri daşlar götürərək Kamilə atdı, ardınca bütün uşaqlar. Kamil daşlardan qorunmaq üçün gah o yana, gah bu yana əyilir, gah əlini daşın qabağına verirdi, bəzən başını dizlərinin arasında gizlətmək istəyirdi, amma belindən dəyən daşlar onun yenidən dikləməsinə səbəb olurdu… Əsli ilə Azər eyni anda Kamilə sarı daş atdı, Kamil əlini qabağa verərək Əslinin atdığı daşı saxladı,

Azərin atdığı daşsa onun qaşına dəyib parçaladı, zərbənin çakıltısına bütün uşaqlar gülüşdü:

– Dəli, dəli – var qüvvərələri ilə bağırdı – Dəliyə baxın…

Bəli, cəmiyyətin özünə görə qanunları var. Cəmiyyətin istəklərinə, normalarına uyğun gəlməyənlər anormal sayılır. Amma cəmiyyət heç bir zaman öz anormallıqlarını nə görür, nə bu barədə düşünür... Axı azlıq çoxluğa tabedir... Çoxluq haqsız, vicdansız olsa belə...

Qan Kamilin qaşından üzünə şoralanmağa başladı, o əli ilə yaranı basdırmağa çalışsa da, qan əlinin arasından süzülərək üstünə, oradansa boz-qara torpağa tökülməyə başladı. Kamil torpağa tökülən qanı görüb bağırdı:

– Neynədiniz?* Azərbaycana azərbaycanlı qanı tökdünüz?! – o biləyi ilə torpağa tokülən qanı silməyə çalışırdı, qaşından şoralanan qansa ona məhəl qoymadan torpağa tökülürdü…

Əsli daha bir daşı Kamilə ataraq qəzəblə bağırdı:

– Bura Ermənistandır!

Kamilsə biləyi ilə yerə tökülən qanı silməyə çalışaraq özü-özünə deyinirdi:

– Niyə Azərbaycana azərbaycanlı qanı tökdünüz?! Görün bir torpağa nə etdiniz?! – o elə danışırdı sanki qanı axan özü deyildi, dərdi Azərbaycan torpağı və qanı axan azərbaycanlı idi.

Əsli daha da qəzəbləndi:

– Bura Ermənistandır! – əlindəki daşı Kamilə ataraq qəzəblə bağırdı – Urra, urra…

Səs-küyə Mərdan kişi çölə çıxdı, gördüyü səhnədən dəhşətə gəldi. Kamilin qanı küçənin ortasında göllənmişdi, uşaqlar «urra» deyərək onu daşlayırdı. Mərdan kişi əsəbi halda uşaqların üstünə qaçdı, qəribə olsa da uşaqlar bu dəfə Mərdan kişiyə məhəl qoymadan Kamili daşlayırdı, yalnız Azər babasını görüb dayandı. Mərdan kişi ona məhəl qoymayan uşaqları tutub hərəsini bir yana atdı. Azər babasını görüb əlindəki daşı yerə atdı, babasının üstünə gəldiyini görüb bir addım geri çəkildi. Mərdan kişi ona yaxınlaşıb qulağının dibinə bir sillə vurdu, Azər fırlanraq yerə yıxıldı və bağırdı:

– Baba vurma…

Əsli hələ də dişini qıcayaraq hikkə ilə bağırırdı:

– Bura Ermənistandır – Mərdan kişinin varlığına məhəl qoymadan Kamilə yenidən daş atdı.

Mərdan kişi onun əlindən tutub dartdı:

– Evə, sən bir buna bax! – əsəbini boğmağa çalışdı. Sonra Kamili evə gətirdi, ilk yardım göstərdi…

…Həmin günü mənə dəyən sillədən bütün günü qulağım küyüldədi. Çənəmin ağrısından on gün düz əmməlli yemək yeyə bilmədim. Babam ikinci dəfə idi məni vururdu. Məni yandıransa bir dəlinin üstündə məni vurması idi. Məni bundan da çox yandıran babamın dəli Kamilin o halına ağlaması olmuşdu. Bu məni çox əsəbləşdirmişdi, axı o bir dəli üçün ağlayır və üstəgəl onun üstündə məni vurmuşdu, Əslimin əlindən tutub üstünə bağırmışdı. Minayə nənəm də ömrümdə ilk dəfə mən acıqlandı, həm də bir dəliyə görə…

… Mərdan kişi Kamilin yaralarını yodla sildi, tənziflə bağladı, amma qaşının qanını kəsmək mümkün olmurdu. Mərdan pambıqla Kamilin qaşındakı yaranı basdırıb ona səsləndi:

– Əlinlə pambığı tut!

Kamilsə özünə məhəl qoymadan şikayətlənirdi:

– Azərbaycana azərbaycanlı qanı tökdülər! Niyə?! Sildim qağa… – Mərdan qağasına deyindi – Vallah sildim, getmədi! Vallah qağa torpağa tökülən qanı udmadan silmək istədim, getmədi…

Mərdan kişi anasını səslədi:

– Ana çölə çıx bir!

Minayə ana çölə çıxaraq Kamilin halını görüb dəhşətə gəldi:

– Oğul buna nə olub?! Hansı əli qırılmış bu səvini bu hala salıb?!

Mərdan kişi əsəbi halda Azəri göstərib:

– Fəxr etdiyin nəvənlə, dostları…

Minayə ana tərs-tərs Azərə baxdı:

– Ayıb olsun! Heç utanırsanmı?!

Kamil Minayə anaya şikayətləndi:

– Ay ana, – Minayə anaya ana deyirdi, – torpağımızı qana

buladılar!...

Mərdan kişi anasına səsləndi:

– Qaşının qanı kəsmir, parça yandır, külünü basaq, bir az tez. – üzünü Kamilə tutub – Di yaxşı sakitləş, yoxsa torpaq yenə qan olar… – dedi.

– Yox, torpağımıza azərbaycanlı qanı tökülməsin, – deyib tərpənmədən dayandı.

Azər Kamilin bu hərəkətinə baxıb qımışdı, amma babasının onun gülməsini görüb əsəbləşməsindən qorxaraq barmağını dişlədi və düşündü:

– Allahın dəlisinə bax! Eşşək boydadır, tay-tuşları evlənib, busa… Babam məni vurdu, nənəm mənə acıqlandı. – Azər bunu düşünüb əsəbləşmişdi.

Az keçmədi qonum-qonşu Mərdan kişinin evinə gəldi. Mərdan kişi uşaqların valideyinlərini tənbeh etdi və dedi:

– Uşaqları başa salın, az qala öldürmüşdülər Kamili.

İsrafil kişi dostunu qınadı:

– Ayə sən də, nə olajax sənin dəlinə? Yəqin uşağlara nəsə edib, yoxsa uşaqların onunla nə işi?! Odur bax, o yekəlikdə cana nə olasıdır?!

Mərdan kişi İsrafil kişiyə etiraz edərək dedi:

– Kamilə dəli deməyin, demişəm sizə. Yazığı döyə-döyə bu hala salıblar, siz də dəli deyə-deyə yazığı daha da cəmiyyətdən uzaqlaşdırırsınız!

Hikmət kişi Mərdan kişinin sözünə güldü:

– Mərdan vallah sən də aləm adamsan! Ayə sənin dəlindən bu cəmiyyətə nə olasıdır?! Cəmiyyətin onu kimisinə ehtiyacı yoxdur!

– Buna kim qərar verib? – Mərdan əsəbi halda soruşdu.

İsrafil kişi aranı sakitləşdirmək üçün dedi:

– Di bəsdirin, bir dəliyə görə bu yekəlikdə kişilər…

Mərdan ayağa duraraq dedi:

– Mən başa düşmürəm, Kamil sizə nə pislik edib ki, siz onu özünüzdən uzaqlaşdırırsınız! Baxın elə sizin tərbiyənizdir ki, uşaqlarda onu bu hala salıb!

– Ayə yəqin uşaqlara o nəsə edib, yoxsa uşaqlar dəli zaddırmı?! – Zahid kişi inamla dedi.

(Bəli nə uşaqlar, nə cəmiyyət dəli idi. Dəli Kamil idi! Kamil dəlimi idi?!).

Elə bu vaxt qapıdan içri girən Haykaz söhbətə qarışaraq:

– Qonşu özündən danış, – Mərdanı nəzərdə tuturdu, – bir dəliyə görə uşaqları nə hala salmısan? – şit-şit dişlərini ağartdı. – Mənim biricik qızım Əsli heç, uşağa o nə şillədir vurmusan. – Azəri nəzərdə tuturdu. Azəri qucaqlayaraq öpdü.

Haykazın sözləri Azərin canına yağ kimi yayıldı...

Bu söhbətdən ürəklənən digər valideynlər də dilləndi:

– Hə, Haykaz düz deyir! Dəliyə görə uşaqların üstünə acıqlanmısan!

Hakaz guya dilindən çıxmış kimi edib:

– Əslinin biləyi ağrıyır, ağlıyır... – Mərdanın tərs-tərs ona baxdığını görüb dişlərini ağartdı, – Böyüyüsən əlbəttə, ixtiyarın var, hi-hi – güldü.

İlqarın nənəsi Gülsəfa arvad da söhbətin açıldığını görüb dedi:

– Hə dana, ay Mərdan, Haykaz düz deyir. Uşaqların üstünə nətəhəri gəlmisənsə İlqar qorxuf. – Əlini dizinə vurdu, – sarılıq olmasa yaxşıdır, boy Allah məni öldürsün!

Mərdan kütlənin belə korluğundanmı, ya belə vicdansızlığındanmı əsəbləşmişdi, amma bu əsəb onu hikkələndirmək əvəzinə qəhərləndirmişdi:

– Kamil sizin üçün adam döymü?! Ona olan sizi maraqlandırmı?

– Dəlidirdə səndə ay Mərdan! – Hikmət kişi cavab verdi.

Mahmud söhbətə qarışdı:

– Ay Mərdan səndə məzəli adamsan! Elə danışrsan ki, elə bir faciə baş verib! Adı üstündə dəlidirdə! Dəlinin sahibi olmaz deyiblər! Dəli ölür sahibi sevinir! Mənim Kamilə yox, Bəxtiyara yazığım gəlir. – Kamilin atası Bəxtiyarı nəzərdə tuturdu. Və üzünü Kamilin atasına tutdu:

– Ayə uşağın dəli döymü? – əmr verircəsinə soruşdu.

Bəxtiyar udqundu, Kamilin başına gətirdiklərini düşündü, onun üstündə onu haralara aparmamışdılar. Sonunda öz dilindən yazıb bildirdi ki, doğurdan da oğlu dəlidir, bundan sonra ondan əl çəkmişdilər. Mahmudun səsinə xəyaldan ayıldı:

– Ayə səninlə döyəmmi? Gədən dəli döymü?!

– Dəlidir Mahmud məllim, Allah boynunu qırsın, el-obaya biabır edib bizi!

Mərdan artıq danışlanları eşitmirdi, əsəbindən ürəyi gupuldamağa başladı, ürəyi sanki beynində vururdu. Mərdan Kamilə baxdı. Kamil Mərdan kişinin dediyi yerdəcə oturmuşdu, qəmli baxışlarla qan rənginə boyanmış aya baxırdı.

Az sonra hamı öz evinə getdi. Bəxtiyar Kamili səslədi:

– Ə gədə gəl, rədd ol düş yanıma, gedək evə!

Kamil qalxıb Mərdan kişiyə sarı gəldi, Mərdan qağasının gözlərinə baxdı, bu dəfə gözlərində qəm-kədərdən çox yalvarış vardı. Mərdan kişi bu yalvarışı aydınca oxudu, amma yalvarışın nə olduğunu, Kamilin nə istədiyini anlaya bilmədi. Mərdan mehribancasına soruşdu:

– Bala, nəsə istəyrsənmi?!

Kamil nəsə demək istədi, atasının ona baxdığını görüb duruxdu. Atasının səsi gəldi:

– Gəl düş yanıma. Gecən xeyrə ay Mərdan! Buna da çox baş qoşma. – səsində bir minnətdarlıq vardı, amma… Kamillə atası çıxıb getdi.

Mərdan kişi anasının səsinə düşüncədən ayıldı:

– Görürsənmi a bala nəvəmin günahını aldın. Camaat görürsənmi nə deyir?! Dəlidir də! – Azəri qucaqlayıb öpdü, – Başına dönüm sizə nə etdi ki, onu vurdunuz?!

Azər düşündü ki, babam məni onun üstündə vurub, Əslimin biləyini ağrıdıb, buna görə də mənim dəlidən intiqam almağa haqqım var:

– Nənə biz kölgəlikdə oturmuşduq, bizi daşa tutdu! Sonra da biz ona daş atdıq daaa… – sözünü uzatdı.

Minayə ana heyfsilənrək dedi:

– Yazıq əvvəl elə yaxşı uşaqdı ki. Hayıf o uşaqdan, özünü vay

ellədi! – Azəri öpərək, – Nənə qurban sənin onunla yenə də işin olmasın, yazıqdır!...

Bəxtiyar kişi  qapıdan küçəyə çıxar çıxmaz Kamilin ənsəsinə bir sillə vurdu:

– Gəl başı batmış, gəl hələ öydə canını  alacam… – daha bir zərbə vurdu.

Kamilsə atasına heç bir reaksiya vermədən, zərbələrdən müdafiə olunmadan onun yanındaca evə doğru gedirdi. Bəxtiyar kişisə gah sakitcə gedir, gah da Kamilə bir-iki vururdu. Qapıdan girər-girməz Bəxtiyar həmişəki yerdən nar çubuğunu çıxarıb Kamili vurmağa başladı. Kamilsə dimdik duraraq tərpənmirdi, nar çubuğu vıjıldayaraq onu yandırıb-yaxırdı, o isə tərpənmədən dayanmışdı,   sanki bir heykəldi, yalnız gözlərində, üzündə qəribə bir kədər vardı.

– Köpək oğlu, xalğın uşağı ilə nə işin vardı? – Bəxtiyar onu vururdu.

Kamilsə atasına cavab verməyi, ürəyini açmağı çoxdan tərkitmişdi, susaraq dayanmışdı, gözləyirdi, atasının onu döyüb yorulmasını gözləyirdi.  Kamilin anası ərinin səs-küyünə çölə çıxdı, vəziyyəti görüb özünü araya salmaq istədi.

– Bəsdi, dəymə uşağa, Bəxtiyar sən Allah bəsdi! – Nigar ərinə yalvarmağa başladı.

Bəxtiyar arvadını qolundan tutub kənara itələdi:

– Axı nə qədər olacaq? Bu axı mənim dinc başıma iş açıb. Gör bizi nə hala saldı?! Buna nə lazımdı oxumaq, tarixini bilmək! Ondan məni kimi kəndli olsa idi!  Gör  nə hala saldı bizi, gəzmədiyim dam  qoymadı. – Çubuğu atıb var qüvvəsi ilə Kamilə  sillə vurdu. Kamil səndələdi, yenə tərsliyinə salıb yıxılmaq istəmədi, amma bədəni  deyəsən iradəsi qədər güclü deyildi, gözü qaraldı və  özündən getərək yıxıldı.

Nigar özünü yerə çırparaq oğlunun başını qaldırdı, nəfəs alırdı, ölmədiyinə sevindi. Bəxtiyar Kamili qucaqlayaraq bir anlıq ağladı, amma bir anlıq…

Kamilin  gözləri qapandı və ruhu keçmişə qanatlandı.  Gözünün önünə gələn ilk üz bir qadın üzü idi. Bu qadın  üzü durmadan dodağının altında ona – «türk, türk balası» –  deyərək tərsləyirdi.

Hə xatırladı, bu üz onun ilk ibtidai sinif müəliməsi Tomanın üzü idi. Kamil ilk dəfə o günü eşitmişdi «türk» sözünü, amma Toma müəllimə bu sözü astadan dodağı altında donquldandığından, o bu sözü tam başa düşməmişdi, daha doğrusu nə dediyini ayırd edə bilməmişdi…

Anası Kamilin əlindən tutar məktəbə aparırdı, axı o məktəbə başlayırdı, bu gün sentyabrın 1-i idi. Toma müəllimə hamıdan sevinclə adını soruşdu, uşaqlarsa düşdükləri təzə mühitə alışa bilməyərək ağlayır, analarına sarılaraq onları buradan aparmasını istəyirdi. Kamilsə sakit və özünə əmin bir halda parta arxasında oturmuşdu. Toma müəllimə 7 yaşlı şagirdlərini sakitləşdirməyə çalışırdı. Uşaqlar ağladığından kimsənin anası sinifdən çıxa bilmirdi, sinifdən çıxanlar sinfin qapısından uzağa gedə bilmirdi. Kamilsə sakit halda oturmuşdu, anası onu qoyaraq artıq kolxoza getmişdi. Toma müəllim soruşdu:

– Kim şer bilir? – gülümsədi.

Uşaqların ağlaşma səsi biri-birinə qarışmışdı. Kamilsə sanki bu uşaqlardan biri deyildi:

– Mən danışım? – deyə mehribancasına soruşdu, axı anasının ona başa saldığı kimi, müqqəddəs varlıq olan müəllimlə danışırdı.

– Hə danış qəşəng bala. – Toma güldü.

– Azərbaycan…

– Nə? – Toma tutularaq soruşdu.

Kamil gülümsünərək müqəddəs varlıq olan müəlliməyə cavab verdi:

– Səməd Vurğunun «Azərbaycan» şerini danışacam! Hamısını bilirəm – fəxrlə dedi.

– Danış – Toma gülümsəməyə çalışdı.

– El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Ana doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan… – Kamil şerin bütün bəndlərini sonunacan, karıxmadan, intonasiya ilə söylədi.

Müqəddəs varlıq olan müəllim timsalı erməni millətində

necə olur bilmirəm, amma Toma hər Azərbaycan sözünü eşitdikdə üzündə qəribə bir turşuluq yaranırdı. Düzdür, Toma sinifdə olan anaların qarşısında özünü xoş tutmağa çalışırdı, bacardığı qədər, daha nə edəsi idi ki?! Kamil şeri bitirdikdə Toma gülümsəməyə çalışdı:

– Otur mənim ağıllı balam, – dodaqları arasında daha nəsə pıçıldadı.

Tomanın daha nəsə pıçıldadığı Kamilin gözündən yayınmadı, sonralar o bu dodaq tərpənməsini çox gördü, ona nifrətlə və ya nifrətini boğmağa çalışaraq acıqla «türk» deyəcəkdilər, Toma və onu kimi bütün erməni müəllimləri, hətta erməni uşaqları. Buna hələ vardı…

– Başqa kim şer danışar? – Toma soruşdu.

Bütün sinif ağlaşırdı. Kamil müəliməsinə olan içdən məhəbbətlə soruşdu:

– Birini də danşım müəllimə?!

Toma əsəbini boğmağa çalışaraq gülümsündü:

– Danış, sən nə ağıllı balasan?! – zorla güldü.

Kamil Səməd Vurğunun daha bir şerini danışmağa başladı. Bu o şerdi ki, sovet senzurasından keçmişdi, düzdür şairin başı bu ifadələrə görə ağrımışdı, o isə inadından əl çəkməmiş və sonunda soruşmuşdur ki, mənim yazdığım ifadələrin sizin «beynəlmiləlçilik üçün birləşin» şuarından fərqi nədir, siz də birləşin deyirsiniz, mən də. Bundan sonra söhbət bağlanmışdı. Əlbəttə ki, Kamil bu şeri danışanda 7 yaşlı uşaqdı və bu şeri sevdiyindən əzbərləmiş və danışırdı, başqa qayəsi yoxdu:

-… Qarışsın Qazaxa Dilican dərəsi,

Bir də Amxanaqo-Qızıl Gürcüstan…

Toma müəllimə əsəbini boğaraq dinlədiyi şerin bu yerində partladı, yüksək tonla dedi:

– Bəsdir! – valideyinlərin çaşqınlıqla ona baxdığını görüb, gülümsəməyə çalışdı. – Bəsdir, ağıllı bala, bəs qalanlardan da şer soruşmayaqmı?! – dişlərini ağartdı, qeyri ixtiyari dodaqları tərpəndi: – Kökün qırılsın türk…

Kamil duruxdu, müəlliməsinin sünii gülümsəməsindən sonra bir balaca özünə gəldi və gülümsədi:

– Müəllimə axı hamı ağlayır… – müəlliməsi yenə dodağının altında nəsə pıçıldadı. Kamil sakitcə yerində oturdu.

Günlər beləcə keçdi, o gün gəldi ki, əlifbanın şəkil üstündə olan dərsləri bitdi, Toma müəllimə «A» hərfini keçirdi:

– Uşaqlar bu gün sizin həyatınızda vacib bir gündür, çünki artıq hərfləri öyrənməyə başlayacaqsınız, tezliklə kitab oxumağı bacaracaqsınız!

Kamil sevinclə dedi:

– Müəllimə mən həriflərin hamısını bilirəm…

– Hərifləri bilirsənmi? – Toma hansısa səbəbdən əsəbi halda soruşdu.

– Hə, oxuya da bilirəm!

Toma müəllimə yarışa girmişcəsinə Kamilin partasına yaxınlaşdı, sərt bir hərəkətlə hərifi göstərdi:

– Bu nə hərfidir?! – əsəbi səs tonu ilə soruşdu.

– «A» – Kamil mehribancasına müəlliməsinə baxdı.

Toma vərəqi çevirərək soruşdu:

– Bu? – soruşdu.

– «N» hərfidir müəllimə – Kamil yenə eyni sevinclə dilləndi.

– Oxu görüm.

– An, na, ana. – Kamil oxumağa başladı.

Toma sürətlə vərəqləri açır və hərifləri göstərir, yazıları oxudur, Kamilin olduqca sərrast oxuduğunu görüb, kitabın sonuna yaxın vərəqlərdən birini açıb dedi:

– Hünərin var bu hekayəni də çaşmadan oxu? – Toma müəllimə sanki Kamilin çaşması ilə nəsə qələbə qazanacaqdı…

Kamil dayanmadan, bir nəfəsə hekayəni oxudu və başını qaldırıb sevimli müəlliməsinə baxdı:

– Müəllimə – ağız dolusu dedi, – əlifba kitabı çox asandır, mən o biri kitabları da oxuyuram.

– Hansı kitabları? – Toma bədbəxt bir hadisə eşitmiş insanlar kimi inlədi.

– Evimizdə Səməd Vurğunun kitabları var, Sabirin kitabı var, atam mənə «Azərbaycan nağılları» kitabını alıb, – sevincək dilləndi, – çoxdu, hamısını oxumuşam. Xoşuma gələn şerləri əzbərləyirəm də…

Toma müəllimənin gözləri böyümüşdü, üzündə qəribə bir ifadə vardı, dodaqları altında yenə nəsə pıçıldadı…

Kamilin sevimli müəlliməsi Toma niyəsə onun müəffəqiyyətlərini gördükdə dodağının altında nəsə pıçıldayırdı. Nədənsə Toma müəllimə ona çətin tapşırıqlar verməyə çalışırdı, verdiyi suallar həmişə dolaşıq olurdu. Kamilsə bütün sualları asanlıqla cavablayırdı. Kamil həmişə ona verilən sualların fərqli olmasını, daha çətin olmasını, müəlliməsinin onu daha çox istəməsi ilə bağlayırdı, çünki bu barədə anasından soruşanda o da elə demişdi. Tomanın ona verdiyi çətin suallardan Kamil daha da ruhlanırdı, sevimli müəlliməsinin suallarına hazır olmaq üçün ona aid oldu-olmadı bütün kitabları, atasının evə gətirdiyi qəzetləri belə oxuyurdu. Kamilin oxumadığı kitab qalmamışdı, məktəbin, kəndin kitabxanasında olan bütün kitabları, qonum-qonşuda olan bütün kitabları oxumuşdu, çox şey bilirdi, deyəsən bilmədiyi tək şey qalmışdı, erməni müəllimləri dodaqlarının altında nə pıçıldayır, bir də bunu bilsə idi.

Cəbr dərsi idi. Cəbr müəllimi Arşak həmişəki kimi Kamili lövhənin qabağına çıxarıb məsələ həll etdirirdi. Kamil sifətində heç bir həyacan olmadan arxayın bir əda ilə məsələni həll etdi və ona baxmadan jurnal yazan müəllimə səsləndi:

– Məsələni həll etdim!

Arşak ona baxmadan dedi:

– İndi məsələnin həllini izah et!

Kamil löhvədə göstərə-göstərə məsələnin həllini də izah etdi. Arşak müəllim qələmi partaya çırparaq ayağa qalıxdı:

– Düz deyil!

Kamil asta səslə:

– Müəllim məsələ düzdür. – dedi.

– Düz deyil dedim, otur yerinə, iki. – qiyməti jurnala yazdı.

– Mən məsələni düz həll etmişəm. – Kamil astadan, amma qətiyyətlə etiraz etdi.

– Kəs səni, otur yerinə, türk küçüyü! – Arşak bağırdı.

Kamil Arşakın «türk» deyərkən ağızını necə tərpətməsini gördü, içindən bir səs qeyri ixtiyari dedi:

– «Türk», bütün erməni müəllimləri dodaq altında türk deyirmiş! – Kamil uca səslə soruşdu: – Türk kimdir?!

Arşak bir anlıq tutuldu, sonra əlini yelləyərək bağırdı:

– Otur yerinə!

Kamil də «türk» sözünün üstündə dayanmadan dedi:

– Mənə niyə iki yazdınız, mən ki məsələni düz həll etmişəm?!

– Düz deyil! – laqeydcəsinə dilləndi.

Kamil ona qarşı getdikcə daha qəribə davranan erməni müəllimlərinin rəftarını anlaya bilmirdi, amma bu rəftarlar yavaş-yavaş onun əsəbini korlayırdı, Arşakın belə laqeyd hərəkəti Kamilin səbrini daşıran son damla oldu, o sinifdən çıxaraq bütün məktəbi ayağa qaldırdı, bütün müəllimləri öz siniflərinə gətirdi.

– Baxın bu mənə verilən məsələdir, bu da məsələnin həlli, Arşak müəllim deyir düz həll etməmisən! Bu artıq neçənci dəfədir! – Kamil əsəbini boğmağa çalışaraq dedi.

Məktəbin direktoru Artur müəllim sərt bir şəkildə dilləndi:

– Cəbr müəllimi deyəsən Arşakdır hə? – O Kamilin üzünə baxdı.

Kamil ona baxan qəzəbli gözlərə əhəmiyyət vermədən cavab verdi:

– Mən də bilirəm cəbr müəllim Arşak müəllimdir, amma mən məsləni düz həll etmişəm, məsələ bundadır! – Kamil qətiyyətlə cavab verdi.

– Cəbri burada tam bilən bir adam var, o da Arşak müəllimdir, o da deyir düz həll etməmisən, indi nə edək deyirsən, sənəmi inanaq?! – əsəbindən əl-qolunu oynatdı.

Kamil əsəbindən partlamaq üzrə olsa da, susmaqdan başqa yolu olmadığını görüb susdu. Təyinatla bu il Bakıdan Ulusoy məktəbənə göndərilən ixtisasca riyaziyyat müəllimi olan Elxan məsələni gözdən keçirib dilləndi:

– Artur müəllim, Kamil məsələni düz həll edib!

Artur Ermənistan ab-havasına öyrəşməmiş Elxan müəllimi süzüb:

– Sən azərbaycan dili və ədəbiyyatdan dərs demirsənmi?!

– Mənim ixtisasım riyazıyyatdır, yer olmadığından dilçi-

likdən dərs deyirəm!  Bir də ki burada nə var, kitabın arxasında məsələnin cavabına baxaq!

Kamil astadan dedi:

– Məsələ kitabdan deyil!

Elxan müəllim heç nə anlamadan soruşdu:

– Necə bəyəm kitabdan deyil?!

Arşak əsəbi halda dilləndi:

–  Biliklərini bərkidirəm…

Məsələni yenidən süzən Elxan müəllim Kamildən soruşdu:

– Neçənçi sinifsiniz ki siz?

– 8-ci sinif!

– Bu məsələ ki,   10-cu sinfə aid məsələdir, hətta inistitutda aid məsələdir, Arşak müəllim bu  nədir?! – Elxan heç nə anlamadan soruşdu.

Erməni müəllimlərindən biri dilləndi:

– Uşaqları bərkə-boşa salmaq yaxşıdır…

Elxan müəllim  heç nə anlamadan dilləndi:

– Buna mənim elə bir etirazım yoxdur, amma dərs proqramından kənar məsələ verib, şagirdə aşağı qiymət yazmaq nə deməkdir?! Bu şagirdi ruhdan salmazmı?! Üstəlik məsələni Kamil düz həll edib?! – O, heyranlıqla Kamilə baxdı, anidən heyrətlə sinifdən soruşdu: – Uşaqlar siz hamınız bu məsələləri həll edə bilirsinizmi?!

Kimsə cavab vermədi. Kimsənin cavab vermədiyini görüb Könül ayağa qalıxdı:

– Yox Elxan müəllim, Kamildən başqa kimsə bu məsələləri həll edə bilmir!  Sinifdə  hamı ondan zəifdir, həm də dəfələrlə. O lap eloktron maşındır. – utandığından başını aşağı saldı.

Elxan Arşak müəllimin üzünə baxaraq heyrətlə soruşdu:

– Bu məsələni Kamildən başqa kimsə  bilmirmi? Bu necə ola bilər? Daha niyə iki yazırsan uşağa?!

Arşak gözaltı Artur müəllimə baxdı, kimsənin ona qahmar çıxmadığın görüb hikkə ilə cavab verdi:

– Mən belə edərək Kamilin daha yaxşı oxumağını istəyirəm, o bacarıqlı uşaqdır, istəmirəm arxayınlaşsın! İstəyirəm daha çox çalışsın.

Elxan heç nə anlamadan soruşdu:

– Başa düşmürəm, qəribə məntiqdir?! 8-ci sinif cəbrinə aid olmayan, hətta orta məktəb proqramına aid olmayan məsələni Kamilə verməklə, üstəlik bu məsələni düz həll etməsinə baxmayaraq ona «2» verməklə sən onu ruhdan salmırsan?! Sən bunu bilmirsənmi ki?! – Elxan hələ də bunların bir anlaşılmazlıq, təsadüf olduğunu düşünürdü.

– Mən azərbaycanlı deyiləm ki, azərbaycan dilini ana dilim kimi bilim, ola bilsin Kamil məsələni izah edəndə onu düz başa düşməmişəm… – O Kamilə baxaraq, – O elə sürətlə danışır ki… – tərs-tərs Kamilə baxdı.

Artur tez dilləndi:

– Bu millətə yaranmaq olmur ki! Elxan müəllim sən hələ uşaqsan, Arşak müəllim səni kimi neçələrinə dərs deyib! Gör nə qədər hümanist insandır ki, tək ermənilərə dərs deməklə yetinməyib, azərbaycanlı uşaqlarına da azərbaycanca elm öyrədir, – əlini yuxarı qaldırdı, – başa düşürsənmi?! Budur qardaşlıq! Sənsə belə bir insanı tənqid etmək istəyirsən!

Kamil daha dözə bilməyib yenidən söhbətə qarışdı:

– Artur müəllim mən məsələni izah edəndə, o heç mənə qulaq da asmırdı. İnkincisi də, onun Azərbaycanca bilməməsi mənim günahım deyil! O bu fənni deməyə görə dövlətdən pul alır! Və əgər o məndən məsələni ona ermənicə izah etməyimi istəsə idi də, mənim üçün heç bir çətinlik olmazdı! Rusca da izah edə bilərdim, amma mənə qulaq asmayan bir müəllimə məsələni necə izah edirlər, hansı dildə izah edirlər, bunu bilmirəm?!

Artur Kamilin üstünə bağırdı:

– Kəs səsini, bu nə tərbiyəsizlikdir, küçük?!

– Mən sovet vətəndaşıyam və kimsənin məni təhqir etməyə ixtiyarı yoxdur! – Kamil Artur müəllimə sərt cavab verdi. – Qanunlarımız hətta vəzifəli şəxslərin səhvlərinə görə etiraz etməyə icazə verir, mən niyə susmalıyam?! Arkaş müəllim mənə bundan əvvəldə «2» verib, səbəbini bilmirəm! Mənsə bir pioner kimi bütün gücümlə oxuyuram və pionerlər inqilabçı atalarımız kimi haqsızlığa qarşı susa bilməz! Mənə düzgün qiymət verməmək, tək mənə qarşı yox, kollektivin hər bir üzvünə qarşı haqsızlıqdır!

Artur key halda soruşdu:

– Ə sən nə danışırsan?! Ə türk gədəsi…

– Türk nə deməkdir, mənə niyə türk deyirsiniz? – Kamil əsəbi halda Artur müəllimdən soruşdu.

Elxan müəllimin dalağı sancdı, əlini Kamilin çiynində qoyaraq dedi:

– Kamil daha bəsdir, keç yerinə! Arşak müəllim qiymətini düzəldəcək! Unutma ki, millətimiz böyüklərinə hörmət etməyənlərə pis baxır…

… Bir həftə sonra hansısa səbəbdən Elxan müəllim geri çağrıldı. Kamilsə hər gün daha çox haqsızlıq görməyə başladı…

Kamilin ruhu keçmişin qoynunda qanatlanırdı. Bahar çoxdan gəlmişdi. Kənddəki iydə ağaclarının ətiri küçəni başına götürmüşdü. Kamil Könülün qonşuya getdiyini bilirdi, iydə ağacını altında oturub onun evlərinə qayıtmasını gözləyirdi. Könülə eşqini elan edəcəkdi. Budur Könül qonşularından çıxıb, ayağının ucunda evlərin sarı qaçırdı. Kamilin ürəyi şiddətlə döyünməyə başladı, ayaqları əsirdi, ürəyi sanki ağzında idi. Könül iydə ağacının yanından keçmək istəyirdi ki, Kamil gücünü toplayıb ayağa qalıxdı və zorla pıçıldadı:

– Könül…

Könül səksənərək kənara atıldı və əlini sinəsinə qoyub həyacanla dedi:

– Məni qorxutdun! Axşam vaxtı burada nə edirsən?

Kamil səhərdən bəri düşündüyü cümlələri ard-arda deyərək eşqini elan etmək istədi, amma zorla bunu dedi:

– Könül! – susdu.

Könül onun heç nə demədən gözlərinə baxdığını görüb utandı, qeyri ixtiyari soruşdu:

– Nə var, nə baxırsan?! – gülümsədi.

Kamil yenə nəsə deyə bilmədi, yalnız adını pıçıldadı:

– Könül…

– … – Kamilin cavabını gözlədi.

Kamil bunu başa düşüb yenidən kəkələdi:

– Könül…

Könül gülümsədi:

– Nədir?!

Kamil onun gözlərinə baxaraq pıçıldadı:

– Şey… – Kamil düşündüyü bütün təmtaraqlı sözləri kənara qoyaraq bütün varlığı ilə pıçıldadı, – mən səni sevirəm!

Könül başını qaldırıb Kamilin gözlərinə baxdı, gülümsəyərək evlərinə qaçdı…

…Kamilin son xəyalını qaranlıq uddu və beynində bir səs əks səda verdi:

– Qaqa… – Bu Kamilin kiçik qardaşı Amil idi.

– Hə.

– Dərsim yaman çətindir, başa sal da? – o elə mehriban soruşurdu ki.

– Kitabını gətir gəl!

Amil kitabını götürüb Kamilin yanına qaçdı.

– Bu məsələni başa düşmürəm qaqa!

– Burada nə var ki, qaqa demək belə… – o məsləni başa salmağa başladı.

Məsələni yazıb qurtardıqdan sonra Amil yatağında kitab oxuyan Kamilin yatağına girib sevincək soruşdu:

– Qaqa bu gün mən səninlə yatım, hay?! – üzündən öpdü.

Kamil onun saçını qarışdıraq bağrına basdı:

– Yat!

Beş yaşı təzə tamam olmuş Lamiyə qardaşlarını bir yerdə görüb onlara tərəf qaçdı:

– Qaqa məni də qucağına al! – səs Kamilin beynində əks səda verdi…

Kamil illərdi gördüyü dodaqaltı mızıldanmalarda «türk» deyildiyini anlamışdı, amma niyə, nə üçün ona, azərbaycanlılara türk deyilirdi, bax bunu başa düşə bilmirdi?! Bir də başa düşmədiyi ermənilərin onlara qarşı gizlin nifrəti idi, müqqəddəs varlıq bildiyi erməni müəllimləri belə onu adi məktəb səhnəsində məhv etmək istəyirdilər! O isə bütün inadı ilə, erməni müəllimlərinin arzularını puç etdi, məktəbi bitirib, Bakıda universitetin tarix fakültəsinə daxil oldu. Əslində o riyaziyyatçı olmaq istəyirdi,

amma onun şahidi olduğı hadisələr, ona, azərbaycanlılara əsəbləşərkən ermənilərin türk deməsi onu tarix fakültəsinə sürüklədi. Çünki o danışılan Ermənistan Azərbaycan qardaşlığında, sovet qardaşlığında təzadlar görürdü. Deyilənlərlə, qanunlarla olanlar arasında bir uyğunsuzluq vardı. Kamil bu acgözlüklə Bakıda yenidən böyük kitabxanalara hücum etdi, siyasi-tarixi bütün kitabları oxudu. Hətta XIX-XX əsr yazarlarının, şairlərinin kitablarını da oxudu, çünki o yaxşı anlayırdı ki, axtardığı cavabı kitablarda hazır halda tapmayacaq. Bu səbəblə də bütün kitabları böyük bir şübhə ilə oxuyur, hadisələri, müxtəlif kitablardakı eyni dövrü, eyni hadisələri biri-biri ilə müqaisə edirdi. Oxuduqlarından çıxardığı nəticə bu idi ki, Azərbaycanı işğal edən Çar Rusiyası xüsusi səbəblərdən erməniləri Azərbaycanda mühüm mövqelərə gətirmiş, azərbaycan türklərini öz ölkəsində rusdan, daha sonrasa ermənilərdən asılı vəziyyətə salmışdır. Hansı səbəbdən Azərbaycanı məhv etmə siyasəti aparılmışdır, bu Sovet hökümət vaxtında da dəyişməmiş, əksinə daha qorxunc hal almışdır. Bütün bunların nəticəsi kimi Kamilə aydın olmuşdur ki, türk millətinin bir qolu olan azərbaycanlılar öz milli keçmişindən bütün vasitələrlə uzaqlaşdırılmağa çalışılır. Məsələn 1939-cu iləcən elə Sovet pasportlarında da azərbaycanlılar «türk milləti» kim yazılmışdır. Ona məlum oldu ki, Yeravanın qədim adı İravan olmuşdu və 1937-ci ilə qədər şəhər elə İravan adlanmış, sonradan adı dəyişdirilmişdir. Digər tərəfdən o keçmişi araşdırarkən Sovet qardaşlığının olmasına inamını tamamilə itirmişdi. Bu səbəblə də o universitetdə gizli təbliğat işinə başladı. Azərbaycanlılar içində özünün formalaşdırdığı qəribə bir metodla oyanış kampaniyasına başladı və sonunda tutuldu.

Kamili gecəykən yataqxanadan apardılar. Sühsünündən vurulan zərbədən huşunu itirmişdi, gözünü yarı qaranlıq bir otaqda açdı. Üç nəfər iri cüssəli, qara kostyumlu adam vardı qarşısında. Onlardan biri onun üzünə daha bir neçə sillə vuraraq bağırdı:

– Ayıl… ehey – güldü.

Kamil göz qapaqlarını tam açaraq onlara baxdı, hələ də tam olaraq nə baş verdiyini anlamadan soruşdu:

– Siz kimsiniz? Mən haradayam?

– Sənin yalnız cavablayacağın, bizimsə yalnız sual vercəyimiz yerdəsən! – onlardan biri istеza ilə güldü – Hə, Koroğlu eşidirik səni?

– Koroğlumu? – Kamil bir şey başa düşmədi.

– Hökümətinə qarşı gəlib Koroğluluq etmək istəmirdinmi?

– Demək Koroğlu olmaq nağıllarda deyildiyi kimi yaxşı deyilmiş, eləmi? – Kamil artıq harada ola biləcəyini anlamışdı və kinayə ilə soruşdu.

– Koroğlu rolunu oynayan sənsən, biz olanı deyirik! – onlar Kamilə sataşmaq istədi.

Kamildə onlardan geri qalmadan dedi:

– Demək siz də zalım bəylərin rolunu oynayırsınız!

Cavab onları tutmuş olacaq ki, onlardan biri Kamilə sillə vuraraq bağırdı:

– Gədə bura sənə sirk deyil!

– Amma siz özünüzü klon kimi aparırsınız, mənim nə günahım?! – Kamil istеza ilə cavab verdi.

– Demək oyun oynayırsan?

– Oyunu siz oynayırsınız, azərbaycanca danışır, amma Azərbaycanın xalq qəhramanı Koroğluya lağ edirsiniz, Koroğlunu bəyənmirsiniz!

– Demək hökümətdən razı deyilsən?!

– Hökümətdən?! Kim deyir bunu?!

– Hazırcavabsan deyəsən?!

– Şəxsi məsələ deyil, üstünə alınmayın! Hər bir sovet vətəndaşı mariflənməlidir, mən də bir az eləyəm, – Kamil qanlı tüpürcəyini yerə tüpürüb istеza ilə güldü, – amma məni döyməyiniz heç sovetcə deyil!

– Məqsədin nədir?!

– Məni tutduğunuza görə məqsədimi də bilirsiniz! Elə deyilmi?

Onlardan biri Kamilə bir neçə yumruq vuraraq bağırdı:

– Cavab ver!

– Nəyə?!

– Niyə erməniləri pisləyirsən?!

– Aaa – Kamil gözlərini döydü, – mən erməniləri pisləmişəm?!

– Sən! Bəli sən!

– Nə demişəm ki, bir izah edin, cavab verim də!

– Türkdən başlasan pis olmaz!

Kamil qəsdən ucadan güldü:

– Hə… bu məsələ. Deyim də. Məni bu yola ermənilər salıb. Bu yola düşəndə ilk məqsədim bu idi ki, ermənilər niyə mənə, azərbaycan xalqına türk deyir, bunu öyrənim! Ermənilər niyə bizə nifrət edir?! Məqsədim bu idi, sonrası hörük ipi kimi dalı gəldi. Hə, bu arada, bir sual verim, mən türk olduğumu bilmək üçün yüzlərlə kitab oxudum, küt-beyin ermənilər haradan bilir ki, biz türkük?!

– Sən məqsədinə əməllicə catmısan ki? – onlar güldü.

– Hə sualıma cavab tapmışam, amma bu cavab ağlımda daha çox sual işarəsi yaradıb! – Kamil onunla sican-pişik oyunu oynamaq istəndiyini yaxşı anlayırdı və siçan olmağa heç niyyəti yoxdu, çünki sonu bəlli idi.

– Nəymiş o suallar?! – gülüşdülər.

– Mən türk olduğumu bilmirəm, amma erməni bilir, bu ilk sualdır, artıq dedim.

– Sonra? – isteza ilə soruşdular. Onlar da yaxşı anlayırdı ki, bu rast gəldiklərinin bəlkə də ən soyuqqanlısıdır və etdiklərini duyğusal olaraq yox, şüurlu sürətdə edib. Beləsini isə döyməklə qorxutmağın mümkün olmadığını neçə illik təcrübələrindən bilirdilər.

– Niyə ermənilərin bizə türk deməsi cinayət deyil, amma bizim türk olduğunu anlamaq cinayətdir?!

– Sən hökümətə qarşı təxribat aparırdın! – onlardan biri bağırdı.

Kamil isteza ilə gülüb soruşdu:

– Kim deyir, sizdən başqa deyən qələt edir! – Kamil qəsdən daha sərbəst cavablar verirdi.

– Sən artıq iki aydır izlənirsən! Hamısını bilirik!

– Bütün dediklərimi artıq hərfiynən bilirsiniz, deyilmi?! Əla! Mən nə demişəm! Hamıya demişəm ki, ermənilər Yeravandakı

azərbaycanlılara türk deyirdi! Mən də araşdırdım, gördüm ki, biz türk soyuyuq! Bu təxribatdır?! Təxribatdırsa bunu bizə deyən ermənilər etmiş olmurmu?!

– Ağıllısan eləmi?!

– Marks demiş, «hökümət kimi istəyirsə tuta bilər»-i başa düşəcək qədər ağıllıyam. Amma bəziləri isə atalar demiş «arxalı köpək qurd basarı»– anlamayacaq qədər keydir!

– Erməni xalqına qarşı nifrət oyatmağa çalışırsan! Bəs bu təxribat deyilmi?!

– Mən nə demişəm ki? – Kamil təəcüblə qaşını dartaraq qımışdı, – Demişəm Ermənistanda olan azərbaycan məktəblərində çoxlu sayda erməni müəllimləsi var, azərbaycanca belə zorla danışırlar! Gedin yoxlayın, görün düzdür, yalan! Demişəm onlar dərsləri yaxşı keçmir, azərbaycanlı şagirdlərin qiymətini kəsib ruhdan salmaq istəyirlər! Mənim şəhadətnaməmdə 2 «üçüm», 6 «dördüm» var, hamısı da erməni müəllimlərinin dərs dedikləri fəndəndir. Səhvmi deyirəm, gətirin həmin müəllimləri, mənim də biliyimi yoxlayın, o müəllimlərin də. Mənim bildiyimin yarısını bilsələr deyin ki, qəsdən təxribat aparmışam! Amma mən düzünü demişəm. Hətta bu barədə yuxarıya dəfələrlə məktub da yazmışam, təxribat gizli aparılır. Bəs nə oldu komminist demokratiyasına?!

– Sən erməni xalqı ilə azərbaycanlılara eyni hüquqların verilmədiyini söyləmisən!

– Söyləmişəm! – tam əminliklə dedi. – Yüzlərlə azərbaycan kəndini «prespektivi yoxdur» deyib erməni kəndlərinə birləşdirdilər. Erməni kəndlərində bütün şərait yaradılıb, azərbaycan kəndlərisə sanki Nuh əyyamında yaşayır! Düz əmməli yolu olmayan azərbaycan kəndləri var! Sovet hököməti dünyanın o başında komminist quruculuğu ilə məşğul olur, amma öz daxilində yol sala bilmirmi?! Sala bilir, amma bunu kimlərsə qəsdən etmir! Niyə?! Mən də hamıdan bunu soruşmuşam, demişəm bəlkə bilən var?!

– Dediyinin heç bir məntiqi yoxdur! – onlardan biri niyəsə həyacanla etiraz etdi.

– Məntiqi yoxdumu?! Hı. – Kinayə ilə güldü – Hər il Ermənistandan neçə azərbaycanlı ailəsi bu haqsızlığa dözməyərək Azərbaycana qaçır! Qalanlarsa dediyim kimi sosial-siyasi cəhətdən ermənilərdən dəfələrlə geri qalır! Nə olub erməni azərbaycanlı qardaşlığına?! Bəs hanı benəlmiləlçi Sovet dövləti?! Başa düşməmişəm, soruşmuşam da… – Kamil son sözü uzatdı.

Həmin adam əsəbi halda dilləndi:

– Proletariatın, sovet kəndlisinin vətəni yoxdur! Azərbaycana gələndə nə olur?!

– Azərbaycana gəlməklə, Ermənistanda haqları əlindən alınaraq bezdirilmək arasında fərqi görmürsənsə, daha nə deyim! Proletariata, sovet kəndlisinə bərabər hüquqlar verməklə, Ermənistanda azərbaycanlı kəndlilərinin haqlarının sünii şəkildə, qəsdən əlindən alınması səncə eynidirsə, mən daha nə deyim!

– Bu təxribatdır!

– Bu faktdır yoldaş. – Kamil kinayə ilə dedi, – Ermənistandakı azərbaycanlı kəndləri ilə ermənilər yaşayan kəndlərin fərqini inanmayan gedib bunu öz gözü ilə görə bilər!

– Sən axı başqa sözlər də demisən! – Həminki adam bağırdı, amma deyəsən onun əsəbi Kamilə deyildi…

– Demişəm. Demişəm ki, beynəlmiləlçilik nədir mən tam başa düşmürəm və bunu hamıdan soruşmuşam, müəllimlərimdən belə. Soruşmaq günahdırmı?! Atalarımız necə deyib «bilməmək ayıb deyil, soruşmamaq ayıbdır!»

– Yox soruşmaq günah deyil, amma sən nə soruşmusan?!

– Hamıya eyni sualları vermişəm, amma cavab ala bilmədiyimdən yenidən başqalarından soruşmağa məcbur olmuşam! Yaxşı, sizdən də soruşum, axı nədə olsa siz bu yekəlikdə hökümətin KQB-şniklərisiniz! Bakıda bu yekəlikdə Kirov heykəlinin varlığı nədir, sovet qardaşlığı, sovet beynəlmiləlçiliyi, erməni azərbaycan qardaşlığıdımı?!

– Hə.

– Kirovabad şəhərinin adı da eyni səbəbdəndirmi?!

– Hə.

– Bakıdakı Şaumyan adına rayondamı?!

– Hə.

– Və Azərbaycanda ən yaxşı vəzifələrdə ermənilərin oturması da beynəlmiləçilyin bir simgəsidir, elə deyilmi?! Azərbaycanda yüzlərlə ermənin adına küçələr də bu səbəbdədir, hə?!

– Hə, qısa kəs!

– Bura qədərini düşündükdə, inanın mənə də beynəlmiləlçiliyi başa düşürəm. Amma…

– Nə amması?

– Dədə-bavadan azərbaycanlıların olan, özü kimi, adı da azərbaycanca olan kəndlərin adının erməniləşməsidəmi beynəlmiləlçilikdir?! Əsrlərlə adı İravan olan şəhərin Yeravan olmasıdamı beynəlmiləçilikdir?

– Əlbəttə… – bayaqkı adam əsəbi halda bağırdı, onun alnında tər tumurcuqları vardı.

– Kirov kimi Nəriman Nərimanov da Sovet quruculuğunda mühüm işlər görməyibmi?! – Kamil soruşdu.

– Əlbəttə görüb…

– Elə isə Yeravanda Nəriman Nərimanov adını daşıyan küçənin adı niyə dəyişdirilib?! Biz Kirova şəhər adı verə bilirik, amma qardaş erməni xalqı niyə bir küçə adını da bizə çox görür? Beynəlmiləçiliyin bu yeri mənə çaşdırır da, soruşmayımmı? – Kamil ciddi şəkildə soruşdu.

– Nə çərənləyirsən? – Bayaqkı adam qışqırdı.

Kamil qəsdən masumcasına dedi:

– Deyirəm Azərbaycanda adların erməniləşdirməsi beynəlmiləçilikdirsə, Ermənistanda tarix boyü azərbaycanca olan adların erməniləşdirilməsi nə olur, o da beynəlmiləlçilik?! – Dodağını uzadaraq soruşdu, – Bunu soruşmuşam hər kəsdən, amma hamı gözünü döyüb, hə hökümətimizin qüruru, xüsusi xidmət orqanının nümayəndələri siz cavablayın! Mən bunu soruşmuşam hamıdan, başqa nə demişəm ki?!

– Sən ateist deyilsən!

– Kim deyib?! Mən sadəcə soruşmuşam ki, məscidləri yıxırlar başa düşdüm ateizimdir, bəs niyə ermənilər gündə bir kilsə tikir?! Bunu başa düşmürəm də – Kamil qımışdı, – soruşmayım?! Atalarımız nə deyib, «bilməmək ayıb deyil, öyrənməmək ayıbdır». Mən də bilmədiyimi soruşmuşam da.

Digərləri Kamili vurmaq istəyəndə həmin adam onları qoymadı:

– Nə edirsiniz?

– Oyun oynayır tülkü…

– Yox bu barədə rəhbərliyə məlumat vermək lazımdır, bu məsələ bizi aşar. – O, heysiz halda divara söykəndi.

– Sənə nə olub Xalid? – digər iki nəfəri onun rənginin avazıdığını görüb soruşdu.

– Heç, ürəyim sıxıldı birdən! Mən hava almağa çıxıram. – Xalid ayaqlarını sürüyərək çölə çıxdı.

Qalan iki adam başladı Kamili döyməyə, arada bir nəfəs almaq üçün dayanır və sorğu suala başlayırdılar:

– Təxribat apardığını boynuna alırsanmı?!

– Mən heç bir təxribat aparmamışam, sadəcə başa düşmədiyimi soruşmuşam?! Erməni müəllimlərinin haqsızlığınısa bütün təfərrautu ilə dövlət orqanlarına yazmışam da. Mənə qarşı haqsızlıq olduğunu demişəm, ən azından bizim məktəbə kommisiya göndərilməsini xahiş etmişəm!

– Sən sovet xalqlarının qardaşlığına xələl gətirdiyini qəbul edirsənmi?! – onu yenidən vurmağa başladılar!

Kamil zorla dikələrək onlara baxdı:

– Siz ermənilər azərbaycan qardaşlığına xələl gətirirsiniz! – Kamil gülməyə çalışdı, sinəsinin ağrısndan öksürdü.

– Biz erməniyikmi?!

– Şübhəm yoxdur, həmişəki kimi, 1920-ci illərdə azərbaycanlılara ölüm fərmanı verən «üçlüklərdəki» ermənilər kimi. Siz erməni deyilmisiniz?! – Kamil kinayə ilə gülmsədi, – Yoxsa yenəmi təxribat aparıram?

– Yox ağıllısan, çox şey bilirsən!

– Çox şey bilmirəm, eyni yolu dövrələyirsiniz!

– Oooo… – güldülər.

– Oooo…. – Kamil də gülümsəyərək onların ağızlarını yamsıladı.

– Demək oyunu sevirsən hə?!

– Oyunu sevmirəm, başımıza oyunlar gətirirsiz!

Onlardan biri Kamilin qulağına pıçıldadı:

– Bilirsənmi  mən əslində sənədlə tam azərbaycanlıyam, əli ilə arxasında olanı yoldaşını göstərdi, o isə  sənədlə  qardaş erməni xalqının nümayəndəsidir, beynəlmiləl hislərlə  yaşayıb Azərbaycan üçün can qoyan  sovet vətəndaşıdır!

Kamil  başını yelləyərək  kinayə ilə qımışdı:

– Şadam, mən də türkəm!

O Kamilə  yumruq vuraraq bağırdı:

– Kəs səsini küçük!

– Bilirsən nə var?! – Kamil cəsarətlə onlara baxdı, – Bir gün gələcək bir Koroğlu gələcək, amma kor olmayacaq, sizi Goroğlu edəcək,  amma  gor qazmağa bir nəfərinizi də qoymayacaq! – sinəsindəki ağrıya baxmayaraq ucadan güldü, – Əslində elə o gün qorxudur sizi də!

– Sən bir ölüsən!

– Sənsə ermənisən! – Kamilin istezası səsindən aydınca bəlli idi.

– Başa düşmədim? – o əsəbi halda soruşdu.

– Yəni bir ölü olmaq, bir erməni olmaqdan daha şərəflidir!

– Kəs sənini türk köpəyi! – o Kamili vurmağa başladı.

Kamil  zarıdı:

– Mən etiraf etmək istəyirəm! – səsində yenə bir siçan-pişik oyunu olduğu hiss olunurdu.

Onlar sevinərək əllərini saxladı:

– Təxribat etdiyini etiraf edirsənmi?! –  onlar artıq  Kamilin döyülərək boynuna nəsə alacağına inanmırdı.

– Türklər köpək yox qurddur, ermənilərsə çaqqaldır!  Bunu etiraf etmək istəyirdim! – Kamil dişlərini biri-birinə sıxaraq dedi.

Onlar  heyrətlə Kamildən soruşdu:

– Sən nədən belə qüvvət alırsan?!

Kamil əminliklə bağırdı:

– Xalqımdan, keçmişimdən, soyumdan, Allahımdan, peyğəmbərimdən, türklüyümdən. Sabah qısasımı alacaq qardaşlarımdan güc alıram!

– Səni kim  çox meydan oxuyan görmüşük, səni kimi çox millətbazlıq xəstəliyinə tutulan görmüşük! – Onlar Kamili döyməyin

bir əhəmiyyəti olmadığını görüb onu sözlə yaralamaq istədilər.
– Elə öz millətinizə səni qınadacayıq, uğrunda ölmək istədiyin xalq özü sənə düşmən kəsiləcək! – Güldülər, – Elə həmin xalq özü səni öz əhatəsindən qovacaq! – onlardan biri stolun üstündəkt rezin çopu götürüb Kamilin başına vurmağa başladı.

Kamil bağırdı:

– Qardaşlarım bunun qısasını alacaq! – son deyilənlər deysən onu yaralamışdı.

Əlində rezin çop olan adam digərinə bağırdı:

– Sən nə durmusan, çopu götür, sən də vur. Məni kimi vur, elə vur başı yarılmasın, başına-başına döyəclə!

– İşi necə bağlayacayıq?! İstintaq müddətində öldürməyi qadağan ediblər, boynuna da almır! Nə edəcəyik?!

O rezin çopu Kamilin başına vura-vura bağırdı:

– Dəliyə kimsə inanmaz, elə deyilmi?! Buradan bizim qonağımız olduğu bəsdir, dəlixanaya göndərəcəyik, bir ağlını yoxlasınlar! Əgər dəlidirsə dövlətin borcudur onu müalicə etsin!

– Dəlixanamı?!

– Bunu məhv etməsək sabah həqiqi mənada Koroğlu olar, ya da bizi məhv edəcək koroğlulular yetişdirər! Öldürməyə icazə vermirlər, versələr belə, əgər öldürsək bunu tanıyanların gözündə qəhraman edərik! Dəli olduqdasa, hamının gözündən düşəcək! – Gülməyə başladı, – Millət dediyi, qardaş dediyi əla salacaq o zaman bunu!

Həmin günün axşamı üçlüyün içində olan kor olsa belə əsl azərbaycanlı olan Xalid evə gedərkən liftin qapısından aşağı düşərək öləcəkdi, sən demə lift gəlmədən qapısı açılmışdı… Texniki nasazlıq, nə edəsən?!

Kamili dəlixanaya sövq etdilər, guya istintaq müddətində müstəntiq onun ağıl çatışmazlığından şübhələnibmiş, bu səbəblə də istitntaqı dayandırıb və onun əqli inkişafının yoxlanılması üçün həkim baxışına göndərmişdi. Həkimlərin qərarı ilə, həmçinin yaşadığı kəndə göndərilən siqnaldan məlum oldu ki, Kamildə şizefreniya meyillilik olub. O uşaqlıqdan özünü qəribə aparırmış. Uzun müddət müalicə olundu, bu müddət bir il çəkdi. Bundan sonra həkimlər onu nəzarət altında əvvəlki həyatına davam etmə-

sinə icazə verdi və mütləq universitetə də davam etməli idi. Hətta Kamilin başına nəsə gəlməmək üçün ona yaşlı bir şəfqət bacısı da ayırmışdılar. Bu şəfqət bacısı onu dərsə aparmalı, dərsdən gətirməli, vaxtlı-vaxtında dərmanlarını verməli və ən əsası ona nəsə baş versə ilk tibbi müdaxiləni etməli idi. Axı sovet vətəndaşının sağlamlığı hökümət üçün hər şeydən vacib idi. Şəfqət bacısı olan Mariya Kamilin əlindən tutaraq hər gün dərsə gətirir-aparır, yanıqlı-yanıqlı hamıya onun halına necə yandığından danışırdı. Kamil bir dərs ili geri qaldığından onun tələbə yoldaşları ondan bir kurs yuxarı oxuyurdu, amma təsadüfdən Kamilgilin sinfi tez-tez köhnə sinfi ilə birləşirdi. Axı köhnə sinif yoldaşları Kamilin dəliliyini öz gözləri ilə görməli idi.

Kamilin yeni başladığı həyatda ilk dərs günü idi. Sinfi köhnə sinifləri ilə birləşmişdi. Kamil tələbə dostlarına baxıb, nəsə düşündü, deyəsən bu üzləri haradan xatırladığını aydınlaşdırmaq istədi. Həsən sevinclə ona tərəf qaçıb əlini uzatdı:

– Salam, Kamil!

Kamil əli ilə üzünü tutub geriyə doğru qısıldı:

– Odaaa…

Həsən duruxdu, qalan uşaqlarsa gülüşdü. Müəllimin sinfə girməsi ilə uşaqlar partalar arxasına keçib oturdu. Mehriban şəfqət bacısı Kamilin qolundan tutub boş bir partanın arxasında oturtdu, özü də onun yanında oturdu. Mədət müəllim masasının arxasına keçib oturdu:

– Uşaqlar təzə dərs ilində sizi xoş gördük! Mən sizə Azərbaycan tarixindən dərs deyəcəm! – O əli ilə Kamilin köhnə sinif yoldaşlarını göstərib dedi – Bu il institutа qəbul olan gənc dostlarım, bu tələbələrdə keçən il sizi kimi çaşqındı, üzlərindən sevinclə bərabər bir qorxu vardı, tək bir nəfərdən başqa, – əli ilə alnını ovuşdurdu, guya özü-özünə danışırmış kimi, – nə idi onun adı, nə idi? Hə yadıma düşdü, – əlini şartıldatdı, – Kamil! Sonra dedilər ki, nəsə xəstələnib, – qəsdən dəlixanaya aparılıblar demədi, – indi aramızda yoxdu, o başqa aləmdi. Gözlərində cəsarət alovlanırdı sanki, hətta ilk dərsdəcə mənimlə tarixi müzakirə etməyə cürət edəcək qədər savadlı idi. Hə o başqa aləmdi, – guya Kamili indicə

görürmüş kimi edib, – Oooo Kamil artıq aramızdasanmı?! Sənin üçün yaman darıxmışdıq! – güldü, səsində sevincdən çox istehza vardı. – Baxın uşaqlar Kamil bu oğlandır. – əliylə Kamili göstərib dedi, – Dur ayağa oğlum, qoy təzə tələblərdə səni tanısın!

Şəfqət bacısı Kamili dümsüklədi, Kamil ayağa qalxdı, məhcul baxışlarla Mədət müəllimə baxdı. Mədət müəllim soruşdu:

– Kamil sənə nə olmuşdu?

– Də-də-llli-xxxanadaydımmm… – kəkəldədi.

Hamı gülüşdü. Şəfqət bacısı Mariya canı yanırmış kimi, ayağa qalxıb dedi:

– Üzr istəyirəm müəllim. Uşaqlar niyə gülürsünüz? Dili bir ayacan tam açılacaq, dərslərindən geri qalmasın deyə gözləmədik. Gülməli nə var ki?! – oturdu.

Mədət müəllim guya Kamilin ayıbını örtürmüş kimi:

– Həmşəki kimi zarafatından əl çəkmirsən! Xəstəxanada niyə yatırdın?! – o bir il bundan əvvəlki haqq-hesabı çürüdürdü.

– Yyyox, dddəlixanadaydımmmm. – kəkəldədi.

Hamı qəşş edərək gülməyə başladı. Kamil qulağını tutub partanın altına girdi:

– Oooa susss… – zarıdı.

Sonunda zəng vuruldu, tənəffüsdü. Kamil əli ilə qulağını tutub büzüşdü, inləməyə başladı, zəngin səsi onun beyninə işləyirdi:

– Oooooaaa susss. Odaaa. – Kamil bağırdı.

O günü auditoriyada tamaşa oynanılırdı, amma bu auditoriyanın incəsənət fakultəsi ilə heç bir əlaqəsi yoxdu, bura tarix fakültəsinin auditoriyalarından biri idi. Senari yazılmış, aktiyorlar bəlli idi, rolları fakültənin bir çox müəllimləri oynayırdı, baş rollardan biri milliyyətcə erməni olan Məddət müəllimə verilmişdi, tamaşaçılar Kamili tanıyan tələbələr idi. Kamili iki ay universitetdə meymun kimi oynatdılar. Mariya guyakı ürək yanğısı ilə onun barəsində danışırdı, əslindəsə bu hekayələr Kamilin ləyaqətini tapdanmasına hesablanmışdı, Kamilin savadına heyran qalan tələbələr indi ona bir əyləncə-gülüş hədəfi kimi baxırdı. Bu şəkildə Kamili xalqına, bacı-qardaşlarına güldürdülər və tamaşa bitdi. Mədət müəllim başda olmaqda onlarla müəllim Kami-

lin universitetdən xaric edilməsi ilə bağlı ərizə yazdılar və onu ata-anasının yanına göndərdilər. Amma tamaşanın ikinci bölümü kənddə oynanmağa başlandı, baş rolda yenə ermənilərdi, onlar yenə senarinin mahiyyətini kəndə təqlin etməli idilər.

Kamilin atası Bəxtiyarın başına siyasi şöbə min oyun açmışdı, Bəxtiyar ilk gündəncə oğlunun dəli olduğunu, əvvəllərdə oğlunda qəribəliklərin olduğunu bildirmişdi.

…Nigar ana Kamilin gözlərin açdığını görüb, sevindi, dodağı əsərək soruşdu:

– Heç yanın ağrımır ki bala?!

Kamil bədəninin ağrısına əhəmiyyət vermədən anasının təbəssümündə əridi:

– Yox ana. – gülümsündü, indi anası daha ürəkdən güləcəkdi.

– Gör kim gəlib? – anası Mərdan kişini göstərdi.

Kamil niyəsə təsirləndi, daha kövrək səslə pıçıldadı:

– Qağa, qağam!

Mərdan kişi Kamilə baxıb Nigar arvaddan soruşdu:

– Buna nə olub?

Nigar arvad əlini ağzına tutaraq başını aşağı saldı, gözündən yaş süzüldü. Mərdan kişi mənalı-mənalı başını yellədi, üzünü Kamilə tutub soruşdu:

– Bizdə qalarsanmı?!

Kamilin gözləri parladı:

– Hə.

Nigar xala oğlunun ağlamasını eşitməməsi üçün çölə çıxdı.

O gündən Kamil bizimlə, yəni Mərdan babamgılin evində qaldı. Babam onu özü ilə işə aparırdı, bəzən evlərində heç kim olmayanda o anasının yanına gedirdi, hamının işdən gələn vaxtısa o gəlib qapımızın ağzında babamın işdən gəlməsini gözləyirdi. Babam gəlmədən evə girməzdi, bir dəfəsində babam gec gəlmişdi, güclü yağış da yağırdı, nənəm nə illah etdisə xeyri olmadı, Kamil evə girmədi, babamın gəlməsini gözlədi.

Mənim ondan zəhləm gedirdi, çünki deyəsən babam onu məndən çox istəyirdi. Həm də onun bizdə qaldığına görə uşaq-

lar bəzən mənə də lağ edirdi, düzdür ağızlarının payını verirdim, amma mən özüm daha ona sataşa bilmirdim, uşaqlarıda qoymurdum, axı babama söz vermişdim. Bir dəfə uşaqlar Kamili vurmaq istəyəndə uşaqlarla ağızlaşdım, onun üzündən bütün uşaqlar mənə qarşı çıxdı, Əsli mənə bağırdı, o anda mən də Əsliyə bağırmışdım, «daşürəkli» demişdim ona, bir dəliyə görə Əsliyə bağırmışdım, dostlarımı tərsləmişdim, buna görə də ondan zəhləm gedirdi. Orxan qaqam da onu çox istəyirdi, Solmaz büfüdə onu süfrəyə çağırmadan mənə yemək vermirdi… Ən çox da «ermənilər pisdir» dediyinə görə ondan zəhləm gedirdi, axı mənim Əslim erməni idi.

Onu son dəfə ulusoydan qaçarkən gördüm. Yolun qırağında kolluqda gizlənərək kənd sovetinin qabağında ermənilərin ulusoyluların başına gətirdiklərini izləyirdim. Ermənilər dağılmadan yolu keçə bilməzdim, gözləyirdim bütün ermənilər dağılsın. Onlarsa getməyə tələsmirdi, artıq kəndi tamamilə talamışdılar, hər şeyi maşınlara doldurmuşdular, amma sağ qalan ulusoylulara işgəncələr verərək nəyisə gözləyirdilər. Sonra bir erməni saqqallısı bağırdı:

– Robert gəlir, Robert! – sevinclə avtomatını yuxarı qaldırıb güllələri havaya buraxdı.

Sonunda qara bir volqa gəldi. Hamı maşından düşən Robert dedikləri adamın yanına qaçdı, o əlini ölçərək nəsə dedi. Yaxınlaşıb qadınlara-qızlara baxdı, onlardan ikisini seçib maşınına mindirtdi, özü də maşına tərəf getdi, anidən dayanıb sakitləşmədən ağlayan çağanın anasına tərəf yeridi…

…Yusif kişinin gəlini Lalə durmadan ağlayan çağasını sinəsinə sıxıb yırğalamaqla susdurmağa çalışsa da çağa isə susmaq bilmirdi. Maşına tərəf gedən Robert dayandı, çönüb ona tərəf gəldi, Lalənin qabağında dayanıb tərs-tərs ona baxdı, əlini uzadıb çağanı özünə tərəf çevirdi:

– Kəs səsini, erməni olan yerdə türk gərək çınqırını da çıxarmasın! – o sanki körpə ilə yox, tay-tuşu ilə danışırdı.

Lalənin qorxudan ürəyi ağzına gəlmişdi, ürəyinin döyünməsi beynində eşidilirdi, çağa da sanki anasının narahatçılığını hiss edib daha ucadan ağlamağa başladı.

– Sənə səsini kəs demədimmi?! – deyə bağıran Robert çağanı  Lalənin əlindən alıb başı üstünə qaldırdı, var qüvvəsi ilə yerə çırpdı.

Türk körpəsinin qanı  Robertin üzünə  və Leninin heykəlinə sıçradı. Körpənin səsi kəsildi. Ulusoylular susmuşdu, nəfəs belə almağa qorxurdular. Ermənilər  bu səhnəyə baxaraq nəşə içində gülürdü. Laləsə heç bir səs eşitmirdi, beynində bir uğultu vardı, gözü yalnız  parça-parça olan körpəsini və Roberti görürdü. Gözündən iri iki damla yaş süzüldü, dodağı əsdi:

– Türkanım oyyy… – deyib Roberti boğazladı.

Robert gözləmədiyi hücumdan səndələyərək arxası üstə yerə yıxıldı, Laləsə  əl çəkmədən onu bərk-bərk boğazlayırdı. Ya Tanrı güc verdiyindən, ya hansısa başqa bir  səbəbdən Lalə Roberti elə boğazlamışdı ki,  Robertin gücü yalnız xırıldamağa çatdı, heç bir müqavimət göstərə bilmirdi.  Avtomat şaqqıldadı, Lalənin qanı Robertin üzünə töküldü.  Saqqallılardan biri bununla yetinməyib, Lalənin cəsədini Robertin üstündən kənara tuladıqdan sonra avtomatdakı bütün gülləni ona boşaltdı.

– Robert necəsən?! – raykom onu dikəldərək soruşdu.

Robert  belini Leninin heykəlinə söykəyib bir-iki dəqiqə danışmadan tövşüdü, qanlı əlini keçəl başına çəkdi, bir müddət sonra ehmalca  heykəldən tutunaraq ayağa qalıxdı, üzündəki türk qanını  cibindən çıxardığı  çib dəsmalı ilə silib, astadan pıçıldadı:

– Cəsədləri aparıb yandırın,  bunlarısa, – sağ qalan ulusoyluları göstərdi, – hərbi hissənin zirzəmisinə… –  əsəbi halda maşina minib getdi.

…Bundan sonra  sağ qalan ulusoyluları avtobuslara doldurub kənddən çıxardılar, arxasınca  cəsədləri yük maşınlarına yığıb kənddən çıxardılar.  Ululsoyluardan  geriyə qalan qan izləri, pal-paltar və hələ də sönməyən Novruz tonqalı idi. Sonunda ermənilər dağıldı. Mən artıq kimsənin olmadığı  yəqinləşdirib kolluqdan çıxdım və əsas küçəni adlayıb,  qaranlıqda sinə-sinə kənd yuxarı getdim, çünki  bizimkilər tərəfə keçmək üçün gərək kənddən çıxaydım, ondan sonra dağı aşmalı idim.  Birdən arxadan səs gəldi:

– Dayan! – Bu Əslinin atası Haykazın səsi idi.

Çönüb ona baxdım. Haykaz mənə yaxınlaşdı, qulağımın dibinə bir sillə vurdu. Zərbədən hərlənərək yerə yıxıldım.

– Türk köpəyi. – deyə bağırdı.

Mən qorxudan qeyri ixtiyarı olaraq yalvarışla dedim:

– Mənəm Haykaz əmi Azər, Əslinin dostu. – Onların artıq əsl üzünü bilsəm də, bərk qorxmuşdum və özümdən asılı olmayaraq belə demişdim, indi nə qədər o halımdan utansam da, belə dedim, – Burax gedim.

O var qüvvəsi ilə qarnıma təpik vurdu və mənim sançıdan qıvrandığımı görüb ayağı ilə başımı sıxdı:

– Türk köpəyi. – Birdən sevincək bağırdı, – Səni aparıb it damına zincirləyəcəm, Əsliyə köpəklik edərsən, – deyib güldü. – Artur tez ol gözləyirlər! – O məktəb direktoru Arturu çağırırdı.

Artur evinin darvazasından çıxıb Haykazdan soruşdu:

– Ara nə edirsən?

– Mərdanın Azərini tutmuşam, qaçırdı.

O sevincək bizə tərəf qaçdı, əyilib mən baxdı, üzümə tüpürdükdən sonra məni təpiklədi və pıçıldadı:

– Haykaz aparaq bizə, nə deyirsən?! Bizdə…

Haykaz etiraz etdi:

– Yox onu it damında zəncirləyəcəm, köpək əvəzinə. Mənimdir!

– Öldürməyəcən?! – Artur heyrətlə soruşdu.

– Bir iki həftə sonra öldürərik, əvvəlcə bir ləzzətlə məzələnək. Bunun yerə atılan sümüyü götürüb gətirdiyini görmək istəyirəm. – Haykaz güldü, Artur da ona qoşuldu.

Mən qorxudan tir-tir titrəyirdim, birdən hiss etdim ki, daha kimsə qanlı balta ilə onlara yaxınlaşır. Qaranlıqdı deyə əvvəlcə onun üzünü görmədim, düşündüm ki, kimdirsə indi məni baltalayacaq. O daha bir addım atdı, baltanı qaldıraraq Haykazla Arturun qənşərində durdu, onun üzünə qan rənginə boyanmış ayın işığı düşdü. Əlində balta tutan Kamildi, üz-başı qan içindəydi. Onlar Kamilin hənirtisinə çönüb geri baxdılar və Kamili görüb hər ikisi diksinərək geri çəildi:

– Ayyy… – Haykaz əlini qabağa uzadıb  xırıldadı, – Kamil biz qonşuyuq!

Kamil dişlərini biri-birinə sıxıb baltanı onun boynuna endirdi, Haykazın bədənindən qopan başı  dığırlanaraq yerə düşdü, qanı Kamilin üstünə fışqırdı, o sevinclə pıçıldadı:

– Torpağımıza düşmən qanı töküldü! Axan düşmən qanıdır.

Mən Kamili görüb özümə gəlmişdim, Artura təpik vuraraq ayağa qalıxdım, atlanaraq məktəb direktorumun başına  bütün gücümlə sillə vurdum və Kamilə  baxaraq pıçıldadım:

– Kamil bunlar bizimkiləri öldürdü!

Kamil baltasını qaldırıb həmişəki sözünü dedi:

– Azər ermənilər pisdir!

İlk  dəfə idiki Kamilin erməniləri pisləməsi mənə belə ləzzət edirdi.  Bu dəfə mən sidqi ürəkdən onun sözünü təsdiqlədim:

– Ermənilər pisdir!

O üzünü Artura tutub soruşdu: – Tanıdınmı Kamili, qiymətini kəsdiyin Kamil, sillə vurduğun Kamil,  uşaqlıqdan dəli olduğunu təsdiqlədiyin Kamili?!

Artur şalvarını batırdı, əyilərək Kamilin ayağını  qucaqlamaq istədi:

– Kamil sən Allahın adı məni bağışla!

– Mən Allahın işinə qarışa bilmərəm! – deyib Kamil baltanı qaldırıb onun da boynunu vurdu.

Sonra məni kənddən çıxanacan ötürdü. Kənddən çıxdıqdan sonra cibindən çıxardığı  bıçağı mənə verərək dedi:

– Azər lazımın olar, al! Sənə uğurlar!

Mən Kamilin nə etmək istədiyni anlayıb ağladım:

– Sən gəlmirsən?! – mən  ilk o anda anladım ki, mənim dünyada sağ qalan ən əziz adamım odur, illərcə dəli dediyim Kamil! – Kamil sən də gəl!

Kamil başını buladı:

– Mən gələ bilmərəm! Onlar qağamı öldürdü, Orxanı öldürdü!  Onların qisasını almalıyam! Bu gecə onların ən sevincli günüdür, sevinclərini burunlarından gətirməliyəm!

Mən yalnız indi xatırladım ki, səs-küydə babam onu evlərinə

göndərmişdi, mən saqqalılar onun atasını, bacı və qardaşını avtobusla apadıqlarını görmüşdüm, amma anasını görməmişdim:

– Anan hanı?! Kamil qaqa bir xəbərin varmı?! – ilk dəfə idi ona qaqa deyirdim.

Əlinin üstü ilə burnunu ovuşdurdu, doluğsunaraq dedi:

– Anam ermənilərin səsini eşidib mənə yalvardı ki, bağa qaç. O elə bilirdi ki, ermənilər mənə nəsə etmək üçün gəlib, axı mən onları üzlərinə söyürdüm. Qonşu Aşot anamı baltaladı, sonra saqqalılar atamgili apardı. Aşot baltanı – əlindəki baltanı yellədi, – yerə qoyaraq evimizi girdi. Mən də baltanı götürüb arxasınca getdim, ən iri tikəsini qulağı boyda etdim! Sonra bağdan Aşotgilə adladım, bütün sülaləsini baltadan keçirdim. Sonra qağamı axtarmağa gəldim. Sənin kolda gizləndiyini görüb, sənə kömək etmək üçün gözlədim. İndisə sən get, mənim işim var!

– Öldürəcən?! – niyəsini bilmirəm, amma elə soruşdum.

– Yox, neçə illərdi etdiklərinin mənə düşən payını alacaqlar!

– Niyə belə oldu? – dəli dediyim adamdan soruşdum.

– Xatırındadırmı, Kərəm olmaq istəyirdin?!

Mən utanaraq etiraf etməyə məcbur oldum:

– Xatırımdadır!

– Kərəm ol!

– Necə?! – dediyindən bir şey başa düşmədim.

– Kərəm ol, qara keşişlərin yandırdığı kərəmlərin qisasını al, yoxsa… – onun səsi titrədi və susdu.

– Yoxsa nə?!

– Yoxsa bu bitən deyil! – o əli ilə başıma sığal çəkib pıçıldadı – İndisə get…

– Bəlkə mənimlə gələsən?! – qəhərdən boğazım dağılırdı.

– Azər… – o pıçıldadı.

– Hə. – dedim.

– Tək mən yox, bütün Ulusoy səninlədir, indi bizi tək sən yaşadacaqsan, hamımız səndə yaşayacaq! Get! – çönüb getdi, iki addım atmışdı ki, dayandı, çönmədən dedi: – Azər, evlən, çoxlu uşağın olsun, Qağamla Nazanın, sonrasa bax da bizim adımızı qoy uşaqlarına. Əgər buralara qayıtmaq nəsib olsa qoy bizim əvəzinə onlar yaşasın! Yaxşımı?!

– Buraları bir də görəcəyikmi ki?! – mən ağlayaraq soruşdum.

O mənə cavab verdi, amma bilmədim bu mənim verdiyim sualıma cavab idi, ya son arzusu:

– Bir uşağının adını mütləq Rövşən qoy! Ona Koroğlunu və dəlilərini danışarsan, bir də ermənilərdən danış! Bir də qızılbaş türkmənlərindən… Mütləq…! – sürətlə kəndə doğru qaçdı, baltasını yuxarıya doğru tutmuşdu… İtməkdə olan səsi gəlirdi, – Korolğu və dəlilərindən danış, erməniləri danış…

# KEÇMİŞLƏ GƏLƏCƏYİN QIRILMASI

*Mənə dəyməyən ilan min il yaşasın -*
***qədim TÜRK deyimlərindən***

Gülər arvad gözünü divardan asılmış şəkilə zilləmişdi. Şəkil davadan qayıtmayan əri Aşurun böyüdülmüş şəkili idi. Bu Aşurun davadan göndərdiyi son iki şəkildən biri idi, bu şəkilin əslində Aşur Aslanla birlikdə idi. Gülər arvad ərini davaya salanda gözəl, cavan bir gəlindi, o vaxtdan düz 46 il keçmişdi. Son olan hadisələr Gülər arvadın da qanına toxunmuşdu. O, rəhmətlik əri Aşurun divara vurulan şəkilinə baxdı, sonra durub ağır addımlarla şkafa yaxınlaşdı, şkafın bir gözünü açıb içindən bir qutu götürdü, geri dönüb yerində oturdu, əsən əlləri ilə qutunu açıb içindən rəngi saralmış bir neçə məktub və bir neçə şəkil çıxarıb masanın üstünə qoydu. Məktublar ərinin ona davadan yazdığı məktublar idi. Şəkillərdən biri ən köhnəsi idi, bu şəkil 1917-ci ildə çəkilmişdi. Şəkildə olanlar Aşurun atası və iki qardaşıydı: Aşur, Məmməd, Əli. Aşur qardaşların ən böyüyü, Əlisə ən kiçiydi. Aşur Gülərin əmisi idi, qazanc üçün Bakıya getmişdi, sonra ailəsini də Bakıya aparmışdı, 1918-ci il mart qırğınında qırılan müsəlmanlar içində Aşur və ailəsi də vardı. Məmməd bir oğlunun adına qardaşının ismini, yəni Aşur adını qoydu, Əlisə bir qızına qardaşı arvadının ismini, yəni Gülər adını qoydu. Qısacası Gülərlə Aşur əmi uşağı idi və ərinin adı 1918-ci ildə müsəlman qırğınında ölən əmisi Aşurun adı idi. İndi iki əmi uşağı 1918-ci ildə yarımçıq qalan taleni yenidən yaşamalı idi. Olacaq uşaqlarına 1918-ci ildə öldürülən əmisi uşaqlarının isimlərini qoyacaqdılar. Əmiuşağı Aşur və Gülər təzəcə evlənmişdi ki, dava başladı, dava başlayandan bir il sonra Aşur da davaya getdi. Aşur davaya gedəndə hələ uşağı olmamışdı, amma Gülər dörd aylıq hamilə idi. Ataları Məmmədlə Əli qərarlaşdırmışdı kı, əgər uşaq oğlan olsa rəhmətlik Aşurun böyük oğlu Heydərin adını, yox qız uşağı olsa Aşurun qızı Gülsümün adını qoysunlar. Aşuru ayda bir kərə ya gələn, ya gəlməyən məktublar əvəzləmişdi, amma hamı bu-

nunla da yetinirdi, təki məktubu gəlsin, bilsinlər ki sağdır. Aşur bir məktubunda öyə-öyə Aslandan danışdı və bildirdi ki, Yaşar özünün yaralanması bahasına onu ölümdən qurtarıb, əgər Yaşar olmasa idi, o indi bu məktubu yazmayacaqdı. Və yazırdı ki, şükürlər olsun ki, Yaşarın özünə də elə ağır bir şey olmayıb, Allah onu qoruyub. Beləcə Aşur hər məktubunda özü ilə bərabər Yaşar və qardaşlarından da yazmağa başladı. Gülərgil də hər məktubda Aşurla bərabər Yaşar və qardaşlarının da kefini soruşdular. Aşurgilin ailəsi gizlincə namazını qılan bir ailə idi, o məktubdan sonra Aşurla birlikdə, Yaşargilə də dualar oxumağa başladılar. Axı Aşur yazmışdı ki, Yaşargil yetimdi, kimsələri yoxdu. Aşur Yaşarın yetim olduğunu onu ölümdən qurtarandan sonra bilmişdi. Aşur soruşmuşdu ki, sən niyə məni qurtarmaq üçün özünü güdaza verirdin, sənin öz canında can deyilmi? Yaşar da cavabında bildirmişdi ki, eyni torpağın, eyni vətənin övladı deyilmiyik?! Sən də, mən də müsəlman deyilikmi?! Bir də ki səni gözləyən biri var, barı məktubda olsa belə «balam» sözünü yazacağın bir körpən olacaq. Demək ki, səni yaşatmaq lazımdı, Gülər bacım ağlamasın, mənə yetər, inşallah olacaq körpənin xəbərini eşidəsən, gözün arxada qalmasın! Məmməd kişi də Gülərə demişdi ki, yaz soruş ki, nə olub ki, Yaşargilin kimsəsi yoxdur. Aşur da üstü örtülü şəkildə yazmışdı ki, əmim ailəsinin başına gələnlər bunların bütün kəndinin başına gətirilib. Məmməd kişi bu xəbəri eşidəndən sonra bir həftə özünə gələ bilməmişdi, Gülər dünyaya bir oğlan uşağı gətirəndəsə Məmməd kişi qardaşı Əliyə demişdi:

– Qardaş mən bu uşağa o böyük ürək sahibi olan, Aşuru ölümdən qurtaran igidin adını qoymaq istəyirəm.

– Yaşarımı deyirsən?! – Əli qardaşından həyacanla soruşmuşdu.

Məmməd qardaşının etiraz edəcəyini düşünüb ona başa salmağa çalışmışdı:

– Bilirsən ki, Yaşar Aşuru ölümdən qurtarıb, öz ölümünü gözə alaraq! Və bilirsən ki, ya Yaşar, ya qardaşları ölsə kimsə onları xatırlamayacaq! – Məmməd kişinin ağladığını kimsə görməmişdi, indisə o bütün külfətin ortasında ağlayırdı. – Bizim bor-

cumuzdu bu körpəyə atasının xilaskarı Yaşar adını qoymaq. Biz nə olsa da, rəhmətlik Aşurun uşaqlarının adını sabah da olsa qoya bilərik!

Əli sevinclə qardaşı Məmmədi qucaqlayaraq demişdi:

– Qardaş inan ki, mənim də ağlımdan keçən bunlar idi. Sənə deməyə cürət etmirdim ki, xətrinə dəyər, axı sənin Heydəri necə sevdiyini biləndən sonra bunu səndən necə istəyə bilərdim. Yaşarın adını qoymaq bizim haqq borcumuzdur, müsəlman qardaşı kimi borcumuzdur!

Məmməd kişi hələ də ağlayaraq:

– Hə, müsəlman qardaşlığı bütün qardaşlıqlardan üstündür! – o körpəni qucağına alaraq fəxrlə bağırdı, – Adınla yaşa Yaşar balam!

Gülər məktublardan birini açaraq oxumağa başladı: – «… körpəyə Yaşar adını qoyduğunuzu oxuyanda sevincimin həddi-buludu yoxdu. Gülər Yaşarın hər üzünü görmüşəm, qəzəbli, kinli, davaya gedəndə tank kimi küylü olmasını. Amma ona bu xəbəri deyəndə üzündə qəribə bir sevinc gördüm, sanki sevinclə kədəri, umidlə həsrəti biri-birinə qatmışdın. «Demək mənim adaşım olacaq ha! O xoşbəxt yaşayacaq vətənində!» – deyib sevinmişdi. Yaşar mənim qardaşımdır. Yaşar demiş, biz vətən qardaşıyıq, silaş qardaşıyıq, ən əsası din qardaşıyıq! O mənim uşağımın əmisidir! Dualarınızı bizin üstündən əksik etməyin! ...» – Gülər səliqə ilə məktubu əvvəlki kimi qatladı, sonra bir şəkili götürüb baxdı. Şəkildəkilər Aşur, Yaşar və Yaşarın qardaşları idi. Onların üzündəki təbəssümdə yorğun olsa da, öləzimiş olsa da bir umid vardı sanki. Gülər arvad ilk dəfə hiss etdi ki bu şəkildə onlar biri-birinə necə də oxşayırmış, yorğun təbəssümləri ilə, baxışları ilə, biri-birini sarmalayan qolları ilə…

Yaşar otağa girdi və anası Gülər aravada yaxınlaşaraq soruşdu:

– Ana nə olub? Yenə nə yaman dolmısan?! Dur, yemək vaxtıdır! – ansının əlindəki şəkili görüb, – Bəsdir ana, keçmişlə özünü az üz!

– Keçmişləmi?! – Gülər arvad incik halda soruşdu, dodaqları əsdi.

– O olanların üstündən 50 ilə yaxın vaxt keçib, sənsə hələ də o vaxtlarda qalmısan, bəsdir! – Yaşar başını buladı.

– Yaşar bala, deyəsən sən adının səbəbini unutmusan?! Yaşar əmin düz dörd dəfə atanı ölümdən qurtarıb!

Yaşar hövsələsiz halda əlini yellədi:

– Bəsdir ana! Qurtarıb nə olub ki, atam sonunda yenə ölmədimi ki?! – biganə halda soruşdu.

– O sənin üçün, bizim üçün, Azərbaycan üçün özünü qurban edib! Bir Koroğlu kimi, göz görə-görə, bilə-bilə ölümə gedib! Sən ki, bununla fəxr edirdin və etməlisən! – Gülər arvad sevinclə dilləndi. – Yaşar əminin davadan sonra birbaşa səni görməyə gəldiyi yadındadırmı?! O davadan nə gətirmişdisə hamısını bizə verdi, – üzünə bir məyusluq qondu, – nə İllah etdiksə hər şeyini burada qoyub getdi İravana.

– Yeravana. – Yaşar onun sözünü düzəldərək əsəbi halda dilləndi.

– Yaşar, əmin ora İravan deyirdi bala, mən günaha bata bilmərəm, əminin gorunu çatlada bilmərəm bala! Babaların dedi ki, qal, daha hara gedirsən, bizik sənin ailən! Dedi ki, məni bağışlayın, amma öz ata yurduma getməliyəm, qardaşımın vəsiyyətidir, onların yerinə ata yurdumu şenləndirməliyəm! O tez-tez bizə məktub yazırdı, sonra bir də yazdı ki, bizi yurdlarımızdan köçürürlər və sonra məktublarının arxası kəsildi. – Gülər arvad həzin-həzin ağlayırdı.

– Of ana, mən bunları bilirəm, bunları mənə niyə sadalayırsan ki?! Sadəcə deyirəm ki, bəsdir, keçmişi az qurdala! O keçmiş atamla, Yaşarla öldü. – bütün qətiyyəti ilə dedi, – Başa düş o dövran qurtardı!

– Bala sənin keçmiş dediyin mənim, babalarının, atanın yaşadığı ömürdü, heç utanmırsanmı?! Mən atanın üstünə kimsənə atalıq gətirdim? Kimsəni! Səni alını açıq böyütmüşəm bala, tək təsəllim atanın şərəfi, atanın xatirələri olub! Sənin keçmiş dediyini insan unutsa dünyanın ən murdar, ən biabırçı, ən əxlaqsız heyvanına çevrilər! Sən adını daşıdığın insanı belə bu gün hörmətlə anmaq istəmirsən, osa sənin atan üçün gözünü qırpmadan özünü

ölümə atıb. Allah bunu götürməz, bala!

– Bəsdir Allahı hər işə qatdın! – Aslan anasının üstünə bağırdı.

– Bala bu nə danışıqdır?! İndi də Allahamı xor baxırsan, Allah adamı zəlil edər!

– Bəsdi ana! Dünya ateizimi qəbul edib, sənsə xurafatından əl çəkmirsən!

Gülər arvadın əli üzündə qaldı:

– Yaşar sən nə danışırsan?! Oxuduğun Quran sənə qənim olmazmı?! Babanın sənə öyrətdiyi namaz belini qırmazmı?!

– Ana sənin Quranın, sənin namazın mənə pul verib, vəzifə verib, ya nə verib?! Amma Sovet ateizimi, komminist partiyası mənə iş də verib, pul da. Sənin kafir dediyin ermənilər mənə bəri başdan dəstə-dəstə pullar verir!

– Yaşar sən nə danışırsan?! Nə ermənisi?! Nə pulu?! Sənin ermənilərlə nə işin var ki?! Nə üçün pul almısan?! Ermənilər bizi qırıb! Sən ermənilərlə əlbirliyindən utanmırsanmı?!

– Ermənilər bizi yox, azərbaycanlıları qırıb! Mənə dəyməyən ilan min il yaşasın! – deyib güldü.

– Kül başına! İlanın ağına da lənət, qarasına da! – Gülər arvad ilk dəfə idi oğluna qarqış edirdi. – Səni yerə soxum! – yenə də ürəyi durmayıb həyacanla soruşdu, – Sənə nə olub Yaşar?!

– Mən həqiqəti danışıram!

– Bala hansı həqiqəti danışırsan? Biz nə vaxtdan sənin, mənim salmışıq, biz nə vaxtdan Azərbaycandan kənar olmuşuq! Biz müsəlmanıq bala! Sovet gələnəcən nə türklərin, nə ləzginin bir ədavəti olmayıb bala, biri-birimizi millət adı ilə çağırmamışıq bala! – Gülər arvad yanıqlı halda deyirdi. – Bizim tək adımız vardı, müsəlman! Nikalay vaxtında, Şaumyan vaxtında ermənilər rusun köməkliyi ilə bütün müsəlmanları qırıb bala, nə tez unutdun?! Kim bilməsə də sən ki bilir…

Yaşar anasının sözünü ağzında qoyaraq bağırdı:

– Bunlar hamısı cəfəngiyatdır, qurmadır! Biz daha əsarət altında olmayacayıq! Ermənilər, ruslar bizi yox, azərbaycanlıları qırıb!

– Tufu… – Gülər oğlunun üzünə tüpürdü, – namussuz, xain! Kim bilməsə də, sən babandan eşitdiklərini nə tez unutmusan?!

Babanmı cəfəngiyat danışırdı?! Başqalarını sadalamıram, atanın adı qoyulan Aşur babanı ailəsiylə bir yerdə ermənilər qırmayıbmı?! Sənin gözünü pul alıb bala, keçmişini, müsəlman qardaşlarını, adını daşıdığın milləti ermənıyə, rusa, onların haram puluna satma bala! İnan zəlil olarsan! Haramın axırı yoxdu bala! Görmürsənmi ki, ermənilər Qarabağı bizdən almaq istəyir!

– Bizdən yox, azərbaycanlılardan!

Gülər arvad sanki birdən ayıldı:

– Hə indi mənə çatır, ruslar-ermənilər Qarabağı almaq üçün bunu edir! Xalqımı, dinimi, Azərbaycanımı, – ağız dolusu dedi, – parçalamaq üçün bu oyunu ortaya atıb! Sən də pula aldanıb Azərbaycanımızı kiçik parçalaramı bölmək istəyirsən? Yaşar səni kimi oğulu doğmaz olaydım! Sənin yerinə qara daş doğaydım! Allah belini qırsın!

Yaşar əlini yelləyərək otaqdan çıxdı. Gülər arvad ağlaya-ağlaya əri Aşurun şəklinə baxaraq dedi:

– Ay Aşur bu ermənilər yenə qudurub, yenə müsəlmanları qanına qəltan etməyə başlayır. Yaman qorxuram, bizim başımıza yenə oyun açacaqlarından qorxuram. – Gülər arvad ehtiyatla tez əlavə etdi, – Özümdən qorxmuram ay kişi, uşaqlara görə, millətə görə narahatam. Bu ermənilərin əməlindən o vaxtkı kimi qan iyi gəlir. Ay kişi ruslar, ermənilər yaman oyun oynayır, Yaşarımızı belə satın alıblar! Gör indi yalançı rus tarixini oxuyan xalqı nə hala salıblar?! Bu rus yenə Azərbaycanı parçalamaq isəyir. Xatırımdadır, atamgil danışardı ki, o vaxt ruslar Azərbaycanı parçalamaq üçün Muğanda qondarma «Rus Muğan Respublikası» yaratmışdılar, Azərbaycan milli ordusu 1919-cu ildə bu qondarma dövləti süqut etmirmişdi. İndi ruslar bizi bu oyuna maşa etmək istəyir! – o göz yaşını silərək pıçıldadı: – Görən orada dostun Yaşarın üzünə baxa bilirsənmi?!... – 1989-cu il təzə başlayırdı.

Bəli, «yenidənqurma» mexanizimi 70 il sonra hər şeyə yenidən başladırdı. 1918-ci ildə qurulan Bakı Sovetini Azərbaycanda möhkəmləndirə bilməyən Moskva, Çar Rusiyası zamanı Muğana köçürülən ruslar vasitəsiylə «Muğan Sovet Respublikası» quraraq Azərbaycanın daxili gücünü parçalamaq istəmişdi, lakin bu

qondarma dövlət 1919-cu ildə milli ordumuz tərəfindən iflasa uğradılmışdı. 70– il sonra Azərbaycanda etibarını və hakimiyyət riçaqlarını itirən Moskva yenə eyni senariylə Azərbaycanın daxil gücünü parçalamaq istəyəcəkdi, lakin bu dəfə bu ərazilərdə ruslar azlıq olduğundan ləzgilərdən və talışlardan istifadə etməyə çalışacaqdı, lakin bu dəfədə türklərlə qədər ortağı olan, din qardaşı olan ləzgilər, talışlar bütün azərbaycanlılar kimi Azərbaycanın müdafiəsinə qalxacaqdı, bəzi satılmaşları çıxmaq şərti ilə…

Yaşar anasının qarğışlarına məhəl qoymadan, vicdanı belə sızlamadan öz otağına keçdi, masasının arxasında oturdu, açarla süyürməni açıb, dəstə-dəstə pulları masanın üstünə yığdı və düşündü:

– Bax allah budur! – O pul dəstələrini əllərinin arasına aldı. – Əsl həqiqət budur! İslammış, Quranmış bunlar hamısı keçmişdə insanları idarə etmək üçün uydurulmuş şeylərdi. Erməni mənim babamı öldürüb, mənə nə, doğrudur yalandır, mənə nə! Doğru olan budur ki, kəndi alacaq qədər pulum var! Babalarım, – Aşur, Məmməd, Əlini nəzərdə tuturdu, – müsəlmanmış, nəymiş, mənə nə? Mən onları yox, öz oğullarımı düşünməliyəm! Babalarının adını daşıyan öz oğullarımı, – Aşuru, Məmmədi, Əlini düşünməliyəm. Onlar deyəni etsəm, sabah biz ayrı dövlət olduqda oğullarıma da yaxşı vəzifələr verəcəklər, mənə də bu lazımdır! Yoxsa İslam qardaşlığından mənə nə?! Biz ayrıca dövlət olacayıq, xalqım azad yaşayacaq, oğularım-Aşur, Məmməd, Əli bu dövlətdə böyük vəzifələrdə işləyəcək, bax onda babaları Aşur, Məmməd, Əli, atam Aşur məni bağışlayacaq… – o biri otaqdan anasının qarğışını eşidib əlavə etdi, – Onda anam da məni bağışlayacaq! Bax o vaxt anam da mənasız keçmişdən əl çəkib yeni günləri yaşayacaq, mənimlə, mənim kimiləri ilə birlikdə!

# ƏLVİDA ULUSOY

*Qala tikdim izim qalsın,*
*Tikmədim erməniyə qalsın…*

*Qəribi vurmuşlar «vay Vətən» demiş*
***– Azərbaycan atalar sözü.***

Kamil qaranlığın içində yoxa çıxdı. Burada dayanmaq təhlükəli idi, hər an erməni əlinə düşə bilərdim. Son kəs qaranlıqda ulduz kimi işıldayan Ulusoy işıqlarına baxdım və arxamı çevirib üzü dağa doğru qaçmağa başladım. Əvvəllər qaranlıqdan qorxardım, axşamlar babam su istəyəndə, su üçün dal otağa keçməyə qorxardım. İndisə erməni qorxusu elə canıma işləmişdi ki, çölün düzündə idim, qaranlıqdı, göz-gözü görmürdü, bizimkilər tərəfə gedib sağ-salamat çıxacağım belə məlum deyildi, amma ermənilərin əlindən qurtulmaq üçün bütün təhlükələr indi mənə nə qədərdə əhəmiyyətsiz görünürdü.

Bizimkilər tərəfə keçmək üçün bütün gücümü-iradəmi toplayaraq qaçırdım və düşünürdüm:

– Ermənilərin bu vəhşilikləri yerdə qalmayacaq! Ulusoyun başına gələnləri bizimkilər bildikdə Babək kimi, Koroğlu kimi qolunu çırmayıb ermənilərin payını verəcək! – Düşündükcə daha da hikkələnirdim, – Əclaflar! Sizin işiniz bitdi ermənilər! Demək ana-bacılarımıza sataşdınız, uşaqları-körpələri öldürdünüz! Çox böyük səhv etdiniz! – Azərbaycanlıların namus məsələsində çox ciddi olduğunu deyirdilər, bunu xatırlayıb, – Erməni köpəkləri Azərbaycan xalqının ana-bacılarına sataşdığınıza görə sizləri ölüm gözləyir, – dediklərimdən ruhlanaraq dişlərimi biri-birinə sıxdım. – Sizlər Babəki, Koroğlunu tanımırsınız deyəsən! Amma o oğullar bu xalqın oğullarıdır, vay halınıza! Bizim kəndimizə qan tökdünüz, Novruzumuzu qara gətirdiniz, – Novruz bayramı heç belə doğma gəlməmişdi mənə, – Xalqımız bunun haqq-hesabını çürüdəcək! Hamısını danışacam! – Elə düşünürdüm ki, kimsənin olanlardan xəbəri yoxdur, mən olanları deyəcəm və bizimkilər

o dəqiqə ermənilərin ağız-burnunu dağıdacaq! Dərsliklərimizdə almanlara qarşı mübarizə aparan uşaqların obrazını xatırladım: – Ermənilər nə etdiyini mən görmüşəm, hamısın deyəcəm! Onda nə edəcəksiniz ay yazıqlar?! – erməniləri yazıq halına salacağımıza elə inanmışdım ki, – Ulusoyun intiqamını almaq üçün bütün Azərbaycan üstünüzə töküləcək! – Özünü qumbara ilə birlikdə alman tankının altına atan İsrafil Məmmədovu xatırladım. – Axmaq ermənilər bizim bir oğlumuz bir tankı darmadağın edir, nəyinizə güvənib belə etdiniz! – Elə düşünmüşdüm ki, hər şey bizimkilər tərəfə keçib, olanları danışmağımdan asılıdır.

Tənginəfəs olmuşdum, amma ermənilərdən intiqamımızın tez alınması üçün dayanmadan qaçırdım, nə qədər tez çatsam, bizimkilər bir o qədər tez intiqam almaq üçün gələcəklərini düşünürdüm: – Qana bulanmış səmənilərı öz əlimlə yedizdirəcəm sizlərə. – Dediyimdən özüm cuşa gəldim, – Onda biləcəksiniz ki, Azərbaycan xalqının Novruz bayramına sataşmaq nə deməkdir! O zaman çox peşman olacaqsınız, amma «son peşmançılıq fayda verməz» – dediyim atalar misalından özümün xoşum gəldi. Amma sonralar biləcəkdim ki, Novruz bayramı tək Azərbaycan xalqının yox, bütün türk millətlərinin bayramıdır, bununla belə Novruz bayramında ölən türklərin-müsəlmanların intiqamını almağı qoyun bir yana, sözlə barı olsa «bu xalqın intiqamı alınmalıdır, həm də mütləq mənada, yəni qana-qan, cana-can» deməyə belə hünərləri çatmadı. Sən demə bizimkilər hümanist, mədəni, insansevər kəslərmiş, bəs bizim qətliam edilmiş insanlarımızı kim sevməlidir?! Allah bəlasını versin! Kiminmi? Allah özü bilir! Kamil demiş, mən Allahın işinə qarışmıram!

Dağda qar vardı. Dağ havasının nə qədər soyuq olduğun indi bildim. Soyuq ayağımdan başlayıb başımacan dırmanmışdı. Ayağım o qədər donmuşdu ki, artıq ayaqlarımı hiss etmirdim. Soyuq iynə kimi burnuma, qulağıma sancılırdı. Qarda addımlamaq olduqca çətin idi, yıxılmamaq üçün tez-tez əlimdən istifadə etməli olurdum, nəticədə qara batan əllərimi don vurduğundan sızıldamağa başladı. Amma dayanmaq olmazdı. Sonunda dağı aşdım, yıxıla-yıxıla, sürünə-sürünə, bəzəndə kəllə-mayallaq fırlanraq dağı enməyə çalışdım. Yaxınlıqdan qurd ulaması eşitdim. Niyə-

sini bilmirəm, amma qurdların ulamasından qorxmadım. Mərdan babamın «qurdlar türklər üçün uğur rəmzidir» deməsini xatırladım, sözün düzü qurd ulaması eşitdiyimə sevindim. Bu sevinclə də dağı enməyə başladım, bir də onda hiss etdim ki, on-onbeş metrliyimdə 7 çüt göz alışıb-yanır. Alışıb-yanan gözlərə baxdım, heç bir qorxu hissi keçirmədən yoluma davam etdim və arada da o alışıb-yanan gözlərə baxırdım. Qurdlarda sanki məni yola salırmış kimi səssiz-səmirsiz məni izləyirdi. Sonralar bu hadisəni xatırlayıb, soyuq başla o günü olanları düşündükdə içimdəki o mifik duyğular hətta mənə belə qəribə gəlirdi. Necə olmuşdu mən o anda qurdları özümə elə əziz-doğma bilmişdim və niyə qurdlar mənə bir şey etməmişdir. Bəzən özümə belə bir sual verirəm:

– Görən indi özümü qurdların ortasına ata bilərəmmi, o günkü kimi o qurdlara ürəkdən inana bilərəmmi? – Bir də bu sualı özümə verirəm, – Görən o başıma gələn bir təsadüfdümü, yoxsa…?

Dayanmadan dağ aşağı yüyürürdüm, bayaqdan məni dövrələyərək izləyən qurdlardan biri mənim qabağıma çıxdı, mən gülümsəyərək onun yanından keçmək istədikdə, o bir addım geri sıcrayaraq qabağımda dayandı və mırıldandı. Bir anlıq tərəddüt etdim, amma ağlıma gələn fikir indi mənim üçün çox gülməli və çox möcüzəli gəlir. Ağlıma gələn fikir qurdun məni ovlamaq istəməsi deyildi. Düşündüm ki, qurd mənə nəsə demək istəyir. Ehtiyatla qurdun yanına yaxınlaşdım, diqqətlə qabağıma baxdım, iki metr sonra torpaq bitirdi, uçurumdu və mən dayanıb minətdarlıqla qurda gülümsədim. Qurd diqqətlə gözümə baxdı, başını ayağıma sürtdü, sonra başını göyə qaldırıb uladı, digər qurdlar da ona qoşuldu. Qurd sağa burularaq getməyə başladı. Ağlıma belə bir fikir gəldi ki, qurd mənə yol göstərir. Bu düşüncə ilə də qurdu izlədim. Ayaqlarım artıq getmirdi, amma bu soyuqda qala da bilməzdim, qurdlardan qorxum yoxdu, amma soyuqdan qorxurdum. Bu şəkildə neçə saat getdiyimizi bilmirəm, birdə onu gördüm ki, həmin qurd dayandı, mən də dayandım və başımı qaldırıb ətrafıma baxdım, qabaqda kəndin lampaları işıldayırdı. Demək yolun bundan sonrasını tək getməli idim. Mən bir neçə addım atıb dayandım, çönüb qurdara baxdım və sizlərə gülməli gəlsədə belə dedim:

– Çox sağ olun! Tanrı yar olsun!

Qurdlar başını qaldırıb aramsız uladı, mənə elə gəldi ki, onlar mənimlə vidalaşır. Və kəndə doğru addımlamağa başladım. Artıq bir ayağım işləmirdi, bir ayağımı sürüyərək kəndə doğru gedirdim. Ayağım büdrədi, yumarlanıb yerə yıxıldım, gördüyüm sal daşa tərəf sürünüb dikəldim, kürəyimi söykəyib nəfəsimi dərdim. Səs gəlirdi, amma beynimdəki küydən onların kim olduğu kəsdirə bilmədim. İlk ağlıma gələn babamın verdiyi çanta oldu, tez çantanı daşın altındakı boşluğa dürtdüm. Və bağırdım:

– Kömək edin! – ayağa qalxıb səs gələn tərəfə bir neçə addım atdım və bağırdım: – Ehey, kömək edin. – mənə tərəf ehtiyatla bir neçə qaraltı gəlirdi. Mənimsə onların yaxınlaşmasını gözləməyə gücüm yoxdu, gözüm qaraldı…

Gözümü açdıqda xəstəxanada idim. Bir ayağımı don vurduğundan kəsmişdilər. Mənə kömək edənlərin əsgər olduğunu düşünürdüm, haradan ağlıma belə gəldiyini heç özüm də bilmirəm, əslindəsə onlar ov tüfəngi ilə sılahlanmış kəndlilər idi. Ulusoyun başına gələn əhvalatları danışdıqda bəziləri göz yaşını tuta bilmədi, amma hökümət orqanlarının işçiləri məslənin o qədər də vahiməli olmadığını, mənimsə şoka düşdüyümdən olanları düzgün təhlil etmədiyimi, reallıqla xəyalımda canlandırdığım qorxuları qarışdırdığımı dedilər. Mən burada gördüklərimə məhəttəl qaldım, mənə qalan deyəsən elə bu idi. Ulusoy, ulusoylular kimsəni bir o qədər də maraqlandırmırdı. İnandırıram sizi ki, hər hansı kədərli bir filmə baxdıqda belə daha çox ağlayırlar. Ulusoy faciəsini eşidən azərbaycan kəndliləri ah-vah etdi, çünki sıradakı onlardı. Həkimlər və şəfqət baçıları mənə qayğı ilə yanaşmağa çalışdılar. Milis orqanları həkimlərdən mənim pozulmuş əsəbimi müalicə etməsini tələb etdilər, guya ki mənə can yandırırdılar. Bəs Ulusoya, ulusoylulara nə olsun?! Ən vətənpərvər duyğuya sahib olanlar deyəsən göz döyənlərdi, bu halda geri qalanlar nə idi təsəvvür belə edə bilmirdim…

Xəstəxanada kəsilmiş ayağıma görə və hökümət adamlarının şəstlə və əminlikdə dediyinə görə pozulmuş əsəblərimə görə müalicə olundum…

Ətrafımda məni kimiləri çoxdu, sayı günbəgün artırdı, hö-

kümətsə hələ də bizlərin hadisələri düzgün qiymətləndirmədiyini, hadisələri şişirdərək danışdığımızı, vəziyyəti lazımınca anlaya bilmədiyimizi söyləyirdi.

Bir dəfəsində xəstəxanaya eyniylə məni kimi ayaqlarını don vurmuş birini gətirdilər, gənc qızdı. 16-17 yaşı ancaq olaradı. Yaxşı ki onun ayaqlarını tam müalicə edə bildilər. Onunla tanışlığım belə baş vermişdi...

Həkim o qıza baxıb soruşdu:

– Adın nədir ay qızım?!

Qız udqundu, gözündən yaşları salxım-salxım töküldü, özü öz əlini çimdikləyirdi, hıçqıraraq pıçıldadı:

– Azərin!

– Necə başa düşmədim, A-zər-in?!

– Hə mənim adım Azərindir!

Yanında dayanan arvad duruxdu, nəsə demək istəyirdi ki, gözləri qızın gözlərinə sataşdı, qızın gözündəki burulğana qapılıb susdu. Bunu görüb arxayınlaşan qız əminliklə dedi:

– Adım Azərindir, yaz!

Həkim dəftərinə onun adını qeyd etdi. O gündən hamı onu Azərin çağırdı, ona verilən təzə sənəddə də adı Azərin kimi yazıldı. Amma çox sonralar bildim ki, onun əsl adı Azərin deyilmiş. Bu haqda o mənə belə danışmışdı:

– Azər – mənə səslənmişdi, – kəndimizdəki adım Azərin deyil! – dodaqları əsdi, niyəsə ağlamamaq üçün özünü boğdu, amma bacarmadı, gözündən salxım-salxım yaş tökülməyə başladı.

Mən də onunla bir yerdə ağlayaraq soruşdum:

– Bacı bəs sənin kəndinizdəki adın nə idi?!

– Əgər o kəndi bir daha görməsən, orada çağrıldığım adı deyə bilmərəm! – o özü öz əlini çimdikləyirdi.

– Mənədəmi bacı?

– Buna haqqım yoxdur! Heç sənin də bunu soruşmağa cürətin çatmamalıdır! – O əlini çimdikləyərək ağlayırdı.

İlk tanışlıqdan biz biri birimizə isinişmişdik, o şəkillərdən tanıdığım anama bənzəyirdi. Onun dediyinə görə, mən də onun 5 yaşlı qardaşı Azərin 12 yaşında olacaq forması idim. Azərin

biləndə ki mənim adım Azərdir, necə sevinmişdi. Onu başa düşürəm, o itirdiyi bütün ailəsinin ətrini kimdəsə axtarırdı, elə məni kimi, əziz qardaşı Azəri guya varmış kimi, hələ də yaşayırmış kimi hesab etməyə çalışırdı. Bu başımıza gələn böyük faciələrin tək təsəllisi idi, gördüklərimizi kimlərəsə oxşatmaq, ailəmizdəki fərdlərin adını eşidərək ovunmaq…

Amma mən onu şəkillərdə gördüyüm anama ovunmaq üçün oxşatmırdım, o gərcəkdən anama oxşayırdı. O mənim adımı biləndə duruxdu, deyəsən bu xəbərə sevinməli ya kədərlənməli olduğunu düşündü və seçdi. O sevinclə məni qucaqladı və pıçıldadı:

– Qardaşım! Sən Azərə çox oxşayırsan! – hıçqırdı, – Mənim qardaşım olarsanmı?! – bəli o mənim adımı eşidər-eşitməz dediyi ilk cümlə belə olmuşdu.

Mən tək bir kəlmə deyə bildim:

– Bacım!

O gündən biz bir yerdə yaşadıq. Hamı bizi taleyin birləşdirdiyini söyləyirdi. Və hər dəfəsində də Azərin belə deyirdi:

– Bizi tale birləşdirməyib! Bizi ermənilərdən qaçdığımız qarlı yollar birləşdirib!

Ulusoydan, ulusoylulardan geriyə bir tək mən qalmışdım və bizim “ulusoydan” geri qalan bəzi dövlət nümayəndələrinin yazdığı bir neçə arayış olacaqdı…

Dəli Kamil sankı öz xasiyyətini mənə vermişdi, kimi görürdümsə, – “ermənilər pisdir, quldurdur, qatildir…” – deyirdim, amma hiss edirdim ki, bütün erməniləri bir bezin qırağı hesab etməyim əksəriyyətin xoşuna gəlmirdi, məzəmətlə mənə baxırdılar, ermənilər Mərdan babamın Nazanını öldürdülər, susdular, danışanları məzəmət etdilər, sonra ermənilər Mərdan babanın nəvəsi Nazanı öldürdülər, yenə məzəmət edirlər, daha necə “ulusoy” dağıdılmalıdır, neçə nazanlar ölməlidir ki, ayılaq? Az qala Kamil kimi dəli olam…

Ulusoydan mənə ulu soyum qədər dağ qaldı…

Deyəsən mənə tək bir söz demək qalır:

– ƏLVİDA ULUSOY…

***DAVAMI VAR…***

Dizayner və səhifələyici: Tünzalə Tağıyeva

Çapa imzalanmışdır: 04.09.2021
Kağız formatı: 60x84 1/16
Həcmi: 22 ç.v; Sifariş: 45; Sayı: 200
«Gənclik» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.